**Əjdər OL**

# LO

**(canlı roman)**

"LO" romanı uydurma deyil, canlıdır, gerçəkdir. Əsər son iki yüz ildə xalqımızın ən böyük hadisələrinin baş verdiyi 1988-1993-cü illəri əhatə edir. Bir-birini izləyən olaylarda öz adı ilə iştirak edən qəhrəmanlar milli azadlıq hərəkatının, dövlət müstəqilliyinin, Qarabağ müharibəsinin fəal iştirakçılarıdır. Onları həyatda da tanıyırıq. Hadisələrin şahidi olan müəllif insanların taleyini dəyişən, evlərimizin içərisinə qədər gəlib çıxan qanlı-qadalı hadisələri geniş panoramda təsvir edir. İlk səhifədən oxucu romanın "əhalisi" nə qaynayıb-qarışır. "LO" hər kəsin romanıdır.

*Kitabın üz qabığındakı şəkil xalq rəssamı*
*Sakit Məmmədovundur*

**Əjdər OL LO (canlı roman) (2-ci nəşri)**
Bakı, Qanun nəşriyyatı, 2020, 528 səh.

Redaktorlar: Əsəd Cahangir
Mahir N.Qarayev
Azad Yaşar
İlham Abbasov
Şərif Ağayar
Fərid Hüseyn

Korrektor: Zahir Məmmədli
Mətn dizaynı: Günay Seyidova
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-705-8

© Əjdər Ol, 2020
© QANUN nəşriyyatı, 2020

Hövsələm daralmışdı. Düşüncələrimdə dolaşıqlıq vardı. Ürəyim az qalırdı qopub yerindən çıxsın. Bayaqdan əlimdəki iki kəlməlik teleqramı irəli-geri neçə dəfə oxumuşdum. Ayrı vaxt tamam başqa, doxsan doqquz faiz xoş ovqat yaradan bu sözlər indi boğazıma ilişib qalmışdı. Bilirdim ki, qardaşımın Qazaxıstandan göndərdiyi teleqramdakı "Gəl görüşək!" çağırışı taraz söhbətə oxşamır, qəribçilikdən, nisgildən-zaddan doğan umsuq deyil. Qardaş mənimdi, içinə-çölünə yaxşı bələd idim, su xirtdəyinə çıxmayınca özünü dartıb duracaqdı. Tərs oğlu tərs, canını dişinə tutub dırnaqları ilə cırmaqlaya-cırmaqlaya quyunun dibindən çıxardı, amma kimsəni köməyə çağırmazdı. O qədər hoqqalarını görmüşdüm ki... Qardaşımın elə uşaqlıqdan kişilik haqda öz yasaları vardı. Hər "xox" gələnin qarşısında şalvarını batıranlardan deyildi. Dünənki məktub nə idi, bugünkü teleqram nə? Məktubla teleqramın ayrı-ayrı ünvanlardan yazılması da şübhə doğururdu. Məktub Balxaş şəhərindən gəlmişdi, özü də çox arxayın yazılmışdı.

Hər şey yalnız və yalnız "yaxşı" idi. Bu "yaxşı"nı "əla" kimi də başa düşmək olardı, çünki qardaşım həmişə "əla" əvəzinə də "yaxşı" kəlməsini işlədirdi. Elə-belə məni uzaq yola vurmazdı.

Həyəcan iki ay qabaq başlamışdı. Çernobıl Atom Elektrik stansiyasında partlayış baş vermişdi və işin tərsliyindən, qardaşım da bu lənətlənmiş şəhərdə hərbi xidmətdə idi. Bütün dünya Çernobıl-

dan danışırdı. Təcrübəsizlikdən çoxları kimi mən də ilk günlərdə partlayışın nə boyda faciə törətdiyini, törədəcəyini axıra qədər anlamırdım. Elə bilirdim, təhlükə üç-dörd günə sovuşub gedəcək. Hətta Xirosima, Naqasaki barədə eşitdiklərimiz, oxuduqlarımız, gördüklərimiz təhlükənin miqyasını və dəhşətini anlamağa bəs eləmirdi. Günlər keçdikcə Çernobıl şüası kimi yayılan yeni-yeni xəbərlərlə qulağımız dolurdu.

Həmin günlərdə atam, anam, ailəlikcə hamımız biri-birimizə dəymişdik. Çernobılla heç cür əlaqə qura bilmirdim. Ümid qalırdı ancaq qardaşımın insafına. Gərək nigaran qalmış bir qoşun qohum-qardaşı düşünəydi, özü qımıldanaydı. Yəni bir məktub da yazıb göndərə bilmirdi?

Atam mənimlə bir neçə dəfə telefonla danışsa da, səbri çatmamışdı, şəhərimizdən durub dikəlmişdi Bakıya sarı. Biz görüşəndə birinci dediyi bu oldu:

– Bədbəxtin balası, ayağını hara qoyursa, bir qal qaldırır.

Bilirdim, atam nəyə eyham vurur. Qardaşım doğulandan sonra anam zahılıqdan pozulub yatağa düşmüşdü, uzun müddət xəstə yatmışdı, neçə xəstəxana dəyişmişdi, heç özünü cəmləyə bilmirdi. Beşcə yaş böyük olsam da, neçə il dəcələ əməlli-başlı analıq etmişdim. Anamın buyruğu, atamın köməyi ilə onu yedirtmişdim, yatırtmışdım, yanını, əskilərini yumuşdum, oynatmışdım, kürəyimdə, boynumda gəzdirmişdim, başını qatmışdım, sonralar məktəbə aparmışdım, dərslərini hazırlamağa kömək etmişdim. Bəlkə də, elə buna görəydi ki, atamdan da, anamdan da daha çox mənə bağlı idi. Öldürsəydilər də, sirrini başqa heç kəsə açmazdı. Ürəyinə dammışdı – nədi, əsgərliyə gedəndə söz vermişdi ki, bərkə düşsəm, doğrusunu təkcə sənə bildirəcəyəm.

Atam qardaşıma atasının adını qoymuşdu: Qarakişi (*Bəri başdan deyim ki, romanda istər sıravi adam olsun, istər tanınmış, fərqi yoxdur, hər kəs öz adı ilə iştirak edəcək. Hərdən qələm təxəyyülə uyub cızıqdan çıxır deyə kiçik çevrələrdə gəzib-dolaşan bəzi adamların adından ola bilsin, iki-üç hərfi dəyişdim. Axı onlar kağız üzərində tam özləri deyil, bir az yazıçı qələminin sığalını görüblər. Hadisələr*

*uydurma olmadığı üçün adamların da adı əslindən uzaqlaşmamalıdır. Söhbətlərdə "Adını çəkmək istəmirəm, bir nəfər vardı..." prinsipini qətiyyən qəbul etmirəm. Bir də düzü, ayamalarla işim yoxdur, qabaqlar da heç kəsi yazıma başqa adla gətirməmişəm. Çünki hər bir şəxsin ədəbi qəhrəman olmaq şansı var, o fürsəti niyə korlayaq ki? Bu əsərdəki adamların, vaxt gələcək, heç biri həyatda olmayacaq, bax, o zaman onların əbədi ruhlarının narahat olacağı məni qorxudur*). Ancaq bu ad uşaq adı olmadığına görə hamı onu "Qara" deyə çağırırdı. Onun kişi olmağına hələ çox vardı. Atam, anasını doğulanda itirmişdi, altıaylıq olanda isə atasını qan düşmənçiliyi üstündə öldürmüşdülər. Düzdür, atamın hikkəli nənəsi Məşədi Zeynəb oğlunun qırxı çıxmamış pul basıb tək balasının qatilini türmədə aradan götürtdürmüşdü, qanını almışdı, ancaq ölənəcən ürəyi soyumadı. Özü demişkən, bəxtəvər vaxtlarında varlı-karlı atası əziz-bircə qızını dəvə belində Məşhədə aparanda ağlına gəlməzdi ki, qabaqda onu qara günlər gözləyir. Hökumət dəyişir, ata, ər, gəlin, oğul ölür, o, nəvəsinə babalıq, nənəlik, atalıq, analıq eləyir. Məşədi Zeynəb nənəmin surəti apaydın gözümün qabağındadır. Çopur arvad idi. Xırda dənələri olan uzun təsbehi vardı. Tənbəki eşib çubuq çəkərdi. Çubuğu damağından düşməzdi, başının üstündən tüstü seyrəlməzdi. Ata tərəfdən yeddinci babama qədər ulularımızın hamısının adını bir-bir sadalardı və onların törəmələrini dəyişik salmazdı. Döşəkçənin üstündə oturub bir ayağını uzadanda ondan daha çox xoşum gəlirdi. Ayağa durub beli bükülü gəzəndə isə pərt olardım. Çünki bilirdim ki, oğlu öldürüləndə beli sınıb, o vaxtdan qəddini dikəldə bilmir. Qan düşmənlərimizi tanıdığımdan onlara qarşı içimdə kin bağlayırdım. Qoca nənəm elə bil bunu duyduğundan hərdən deyirdi: Dəlilərlə (*qan düşmənlərimizlə*) qurtarmışıq. Nə onların bizə, nə də bizim onlara qan borcumuz qalıb. Bizə yaxın düşə bilməzlər, siz də qırılmışlardan gen gəzin. Bu "siz"in içində mən də vardım, balaca qardaşım da. Qardaşım üç yaşında olanda Məşədi Zeynəb nənəm böyüklərimizin yanında deyərmiş, Qara babasıdır ki, var. Onun kimi kür olacaq. Arvadın ağzı fal imiş, Qara, doğrudan da, ipə-sapa yatmazdı.

Məktubundan sonra sakitləşmişdik. Yazırdı ki, Çernobıldа yeraltı hərbi bazada işlədiyim üçün az şüa almışam, qorxmayın. Ancaq on beş gündən artıq şüalanma zonasında qalmağa icazə verilmədiyindən məni Qazaxıstana atıblar. Hərbi hissəmiz Balxaş gölünün ətrafındadır. İndi buraların yaxşı vaxtıdır. Bir azdan göldə çiməcəyik.

Atam evimizə qayıdandan dörd-beş saat sonra teleqram almışdım. Əvvəl istədim təcili atama xəbər verim. Sonra fikrimdən vaz keçdim. Axı, bilirdim ki, qardaşım sirrinin, hətta atam olsa belə, başqasına açılmasını istəmir. Və onu da bilirdim ki, Allah məni sirr saxlamaq üçün yaradıb.

Bilet alıb təyyarəyə minəndən sonra ağlım başıma gəldi, bədənimi soyuq tər basdı. İlahi, Qaranın başına bir iş gəlsə, ata-anama nə cavab verəcəyəm? Xəbərsiz-ətərsiz baş alıb gedirəm uzaq bir yerə. Kimə, nəyə arxayınam? Bəlkə doğrudan da qardaşımla son görüşə gedirəm. Allah bilir, onu nə şəkildə görəcəyəm. Artıq geri çəkilməyin yeri deyildi.

Qara ilə ana-bala kimi bir çarpayıda yatardıq. Qəhrəman olmaq istəyirdim. Qardaşımı yatırdıb cumardım şirin xəyallara. Xəyallarımdan birinin süjeti beləydi: Uzaq keçmişdir, qılınc-qalxan zamanıdır, dar ağacından asılmaq hələ dəbdədir. Uzun illər düşmənə qarşı vuruşandan sonra əsir alınmışam. Meydanın hündür yerində dar ağacı qurulub. Carçılar bütün şəhəri meydana yığıb. Bir azdan düşmən əsgərləri məni əli-qolu bağlı dar ağacının dibinə gətirir. İzdiham uğuldayır. Xalq öz içindən çıxmış qəhrəmanını üzdən yaxşı tanımadığından pəncəsi üstə qalxaraq boynunu uzadıb dar ağacının altına gətirilmiş nəhəng oğlana baxır, dərindən ah çəkir, için-için ağlayır, göz yaşı tökür. Xəyalımın ən maraqlı yeri onda gəlirdi ki, aylardır üzünü görmədiyim sevgilim adamları yara-yara gəlib dar ağacının önündə mənimlə göz-gözə dayanır. Hadisənin bu hissəsi mənə çox ləzzət verdiyinə görə və bəlkə, qəhrəmanlığı bir gözəl qızın ucbatından uydurduğumdan dəqiqələri uzadıram. İki sevgilinin baxışması onsuz da dünyanın ən gözəl görünüşlərindən biridir. Birdən öz-özümə deyirəm ki, izdiham nə qədər istəsən sənə, sənin

sevgilinə tamaşa edə bilər, ancaq cəlladlar gözləmir axı, tərpən, hadisəni sürətləndir. Bəli, kəndiri boğazıma keçirdirlər. Son söz demək zamanı gəlir, icazə versələr də, verməsələr də... Qəfildən qışqırıram: Yaşasın... Qara diksinib yuxudan oyanır, yerimizin içində oturur. Deme, səsimi başıma atıbmışam. Dikəlib çiynini qucaqlayıram. Gözünü ovuşdura-ovuşdura soruşur:

– Niyə qışqırdın?

– Yuxu görürdüm.

– Qorxdun?

– Yox, gəl yataq!

– Yuxunu mənə danışarsan.

– Yaxşı.

Yerimizə uzanırıq, bir azdan yuxuya gedir. Əhvalatımı təzədən uydurmağa başlayıram və hər gecə nağılım yuxuya getdiyim yerdə yarımçıq qalır.

Başımdan qara-qura fikirlər çəkilmir. İlahi, birdən gedib Qaranı tabutda görsəm? Bəlkə, tabutun qapağı mıxlanmış oldu, heç məni onun eybəcərləşmiş cansız cisminə yaxın buraxmadılar? Axı belə bir şeyi həyatda görmüşdüm. Əfqanıstandan iki rus əsgəri Tubu xalamın hərbi xidmətdə olan böyük oğlu İlkinin tabutunu gətirmişdi. Xalam nə qədər ağlayıb-sızlasa da, özünü didib-dağıtsa da, əsgərlər tabutun qapağının açılmasına imkan vermədilər. Dəmir tabutun qapağı qaynaqla yapışdırılmışdı.

Ertəsi gün meyit qəbiristanlıqda dəfn olundu, əsgərlər gəldikləri yerli hərbi komissarlığın maşınına minib getdilər. İlkinin qırxını yola verəndən sonra hirsi-hikkəsi soyumayan xalam acıqlı-acıqlı “iynəynən gor qazacağını” deyib, yaraqlı-yasaqlı əri Mahmudla şəhərimizdən xeyli uzaqda olan qəbiristanlığa yollanır. Qəbri açırlar, xalamın əri dəmirkəsənlə, ağır çəkiclə tabutun qapağını kəsib-qırır və...

Və Allah sən saxla, tabutda İlkinin əvəzinə içəriyə bərkidilmiş iki uzun dördkünc daş görürlər. Tabutun ağzını örtüb qəbri torpaqlayırlar.

Bu hadisəni anamın atama danışdığını eşidəndə ətim ürpəşmişdi, tüklərim biz-biz olmuşdu, qorxmuşdum. Ancaq Tubu xalam tabutda

daş görəndə əl açıb oynayır, dəli kimi o yan-bu yana qaçırmış. Bir neçə gün sonra rayon hərbi komissarlığı məzarın üstünü götürtmüşdü. Başdaşında beşguşəli ulduz olan qəbir başqa qəbirlərdən seçilirdi. Ancaq nə xalam, nə anam, nə də bizimkilərdən heç kəs nişanəyə yaxın durmurdu. Qara bayramlarda fatihə səsi eşitməyən bircə o qəbir idi. Gendən görəndə kövrəlirdim. Xalam oğlunun soyadının, adının və atasının adının üstünə qara rəng çəkilmişdi. Sovet hökuməti dağılandan sonra günlərin bir günü xalamın əri xəlvətə salıb yalançı qəbri uçurdacaqdı və yerini hamarlayacaqdı. Xalam tez-tez deyirdi ki, İlkin ölməyib, əsir düşüb, gec-tez qayıdıb gələcək.

Təyyarədən yerə endim. İkinci dəfəydi gəlirdim, Alma-Ata ilə tanışdım. Məşhur Alma-Ata hadisələrindən qırxca gün sonra Moskva baş qatmaq üçün Qazaxıstanın paytaxtında Sovetlər Birliyində yaşayan gənc yazıçıların festivalını keçirdirdi. Mən də çağırılanların arasında idim. Onda şəhər gərgin günlərini yaşayırdı. Adamların üzündən-gözündən qayğı, əzab, nigarançılıq, qəzəb, nifrət yağırdı. Moskva səhv addım atmışdı. Respublikanın rəhbəri Kunayevi işdən çıxardıb, yerinə rus Kolbini gətirmişdi və xalqı yerindən oynatmışdı. Narazılıq üsyana, ixtişaşa çevrilincə ordu işə qarışmışdı, qazaxlara amansızcasına divan tutulmuşdu. Ölənlərin, itkin düşənlərin, yaralananların sayı hələ də dəqiqləşdirilməmişdi. Zərərçəkənlər barədə bizimlə ünsiyyətə girənlərin hərəsi bir rəqəm deyirdi.

Tədbirin açılışı öncəsi Leninin abidəsi qarşısına qoyulası əklilin qulpundan yapışmaqdan birinci mən imtina etdim. Çünki faciə İliç meydanında törədilmişdi. Yaxamı kənara çəkməyim elə yekə göründü ki, başqa respublikalardan gəlmiş gənc yazıçılar da irəli durmadı. Əklili təşkilatçılar özləri götürməli oldu. Həmin məkanda xronika üçün bizim hadisəyə münasibətimiz kinolentə alınanda da hökumətin xeyrinə yönlü çıxış eləyən olmadı, gunahkarlar üstüörtülü şəkildə olsa da, pislənildi. Ancaq bir nəfərin mənə yaxınlaşıb təhlükəsizlik orqanının işçisi olduğunu bildirərək özümü "nümunəvi" aparmamağım barədə irad tutması göstərirdi ki, ciddi nəzarətdəyik.

Küçədə yerli gənclərin gözlərindən qəzəb, kin yağırdı. Kiməsə ilişməyə bəhanə axtarırdılar. Mən də onların gözündən yayına bilmədim.

Gürcü şairəsinə hədiyyə verilmiş dombranı küçədə dınqıldadanda oğlanlı-qızlı bir dəstə qızmış gənc bizi aralığa aldı. Guya onların çala bilmədiyimiz qədim musiqi alətini aşağılayırdıq. Dünənki ağzısulu uşaqlar siyasi rejimə etirazlarını belə bildirirdilər. Eşşəyə gücləri çatmırdı, palandan yapışmaq istəyirdilər. Hər halda bunun adı "milli oyanış" idi.

Oğlanlardan biri yumruğunu düyünləyib üstümə yeridi. Yaxşı ki, özümü itirmədim, yoxsa qızın yanında döyülüb biabır olacaqdım, onlara "qardaş" deyib Bakıdan gəldiyimi bildirdim, tələm-tələsik hamımızın bir kökdən olmağımızdan dəm vurdum. Alma-Ata hadisələrinin Bakıda bomba kimi partladığını dilimə gətirdim. Bir anda dostlaşdıq və mehriban ayrıldıq. Aydınca hiss elədim ki, ilahi, qazaxların indi dosta nə qədər böyük ehtiyacları var.

Təxminən iki saat sonra qardaşımın xəstə yatdığı Priozyorsk şəhərindən keçən Alma-Ata – Pavlodar avtobusunda yerimi bərkitmişdim. Səhərdi. Axşam mənzil başına çatmalı idim. Avtobusumuz uzanıb gedən ucsuz-bucaqsız çölləri keçdikcə mənə elə gəlirdi, haçansa buralarda olmuşam. Bəlkə, bu ondandı ki, açıqlıqda, düzənlikdə doğulub böyümüşdüm, ruhum genişliyi sevir. Başqa bir səbəbsə heç vaxt yerə, zamana görə sıxılmamağımdı. Uşaqlıqdan gecə-gündüz, yaz-qış, fərqi yoxdur, harda olsam, ora tez uyğunlaşmışam. Hərdən uzaqlarda olanda özümə qəribə gəlib, doğrudanmı, evimiz, atam-anam, dost-tanış üçün darıxmıram? Bu qədər daşürək olmaq olar? Mənə çox "soyuqsan" deyiblər. Ancaq mən heç haranı, heç kəsi uzaqda bilməmişəm.

Qazaxıstanın ilan mələyən çölləri sanki haçansa gəzib unutduğum yerlər idi, indi yaddaşımda yavaş-yavaş canlanırdı.

Nənəm birində yarıtmazlıq, ölüvaylıq görəndə qınaq edərdi:

– Bu zalım oğlu "Dünyaya urus gəldi" bilmir.

Deyim Rusiyanın Azərbaycanı özünə birləşdirdiyi XIX əsrdən qalmışdı.

O, bu sözləri mənim üçün də deyib. Sonralar anam xatırlardı, nənəm hərdən dalımca gileylənərmiş ki, görəsən, bu uşağın axırı necə olacaq? Qaradan ürəyim arxayındır, amma bundan bərk nigaranam. Adımızı batırmasa yaxşıdır.

Nənəm özü deyərdi ki, on altı yaşında boyuna uşaq düşüb. Onun oğlu, – yəni babam atamın doğulduğu 1928-ci ildə öldürülüb. Babamın 20-24 yaşında evləndiyini götürsək, o hesabla nənəmin təvəllüdü təxminən 1890-91-ci illərə düşür. Ancaq Sovet dövründə verilən pasportda doğum tarixi 1882-ci il yazılmışdı. Nənəm uşaqlığından çar hökumətinin gücünün zərbini görmüşdü. Bilirdi ki, kafir padşahla zarafat eləmək olmaz. Yoxsa torpağını torba ilə daşıtdırar.

1830-cu illərdə Mərkəzi Rusiyadan velikoboblar, malakanlar imperiyanın ucqarlarına sürgün ediləndə *(Söhbətə bax e... Qafqaz sürgün yeri... Qafqazdan sürgün yeri olar? Qafqaz yemək-içmək, kef, istirahət yeri, arıq eşşəyin yaylağıdır. Bura sürgün yeri olsaydı, dədə-babamızı niyə Sibirə göndərirdilər? Elə öz yerimizdə oturub zurnamızı çalardıq da)* yeri-yurdu dağıdılan nəsillərdən biri də bizim nəsildi. Nənəm ata-babasından eşitdiyini danışıb deyirdi ki, Qız meydanı yaylağında sürgünə gələnlərlə yerlilər arasında örüş, su üstündə narazılıq düşür. Bizimkilər "yersiz gəldi, yerli qaç"a dözə bilmir. Hətta vurub rəqiblərin böyüyünün ağzının, burnunun qanını biri-birinə qatırlar. Yer yiyəsiz deyilmiş. Gəlmələr çarın adına şikayət məktubu yollayır. Müraciət cavabsız qalmır. Peterburqdan buyruq göndərilir: "Onları *(yəni, nəslimi)* elə yerə sürün ki, səhərdən axşamacan başları su tapmağa, su gətirməyə qarışsın".

Dördüncü babam İman at belində Tiflisə gedib Canişinlikdə neçə qapı döyürsə, xeyri olmur, kor-peşiman, əli ətəyindən uzun qayıdır geri.

Avtobusumuzun qabağına nə çıxırsa, sürəti azaldır, xəyaldan ayılıram. Oturduğum yerdəcə gərnəşirəm. Demə, qarşımızı kəsən beş-altı at imiş. Qıvraq, qızılı atlardır. Minib düzənlikdə belədən-belə çapasan. Uşaqlıqda yük atının belinə qalxmışam. Atamla dostunun kəndinə qonaq gedəndə ev yiyəsinin kökəlib yanı-başı çıxmış, tənbəl, ağır yerişli, rəngi boz-bulanıq yabısını at adı ilə

minmişəm. Ancaq gəzintimdən heç bir ləzzət anlamamışam. Bəlkə, ona görə ki, onda yadıma at düşmürdü. Mənimki atamın üçtəkərli motosikli idi. Qara ilə həmin o motosikllə nə oyunlar çıxardardıq. Motosikl də ata oxşayır. Qardaşımı gah tərkimdə, gah böyrümdə oturdub, "səmənd"i qəfil yerindən tərpətməklə tozanaq qaldırardım. On üç yaşımda işdən macal tapmayan, altında "Moskviç" olan atam sürücülük eləməyimə icazə vermişdi. Miniklə bəzi ev işlərinə köməyim dəyirdi. Amma daha çox öz kefimə sürürdüm. Qara da, dediyim kimi, quyruğumda. Yaz vaxtı şəhərimizin arxasındakı geniş çəmənlikdə kaskadyorluq edirdim. Motosikli saatda 70-80-lə sürüb qəfildən əyləci axıra qədər basaraq rulu tam sola burmaqla yerimdə burulğan kimi çevrə cızırdım. Yaxud motosikli nisbətən dik təpənin başına qədər dırmaşdırıb at kimi şahə qaldırırdım. Qara da çox istəyirdi ki, mənim elədiyimi eləsin. Ancaq ayaqları sürət ötürücüsünə, əyləcə çatmırdı.

Sürücü şıltaqlığımın bitən gününü xatırlayıram. Motosikli torpaq yolda sürürdüm, Qara beşiyə oxşayan lülkada ayaq üstə dayanıb çiynimdən yapışmışdı. Birdən çökəyə düşdük, onda gördüm ki, qardaşım özünü saxlaya bilməyib uçdu və düşüb yolda qaldı. Özümü çatdıranda hərəkətsizdi, silkələdim, tərpənmədi. Qulağımı sinəsinə qoydum, bir az ağlım üstümə gəldi. Ürəyi döyünürdü. Yəqin qardaşımı yer tutmuşdu. Qucağıma qaldırıb motosiklə qoymaq istəyəndə ayıldı və ufuldaya-ufuldaya sol əlini sağ çiyninə apardı. "Buram göynəyir." – dedi. Köynəyinin yaxasını açdım. Özü köynəyini soyundu. Çiyni yerə sürtünüb möhkəm sıyrılmışdı. Cib dəsmalımı çıxardıb qanını sildim. Qorxulu bir şey yox idi. Söz qoyduq ki, bu barədə heç kəsə bir kəlmə deməyək. Hadisədən sonra Qara nə qədər məni qızışdırmaq istəyirdisə də, özümdən çıxmırdım, daha motosikli ehtiyatla sürürdüm. Hətta o məni "qorxaq" adlandırırdı, cırnadırdı, eynimə almırdım.

Bir yaz günü yenə Qaranı yanıma alıb dəmir yolu boyunca uzanan torpaq yolda qaza basmışdım. Kefimiz yuxarı idi. Birdən köməyə çağıran sarı paltarlı dəmiryolçuların qışqıraraq bizə papaq yellədiyini gördük. Yaşlı adamlarla ünsiyyət qura bilmədiyim üçün karıxıb

özümü itirdim, ancaq Qara komandirim kimi dəmir atımızı onlara doğru sürməyimi əmr etdi.

Fəhlələrə yaxınlaşanda dörd nəfər qollarını xərək eləyib üstünə uzatdıqları qonşumuz Əliməmməd kişini bizə tərəf gətirirdilər. Motosikli saxlayan kimi, Qara cəld yerə tullandı, nə baş verdiyini anlamağa çalışırdıq. Fəhlə qurşaqdan aşağı qanın içində idi, şalvarının balaqlarından qan damcılayırdı. Onlardan kiminsə bizə dediyi iki cümlə ilə hər şey aydın oldu. Əliməmməd kişi dəmir təkər üstə gəzən ağır təmir arabasının altında qalmışdı, qıçı qırılmışdı. Dəmiryolçular bizdən icazə almadan yaralını motosiklin lülkasına yerləşdirdilər. İki nəfər irəli yeriyib biri tərkimdə, biri ehtiyat təkərinin üstündə əyləşdi, Qara qucağımda oturdu. Yol boyu yaralı dayanmadan zarıyır, ah-uf eləyirdi.

Biz Əliməmməd kişinin həyətinə girib dayanan kimi yaralı "Yetim qalan balalarım, vay!" deyib ucadan hönkür-hönkür ağlamağa başladı. Həyətdə onun arvadından, üç-dörd iri qızlarından başqa qonum-qonşudan da qadınlar vardı. Elə bil bizi gözləyirdilər. Qıy-qışqırıq başladı. Fəhlələr yaralını götürüb evə sarı aparanda bir qadın söyə-söyə üstümə cumdu, yaxamdan yapışıb dartdı, elə bilmişdi ki, xəta bizdən keçib.

Qaranın yaşına yaraşmayan sərt səsi gəldi:

– Onu biz vurmamışıq!

Qadın əl çəkib, ağlaya-ağlaya yaralının dalınca getdi. Həyətdə ikimiz qaldıq. Motosikl qan içində idi. Evə belə getmək olmazdı. Şəhərimizin ayağında yağış suyundan yaranmış gölməçənin yanına sürdük. Qana baxa bilmirdim. Qara işə girişdi və laxtalanmış qanı ovuc-ovuc götürüb yerə tökdü. Həvəslə arabamızı yuyub, silib quruladı. Hiss edirdim ki, qürurlanır, özünü xilaskar kimi aparır. Qoy aparsın, əsas o idi ki, təmizə çıxıb rahat nəfəs aldıq. Milisə ilişsəydik, başımız ağrıya bilərdi. Axı, motosiklimizin çox macəraları vardı.

Qara anadan olan ili atam bu motosikllə ətraf kəndlərin birindən qayıdırmış. Yolda qarşısına bir oğlanla bir qız çıxır. Cavanlar əl eləyib atamı saxladırlar və xahiş edirlər ki, onları Bakı-Tiflis yoluna çıxartsın. Atam cavanların istəyini yerinə yetirir. Həmin günün ertəsi

milislər qapımıza tökülüşdü. Səhərdi, təzəcə yuxudan durub piş-pişimi eləyəndən sonra həyətdə özümü günə verirdim. Milisləri görüb döyükdüm. Onlar həyət-bacaya göz gəzdirirdilər. Böyükləri məndən soruşdu:

– Atan evdədir?

– Yox! – Cavab verdim.

– Bəs anan necə?

– Evdədir, çimir.

Milislər qımışıb bir-birinə baxdılar və çıxıb getdilər. Anam çimib çıxandan sonra əhvalatı ona danışdım. Narahat oldu ki, görəsən, nə baş verib? Həm də milislərə verdiyim cavabdan utanıb qızardı.

– Yad adama, "Anam çimir" deməzlər. Ondansa deyərdin, anam evdə yoxdur, nənəmi çağırım.

– Nənəmi soruşmadılar, – deyə ona qısıldım.

Axşam xəbər çıxdı ki, milislər atamı işdən aparıblar. Özü də bilmədən qız qaçırılmasında iştirak edibmiş. Sevgililər xalaoğlu, xalaqızı imişlər. Heç kəs onların bir yerdə kənddən çıxmasından şübhələnməyib. Anası qızının qaçırılmasına razı olmadığına görə şikayət veribmiş. Qız, anasının qorxusundan "Məni zorla qaçırdıblar" deyib dururmuş. Nənəm işə qarışıb. Əsasını götürüb qonşunun maşınına minib, qızgilə gedib. Qızın ilan anası quyruğunun üstündə dayanıb dediyindən dönmürmüş, atamı günahkar çıxardırmış. Uzun söhbətdən sonra nənəm qızın tərs anasının qulağına nə pıçıldayıbmışsa, o, qorxa-qorxa atamdan şikayətçi olmayacağına söz verib və məhkəmədə quzuya dönübmüş. Qız, dindiriləndə atam haqqında deyib: "Onun məsələyə qarışacağı yoxdur."

Və atamı məhkəmə salonundan açıb buraxmışdılar. Yəqin, nənəm qızın anasını ölümlə hədələmişdi. Onun qartal baxışları adamın yeddi qatından keçirdi, sandığında, sonradan Belçikada istehsal edildiyini bildiyim "Brauninq" silahı saxlayırdı. Qəhvəyi rəngli cib pistoleti atasından yadigardı. Nənəm hərdən silahı yağlayıb siləndə qımışıb deyirdi ki, Leninə bu silahdan atəş açıblar.

Atam Qaraya lap uşaqlıqdan mehr salmışdı, çünki qardaşım özünü sevdirməyi bacarırdı, mənim kimi vasvası, adamayovuşmaz, qa-

raqabaq deyildi. Nə paltar alınsaydı, özünə yaraşdırardı, qabağına nə qoysaydılar, yeyərdi, hansı iş dalınca göndərsəydilər, gedərdi və işi yarıdardı.

Bilirdim, atam çevik adamları sevir, bivecləri görən gözü yoxdur, onlara qarşı barışmazdı. Həyətimizdə hərdən əlimi cibimdə görəndə üstümə bozarırdı:

– Əllər cibə qoymaq üçün deyil! Ayağına dolaşan daşı götür, bir kənara qoy!

Ayağımın altına baxırdım, həyətdə bu daşı görməmişdim, bunu bura kim atıb? Atam gedəndən sonra həmin daşın üstündə oturur-dum, fikir-xəyal məni aparırdı. Nə ölüvaylığım yadıma düşürdü, nə də atamın dedikləri. İçim alovlanırdı. Böyük işlər görmək istə-yirdim. Amma o böyük işlər nə idi, nəyə nədən başlamaq lazımdı? Bunu bilmirdim.

Şərtləşdiyimiz kimi avtobus sürücüsü Priozyorsk şəhərinə çatdı-ğımızı xəbər verdi. Axşam düşürdü, hava qaralırdı. Kim nə bilsin, buralara bələd deyiləm. Öz ağlıma da gəlməmişdi ki, heç olmasa sürücüdən bu şəhər haqda nəsə bir məlumat alım. Avtobus şəhərin girişindəki hərbi komendantlığın qarşısında dayandı. Düşdüm. Sən demə, bura bağlı şəhər imiş. Patrullar qarşımı kəsdilər, içəri keçmək cəhdlərim baş tutmadı. Qardaşımın xidmət etdiyi hərbi hissədən bu-raxılış vərəqəsi təqdim etməliydim. Bir leytenant mənimlə üz-üzə dayandı. Mənim kimi azıb bura gələnlər çox olduğundan hazır tək-lifləri vardı: – Gecəni iki kilometrlikdəki yolüstü Sarışağan kəndin-də keçirə bilərsən. Orda mehmanxana yoxdur, amma evlərdə ucuz qiymətə kirəçi saxlayırlar. Kəndin dəmiryol stansiyasında telefon qovşağı var, istəsən, bir saatdan sonra qardaşına zəng vur, danış.

Leytenantı şirnikdirmək istədim, xeyri olmadı. İçəri buraxmasa da, sağ olsun, məni ayıq saldı:

– Səni içəri buraxa bilmərik, ixtiyarımız yoxdur, ancaq qoçaq oğ-lanların qabağını kəsmək mümkün deyil.

Leytenantdan ayrılıb Sarışağana gəldim. Qatar stansiyasının qar-şısında kirayənişin tapmaq üçün müştəri gözləyən Taymas adlı bir qazax məni evinə apardı. Balaca, rahat bir otaqda yerləşdim. An-

caq dincəlməyə gəlməmişdim. Əl-üzümü yuyub, evin xanımının tələm-tələsik köhnə dəmdən düzəltdiyi *(uşaqlıqdan çay təzədəm olmasa, içə bilmirəm, atam da belə idi)* bir fincan çay içib, telefon qovşağına gəldim. Qardaşımla danışmaq üçün sifariş verdim. Telefonçu qız hospitalla danışıb tezcənə dedi: “O, yatıb, oyatmaq olmaz. Sabah əlaqə saxlamağı məsləhət görürlər”.

Nədənsə, xəbəri sakit qarşıladım, xəstə olduğum vaxtları xatırladım. Telefon qovşağından çıxanda artıq keçmişdə idim, can vuruşdurduğum zamanlarda. Universitetin sonuncu kursunda oxuyurdum. Qış vaxtı idi. Yataqxanada gecə yarısı dəhşətli bir bağırtıdan diksinib ayıldım, ürəyim tökülürdü. Dəhlizdən gələn səsi tanıdım. Boyu iki metrə yaxın tələbə yoldaşım Həkimxanın səsi idi. Həkimxan danışanda elə bil dana böyürürdü. Özü də öz eybini bilirdi. Deyirdi ki, ana bətnində boğazıma mikrofon qoyublar. Bu heyvərə qorxulu adam deyildi, əksinə, çox üzüyola, həlim xasiyyəti vardı. Bədheybət görkəmindən heç kəs çəkinmirdi. Bəlkə də, ömründə məndən başqa bir kimsəni qorxutmamışdı. Onda da özündən xəbərsiz. Ona bu barədə heç vaxt bir söz demədim. Üzrü dərman ola bilməzdi.

Ürəyimin döyüntüsü kəsmirdi, ölümdən dəhşətli şəkildə qorxmağa başlamışdım. Sanki həkimə getmək yadımdan çıxmışdı. Gecəm-gündüzüm yox idi, yalnız ölümüm barədə düşünürdüm. Arabir sinəmdən ağrı tuturdu. Ürəyimin qəfil sancıları adi hala çevrilmişdi. Ağrılara, sancılara ölüm xəbərdarlığı kimi baxırdım. Hər ölüm xəbərini öz ölüm xəbərim sayırdım, özümü çiyinlərdə gedən tabutların içində hiss edirdim. Daha sevinə bilmirdim, hansısa qəfil xəbər, gözlənilməz hadisə məni həyəcanlandırmırdı. Yuxum çəkilmişdi, yeməkdən qalmışdım. Zəiflikdən güclə ayaq üstə dururdum. Bir dəfə trolleybusda özümdən getdim. Bəxtimdən növbəti dayanacaq poliklinikanın qarşısında imiş. Ayılanda gördüm ki, həkim otağındayam. İynə vurub ayıltmışdılar.

Getdikcə içimə çəkilirdim. Gözümdə hər şey adiləşmişdi. Gündəlik qayğılar ilə yaşayıb burdan-ora, ordan-bura tələsən, evinə, balalarına dimdiyində dən, su daşıyan, toyda, yasda əl-ələ, baş-başa verib oynayan, quruyub qaxaca dönən, iclaslar keçirən, bayrama

hazırlaşan, sevişən, ayrılan, ərinə xəyanət edən, arvadını bezdirən, səhnədə, idman meydançalarında birinci yeri tutmaq üçün qan-tər tökən, içkidən həzz alan, səhər-axşam qarın otaran, pudralanıb efirə çıxan, böyüklərindən qorxan, müdirinə yaltaqlanan, quyruq bulayan, ondan asılı olanların qanını soran, suyu üfürə-üfürə içən, yaşamaqdan ötrü əsim-əsim əsən, yetmiş yaşını səksənə, doxsana çatdırmaq üçün obaşdan beş-altı kilometr yeriyən, qaçan, yalnız pəhriz haqqında düşünən, şöhrət dalınca düşüb düşkünləşən, özünü həmişə irəli dürtən, həyata keçməyən xırım-xırda arzularının ucbatından boynu bükülən, ağlayan, göz yaşı tökən, sızıldayan və buna həyat, ömür deyən insanlar mənə hərəkət eləyən, qaynaşan həşəratlar kimi görünürdülər. Hərdən iki-üç günlük evimizə gələndə ən azı bir gecə yataqda atamla anama qısılırdım. Beynim motor kimi işləsə də, gözlərimin qabağında əcayib fiqurlar oynaşsa da, özümü yuxululuğa vururdum. Elə bilirdilər onlar üçün bərk darıxmışam. Amma ağıllarına gəlmirdi ki, rahat olduğum, ölümdən qorxmadığım tək yer onların yanıdır. İlyarım sonra lap ölüm qorxusunun özəyinə, mərkəzinə, paytaxtına gedib çıxdım. Bura qədər gələnlər ən yaxşı halda havalanırlar. Amma həyat möcüzələrlə doludur. Gedərgəlməzdən tək-tük dönənlər həmişə olub. Həmin tək-tüklərdən biri mən idim, özü də o yoldan getdiyim kimi yox, tamam başqa cür qayıtmışdım. Ölüm qorxusunun doğanağından diri keçmişdim. Demə, ölümdən qorxmaq yox, ondan ehtiyat etmək, qorunmaq bəs imiş. Birdən-birə həyata, insanlara tamam başqa gözlə baxmağa başlamışdım. Başım üstümdə durmasa da, yuxusuzluqdan hələ əziyyət çəksəm də, heydən düşsəm də, fikirlərim dəyişirdi, dərinləşirdi, nitqim açılırdı, hamarlaşırdı, daxilən güclənirdim. Özüm üçün böyük bir sirrin üstünü açmışdım. Ölümdən qorxmayanlar hər cür qəhrəmanlığa qadirdir. Onların qarşısını kəsmək olmaz. Ən böyük işləri də onlar görə bilərlər. Mənimkimiləri çıxmaqla hamı ölümdən qorxur. Ona görə də gözüqıpıqların, amansızların, qəddarların, kəmfürsətlərin, qoluzorluların, yaramazların qarşısına ölüm qorxusunu çıxartmaq lazımdır, o dəqiqə geri çəkiləcəklər. Çünki can belələri üçün daha şirindir.

Kirayə qaldığım evə qayıdanda qapıda Taymas qabağıma çıxdı, dərdimi danışdım. Tez isinişdik. Canıyanan adamdır, özü də, arvadı da qonaq üçün əldən-ayaqdan gedir. Halıma yanırlar. Sürücü işləyən ev sahibi Sarışağanda doğulub, əsgərliyini yazda bitirib, bir ay əvvəl evlənib. Gah qazaxca, gah da rusca çox iti danışır, bəzi sözlərini tuta bilmirəm. Bölgəyə, şəhərə yaxşı bələddir. "İndi qabaqkı nizam-intizam yoxdur" deyib sabah məni qardaşımla görüşdürəcəyinə söz verir.

Səhərin gözü açılanda Taymasın yük maşınında yola düşdük. Komendantlığı görmədən çöl yolu ilə şəhərə giririk və axşam götürmək şərtilə məni hospitalın yanında qoyur. Binaya yaxınlaşıram. Özümü sıxmışam. Vur-tut üççə dəqiqədən sonra, Allah bilir, hansı havaya düşəcəyəm. Ya qardaşımı görəcəyəm, ya da... Özümü inandırmağa çalışıram ki, hər şey yaxşı qurtaracaq. Qeydiyyat şöbəsinə yaxınlaşıram. Bakıdan gəldiyimi bildirib qardaşımın adını, soyadını deyirəm. Şəfqət bacısı gülümsünür, jurnalda qardaşımın adını axtarır. Qız bilmir ki, təbəssümü mənim üçün nə deməkdir. Telefonun dəstəyinə əl atıb nömrə yığır, qardaşımı çağırtdırır. Aha, deməli, qardaşım öz ayağı ilə bura gələ bilər. Üstümdən ağır yük götürülür. Elə bil çiynimi tabutun altından çıxardıram. Axı, qardaşımın ağır tabutunun altına girə bilərdim. Riskim baş tutur. Atamın üstünə xoş xəbərlə qayıdacağam. Atam qəfil uzaq səfərimdən inciməz, məni yaxşı tanıyır, uşaqlığımdan bəri evdən qəfil qeyb olub, qəfildən də peyda olduğumu çox görüb. Gözümü açandan cibimdə həmişə pul olub. On bir-on iki yaşımdan bir adət yaranmışdı məndə. Gəzməklərə gedərdim. Yeyimcil deyildim, içim içimdən keçirdi. Atamın tez-tez verdiyi cibxərcliyini yığıb bir günlük səfərlərə çıxırdım. Üç-dörd ilin içində Azərbaycanın yarıdan çoxunu gəzib dolanmışdım. Bakıdan və şəhərimizdən rayon mərkəzlərinə işləyən marşrut avtobuslarının qrafiklərini öyrənmişdim. Elə istiqamət seçirdim ki, axşama mütləq çatdırıb evimizə qayıdım, evdəkilər bilməsin.

Səfər proqramım təxminən belə olurdu: Rayon mərkəzinə çatırdım, balaca şəhərin üç-dörd baş küçəsini ayaqdan salırdım, bazara baş çəkirdim. Bazarda adamların hay-küylü danışıqlarından xoşum gəlirdi.

Alverçilərin müştəri çağıran qışqırıqları, ora-bura vurnuxanlar, özünü çəkib gəzənlər, ona-buna söz atıb ilişənlər, satlıq qazların, ördəklərin cığ-bığı, toyuqların qaqqıltısı məndən ötrü xüsusi tamaşa idi. İndi də evə bazarlığı özüm eləyirəm. Hələ də bazarda göy-göyərtilərin yaşılından, meyvələrin əlvan rəngindən, qarışıq zərif ətrindən həzz alıram. Xüsusən yerli ləhcələri eşitməkdən doymurdum. Salyan bazarında "Gəl, bala, gəl! Gəl, Məliyin dooğasına!" deyən arıq, ağsaç kişinin iri dovğa qazanını, böyük sinidə səliqə ilə ağzıaşağı düzülmüş masquralarını görəndə hayıl-mayıl olmuşdum. Otuz qəpik verib bir qab qaynar dovğa almışdım və noxudu üzə çıxmış dovğanı üfürə-üfürə içdikcə Məlik kişinin alverinə tamaşa eləmişdim. Başqa rayon bazarlarında dovğasatan görməmişdim. Şəkidə "Şöyüb kişi" deyib çağrılan dulusçunun irili-xırdalı saxsı qablarını acgözlüklə gözdən keçirmişdim. Piti bardağının nə olduğunu yaxşı bilirdim. Balaca olanda bir dəfə atam şəhərimizdə məni pitixana işlədən dostu Oruc əmiyə tapşırıb harasa getmişdi. Oruc əmi də dostunun oğlunu stol arxasında oturdub qabağına bütün dəm-dəstgahı ilə bərabər bir bardaq yağlı piti qoymuşdu. Ağzıma apardığım ilk qaşıq dilimi yandırmışdı.

Şəkinin bazar çayxanasında çay içib şəkililərin şirin danışığına xeyli qulaq asmışdım. Hətta məzəli bir söhbət də eşitmişdim. Ağzında dişi olmayan bir kişi gəlib böyrümdə oturmuş kişini dümsüklədi:
– Əhmədiyyə, "obed" (*nahar*) eləmisən?

Əhmədiyyə deyilən cavab verdi: – Ha.

Həmin kişi dedi: – Onda dişlərini ver, mən də gedim bir loxma əppək yiyim.

Əvvəl onların söhbətini zarafat kimi başa düşdüm. Sonra gördüm ki, doğrudan da Əhmədiyyə ağzından protez damaq dişini çıxardıb qarşısındakına verdi.

Daha sonra tarixi yerlərlə tanış olurdum. Diyarşünaslıq muzeyinə mütləq baş çəkirdim və hər bir eksponata diqqətlə baxmağım vaxtımın xeyli hissəsini udurdu. Çünki muzeydə özümü rahat hiss edirdim. Cansız daşın, dəmirin, əkin alətlərinin, saxsı qabların, xalçaların, silahların, bər-bəzək şeylərinin, şəkillərin arasında olmaq mənə

xoş gəlirdi. Bir saatlıq keçmişin adamı olurdum. O keçmişin ki, orda hər şey donmuşdu, hərəkətdən qalmışdı, məndən başqa canlı yox idi. Nə mane olan vardı, nə üzümə bozaran. Qaradinməz, utancaq uşaq üçün bundan yaxşı nə ola bilərdi?

İrili-xırdalı bütün muzeylərin sükutu və aurası oxşardır. Uşaqlıqda da, sonralar da, indi də eyni fikirdəyəm, bütün vuruşların, hegemonluqların sonu muzeydə bitir.

Muzeydən çıxandan sonra böyük bir iş görmüş adam kimi xeyli rahat nəfəs alırdım, üz tuturdum kitab mağazasına. Hər səfərimdən mütləq ən azı üç-dörd kitab alıb gətirməliydim.

Şamaxıya ilk səfərimin axırı olduğu kimi yadımdadır. QAZ 21 "Volqa" taksisinin yanında dayanmış sürücüyə yaxınlaşıb məni Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin qəbirlərinə ziyarətə aparmasını xahiş etdim. İki məşhur şairin adını, təxəllüsünü bütöv deməyimdən kişi duruxdu. Əvvəlcə ondan səs çıxmadı. Az sonra sürücünün danışığından başa düşdüm ki, burdakılara bu şairlərin adları "Seyid Əzim" və "Sabir" kimi də bəs eləyirmiş. Kişinin görkəmi indi də gözümün qabağındadır. Hündürboylu, qarnı irəli çıxmış, mil-mil ağ qısaqol köynəyinin aşağı düyməsi açıq, əynində ütüsüz şalvarı olan, üzü tüklü sürücü siqaretinə dəm verib məni başdan ayağa süzdü. Üzü Günəşə durduğum üçün gözlərimi qıyıb ona baxırdım. Siqaretini çəkib yerə atdı, sağ ayağı ilə kötüyü lazım olduğundan da artıq əzib dedi:

– Otur, gedək!

Maşında soruşdu:

– Neçə yaşın var?

Qısaca dedim:

– On bir.

– Kimgilə qonaq gəlmisən?

– Heç kimgilə, gəzməyə gəlmişəm.

Sürücü tutuldu, sanki verəcəyi sualların sırasını pozdum.

Seyid Əzimin qəbrinə baş çəkib, Sabirin məqbərəsinə gəldik. O zaman şairin hündür, enli, mərmər başdaşı vardı. Sinə daşının üstündə "Bənzərəm bir qocaman dağa..." misralı şeirindən bir parça həkk

olunmuşdu. Taksi sürücüsü başqa yerdən Sabirin qəbrinin ziyarətinə gəlmiş uşağın hərəkətlərindən duyğulanmışdı. Məni tələsdirmirdi, çox səbrlə hərəkətlərimə göz qoyurdu. Geri qayıdanda əlini çiynimə qoyub (*qabaqda oturmuşdum*) məni xeyli təriflədi, lap qoltuğuma qarpız verdi. Sonra məndən üç yaş böyük oğlunun dalınca gileylənib elə beləcə dedi: Oğraş burdan-bura gəlib böyük şairlərimizin qəbrini görməyib.

Həyatımda ilk dəfə idi ki, məni belə geniş ürəklə tərifləyirdilər, özüm haqda qulaqlarım xoş söz eşidirdi. Sonralar yeniyetmə vaxtımda kimsə qəlbimi qıranda, məni acılayanda o taksi sürücüsünün sözlərini xatırlayıb, təsəlli tapardım.

Bir gün yola çıxanda Qaranı da özümə qoşdum. Qayıdanbaş yolda onu maşın tutsa da, səfərimiz xoşuna gəldi. Evimizə çatanda hava qaralmışdı. Qara sirrimizin üstünü açdı. Sevindiyindən dilini dinc saxlamadı və Mingəçevirə səfərimizin təfərrüatını qırıq-qırıq, rabitəsiz uşaq məntiqinə uyğun hüdüləyib tökdü.

Nənəm bizim bu işimizi böyütmədi. "Day kişidirlər, qoy gəzib-dolansınlar, gözləri açılsın!" – deyib çubuğunu alışdırdı. Ancaq anam özbaşınalıq elədiyimizə görə atam gələndən sonra bizi cəzalandıracağını dedi. Ertəsi gün axşam atam Bakıdan qayıtdı. Nə danlaq, nə də bir cəza oldu. Həmin gündən sonra atam qəribədir ki, cibxərcliyimi artırdı. Artıq inanmışdı ki, ona heç bir başağrısı gətirən deyiləm. Sonralar ürəkli idim, hətta uzaq yerlərə gedəndə gecəni də qalırdım.

Qeydiyyatçı qızın səsi məni fikirdən ayırdı:

– Qardaşınız indicə gələr.

Onun bu sözlərindən sonra pilləkənlərdən inamsız, ölgün addım səsləri eşitdim. Doğrudanmı bu, o idi? Mənim kür qardaşım ayaqlarını ən azından əsgər kimi yerə möhkəm basa bilmirdi? Yarımqaranlıq dəhlizdə Qara kölgəyə oxşayırdı, arıqlamışdı, lap yarı canı qalmışdı, gen xəstəxana paltarının içində itib-batmışdı. Nədənsə qabağına qaçmadım. Qucaqlaşanda hiss etdim ki, mən ona daha çox sarılmışam, onun məni özünə sıxacaq gücü yoxdur.

Qeydiyyatçı qızın səsi eşidildi:

– Qonağı belə qarşılamazlar, İmanov!

Xəstəxananın həyətinə enib kölgəlikdəki oturacaqda əyləşdik.

Qardaşımın boğuq səsi gəldi:

– Günəş şüası halımı qarışdırır. Üzü yaya gedir, havalar qızır, gərək məni Qazaxstana göndərməyəydilər. Deyirlər, buranın yayı cəhənnəmdir.

Yerini rahatlayıb sözünə davam etdi:

– Teleqram vurdum... Dedim, birdən... Heç olmasa səni görüm...

– Qardaşımı bu qədər qorxaq bilmirdim – ona ürək-dirək vermək üçün belə bir hazırlıq cümləsi işlətdim.

– Bir neçə dəfə özümdən gedib yıxılmışam. Tez-tez başım gicəllənir, yuxulu kimi gəzirəm.

– Həkimlər nə deyir?

– Deyirlər səndə qorxulu bir şey yoxdur.

– Həkimlərə inanmırsan?

– Yox! Onlar ağır xəstələrə düzünü demirlər. Kiyevdə komandirimiz Drobışa da möhkəm ürək-dirək verirdilər, ancaq...

Səsi qırıldı, udqundu.

Əlbəttə, istəyirdim qardaşım başına gələnləri danışıb ürəyini boşaltsın. Təsəlli və çıxış yolu tapmaq üçün tutacaq yer arayırdım.

Öskürüb boğazını arıtladı, yenə yorğun səsi eşidildi:

– Çernobılda əsgərliyim yerin altında keçib. Hava hücumundan müdafiə işlərinə baxırdıq. Sakit okeanın ortalarına qədər göy üzünə nəzarət edirdik. Monitorda Çernobıl Atom Elektrik stansiyasındakı partlayışı birinci mən gördüm. Növbətçi idim, gözüm ekranda qalmışdı. Birdən qaralmış ekranda üfiqi xətt əmələ gəldi. Nə baş verdiyini aydınlaşdırmaq üçün komandirə zəng etdim. Hərbi hissə ayağa qaldırıldı. Həyəcan siqnalı verildi. Ancaq şəhərin və zavodun rəhbərliyi işi öz gücunə yoluna qoymaq istədiyindən hadisə barədə Moskvaya bir neçə saat gec xəbər verildi.

Hərbi hissəmiz hadisə yerindən altmış kilometr aralıda yerləşirdi. Ertəsi gün başımızda əleyhqaz bizi maşınlara doldurub stansiyanın otuz kilometrliyinə gətirdilər. Çoxumuz hadisəyə macəra gözü ilə baxırdıq. Maraq xətrinə komandirimiz Drobış xidməti maşınında

stansiyanın həyətinə qədər gedib çıxmışdı. Təyyarələrdən qum, çınqıl kisələri atıb Atom Elektrik Stansiyasını basdırmağa girişmişdilər. Bizim işimiz kisələrə qum doldurmaq idi. Əleyhqazda nəfəs almaq çətin olduğundan bəzi əsgərlər qoruyucu maskanı çıxardıb atırdı.

Dördüncü gün komandirimizin Kiyevdə xəstəxanaya yerləşdirildiyini eşidəndə biz də artıq özümüzü pis hiss eləməyə başlamışdıq. Texniki təhlükəsizlik qaydalarına az əməl edənlər iş vaxtı biri-birinin ardınca başını yerə qoyurdu. Ürəyim bulandığı, başım hərləndiyi üçün mən də ayaq üstə güclə dayanmışdım, amma ağlım çaşmamışdı.

Məni də Kiyevə göndərdilər, hərbi hospitala. Orda nələr gördüm – bədənini yara basanlar, bir gündə saçı tökülənlər, iç vuranlar, qanı çəkilənlər, o dünyalıq olanlar. Əsgər yoldaşlarımızdan üçü öldü, bir neçəsini həkim komissiyasından keçirdib hərbi qulluğa yararsız kimi birdəfəlik evə buraxdılar. Mənim barəmdə həkimlərin fikri belə oldu ki, az şüalanmışam, vəziyyətim qorxulu deyil, yüngül müalicə olunub əsgərliyimi davam etdirməliyəm.

– İçməyə bir şey istəyirsən, alıb gətirim? – soruşdum.

Qaranın fikrini Çernobıldan ayırmaq istəyirdim. Elə bil, dediyimi eşitmədi, heç pauza da vermədi, sualım danışığına qarışdı.

– Arada bir pıç-pıç düşmüşdü.

– Nə pıç-pıç?

– Partlayış elə-belə olmayıb. Onu törədiblər.

Gözlərimi döyə-döyə qardaşıma baxdım. Nə sual verəydim?

Nəfəsini dərib, sözünə davam etdi:

– İyirmisi gecəsi stansiyanın dördüncü blokunda elektirik cərəyanını dövrədən ayırıblar. Guya turbinlərin öz-özünə nə qədər işləyəcəyini yoxlamaq istəyiblər. Gözləndiyinin əksinə olaraq, turbinlərdə güclü buxarlanma gedib. Elə buna görə də dəhşətli partlayış baş verib.

Görməmişəm, amma Qorbaçov "Vremya"da deyirmiş ki, Çernobıl qəzası adi qəzalardan biridir. Bəlkə onun özü də bu qəzanın mahiyyətini axıra qədər anlamırmış, nə bilim? Hadisəni ört-basdır etmək üçün dörd gün sonra arsız-arsız Kiyevdə 1 May paradı da keçirdilər.

Hospitaldan məni geri qaytardılar. Artıq Moskvanın və dünyanın diqqəti qəzada idi.

İndi hərbi hissəmiz başqa işlə – şəhər əhalisinin köçürülməsi ilə məşğul olurdu. İnsanlar həyəcanlı, qəzəbli idilər, hamıya evindən, yerindən-yurdundan ayrılmaq çətindi. Təsəvvür elə, kömək, yardım etdiyin üçün sənə nifrət edirlər, söyürlər, lənət yağdırırlar. Başa düşməyə nə var? Onlar taledən, cəmiyyətdən, dövlətdən yanıqlıdır, amma hirslərini əsgərlərin üstünə tökürlər. Hər ailəyə bir çamadandan artıq yük götürməyə icazə verilmir. Hər kəs çalışır ki, evindəki ən böyük çamadanın içini doldursun. Adamlar sanki bizdən acıq çıxıb çamadanları əsgərlərə daşıtdırırlar. Yüklər zindan kimidir, adamın kələyini kəsir. Arada söz gəzir ki, oğrular peyda olub, soyğunçuluq başlayıb. Oğruların yerli adamlardan olması qəribə görünür. Keçi can hayında, qəssab piy axtarır. Əsgər yoldaşlarımızın içində də qənimət ələ keçirənlər tapılır. Qızıl üzük, sırğa, boyunbağı, pul, suvenir – təki həm qiymətli olsun, həm də cibəsığan.

Belə bir hadisə oldu. Dörd-beş yaşında uşağı olan gənc bir qadını evindən çıxmağa tələsdirirdim. Onun əli-ayağı əsirdi, çamadanın ağzını bağlaya bilmirdi. Atom Elektrik Stansiyasında mühəndis işləyən ərini çox şüa aldığından ağır vəziyyətdə xəstəxanaya yerləşdirmişdilər. Tamam başını itirmişdi. Ona kömək edib dolu çamadanın ağzını bağladım. Qadın ağlaya-ağlaya uşağının əlindən tutub qabağa düşdü. Gedə-gedə qapının ağzından geri qanrılıb dedi ki, mənzilin açarı kamodun üstündədir, götürüb qapını bağla, açarı gətir. Açarın yanında gözümə arasında kulon olan qızıl zəncir sataşdı. Qızıl zənciri götürüb cibimə atdım. Özümü inandırmaq istəyirdim ki, hələ dünyadan əl çəkməmişəm, onun qızılına, malına, puluna qiymət verirəm. Əlimdəki mənzilin açarı da, ağır çamadan da, eşitdiyim qıy-qışqırıqlar da məni həyata bağlayırdı. Hətta istəyirdim acıqlı danışsalar da, söysələr də, mənə müraciət çox olsun. Hər üzdə ölümün şəklini, kölgəsini görmək olurdu.

Köçürülənləri Nikolayev şəhərinə aparırdıq. Hamı hamını unudub, Allahın ətəyindən yapışmışdı. Hətta Allahdan başqa xilaskar da axtarırdılar. Köçkünləri pioner düşərgəsinə yerləşdirib qurta-

randa Çernobıldа götürdüyüm qızıl zənciri yiyəsinə qaytardım. Görəydin, o qadın necə sevinirdi. Özünü saxlaya bilməyib hönkürdü. Elə bil şəhərini, evini, sakit həyatını ona qaytarmışdılar, bütün baş verənlər qorxulu bir yuxu imiş, keçib getmişdi. Özüm də yüngülləşdim. Amma əsgər xilasedici kimi xeyirxahlığa hər saat imkan tapa bilmir. Əmrə tabesən. Asılı olduğun adamlar isə başqa cür qurulurlar.

Sonra bizi hadisə yerindən uzaqlaşdırıb Nikolayevdəki hərbi hissəyə göndərdilər. On iki nəfər idik, mənzil başına səhər çatmışdıq. Günortaya qədər yoldaşlarımı müxtəlif bölüklərə payladılar. Mən ortada qaldım. Bunun niyəsini başa düşə bilmirdim.

Qərargahın qabağında oturub peşman-peşman fikrə getmişdim. Axı, üççə ay bundan qabaq Çernobıldа əsli Dağıstandan olan polkovnik məni yanına çağırıb demişdi: “Səni Azərbaycana göndərmək istəyirlər. Qutqaşendəki Radiolokasiya stansiyasında hərbi xidmətini davam etdirərsən. Evinin içidir.”

Polkovnikə “yox” demişdim. Arıma gəlirdi. Cəmi dörd aydı Azərbaycandan çıxmışdım. Eşidən-bilən, o - bu nə deyəcəkdi? Geri qayıtmağımı heç kəs yaxşılığa yozmayacaqdı. Elə biləcəkdilər atamın işidir, pul basıb məsələni həll edib. Onda düşünüb özlüyümdə çıxış yolu tapdım, qabaqlayıcı tədbir gördüm. Yarımca saat sonra Əfqanıstana göndərilmək xahişi ilə ərizə yazıb komandanlığa təqdim etdim. Fəndim baş tutdu. Nə ərizəmdən xəbər çıxdı, nə də məni yerimdən tərpətdilər. Amma doğrudan, Əfqanıstanda vuruşmağa getmək istəyirdim. Nəsə macəra axtarırdım...

Axır ki, yada düşdüm. Qarşımda dayanan zabitin sorğu-sual atəşinə tutulmuşdum. Sözündən belə çıxırdı ki, məni hərbi hissədə qəbul etmək istəmirlər. Sənədlərimdə olan iki məlumat onları açmamışdı. Biri Azərbaycanın Qazıməmməd şəhərində doğulmağım, o biri güləş üzrə idman ustalığına namizədliyim. Zabit məni divardan asılmış iri lövhənin qabağına gətirdi. Lövhədə bu hərbi hissədə müxtəlif vaxtlarda cinayət törətmiş əsgərlərin şəkli və onlar barədə məlumat verilmişdi. Barmağını bir şəkilə uzadıb dedi:

– Şəklin altında yazılanları oxu!

Şəkildəki yerlimiz iki il əvvəl dörd zabiti bıçaqlayıb hərbi tribunala verilmişdi və on dörd il iş almışdı.

Qardaşımdan soruşdum:

– Kim idi, tanımadın?

Çiynini çəkdi:

– Yox, tanıya bilmədim.

Əlbəttə, şəhərimizdə hamını tanımırdıq. Bundan başqa, cani şəhərimizdə doğulub başqa yerdə də boya-başa çata bilərdi.

Qardaşım danışdıqca danışmaq istəyirdi.

– Hə, söhbətini elə, - dedim.

Qara öskürüb sözünə davam etdi:

– Əsəblərim pozulmuşdu. Bu nə məntiq idi? Kiminsə törətdiyi cinayətin mənə nə dəxli vardı?

Görünür, danışdıqca üzümün, boynumun damarları gərilirmiş. Zabit ehtiyatlanırmış kimi bir az kənara çəkilib dedi:

– Belə boy-buxunu, bədəni, özü də idmançı olan qafqazlı dinc durmaz. Səni sabah yola salacağıq.

Dodaqaltı deyindiyimi görüb gülümsədi:

– Bir gecəlik bizə qonaqsan, hələlik!

Qəfildən içimə bir qəzəb doldu ki... Özümü saxlaya bilməyib onu söydüm. Elə istəyirdim ki, qaba cavab qaytarsın, cibimdə bıçağım vardı. Deşik-deşik eləmək istəyirdim onu. Gözümün qabağında sən gəlib durdun. Heç zabit də ağzını açmadı, dala baxmadan çıxıb getdi.

– Yenə də cibində bıçaq gəzdirirsən? Axı, söz vermişdin ki, bıçaqla qurtarmısan?

– Elə sənə söz verdiyimə görə, o gün bıçağı atdım. Çünki kimə hirslənirdimsə, bir əlim bıçağa dartınırdı.

Bu vaxt bir tibb bacısı gəlib Qaraya iynəsinin vaxtı olduğunu bildirdi və qardaşım on beş-iyirmi dəqiqəyə qayıdacağını deyib məndən ayrıldı.

Qara ilə mənim doğulduğum yerdə adi məişət bıçağından da soyuq silah kimi istifadə oluna bilirdi. Bizdə “bıçaq” adı çəkiləndə, mütləq qulaq şəklənməli, tüklər biz-biz olmalı idi.

Təxminən yeddi-səkkiz il qabaq bir payız günündə Qaraya cibində bıçaq gəzdirməyi qadağan eləmişdim. Hətta yekə-yekə ona nəsihət də vermişdim: “Bıçaq zamanı deyil, ağıl zamanıdır, bıçaqla bir-iki, üç-dörd adama qalib gəlmək olar, ağılla minlərə, milyonlara.”

Həmin gün Qara ilə şəkil çəkdirməyə getmişdik. Məişət Evinin ikinci mərtəbəsindəki Mamedin fotoemalatxanasına qalxdıq. İçəri keçəndə necə oldusa, yanında bir qız dayanmış oğlanla toqquşdum. Balaca boylu, tökmə bədənli, oğlanla yaşıd olardıq. Mənimlə dilləşdi, “Oğlan, qırmızı işıqda keçirsən ha!” deyib üstümə yeridi. Ancaq fotoqraf aranı sakitləşdirdi.

Qara ilə şəkil çəkdirib ikinci mərtəbədən aşağı enmək istəyəndə gördüm ki, mənimlə sözü çəp gələn oğlan yolumuzu kəsib. Bu dəfə o mənə daha qollu-budaqlı, daha qüvvətli göründü. Yanındakı qıza görə ani olaraq düşündüm ki, bəlkə heç bizə görə dayanmayıblar, kimisə gözləyirlər. Yanlarından keçəndə oğlan qəfildən mənə yumruq atdı. Başımı cəld yana çəkdim. Yumruğu üzümü yüngülcə dalayıb keçdi. Təpiyi arxamca gələn Qaranı tutdu. Uşaq zərbədən küçük kimi zingildədi. Oğlana cumdum. O ya boksçu idi, ya da möhkəm dalaşqan. Qarnına bir təpik ilişdirəndə dolu kimi yağan yumruqların birindən yayına bilmədim, zərbə burnumu tutdu. Onsuz da kapilyarları zəif olub bütün davalarımda, hətta döysəm belə, azacıq toxunulan kimi qan açılan burnum bu dəfə də mənə dönük çıxdı. Burnumdan şoruldayan qan üstümə axdı. Namərd burnumun ucbatından bacardıqca əlbəyaxa davalardan gen gəzərdim, amma bizim şəhərdə dava-dalaşsız keçinmək olmurdu. Yenə qəfil davaya düşmüşdüm. Rəqib yeni zərbələr endirirdi. Birdən oğlanın yanındakı qızdan dəhşətli bağırtı çıxdı. Davaçı məndən əl çəkib geri qanrıldı. Həmin anda o da qışqırdı. Qaranın bıçaqla zərbə endirdiyini gördüm. Bıçaq oğlanın yanına yeridi. Oğlan yerə çökdü. Plaşının arxası ortadan bıçaqla iki yerə bölünmüşdü.

Cibimdən dəsmal çıxardıb burnuma tutdum, Qaranın da dəsmalı əlində idi, bıçağının qanını silirdi. Bircə dəqiqə sonra hadisə yerindən uzaqlaşmışdıq.

Küçəmizə çatanda Qara sakit, bir az da qürurla, lap bizim yerin türmədə yatıb-çıxmışları kimi dedi:

– Bıçağı iki dəfə yortdum! Birini kürəyinə, birini də dümbülünə.

Evə qayıdanda həyəcanım soyumamışdı. Böyüklərin gözünə görünməməyə çalışırdım. Qaranın heç nə vecinə deyildi. Həyətdə divarla top-top oynayırdı. Xəbər atama çatıbmış. Bizi görüb tanıyan olubmuş. O, gəlib nə baş verdiyini soruşdu. Hadisəni yerli-yataqlı danışdıq. Atam evdən çıxdı.

Yaxşı ki, Qaranın bıçaqladığı oğlanın atası atama yaxınmış, "Cavandılar, bir qələtdir eləyiblər!" deyib məsələni çürüdüblər. Sonra bildik ki, bıçağın dili qısa olduğundan, birinci zərbə rəqibin plaşını cırıb, ikinci zərbədə isə tiyə çeçələ barmağın yarısı boyda yanına batıb.

Atam Qaranın bıçağını ondan aldı və bizə dedi:

– Axırıncı dəfə olsun! Yan-yörəmizə baxın, türmədəkilərin evi, ailəsi, uşaqları görürsünüz nə gündədir?

Bir qədər ara verib mənə üzünü tutdu:

– Gözün Qaranın üstündə olsun, qardaşını sənə tapşırıram!

İçimdə sevindim. Atam mənə iş buyurmuşdu, boynuma vəzifə qoymuşdu.

Qara iynəsini vurdurub gəldi. Oturan kimi bayaqkı söhbəti yekunlaşdırdı:

– Hə, ertəsi gün yol hazırlığı görüb məni bir praporşikə (*gizirə*) qoşdular. Qatara minib Qazaxıstana yola düşdük. Balxaşdakı hərbi hissəmizdə cəmi dörd gün qaldım. Günorta vaxtı çöldə təpəmə gün döydüyündən yıxılıb huşumu itirmişəmmiş. Ayılanda özümü burda, hospitalda gördüm.

Üç saata yaxın Qaranın yanında oldum. Yəhudi həkimi əmin etdi ki, qorxulu bir şey yoxdur. Qardaşın sağlamdır, psixoloji zədə alıb.

İkilikdə qalanda qardaşıma "psixoloji" dərs keçməyə başladım. Diqqətlə qulaq asırdı. Gözləyirdim ki, axırda "Başa düşdüm!" deyib məni arxayın salacaq. Ancaq son sözü belə oldu:

– Şüalanmaqdan qorxmamışam. Kiçikliyimi, gücsüzlüyümü anladığım üçün içimi yeyirəm. Elə bir hadisə baş verə bilər ki, qarşısında hamımız aciz qalarıq.

Çoxdan başımda olan bir fikri dedim:

– Adam bir insanın edə biləcəklərindən artıq iş görmək istəyəndə gücsüz olur, yadında saxla. Yüz kilo qaldıra bilən pəhləvanın gücü iki yüz kilo qarşısında heçə bərabərdir. Gücün çatandan yapış. Onda əzab da çəkməzsən.

Biz ayrılanda qardaşım mənə bir məktub uzatdı və dedi:

– Haçan sənə yazıb razılıq versəm, zərfin üstündəki telefon nömrəsinə zəng edib bu məktubu verərsən.

Heç nə deməyib məktubu qoyun cibimdə gizlətdim.

Bakıya nigaran qayıtdım. Qaranın verdiyi məktubu bərk yerdə gizlədəcəkdim. Onun yazdığını açıb oxumağa qəti həvəs göstərmədim. Bəlkə də bu, qardaşımın sevdiyi qıza vida məktubu idi. İnanmırdım məktubda Qaranın qorxaq bir cümləsi ola. Biz elə mühitdən çıxmışdıq ki, o, ölümdən qorxa bilməzdi. Amma ayrılığa nə deyəsən? Ayrılıq ölüm şəklində də ola bilərdi.

Hə, biz kriminal aləmdə böyümüşdük. Bu mühitdəkilər yaddaşımızın böyük bir hissəsini işğal etmişdi. Hər gün keçmişi qaranlıq olan adamlarla üz-üzə gəlirdik. Məktəbdə sinif yoldaşlarımın neçəsinin ya atası, ya əmisi, ya dayısı, ya xalasının əri, ya bibisinin kürəkəni, ya uzaq qohumu, ya qonşusu, ya da mütləq kimisə ... türmədə, zonda gününü sayırdı. Siqaret, nəşə çəkmiş, içkilərdən dadmış, qumar oynayanların başının üstünü kəsdirib durmuş, türməyə, həbsxanaya peredaça (*dustağa ötürülən yemək*) aparmağın nə demək olduğunu bilən, danışığında yatıb-çıxmışların jarqon sözlərini işlədən həmin sinif yoldaşlarım içəridəkiləri kişi hesab edirdi və öz yaxınları ilə qürrələnirdilər. Hətta bəzisinin ən böyük arzusu gələcəkdə türmədə yatıb, ordan "vorzakon" (*vor v zakone – qanuni oğru*) kimi çıxmaq idi. Türmədə heç kəsim olmadığına görə mənə yanpörtü baxırdılar. Sonralar sinif yoldaşlarımdan neçəsi tutulacaqdı.

Sinif yoldaşım Səmədağa yadıma düşür... Dərsdən kənarda da tez-tez yanımızda olan, danışılan məzəli əhvalatlara, zarafatlara hamıdan çox və uzun gülən, məktəbə candərdi gəlib-gedən, oxumaqla arası olmayan, ağzıayrıq, evdə ağlayıb-sıtqayıb dədəsindən pul qo-

pardaraq fotoqrafa müğənni Zeynəb Xanlarovanın şəkli ilə öz şəklini bitişdirib böyütdürən, şüşəli çərçivəyə saldırıb evlərinin divarından asdıran və bununla öyünən Səmədağa törətdiyi cinayətlə hamını dəhşətə gətirmişdi. Gör kim sinif yoldaşım olmuşdu? Gör kimə min dəfə salam vermişdim? Əl verib görüşmüşdük, qarşı-qarşıya oturub çay içmişdik, çörək yemişdik. O, bizdə olmuşdu, mən onların evində dəmiryolçu işləyən atasının söhbətlərinə qulaq asmışdım. Sinfimizdə yeganə oğlan idi ki, heç vaxt sözümüz çəp gəlməmişdi. Səmədağanı belə qəddarlığa gətirib çıxardan nə idi? Nə qədər amansız imiş? Keçmiş sinif yoldaşım bizdən üç-dörd sinif aşağı oxumuş Qönçəni...

Demə, yeniyetmə vaxtı Qönçəni gizli-gizli sevirmiş. Səmədağa əsgərliyini çəkəndən sonra Baykal-Amur magistralının tikintisində iki il yarım işləyib geri qayıdır. Qız ərə gedib, bir uşaq da doğubmuş. Bir gün küçədə səkkiz yaza-yaza gedərkən Qönçəyə rast gəlir və qəfildən ona eşq elan edir. Qız sərxoşa baş qoşmur, sovuşub gedir.

Həmin görüşdən sonra Səmədağa cəsarətlənir. Qönçənin əri Bakı-Tiflis avtomobil yolunun üstündəki bir restoranda işləyirdi. Həftəaşırı gecələr evə qayıtmırdı. Bunu bilən Səmədağanın əlinə girəvə düşür. Bir gecə dərə xəlvət, tülkü bəy, Qönçəgilin hasarını aşıb həyətə girir, birayaq-birayaq evin kandarına yaxınlaşıb kənardan görünməsin deyə artırmanın tavanındakı elektrik lampasını buraraq söndürür, sonra qapını döyür. Taq, taq, taq. Qönçə qapını dinşəyir. Qapı arxasından xışıltılı, pıçıltıdan azacıq hündür səs gəlir:

– Qöncə, aç mənəm! Sözüm var.

Qönçə səsi tanıyır və astaca cavab verir:

– Səməd, qışqıra bilmərəm, uşaq yatır. Ağlını başına yığ! Sən Allah, necə gəlmisənsə, elə də çıx get!

– Ağlım başımdadır, Qönçə! Sənsiz dura bilmirəm.

– Qeyrətin olsun, Səməd! Axı, ərimə qohumluğun çatır.

– Sən Cuqquşluq *(Qönçənin əri Cavanşirə uşaqlıqda "Cuqquş" deyirdik)* deyilsən. Səni götürüb uzaqlara qaçıracağam. Sibirdən o boyda yolu basa-basa sənin dalınca gəlmişəm.

– Mənərimi sevirəm. Çox nahaq gəlmisən. Bəyəm sənə xəbər yollamışdım?

– Həmişə fikrimdə olmusan, Qönçə! İşləyib pul yığmışdım ki, gəlib səni alım. Ərə getdiyini eşidəndə dünya mənə dar oldu.

– Elə eləmə gecənin bu vaxtı qışqırıb aləmi yığım bura. Rədd ol, çıx get!

– Qapını aç, sözümü deyib, gedirəm.

– Onu görməzsən! Sözünü dedin, cavabını da aldın.

– Yaxşı, sən deyən olsun, gedirəm. Ancaq yaxşı-yaxşı fikirləş. Yenə gələcəyəm.

Qönçə arada gəzən söhbətlərdən Səmədağanın bu yaxınlarda yenə də Sibirə qayıdacağını eşitdiyindən o qədər də narahat olmur. Sirri açıb, ərini yerindən oynatmaq istəmir. Düşünür ki, Səmədağadır də... Yaramazın biri... Yəqin könlünə qadın düşüb, elə bilib bura da Sibirdir, əri evdə olmayan qadının qapısını döymək olar.

Sonra Səmədağa bir dəfə də Qönçəni yuxusuna haram qatır, ancaq istəyinə çata bilmir. Üçüncü dəfə isə...

Axşam Səmədağa toyda düt deyincə vurur. Qabaqlar adama çəkinə-çəkinə salam verən keçmiş sinif yoldaşım indi təlxəklik eləyir, oynayır, tullanıb-düşür, qabağına çıxanı qucaqlayıb öpür, hətta arada rusca söyüşlər də söyürmüş... Hamı təəccüblənir ki, bu gədə iki-üç ilin içində nə yaman xarab olub.

Doğrudan da, Səmədağa dəyişibmiş. Toydan çıxıb yenə gizlicə özünü Qönçəgilin həyətinə verir. Həmişəkindən tez gəldiyinə görə hasarın dibində çöməlib bir siqaret yandırır. Gözləyir ki, küçədən ayaq səsləri kəsilsin. Az keçmir, Qönçə həyətə enib hamama girir. Fürsəti qaçırtmayan Səmədağa sivişib evə soxulur.

Geri dönən Qönçə Səmədağanı qonaq otağının ortasında görəndə özünü itirmir, qışqırmır. Gərilib üzlü qonağa ötkəm-ötkəm deyir:

– Hə, eşidirəm, danış!

Səmədağa sərxoş olduğu üçün deyilən sözləri Qönçənin ona meydan oxuması kimi başa düşür. Vəhşi ehtirası onu yerində dingildədir. İstəyir ki, bu dəqiqə Qönçəni basmarlayıb altına bassın. Hərəkətə gəlir. Qadın ayı kimi irəliləyən rəqibinə qarşı çıxmaq üçün özünü toplayır. Bizim şuluq mühitdə uşaqlıqdan küçə davalarını çox görmüş Qönçə geri çəkilməyib, özünü qorxaq göstərməyin yer-

siz, sərxoşların adətən gücsüz olduğunu düşünüb qəfildən atılaraq Səmədağanı qapıya tərəf itələyir. Başı divarın tininə dəyən sərxoş bir anlıq özündən gedir, qapının qabağına yıxılır. Qönçə istəyir ki, təcavüzkarı sürüyüb bayıra atsın. Onun paltarından yapışıb var gücü ilə dartsa da, leş dalınca gəlmir. "Oğraş, sənin başını kəsəcəyəm!" deyib mətbəxə qaçır. Həyasız qonaq özünə gəlib deyiləni eşidibmiş. Ev sahibəsi əlində iri bıçaq geri qayıdanda Səmədağanı ayaq üstə möhkəm dayanmış görür və duruxur, canına üşütmə gəlir. Səmədağa "Qancıq, məni öldürmək istəyirsən?!" deyib, cavab gözləmədən şikarına cumur. Qönçə bıçağı işlədə bilmir, əlindən salır. Azğınlaşmış kişi qorxudan səsi batan qadını azacıq süpürləşmədən sonra yerə yıxıb üstünə çıxanda zərif məxluq yenidən qüvvətlənir. Erkək-dişi davası başlayır. Erkəyin zorlamağa gücü çatmır, dişi isə qurtulmaq üçün əl-qol atır, sinəsinə çökmüş iyrəncin üz-gözünü cırmaqlayır, onu sərbəstləşməyə qoymur. Zərif məxluq hələ də qalib gələcəyinə inandığından qışqırmır, güc vurur, boğuq səslər çıxardır. Qonşu yataq otağında isə doqquzaylıq körpə heç nə eşitmədən mışıl-mışıl yatır. Axırda heydən düşdüyünü hiss edən Səmədağa yerdəki bıçağa əl atır, Qönçəni qorxutmağa başlayır: "Ya razı olacaqsan, ya da boğazını sərçə boğazı kimi üzəcəyəm."

Qönçənin üzü dönüb:

– Əl çək, onu görməyəcəksən!

Səmədağa ya tövşüdüyündənmi, ya azacıq ayıldığındanmı vəziyyəti yumşaltmaq istəyir:

– Xahiş elə, yalvar, buraxım!

Qönçənin hələ də gözlərindən çınqı çıxır:

– Sən binamussan, murdarsan, heyvansan!

Səmədağanın gözləri yenidən alacalanır:

– Bu şirin səsnən məni söymə, zalım qızı, olan-qalan ağlımı da başımdan alırsan!

Səmədağa əlindəki bıçağı yanına qoyur, vəhşi kimi Qönçənin üst, alt paltarlarını cırıb əynindən çıxartmağa başlayır. İki əli dörd olur.

Qönçə soyuq silahı götürmək istəyəndə qızmış pələngin dörd əlindən biri bıçağı qapır. Bıçaq boğazına dirənəndə də, qadın güclü müqavimət göstərərək söyməkdə davam edir.

Yüz qat qızıxmış Səmədağa əvvəlcə ovunu boğmaqla istəyinə çatmaq istəyir, bunu bacarmadıqda bıçağı Qönçənin boğazına çəkir və canverən qadına belini boşaldır.

Bayaqdan danışdıqlarım istintaq-ekspertiza sənədlərindən, cinayətkarın məhkəmədə söylədiklərindən və verdiyi yazılı ifadələrdəndir.

Hadisə baş verən gecə Bakıdan evimizə qayıtmışdım. Bəlkə də mən həyətimizə girəndə Səmədağa da yeddi-səkkiz həyət o tərəfdə Qönçənin hasarından içəri tullanmışdı.

Səhər hay-küyə yerimdən dik atıldım. Tələm-tələsik paltarımı əynimə keçirib küçəyə çıxanda Balaşa rast gəldim. Qonşum və uşaqlıq dostum məsələnin ucundan-qulağından eşitmişdi. Biz hadisə yerinə çatanda gərginlik pik nöqtəsində idi. Həyətdə ağlaşan bir topa arvad və vurnuxan on-on beş kişi özlərini itirmişdi. Qönçənin əri Cavanşir hələ gəlib çıxmamışdı. Çətin anlarda özünü təmkinli aparmağı bacaran Balaşın dalınca evə girdim. Meyit ortada idi. Şəhərimizin məşhur kriminalı Babayar – o, bu cümlədən əzəmətli addımlarla əsərimizə daxil olur və axıra qədər bizimlə qalacaq – döşünü qabağa vermişdi. Onun təkidi ilə hadisə yerində heç nəyə əl vurulmamışdı. Yalnız meyitin üstünə boyaboy ağ mələfə çəkilmişdi. Ətraf qan olduğu üçün mələfənin qıraqlarında iri qırmızı ləkələr vardı. Qönçənin üst və alt paltarlarının cırılıb atılmış parçaları ətrafa səpələnmişdi. Hamı milisin, prokurorluq işçilərinin gəlişini gözləyirdi. Amma pıç-pıçlardan cinayətkarın kim olduğu bəlli idi. Sən demə, Qönçə bir neçə dəfə Səmədağanın onların qapısını döydüyünü anasının ovcuna qoyubmuş.

Bir azdan hüquq-mühafizə orqanlarının işçiləri tökülüşüb gəldilər. Babayardan başqa hamını çölə çıxardıb təhqiqata başladılar. İşləri uzun çəkdi. Həyət adamla dolmuşdu. Uğultudan qulaq tutulurdu. Milislər, müstəntiqlər evdən həyətə düşüb meyitin basdırılmağına icazə verəndən sonra Babayar onlara artırmadan üz tutub dedi:

– Bu qədər adamın içində deyirəm, qatilə güllələnmə kəsilməsə, o oğraşı türmədə ya özüm öldürəcəyəm, ya da öldürtdürəcəyəm!

Qaçıb gizlənmiş Səmədağanı Binə aeroportunda tutub içəri atdılar. Törətdiyi cinayəti dərhal boynuna almışdı.

Məhkəmədə Səmədağaya güllələnmə kəsdilər. Babayarın da sözü yerə düşmədi.

Səmədağanı xatırlayanda üşənirəm.

Xüsusi amansızlıqla adam öldürmüş Səmədağa ilə qol-boyun şəklim vardı. Şəkildə elə gülür ki... Nədənsə fotonu cırıb atmamışdım.

Qəribə idi, bazar günləri üç-dörd lovğa, yeriyəndə ayağının altını görməyən, Çkalov küçəsindən olan davakar sinif yoldaşlarım qabağımı kəsib ərklə məni çayxanaya dartanda həmişə fikrim başqa yerdə olardı. Sinif yoldaşım Ağa əlini açıb gözlərimin qabağında oynada-oynada deyərdi: – Qada, gedək çaylamağa! Bir azdan fış-fışa ilə Aya uçacağıq.

Çayxananın küncdəki stolunun arxasında əyləşən kimi stulun yırtıq meşininin altından balaca yumru düyünçə çıxardardı. Nəşə düyünçəsi stulun üzlüyünün altına neçə gün qabaq, bəlkə də keçən bazar günü dürtülübmüş bilməzdim. Gözü-başı qaynayan Eynulla "Kazbek" qutusundan bir gilə götürüb eydirə-eydirə tütününü boşaldır, sonra səliqə ilə eşdiyi nəşəni cığara gilizə doldururdu. Nəşə təpişdirilmiş papiros yandırılar, mübarək tüstü itməsin deyə onların dediyi kimi "kruq"a (*dövrəyə*) buraxılardı. Yoldaşlarımdan geri qalmamaq üçün tələsik bir qüllab alıb, sonra papirosun közünü iyləyib ötürərdim. Papirosdan hərəyə iki-üç qullab düşərdi. Deyirdilər türmədə nəşənin çəkilmək qaydası belədir. Bir-iki stəkan çay içəndən sonra ikinci "hoqqa" (*nəşənin bir adı da belə idi*) hazır olurdu və yandırılıb dövrəyə buraxılırdı. Məndən başqa hamı hallanırdı. Özümü "uy" kimi göstərirdim. Çünki siqaret çəkə bilmirdim, tüstünü elə-belə ağzımda saxlayıb çölə üfürürdüm. Hərdən özümü peşəkar kimi aparıb tüstünü burnumdan buraxırdım. Yoldaşlarım əmin olurdu ki, nəşəni zay eləmirəm. Amma məni hallandıran həyatın özü idi, başqa cür qurulmuşdum.

Uşaqlıqdan qulağımda narkotika ilə bağlı bir deyim qalıb. Ətçi Nəsrulla yalnız xususi müştərilərinə satdığı cöngə ətini belə təriflərdi:

– Sənə elə-belə yox e, kakain kimi ət verirəm.

Əvvəl elə bilirdim "kakao" deyir. Sonra qurd uşaqlar başa saldı ki, ətçi özü də hal əhlidir, kokain həvəskarıdır.

Onu deyim ki, bizim tərəflərin “nəşə” adlandırdığı anaşanın iyi həmişəlik burnumdadır. Restoranda, otaqda, qatarda, maşında çəkiblərsə, mütləq hiss eləməliyəm.

Hə, türməni də gedib görmüşdüm. Deyim də necə? Qonşuluğumuzda bir Həvva arvad vardı. Əri çoxdan ölmüşdü. Uzun illərdi bazarda alver eləyirdi. Xırım-xırda şeylər satırdı. Gözümü açıb onu bazarda görmüşdüm. Hündür, qara, erkək arvad idi. Yayda taxtalı tuman, gen kofta, qışda qalın don, isti sırıqlı geyər, başına şal örtərdi. Təsəvvür edin, həftə bazarında hamı ət-ətədir, adamlar qarışqa kimi qaynaşır, Həvva arvadın səsi kəsilmək bilmir.

Gəlin, tamaşa edək:

Müştəriyə mal satır:

– Götür, gözünü döymə, Seylon çayıdır. – Müştərinin düşünüb götür-qoy etdiyini görüb – Əşşi, tez ol, əlin cibində olsun! Bəs olanda deyərsən. – deyir və çay qutusunu bir-bir zənbilə yığır.

Müştəri “Bəsdir!” – söyləyir, malın pulunu verib uzaqlaşır.

Yenə həşirdədir:

– Droj! Droj! (*acıxəmrə*) Sinka! Sinka! (*paltar yaxalamaq üçün göy toz*)

Ara verib, kağız torba almaq istəyənə – Hansından? On köpüklük, yoxsa iyirmi köpüklük? – deyə soruşur, istəyə uyğun kağız torbanı uzadır. Qəpiyi müştəridən alaraq konserv qutusundan düzəltdiyi daxıla atıb, yanından salamsız keçən və əl atıb havayı nəsə götürən sürtük, yekəqarın milislə öcəşir:

– Adın Lazımdı, özün heç nəyə lazım deyilsən. Arsız-arsız qarnını qabağa verib düşmüsən dalınca. Allahın salamı da dilindən qaçaq düşüb.

Milis geri qanrılıb irişir, qızıl dişlərinin parıltısı yağlı üzünə yayılır.

Həvva arvad da gülümsəyir: – Lazım, xoşum gəlir sənin fətir üzündən. Nə mal götürürsən, götür, əvəzində bir dəfə dişlərini saralt, bəsimdir.

Və ətrafa:

– Sancaq! Daraq! Oymaq! Quymaq! (*Sonuncu sözü atmaca kimi atır. Sanki o biri alverçilərə meydan oxuyur*)

– Belə əleykəssəlam, iki də artıq! – Kiminsə salamını alır. Ağzını açıb yenidən müştəri çağırmaq istəyəndə tanış bir gəlinin qucağındakı uşağı görüb körpəni əzizləməyə başlayır:

– Caan! Belə başuva dolanaram! Qadoy alaram! – Uşaq dilinə keçir – Nənənin yanına dəlmişdün? Maşallah! Maşallah! – Gəlinə – Az, bu oğlandı, qız?

Gəlin cavab verir:

– Oğlandı, Həvva xala!

Həvva:

– Qız yaraşığı var kopoyoğlunda. – Qaşlarını çatır – Uşağa göz dəyər, apar bunu burdan, üzərrik yandırıb dolandır başına.

Sonra ürəyi durmur, gəlinə “Dayan, dayan!” deyib ovcunda peyda olan gözmuncuğunu uşağın yaxasına taxır və gəlin üçün uşağın bələyinin arasına üç-dörd konfet dürtür. Gəlin dua edə-edə ondan aralananda Həvva arvad qabağından şirinquş oğurlamaq istəyən uşağı görüb üstünə çımxırır:

– Nə sülək gədəsən? İstəməyi başarmırsan, gərək çırpışdırasan.

Həvva arvad yan-yörəsinə göz qoya-qoya cibindən “Avrora” qutusunu çıxardıb şəstlə damağına bir siqaret qoyur və müştəriyə yandırtdırır. Siqaret çəkdiyini çoxdan bilirəm, onbeşgündə, ayda bir dəfə axşamüstülər bazar soyuyandan sonra Məşədi Zeynəb nənəmə dəyməyə gəlir. Hər dəfə qurşağından bir ovuc Moskva (*bazarda Moskva konfetləri də satır*) konfeti çıxardıb nənəmə, Qaraya, mənə paylayır (*Nənəm də borclu qalmaz, hərdən atama onun üçün köynəklik, tumanlıq parça aldırar*). Sonra nənəmlə diz-dizə oturub söhbət vurur. Anam onlara çay verib çəkilir. Tütünün tüstüsü aləmi bürüyür. Həvva arvad İrandan-Turandan danışıb ürəyini boşaldır, nənəm təzə xəbərlərdən çinədanını doldurur və sağollaşıb ayrılırlar.

Yenidən Həvva arvadın səsi gəlir:

– Yaxşı İran xınası, sarıkök, zəfəran...

Birdən gözləri mənə sataşır:

– Ədə, nə burnunun suyunu axıdıb məni marıtdayırsan? Həvvanı təzə görmüsən? Nənən necədir? Nə istəyirsən?

Yalnız sonuncu suala cavab verirəm:

– Nənəm lampa piltəsi almağa göndərib məni.

O, qabağındakı zənbillərdən birini eşib iki piltə çıxardır, mənə uzadır:

– Birini də artıq götür! Ehtiyat üçün.

Verdiyim göy üçlükdən iki manat çıxıb sarı təkliyi qaytarır.

Elə bu vaxt bir az aralıda səs-küy düşür. Ətraf kəndlərdən bazara tərəvəz, ağartı gətirənlərdən ikisi nə üstəsə ağızlaşır. Biri ağır söyüşə keçəndə Həvva arvad mallarını mənə tapşırıb irəli cumur. Bir göz qırpımında bazarın yiyəsi kimi kişinin yaxasından yapışıb deyir:

– Belə keç görüm!

Onu darta-darta bazarın ortasına çəkir. Qaxaca oxşayan əyri-üyrü kişinin matı-qutu quruyub. Həvva arvad atamanlıq edir:

– Nə şeyünnən yapışmısan? Şey görməmüşük?

Biədəb danışan kişinin gözləri hədəqəsindən çıxır, çünki üstüörtülü yazdığımı, Həvva öz adı ilə çağırır.

Satıcıların, alıcıların çoxu Həvva arvadı yaxşı tanıdığından ona qahmar çıxırlar. Kişi yumulub yumağa dönür, qələt elədiyini anlayıb mumlayır.

Atəş nöqtəsini susduran Həvva arvad sinəsini irəli verib döş oğlan kimi iş başına qayıdır və mən postu təhvil verirəm.

Həvva arvaddan bir əhvalat da danışım:

Bir dəfə məşhur artist Lütfəli Abdullayevin yolu buralardan keçərkən dönür bizim bazara. Adamlar artisti görən kimi curlaşırlar onun başına. Lütfəli Abdullayev gözü yediyi adamların hərəsinə bir məzəli atmaca atıb başına yığışanları güldürür. Həvva arvadın yanına çatanda yerdə ayağı bağlı qəşəng satlıq bir xoruz görüb məzələnir:

– Xala, neçəyədir? – Sonra da əlavə edir – Öz qiymətini yox ha, xoruzunkunu soruşuram.

Həvva arvad pıqqıldayır:

– Xoruzun özünü dindir!

Lütfəli Abdullayev bazarda nəhayət bir hazırcavaba rast gəldiyinə sevinib səhnədə imiş kimi xoruza üz tutur:

– Xoruz bəy, dillən görək!

Həvva arvad xoruzdan necə çimdik götürürsə, yazıq heyvancığaz ətürpədici qıy-qışqırıq salır.

– Xalacan, nə deyir?

– Xoruz deyir ki, şəkili Hacı dayının törəmələrindənəm. Qızıxanda erkək-dişi bilmirəm, qabağıma çıxanın işini bitirirəm.

Lütfəli Abdullayev şaqqanaq çəkib əlini-əlinə vurur və deyir:

– Xala, yerlimdən muğayat ol, böyük nəsildəndir!

Hə, gülmək qurtardı!

Qayıdaq bayaqkı söhbətə.

Həvva arvadın aman-zaman tək oğlu Kakan (*əsil adı Kəmaləddindir*) türmədə idi. İki ildi yatırdı. Ana ayda bir dəfə zənbilini, torbasını qalaqlama doldurub üz tuturdu Bakıya.

Çox istəyirdim biləm Həvva arvad iri zənbilə, yekə torbaya nə doldurub özünə şələləyir.

Bir gün Həvva arvad qapımızdan girdi. Atam, anam, Qara evdə yox idi. Həmişəki kimi nənəmin yanında əyləşib yerini rahatladı. Bir azdan siqaretə dəm verdilər, ordan-burdan söhbət başladı. Anam evdə olmayanda qonağa və nənəmə çay düzəldib gətirmək, sonra süfrəni yığışdırmaq işinə mən baxırdım. Onların qabağına çay qoydum. Həvva arvad söhbəti dolandırıb mətləb üstünə gətirdi. Nənəmə dedi ki, sabah səhər uşağın (*oğlunun*) yanına gedəcək, yükü çoxdur, istəyir Qaranı da özünə yol yoldaşı götürsün. Sözündən belə çıxdı ki, ora-bura qaçanda qardaşım onun apardığı ayın-oyundan muğayat olmalıdır.

Nənəm kəsə cavab verdi:

– Qara hələ uşaqdır, bərkiməyib, onu yox, bunu – mənə işarə etdi – apar!

Həvva arvad nənəmin ötkəm xasiyyətini bildiyindən əlacsız qalıb razı oldu. Üzünü turşudub mənə baxdı, yəni məndən ona yoldaş olar? O yorğa, mən astagəl. Mənimsə fikrimi soruşmaq lazım deyildi, təki harasa getmək olsun! Artıq yerimdən oynamışdım. Həmişəki kimi sabah bir yerə gedəcəkdimsə, gecəni az qala dirigözlü açardım.

Yaxşı ki, axşam atam-anam nənəmin sözünü sındırmadı, getməyimə razı oldular. Həmin gecə elə bil sinəmi şar kimi üfürüb doldurmuşdular. İlahi, bu duyğunun adı nədir? Həyat eşqi budurmu? Yer

kimi, göy kimi, gecə kimi, gündüz kimi, bütün gördüklərim kimi, nənəm də, elə Həvva arvad da bilmirdi ki, onlar məni necə çalxalayıb duyğulandırıblar.

Bilmirdim, nədənsə Həvva arvada qanım qaynayırdı. Sonralar anlayacaqdım, həmin vaxt yaşı qırx beşi təzə adlamış bu arvad qadınlıq hisslərinə tamamilə yadırğamış, kotan çəkən öküzə dönmüşdü. Sanki instinktlərlə yaşayırdı. Hər an onu yalnız bivec, yaramaz oğlunun taleyi maraqlandırırdı.

Bir dəfə Həvva arvada lap acıdım. Nəsə almaq üçün bazara girib gördüm ki, öz işini başqasına tapşırıb şıdırğı balıq satır. May ayı olsa da, bərk isti qalxmışdı. Həvva arvad qan-tər içində tez-tez əyilib-qalxır, əllərində oynatdığı balıqları növbəyə düzülmüş müştərilərə verirdi. Arada əlini əskiyə silib balıqların pulunu alır, sonra yenə işə girişirdi. Əynində sinəsi açıq güllü-güllü çit don vardı.

Yaxına gəlib Həvva arvada və balıqlara baxırdım. Vannanın içində çox da iri olmayan xeyli çəki atılıb-düşürdü.

Həvva arvad yenə əyilib yeşikdən balıq götürəndə torbalanmış döşü donunun yaxasından çölə çıxıb sallandı. Arvadın əvəzinə mən özümü itirdim. O isə döşünün hayında deyildi. Dikəlib məni gördü və dedi:

– Ədə, əlim balıqlıdır, döşümü keçirt yerinə!

Onun torbalanmış, tərdən nəmlənmiş, pörtüb qızarmış ağır döşünü iki əlimlə çimçəşə-çimçəşə donunun yaxasından içəri saldım və əllərimə baxmadan su krantına sarı getdim. Yaxşı ki, krantın yanında tilişkə paltar sabunu var idi.

Əllərimi dönə-dönə sabunlayıb yuyandan sonra cib dəsmalımla qurutdum, Həvva arvad tərəfə boylandım. O öz işində idi.

Alatoranda Həvva arvad deyilən vaxtdan qabaq məni qapılarında görəndə gözlərinə inanmadı. Yəqin düşünürmüş ki, sandıq tulası kimi dalına salmaqdan ötrü, məni hələ sürüyüb yuxudan durğuzmaq lazım olacaq.

Gücənsəm də, hıqqansam da, evdən qatara, qatardan avtobusa, avtobusdan türmənin həyətinə qədər Həvva arvadın bir zənbilini daşıdım.

Həvva arvadın bazardakı hökmü burda da keçirmiş. Adamları yara-yara özünü irəli verdi. Nəzarətçilər onun üzünə xoş baxdı, hətta kefini də soruşdular. Həvva arvad əlibərk deyildi, qulluğunda durana qulpundan çıxanı verəndi.

Görüş vaxtı çatdı. Adam yiyələri içəri təpildi. Kakan bizi gözləyirmiş. O, anası ilə görüşəndən sonra məni bağrına basıb qucaqladı.

– Qırışmal – dedi – yekəlib mənə çatmısan ki... Böyüdükcə buruna verirsən. – Sonra da ərklə sözünü bitirdi – Ancaq burnunu hər yerə soxmasan, qorxusu yoxdur.

Məndən cavab almamış anasına dedi: – Məmə, gələn dəfə Qaranı gətirərsən! Mənim adamım odur!

Öz-özümə düşündüm, "Demək bu dombagözün də ürəyinə yatmırmışam."

Stol başında oturduq. Baho, burda çayçı da varmış ki... Qabağımıza bir yekə çaynik çay qoydular. İkibir-üçbir hərə bir tərəfdə bizim kimi ya stol arxasında, ya da ayaq üstə, eyni cür qara dustaq paltarı geymiş adamlarla qızğın söhbət edirdi. Öyüd-nəsihət verən kim, peşmançılığını bildirən kim, doluxsunan kim, gülümsəyən kim, susub boynunu buran kim. İçəridə məndən başqa donuq adam yox idi. Bəzi dustaqların gözü adamı yeyirdi. Bəlkə də, mənə elə gəlirdi. Axı, burda yeni adam idim. Görünür, ətrafa döyükə-döyükə baxmağım diqqəti cəlb edirdi.

Həvva arvad oğluna gətirdikləri barədə dəqiq məlumat verirdi. Səhərdən qan-tər içində daşıdığım ağır zənbilin içində nə olduğunu bildim. Hə, deməli, dustaq yanına bunları aparırlarmış; dəyişək alt paltarı, dəsmal, corab, diş fırçası, sabun, qablara doldurulmuş üç-dörd löyün ət yeməyi, toyuq soyutması, quru balıq, konservlər, qaynanmış yumurta, çay, kartof, istiot, duz, meyvə, göy-göyərti, siqaretlər, dərmanlar... Bir sözlə, bizim evdə işlətdiklərimiz. Deyəsən, türməni bizim üçün çox şişirdiblər. Bura cəhənnəm-zad deyilmiş. Yarımca saatın içində həbsxanaya, dustaqlara isinişdim. Daha mənə də kimsə tərs-tərs baxmırdı. Birdən Kakan məni fikirdən ayırdı:

– Elə bilirsən srok (*cəza müddəti*) sarımaq halvadır? Belə görüş-mörüş, dəm-dəsgah hər gün qurulmur ey. Dilin-dilçəyin olmayanda burda adamı minirlər. Gərək gözdən tük qapasan.

Yəqin göstərmək istəyirdi ki, qabağından yeyən oğlan deyil.

Həvva arvad mənə işarə edib oğluna dedi:

– Saqqa uşaq imiş. Mən bunu belə bilmirdim.

Kakan əlini kürəyimə vurdu:

– Qada, heç vaxt pampaq olma! Oğul gərək Həştərxan atı kimi tez qızsın!

Kakanın, özü demişkən, "xlebnik"lərindən (*eyni kamerada yatıb, eyni süfrədən yeyənlər*) ikisi gəldi və onlar gətirdiklərimizdən yüklərini tutub getdilər.

Biz bayıra çıxanda bir anlıq mənə elə gəldi ki, doğrudan da indicə həbsxanadan buraxılmışam. Zarafat deyildi, türməni görmüşdüm. Lazım gələndə yekə-yekə danışan sinif yoldaşlarımın ağzından vura bilərdim. Heç də onların hamısı həbsxanada dustaq görüşünə gəlməmişdi.

Bir gün səhər obaşdan anam həyəcanla bizi yuxudan oyadıb dedi:

– Durun, nənəniz can verir! Tez... Tez olun, arvad sizi arzulayır!

Qara ilə atılıb yerimizdən durduq, bir göz qırpımında şalvarımızı geyindik. Tələm-tələsik üzümüzə su çəkib nənəmiz yatan yan otağa keçdik. Biz içəri girəndə atam nənəmin üzünü qibləyə çevirirdi. Ancaq hələ arvadın ağlı üstündə idi. Onun gözlərinin önünə gəldik. İçəridə vahiməli bir sükut vardı. Birdən nənəm qırıq-qırıq nəsə deməyə başladı. Dördümüz də qulaq kəsildik. Üç dəfə "oleydi" deyə-deyə nəsə diləyirdi.

Anam pıçıldadı:

– Nənəniz bayatı çağırır.

Nənəm susandan sonra udqunub Qaranın adını çəkdi, son gücünü toplayıb ona dedi:

– Səni görəndə elə bilirəm baban Qarakişi də yanımdadır. Bala, yerimiz-yurdumuz yol ağzındadır. Hər otuz-qırx ildən bir loya düşürük, ölüm-itim olur. Bərk durun! Ayaq altda qalmayın!

Daha dili söz tutmadı.

Nənəm bu dünyanı Qaraya tapşırıb getdi.

Qardaşım özünə görə deyildi, Babayar kimi adamla salamməliki vardı. Babayar xırda cinayətlər üstə dəfələrlə oturub-çıxmış adam idi. Bəlkə də onu qabaqlar görmüşdüm, bilmirəm, amma altı yaşımdan üzü bəri yadımda qalandır. Bir dəfə iki hasarın arasındakı dar cığırla gedirdim. Birdən qarşıdan vahimə yaradacaq qədər uzun, bədheybət bir adamın hər əlində yekə bir bıçaq nərə çəkə-çəkə mənə tərəf qaçdığını gördüm. Elə bildim, mənim üstümə gəlir. Geri çevrilib bağıra-bağıra qaçmağa başladım. Qanrılıb baxanda əlibıçaqlı lap yaxınlaşmışdı. Bağrım yarıldı, daha da ucadan qıyya çəkdim. Bir də onda gördüm ki, üstümdən bir şey tullanıb keçdi, yeli məni vurdu. Bayaqdan dalımca düşən, boyum qıçının yarısınca olan adam indi də irəlidə idi. Təhlükə sovuşmuşdu. Mən dayandım, o, isə aralanıb gözdən itdi. Qadın səsi eşitdim. Yəqin yoldan ötən qonşu arvadlardan biri idi: – "Babayar yenə getdi davaya! Görəsən, yenə kimə arxa çıxır?" Ayıldım, demək Babayar bu imiş. Özümə gəldim. Bu adama gendən-genə qanım qaynadı. Adını eşitmişdim. Ətrafımda uşaqlar, böyüklər tez-tez ondan danışırdılar. Ondan ki, heç kəs qorxmurdu. O, həmişə əl tutmağı sevərdi. Kiminsə üstündə özünü zibilə salıb ilişdirərdi. Heç vaxt öz xeyri ucbatından tutulmamışdı. Bir həsirdi, bir Məmmədnəsir. Babayarı qulbeçə yerinə işlədirdilər. Tutaq ki, dost-tanışlarından biri ev tikməyə girişsə də, gücə düşüb, pulu çatmır, iş yarımçıq qalıb. Bu vaxt Babayar Xızr peyğəmbər kimi ev yiyəsindən nə qədər taxta-tuxta, daş-maş lazım olduğunu öyrənib buxarlanır, iki-üç gündən sonra sürücüsü olduğu dolu yük maşını ilə peyda olur. Heç bir təmənnası yoxdur. Bundan kim qaçar? Hərifi bol yemək-içməyə qonaq eləyirlər, vəssəlam. Nə qədər adam onun hesabına ev tikdirmişdi, hasar çəkdirmişdi. Bilənlər vardı ki, Babayar bunları xərc çəkib gətirməyib, gecələr yük qatarlarına minib vaqonlardan boşaltdıqlarıdır. Amma həmin adamlar özlərini o yerə qoymurdular. Belləri ondan möhkəm bağlı idi, əmindilər ki, Babayar tutulsa, heç kəsi satmayacaq, çırpışdırdıqları barədə nəinki itə-qurda, heç dədəsi qəbirdən dirilib gəlsə, ona da heç nə deməz. Onu hamı çox istəyirdi. Özünü yekə tutmazdı, günahını boynuna almaqda ta-

yı-bərabəri yoxdu. Bir dəfə şəhər stadionunda futbol gedirdi. Babayar komandamızın qapıçısı idi. Qapıçı meydançasından kənarda top əlinə dəydi. Vurulan cərimə zərbəsi qapıdan keçdi. Top dəyən əlini qapının dirəyinə çırpıb komanda yoldaşlarından üzr istəyirmiş kimi qışqırdı:

– Uşaqlar, günah məndə deyil, namərd əlimdədir! Bunun içini...

Cuşa gəldik, oyunu udduq. Qızmış komandanın qabağında dayanmaq olardı?

Bir də görürdün Babayarı axtarırlar. Milislərlə siçan-pişik oynayırdı. Məsələn, qaçıb meymun cəldliyi ilə hasarın başından it saxlanılan bir həyətə tullanırdı. Ətrafın bütün itləri ciblərindən çörək parçası, qoğal çıxan Babayarı görəndə səslərini kəsib quyruq bulayırdılar. Milislər həyətdə itə ürcah olurdular. Birdən Babayar hasarın o biri başında yəhərdə oturmuş kimi "Mən Qıratın belindəyəm!" deyib atmacaları ilə onları lağa qoyurdu.

Milislər bir neçə saat ora-bura vurnuxub təngənəfəs olandan sonra Babayar öz xoşu ilə gəlib onların motosiklinə minirdi. Yolda da dinc durmazdı, fürsət tapan kimi sıçrayıb yerə atılardı və kenquru kimi tullana-tullana küçələrdə, döngələrdə, dalanlarda gözdən itərdi. Ancaq "qaçdı-tutdu"nun sonu qəribə qurtarardı. Milislər axşama yaxın kor-peşman şöbəyə girəndə görərdilər ki, baho, Babayar burdadır ki... Özü gəlib təslim olub. Hətta otaqda ayağını-ayağının üstünə aşırıb müstəntiqlə şirin-şirin söhbət edir.

Babayarın məhkəmələrinə çox, lap çox adam yığışardı. Demək olar ki, gələnlərin hamısı məzə üçün toplanardı. Müttəhim mütləq dilə-dişə düşəcək bir-iki söz deməliydi. Heç vaxt ona kəsilən işin müddətindən narazılıq etməzdi, əksinə, hakim son qərarı oxuyandan sonra deyərdi: – Elə dördcə il? – Başını bulayıb camaatı güldürərdi: – Allah bərəkət versin!

Əgər milisləri incitmək üstə mühakimə olunurdusa, zərərçəkənlərə üz tutub hakimə deyərdi:

– Möhtərəm hakim, (*məhkəmənin danışıq qaydalarına tam əməl edirdi*) mənə elə iş oxuyun ki, incitdiklərimin hamısının ürəyincə olsun.

Yaxud, doğmaca əmiuşaqlarının davasında basılan tərəfə arxa çıxaraq rəqibi döyüb şil-küt etdiyinə görə müttəhim kürsüsünə qaldırılanda hakim ondan soruşur:

– Babayar, sualıma səmimi cavab ver. De görüm, ətlə dırnağın arasına niyə girirsən? İki əmioğlu savaşır, sən niyə yuyulmamış qaşıq kimi özünü atırsan ortalığa?

Babayarın cavabına baxın:

– Möhtərəm hakim, vallah, mənimki quru tulalıqdır.

Bir əhvalat da danışım:

Babayar Göyçayda tutulub içəri atılandan sonra görür ki, təcridxanada ona baxan yoxdur. Nə siqaret var, nə yemək-içmək. “Cinayət Məcəlləsi”ni əzbər bildiyinə görə aqibətindən xəbərdardır. Maddəsinə beş ildən səkkiz ilədək iş düşür. Qapını döyüb müstəntiq tələb edir.

Müstəntiq gəlincə ərklə ona deyir:

– Gətirib atıblar məni bura, itirib-axtaran yoxdur.

Müstəntiq rişxəndlə dillənir:

– Sanatoriyadasan?

– İstəyirəm ki, buranı sanatoriyaya çevirim.

– Hmm.

– Sizi xilas etmək istəyirəm.

– Necə?

– Nə qədər açılmayan xırda oğurluq işiniz var, gətirin, hamısını boynuma götürəcəyəm.

Müstəntiq əvvəlcə onun dediyini tam dərk etmir. Az sonra isə gözləri gülür:

– Doğrudan?

Babayar:

– Ancaq bir şərtlə!

– Nə şərt?

– Məhkəməyə qədər mən heç nədən korluq çəkməməliyəm!

Müstəntiq dərhal razı olur.

Babayar tutulub gedirdi. Amma haqqında söz-söhbət səngiməmiş təzədən qayıdıb gəlirdi.

O, tay-tuşları ilə mərc qoşub saatda altmışla gedən qatara minib-düşə bilirdi, hamıdan uzağa, hamıdan hündürə tullanıb oyunu aparırdı. Kartda, nərddə, dominoda əlini görmək olmurdu. Oyunu, mərci udanda uşaq kimi sevinirdi. Udduğu pula udduqlarını qonaq edərdi. Qonum-qonşunun uşaqları danışırdılar ki, Babayar neçə dəfə onları havayı kinoya buraxdırıb. Qəribə idi ki, onunla bağlı söhbətlərin, əhvalatların çoxunu mənə Qara ötürürdü.

Qaranı Babayarla söhbət eləyən görəndə, nədənsə, əhliləşmiş şirlə təlimçinin qol-boyun olmasını xatırlayırdım.

Gedib-qayıtmağım dörd gün çəkmişdi. Səhərüzü idi. Lap uşaqlıqdan obaşdan yola çıxmağı, səfərdən qayıtmağı xoşlamışam. Şəhərdə möhkəm külək əsirdi. Bakının küləyi ya adamı arxadan itələyə-itələyə qovub tələsdirir, ya da döşündən geri basır. Paytaxtımızda lövbər salıb yaşayan çox adamlar Bakının xəzrisinə, gilavarına öyrəşə bilmir, külək ətəyini qaldıran kimi deyinməyə başlayır. Amma mən indi də gecələr vıyıldayan kəmhövsələ Bakı küləyinin səsinə qulaq asa-asa yerimin içində düşünməyi, eşələnməyi, şirin xəyallara baş vurmağı sevirəm. Uşaqlığım, yeniyetməliyim həm öz şəhərimdə, həm də burda keçib. Bakının qulağının dibində doğulduğumuza görə yolunu su yoluna döndərmişdik. Səhər Bakı, günorta Bakı, axşam Bakı. Babayar deyirdi ki, lazım olsa, gündə beş dəfə Bakıya gedib Beşmərtəbəyə əlimi vurub qayıdaram.

İşimiz Bakıdan keçirdi. Ona görə də istər-istəməz yollarda qalmışdıq. Bakıya getməyə nə vardı? Tullan min maşına, Bakıdasan. Alabaş avtobuslar növbədədir. Yarım saatdanbir yola düşürlər. Bundan başqa, Azərbaycanın əksər yerindən Bakıya gedən qatarlar, avtobuslar şəhərimizdən keçir. Getmək də, qayıtmaq da asandan asan. Ayağı yer tutan Bakıya qaçırdı. Bayaq deyəndə ki, tez-tez rayon mərkəzlərinə gedib-gəlməyə dadanmışdım, Bakını saymırdım, Bakıya hamı gedirdi də...

Bakıya az-çox bələd idim. Atam mənə isinişəndən sonra ikimiz, Qaranı da götürəndə üçümüz bazar günləri erkən evdən çıxardıq. Bakıda bir neçə yeri mənə, Qaraya atam özü tanıtmışdı. İlk dəfə onunla "İnturist" mehmanxanasının üç-dörd pilləkən yerə batmış birinci

mərtəbəsindəki kafedə xudmani səhər yeməyi yemişəm. İlk dəfə dənizqırağı “Gilavar” restoranına da məni atam aparıb. Bu restoranı çox sevirdim. İkinci mərtəbədə dalğavari enib-qalxan ağ rəngli tavanın altında oturub yeməkdən, rahat şəraitdən, üzümü sığallayan mehdən həzz alırdım. Söhbətcil olmayan atam da öz aləmində olardı. Xasiyyəti mənə də keçib, hərdən evdə, yolda, küçədə əlimi oynada-oynada dodaqaltı öz-özümlə danışıram. Əlbəttə, bunu kənardan baxanlar deyir, özüm hiss eləmirəm.

Mənim öz Bakım vardı və şəhərdə tək gəzəndə onu daha yaxşı duyurdum. Qara Qız qalasına çıxmağı, funikulyora minməyi, tirdə tüfəng atmağı, dənizdə çimməyi, küçələrdə veyillənməyi xoşlardı. Amma mən Qara kimi qabaqda qaçmırdım. Qız qalasının içindən yuxarı qalxan pilləkənlərdə, yarıqaranlıq araqatlarında ləngiyirdim. Elə bil burda hörgülərə, mazqallara baxıb vahimələnmək, üşənmək istəyirdim, keçmişi təsəvvür eləmək üçün vasitələr, nişanlar axtarırdım. Baxdığıma bir dəfə baxıb, gördüyüm haqda min dəfə düşünürdüm. Sanki, baxdığımda görmədiyim heç nə qalmırdı. Qəribə yaddaşım var. Kimi ilk dəfə harda, haçan, hansı paltarda görürdümsə, elə o şəkildə də birdəfəlik yadımda qalırdı. Uşaqlıqda, yeniyetməlikdə, gənclikdə başıma nə qəribə hadisə gəlibsə, hamısını bircə-bircə bütün təfərrüatı ilə xatırlaya bilirəm. Hərdən keçmiş yoldaşlarımla görüşəndə xatirələrimlə onları təəccübləndirirəm. Əvvəllər elə bilirdim, hamı mənim kimidir. Sonralar anladım ki, hətta atamla da tamam fərqli adamlarıq.

“Neftçi”nin oyununa baxmağa yollananda həmişə narahat olurdum, içimi yeyirdim. Deyəsən, ayağım “Neftçi”yə düşmürdü. Çünki haçan stadiona gedirdim, “Neftçi” uduzurdu. Cəmi bircə dəfə əksinə olmuşdu. Onda da mən birinci hissədən sonra “Neftçi”yə “Eh!” deyərək, əlimi yelləyib çıxıb getmişdim. Futbolçularımız mənim rədd olub getməyimi gözləyirlərmiş, ikinci hissədə iki qol vurmuşdular. O gündən sonra stadionda futbola baxmaqla üzülüşdüm...

Tirdə tüfəng atmağımız vardı. Burda növbə ilə iki yekəpər yəhudu işləyirdi. Öz aralarında rusca danışırdılar. Sanki hardasa gör-

dükləri böyük işlərdən sonra bura dincəlməyə, əsəblərini sakitləşdirməyə gəlmişdilər. Qəpik-quruşa görə iki cantaraq kişinin saatlarla baş girləməsini başa düşmürdüm. Çox səliqəli görkəmdə olardılar. Bəzən onların növbəni dəyişən vaxtına düşürdük. Biri xidmət borcunu vicdanla yerinə yetirmiş kimi məmnun görkəmdə yığışıb gedər, o biri isə ciddi şəkildə işə başlardı. Hərdən şahmat oynayıb ayrılardılar. Qaranın başı tüfəng atmağa qarışanda bir qulağım şahmatda gedişlər edə-edə maraqlı söhbət edən bu yəhudilərdə olurdu. Onlar zəmanədən narazı idilər. Amma narazılıqlarını bizim adamlar kimi hay-küylə ifadə etmirdilər. Danışıqlarında bir gilə də qəzəb yox idi. Asta-asta, qımışa-qımışa sanki üçüncü adama ironiya, rişxənd edirdilər. Biz ucu tüklü güllələrin, qurğuşun qırmaların axırına çıxanda onlardan biri əlindəki kəlbətinlə atdıqlarımızı nişangah tağalağından çıxardıb xallarımızı hesablayar, vurub saldığımız oyuncaq tankları, dovşanları, pələngləri yerinə qaytarardı. Biz təzədən silahlanıb oyuna girişərdik. Mənə qəribə gələn o idi ki, onlar bizə heç bir sual vermirdilər. Bəlkə diqqətimizi yayındırmaq istəmirdilər? Bəlkə, müştəri olmaqdan başqa heç bir maraq oyatmırdıq? Amma bizi həmişə nəzakətlə qarşılayıb, yola salırdılar.

Bir dəfə yaşlı yəhudinin lətifəsini eşitdim. İndiyədək yadımdadır. Yoldaşından soruşdu:

– Bilirsən Arkadi Raykin Bakıda olanda nə deyib?

O biri çox təəccüblə soruşdu:

– Nə deyib? (*Yəni necə olub ki, başqa yəhudinin bildiyini o bilmir*)

Yaşlı yəhudi təzə söz deyəcəyini bilincə şövqə gəldi:

“Raykin səhnədə qarşısındakı aktyora deyir:

– Səni öldürərəm, məni tutmazlar.

Aktyor:

– Bu necə olar? Bəs milislər, prokurorlar, hakimlər? Bəs qayda-qanun?

Raykin:

– Mən səni Bakıda öldürərəm.”

Cavan yəhudinin danışdığı əhvalat isə belə idi:

"Deyirlər 1964-cu ildə SSRİ Ali Sovetinin sədri Nikolay Viktoroviç Podqornı Bakıda olarkən başının dəstəsilə İçərişəhəri gəzib qəfildən, heç kəsin gözləmədiyi halda Məmmədəlinin kababxanasına girir. Yaxşı ki, başdakı kürsülü stol boş imiş. Mötəbər qonağı əyləşdirirlər. Məmmədəli kişi yüngül çaşqınlıqdan sonra meydanı ələ alır. Sərt baxışları ilə xidmətçiləri mil durğuzur. Biş-düş, gətir-götür başlayır. Dilimlənib, xüsusi qızardılmış qoç xayasını yeyəndə Podqornının damağı dada gəlir, ləziz təamdan yenə istəyir. İşin tərsliyindən sonuncu qoç xayası bişirilib ortalığa qoyulubmuş.

Məmmədəli kişi tez maşına minib Dağlı məhəlləsinə sürür, ona hər gün təzə qoç əti verən Ağamehdinin tövləsindəki səkkiz iri qoçun diri-diri səkkizinin də xayalarını bıçaqla dibindən üzüb qanlı-qanlı ləyənə yığaraq maşınının yük yerinə atır və geri qayıdır.

Lay-lay qızardılmış dadlı-duzlu xayaları bala-bala içəri ötürən yüksək mənsəb sahibi heç yerə tələsmirmiş. Axırda Məmmədəli kişi bu qonaqlığın haqq-hesabının çəkilməsinə razı olmur, pula yaxın durmur. Əvəzində hökumət adamlarının gözündə böyük hörmətə minir, özünün və kababxanasının adı Bakı ilə bir olur. Hətta söz çıxardıbmışlar ki, guya Məmmədəli kişi hər həftənin başında təyyarə ilə Podqornı üçün Qala (*Şuşa*) cinsindən olan qoçların xayasını pay göndərir."

Qapıya açar salanda xəyaldan ayrıldım. Yol məni əməlli-başlı üzmüşdü. Yuyunub yatağa uzandım. Təyyarənin uğultusu hələ qulaqlarımdan getməmişdi. Beşmərtəbəli "xruşşovka"nın dördüncü mərtəbəsindəki mənzilim yenə də dünyanın ən rahat yeri idi. Bilirdim, gözümə yuxu getməyəcək. Amma bədənimi, əlimi, ayağımı, göz qapaqlarımı dincə qoymuşdum. Xəstə vaxtlarımda gecələr yata bilməyəndə, qarışıq fikirlərdən beynim çatlayanda tez-tez özümü toplayıb yorğun ruhuma sığal çəkmək, gərilmiş əsəb tellərimi ovutmaq üçün sakitləşdirici xəyallar qururdum. Gözümü yumub ağappaq buludları görürdüm. Dumanda gəzəndə üzə qonan şeh necə hiss olunursa, ağ buludların yumşaq nəmi dərimə hopurdu. Qanı çəkilmiş soyuq əlimi alnıma qoyurdum. Ağ bulud ya-

vaş-yavaş tutulurdu, qaralırdı, sonra xırda yağış yağmağa başlayırdı. Hətta qulaqlarım yağışın səsini eşidirdi. Hərdən doğrudan da, uydurma yağış effekti yaradırdım. Hamamda krantın altına qazan qapağı, ya da nəsə qoyub suyu damcıladırdım və mənim yağışımın səsi aydın gəlirdi. Uşaqlıq səfərlərimdə gördüyüm ucsuz-bucaqsız yaşıl zəmiləri, yovşanlı-quşotulu düzənlikləri, dərəli-təpəli çölləri gözlərimin qabağında az qala məcburi saxlayırdım. Çünki kadrlar xəyalımdan tez itib gedirdi. Gözəl, qorxusuz mənzərələrin yerinə cin-şeytan özünü təpməyə çalışanda buludların, yaşıl zəmilərin, göy çəmənlərin ətəyindən tutub özümə sarı dartmaq istəyirdim. Xəyallarımın bu görüntüləri getdikcə mənə öyrəşirdilər, hər biri bəzən Allah bilir, neçə dəqiqə gözlərimin qabağında dayanıb dururdu. Bəzən sağ ayağımın baş barmağı ilə sol ayağımın baş barmağını sığallayıb dağınıq fikrimi bədənimin həmin xırda hissəciklərində cəmləşdirirdim. Hardasa oxumuşdum ki, xəstəlikdə üç tərəf iştirak edir: xəstəlik, xəstə, həkim. Əgər xəstə həkimlədirsə, xəstəliyə qalib gəlir, yox, xəstə xəstəliklə birləşirsə, vəssəlam, onda xəstəlik bayrağını qaldırır. Mənsə bu düstura sığmırdım. Nə həkimi yaxın qoyurdum, nə xəstəliyi. Daha doğrusu, həkimlərin əsəbə qarşı bədənimə küpədiyi iynələr halıma az təfavüt eləyirdi. Psixiatrların danışığı mənə gülünc görünürdü. Çünki onlar ruhi xəstəliyin nə olduğunu kitablardan və mənimkimilərdən öyrənmişdilər. Getdikcə öz həkimim olurdum, başımın, bədənimin hakiminə, dirijoruna çevrilirdim.

Yuxudan süst oyanıb candərdi ayağa durdum. Elə bil məni döymüşdülər, hər yerim sızıldayırdı. Otaqda var-gəl edib dartındım, gərnəşdim. Bilirdim ki, günlərlə başımı itirməyəcəyəm, tezliklə burulğandan çıxacağam. Qabaqkı vaxtlarım deyildi. Artıq beynimin bir hissəsi düşkünlüyü özünə yaxın qoymurdu, məni nəzarətdən buraxmırdı. O düsturu tapmışdım ki, çətini fikirlərini, ağlını cəmləməkdir, konsentrasiya yaratmaqdır, hər hansı bir hədəfə doğru gedə bilməkdir, tənbəlliyə, yuxuya, dincəlməyə və hətta ağrımağa meylli bədəni dalınca dartıb aparmaqdır.

Yəqin ki, gedib Qaranı narahat görməyim məni alt-üst eləmişdi. Bəlkə, özümə də ürək-dirək verən lazımdı? Əcəb işdir, başqasına təsəlli verirsən, öz ruhun sığınacaq axtarır. Yox! – mızıldanıram – ən yaxşısı özünə güvənməkdir. Mənim ki, dayaq nöqtəm öz içimdədir. Axı, motosikl sürən vaxtlarımda görmüşdüm, avtomobildə elektrik itkisi olanda işə düşmür. Mən toparlanmalıyam. Desəm, bəlkə də sizə gülməli gələr, depressiyada olduğum vaxtlarda özümü inandırmışam ki, bədənimin bir çox nöqtəsində məni mexanizm kimi işə salan düymə var. İstənilən vaxt o düymələrdən birini basanda hərəkətə gəlməliyəm. Özü-özünün həkimi olan xəstənin belə miflər uydurmağa tam haqqı vardı.

Sağ əlimin baş barmağını sağdan orta qabırğamın üstünə basıb sıxdım. Aha, bədənimin bütün hissiyyatı həmin nöqtədə cəmləşdi, bir mərkəzdən idarə olunmağa başladım. Beş dəqiqədən sonra xeyli dirçəlmişdim.

Yanıma Balaşdan başqa heç kəs gəlib-getmir. O da hərdənbir. Arada Balaşa qoşulub Moskvaya, Xarkova, Vilnüsə, Qrodnoya, Nalçikə getmişdim. Balaş diribaşdır. Bakıdan batıb Moskvadan çıxır, sorağı gah Daşkənddən gəlir, gah da Novosibirskdən. Uşaqlıqda da ayıq idi. Ancaq dostum pula həris adamdır. Pulgir olması onu hərdəmxəyal edib. Böyük sərvət ələ keçirmək üçün özünü oda-közə vurur, bir işi bitirməmiş, yeni qazanc cəbhəsi açır. O qədər işlərə əl atır ki, heç birini yarıtmır. Para qazanmaq xülyaları genişdən də genişdir. Məsələn, harasa vaqon-vaqon mal aparmaq istəyir, amma hələlik üç-dörd çamadanla işləyir. Təxəyyülünə "Afərin!" deyirəm, çamadan vaqona oxşayır.

Onu altı yaşımdan on üç gün keçmiş məktəbdə tanıdım. Hər ikimizi sinifdə uşaqların sayını normaya çatdırmaq üçün bir il tez sürüyüb məktəbə aparmaq istəyirdilər. O zaman yeddi yaşda məktəbə götürürdülər. Nə mən məktəbə getmək istəyirdim, nə də Balaş. Sinifdə bizi eyni partada oturtmuşdular. Birinci dərsin başından axırına kimi için-için ağlayıb gözümüzün qorasını tökürdük. Tənəffüs zəngi çalınanda biri-birimizə qoşulub aradan çıxırdıq, cumurduq evə. Tezliklə həm məktəbdə, həm də evdə inadımızla barışdılar.

Hətta, müəllimim axırıncı dəfə anamı məktəbə çağırıb demişdi ki, götür uşağı apar, yoxsa çatlayıb öləcək. Yəqin ki, Balaşın da atasına son söz deyilmişdi, onu da boşlamışdılar.

Hadisə mənə həyatda ilk dostumu qazandırdı. Dostlaşıb bir yerdə oynamağa başladıq. Balaş məndən cəmi iki ay yeddi gün böyük idi. Hər dəqiqə bunu hiss elətdirirdi. İkilikdə hansı addımı atsaydıq, cəhd edirdi ki, hər şey onun istədiyi kimi olsun. Bu, xətrimə dəyirdi. Ancaq səsimi çıxartmırdım, içimə vururdum. Balaşın isə dediyi olmayanda dodağını sallayıb aralanırdı. Sonra necə asanlıqla küsüşmüşdüksə, elə də asanlıqla barışırdıq. Küçədə üz-üzə gələndə aramızda heç nə olmayıbmış kimi yanaşı addımlayırdıq.

Növbəti dərs ilində hər ikimiz həvəslə məktəbə getdik. Balaş sinifkomumuz oldu. Üçdə-beşdə məktəbdə, məhəlləmizdə adı çəkilməyə başladı, böyüdükcə açılışdı. Alverlə məşğul olan atası Balaşı hərdən özünə qoşub ora-bura apardığından dostum yavaş-yavaş qınına sığmırdı. Biz üçüncü sinifdə oxuyanda atasının verdiyi pulları yığıb özünə "24" velosiped almışdı. Ayaqları pedala çatmırdı. Tezliklə məlum oldu ki, fikri təkər üstə qalxmaq deyil, pul qazanmaqdır. O zaman tək-tük uşaqda velosiped olardı, amma bütün uşaqlar əylənmək istəyirdi. Balaş velosipedini məsafədən asılı olaraq, 10, 15, 20 qəpiyə "kruq"a (*dövrə vurmağa*) verirdi. Əksər uşaqların cibində bir qəpiyi də olmadığından Balaşın bazarı kasad idi. Bir başağrısı da vardı; tez-tez yaşca böyük, sürtük uşaqlardan kimsə dostumun ovcuna 20 qəpiklik basıb velosipedi qaçırdırdı, yorulunca sürəndən sonra gətirib otuz-qırx addımlıqda atır və bic-bic gülə-gülə üzünü çevirib gedirdi. Balaş, işin pul gətirmədiyini görüb velosipedi mayasına satdı.

Balaşı yuxumda görmüşdüm, mütləq bu gün gələcək. Yuxularımdan enməyinə öyrəşmişəm. Özü də bilir. Bu qədər təsadüf olmaz ki... Hər dəfə qapımı açanda görür onun gəlişinə hazırlaşmışam. Yəni səhər yerimdən durub otağı sahmana salmışam, xırda bazarlıq eləyib yemək hazırlamışam, iki adamlıq süfrə açmışam! Çox vaxt Balaş hara getsə, qayıdanda səhər Moskva-Bakı qatarından düşür və vağzaldan mindiyi taksini birbaş yaşadığım binanın giriş qapısı-

nın ağzına sürdürür. İçəri girən kimi xoş-beşdən sonra üzünü qırxır, yuyunub süfrə başına keçir. Stol arxasında oturuşu, çəngəl-bıçaq tutmağı, yeməyi xırda tikələrə bölüb ağzına aparmağı, qismətini aram-aram, şirin-şirin çeynəməyi, udmağı, suyu qurtum-qurtum içməyi, sonra ani təbəssüm nümayiş etdirməyi incəsənətdir, incəsənət. Yeyib-içmək ədalarını harda öyrənib, bilmirəm. Amma mənimsədikləri mükəmməldir. İşi ilə davranışı biri-birinə uyğun gəlmir. Qaçdı-qovdu iş hara, işdən sonra təmkinli davranış hara?

Dostum bu dəfə yorğundur, nə qədər özünü şax tutmağa çalışsa da, yuxusuzluqdan sifəti sallanıb. Heç çay içmək halında da deyil. Divana uzanıb gözünün acısını almaq istəyir.

Onu deyim ki, Balaş xeyli gözüaçıqdır. Dəyirmanın gözünə ölü atsan, nəinki diri, əvvəlkindən bir az da qıvraq və qoçaq çıxar. Hətta, iki-üç ölünü də dirildib dalınca darta-darta gətirər. Üstümdə haqqı çoxdur. Həmişə məni təmkinli, ehtiyatlı olmağa, cəsarət nümayiş etdirməyə, səbrlə başqasını axıra qədər dinləməyə çağırıb. O, mənə gəzdiyi yerlərdən, rast gəldiyi fərqli-fərqli tiplərdən, düşdüyü vəziyyətlərdən danışır, mən ona oxuduqlarımdan, duyduqlarımdan. Saatlarla söhbət eləməyə mövzu, söz tapırıq. Fantaziyamız hara qədər desən gedir.

Balaşla müqayisədə hələ də mən gözəlliyi axıra qədər qiymətləndirə bilmirdim. Bəzən Bakının küçələrində gedəndə, yaxud hansısa kinoteatrın qabağında dayananda əllərindən istifadə etmədən, şübhə yaratmadan pıçıltı ilə bir qızı nişan verib deyərdi:

– Görürsən, qarşımızda anası ilə dayanan qız nə gözəldir?

Gözlərim gözəli axtarardı, tapmazdı. Təkrar izahatdan sonra handan-hana qızın üzünə diqqətlə baxıb təəccüblə astaca dillənərdim:

– Nəyi gözəldir onun? Üzünə elə bil dozanqurdu maskası taxıb.

Açıqlama verərdi:

– Qamətinə, çiyinlərinə, sinəsinə, düz qıçlarına bax. Ona davranış təlimi keçəsən, yaxşı geyindirəsən, bilirsən nə qız olar?

Razılaşmazdım:

– Qadın birinci üzdən qəşəng olmalıdır.

Balaş ciddiləşərdi:

– Gözlərini sil, bax, bu qız üzdən də qəşəngdir. Sadəcə qəzəbdən gərilib, dodaqları, çənəsi, burnu, gözləri yerində deyil. Gülsə, üzünə işıq düşəcək, sifət cizgiləri yerinə gələcək.

Ağlıma batmazdı. İndi də gözəlliyi üzdəki işığa, yapışığa görə müəyyən eləyirəm. Qadın üzdən xoşuma gəldisə, vəssəlam, deməli, gözəldir. Yoxsa ay nə bilim, süd kimi ağ dəri, gen sinə, yeriş-duruş...

Balaş fikrini yeritmək üçün deyərdi:

– Bilirsən, keçmişdə şahlar, sərkərdələr tutduqları ölkədən qənimət kimi nələri aparardılar?

Dillənərdim:

– Silahları, xəzinəni, qiymətli əşyaları, qul etmək üçün əsirləri...

Balaş ilişdiyimi görüb əlavə edərdi:

– Və gözəl qızları, qadınları. Bir sözlə, pulu, pul gətirən nə varsa, hamısını.

Onu cırnatmaq istərdim:

– Yenə tacirliyin tutdu?

Balaş qımışıb susardı. Düşünərdim ki, deməli, bu vaxta qədər ürəyimə yatan qızların heç biri gözəl olmayıb. Sevgim baldırlardan, beldən, sinədən, döşlərdən başlamayıb. Üz-üzə, göz-gözə gəlmək, odlu baxışlar vurulmaq üçün mənə bəs eləyib.

Balaş ən geci iki-üç aydan bir onu mələyə-mələyə vətənə qaytarmağa məcbur edən keçilməz səbəb uydurub. Özünün dediyi kimi, enerjisi tükənən kimi qəfildən işlərini buraxıb Bakıya dönür. Sonra kiçik şəhərimizə, ata evinə gedir. Kürün üstündən şoran düzlərə baxıb sinə dolusu nəfəs alır. Bir neçə gün qoyub getdiyi küçələrdə, meydanlarda gəzib-dolaşır, dost-tanışlarla görüşür, xeyirdə-şərdə görünür, qonaqlıqlar verir, güc yığandan sonra “Ya Allah!” deyərək gözdən itir.

Onu başa düşmək olar. Ömrünün çox hissəsi şəhərimizdə keçib, hələ buralardan qopa bilmir. Toyda oynamağı sevir. Təsəvvür edin, Odessadan o boyda yolu basa-basa onun üçün elə də vacib olmayan tay-tuşlarımızın toyuna özünü yetirir. Mənim də, onun da, şöhrət azarımız var. İkimiz də barmaqla göstərilməyimizi istəyirik. Ancaq o bunu bacarır, mən yox.

Doqquzuncu sinifdə oxuyanda bir gün şəhərimizdəki Xalq teatrına gedib baş rejissordan məni aktyor kimi sınamasını xahiş etdim. O, enimə-uzunuma baxıb soruşdu:

– Aktyor olmaq istəyirsən?

Burnumu dik tutub lovğalandım:

– İstəyirəm!

Pozam, duruşum, səsimi dəyişməyim rejissorun xoşuna gəlmədi:

– Pipiyini şişirtmə! Öz səsinlə danış. Səhnədə deyilsən. Sabah axşam dörddə məşqimizdir, gələrsən.

Teatra getdiyimi Balaşa deyib onu da özümə qoşmaq istəyəndə dostum başını bulamışdı. Yəni qəmişini çək!

Ertəsi gün deyilən vaxtda rejissorun hüzuruna gəldim. O, mənə tamaşa boyu vur-tut dörd sözü olan əsgər rolu vermişdi. Tamaşanın əvvəlində və ortasında əsgər yoldaşlarımla bombardman səsi eşidib, həyəcan içində ora-bura qaçacaqdım. Əsərin (*İlyas Əfəndiyevin "Odlu səhradan gəlmiş şeytan" pyesindən söhbət gedir*) sonuna yaxın isə qışqırıb deyəcəyim sözlər bu idi:

"Tariq İbn Ziyadı öldürdülər!"

Birinci gün nə qədər çalışsam da, oyunumla rejissoru razı sala bilməmişdim. Kor-peşman evə qayıtmışdım.

Axşam küçədə Balaş rişxəndlə məndən soruşmuşdu:

– Aktyor ola bildin?

Təəccüblənmişdim.

– Bir günə aktyor olurlar?

– Olurlar. Səndən aktyor çıxmaz!

– Bəs səndən?

– Bilmirəm. O fındıqburun maymaq rejissor sənə ancaq bambılılıq öyrədə bilər.

– Yekə-yekə danışma!

– Özün bil! Onsuz da axırda mən deyən olacaq. Əsl aktyorluq həyatdakıdır.

Heç iki ay keçməmiş Balaşın uzaqgörənliyi çin çıxmışdı. Tezliklə anlamışdım ki, mən aktyor olmaq yox, səhnəyə çıxmaq, diqqət mərkəzində olmaq istəyirmişəm.

Keçən dəfə Balaş Bakıda olarkən axşam gəzintisindən qayıdanda başına gəlmiş məzəli bir əhvalatı gülə-gülə mənə danışdı.

O, metroda basabasa düşür. Qatarda hamı ət-ətə imiş. Birdən Balaşın qarşısında dayanan yaraşıqlı qızın nəfəsi daralır. Dostum canfəşanlıqla vaqonun dəmir tutacağını özünə dayaq eləyib kürəyi ilə adamları geri sıxışdırır. Qız məhrəmcəsinə xilaskarına göz yetirir. Balaş forslanır. Növbəti dayanacaqda vaqondan düşən az olur. Platformadan qatara təpilən təzə sərnişinlər bir də tünlük yaradır. Qız üzünü turşudur. Dostum zərif qızdan məhz ona aid olan yeni bir təbəssüm qopartmaqdan ötrü fürsətin yetişdiyini görüb qızışır. Pəhləvan kimi təkan verib arxasındakıları geri itələyir, hətta sağ dirsəyi ilə kiminsə qarnını döyəcləyir. Yeri genələn qızın üzünün qırışığı açılır. Bu dəfə qız Balaşla göz-gözə gəlib başını tərpətməklə minnətdarlıq edir.

Qatar "Bakı Soveti" stansiyasında dayanır. Qız quruca "Sağ ol" da demədən vaqondan çıxıb eskalatorlara doğru tələsən axına qarışır. Hərif nə qədər göz gəzdirsə də, itirdiyini tapmır. Metrodan çıxıb Filarmoniyaya sarı addımlayanda arxadan çiyninə bir əl toxunur. Elə bilir həmin qızdır. Üzünə təbəssüm yayılır. Geri dönəndə isə...

Bu səhnəni Balaş daha yaxşı təsvir edir:

"Geri qanrılıb qarşımda heyvərə görkəmli, kobra sifətli adamı görüncə ürəyim gizləndi. Başım çiynindən ancaq olardı. Qulaqları sınmış, burnu yastılanmış bu adam qızmış dəvə kimi kinli-kinli mənə baxırdı.

Onun yoğun səsi gəldi:

– Vaqonda qızı görüb nə xoruzlanırdın, ə, qırışmal?! Dirsəyinlə qarnımı nağaraya döndərmişdin.

Rola girməkdən başqa yol qalmırdı. Əlimi sağ qabırğamın üstünə qoyub yazıq-yazıq dilləndim:

– Qardaş, nə qız, nə zad, öz canımın hayındayam. Bir il bundan qabaq məni maşın vurmuşdu, dörd qabırğam sınmışdı. Təzə-təzə sağalıram, özümü qoruyurdum.

Qarşımdakı "Hm!" elədi.

Onu inandırmışdım. Həm də qızın burda izi-tozu olmadığına görə dediklərim doğruya oxşayırdı.

Dedi:

– Sənə əl bulaşdırmıram. Əgər indi də cükküldəsəydin, o biri qabırğalarını da mən sındıracaqdım. Sürüş, get!"

Balaşın xorultusu eşidilir. Ancaq tank kimi guruldamır. Özünün dediyinə görə, yalnız bərk yorulub yatanda cığ-bığ salır.

Yəqin bunu ona yataq yoldaşı olan qadınlardan biri deyib. Balaş gəzdiyi yerlərin qadınlarının dadına baxıb. Ötəri sevgi macəralarından xeyli danışıb. Mənim kimi həsrət çəkməyi, xəyallarla yaşamağı, sevdiyini mələk mərtəbəsinə qaldırmağı xoşlamır. Ürəyinə yatanı özünə bərabər tutur. Sevgi düsturu belədir: qadına tam sahib olmaq, ondan həzz almaq. Ona könül verən Balaşın hökmündən çıxa bilməz. Elə bilir ki, pul tökməklə qadının bütün hisslərinə yiyə dura bilər. Yaxın olduğu qadınlarla aşıb-daşan rəftarı yadıma gəlmir. Bəlkə ona görə ki, məsum, bakirə, saf sevgisinin şahidi olmamışam. Ötən il Şimali Qafqazdan bir kabardin qızını quyruğuna salıb gətirmişdi. Bir həftə yanımda qaldılar. Balaşdan beş-altı yaş böyük olan, bizim dili yaxşı bilən, hind qızlarına oxşayan İndira dostuma uymuşdu. Balaş isə ona ötəri məşuqə kimi baxırdı. Qatarda tapışmışdılar. İndira da başını saxlamaq üçün arabir çax-çuxla məşğul olurmuş. İldə bir neçə dəfə Bakıdan on-on beş bağlamalıq pal-paltar alıb qatarla öz yerlərinə aparır, yavaş-yavaş əridirmiş.

Bu gəlişdə İndira Xudatda yaşayan xalasıgilə baş çəkəcəkmiş. Balaş onun başını bişirib birbaşa Bakıya gətirmişdi. Dediyinə görə, dörd il qabaq üç ayın gəlini olmuşdu. İndi dul idi, özü də uşaqsız-köşəksiz. Yumşaq xasiyyəti vardı. Deyirdi, Balaşa qoşulub dünyanın axırına qədər gedərəm. Balaş da ona ehyamla söz atırdı: – İndira, dünyanın axırı elə Bakıdır.

Bir həftənin içində qadın əməlli-başlı Balaşa bağlandı. Bu sevginin yaranmasında və möhkəmlənməsində, deyəsən, mənim də naqqallığımın rolu oldu. Qonaqların nazı ilə oynamaqla yanaşı, İndiraya dostum haqqında xoş sözlər pıçıldayırdım. Arada Balaş yarızarafat, yarıciddi deyirdi ki, İndira, səni alacağam.

Balaş sevgilisini qatarla Xudata yola salandan bir neçə gün sonra özü də Moskva qatarına minib getdi. İndira da Xudatda həmin qatara minəcəkdi. Getməmişdən qabaq deyirdi ki, yaxşı oldu, xanımçaya rast gəldim. Onu apararam Moskvaya, qoyaram bazarda polkanın (*piştax-tanın*) dalında. Gündüzlər mənə satıcılıq eləyər, axşamlar arvadlıq.

Amma Balaş növbəti dəfə Bakıya qayıdanda mənə danışdı ki, onun dediyi olmayıb. Onlar Xudatda birləşəndən sonra İndira sevgilisinin saqqızını oğurlayıb. Onu inandırıb ki, istəsə, İndiragilin rayonunda yaxşı qazanc gətirən işlərlə məşğul ola bilər. Qazanc adı eşidən Balaş bu işi də dişə vurmaqdan ötrü Terekdə qatardan düşür.

Burda bir aya qədər qalır. Özü demişkən, mayadan yeyib yatır. Arabir qazanc, gəlirli iş yerlərinin kəşfiyyatını aparır, İndira da böyründə. Ancaq qulpundan yapışacağı bir iş ağlına batmır. Həmişə qaynar mühitə, böyük şəhərlərdə vurnuxmağa öyrəşmiş adam kiçik əyalət şəhərində duruş gətirə bilərdimi?

Günlərin bir günü dostum İndiranı gözüyaşlı qoyaraq qatara minib Moskvaya üz tutur. Balaşın yazışmaqla qəti arası yoxdu. Teleqram da göndərməzdi. Harda gəldi köç salıb qaldığına görə, telefondan da sallanmaq onluq deyildi. Yalnız sonradan-sonraya onun haralarda olduğunu, başına nələr gəldiyini özündən eşidib bilərdim. Macəraları canlı və maraqlı idi. Sanki, səfərlərə mənim üçün yeni əhvalatlar, hekayətlər gətirmək üçün gedirdi. Özü də hadisələri bəzəyib-düzəməyi, artırıb-əskiltməyi, şirin-şirin danışmağı bacardığına və söhbətlərinə heyran-heyran qulaq asdığımı bildiyinə görə çinədanı boş qayıtmazdı.

Altı ay qabaq bir gün səhər qapım döyüldü. Bayaqdan yuxudan oyansam da, yerimin içində eşələnirdim. Səsə ürəyim atlandı. Balaşın həmişə gəldiyi vaxt idi. Tez şalvarımı ayağıma çəkdim, yaxasız ev köynəyimi başıma keçirdib yatağımı qaydaya saldım, hamama qaçdım. Üzümə su çalıb dəsmalla qurulandım. Balaşın yuxuma girmədən qəfil gəlişinə deyəsən, axıra qədər inana bilmirdim. Ona görə də bir anlıq güzgünün qabağında dayanaraq əllərimi isladıb saçımın pırpızını yatırtdım, özümü adam löyününə saldım. Qapıya sarı dabrı-

dım. Qapının gözlüyündən baxanda böyüdücü şüşədə təhrif olunmuş bir qadın üzü gördüm və qapını açdım.

Qapıda duran kim olsa yaxşıdır? İndira. O, doğma adam kimi gülümsədi. Sonra baxışları ilə şişmiş qarnını göstərdi. Qarnı burnunda idi. Dərhal işi başa düşdüm. İndira Balaşdan uşağa qalmışdı. Başımın işarəsilə içəri keçdi, yanağımdan öpdü.

Soruşdum:

– Bəs Balaş hanı?

– Mən də onu axtarıram. – İndira gülümsəməkdə davam edirdi.

Onu otaqda sərbəst buraxıb mətbəxə keçdim. Qonağın qulluğunda durmaq lazım idi.

Bir azdan stolun başında qarşı-qarşıya əyləşib səhər yeməyi yeyirdik.

İndira sonuncu tikəsini udub bir qurtum çay içəndən sonra soruşdu:

– Deyirsən, Balaş hələ qayıtmayıb?

Başımı tərpətdim:

– Hə, o gedəndir.

İndira mənə dərhal inandı, üzündə xoş bir ifadə yarandı. Dedi:

– İnşaallah, tezliklə qayıdar. Allahımdan çox razıyam, Balaşı mənə tuş gətirdi. Qabaqlar qorxurdum. Beynimə girmişdi ki, sonsuz, tək qalacağam. İndi xoşbəxtəm. Elə bilirdim Bakıya gəlib onu tapacağam. Axı, uşağımızdan xəbəri yoxdur. Kim nə deyir desin, bu uşaq – o, sağ əlini qarnının üstünə qoydu – mənə hər şeydən əzizdir.

Nəfəsini dərib sözünə davam etdi:

– Balaşa de ki, ölüncə ona sadiqəm. O, uşağımın atasıdır.

Dostumun yerinə nəyəsə söz verə bilməzdim. Ancaq ürəyim qövr eləyirdi. Kövrəlmiş İndiranı sakitləşdirmək üçün dedim:

– Balaş Bakıya qayıdan kimi dediklərini bir-bir ona çatdıracağam.

Yaxşı ki, ehtiyat pulum vardı, qanacağımı göstərə bilərdim. Həmin gün qayıtmaq istəyən İndira üçün bir-iki yüngül hədiyyə alıb yol tədarükü gördüm və axşam onu qatara mindirdim.

Balaş, İndira yanımdan gedəndən təxminən dörd ay sonra, yəni indi qayıdıb gəlmişdi. Günorta yuxudan durdu. Çay içəndə gülə-gülə

dedi ki, bu dəfə yaxşı gəlib, əli qalındı. İndira ilə bağlı söhbəti elə də həyəcanla qarşılamadı. Siqaret yandırıb fikirli-fikirli bir-iki qullab vuraraq dedi:

– İndira özü istəyirdi məndən uşağı olsun. Onlarda olanda qonum-qonşusuna, qohum-əqrabasına məni əri kimi sırıyırdı. Mən də üstünü vurmurdum. Bəlkə də dərindən düşünəndə bu, ağır məsələdir. Ancaq neyləmək olar? Deyim ki, zəmanə dəyişib, yox, dəyişməyib. Elə keçmişdə də kiminsə qəfildən hardasa oğlu, qızı tapılıb. Məlum olub ki, bığıburma bir kişi qonaq qaldığı şəhərdə, kənddə qələt qarışdırıb. – Balaş ucadan gülüb fikrini tamamladı – Hə, qardaşım, toxum səpə-səpə gedirik.

Mən əsib-coşdum:

– Belə yaşamağa nə var ki... Bəs vicdan, ləyaqət, məsuliyyət nədən ötrüdür? Təsəvvür eləyirsən, səndən doğulan uşağın, bəlkə də, qırxı çoxdan çıxıb, amma sən bilmirsən ki, o oğlandır, yoxsa qızdır. Bəyəm, kişinin hər ifrazatı uşaq olur?! Başa düş, ortada uşaq var ey, uşaq!

– Yaxşı, yaxşı, – Balaş üzümə qabardı – mənə dədəlik eləmə, hələ dədəm ölməyib. Mən uşaq istəməmişəm. Özü istəyib, indi də küçüyünə yiyə dursun. Bilməmişdim, qatarda ilişdiyim bir yol q... – istədi biədəb kəlmə işlətsin, ancaq dilinin ucundan qaytarıb başqa sözdən yapışdı – ləçərini özümə arvad edəcəyəm? Hər mənə ürcah olana arvad kimi baxsaydım, indi gərək hərəmxana saxlayaydım.

– Məncə, rast gəldiyin qadınların içində yalnız İndira səni sevib.

– Sevsin də... Onun sevgisini əlindən alan var?!

– Yəni bu sənsən?

– Mənəm, dostum, mənəm! Sən xırdaçılıq eləyirsən. İstəyirəm, tutarlı bir iş görək, bizi gələcəkdə adnan desinlər, sənsə...

– Mənsə indi də görürəm ki, hərəni öz adı ilə çağırırlar.

– Köhnəlmisən e...

Balaş daha dinib-danışmadı, yemək vaxtı da burnunu sallamışdı. Canı sağ olsun, mən ki, ondan küsməmişdim. Bilirdim ki, danışıb-danışıb dilini açacağam. Sadəcə, mövzunu dəyişmək lazım idi.

Qəfildən dilləndim:

– İstəyirsən Babayarın xoruz səsi eşitməmiş əhvalatlarından birini danışım?

Balaşın dodağı qaçdı. Aha, demək barışmaq istəyirdi.

Yerimi rahatlayıb danışmağa başladım:

– Babayara İsmayıllıdan xəbər gəlir ki, kolxoz sədrlərindən biri bərk yağlanıb, pulu artıqlıq eləyir, onun dərsini vermək lazımdır. Gözünə döndüyüm iki dəfə yatıb-çıxmış dostu ilə birləşib plan cızır, özü demişkən, əməliyyat kartası (*xəritə*) hazırlayır və onlar gün əyiləndən sonra "Studebekker" maşınında yola çıxırlar. Axşamüstü Göyçaya çatıb İsmayıllıya dönürlər. Aşıq Bayramlı gölünün tuşunda "Villis" milis maşınının yanında dayanmış üç patrul, yenə də Babayarın sözü ilə desək, qırmızıpapaqlar onların arabasını saxlatdırır.

Sorğu-sual başlananda Babayar özünü qabağa verir, onunla döş-döşə gələn milisə deyir:

– Rəis, toyumuz var, kömür dalınca gəlmişik.

Rəis deyilən Babayara tərs-tərs baxır və:

– Sən kənarda dur, qoy sürücü cavab versin! – deyib sürücünün sənədlərini istəyir.

Babayar çiy iş tutmaz, tutdurmaz, sənədlər geydirmə olsa da, qaydasındadır. Sürücü vəsiqəsi də, putyovka da (*yollayış kağızı*), avtomobilin saxta nömrə nişanı da.

Ancaq patrullar əl çəkmirlər. Təhər-tövründən şübhə oyadan adamları rayon milis şöbəsinə aparmaq istəyirlər.

Babayar işin tərsə düşdüyünü, oğurluğun baş tutmayacağını, zərərin yarısından qayıtmaq zamanının gəldiyini duyub əl atır belinə. Tapançasını çıxardıb ayağa çəkir. Silahsız patrulların boğazları quruyur, qolları yanına düşür.

Babayar yoldaşına tez aradan çıxmağı pıçıldayır. "Studebekker" dönüb geriyə yola düşür.

Özü isə milislərə əmr edir:

– Gölün qırağına gedirik! Haydı, marş!

Milislər suyu süzülə-süzülə gölə doğru addımlayırlar.

Şər qarışan vaxtmış, hava qaralırmış.

Onlar gölə çatanda Babayarın tapançasının lüləsi milislərə tuşlanır. Milislər yalvarmağa başlayır.

Birinci danışığı aparan patrul dillənir:

– Vallah, elə, sizə "Yaxşı yol, çıxın gedin!" demək istəyirdim ki, tapançanı çıxartdın. Yoxlamaq borcumuzdur.

İkinci patrulun cır səsi eşidilir:

– Sizə yaxşı kömür taparıq. Yerli adamıq, bilirik kimin kömürü xalisdir.

Üçüncü patrul da lal durmur:

– Qonağımız olun!

Babayar səsinin tonunu dəyişmədən dillənir:

– Lüt soyunun!

Milislər Babayarın hələm-hələm yumşalan adama oxşamadığını görüb soyunurlar.

Yeni əmr gəlir:

– Girin suya!

Milislərdən biri yazıq-yazıq deyir:

– Mən üzməyi bacarmıram. Bu göl, deyirlər, dərindir.

Babayar:

– Üzgüçülük yarışı keçirmirik, qıraqda çimərsən!

Milislər bir gözü arxada qala-qala suya girirlər. Su onların qurşağına çatanda Babayar yerdə bardaş qurub oturur, qımışa-qımışa deyir:

– Hə, başlayın! Hesab eləyin ki, Bolşoy Teatrın səhnəsində "Qu gölü" ("*Лебединое озеро"nu ruscadan belə çevirirdi*) baletini oynayırsınız.

Milislər məcbur olub qanad çalırmış kimi əlləri ilə suyu şappıldadıb sağa-sola hərəkət edirlər.

Təxminən iyirmi dəqiqədən sonra kefqom tamaşaçı elan edir:

– Tamaşa bitdi.

Milislər çaşqın-çaşqın yerlərində quruyub qalırlar.

Babayar patrulların ayaqqabılarından, papaqlarından başqa bütün paltarlarını onlardan birinin toqqasının arasına yığıb bağlayır, şələ kimi kürəyinə ataraq göldəkilərə deyir:

– Eşidin, bilin! Mən bura oğurluğa gəlmişdim. Yolumuzu kəsdiniz. İndi görürsünüz, paltarlarınızı da olsa, çalıb aparıram. Çiməndən sonra ayaqqabınızı geyinin, ayağınızı şüşə-müşə kəsməsin. Papaqlarınızı da aparmıram ki, patrul maşınının pəncərəsindən başınızda tağalaq görsünlər. Arxayın çimin! Sonra da gedin gecəni xarabanızda rahat yatın. Ancaq bir şərtlə, mən xəbərdarlıq güllləsi atmayınca, sudan çıxmayın!

Babayar yerindən götürülüb iti addımlarla irəliləyir, üççə dəqiqəyə yola çatır və yolqırağı ağaclarının arası ilə Göyçaya sarı üz tutur. Əlbəttə, patrulların paltarlarını özünə yük eləmir, on-on beş dəqiqə getdikdən sonra əlindəkiləri bir kolun dibinə tulazlayır. Milislər üçün xəbərdarlıq atəşi açmaq istərkən patrul maşınının həyəcan siqnalı eşidilir. Barmağını dişləyib öz-özünə deyir:

“Deməli, namərdlər mən gözdən itən kimi göldən çıxıb özlərini maşına təpiblər. Yəqin ratsiyaları da olmamış olmaz.”

Babayar hadisə yerindən xeyli uzaqlaşır. İki saat ərzində bir neçə milis maşını o tərəf-bu tərəfə keçir. Sakitlik yaranınca yola çıxır.

Handan-hana görür ki, tənbəl-tənbəl gələn bir maşının sağ farasının gözü tez-tez yanıb-sönür. Babayarın fikrindən nə keçir? “Bu sürücü, yəqin ki, maymağın biridir. Səliqəli, diribaş sürücünün maşını saz olar. Belə fürsəti əldən verə bilmərəm.”

O, ağacların arasından çıxır və atılıb maşının banına minərək yerə yatır. Fikri bu olur ki, maşın Qaraməryəm dairəsindən aşağı ensə, özünü Tiflis-Bakı qatarına çatdırar, yox, Bakı yoluna dönsə, başqa bir şey düşünər.

Maşın dairədən burulub Bakıya üz tutur, qəbiristanlığın yanından keçib təhlükə zonasından aralananda Babayar bandan kabinənin ayaqaltısına ayaq qoyaraq cəld qapını açır və içəri dürtülür. Sürücü özünü itirir, az qalır maşını yoldan çıxartsın. Babayar sükandan yapışıb sürücünü sakitləşdirməyə çalışır:

– Qorxma! Maşınını sür!

Sürücünün titrək səsi eşidilir:

– Qəbirdən xortdamısan?

Babayar:

– Xortdana oxşayıram, amma xortdan deyiləm. Hara gedirsən?

– Bakıya.

– Özünə gəldin?

– Bir az.

– Ürəkli ol!

– ...

– Yorulmuşam, yatıram. Biləcəriyə çatanda məni oyadarsan. Amma artıq- əskik hərəkət eləsən, özündən küs! Oldu?!

– Baş üstə!

– Başın əzilməmiş döş üstə!

Biləcəriyə çatanda sürücü Babayarı dümsükləyib yuxudan oyadır, maşını saxlayır. Yolun qırağında su krantı varmış. Hər ikisi maşından enib əl-üzünü yuyur, biri-birinə "Sabahın xeyir!" deyir.

Sürücüyə evdən termosda çay, yemək qoyubmuşlar. O, yolun kənarına düşmüş bir beton parçasının üstündə süfrə açır. Qonağa fincanda, özünə termosun qapağında çay süzür, düyünçənin arasından çıxardığı dörd soyutma yumurtanı, yağdürməyini dədə malı kimi iki yerə bölür.

Onlar şirin-şirin çay içib, çörək yeyirlər. Babayar arada kişiyə müştəri gözü ilə baxır. İstəyir, onu yerli-yataqlı öyrənsin, bəlkə gələcəkdə lazım olar. Ancaq qarşısıdakının ölüvaylığı ürəyinə yatmır, fikrindən vaz keçir. Heç adını da soruşmur.

Sürücü süfrəni, termosu yığışdırıb zənbilə qoyur. Sonra qısıla-qısıla Babayara üz tutur:

– Qardaş, hər kimsənsə bilmirəm, ancaq səndən bir xahişim var.

Babayar kəsədən gedir:

– Nə xahiş-mahiş, sözünü de!

Sürücü əlini pencəyinin iç cibinə salıb ordan bir dəstə beşlik çıxardır, sayıb yarısını Babayara uzadaraq deyir:

– Üstümdə yüz iyirmi manat pul var. Sən yolda maşınıma minəndə bərk qorxdum. Elə bildim axırım çatıb, məni öldürüb maşınımı əlimdən almaq istəyirsən. Ürəyimdə Allaha yalvarıb, salamat qurtar-

sam, cibimdəki pulun yarısını sənə bağışlayacağımı əhd elədim. Bu pulu götür!

– Yox, götürə bilmərəm. – Cibində siçanlar oynaşan Babayar dillənir. – Əhdin var, get pir, ocaq üstünə, yetim-yesir azdır? Mən seyid-peyğəmbər övladı döyüləm ki, nəzir güdəm.

Sürücü dillənir:

– Qardaş, adını da bilmirəm, əlimi geri qaytarsan, evimə sağ-salamat gedib çıxmaram. Götür, halalın olsun! Yeddi bacının bir qardaşıyam. Sonbeşiyəm, bir az ürkək böyümüşəm. Beş yaşından yetim qalmışam. Başıma bir iş gəlsə, anamın, bacılarımın ürəyi partlar. Uşaqlarım xırdadır. Narahat olma, qurban da demişəm.

Sürücü Babayarın yumşaldığını duyub pulu onun cibinə basır və onlar qucaqlaşıb ayrılırlar.

Babayar deyirmiş ki, o gündən sonra şəxsi evləri, mülkləri çapmağın daşını birdəfəlik atıb. Heç kəslə məhkəmədə üz-üzə gəlmək istəmir. Elə bilir bir də həmin sürücünün üzünə oxşar yazıq bir üzə rast gəlsə, xəcalətindən ölüb yerə girəcək.

Balaş gülüb dedi:

– Gəl, şəhərə çıxaq!

Gəzə-gəzə gəlib Filarmoniya bağının ayağındakı çayxanada əyləşdik. Qarşısında daş samovar fiquru qoyulmuş çayxanada yay-qış axşamüstülər oturmağa yer tapmaq çox çətin olardı. Xeyli daimi müştərisi vardı. Ziyalıların mərəsinə dönmüşdü. Hərdən yoldan ötən, azan-təzən, dədəsindən-nənəsindən küsənlər də bu çayxanada stola yayxanıb çay hortuldada-hortuldada siqaret sümürərdi. Bir neçə stol başında qızğın müzakirələr, mübahisələr gedərdi. Dəstə böyük olanda stolları birləşdirib dövrələmə otururdular. Axır aylar mən də bura dadanmışdım. Çayla tuluqlarını dolduranlar ölkədə, dünyada gedən yeni proseslər, xoruz səsi eşitməmiş xəbərlər, qalmaqallar, kitablar, tamaşalar, filmlər, dedi-qodular barədə qızğın söhbət edər, dartışardı. Həmişə qabağında bir manatlıq iri çaynik, iki qutu siqaret olan Merac adlı bir şair təzə-təzə mənimlə "salam-məlik"ə başlamışdı. Zarafatla deyirdi ki, vəsiyyət eləmişəm, öləndə məni bu çayxananın həyətində basdırsınlar.

Havalar xoş, isti olanda stollar çöldə qoyulardı. Qadasını aldığım Bakıda da ilin yarıdan çoxu elə həyət-baca havasıdır. Amma Merac sağlığında tam əmin oldu ki, onun vəsiyyəti yerinə yetirilməyəcək. Bakıda ara qarışıb məzhəb itəndə ağzından qan iyi gələn adamların yığnaq yeri olan bu çayxananı da söküb dağıtdılar.

Bakı çayxanalarının özgə hüsnü vardı. Sonralar mən Səmərqənd, Qahirə, İstanbul, Rabat (R*abat çayxanasında çayçı möcüzə göstərirmiş kimi çaynikdən sarı çayı o qədər hündürdən süzdü ki, çay pivə kimi köpükləndi*) çayxanalarında, London pablarında, Paris kafeşantanlarında, Münhen pivəxanalarında çay, pivə, viski, kokteyl içib, sulu qəlyan, siqar tüstülədərkən o ləzzəti almadım.

Varı-yoxu çay, limon və qənddən ibarət olan çayxanalarımızın xudmani rahatlığı dost-tanışla üz-üzə qalmaq üçün adama genəbol bəs eləyir. Nə bilim, bəlkə mən səhv eləyirəm, amma çayı armudu stəkanda içmədinsə, heç nə... Qabaqlar çayxanalarda başqa bir təmtəraq da vardı. Çayçı bir əlində üst-üstə qoyulmuş dörd-beş, o biri əlində isə yan-yana tutduğu üç çay dolu armudu stəkanı nəlbəkidə adamların qabağına qoyardı.

Çayçı çay gətirdi. Balaş stəkanlarımıza çay süzüb, limon salıb dedi:

– Gələn həftənin axırında Tallində olmalıyam.

Soruşdum:

– Xeyir ola?

– Xeyirdir. Orda bir eston qızla tanış olub dostlaşmışam. Atası gəmi kapıtanıdır.

– Bundan sənə nə?

– Gəmi aylarla Atlantik okeanında üzür. Balıqçılıqla məşğuldur. Tutduğu balığı vaxtaşırı Anqola limanlarına boşaldır. Qızın atası məni öz gəmisinə işə götürür. Maaşı çox yüksəkdir.

Söz atdım:

– İstəsən, qaçaqmalçılıqla da məşğul ola bilərsən.

Balaş qaşlarını çatdı:

– Görək...

– Qız da səninlə səfərə çıxacaq?

– Yox, Evelina Tartü Universitetinin Şərqşünaslıq fakultəsində oxuyur.

– Bizim adamdır ki...

– Hə, türkcə qart-qurt danışır. İnşaallah, bir də gördün onu götürüb gəldim.

Yenə zarafat eləmək istədim:

– O da toxum səpdiklərindəndir?

– Toxum bəslənməsə, cücərməz, hər işə baş aparma, qiymətli başın ağrıyar.

Dərinə getmədim, mövzunu dəyişdim:

– Qorxmursan, Anqolada zəncilər sənin yumşaq ətindən kabab çəkərlər? Axı, onlar ağdərililərin ətinə yerikləyirlər.

– Hm – Balaş qımışdı – lazım olsa, üzümə qara çəkib gəzərəm. Hələ görsəm, bir şey eləyə bilirəm, düşüb qalacağam zəncilərin arasında.

– Bəlkə, Anqolanı kirayəyə götürüb işlədəsən?

– Elə bilirsən bacarmaram?

– Bacarmağına bacararsan, amma...

– Yenə nə amma?

– Səni yaxşı tanımasam, deməzdim. Heç Anqolada da yanın bir yerdə tikiş tutmayacaq. Bir də görəcəyəm, mələyə-mələyə qayıdıb gəlmisən üstümə. Ah-uf eləyib deyəcəksən ki, bəs qürbətdə havam çatmırdı.

– Onu düz deyirsən, – Balaş əl atıb pencəyinin yan cibindən siqaretini çıxartdı – ancaq, dostum, zəmanə dəyişir, yollar açılır, vaxt gələcək, görəcəksən ki, heç Avstraliya da uzaqda deyil.

Balaş çaylarımızı təzələdi. Bir qurtum çay içmişdik ki, dostum dilləndi.

– Heç soruşmuram, Qaradan nə xəbər? Əsgərlikdə deyildi?

Qardaşımla bağlı son əhvalatları Balaşa danışdım. Söhbətim bitəndə dedi:

– Qara iti oğlandır. İndi Bakıda olsaydı, nə özümlə aparardım onu?!

Ətrafdakı stollarda şöhbət getdikcə qızışırdı. Yəqin ki, çoxu jurnalist idi. Çernobıldan, Əfqanıstan müharibəsindən, Polşadakı “Solidarnost” hərəkatından danışırdılar.

Balaş onlara bir qədər qulaq verəndən sonra dedi:

– Deyəsən, bura yığışanların hamısı çənədən sazdır.

Ayağa durduq.

“Azneft” meydanından dostumu taksi ilə şəhərimizə yola saldım. Atasını görməyə getdi. Bu görüş, sanki oğuldan çox ata üçün idi. Dediyinə görə, kişi sonbeşiyindən ötrü arabir möhkəm darıxırdı. Ancaq dostum onu əkənin əyər-əskiyini görməyi bacarırdı. Atası Behbud barədə bəzən rişxəndlə danışırdı ki, mən də əzizlərimə tənqidi gözlə baxa bilim.

Behbud kişi arvadı öləndən çox-çox illər sonra cavanlıqdan dul qalmış Xanım arvadın evinə gedib-gəlirdi. Bu ahıl adamların ər-arvad münasibətinə heç kəs mane olmurdu. Nə töşmərək kişidə gözü olan vardı, nə də hisdə qurudulmuş balığa oxşayan qadına tamah salan. Bir yandan da subay kişinin başsız dul qadına yiyə durması hamının ürəyindən idi. Onlar bir-birində nə tapmışdılar, özləri bilirdi. Behbud kişi ilə Xanım arvad mollaya kəbin kəsdirmişdilər, çox abırlı, üstüörtülü ər-arvadlıq eləyirdilər. Səsləri çıxmazdı. Bir də görərdin Behbud kişi üz tutub Xanımgilə sarı.

Çoxdanın söhbətidir, bir dəfə Balaşdan soruşdum:

– Küçədə dədən hərdən salamımı alır, üzümdən öpür, hərdən də yanımdan yel kimi ötüb keçir, sanki məni görmür.

Balaş bic-bic gülüb cavab verdi:

– Dədəm Xanım arvadın yanına tələsəndə nəinki səni, gözü heç ayağının altını görmür. Ancaq dayandoldurumunu boşaldıb geri qayıdanda vallah, dünyada ondan gülərüz, ondan qayğıkeş, ondan əliaçıq adam tapmazsan.

Qabaqlar da, indi də hərdən Balaşın qırmızı danışığından xəcalət çəkirəm. Çox istəyirəm yekə danışmasın, üzgörənlik eləməsin, fırıldaq işlətməsin. Mənə qarşı dürüst olsa da, hiss edirəm hərdən düzlük-müzlük barədə boşboğazlığım onu darıxdırır.

Elə ki, deyərdim: – Ləyaqətini qorumaqla istəyinə çatmaq çətindir. Alçaqlıq, satqınlıq, xəyanət, zor gücünə o qədər şeylər əldə edərsən ki...

Balaş qızardı:

– Axıra qədər düz demirsən. Əyriliklə, fırıldaqla, zorla, nə bilim daha nəylə istəyə çatmaq olsaydı, indi çoxları xoşbəxt idi. Bacarıq lazımdır, bacarıq!

Balaş, sanki, qolumu-qanadımı sındırmaq istəyirdi. Onun bir zamanlar Heyva arvadın əziz-bircəsi olmağı yadıma düşür.

Heyva arvaddan hamı tük salırdı. Üzdən bayquşa oxşayırdı. Bircə dəqiqə qəzəblə düz baxsaydı, baxışları bəlkə də adamı deşərdi. Amma Balaşa quşu qonmuşdu. İndicə səbəbini deyəcəyəm.

Heyva arvad tək qızı ilə yaşayırdı. Əri kim olmuşdu və yaxud o, gəlin olub bir qapıdan girmişdimi, bilmirəm. Hər beşdə-üçdə göz qabağında olardılar. Bir balaca imkanlı adamın qapısında toy çalınanda, bilirdik ki, Heyva arvadı da, qızı Gümüşü də görəcəyik. Biz uşaq olanda toya çağırılanlara yemək-içmək yeməkxana adına xüsusi düzəldilmiş yerdə verilərdi. Mağarda isə yalnız çal-çağır, oynamaq, əylənmək, demək, gülmək vardı.

Toyun şirin yerində sərpayının çubuğunun işarəsilə ortaya təzə palaz sərilirdi. Palaz səhnə olurdu. Bir azdan toyxananın ayağından anasının yola saldığı on bir-on iki yaşlı Gümüş göy idman paltarında balerina kimi addımlayıb “səhnə”yə çıxardı. Ağappaq, toppuş qız idi. Qızın sanki sümüyü yox idi, bədənini istədiyi şəklə sala bilirdi. Qısasaçlı başını arxadan gətirib qıçlarının arasından keçirdərək küt-küt irəli baxırdı, ayaqlarını ilan kimi boynuna dolayırdı. Sirkdəki qızlar kimi səliqəli geyinməsə də, yerişində plastika kəm olsa da, üzünə xoş ifadə verə bilməsə də, canlı və maraqlı idi. Zarafat deyildi, böyük səhnələrə çıxa biləcək qeyri-adi bir qız anasının böyründə tünlükdən keçərkən bizə sürtünə-sürtünə məclisə girirdi.

Gümüşün çıxışı on-on iki dəqiqə çəkərdi, başına pul yağardı. Təklik, üçlük, beşlik, onluq. Gümüşün özünü göstərdiyi toylarda hər dəfə Balaşın biz yaşıdlarından fərqi üzə çıxardı. Mən utanıb kiminsə dalında gizlənəndə, Balaş lom udmuş kimi düppədüz, şax-şax yeriyərək irəli uzatdığı sağ əlinin siqaret tutulan iki barmağı arasında saxladığı qırmızı onluğu yellədə-yellədə qızın başının üstündən kağız quş kimi havaya buraxardı.

On beş yaşlı bir oğlanın kişilənməyi, forsu-ədası neçələri kimi Heyva arvadın da çiçəyini çatladırdı. Balaş, gəlib yerində oturana qədər oğlanı müştəri gözü ilə başdan-ayağa süzərdi.

Şəhərdə Heyvagilin, Balaşın sözü ilə desək, Gümüşgilin küçəsindən keçəndə ana, ya bala qarşımıza çıxsaydı, mütləq dostum dindirilərdi.

Balaş danışırdı ki, bir dəfə yenə həmin küçədən keçərkən Heyva arvad evinin tuşunda bir əlində bıçaq onun qarşısını kəsib deyir:

– Balbalaş, (*o vaxta qədər dostumu belə çağıran olmayıbmış*) xoruz başı kəsə bilərsən?

Heyva arvad Balaşın kişi heysiyyatını qurdalamaq, onu dişə vurmaq üçün cümləsini belə sual şəklində qurubmuş, yoxsa, ərklə "Gəl, bu xoruzu kəs!" deyə bilməzdi?

Balaş sinəsini qabardıb dərhal ötkəm cavab verir:

– Kəsərəm!

Heyva arvad dillənir:

– Gəl dalımca!

Onlar həyət qapısından içəri keçirlər.

Balaş xoruzu görüb dil-dil ötür:

– Heyva xala, nə qəşəng xoruzdur? Hayıf deyil bunu kəsdirirsən?

Ev yiyəsi əllərini belinə qoyub atmaca atır:

– Bu həyətə xoruz yox, kişi lazımdır. Sənin kimi kişi.

"Kişi" xoruzu tutub kəsir və bir anlıq Heyva arvadın arzusu çin olur, həyətdən xoruz banı əvəzinə kişi olmasa da, kişilənmiş oğlan səsi eşidilir.

Heyva arvad qonağın ağzını arayır:

– Toylarda görürəm, Gümüşümə çox hörmət qoyursan, sağ ol, o da evdə tez-tez sənin adını çəkir.

Balaşın pörtüb qızarması ev yiyəsinə ləzzət verir, həmləni davam etdirir:

– Gümüşüm xalasıgildədir, yoxsa indi çoxdan qaçıb gəlmişdi sənin yanına.

Əhvalatdan sonra Heyva arvad qızı üçün Balaşı ələ keçirmək istəyir, Balaş isə bu ana-balanı.

Balaş məqsədini məndən gizlətmirdi:

– Gümüş yaxşı pul gətirə bilər. Anası gözləyir ki, qızını ayda bir-iki dəfə toya çağıracaqlar, bu da gedib yüz-yüz əlli manat şabaş yığacaq. Pul qazanmağı bacarmır. Təsəvvür elə, Gümüşü qonşu rayonlarda, sonra bütün Azərbaycanda tanıdasan, bilirsən nə qədər pul qamarlamaq olar? Qorxusuz-hürküsüz, təmiz qazancdır.

Dostum bu əhvalatdan sonra bir neçə dəfə Heyva arvadgilə gedib-gəlir. Gümüşü görür, ancaq qızın keyliyi onu darıxdırır. Daha çox anası ilə söhbət edir. Bir gün fikrini ev yiyəsinə açır.

Qadın soruşur:

– Deyirsən Gümüş artıq pul qazanar?

Balaş əlini-əlinə sürtüb cavab verir:

– Əlbəttə!

– Bəs sonra?

– Sonra daha çox pul qazanacaq.

– Düzünü de, sən bizə şərik olmaq istəyirsən?

– İşi qura bilsək, hə.

– Gümüş xoşuna gəlir?

– Gümüş xəzinədir.

Heyva yeniyetmə uşağın başından böyük danışmağına ürəyinin dərinliyində qızsa da, özünü o yerə qoymur:

– Dörd-beş ildən sonra o xəzinə tükənəcək, axı?

– Nöşün? – Balaş heyrətlə soruşur.

– İndi Gümüşün on iki yaşı var, elə bilirsən on altı-on yeddi yaşında da onu toyxanalara buraxacağam?

Balaşın həyatda hələ duza getdiyi özünü göstərir:

– Səbəb?

– Səbəb odur ki, ərə getmək vaxtı yetişəcək.

Balaş ağzını doldurub istəyir desin ki, kimdir Gümüşü alan? Ancaq dilinə başqa sözlər gəlir:

– Düz deyirsən, Heyva xala!

Heyva arvad guya zarafatla deyir:

– İstəyirəm Gümüş gələcəkdə sənin kimi bir oğlana qismət olsun.

Dostum Heyva arvaddan və qızından soyuyur. Onlardan ayağını kəsir. Daha toylarda Gümüş adamları əyləndirəndə irəli durub qızın başının üstündə qırmızı onluq uçurmağa həvəs göstərmir. Özü demişkən, pulu cibində qalır.

Balaş bu məsələdən quru çıxmadı, Heyva arvad ona kin bağladı. Gümüşün anası mənə də əyri-əyri baxardı, sanki işə mən pəl vurmuşdum.

Bir həftədən sonra Balaş qayıdıb Bakıya gəldi. Elə bil alınmışdı, keçən həftədəki adam deyildi. Siqareti-siqaretə calayırdı.

Ona sual dolu gözlərlə baxdığımı görüb dilləndi:

– Ən uzaq səfərimə çıxıram. Düzü, bir ayağım məni dala dartır. Heç indiyə qədər su üzündə yaşamamışam. Aylarla okeanda, – o qımışdı, – balinaların belinin üstündə hoppanıb düşmək gözümə durub. Gəmidə üç-dörd dəfə yüngül səfərlərimi saymıram. Dənizdə yol getmək başqa, lövbər salmaq başqa. Amma dənizi, suyu sevirəm.

– Kürdə çimməklərimiz yadıma düşdü. Suquşuna dönərdik.

Balaş başını silkələyib sanki fikirlərini dağıtdı:

– Yaxşı, bir az da kövrəlsək, yolumdan qala bilərəm.

– Şəhərimizdə nə var, nə yox? – Mövzunu dəyişən sual verdim.

– Dünən dostunu tutub atdılar içəri.

– Hansı dostumu?

– Babayarı.

– Yenə nə oyun durğuzdu?

– Sahə milisi ilə dalaşıb tapançasını alıbmış.

– O, səbəbsiz dalaşmaz.

– Kefli olub. Yəqin sahə milisinin etdiyi hansısa əclaflıq yadına düşübmüş. Onun hərdən it ilində olmuş bir əhvalatı təzələyib hengamə qopartmağı var.

Üç gündən sonra səhərüzü Binə aeroportundan dostumu yola saldım. Bu, Allah bilir, neçənci səfəri olacaqdı. O inanmışdı ki, axtardığını uzaqlarda tapacaq, lap uzaqlarda.

Şəhərə qayıdanda elə bil boşluğa, vakuuma düşdüm. Nə yerdə idim, nə göydə. Yenə ruhum çırpınıb bədənimə sığmırdı.

Evə dönmədən "Azneft" meydanındakı Bəhram Gurun tunc heykəlinin yanına gəlib şəhərimizə gedən taksiyə mindim.

Xəyallardan ayrılanda mənzil başında idim. Bazar günü olduğuna görə şəhərimizin eni-uzunu beş yüz metr olan mərkəzi qaynayırdı. Belə günlərdə adətən yerindən duran bazara, dükana qaçır.

Hər addımbaşı "Ya Allah" deyib görüşənlər, marça-març öpüşənlər, ucadan, heç nəyi man bilmədən danışanlar, zarafatlaşanlar, şuxluq eləyənlər... Bazar alverçilərinin, bağ-bostandan tərəvəz, mer-meyvə, ağartı, toyuq-cücə, balıq, yun, daha nələr-nələr gətirib axşamacan satıb qurtarmaq istəyən kəndlilərin səs-küyü də öz yerində.

Mən uşaq olanda bazarın qarışıq uğultusunu batıran bir uca səs vardı – hündür dirəyin başına bərkidilmiş səsgücləndiricinin gurultusu. Atamdan eşitmişdim ki, bu sovxa II Dünya müharibəsi dövründən qalıb, otuz-otuz beş ilin ələngəsidir, amma xarab olmur, işləyir.

Radioya qoşulan həmin səsgüclənsiricidən mən səhərlər dəfələrlə SSRİ-nin himnini dinləmişəm. Xəbərlər bitəndən sonra konsert, çal-çağır, daha sonra uşaq verilişi başlayardı. Başqa verilişlərin növbəsi gələndə radio söndürülür, bir də günorta muğamat konserti veriləndə təzədən dəmə qoyulurdu.

Bir də şəhər camaatı elə bil bazarın, dükanların koloritli, baməzə, itoynadan adamlarını görmək, onların dilindən çıxan sözləri eşitmək üçün qulaqlarını, gözlərini geniş açıb ora-bura vurnuxurdular. Kişilərin arasında olduğum üçün daha çox öz həmcinslərimi müşahidə edirdim. Bilirdim ki, alver səngiyəndə başında iri kepka, əynində əldətikilmə uzun pencək, elektirik mağazasının qarşısında xüsusi düzəldilmiş iri stulda oturub əllərini stol üstünə qoyubmuş kimi əndrabadi şəkildə irəli çıxmış yekə, təpəyə oxşayan qarnının qaşqasında çarpazlayıb xamlanan gözləri ilə xumar-xumar baxan Xasaya salam vermək və ondan "Əleykəssəlam, iki də artıq", "Əleykəssəlam, artıq-əskiksiz", "Əleykümsürüş" cavablarını almaqdan ötrü çoxu növbəyə dayanmağa belə hazırdır. Bazarın ağzındakı Burxan kişinin "Ovçular" mağazasında təzə ovçu silahlarına, patronlarına, balıqçı

qarmaqlarına, uzunboğaz çəkmələrə baxırdım. O, atamın yaxın tanışı olsa da, məni tanımırdı. Heç vaxt heç nə almayan, hər dəfə bütün malları bir-bir gözdən keçirdən bu xeyirsiz müştəriyə qapıdan çıxanda Burxan kişi çəp-çəp baxırdı. Satıcının məni ötürən baxışlarından xoşum gəlmirdi. Nəsə onun gözlərinin dərinliyində qaçılmaz qəzəb görürdüm. Az danışan, satıcı xarakteri olmayan, sanki başqa iş tapmayıb burda başını girləyən, tərəddüdlər içində tınçıxan, siqareti-siqaretə calayan bir adam idi. Mənə elə gəlirdi ki, ovçu silahından kimlərəsə atəş aça bilər.

Şəhərimizdə gördüyüm hər şeyi gözümə təpmək, yadımda saxlamaq istəyirdim. Saçımı qırxdırmağa getdiyim Əlipaşa ustanın həmişə kefli olan Qulamın üzünü qırxandan sonra odekolonlayanda müştərinin balıq kimi ağzını açması bir mənzərə yaradırdı ki, gəl görəsən. Bərbər axırda onun ağzına xeyli odekolon səpirdi, sərxoş spirtin iyindən məst olurdu. Bu zaman Qulam ilə mənim aldığım ləzzət bəlkə də eyni idi.

Qırmızısifət Cəfərin balaca köşkünün qazlı suyundan içməmiş heç kəs bazardan getməzdi. Siropa nə qatırdısa, limonad çox dadlı olurdu. Lap cənnət suyu kimi...

Dəmiryolu vağzalına getdim. Mavritaniya üslubunda tikilmiş yaraşıqlı, möhtəşəm vağzal binası 1880-ci ildən qalıb. 1879-83-cü illər arası salınan Bakı-Tiflis dəmir yolu boyunca eyni görünüşdə bir neçə belə tikili var, gəzib görmüşəm. Uşaqlıqdan hər gün harda hərlənib-fırlansam da, axırda mütləq gəlib bu binanın yanından, içindən keçmişəm. Hündür divarlarının üç yerində, üstündə ikibaşlı qartalın qabardılmış şəkli olan Çar Rusiyasının gerbini, naxışlardan ibarət tavanını, şəbəkəli iri pəncərələrini oturmuş və durmuş halda çox seyr etmişəm. Gözləmə salonunun təmtərağı sinəmi qabardıb, qamətimi şaxladıb, yerişimi dəyişib. Zarafat deyil, Tiflis-Bakı dəmiryolunun açılmasında iştirak edən İmperator III Aleksandr həzrətləri başının dəstəsilə burdan keçib. Hansı zamandan qalmış adətdir bilmirəm, gözümü açıb belə görmüşdüm; şənbə, bazar günləri səhər saat 10-da işi oldu-olmadı, kimisə qarşıladı-qarşılamadı, yola saldı salmadı, dəxli yoxdur, başıpapaqlıların əksəri adına “Günorta poyuzu” de-

yilən Tiflisdən gələn Bakı qatarının qabağına çıxardı. Qatar dayanan kimi qaynanmış yumurta, bişmiş qarğıdalı, qızardılmış balıq, lavaş, qaymaq, pendir, mövsümdən asılı olaraq duzlu, diri xiyar, pomidor, peraşki, qutab satan arvadlar vaqonların qapısının ağzına cumurdular. Şıdırğı alver başlayırdı. Sərnişinlər əlüstü yeməkləri alıb vaqonlara daşıyırdılar.

Tanış arvadların əlinin dadını bilirdim. Qatarla Bakıya gedəndə mütləq onlardan nəsə alıb yola götürmək və vaqonda ləzzətlə yemək üçün evdən ac çıxırdım. Bəzən qatara minməyəndə belə qızardılmış balıq alıb cığaranın arasında evə gətirirdim. Anam da sümüksüz okean balığını qızdırmadan, soyuq-soyuq yeməyi xoşlardı.

Heydər Əliyev Moskvada işlərkən bir dəfə vaxtilə təhlükəsizlik orqanlarında onunla birgə çalışmış həmyerlimizdən soruşub:

– Dəmiryol vağzalının qabağında yenə də cavanlar topa-topa yığışırlar?

Şəhərimizdə yeganə yemək və əyləncə yeri dəmiryolu vağzalındakı restoran idi. Gecələr restoranda orkestr də çalırdı. Hərbi hissənin rus zabitləri, onların qadınları, gənc qızları və oğlanları, sevgililəri burda məclis qurub ad günləri, bayramlar keçirirdilər. Şənbə, bazar günləri içəridə yer tapmaq müşkül məsələ idi. Gözüaçıq yerli cavanlar da şənliklərə qoşulurdu. Rus qızları çox əl verməsələr də, tək-tükü qarmağa keçirdi. Nataşalarla gəzən oğlanlar adnan deyilirdi.

Tez-tez restoranda dava düşürdü. Keflənənlərin sözü çəp gələndə mərəkə qopurdu. Dava bəzən bıçaqlaşmaya qədər gedib çıxırdı. Rus zabitlərinin silaha əl atıb tapançalarını havada oynatmaqları da olurdu. Gecələr vağzal həndəvərində milis maşını, milislər dolaşdığına görə ayıq olanlar öz hərəkətlərinə göz qoymağa çalışırdı.

Vağzalətrafı tikililərdən olan 7 nömrəli məktəbin binası da göz oxşayırdı. Mən bu məktəbdə oxumamışdım, amma yanından keçməyi xoşlayırdım. Məktəb binası dəmiryolu vağzalının yaşıdıdır.

Rus və rusdilli dəmiryolçu ailələri Qafqaz canişininə, Rus imperatoruna xeyli ərizə və şikayət yazdıqdan sonra 1893-cü ildə binada yaşayan dəmiryolçu ailələrini başqa yerə köçürdüb şəhərimizdə bir

sinifli rus məktəbi açıblar. Hardasa oxumuşdum ki, məktəb açılan vaxt iyirmi şagirdi olub; on biri oğlan, doqquzu qız. Tiflisdən göndərilən Sursuladze familyalı bir gürcü müəllim burda dərs deməyə başlayıb. Üç il sonra onu Bakıdan gəlmiş müəllim Anatoli Starkov əvəz edib.

Nə isə, bunlar köhnə söhbətlərdir...

Həyət qapımızdan içəri girəndə anam qarşıma çıxır. Həmişə üzündə gün doğan anam. Üzümdən öpüb oğlunu bağrına basır.

Uşaqlıqda həmişə özümün unutduğum, anamın isə yaddan çıxartmadığı bir gün vardı ki, həmin gün səhər ertədən başımın üstündə durub məni yuxudan durğuzmaq üçün deyərdi:

– Balam lampalarını yandırsın!

Lampalar gözlərimdi, ayılıb hər tərəfi işıqlı görürdüm. Anam inandırmışdı ki, mən gözlərimi açanda səhər açılır.

Sonra əlini başıma çəkib pıçıldardı:

– Bu gün sənin ad günündür.

Axşam anam süfrə açardı, ad günümü bayrama çevirərdi. Qonşuluqda yaşıdlarımın çoxunun ad günlərindən xəbəri olmazdı. Bir də ayılardılar ki, doğulduqları gün arxada qalıb. Elə bil onların valideynləri uşaqlarının ad günlərinin hayında deyildi.

Anam soruşdu:

– Murad çağırıb?

Başımı buladım:

– Yox, qəribsəyib gəldim.

– Atanın sənə sözü var.

– Nə söz? – təəccüblə soruşdum.

– Özü deyər. – Anam gülümsündü. – Dünən Qaradan məktub gəlib. Yazır ki, yaxşıyam.

– Hə, mənə də elə yazmışdı.

– Allaha şükür!

Axşam atam kəsədən getdi:

– Biz həm ata-oğul, həm də qardaşıq. Sənə bir şey demək istəyirəm.

– Buyur, qardaş! – Şuxluq eləmək istədim.

– Gəlsənə, səni evləndirək?!

Anam ona ayaq verdi:

– İl-ildən ağır gəlir. Nəyi gözləyirsən?

Susdum. Cavab verməyə hazır deyildim.

Atam dedi:

– İstəklin varsa, o başqa məsələ.

Bu dəfə cavab vermək əvəzinə çiynimi çəkdim. Çaş-baş olmağım atamı həvəsləndirdi.

– Ananla könlümüzdən bir qız keçir.

Ürəyim gizildədi, öz fikrim yoxdurmu, atam-anam mənim əvəzimə də düşünür. Deməli, məndən arxayın deyillər.

Atam sözünə davam etdi:

– Dostum Surxayı tanıyırsan? Bizdə olub. Onun bir qızı var, adı Fərəhdir. Qızın anası məsələdən xəbərdardır.

Anam dilləndi:

– Həm ağıllı, həm də qəşəng qızdır. Anasını çoxdan tanıyıram, Əminə müəllimədir. Onunla özüm söhbət eləmişəm. Deyir uşaqlar görüşsünlər, danışsınlar, bir-birinə meylləri olsa...

Atam nəsihətə keçdi:

– Oğul, əslini, nəcabətini tanımadığın qızla ailə qurmaq xeyir gətirməz. Get, qızı tap, anan onun yerini-yurdunu sənə deyəcək. Səni məcbur edən də yoxdur. Amma indidən özünü ona qarşı qoyma. Niyyətin xoş olsun. Çalış bu iş baş tutsun. Bəlkə doğrudan da, bəxtinə o qız yazılıb.

Öz otağıma çəkildim. Divar boyu düzülən şkaflardakı kitablar mənə baxırdı. Hamısını rəngindən və boyundan tanıyırdım. Aralarında çatdırıb oxumadıqlarım da vardı. İstədim bir kitab götürüb vərəqləyim. Amma əllərim qalxmadı. Dirsəkləmə divanda oturdum.

Bəri başdan deyim ki, Fərəhlə heç vaxt qarşılaşmamışdım, şəklini görməmişdim. Bu vaxta qədər atamın onun atası barəsində xüsusi danışdığını eşitməmişdim. Amma anam hərdən evimizdə Əminə müəllimənin adını çəkirdi. Bir-iki dəfə görmüşdüm, dilli-dilavər, gülərüz qadın idi, adamı min dillə dindirirdi.

Fərəh haqqında çox düşünə bilmədim. Təsəvvürümdə yanılmaq istəmirdim.

Tələbə yoldaşım Nərmin yadıma düşdü. Ağıllı, təmkinli, utancaq, çalışqan qız olan Nərminin məni görəndə özünü yığışdırması nəsə ürəyimə yatmağa başlamışdı. Artıq onunla üz-üzə gələndə istilənirdim. İki-üç ay belə davam etdi. Nərminə ürəyimi açmağa cəsarət eləmirdim, amma qeyri-müəyyən sevgimlə xoşbəxt idim. Tullanıb qabağa düşmək istəmirdim. Vaxtın yetişməyini gözləməliydim. Vaxt yetişəcəkdimi?

Nə qədər gec sirrimi bildirsəydim, o qədər gec “yox” cavabı alardım.

Bir şənbə günü axşam kollektivimiz teatra getmişdi. Tamaşadan sonra gecə düşmüşdü deyə oğlanlar qızları ötürməli oldu. Mənim ötürəcəyim iki qızdan biri Nərmin idi. Avtobusa mindik. Onlar qarşımdakı oturacaqda əyləşmişdilər. Yarı yolda o biri qız düşdü. Təxminən bilirdim, Nərmin axırıncı dayanacağa qədər gedəcəkdi. Yerimi dəyişib onun yanına keçmək mənə yüngüllük kimi göründü. Bir istədim, tamaşadan söz salıb onu dindirim. Ancaq bunu da eləmədim. Çünki istəmirdim cavab verməkdən ötrü başını arxaya çevirsin. Adam sevdiyi ilə üz-üzə qalanda özünü daha artıq xoşbəxt sayır.

Avtobusdan düşüb lal-dinməz yanaşı gedirdik. Qızın yaşadığı ev dayanacaqdan bir qədər aralı imiş. Susmaq təkcə cəsarətsizlik deyil, həm də nəzakət əlamətidir. Dünyada ən çox istədiyin bir adamın yeriməsinə, düşünməsinə, ətrafa baxmasına mane olmursansa, sevgilinin hənirini duyursansa, daha bundan artıq nə istəyirsən?

Beşmərtəbəli bir binanın yanına çatanda Nərminin titrək səsi eşidildi:

– Çatdıq.

Bir anda bundan yaxşı fürsətin ələ düşməyəcəyini düşünüb dilim-dodağım əsə-əsə dedim:

– Nərmin... Sənə bir sualım var.

Nərmin sanki bu sualdan qorxub başını aşağı saldı, səsi çıxmadı.

Soruşdum:

– Nərmin, incimə, sevdiyin varmı?

Nərmin astaca cavab verdi:

– Var.

Dünya başıma fırlandı.

Ani pauzadan sonra ağızucu sağollaşıb ondan ayrıldım.

Yolda özümə divan tutdum: "Öl, sənə bu da azdı. Ayaq üstə yatırsan, böyründən-başından xəbərin yoxdur. Əbləh-əbləh durub başqasının adaxlısını güdürsən. O da abır-həyadan səsini çıxartmır."

Nərminin onunla maraqlanmağımı heç kəsə deməməyi qıza hörmətimi artırdı.

Aradan ilyarımdan çox vaxt keçdi. Bir həftədən sonra dövlət imtahanları başlayacaqdı. Saatlarla universitetin əsas kitabxanasının oxu zalından çıxmırdım. Ancaq fikrim tez-tez dağılırdı. Ruh düşkünlüyümün qabaqda yazdığım kimi, dərinləşdiyi vaxtlardı.

Belə günlərimin birində bizdən üç yaş böyük olan qrup yoldaşımız Dilbər oxu zalına girib oturduğum stola yaxınlaşdı və qulağıma pıçıldadı:

– Səni dəhlizdə gözləyirəm, sözüm var.

Dəhlizə çıxdım. Dilbər vacib, işgüzar görkəm almışdı. Sanki həmişəki şux qız deyildi.

Təmkinlə dilləndi:

– Söhbətimiz ciddi olacaq.

– Olsun! – Özümü Dilbərin növbəti gedişinə hazırladım.

– Bilirsən ki, Nərminin xətri mənim üçün necə əzizdir?

– Ona hamının hörməti var.

– Düzünü de, ona meylin olub?

– Budur vacib sözün?

– Hə.

– Onun öz adamı var.

– Kimdir?

– Bilmirəm. Sənə maraqlıdırsa, özündən soruş!

– Axı, sən soruşmusan. O da cavab verib.

Olmuş söhbəti danmağın xeyri yoxdu:

– Soruşdum ki, sevdiyin varmı? "Var" dedi. Dərinə getmədim. Bir də onun kimi sevməyinin mənə nə dəxli ola bilərdi?

– Dəxli varmış, çox dəxli varmış. Siz kişilər niyə belə burnunuzu dik tutub gəzirsiniz? Əgər soruşsaydın ki, sevdiyin kimdir? O da cavab verəcəkdi ki, sənsən.

Nə deyəydim? Aradan çox yellər əsmişdi, Nərmindən soyumuşdum.

İçim göynədi. Adam ölümqabağı güclənib işıqlandığı kimi mən də sonuncu dəfə bir anlıq Nərmini böyük hörmətlə andım.

Dilbərin səsinə ayıldım:

– Sonuncu fürsətdir, bir aydan sonra universiteti bitiririk, hərəmiz bir tərəfə dağılışacağıq. Razı olsan, Nərminlə danışmaq mənim boynuma.

"Hə" – öz-özümə dedim – Nərmin bəlkə də, düşünürmüş ki, onun dərdindən günü-gündən belə əriyirəm.

Sakit-sakit dedim:

– Daha gecdi...

Dilbər dirəndi. Qız adından oğlana elçilik etməyəcəkdi ki...

Bakıya gəldim. Anam mənə Fərəh barədə bildiklərini demişdi. Bayılda babasındanqalma evdə yaşayırdı, telefon nömrəsi yazılmış yarımçıq vərəq döş cibimdə idi. Bəlkə də vərəqi itirsəydim, yaxud cırıb atsaydım, Fərəh fikrimdən çıxardı. Sanki mənasız bir addım atacağımı düşünüb süstləşmişdim, ərincək olmuşdum.

Həftə sonu atamın zəngi məni silkələməyə məcbur etdi. Telefonda o, qızdan söz açmadı, elə-belə vəziyyətimi soruşdu. Mən "Hər şey qaydasındadır!" deyəndə atam yəqin elə bildi ki, Fərəhlə görüşmüşəm.

Sağollaşanda dedi:

– Yaxşı, gələrsən, danışarıq. Möhkəm ol!

Atamın dediyi məsələdə hələ möhkəmlənə bilməmiş, təxminən üç-dörd gün sonra axşam anamın zəngi gəldi:

– A bala, yaxşı deyil, qızgillə söz danışmışıq. Dünən Əminə xanım dedi ki, qızı ilə telefonla danışıb, səndən hələ səs çıxmır.

– Ana, narahat olma!

Dalınca nəsə demək istədim, anam sözümü kəsdi:

– Çox narahatam! Atan da nigarandır. İşi ləngitmə!

Atamla anamın sözü indi ağlıma batdı. Fərəhlə görüşsəm, dünya dağılmaz ki. Pencəyimin döş cibindən onun telefon nömrəsi yazıl-

mış kağızı götürüb əlimi dəstəyə atdım, nömrəni yığdım. Sanki, bir an sonra fikrim dəyişəcəkdi.

Xəttin o başından ötkəm qız səsi gəldi:

– Alo!

Çəkinmədən sözə başladım:

– Salam!

– Salam!

– Bağışlayın, Fərəh lazımdır.

– Buyurun, eşidirəm!

– Mən...

– Hə, tanıdım.

Fərəhin diri danışığı mənə güc verdi:

– Necəsiniz?

– Yaxşıyam! – Qızın güldüyünü duydum.

Guya lap yüz ilin tanışı idik. Özümdən çimçəşdim. Başqa söz tapmadığımdan soruşdum:

– Sizi nə vaxt görə bilərəm?

Fərəh elə bil qabaqcadan mənimlə görüş üçün vaxt müəyyən edibmiş:

– Sabah axşamüstü, saat dörddə gəlin, gözləyəcəyəm.

– Sağ olun!

– Hələlik!

Öz-özümə dedim ki, nə cəsarətli qızdır?

Bəlkə qabağımıza düşən vardı, ona görə? Vasitəçilər işlərini möhkəm tutmuşdular. Yoxsa qız özünü belə məhrəm və sərbəst aparmazdı.

Ertəsi gün deyilən vaxtda Fərəh yaşayan həyət evinin qapısında dayanmışdım.

İndi bu vaxta qədər həyatda üzünü görmədiyim bir adamla qarşılaşacaqdım. Tuş gətirməsəydilər, bəlkə də, Azərbaycana heç vaxt ayaq basmayacaq hər hansı qvineyalı, belçikalı, argentinalı kimi heç zaman onun üzünü görməyəcəkdim. Heç uzağa getmirəm, bəyəm ömrümüzün axırına qədər vətəndə, lap elə Bakıda hamını görə bilirik? Fərəhi təsəvvür etmək istəmirdim. Çünki tanımadığın birisini təsəvvür edəndə həmişə çaşırsan. İllah da barəsində bir-iki xoş söz

eşidəndə. Dəfələrlə təsəvvürümdə yanılmışam. Bir dəfə dostu Babayarın tərifini göyə qaldırdığı, Merilin Monroya oxşatdığı Bakıdakı "fazanka"sını (*qırqovul, məşuqə mənasında, türmə jarqonu*), görüb rişxəndlə soruşur:

– Babayar, sənin Merilin Monron budur?

Babayar gülə-gülə cavab verir:

– Maygülü, nə bilim, onu bir gün görəcəksən? Səni Merilin Monronun şəkillərinə tamaşa etdirib ağzının suyunu axıdırdım, içini qızdırırdım... Ağlına gəlmirdi ki, Babayar hara, Merilin Monro hara?

Babayarı xatırlamağın yeri deyildi.

Qapının zəngini basdım. Kaş qız evdə olmayaydı. Bu nə görüşməkdir ey, qorxusuz-hürküsüz, hissiz-həyəcansız. Bir telefon zəngi məsələni həll edib, gələcək sevgilimin doqqazında bitmişəm.

Qapı açılır. Fərəh ola biləcək qız kimliyimi öyrənib, təbəssümlə məni həyətə dəvət edir. Kiçik, həm də səliqəli bir həyətdir. Səkinin qıraqlarında əkilmiş kolların gülləri tökülüb. Payızdır, indiyə gül qalmaz. Qızın dalınca ayaqqabılarımı soyunub evə keçirəm, üz-üzə qoyulmuş kreslolardan birində əyləşirəm. Evdə, deyəsən, bizdən başqa bir ins-cins yoxdur. Fərəh bu qızdır?

O, özünü təqdim etmədən soruşur:

– Çayı indi gətirim, yoxsa sonra?

Hardan bilir ki, çayxoram. Bəlkə bunu da ona deyiblər?

Dilim açılır:

– Hələ heç nə içmək istəmirəm. Siz Fərəhsiniz?

– Fərəhəm! – qız yenə gülümsəyir.

Ortaboylu, azacıq dolu, suyuşirin, əsmər bir qızdır. İri gözləri həyat eşqi ilə qaynayır.

Bir anlıq çaşqın vəziyyətə düşürəm. Gözümü döyürəm. Axı qız nədən ötrü gəldiyimi bilir. Tanışlığımız indi başladığı üçün heç bir saatlıq da keçmişimiz yoxdur. Amma hər halda kişiyəm, ilk addımı atmalıyam:

– Bəlkə, xatırlamıram, nə vaxtsa üz-üzə gəlmişik? Biz ki, eyni şəhərdənik.

Çiyinlərini çəkir, deməli, tanımır:

– Deyirlər, başadüşən oğlansınız.

Sinəm qabarır. Oho, xəlvət yerdə görüşünə gəldiyin qızdan bir xoş kəlmə qazandım.

– Sizə adamın qanı qaynayır. – deyə dillənirəm.

Fərəh qarşıdakı kresloda oturur, düz gözlərimin içinə baxır:

– Məncə, biri-birimizi yaxşı başa düşərik?

– Əlbəttə.

– Açıq danışmağı sevirəm.

– Elə mən də.

Öz-özümə deyirəm; Aha, rəsmi sevgi danışıqlarına başladıq. Deyəsən, Fərəh məsələni ilk görüşdə çürütmək fikrindədir.

O, sözünə davam edir:

– İstəyirəm, söhbəti uzatmayıb ürəyimdən keçənləri elə bu başdan sizə bildirim.

İçimi yeməyə başlayıram. Bu qız bir göz qırpımında məni üstələdi. Hara tələsir? Niyə belə tez qabağa keçmək istəyir? Birdən "həhü" eləyib özümü toparlayınca, mənə eşq elan edər ha. Onda lap biabır olaram. Təşəbbüsü ələ almaq fikrinə düşürəm:

– Qarşılıqlı anlaşma olanda, əlbəttə, sözü uzatmağa ehtiyac olmur. İlk dəfə sizin söhbətiniz açılanda, düzü, çaşqın vəziyyətdə qaldım. Hətta ürəyimdə bu işə tam etiraz etdim. Ancaq sonra özümü qınadım. Adam gərək tanımadığı birisi barədə yaxşı-pis heç bir fikir yürütməsin. Ona görə də sizinlə görüşmək qərarına gəldim.

Fərəh diqqətlə məni dinləyirdi. Bu sarsaq cümlələr hardan ağlıma gəlirdi. Adam da sevəcəyi qızla bu dildə danışar? Xəcalətəm, xəcalət! Deyəsən, günahkar Fərəh idi. Axı, niyə belə danışıq qaydasını seçdi? Niyə ona uydum? Niyə onun havasına düşdüm?

– Sizə ürək qızdırıram. Sizin kimi adam mənim üçün lap tapıntıdır. – Bunu Fərəh deyir...

Bədənimə vicvicə düşür. Qız qabağa keçib yüz faiz məni tozanağa basacaq.

Qabaqdangəlmişlik eləyib əks hücuma keçirəm:

– Məni çox şişirdirsiniz.

– Sevənlər hər şeyi şişirdir.

Özümə acığım tutur. Niyə axı, bu qıza qalib gəlmək istəyirəm? Kor-kor, gör-gör onun fikri, düşüncəsi apaydındır. Fikirləri dolaşıq düşən mənəm.

– Sizi başa düşməyə çalışaram – deyib ona daha da diqqətlə baxıram.

Üzünə qızartı çökür. Bu, ürəyimə yatır, demək ona təsir göstərməyə başlamışam.

Fərəh dillənir:

– Bilin ki...

Yenə ürəyim tökülür. Yox, deyəsən, qabağını ala bilməyəcəyəm. Hey irəli keçmək istəyir. Yaxşı, qoy keçir, keçsin. Görək axırı nə olur. Candərdi dilim tərpənir:

– Buyurun!

– Mənim sevdiyim var!

Diksinirəm, ikinci dəfədir bu sözləri mənə deyirlər. Nərmində uduzmuşam, indi ki, təcrübəm var. Yoxsa, sevən qızların danışıq üslubu belədir?. "Sevdiyim var" deyib oğlanı "Sevdiyin kimdir?" sualını verməyə vadar eləsinlər. Oğlan da bu sualı verəndə söz atsınlar ki, özün tap. Hə, indi tapmaca tapmalıyam:

– Kimdir sevgilin?

Fərəh dərhal cavab verir:

– O iki ildir burda yaşamır. Ali təhsil aldıqdan sonra neft mühəndisi kimi təyinatını Kuybışevə veriblər. Yolunu gözləyirəm, bir aya dalımca gəlməlidir. Ancaq atam-anam ona ərə getməyimə qətiyyən razı deyil.

– Atanı-ananı razı salmalıyam? – Quruca soruşdum.

Qız ovqatımın dəyişdiyini duyur:

– Mənə xırda bir köməyiniz lazımdır.

– Neyləməliyəm?

– Bircə ay susub məsələni uzadın. Ömrüm boyu sizə minnətdar olaram.

Heç belə macəraya rast gəlməmişdim. Kiminsə ağlı ilə iş tutmağın axırı budur. Amma bütün hallarda xeyirxahlıqdan qaçmaq olmaz. Özümü sındırmayıb ayağa dururam və deyirəm:

– Arxayın olun!

Fərəhdən ayrılıb küçəyə çıxdım. Həmin gün axşamacan qız gözümün önündən getmədi. Onun cəsarətinə, qüruruna, tədbirli hərəkətinə heyran qalmışdım. Məqsədinə çatmaqdan ötrü tanımaza-bilməzə mənə etibar etmişdi, sirrini açmışdı. Məni sevgi oyununa salmaq istəmirdi.

Axşam evimizə zəng vurub anamla danışdım. Sözarası qızla görüşdüyümü bildirdim. Anamın "Qız xoşuna gəldimi?" sualına "Deyəcəyəm, hələ tezdir" cavabını verdim.

Bir həftə sonra Fərəhi istəməyim, hətta guya ata-anamın onların evinə elçi getməsi barədə xəbər şəhərimizdə tanış-biliş arasında yayıldı. Söz qızın anasından çıxmışdı. Sonra Fərəhi görmədim. Başım öz işlərimə qarışdı.

Bir gün səhər obaşdan telefonum zəng çaldı. Dəstəyi götürdüm, atam idi.

Salamsız-kəlamsız dedi:

– Gərək belə eləməyəydin! Hara tələsirdin? Nə olmuşdu ki? Böyük-kiçik gözləyəydin də...

Gözlərimi ovuşdura-ovuşdura soruşdum:

– Heç nə başa düşmürəm.

Atam səsini qaldırdı:

– Heç səndən gözləməzdim. Qaçaqaç düşmüşdü? Qızı niyə qaçırdırdın? Qabağını kəsən vardı?

Yenə atamın fikri mənə çatmadı:

– Ata, nə baş verib?

– Necə nə baş verib? Dünən Surxayın qızını taksiyə mindirib aparmısan, Fərəhi deyirəm, qonşular görüb. Qızın ata-anası onsuz da razı idi. Heç indi də səslərini çıxartmırlar. Belə iş tutarlar?

Barmağımı dişlədim. Deməli, Fərəh sevdiyi oğlana qoşulub qaçmışdı.

– Ata, – dilləndim – neçə vaxtdır onu görmürəm.

Telefonda atamın səsi öləzidi, deyəsən, cavabımdan pərt oldu. Bircə kəlmə işlətdi:

– Ay əfəl!

Sonra telefonu qapatdı.

Ölkədə vəziyyət günü-gündən dəyişirdi, daha sevgi zamanı deyildi. Ora-bura baş vurmaqdan yorulmurdum.

Tez-tez baş çəkdiyim yerlərdən biri adı "9 yanvar" qoyulmuş köhnə "Malakan bağı" idi. Bulvardakı "Ну погоди" kimi burdakı çayxana da səs-küylü olardı. Balaca bağda diqqətimi çəkən topa-topa yığışıb, əl-qol ata-ata ucadan danışan, "dır-dır"ı bitməyən cuhudlar idi.

Dili tat dili olan dağ yəhudilərinin dediklərini aydın eşitsəm də, tək-tük sözləri tuta bilirdim. "Malakan bağı" onların yığnaq yeri idi. Sövdələşirdilər, alırdılar, satırdılar, dəllallıq edirdilər, sələmə pul götürürdülər, borc qaytarırdılar, biri-birinə yol açırdılar, xaricdəki tanışlarının, qohumlarının ünvanını verirdilər, eşitdikləri xəbərləri paylaşırdılar, mübahisə edirdilər, qəzəblənirdilər, deyib-gülürdülər, yorulanda da oturub çay içirdilər, fısнafıs siqaret sümürürdülər.

Bağın ortasındakı hovuzun içində başlarına fontanın suyu səpilən, hərəsi üçbucağın bir ucunda arxa-arxaya oturub allaha dua edən üç su pərisinin heykəli məni əfsunlayırdı. Nəcib, uzunsov fiqurların fonunda qaynayan həyat ruhumu yerindən oynadırdı.

Artıq SSRİ-də hürriyyət dövrü başlamışdı, İsrailə yol açılmışdı. Yəhudilər parta-part İsrail vasitəsilə iş qururdular. Bir yandan da onların tarixi vətən hesab etdikləri dövlətə köçü başlamışdı. İsrail hökuməti onları bir-bir dartıb aparırdı. Arvadı, əri yəhudi olanlar kefə düşmüşdülər. Dünya yəhudi cəmiyyətlərinin dəstəyindən bəhrələnə-bəhrələnə altdan-altdan xaricə köçməyə hazırlıq görürdülər. Viza almaq üçün müraciət edənlər banklardan pullarını çəkirdilər, olan-olmazlarını satıb, mənzillərinə müştəri axtarırdılar.

Yüz illərin deyimi idi, yəhudilərin bir ölkədən köçü başladısa, deməli qarşıdan qara günlər gəlir, məmləkətdə çaxnaşma düşəcək. Talmudun Babil variantının cildlərini vərəqləyəndə belə bir kəlama rast gəlmişdim: "Dünyaya dərd gələndə onu öncə İsrail duyur. İlk işiq şüasını birinci görən də İsrail övladlarıdır." Bu sözlər təxminən dörd min il əvvəl deyilib.

Dövlətə məxsus mənzil alqı-satqısına hələ icazə verilmirdi deyə yəhudilər öz bic variantlarını işə sürürdülər. Ər-arvad kağız üzərində boşanır, onlardan biri müştəri ilə saxta nikaha girir, sonra mənzil təzə adamın adına keçir, daha sonra yalançı ər, yaxud arvad təzədən boşanıb azad olurdu.

Balaş növbəti qayıdışında Bakıda mənzil almaq fikrinə düşmüşdü. Bildiriş lövhəsindən bizə münasib olan ikiotaqlı mənzilin telefon nömrəsini götürüb zəng vurduq, rusca danışan ev sahibindən görüş alıb Nərimanov heykəlinin arxasındakı bir evə getdik. Qapını təxminən qırx yaşında, üzünü tük basmış, arıq, qaradinməz, nimdaş geyimli kişi açdı. Tanış olduq. Adı Manaşid idi. Mənzil boşaldılmışdı. Yalnız böyük otaqda satlığa yaramayan köhnə stol və stullar qalmışdı.

Otaqları, hamamı, tualeti, balkonu müştəri gözü ilə başdan-ayağa süzdükdən sonra yəhudiliyi üzünə yazılmış mənzil yiyəsi bizi oturmağa dəvət etdi. O da, biz də yıxılmayaq deyə ehtiyatla yanımızı yerə qoyub amanabənd stulları cırıldatdıq.

Dostum mənzilin qiymətini soruşdu. Manaşid mənzili barədə fikir bildirmədən bircə kəlmə dedi:

– İyirmi dörd min dollar!

Balaş qiyməti öldürmək üçün təxminən on beş dəqiqə çənə döyəndən sonra – arada mən də ona züy tuturdum – mənzilə on doqquz min verəcəyini dedi.

Bayaqdan ağzını açmayıb bizi dinləyən Manaşid ayağa durub mətbəxə keçdi, əlində on iki vərəqlik dəftər və karandaş geri qayıtdı. Yerində oturub dəftəri açdı, karandaşla Balaşın adını on beş-iyirmi adamlıq siyahıya əlavə elədi. Sonra adın qabağına iri rəqəmlərlə "19" yazıb dostumun telefonunu soruşdu. Telefon nömrəmi verdim.

Ona təəccüblə baxdığımızı görüb dedi:

– Hələ viza almağımın vaxtına üç ay var. Üç ayda beş min qazanası deyiləm. Mənzil üçün müraciət edən çoxdur. Təklif olunan qiymətləri, adları, telefon nömrələrini yazıb götürürəm. İki ay da gözləyəcəyəm, kim çox pul versə, mənzili ona satacağam.

Vərəqdə yazılmış adlara, təklif olunan qiymətlərə baxdım. Siyahıda iyirmi min, iyirmi min yarım, iyirmi iki min təklif edənlər də vardı.

Belə alver münasibətinə öyrəşməmişdik.

Pilləkənləri enəndə Balaş mənə dedi:

– Görürsən yəhudi ağlını? Bizim kimi tələm-tələsik, gözüyumulu iş tutmur. Malını dəyər-dəyməzinə satmır. İki ayda nə qədər irəli düşsə, qənimətdir. Gözləməyi, udmağı bacarır. Ərinmir, dəftər açıb, siyahı tutur, hərif axtarır.

– Bəlkə heç istədiyi müştərini tapmayacaq? – səsləndim.

– Manaşid oldu da bunun adı? – Balaş soruşdu.

– Hə.

– Hər halda bacardığını edəcək.

Bu əhvalat bir il sonra olacaqdı. Yerinə düşdü deyə, qabağa çəkdim.

Artıq əlçatmaz, tanınmış, hörmətli, şöhrətli adamlara yanaşmaq, onlarla ünsiyyət qurmaq asanlaşmışdı. Onlar özləri də yavaş-yavaş xeyirdə-şərdə, çayxanalarda, küçələrdə gözə dəyirdilər. Deyəsən, hamısının şaxı sınmışdı.

Bir təsadüfdən danışım.

Ötən payızın axır-axırında Balaşla yeniyetmə vaxtlarımızı yada salıb balığa getmək həvəsinə düşdük. Qabaqlar Şirvan kollektorunda, Kürdə, Kürətrafı kanallarda, axmazlarda qoşa o qədər balıq tutmuşduq ki...

Köhnə tilovları qaydaya saldıq, yüngülvari yol hazırlığı gördük. Gecə saat dörddə dostumun "Moskviç"ində yola düşdük. Bir saatdan sonra Bakı-Salyan yolunun üstündəki Şirvan qoruğuna burulduq. Balaş qoruğa bələd imiş. Xeyli içəri gedib, kanalın qırağında dayandıq. Alaqaranlığın şaxtasında balıq tilova yaxşı gəlməli idi. Tilovlarımızı açıb suya atdıq.

Ovçular kimi isti paltar, çəkmə geyinsək də, payızın sazağı bizi üşüdürdü. Bir azdan qarmağımı balıq tərpətməyə başladı. Balıq tutmuş adamlar bunun nə qədər maraqlı mənzərə olduğunu yaxşı bilirlər. Balaş da gözünü tilovuma dikmişdi. Birdən qarmaq bərkdən dartıldı. Tilovu çəkdim. Geri atdığım qarmağın ucunda biləyim boyda bir çəki çapalayırdı.

Yaxşı başlamışdım. Üşümək yadımdan çıxmışdı. Qarmağıma dalbadal balıq düşürdü. Məndən beş-altı metr aralıda tilovunu güdən

Balaşın isə elə bil, qaraçuxası yatmışdı. Qarmağına heç tısbağa da yaxın durmurdu.

Doqquzuncu balığı qarmaqdan çıxarıb su dolu vedrəyə atanda dostum tilovunu götürüb kanal boyunca təxminən yüz əlli metr aralandı, özünə təzə yer seçdi.

Çay içmək istədiyim üçün azuqəmiz yığılmış çantanı maşından götürüb qayıdıram.

Qarmağa yenə balıq dəyir. Kefdəyəm.

Birdən qulağıma maşın səsi gəlir. Geri qanrılıb görürəm ki, maşınımızın böyründə iki ağ "Niva" dayanır. Maşınlardan dörd kişi düşüb mənə sarı addımlayırlar. Çöl paltarındadırlar. Döşdə gələn ortaboylu adamın gözlərində eynək var. Çağırılmamış qonaqlarım salam verib cavabını gözləmədən əvvəl vedrədə oynaşan balıqlara, sonra suyun üzündə titrəyən tilovun üzgəcinə baxırlar. Bu an balıq qarmağı dartmağa başlayır, elə bil kimlərinsə gəlişini gözləyirmiş. Eynəkli kişi şövqlə mənə üz tutur:

– Olar tilovu çəkim?

– Əlbəttə! – cavab verdim.

Fikrim tilovdadır, birdən balıq qarmağı qırıb qaçar. Ətrafdakıların səsi çıxmır. Adam peşəkar balıqçı kimi qarmağa düşmüş balığı quruya atır, gülə-gülə deyir:

– Görürsünüz, ən iri balığı mən tutdum.

Kişilərdən birinin şən səsi eşidilir:

– Камран Мамедович, вы везучий человек!

– "Vezuçiy çelovek"ə, yəni ayağısayalı adama diqqətlə baxıram və tez-tez simasını qəzetdə, efirdə gördüyüm şəxsi tanıyıram. Bu ki, Respublikanın rəhbəri Kamran Bağırovdur.

Dilim açılınca qonaqlar mənə əl eləyib maşınlara doluşur, yollarına davam edirlər.

Balaşın səsini eşidirəm:

– Onlar kim idi? Nə deyirdilər?

Cavab verməyə tələsmirəm. Zənbildən süfrəni götürüb yerdə açıram. Termosdan fincanlarımıza çay süzürəm. Çantadakıları süfrəyə düzürəm.

Balaş yaxınlaşır, cavab almağa tələsmir. Ağzına qənd atıb çayı qurtumlaya-qurtumlaya tilova baxır, deyir:

– Mən də üç balıq tutmuşam.

Mızıldanmağım onun xoşuna gəlmir.

Soruşur:

– Sənə nə olub?

Həvəssiz cavab verirəm:

– Deyəcəyəm.

Bu vaxt ikitəkərli bir motosikl kanalın nahamar yaxasında tullana-tullana süfrəmizin üç metrliyinə qədər gəlir.

– Qoruğun yegeridir – Balaş pıçıldayır.

Qaş-qabaq tökmüş yeger çiyninə keçirdiyi tüfəngin qayışını oynada-oynada üstümüzə çımxırır:

– Sizə kim içazə verib qoruğa girmisiniz? Tez olun, şələ-şülənizi yığışdırıb əkilin burdan!

Balaş qabaqdangəlmişlik edir:

– Dilxoşluq üçün beş-on xırda balıq tutmaq istəyirik. Bir də gördün balıqları bəyənmədik, buraxdıq suya. Çaya qonaq ol!

Yeger yumşalır.

– Qardaş, mən yekə adamların işinə qarışa bilmərəm. Heç bilirsən o maşında gedənlərdən biri kim idi?

– Kim idi? – Balaş özünə ikinci çayı süzüb soruşur:

– Kamran Bağırov. Birinci katib.

– Dolayırsan bizi?

– Xahiş edirəm, çayınızı için, tez çıxın gedin. Qanıqaraçılıq olmasın!

Balaş mənə baxır, yəni bu yaramaz düz deyir?

Başımı tərpətməklə təsdiq edirəm.

Yeger uzaqlaşandan sonra dostum sağ əlini dizinə çırpır:

– Bir şans da əldən çıxdı. Onunla tanış ola bilərdim. Niyə gəlmişdi?

– Mənim üçün bir balıq tutub getdi. Özü də ən iri balığı.

– Birdən tutduğu qızıl balıq olar ha...

– Qızıl balıq sevdasından haçan əl çəkəcəksən?

– Qiyamətdə!

Moskvadan aylarla yayımlanan ekstrasens Kaşpirovskinin adamyatırdan seanslarını həvəslə izləyən Balaş tez-tez deyərdi:

– İş belə olar da! Ölkəyə layla çal, pul qazan. Əcəb mayasız qazancdır.

Balaş ki, Balaş... Görəsən indi hardadır? İşi düzəldimi? Heç quruda özünə yer tapa bilmədi, indi də çıxıb su üzünə, okeana.

1987-ci ilin dekabrında Qara əsgərlikdən döndü. Məktublarında məni aldatmırmış, halı yaxşı idi, rəngi-ruhu adama xoş gəlirdi. Yenə də həvəsli, enerjisi aşıb-daşan, qıvraq qardaşım durmuşdu qarşımda. Artmışdı, çiyinləri enlənmişdi, kişiləşmişdi. Əsgərlikdən qabaqkı paltarları əyninə gəlməzdi.

Onu bağrıma basdım:

– İndi Qarakişi olmusan! Daha adını bütöv demək olar.

O, gülümsədi:

– "Qara" bəsimdir.

Gecəni bir yerdə qaldıq. Səhər evimizə gedəcəkdi. Yola düşməzdən qabaq Balxaşda verdiyi məktubu istədi. Məktubu ensiklopediya kitablarından birinin arasına qoymuşdum. Axtarışım uzun çəkmədi. Məktubu qatlayıb təzə aldığı kostyumunun cibinə qoyanda dedi:

– Əsgərlikdə yanıma gəlməsəydin, bu məktubda yazılanlar, bəlkə də, doğru çıxacaqdı.

– Zarafat eləyirsən? – mövzunu dəyişmək istədim.

Qara köks ötürüb dedi:

– Yox, ciddi sözümdür, ruhum bədənimdən uçub getmişdi. Onu sən geri qaytardın. Deyəsən, səndə nəsə var, axı?

– Hə, – güldüm – bugün-sabah buynuz çıxardacağam.

O da zarafata keçdi:

– Buynuzunu verərsən qardaşına, onsuz da sən buynuzlaşmağı sevmirsən.

– Haçan qayıdırsan Bakıya?

– Üç-dörd günə.

– O vaxta buynuz hazır olar.

– Danışdıq.

Qucaqlaşıb ayrılırıq.

Doğrudanmı, qardaşıma öz buynuzları azlıq eləyirdi?

Yaşadığımız SSRİ-də üç ilin içərisində Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üç Baş katibinin matəm musiqisini dinləyəndən sonra Mixail Sergeyeviç Qorbaçovun hakimiyyət başına keçməsi ilə cəmiyyətdə ruh yüksəkliyi yaranmışdı. Onun keçirdiyi ilk plenum SSRİ-ni, bütün dünyanı silkələmişdi. Mən, deyəsən, ruh yüksəkliyindən bir az da yuxarıda idim. Yaşamaq maraqlı olmuşdu. Dəyişikliklər günü-gündən daha artıq hiss edilirdi. Cəmiyyət çalxalanırdı, ziyalılar fəallaşırdı. Televiziyanın qabağından çəkilmək istəmirdim. Moskvanın, Bakının iyirmiyə qədər qəzet və jurnala abunəçi idim. İlahi, oxumağa nə qədər maraqlı yazılar çap olunurdu. Sovet dövründə qadağan olunmuş, dünya, rus, sovet yazıçılarının əsərləri əl-əl gəzirdi. Yeni filmlərə, tamaşalara dörd gözlə baxırdıq.

Yazıçı Elçinin sədri olduğu "Vətən" cəmiyyəti Avropadakı, Asiyadakı, Amerikadakı soydaşlarımızla SSRİ tərkibində olan Azərbaycan arasında əlaqə yaradır, onları vətənimizə bağlamağa çalışırdı. Bir müddət sonra ABŞ-da yaşayan güneyli soydaşımız Yaqub Zurufçu Azadlıq meydanında yüz minlərlə tamaşaçı qarşısında "Ayrılıq" mahnısını oxuyacaqdı.

Sovet İttifaqı Kommunist Partiyasıının XXVII qurultayı bütün demokratik təsisatlar üçün şlaqbaumu qaldırmışdı. Qərbin "Qorbi"yə çevirdiyi Qorbaçovun diri, oynaq danışığı, xəfif təbəssüm əskik olmayan mimikalı üzü, aşıb-daşan enerjisi hamını heyran qoymuşdu. Öz aralarında "Xarici işlər naziri" çağırdığı xanımı Raisa Maksimovnanın "Mi" adlandırdığı əri Mixailin kölgəsinə çevrilməsi, hər işinə əl qoyması, Zavidovoda – Baş Katibin bağında – ötən qurultayın baş məruzəsini hazırlayan mütəxəssis qrupuna rəhbərlik etməsi dedi-qodulara səbəb olsa da, çoxları bu məsələyə ötəri hal kimi baxırdı.

Qorbaçov hakimiyyətdən gedəndən sonra onun əlinin altında işləmişlərin demək olar ki, hamısı keçmiş şefləri haqqında xatirə yazmağa girişəcəkdilər. Onlardan biri, şairliyi də olan Aleksandr Lukyanov *(Dağlıq Qarabağ probleminin həllinə köməklə bağlı ona müra-*

*ciət etmiş bir neçə azərbaycanlı SSRİ xalq deputatını qəbul edərkən Mirzə Ələkbər Sabirin ruscaya tərcümə olunmuş iki şeirini əzbərdən demiş, xalqımızı sevdiyini açıqlasa da, məsələmizin həllində aciz olduğunu bildirmişdi)* yazmışdı: “Hər dəfə iş gününün sonunda Mixail Qorbaçova təxirəsalınmaz bir məsələ barədə xatırladanda eyni sözləri deyərdi: “Sənə zəng edəcəyəm”. Bu o demək idi ki, axşam həmin məsələ ailə siyasi bürosunda Raisa ilə müzakirə ediləcək. Qorbaçov gecə yarısı mütləq mənə zəng edib qərarını bildirərdi.”

Vadim Medvedyev isə yazacaqdı: “Mixail Sergeyeviçdə Raisa Maksimovnanın böyüklüyü maniyası var.”

Yenidənqurma – yeni düşüncə tərzi – elan ediləndən sonra tətbiq olunan yeni qanunlar həyatımızı dəyişdirirdi. Xırda ticarət güclənirdi. Banklar ssuda verirdilər.

Sovet İttifaqı Kommunist Partiyasının ölkədə klubların və dərnəklərin inkişaf etdirilməsi haqqındakı qərarından sonra Moskvada, Bakıda, bütün Sovet respublikalarının paytaxtlarında, böyük şəhərlərində saysız-hesabsız elmi, ədəbi- mədəni tədbirlər, yığıncaqlar keçirilməyə başladı.

Əvvəllər klublarda, kitabxanalarda, təhsil ocaqlarında, konsert, teatr salonlarında, hətta stadionlarda şairlər və yazıçılarla, incəsənət ustaları ilə görüşlər təşkil etmək dəbdə idisə, ədəbiyyat, dram dərnəklərində istedadlı gənclər toplaşıb tamaşalar, səhnəciklər, “Mavi işıq gecələri”, təqvim şənlikləri hazırlayırdılarsa, indi demokratiya, aşkarlıq, plüralizim, ictimai haqsızlıq, repressiya, milli özgürlük mövzularında müzakirələr aparırdılar.

Yeni yaradılmış “Çənlibel” təşkilatının “Azərnəşr”in üçüncü mərtəbəsindəki salonda ayda bir dəfə toplaşan yığıncaqlarında oxunan mühazirələr, aparılan qızğın müzakirələr şəhərdə səs salmışdı. Gənc alim Vurğun Əyyubov bu elmi-ədəbi birliyin sədri idi. “Çənlibel”in məclislərində Məhəmməd Hatəmi Tantəkini, Xəlil Rzanı, Əbülfəz Əliyevi, Sabir Rüstəmxanlını, Elməddin Əlibəyzadəni və başqa yaradıcı ziyalıları görmək olurdu. Milli, ədəbi, tarixi, mifoloji, mədəni mövzularda başlamış diskusiyalar tezliklə elmi, siyasi mübahisələrə, dartışmalara çevrilirdi. Yadımdadır, bir dəfə türkoloq

alim Arif Acalovun şumerlərlə türklərin qohumluğu barədə məruzəsindən sonra mifologiya məsələləri üzrə geniş araşdırmalar aparmış professor Mirəli Seyidov məruzəçiyə etiraz əlaməti olaraq əlini yelləyib salonu tərk etmişdi.

Tez-tez sorağı eşidilən "Bakı Alimlər Klubu"na daha çox alimlər toplaşırdı. Dərnəklərin, cəmiyyətlərin, birliklərin, klubların sayı durmadan artmaqda idi. Az sonra Azərbaycan Dövlət Universitetində yaranan "Yurd" tələbə birliyi xüsusi fəallıq göstərəcəkdi. "Yurd"çular, (*"Yurd"çulardan Əli Kərimli və Fazil Mustafa sonralar fəaliyyətlərini genişləndirəcək, siyasi xadimə çevriləcək, millət vəkili seçiləcək, ictimai həyatda özlərini göstərəcəkdilər*) 1988-ci ilin noyabr – dekabr mitinqlərində güc mərkəzlərindən biri olacaq, meydanda xususi çadırlarını qurub qərargah yaradacaq və gecə-gündüz millətin səsinə səs verəcəklər. Onların bir dəstəsi sonralar Qarabağa yollanacaq, səngərlərdə keşik çəkəcəkdilər.

Bir neçə ay qabaq səs-küylü hadisə baş vermişdi: "Azərbaycan jurnalistlərinin qurultayında çıxış edən yazıçı-jurnalist Nüşabə Məmmədli yaşadığı şəhərin qədim Gəncə adının bərpası məsələsini ortaya atanda Respublika başçısı Kamran Bağırov oturduğu Rəyasət Heyətindən ona qəzəblə qışqırmışdı: Nədir, millətçilik toxumu səpirsiniz? Alma-Ata hadisələri sizə dərs olmadı? Baxın, – o, salona üz tutmuşdu – aramızda xalq düşməni oturub, belələrinə qarşı amansız olmalıyıq!"

Kamran Bağırov Kremlin siyasətini ayırd edə bilmədən vəzifədən götürüldü. Sonralar "Kirovabad" (*Akademik Ziya Bünyadov 88-ci ilin noyabr-dekabr mitinqlərində çıxış edərkən deyəcəkdi: "Rusiyada adları dəyişməyə başlayıblar. Kirovlar-Mirovlar hamısı çezir"*), "Gəncə" adlanacaqdı, "Leninqrad" "Sankt-Peterburq" olacaqdı, SSRİ-dəki şəhərlərin, qəsəbələrin, kəndlərin tarixi adları üstünə qayıdacaqdı.

Yaxın gələcəkdə böyük mitinqlər bütün xırda dərnəkləri, birlikləri, klubları udacaqdı, kütləvi təşkilatlanmalar güclənəcəkdi. Mərkəzlər, komitələr, ittifaqlar, cəmiyyətlər, şuralar, partiyalar meydana çıxacaqdı. Moskvada, Baltikyanı respublikalarda quruluş əleyhinə

gizli nəşr edilib gələn "samizdat" ( *Mən ilk dəfə "samizdat"ları 1984-cü ildə uzun müddət Riqada olarkən latış ziyalılarında görmüşdüm. Mixail Bulqakovun "Master və Marqarita"sını və Boris Pasternakın, Velimir Xlebnikovun şeirlərini "samizdat"lardan oxumuşdum*) vərəqlərə, qəzetlərə, kitabçalara baxıb biz də onların yerli şəraitə uyğun olan oxşarlarını çap edib yaymağa başlayacaqdıq və bu, dövlət müstəqilliyimizi qazananadək davam edəcəkdi.

Yeni ilin əvvəllərində sovet iqtisadçısı, Qorbaçovun rəğbətini qazanmış Abel Aqanbekyanın Parisin "Humanite" qəzetində (*Siyasi fikir Aqambekyanın Yenidənqurmaya həsr olunmuş kitabının Fransada nəşr olunması münasibəti ilə "Erməni institutu"nun və "Erməni Veteranlar Cəmiyyəti"nin Parisdə təşkil etdiyi qəbulda daşnak alimə Dağlıq Qarabağla bağlı verilən suala cavab kimi səsləndirilmişdi və Fransa Kommunist Partiyasının mətbu orqanı "Humanite" qəzetinin 11 noyabr 1987-ci il sayında dərc edilmişdi*) müsahibə verib Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən vacibliyini bildirməsi xəbəri ildırım sürətilə Azərbaycana ötürüldü. Aqanbekyan Qorbaçovun müşaviri olmasaydı, səs-küy düşməzdi. Belə çıxır ki, Baş katib də bu işə qol qoymuşdu. "Humanite" SSRİ-də az sayda yayılırdı, ancaq hələ o vaxta qədər Paris qəzetlərində çap olunan hər hansı məqalə barədə Bakıya belə çaparaq ("*Dəmir pərdə" arxasında qalan Parisdən iki aya xəbər gəlirdisə, gec deyildi*) soraq gəlməmişdi. Ondan qabaq Zori Balayanın şovinist və böhtançı "Ocaq" kitabı da tez səs-küy salmışdı. (*Kitabda bizə dağ çəkən belə cümlələr vardı: "Mən sübhü Araz qırağında qarşıladım. Biz erməni çayı ilə erməni dilində danışdıq"*) Bu kitaba şair Eldar Baxış "O nədir yazmısan, Zori Balayan?" adlı şeirlə, sonradan Milli Məclisin sədri vəzifəsinə yüksələcək, indi isə Elmlər Akademiyasının əməkdaşı olan İsa Qəmbərov elmi məqalə ilə tutarlı cavab vermişdilər. Amma, rəqiblər belə şeirləri və məqalələri tapdayıb keçərək irəliləyirdilər.

Aqambekyandan sonra Erməni kilsəsinin və bütün ermənilərin katalikosu I Vazgen Ermənistan televiziyası ilə soydaşlarına müraciət edərək "Dağlıq Qarabağın Azərbaycandan alınıb Sovet Er-

mənistanına birləşdirilməsini "ədalətli tələb" hesab etdi və xalqın (*Stepanakertdə və Yerevanda*) çıxışlarını yüksək qiymətləndirdiyini" bildirdi. Moskvada isə dissident kimi məşhurlaşmış akademik Andrey Saxarov Dağlıq Qarabağı erməni arvadı Yelena Əlixanyan-Bonerə və "əzabkeş erməni xalqına" bağışlamaq üçün tribunalarda ələkçiyə qılverənlik edirdi. (*O, Azərbaycana səfər edib qayıdandan sonra deyəsən, aldandığını anladı, nala-mıxa vurmağa başlayınca ermənilərin gözündən düşdü*)

Hamı biri-birinə dəydi. Ehtiraslar cuşa gəldi. Taledən, cəmiyyətdən, quruluşdan narazılar içlərindəki kini, qəzəbi üzə çıxartmaq üçün girəvə tapdılar. Danışa bilən də, danışa bilməyən də boğazına güc verirdi.

Ermənistanda beyinlər çoxdan qızmışdı. Hər şey birinci orda üfürülür, alışdırılır, sonra burda üzərinə benzin tökülürdü. Bütün köhnə ədavətlər yada salınırdı. Məsələnin kökündə o dururdu ki, haylar özlərini cırıb dağıdırdılar ki, dənizdən dənizə, yəni Qara dənizdən Xəzər dənizinəcən onların tarixi torpaqlarıdır, biz də deyirdik ki, yox, cığal qonşularımız Qarabağa yüz əlli il bundan qabağın gəlməsidir, Ermənistan Respublikası bizim ərazidə qurulub.

Hər iki respublikada ayrı-ayrı ağıllı, oxumuş adamlar lap yaxşı bilirdilər ki, bu dedi-qodular, iddialar, cığallıqlar iki qonşu xalqı biri-birinin üstünə salışdırmaq üçün qurulmuş qurğulardır.

Ayıq başla düşünəndə doğrudan gülməlidir. Onlar dolmanı mətbuatda, radioda, televiziyada qədim erməni yeməyi adlandırıb lovğalanırdılar. Biz də özümüzü yeyib-tökürdük ki, ay canım, axı, dolma tər-təmiz Azərbaycan sözüdür və Əhməd Cabirin Azərbaycan, rus, ingilis dillərində iri, nəfis tərtibatda çap etdirdiyi "Azərbaycan kulinariyası" kitabında dolmanın şəklini, hazırlanma qaydasını daha təmtəraqlı boyalarla ön plana çıxardıb, ermənilərə yandı-qındı verirdik. İki xalq qarın doydurmaq qüdrətindən başqa heç bir yönü-yöntəmi olmayan bir parça ətdən, tənək yarpağından ibarət olan, öyrətsən çin, çukot, fransız aşpazının cüyür, maral, timsah ətindən bişirə biləcəyi, beş-on ildən sonra özününkü hesab edəcəyi yemək üstündə müharibəyə hazır idi. Dünyanın qəribə məntiqlərinə baxın:

İngilislər, ispanlar, fransızlar, portəgizlər Amerikanı tutub ildə bir dəfə İsmayılın qoyun qurbanından da çox hindi kəsib bayram düzəldirdilər, bu materiki kəşf etdikləri üçün öyünürdülər, “aborigen” sözünü etnoqrafik anlayış kimi işlədirdilər. Ancaq mənim kimisinin biri, tutaq ki, bir irland durub başını qovzasaydı ki, ey gəlmə düdəmələr, Amerika, Avstraliya sizin tarixi torpaqlarınız deyil, ora hinduların dədə-baba məskənidir, siz sonradan əmələgəlməsiniz, qayıdın dədələrinizin xarabasına, o dəqiqə həmin adamı müasir üslubda tikilmiş, hər cür rahatlığı olan möhtəşəm bir dəlixanaya salardılar, adının da qabağına “dəli” ayaması qoşardılar.

Rusiya dörd bir yanını tutub zırpı bir məmləkət düzəltmişdi, rus generalları bundan heç utanıb eləmirdilər, əksinə, bu mövzuda söhbət düşəndə burunlarını dik tutub, farağat vəziyyətdə sinələrini şişirdirdilər, özlərini boğub bas, vahiməli səslə əmrlər verirdilər. Ermənilər isə iki min il bundan qabağın davasını döyür, əski torpaqlarından dəm vurur, hay ola-ola üzərində tarix boyu bir neçə dövlət qurulmuş, coğrafi ərazi sayılan Ermənistanı öz adlarına çıxırdılar.

Bakıda hamının yeddi arxa dönənindən, dədə-babasından, ata-anasından ona qanla, südlə, sümüklə keçən yaddaşı oyanmışdı.

Hər kəs əsrin əvvəllərində baş vermiş erməni-müsəlman davasında nəslinin başına gətirilən müsibətləri xatırlayıb yaddaşındakıları həyəcanlı, kəskin, qəzəbli şəkildə danışmağa çalışırdı.

Çar Rusiyasının ordusunda hərbi təlim görmüş, Birinci dünya müharibəsində vuruşub məğlub olmuş, sonra cəbhədən dəmiryolu ilə Bakıya atılmış, Şaumyan hökuməti tərəfindən dəmiryolunun sökülməsi ilə şəhərdə saxlanmış erməni əsgərlərinin Bakıda, Şamaxıda, Qubada, Andronikin Zəngəzurda milli qırğın törətməsi zamanı mənim nəslim birbaşa ziyan çəkməmişdi. Amma, o davada törədilən vəhşiliklərin vahiməsindən doğan qorxu hələ də qulaqlarda sırğa olub yırğalanırdı, ürəklərdə və havada dolaşırdı.

Tələbə vaxtı Ararat rayonundan olan tələbə yoldaşım Vasifgilə qonaq getmişdim. Qabaqcadan fikrimdə tutmuşdum ki, ermənilərin dini mərkəzinə də mütləq baş çəkəcəyəm. Tələbə yoldaşımı, onun da görmədiyi Eçmiədzinə dartıb apardım. Yerevandan avtobusla yarım

saatlıq məsafədə yerləşən şəhərin kilsəsinə girməzdən qabaq Vasif tapşırdı ki, içəridə danışma, deyilənə görə, acıqlarına gəlir, qoy kimliyimizi bilməsinlər. Lazım olsa, mən dillənəcəyəm, ermənicə bilirəm.

Kilsədəki ikonalara, şəkillərə heyrətlə baxırdıq. Divarda dini müqəddəslərlə yanaşı türklərə nifrət aşılayan tablolar də vardı. Bir şəkildə kürəyinə qaynar samovar bağlanmış nəhəng bir erməni gənci işgəncədən əzab çəkirdi. Başqa bir tabloya baxanda isə adamın əti ürpəşirdi; vəhşi görkəmdə təsvir edilmiş türk əsgəri tüfənginin süngüsünü boylu erməni gəlininin qarnına soxurdu.

Şəkillərdəki süjetlər mənə tanış idi. Məşədi Zeynəb nənəm də erməni-müsəlman davasından söz düşəndə eynilə şəkillərdə təsvir edilənləri danışırdı. Amma onun rəvayətlərində kürəyə qaynar samovar bağlayan da, hamilə qadının qarnına süngü soxan da erməni əsgərləri idi.

Muzeydən çıxandan üç-dörd saat sonra yüngülləşə bildik. Vasifdən soruşdum ki, görəsən niyə hökumət kilsədə belə rəsmlərin asılmasına icazə verir?

O, dedi:

– Soruşanda cavab verirlər ki, bunlar Osmanlı dövrünə aid şəkillərdir.

Bakı od püskürürdü. Stepanakertdən, Yerevandan yeni-yeni bəd xəbərlər gəlirdi. Şəhərdə fırfıra kimi fırlanırdım. Qara Bakı Baş Tikinti idarəsində işə başlasa da, fikri hadisələrin yanında idi.

Səlahiyyətli orqanların, hökumətin ortaya atmadığı, qızışdırmadığı təxribat ayaq tutub yeriyə bilməzdi. Moskva mətbuatına, radio və televiziyasına soxulmuş kəmfürsətlər ortada qaynaşırlar. Onlar üçün pul və şöhrət qazanmaq mövsümüdür. Nə istəyirsən, "İzvestiya"da bir məqalə çap etdirib azərbaycanlıların hissləri ilə oyna, "Vesti" televiziya proqramında iki dəqiqəlik süjet fırladıb rütbəli və imkanlı erməniyə "Qarabağ bizimdir!" dedirt (*sonralar Qarabağ müharibəsi boyu əsir düşən azərbaycanlıları ələ salmaq üçün onlara erməni tərəfinin qudurğancasına ən çox verdiyi sual "Qarabağ kimindir?"olacaq. Qürurunu sındırmayıb "Qarabağ bizimdir!"*

*deyənlərə qan udduracaqlar; gicgahlara güllə sıxılacaq, başlar kəsiləcək, dillər dibindən qopardılacaq, qulaqlar üzüləcək, gözlər ovulacaq, dərilərin altına şprislə benzin yeridiləcək, ürəklərə süngü soxulacaq, asılan asılacaq, yandırılan yandırılacaq, atanın, ananın gözü qabağında övladlar, uşaqlar baxa-baxa valideyinlər, bacı yanında qardaş, qardaş qarşısında bacı biabırcasına təhqir edilə-edilə qətlə yetiriləcək*), otur fitnəkarların qucağında. Tanın, qaz vur, qazan doldur! Qoy bir millət səni nifrəti ilə, başqa bir millət isə rəğbəti ilə məşhurlaşdırsın. Nələr görürük, ilahi, bir anda bir xalqın qəhrəmanına dönən birisi, o biri xalqın düşməninə çevrilir.

Azərbaycan hökuməti heç bir ciddi addım atmır. Yalnız Bakıda yaşayan ermənilərdən bəzilərini tapıb efirə çıxardaraq Stepanakertdəki separatçılara ağıl öyrətməyə, onları əməllərindən çəkindirməyə çağırışlar etdirir, vəssəlam. Respublikanın başçısı Kamran Bağırov döşünü qabağa vermir, münaqişənin böyüməməsi üçün heç bir təşəbbüs göstərmir. Kreslosunda oturub Kremlin ağzına baxır. Kremlin isə göstərişi belədir: "Не вмещиваться! (*Qarışmayın!*)"

Sonralar Kremlin telefonlarından asılan, onların göstərişi olmadan heç bir hərəkət etməyən Əbdürrəhman Vəzirov da, Ayaz Mütəllibov da Dağlıq Qarabağda, Sumqayıtda, Bakıda törədilən təxribatların, ixtişaşların qarşısını almaq istəyəndə həmin əmri eşidəcəkdilər.

Az əvvəl Moskvada, Siyasi Büronun iclasında çıxış edərkən həyəcandan başı gicəllənib tribunada ləngər vuran Kamran Bağırova işarə ilə SSRİ-nin başçısı Mixayil Qorbaçov rişxəndlə Heydər Əliyevə deyibmiş: "Siz niyə xəstə adamı bizə tövsiyə etmisiniz?"

(*Kamran Bağırovda həyəcandan başgicəllənmə xəstəliyi varmış, hətta bəziləri bunu "epilepsiya" adlandırırmış.*

*Heydər Əliyevin Sovet İttifaqı Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilib Azərbaycanın rəhbərliyindən gedərkən yerinə yüz süzgəcdən keçirilib Kamran Bağırov qoyulmuşdu*).

Soyuq bir fevral günüdür. Heç ayın tarixinə fikir vermirəm. Qara səhər işə gedib. Axundov kitabxanasına dəyməliyəm. Köşkdən qəzet almaq istəyəndə tanış satıcının dediyini eşidirəm:

– Sumqayıtda çaxnaşmadır!

Tüklərim biz-biz olur.

Satıcı hadisənin səbəbini, təfərrüatını bilmir. Bircə onu deyir ki, Bakı-Sumqayıt yolunu bağlayıblar.

Mızıldanıram. Necə olub ki, qəfildən belə hadisə baş verib? Bəlkə xırda bir dava-dalaşı şişirdirlər?

Kitabxananın oxu zalında heç bir narahatçılıq, həyəcan hiss olunmur. Bəlkə eşitdiyim şayiədir. İçərinin rahatlığı mənə də sirayət edir. Bir az sakitləşirəm. Götürdüyüm kitabdan üç səhifə oxuyub ötürsəm də, başım bir şey yığmır, əlimi çənəmə söykəyib fikrə gedirəm. Bir azdan kitabı təhvil verib küçəyə çıxıram. Özümü evə çatdırıram. Sumqayıtda bir kimsənin telefon nömrəsini bilmirmişəm.

Televizoru və radionu eyni vaxtda Moskvaya çevirirəm, bəlkə ikisindən biri Sumqayıt barədə nəsə deyə.

İki saat ötür, amma bir səs çıxmır.

Divanda dirsəklənib əlimi başıma dayaq edirəm. Adam bilmədiyi şeylər haqqında ancaq illüziyalar qura bilər. Fikirlərim xırda muncuqlar kimi düşüb hərəsi bir tərəfə dağılıb. Gəl, indi onları yığ, yığışdır. Deyəsən, içimdə yavaş-yavaş şübhə və nifrət oyanır. Qapı qonşularımdan biri cavan erməni ailəsidir. İki xırda uşağı var: biri oğlan, biri qız. Ər – Aşot telemexanikdir, onun azərbaycanca danışdığını görməmişəm, Bakıda doğulana oxşamır. Rastlaşanda mənə küt-küt, əyri-əyri baxır, hətta bəzən özünü görməzliyə vurub mənimlə salamlaşmır da. Onunla ünsiyyət qurmaqdan söhbət gedə bilməz. Bir dəfə yad usta kimi televizorumu düzəldib, ona uzatdığım puldan dilucu da imtina etməyib.

Amma gəlin – Emma mehribandır, azərbaycanca şirin danışır, xoşagəlməz bir münasibətini görməmişəm. Ərinin qabalığını, ögeyliyini unutdura bilir (*Əlbəttə, Bakıda, Gəncədə, Dağlıq Qarabağda, Ermənistanda yaşayan sadə, əlinin zəhməti ilə dolanan nə qədər erməni vardı ki, iki qonşu xalqın qarşıdurmasını istəmirdilər. Bilirdilər, imperiya nökərlərinin, sürüşkən siyasətçilərin, dəllal millətçilərin başladıqları oyunda ayaq altında qalacaqlar. Danışırdılar ki, münaqişənin ilk günlərində Ağdamın Abdal-Gülablı kəndindən*

*eşşək belində keçən bir erməni qocasının qabağını bizimkilər kəsib soruşurlar: "Hansı millətdənsən?" Qoca erməni acıqlı-acıqlı cavab verir: "Na ermanıyam, na da musurman! (azərbaycanlı) Altımdakı eşaqın (eşşəyin) oğluyam"*).

Bəlkə bunlardan da şübhələnmək lazımdır? Bəlkə, Aşot "Daşnaksütyun"un xəzinəsinə hər ay pul keçirənlərdəndir. Ödəniş qaydasını düzgün bilməyə də bilərəm. Ola bilsin, "Daşnaksütun" üzvlük haqqını rüblük, illik toplayır. Əşşi, nə dəxli var e – sarsaq düşüncəmə acığım tutur – heç indi təşkilati işlər haqqında düşünmək vaxtıdır?

Uzanıram. Fikirdən başım şişib. Düşüncəm davam edir. Axı, tariximizdən də nələrisə bilirəm. Alimlərimizdən kimsə iyirmi il ərəb işğalçılarına qarşı çıxan qəhrəmanımız Babəki düşmən əlinə verən mülkədar Səhl Sumbatın erməni olduğunu deyib. Bəlkə bu da bizim heysiyyatımıza toxunmaq, iki xalqın arasında ədavəti qızışdırmaq üçün uydurulmuş bir rəvayətdir? Ərəb adlı erməni. On bir əsr qabaq baş vermiş bir xəyanət bu gün bizim qanımızı coşdurub. İşğalçı ərəblərdən çox Səhl Sumbata qızırıq.

Bəlkə, mən əsl vətənpərvər deyiləm. Yenə özümə təpinirəm, yoxsa millət qanı töküldüyü bir vaxtda yanımı yerə söykəyib insanpərvərlik xəyalına getmişəm.

Ağlım kəsəndən ətrafımda elə böyük hadisə olmayıb. Nə müharibə görmüşdüm, nə də inqilab. Bunlar haqqında kitablardan oxumuşdum. Yazıçıların, jurnalistlərin özlərini min kilometrlərlə uzaqdakı təhlükə zonalarına, cəbhələrə yetirib od içində reportaj hazırlamalarını, oçerk yazmalarını öyrənəndə həyəcanlanmışdım.

Həyatımda ilk gördüyüm böyük hadisə Kürdən Bakıya su kəmərinin çəkilməsinin başlanması olub. Qısa müddətdə Bakı-Tiflis avtomobil yolundan su kəmərinin mənbəyi olacaq Talış kəndinə asfalt yol çəkilmişdi. Dəmiryolunda vaqonlardan boşaldılan daş, çınqıl, qum, sement, taxta ağır qara nəhəng qarışqalar kimi dalbadal düzülən "Maz"lara, "Kraz"lara yüklənib tikinti yerinə göndərilirdi. Mənə kef düşmüşdü, gedən yerimin biri artmışdı. Hər yük maşını gündə beş-altı dəfə o başa – bu başa reys eləyirdi.

Babayar türmədən çıxıb təzə "Kraz" götürmüşdü, yük daşıyırdı. Bir dəfə onun "Kraz"ı ehtiyat dəmiryolu platformasında vaqondan yüklənib qurtaranda çəyirtkə kimi tullanıb kabinanın ayaqaltısına qondum və açıq pəncərədən xahiş etdim ki, məni də Talışa aparsın, oranı görmək istəyirəm. Başının "hə" işarəsi ilə qapını açıb sürücünün yanında oturdum.

Zarafatından qalmayan Babayar gülümsədi:

– Çənəni sazla, yolda mənim üçün nağıldan-mağıldan guppuldadarsan.

Razılıq verdim.

Asfalta çıxandan sonra Babayar dedi:

– Sovxamın radiosu yoxdur. Hesab eləyirəm ki, radiomsan, düyməni basdım – o maşınının siqnalını bibillətdi – başla.

Başqa bir şey danışmağı bacarmayacağımı duyub dilləndim:

– Abbas Səhhətin "Vətənim" şeirini deyim?

– De, gəlsin! – Babayar qulaqlarını şəklədi.

"Könlümün sevgili məhbubu mənim,
Vətənimdir, vətənimdir, vətənim..."

Şeirin ardını Babayar özü söylədi, son misranı zümzümə eyləyib dedi:

– Kopoyoğlu yaman yazıb.

"Kopoyoğlu" sözünə mən diksinəndə bunu hiss edib fikrini tamamladı: –"Yaxşıya da kopoyoğlu, pisə də kopoyoğlu" – deyib atalar.

Mənzil başında Babayar maşını saxlayıb qımışaraq dedi:

– Bu da sənin Bombeyin! Haydı, get, gəz, dolan, vaxtın çoxdur, axşamüstü yeməkxananın – yolun qırağındakı uzun və yastı-yapalaq uzun binanı göstərdi – qabağında olarsan.

Maşından toz-torpağın içinə düşdüm. Ətrafda yük maşınlarının küyü, traktorların, buldozerlərin uğultusu, hündürdən danışan adamların qarmaqarışıq səsləri qanımı coşdururdu. Sanki gözədəyən nə vardısa, hamısı dərindən nəfəs alırdı. Həyatın səsi eşidilirdi. Həmişə

çölün, meşənin, dağın sükutunu bir quş civiltisi, bir yarpaq xışıltısı, bir heyvan böyürtüsü, bir adam səsi pozanda bunu həyatın səsi hesab eləmişəm. Yaxud, gecənin səssizliyində sükutun uğultusu qulağımı deşəndə Yer kürəsinin araba təkəri kimi öz oxunda fırlandıqca saldığı xır-xır səsi duymuşam.

Amma tikinti yerindəki səslər müharibə, zəlzələ, sel səsi kimi qorxulu deyildi.

Günorta təpəmi gün deşənə qədər gəzdim. Fəhlə yeməkxanasına girəndə içəridə basabas idi. Yeməkləri bəyənmədim. Bir şüşə limonadla boyat kökə götürüb, oturmağa yer tapmadığımdan pəncərənin qabağında dayandım. Birdən kimsə qoluma toxunub iki dişləmini yediyim kökəni əlimdən saldı. Özümə güldüm, tünlükdə heç yemək yeməyi də bacarmırmışam.

Axşamüstü Babayarın "Kraz"ına minəndə onun birinci kəlməsi belə oldu:

– Dedim bu vurhavurda itib-batarsan. Başın uzaqdan göründü, zürafəliyin də faydası var.

Fikrim yenə Sumqayıtın üstünə qayıtdı.

Gecə Qara evə gəlmədi. Hərdən dostlarının yanında gecələməyi vardı.

Nigarançılıq yaratmamaq üçün hər atdığı addım barədə ata-anasına, böyüyünə xəbər vermək şəhər uşaqlarının işidir. Əyalət törəmələri bu məsələdə bir qədər başısoyuqdurlar. Qardaşım özünü tam sərbəst aparır. Mən də ona gündəlik işlərim barədə hesabat vermirəm.

Səhər yuxudan ayılanda saata baxıb görürəm ki, yatıb yuxuya qalmışam.

Bu an şaqqıltı səsi eşidilir. Mənzilin qapısına açar salınıb.

Qara qapıda görünür. Yorğun və qaşqabaqlıdır.

– İşə getməmisən? – Soyuq-soyuq soruşuram.

Qardaşım paltosunun düyməsini aça-aça deyir:

– Sumqayıtdan gəlirəm.

– Sumqayıtdan?

– Hə!

– Ora nə vaxt getdin?

– Dünən gecə.

– Bəs deyirlər yollar bağlıdır?

– Məni iş yoldaşım apardı. Sumqayıtlıdır. Coratdan piyada getdik.

– Nə əcəb Sumqayıtda duruş gətirmədin? Sən belə yerlərdən işi çürütməmiş qayıdan deyilsən.

– Hərbçilər doluşub şəhərə. Tuthatut başlayıb.

Qaranın qabağını kəsmişdim:

– Nə danışılırdı?

– Stepanakertdə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar çıxardılandan sonra şəhərin vağzalətrafı "Dostluq" və "Sülh" küçələrində (*taleyin ironiyasına bax!*) vəziyyət gərginləşibmiş. Üç gün qabaq Ermənistanın Qafan rayonundan qovulmuş bir azərbaycanlını mərkəzi meydana çıxardıblar. Onun qulaqları kəsilmiş, özü döyülüb eybəcər hala salınıbmış. Bununla da vurçatlasın başlayıb. Dəstə-dəstə beyni qızmış cavanlar bıçaqla, armaturla, dəyənəklə qapı-qapı düşüb talana, qırğına başlayıblar. Dəstəbaşıların əllərində ermənilər yaşayan mənzillərin siyahısı varmış.

– Siyahıları nə tez tərtib eləyiblər?

Qara duruxdu, handan-hana dilləndi:

– Doğrudan, mənzil-mənzil ermənilərin siyahısını dəstəbaşılara kimlər paylayıbmış? Şübhəlidir.

– Ölən çoxdur? (*Sonra məlum olacaqdı ki, inzibati orqanların işçiləri erməni əhalisinin çoxunu "Mədəniyyət evi"nə doldurduğuna və azərbaycanlı ailələrin erməni qonşularını öz mənzillərində gizlətdiklərinə görə qarşıdurmada iyirmi altı erməni, altı azərbaycanlı öldürülüb. Ancaq bu facia Azərbaycanı və azərbaycanlıları sevməyənlər tərəfindən çox, lap çox şişirdildi. "Daşnaksütun" partiyasının ideoloqlarından biri, yazıçı Sero Xanzadyan məqaləsində Sumqayıtda ölənlərin sayını dörd yüz əlliyə çatdırmışdı. Akademik Ziya Bünyadovun araşdırmaları bəzi sirlərin üstünü açacaqdı ("Elm" qəzetində çap olunmuş "Почему Сумгаит?" məqaləsindəki faktları nəzərdə tuturam). Məlum olacaqdı ki, Sumqayıt hadisəsi xüsusi Sovet orqanları və "Daşnaksütun" partiyası tərəfindən ermənilərlə azərbaycanlılar arasında münaqişə yaratmaq üçün törədilibmiş.*

*Əvvəlcədən xəbərdarlıq edilən ermənilər bank hesablarından pullarını çıxardıb şəhəri tərk edibmişlər, bir neçə gün qabaq Sumqayıta kameralı jurnalistlər gətirilibmiş*)

– Hərə bir rəqəm deyir. Əlli də deyən var, beş yüz də, min də... Yalan-doğru, danışırdılar ki, bir gənc erməni iki dostu ilə qoca erməni ər-arvaddan şəxsi intiqamını alıb. Sən demə, qocaların ayağısürüşkən qızı on beş il əvvəl qisascı oğlanın atasını yoldan çıxardıb Pyatiqorska apararaq orda evləniblər, daha geri qayıtmayıblar. Yaşlı qadını lüt soyundurub küçədə hoydu-hoyduya götürüblərmiş. Çırtma çalıb onu rəqsə məcbur edirlərmiş. Qadın onları dayanmadan söydüyünə görə onu yerə yıxıb təpikləməyə başlayırlar. Sonra isə bilirsən neyləyiblər?

– Neyləyiblər?

– Deməyə çimçəşirəm... Oğlanlardan ikisi qadının ayaqlarını aralayıb, üçüncüsü armaturu onun ayıb yerinə soxub. Qadın şoka düşüb ölüb. – Qara udqundu. – Bu vəhşi mənzərəni videokameraya çəkirlərmiş.

– Kino düzəldirmişlər ki...

– Oğlanların ürəyi bununla soyumayıb, erməni kişisinin kəsilmiş başı ilə top-top oynayırmışlar.

– Dəhşətdir! – Nəfəsim tıncıxdı.

– Bir tərəfdən bu vəhşilik xoşuma gəlmir, – Qara əsəbi halda dedi – bir tərəfdən də fikirləşirəm ki, onlar bəs niyə bizimkiləri qırır? Niyə qabaqlarından qaçmalıyıq?

Qara üşümüşdü. Paltosunu soyunub asır, özünə çay düzəltmək üçün mətbəxə keçir.

Eçmiədzin kilsəsində gördüklərim yadıma düşür.

Min illər keçir, insanlar ibtidai sələflərinin törətdiklərini təkrar edirlər.

Yenə də bizi oyuna saldılar. Eşitmişdim, oxumuşdum, ötən əsrin sonlarında, bu əsrin əvvəllərində əvvəlcə İngiltərənin, Fransanın, sonra Rusiyanın qızışdırdığı silahlı ermənilər kilsənin, ayrı-ayrı millətçi təşkilatların təhriki ilə Osmanlı dövlətində əhalinin gözünü qırmaq, yerlərindən, yurdlarından didərgin salmaq üçün nələr elə-

mirdilər? Törətdikləri vəhşilikləri nümayişkaranə edirdilər ki, sorağı hər tərəfə yayılsın. Təcavüzkarlar qisas aldıqlarına görə, onları qızışdırıb ortalığa atanlar isə türklər və ermənilər arasında ədavətin, düşmənçiliyin daha da dərinləşməsinə görə sevinirdilər.

Qarşıdakı günlərdə görəcəkdim ki, hökumət adamları milli münaqişənin başlandığını boyunlarına almırdılar. Ölkənin böyüyü Qorbaçov faciəni cinayətkar ünsürlərin işi kimi yozurdu. Amma kor-kor, gör-gör, Yerevan, Bakı, Stepanakert məhvərindən çıxırdı.

Mətbəxdən Qaranın öyüdüyünü eşitdim. Narahat olub qardaşımın yanına keçdim. O, ağzını krantın ləyəninə tutmuşdu. Gəldiyimi duyan kimi üzünə su çəkib özünü qaydaya saldı.

– Nə olub? – soruşdum.

Qara üzünü dəsmalla qurulayıb dedi:

– Çernobılın zibilidir. Səhər ağzıma bir şey qoyan kimi ürəyim bulanır.

– Bəlkə, həkimə gedəsən?

– Uzunmüddətli müalicə lazımdır, keçib gedəcək. Boş ver, indi belə xırda-mırda şeylər vecimə deyil. Sağlamlığı güdmək də adamı xəstə eləyir.

Günortadan sonra Qaranı evdə qoyub şəhərə çıxdım. Getməyə yer axtarırdım. Həmişə özünə, işinə, xəyallarına, arzularına başı qarışan mən indi vurnuxmağa başlamışdım. Üz tutmağa yönlü bir yer tapa bilmirdim.

Bu yaşa gəlmişdim, hələ özümə etibarlı, dara düşəndə üz tutulası dostlar qazanmamışdım. Balaşınsa düşəndən-düşənə üzünü görürdüm. Əlbəttə, günah özümdə idi, adamlara yovuşmurdum. Qardaşım da axır vaxtlar məndən gen gəzməyə çalışırdı. Açıb-ağartmasa da, duyurdum ki, Qara axşamlar kimlərləsə görüşür.

Filarmoniyanın qabağından keçəndə afişadan oxudum ki, burda poeziya axşamı keçiriləçək. Lap ürəyimdən oldu. Tinimi filarmoniyanın yanındakı çayxanaya verdim.

Stolun başında tək oturmuşdum. Birdən, ötən ay rastlaşdığım, ikicə saatın içində yüz illik tanışıma çevrilən şair Rüstəm Behrudinin

mənə sarı gəldiyini gördüm. Yanında arıq, uzun, kələkötür sifətli, qıvrım saçlı, iti baxışlı bir adam var idi.

Rüstəm onu mənə təqdim etdi:

– Haqqında yəqin eşitmisən, tanış ol, Əbülfəz bəy! Əlyazmalar İnstitutunda işləyir, böyük alimdir, nəhəng türkdür, ən yaxın dostumdur! Bugünkü poeziya axşamında çıxış edəcəyəm. Məni dinləməyə gəlib.

Rüstəmin hay-küylü adam olduğunu bildiyim üçün dediklərindən ürəyimdə həmişə nəyisə çıxırdım. O zaman "bəy" sözü bizə bir az qəribə gəlirdi, sanki mənası ilə birgə XX əsrin əvvəllərində ilişib qalmışdı. Dilim bu sözə hələ də yatmırdı, kiminsə adının böyrünə "bəy" artırmağa utanırdım.

Əbülfəz bəy Rüstəmin cilovunu çəkmək üçün dedi:

– Rüstəm bəy, toyda bəy tərifində oturmamışıq, çay içməyə gəlmişik.

Bərabər bir-iki stəkan çay içmişdik ki, stolumuzun ətrafı sıxlaşdı. Stolumuza başqa bir stol birləşdirildi. Gələnlər Əbülfəz bəyin başına yığışırdı. Onlar Rüstəmi də tanıyırdılar. Mənə isə fikir vermirdilər.

Getdikcə Əbülfəz bəyin dili açılırdı. Sən demə, onu danışdırmaq lazım imiş, özü də siyasət, tarix mövzusunda. Nitqi səlist olmasa da, inandırıcı idi. Səsi, danışıq tərzi məsələn, sevgi mövzusuna qətiyyən yaramırdı. Söhbət Sumqayıt hadisələrinin başında olsa da, hiss olunurdu ki, dövlətin ört-basdır etdiyi faciə barədə ondan başqa buradakıların heç biri fərqli bir şey bilmir.

Əbülfəz bəy deyirdi: "Hadisələrdə Moskvanın barmağı var. Eşitmisiniz, Sumqayıt hadisələrinin baş qəhrəmanı "Paşa" ləqəbli Edik Qriqoryan cinayətkar keçmişi olan bir ermənidir, şirnikdirib yoldan çıxardıblar. O, da Əhməd Əhmədov kimi siyasi təfəkkürü olmayan azərbaycanlı dostlarını qızışdırıb ortaya salıb. Ermənistanın başçısı Karen Dəmirçiyan bir məclisdə ağzından qaçırdıb ki, Dağlıq Qarabağ məsələsində qarşımızı kəsən Heydər Əliyevin Siyasi Bürodan uzaqlaşdırılması böyük qələbəmizdir." Söhbəti genişləndikcə genişlənirdi. Ondan eşitdik ki, Sumqayıt hadisəsindən bir gün əvvəl

Mixail Qorbaçov Kremldə xalqımıza düşmən kəsilmiş şairə Silva Kaputikyanı, jurnalist Zori Balayanı qəbul edib. Aralarında nə söhbət olubsa, görüşdən sonra Zori Balayan müxbiri olduğu "Literaturnaya qazeta"nın redaksiyasına gələrək erməni və ermənipərəst həmkarlarına müjdə verib: "Gözümüz aydın, tezliklə Qarabağı Azərbaycandan qopardırıq."

Elə bil tikan üstə oturmuşdum. Ağzıma su, birbaşa desək, çay alıb susurdum. Xasiyyətimdir, məclisdə diqqət başqasına yönəldisə, lal olub oturacağam. Həm də düzü, maraqlı söhbət gedən yerdə dinləməyə üstünlük verirəm. Düşünürəm ki, bildiyimi danışmaqdansa, bilmədiyimi eşitmək daha yaxşıdır. Əbülfəz bəy əksər ziyalıların çox az bələd olduğu erməni-müsəlman davasının tarixi kökləri barədə söhbətə keçdi. Deyəsən, ən yaxşı dinləyici mən idim, çünki ona atmaca və müdaxilələrlə mane olmurdum. Bu səbəbdən bəy tez-tez mənə baxırdı. Sanki həmin anlarda yalnız mənim üçün danışırdı. İlk dəfə ondan öyrəndim, hələ I Pyotr Dərbəndə gələndə tiflisli bir erməni ruhanisi onun görüşünə özünü çatdırıb rus çarını Qafqaza yiyələnməyə həvəsləndirib, ona burda necə möhkəmlənməyin yollarını yazılı surətdə təqdim edib.

Bir neçə çaynik boşalandan, yekə külqabıda siqaret kötükləri qalaqlanandan sonra ayağa durmaq zamanı gəldi. Çaypulunu kimsə gizlicə ödəmişdi, çünki əllər cibə gedəndə çayçı bildirdi ki, pul çatıb.

Dəstədə özümü artıq görüb aralandım. Filarmoniyanın kassasından "Poeziya axşamı"na biletimi alıb həndəvərdə hərlənməyə başladım. Tədbirin başlamasına yarım saat qalmışdı. Əbülfəz bəygil ətrafda gəzişirdi. Yəqin ki, bayaqkı söhbət davam edirdi.

Poeziya axşamı bitdi, Filarmoniyadan çıxanda Rüstəmi təbrik etmək istəyirdim ki, arxadan kimsə sağ qoluma girdi. Dönüb baxanda Əbülfəz bəyi gördüm. Əlində tutduğu bileti mənə göstərib gülümsəyərək dedi:

– Cavan oğlan, – bəlkə də adım yadından çıxmışdı – sənin üçün "Poeziya axşamı"na bilet götürmüşdüm. Dəstədən aralanıb bileti niyə batırdın?

Hiss etdim ki, qulaqlarıma qədər qızardım. Deməli, bayaq çayxanada söhbətdən kənarda qaldığımı düşünüb sıxılmağım yersizmiş. Bəy mənə biganə deyilmiş.

Əbülfəz bəy, "Elçibəy" olub milli azadlıq hərəkatının başında duranda da, Prezident seçiləndə də, prezidentliyi qoyub doğulduğu kəndə sığınanda da, orda dörd il ömrünü çürüdüb geri qayıdanda da, Fəxri Xiyabanda dəfn ediləndə də, bu kiçik xatirə dönə-dönə yadıma düşəcəkdi.

Sonralar yolumuz çox kəsişdi. Küçədə rastlaşıb hal-əhval tutduq, "Yuğ" teatrının tamaşasına baxıb əsərin quruluşunu, aktyor oyununu təhlil etdik, mitinqlərdə yüz minlərdən biri kimi ona qulaq asdım, o – Respublika Prezidenti kimi, mən – adi dövlət məmuru kimi üz-üzə, göz-gözə gəldik, biri-birimizə gülümsədik, ölümündən yeddi-səkkiz ay qabaq bir tədbirdə sonuncu dəfə əl verib isti görüşdük. Həmişə mənə elə gəldi ki, bilet məsələsini nə Əbülfəz bəy unuda bilirdi, nə də mən.

Qayıdıb Qaranı evdə tapmadım. Hara getməsi barədə bir barmaq kağız da yazıb qoymamışdı. Çoxları kimi biz iki qardaşı da artıq sürətlə cumub biri-birinin yerini tutan qanlı-qadalı hadisələr idarə edirdi.

Gecələr günboyu dünyada baş verənlərdən xəbər tutduqlarımı xatırlayıb olayları bircə-bircə təhlil eləməyə girişirdim. Görəsən, ölkə başçısının, onun yan-yörəsindəkilərin də fikirləşməkdən başları şişmişdi? Bəlkə, öz taleyim üçün qorxurdum? Günü-gündən elə bil adamların şəxsi həyatı cəmiyyət üçün yüzüncü dərəcəli bir məsələyə çevrilirdi. Hansı məsələdən ötrü bir idarənin, təşkilatın qapısını döysəydin, soyuq, həvəssiz qarşılanardın. Baxışlarda laqeydlik, dağınıqlıq görəndə elə bilirdim ağzımı açan kimi deyəcəklər ki, keçi can hayındadır, qəssab piy axtarır. Deyəsən, çoxları kimi mən də keçinin günündə idim. Bəs qəssab kim idi? Qəssabın nəfəsinin üzümü-gözümü, bədənimi qarsıtdığını hiss eləsəm də, o, ya gözəgörünməz idi, ya da üzdən tanınmırdı.

Qara bir yerdə durmurdu, hökumətin, ermənilərin qarasınca deyinirdi, güc göstərməyə can atırdı, hərəkət edirdi. Mənsə düşünür, elə hey düşünürdüm.

Bir gün Qara atamın ona bağışladığı “Jiquli”ni həyətdə saxlayıb forslu-forslu maşından düşəndə fikrimdən nə keçdi? Atam sanki Qaranın hərəkətinə kömək etmək, mənzil başına çatmasını tezləşdirmək, mənimsə düşünməyimə mane olmamaq üçün belə etmişdi. Xətrimə dəymədi, onsuz da maşın arzulamırdım. Heç sürücülük vəsiqəm də yox idi.

Qardaşımın üzünü görmək bir balaca çətinləşdi. Qara maşının belindən düşmürdü. Gecəyarı evə gəlib, səhər erkən qapıdan çıxırdı. İnanmırdım avaraçılıq eləsin. Ancaq görünür, bərk məşğul idi. Hərdən mən də onun “Jiquli”sinə minirdim. Maşından gah siqaret, gah ətir iyi gəlirdi. Siqaret iyinin kimə, yaxud kimlərəsə aid olmasını bilməsəm də, ətir iyinin sevdiyi qızınkı olduğunu duymaq çətin deyildi.

Hadisələri tələm-tələsik təhlil etməyim özünü doğrultmurdu. Xəyalımda qurduğum məntiqi ardıcıllığı hər kəs dağıda bilirdi. Moskvanın “Комсомолская правда” qəzetində qızışdırıcı məqalə çap etdirən dılğır bir jurnalist də, ağzını Allahyoluna qoyub sarsaq bəyanat verən hansısa siyasi demoqoq da, hətta Ağdamdan Şuşa yoluna çıxmış avtobusu daşa basan üç-dörd erməni yeniyetməsi də...

Bəlkə, qardaşım kimi heç nəyi götür-qoy etmədən prosesin gur yerlərinə baş vurmaq lazım idi? Nə çətindir, ağına-bozuna baxmadan qoşul axına, burdan vur, ordan çıx! Harda səs-küy düşür, mərəkə qopur, özünü ora çatdır. Qulağın xəbərlə, gözün görüntülərlə, beynin söz-söhbətlə, ürəyin qəzəblə, kinlə dolsun.

Lapdan ayılıb birdən-birə anlamışdıq ki, Azərbaycanın uzaq-yaxın tarixini bilmirik. Dünyaya meydan oxuyan, güclü dövlətləri yerində oturdan, qorxu içində susduran Sovetlər ölkəsi bizi, öz vətəndaşlarını illərlə gözübağlı saxlamışdı.

Keçmişimiz ərəb əlifbasının dolanbaclarında gizlədilibmiş. Gözümüzə soxulan tarix kitabları isə düzgün yazılmayıbmış. O vəziyyətdəyik ki, insanlar Qarabağ, keçmiş erməni-azərbaycanlı münasibətləri mövzusunda savadsızdır. Hamı biri-birinin ağzına baxır ki, görək qarşıdakı təzə nə deyəcək. Oxumağa az şey tapılır. Qəzetdə, jurnalda bu mövzuda çap edilən hər hansı məqaləni insanlar gözlə-

rinə təpirlər, hətta oxucudan üzr istəyib bir az kobud ifadə işlədəcəyəm, oxumurlar ey, sanki ac sürü kimi çəmənliyə daraşıb otlayırlar. Tariximizi yenidən öyrənirik. Üç adamın əvəzinə gecəni-gündüzə qatmışam. Özümün, qardaşımın və Balaşın. Çünki qardaşım məndən eşitdikləri ilə ovunur, Balaşın isə bütün suallarına cavab verməliyəm. Bilirəm, səfərdən dönən kimi boğazıma çökəcək.

Mən Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sini iki günə oxuyub qurtarınca Qara öz maşını ilə Ağdama, Şuşaya baş vurub qayıdır. Danışır ki, oralar qaynayır. Bakıdakı kimi Ağdamda da çayxanalar şişib dağılır. Ermənilərin namərdliyi və onların qabağını almayan hökumətin yarıtmazlığı – bir-iki mövzu bütün söhbətlərin canıdır.

Maraqlıdır, az qala bütün siqaret çəkənlər dünənəcən piştaxtaların küncündə toz basmış "Qarabağ" siqaretini mataha mindirmişdilər. "Qarabağ" siqaretləri bazarda əməlli-başlı fırıldayırdı. Tütün çəkməkdən bığının tükləri sapsarı saralmış bir kişi çayxanada alışdırmağa hazırlaşdığı siqaret giləsini barmaqları ilə yumşalda-yumşalda gözlərini alacalandırıb deyirdi ki, son vaxtlar qeyrətli oğullarımız (*yəni, tütün fabrikinin işçiləri*) "Qarabağ"ın keyfiyyətini birə-beş artırıblar.

Arabir çəkən olsam da, "Qarabağ" siqaretindəki keyfiyyət dəyişikliyini hiss eləmirdim, zəhər dadırdı. Amma bir halda ki, tütün xiridarı olan birisi üstünlüyü duyurdu, deməli, ortada nəsə vardı. Vətənlə, dövlətlə, millətlə qürürlanmağın aclığını çəkdiyimiz bir məmləkətdə Bakının nikotin zəhəri də sinəmizi qabardırdı.

Neçə il əvvəl SSRİ-nin rəhbəri Leonid İliç Brejnevin ölüm xəbərini Minsk şəhərində eşitdim. Səhər dəmir yolu vağzalının gözləmə zalında pıçhapıç düşdü. Qulaqlarımı şəkləyib yan-yörəmə baxdım. Bir qarı yanımda oturmuş qoca kişiyə yaxınlaşıb için-için ağlaya-ağlaya dedi: "Brejnev umer! Voyna budet!" (*"Brejnev öldü! Müharibə olacaq!"*)

Brejnevin ölümü gözlənilməz deyildi. Yaşı çox olmasa da, qocalıb əldən düşmüşdü, ağlı, huşu getmişdi. Az qala əldə gəzdirilirdi. Burdan götürüb ora qoyurdular, ordan götürüb bura. Deyilənlərə görə, axır vaxtlar həftədə bir dəfə işə gəlirmiş. Adından kitablar yaz-

dırırdılar, özü-özünə orden verdirirdilər, ova aparırdılar və halaya salınmış qabanlara onunla eyni vaxtda atəş açaraq bir neçə heyvan öldürüb Baş katibi inandırırdılar ki, mahir ovçudur. (*Bir siyasi lətifə düzəltmişdilər: Brejnev ova çıxır. Göydə uçan üç ördəyə atəş açsa da güllələr boşa çıxır. Siyasi Büronun bir üzvü yaltaqlanır:" Təəccüblüdür, ördəklər ölüblər, lakin uçurlar".*)

Fikrimi qarışdıran ölkəmizin birinci adamının ölümü deyildi, qarının "Voyna budet!" kəlməsi idi. Onsuz da Əfqanıstanla müharibə aparırdıq də. Daha hansı müharibə olacaqdı? Bu dəmdə Balaş bizi Moskvaya aparacaq qatara biletlərimizi alıb gətirdi. O da xəbəri eşitmişdi. Mən qarının "Voyna budet!" deyimini təkrarlayanda Balaş gülümsədi:

– Böyüklər istəsə olacaq, istəməsə olmayacaq.

– Bu nə deməkdir?

– Bu o deməkdir ki, bu xarabada hər şey birincinin ağlından və kefindən asılıdır.

Dostumun sözləri xətrimə dəyir:

– Qorxulu adamsan, şeytan kimi heç nəyə inanmırsan. Adamı həvəsdən salırsan.

– Mənə baxma! İnan, həvəsdən düşmə! Hindistana yolum düşsə, ordan sənin üçün duzlanıb qurudulmuş qəşəng bir fil qulağı alıb gətirəcəyəm. Xəyalplov yeyib, yatarsan gecə-gündüz üstündə.

Yenə də mətbuatda, efirdə Stalinin, Xruşşovun zamanında cəzalandırılmış adamlar təmizə çıxardılıb təbliğ edilir, Brejnev dövründə şöhrət qazanmış və qazandırılmış yüzlərlə insan gözdən salınırdı. Yəhudilərin, ermənilərin Kremldə işləyən qohumları, tanışları vaxtaşırı cəmiyyətə isti xəbərlər sızdırırdılar. O xəbərlərdən belə nəticə hasil olurdu ki, quruluşu laxlatmaq üçün yuxarılar qəsdən əsl mahiyyətinin nə olduğu bilinməyən, insanlar arasında çaşqınlıq yaradan, həyata keçirilməsi mümkünsüz, bivec qərarlar qəbul edirlər. Hamı haqlı olmuşdu. Bəs haqsız kim idi? Ara qarışmışdı, məzhəb itmişdi. Deyəsən, altmışıncı illərin əvvəllərində Xruşşovun Azərbaycana səfəri zamanı Neft Daşlarında gəzib-dolaşandan sonra lül-atəş vəziyyətində dediyi "Bu ölkə möhkəmdir, onu hər bir axmaq idarə

edə bilər!” kəlamı özünü doğrultmurdu. Xruşşov sözünü yarımçıq demişdi, oxu atıb yayı gizlətmişdi. Yuxarıdakılar axmaq ola bilməzdi, buna inanmırdım, çünki vəzifə pillələrində yüksəlmək ağıl, bilik, təmkin, hünər, hiyləgərlik, ayıqlıq və bu tipli üstünlüklər tələb edir, amma şəxsi mənafeləri üçün özlərini hüştürüm göstərib saman altından istənilən qədər su yeridə bilərdilər.

Deyirdilər, Qorbaçovun arvadı xaricdə yaşayan erməni icmasından çox qiymətli hədiyyə alıb, ona görə ermənipərəstlik edir. Qarabağı Ermənistana vermək istəyir. Qorbaçovun damarlarında erməni qanı axtarışına çıxanlar peyda olmuşdu. Dedi-qodular adamların dövlətə inamını sarsıtmaqdan ötrü idi. Moskva hər gün dünyaya qeybət üçün minlərlə xəbər versiyası ötürürdü.

Dərbənddən o yana keçəndən sonra Rusiyanın dərinliklərində Qarabağ mövzusu daralıb nöqtə boyda olurdu.

1988-ci ilin payızı çox bulandı. Təsəvvür edin, aləm qarışıb, Qarabağda didişmədir. Yerevandan Stepanakertə dəstənin biri gəlir, biri gedir. Soydaşlarımızın Ermənistandan köçünün qabağı açılıb.

Hamının gözünü qan örtüb. Hayqıran, nərə çəkən, bağıran kim, ölən, incidilən, sızıldayan, ağlaşma quran kim.

Artıq dörd aydır ki, Şüvəlandakı Yazıçıların Yaradıcılıq Evində işə düzəlmişəm. Yaradıcılq Evinin yeni direktoru olan dostum saqqızımı oğurlayıb məni öz yanına dartıb aparıb. Beş-on gün bu işə uyğunlaşa bilməsəm də, tezliklə yumşalıram. Çünki şairlərin, yazıçıların, alimlərin, onların ailələrinin, ziyalı qohumlarının bura yığışmaları ürəyimcə olur. Günümüzlə bağlı gecə yarısına qədər uzanan söhbətlər, müzakirələr, mübahisələr başımı qatır. Bir günün, bir saatın, hətta bəzən bir dəqiqənin içində bütün insani hisslərimizi yaşayırıq. Fikir verirəm, yemək yeyəndə də, dənizdə çiməndə də, nəfəs dərmək üçün ağac kölgəsində oturanda da, bilyard, domino oynayanda da, nərd atanda da, axşam gəzintisinə çıxanda da hamı Moskvadan, Ermənistandan, Qarabağdan, ermənilərdən, onların güclü diasporundan danışır. İstənilən adam ictimai-siyasi mövzulara qoşula bilir.

Yazıçılardan biri görün ətrafdakıları nə ilə güldürür:

"Bir dəfə ayaqyolunda oturmuş üç yaşlı qız nəvəm "kak" eləyəndən sonra "Ana, gəl yanımı yu!" deyib anasını səsləyəndə ona tapşırmışdım ki, Aytən balam, "yan" demək ayıbdı. De ki, "Ana, gəl məni yu!"

O gün evdə yazı masamın arxasında oturub qurdalanırdım. Birdən otağımın qapısı laybalay açıldı. Aytən ley kimi üstümə şığıyıb dedi:

– Baba, tovuzorda (*televizorda*) "yan" dedilər! "Yan" ayıp (*ayıb*) dööl? (*deyil*)

Öyrəndim, demə, "Xəbərlər"də Ermənistan Kommunist Partiyasının I katibi Suren Arutyunyanın adı çəkilibmiş."

Ətrafdakılar elə şaqqanaq çəkirdilər ki... Üç-dörd il əvvəl belə söhbətlər olmazdı. Olsaydı da, heç kəsin dodağı qaçmazdı.

Moskvada yaşayıb hansısa elmi idarədə işləyən bir soydaşımız paytaxtda yüzüncü dərəcəli bir partiya işçisi ilə Ermənistanın Quqark rayonunun Şirazlı kəndində baş vermiş münaqişədə ölən azərbaycanlılar barədə etdiyi müzakirəni və bildirdiyi narazılığı elə bəlağətlə, yerli-yataqlı danışırdı, düşünürdük ki, böyük bir iş görüb. Lakin bir-iki saatdan sonra qulağımız Moskvanın bizə qarşı yeni xəyanəti haqqında xəbər alanda "Böyük iş" tüstüyə dönüb havaya uçurdu.

Direktorumuz Əli müəllim söhbətlərin, müzakirələrin fəallarından biri idi. Yaradıcılıq Evinin klubunun divarındakı böyük mozaik pannoda gizlədilmiş xaç şəklini "kəşf edib" sökdürəndən, hətta söküntüdə özü də fəhlə kimi qollarını çırmalayıb iştirak edəndən sonra havalı gəzirdi. Azərbaycanda kiçikdən böyüyə ağlı kəsən hər kəs ictimai binaların fasadlarında, tavanlarında, döşəmələrində "erməni xaçı" axtarışına çıxmışdı. Son əsrdə Azərbaycanı bürümüş erməni mühəndislər, tikintilərdəki iş icraçıları, bənnalar, suvaqçılar, dülgərlər daşnakların təsiri və diqtəsi ilə tikdikləri inzibati binaların, evlərin, mədəniyyət saraylarının, bərpa etdikləri tarixi abidələrin harasına gəldi xaç şəkili pərçim etmişdilər. Guya bununla yaşadığımız ərazilərin tarixən ermənilərə aid olduğunu sübut etmək istəyirdilər. Əli müəllim kimi ziyalılarımız hər tikilinin çölünə, içinə dörd gözlə baxırdılar.

Hamı idarəetmə işinə qarışırdı, tarixi təftiş edirdi. Quruluş özü öz eybəcərliklərini aləmə car çəkirdi. Açmışdı sandığı, tökürdü pambığı.

Sanki, ən eybəcər, ən rəzil sistem sovet quruluşu olmuşdu. Musa peyğəmbər Allahdan vəhy alıb "Tövrat"a köçürdüyü mətnlərdə dini rəqibləri olan fironların elə ağlasığmaz qəddarlıqlarını təsvir edir ki, Misiri gedib görməyən, o dövrün mədəniyyəti ilə tanış olmayan deyər ki, ə, bu yaramazlar necə zalım, qaniçən, alçaq hökmdarlar olub. Bir hökmdar ki, çiynində adam çalmaq üçün ilanlar gəzdirə, öz aramızdır, onun haqqında nə düşünərsən? Amma sonralar Qahirədə Xeopsun adına tikilmiş ehramın ətəyində oturub Sfinksə baxa-baxa fikirləşirdim ki, yox, balam, fironlar elə də pis oğlanlar deyilmiş. Musa peyğəmbər qələmin ağzını başqa səmtə çevirib. Bir yandan baxanda düz eləyib. Onu tək allahı ilə qırx il səhrada əsir-yesir eləyənlər haqda nə deməliydi?

Noyabrın 17-də, bir neçə gün sonra adı xalqın dilində "Azadlıq" olacaq Lenin meydanında (*1991-ci ildə Moskvada baş verən "QKÇP" qiyamından sonra ölkədə Kommunist Partiyası ləğv ediləcək, kommunist adına nə varsa, üstündən xətt çəkiləcək, 2,4 milyon kvadrat kilomertlik ərazidə yerləşən dövlətdə partiyanın milyardlarla vəsaiti yağmalanacaq, müstəqil respublikaların adının sonluğundan "SSR" silinəcək, az sonra müstəqil Azərbaycan hökuməti şəhərlərimizin baş meydanlarından Vladimir İliç Leninin və onun silahdaşlarının heykəllərini götürəcək, indi yığışdığımız meydan rəsmən "Azadlıq" adlanacaqdı*) böyük mitinq başlanmışdı. Düz Kommunist rejiminin siyasi rəhbəri Vladimr İliç Leninin nəhəng heykəlinin burnunun ucunda. Uzun illər hökumətin mülki və hərbi paradlarını qəbul edən hündür daş kürsü fərqli adamlarla dolmuşdu. Heykəl Leninin guya gələcəyə sarı irəli uzanmış sağ əlinin göstərdiyi tərəfə baxan yox idi. Beş gün əvvəl şuşalı zəhmətkeşlər adından yazılıb "Kommunist" qəzetində çap edilmiş "Topxananın harayı" müraciətindən sonra ermənilərin Qarabağdakı Topxana meşəsində ağacları kəsib yerində sanatoriya tikintisinə başlaması xəbəri hamının səbr

kasasını daşdırmışdı. Mənimsə səbr kasam Allah bilir, artıq neçənci dəfə daşıb-tökülürdü.

Stepanakertdə yığıncaq keçirdib Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan Respublikasından ayrılaraq Ermənistan Respublikasına birləşdirilməsi barədə qərar çıxardılandan sonra ilk kütləvi etirazı ağdamlılar etmişdilər.

Onlar uşaqlı-böyüklü nankor separatçılarla haqq-hesabı çürütmək üçün Stepanakertə yürüş başlamışdılar. Qan tökülməsindən qorxan hökumət hərəkətə gəlmişdi. Mərkəzi Komitə katibi Həsən Həsənov hadisə yerinə axının qarşısını almaqdan ötrü yalvar-yaxara göndərilmişdi. SSRİ Xalq deputatı Xuraman Abbasova namus rəmzimiz olan qadın yaylığını Əskəranda yürüşçülərin önünə atıb onları yolundan saxlamışdı. Xalqımızın müdrikliyini, qadına hörmətini Sovetlər ölkəsinin məşhur şairi Yevgeni Yevtuşenko Moskva mətbuatında çap etdirdiyi bir şeiri ilə alqışlamışdı.

Qarışıq zamanda söz demək səlahiyyətindən başqa heç bir hökmü olmayan sovet şairlərinin, yazıçılarının, ziyalılarının əlindən başqa heç nə gəlmirdi.

Mixail Qorbaçovun başında çoxlu yaradıcı insanlar var idi və onlar yenidənqurma hərakatına qoşulmuşdular. Sovet dövlətinin Lenin ideyalarını həyata keçirdən, cibində Kommunist Partiyasının biletini gəzdirən həmin istedad sahibləri yeni rəhbərin bütün yığıncaqlarında iştirak edirdilər. Qorbaçov iclaslarda onları polemikaya çəkir, söz dedirdir, təklif verdirirdi. Əvvəllər yalnız sovet rəhbərlərinin ölkədaxili təsərrüfat tədbirlərinə qoşulan tanınmış ziyalılar indi Qorbaçovun bütün xarici səfərlərində Baş katibin yan-yörəsində idilər. Ər və arvad Qorbaçovlar – Qriqori Baklanov, Yuri Belov, Daniil Qranin, İon Drutse, Mark Zaxarov, Mixail Şatrov, Vasil Bıkov, Boris Mojayev, Viktor Korotiç, İvan Laptev kimi yazıçılar, sənət adamları, jurnalistlərlə yanaşı, məşhur alimlər, kilsə xadimlərilə baş-başa qalıb vərəvürd etməkdən xoşlanırdılar.

Bu ilin fevral ayında Mərkəzi Komitənin binasının qabağında keçirilən ilk mitinqi xatırlayıram. Stepanakertin qalxması xəbərini eşidən ziyalılar, universitet, institut tələbələri Respublika rəhbərli-

yindən təcili tədbir görülməsini tələb edirdilər. Handan-hana Xalq yazıçısı Mirzə İbrahimovu qabağa çıxartdılar. İki qonşu xalqın tarixi dostluğundan, dilimizdə şeirlər yazan erməni aşığı Sayat Novadan, Nəriman Nərimanovun “Bahadur və Sona” əsərində biri-birini sevən qəhrəmanlardan danışıb tezliklə Mərkəzi Komitənin məsələyə ancam çəkəcəyini vurğulayaraq adamları dağılmağa dəvət edən yazıçını axıra qədər danışmağa qoymadılar. Xalq şairi, köhnənin kommunisti Süleyman Rüstəmi isə fitə basdılar. Hətta, kimsə ucadan şairin ruslara aid yazdığı şeirin misralarını dəyişib qışqırırdı:

“Yaşa, ey rus bacım, ey rus qardaşım,
Sizə qurban olsun həyat yoldaşım!”

Yazıçı Elçin hazırda Moskvada olan Azərbaycan Mərkəzi Komitəsinin I katibi Kamran Bağırovun Bakıya etdiyi telefon zənginə istinadən Mixail Qorbaçovun “Ermənilərin təklifinə baxılmayacaq!” sözlərini misal gətirdi.

Yazıçı Anar isə çıxışının sonunu belə bitirdi: “Bu gün xalqımızın bayramıdır, milli birlik bayramı, özünüdərketmə bayramı...”

Mitinq çox çəkməmişdi. Amma xalq o gündən sonra bir yerə yığışmağa öyrəşdi. Respublika Elmlər Akademiyasının dairəvi zalında alimlər, aspirantlar, müxtəlif təşkilatlardan gəlmiş ziyalılar tez-tez Dağlıq Qarabağ məsələsi ilə bağlı yığıncaqlar keçirdir, Ermənistanın təcavüzkar siyasətini pisləyir, Azərbaycan rəhbərliyinin yarıtmaz fəaliyyətini tənqid edirdilər. İclaslarda fəallıq göstərən tarixci alim, akademik, Sovet İttifaqı Qəhrəmanı, erməni tədqiqatçılarının Qafqaz tarixinə aid saxta şovinist kitablarını ifşa edən Ziya Bünyadova Azərbaycan Kommunist Partiyasının II katibi Vasili Konovalov (*Ziyalılar bu məmurun familiyasını tərcümə edərək daldada onu “Atabaxan” da adlandırırdılar*) demişdi: “Sən dissident deyilsən, ekstremistsən!” Akademik ona qəzəblə cavab vermişdi: “Xalqı barmağa dolamaq olmaz! Mən balandanı (*dustaq yeməyi*) kabab kimi yeyə bilərəm, heç nədən qorxmuram. Sizi vəzifədən çıxartsalar, neyləyəcəksiniz?”

Elmlər Akademiyasının əməkdaşı, şair Xəlil Rzanın imperiya nökərlərinə tuşlanmış "Şəngülüm" damğası, "Rədd olsun boşqab dibi yalayanlar!" şüarı məşhur idi.

İlk mitinqlər kortəbii idisə, may (*Mitinq moskvalı jurnalist Henrix Borovikin Mərkəzi televiziyadan nümayiş etdirilmiş ermənipərəst "Mövqe" verilişinə etiraz olaraq keçirilmişdi, Lenin meydanında başlayıb Ali Sovetin iclas salonunda bitmişdi*), iyun mitinqlərini ziyalılar idarə edirdi.

İndiki mitinqə bir gün gecikmişdim. Özümü ora yetirəndə meydan uğuldayırdı. Dünənki mitinqi Ənvər Əliyev adlı birisi başlayıbmış. İndi tribunadan qışqıra-qışqıra danışan mənim ədəbi məclislərdən ötəri tanıdığım, o vaxta qədər elə də diqqətimi çəkməyən, fəhlə Nemət Pənahovun ağzından od püskürürdü. Onu "Çənlibel" dərnəyində də görmüşdüm.

O, hökumətimizin rəhbərlərini eninə-uzununa söyüb biabır eləyirdi. Baltanı lap kökündən vururdu. Birdən-birə minlərcə adamın qabağında Mərkəzi Komitənin I katibini "Biqeyrət" kimi abırdan salmaq, onun ətrafındakılara "Alçaq" adı qoyub alçaltmaq, "Yaramaz" deyib yararsız eləmək, "Satqın" çıxartmaq hamını şoka salmışdı. Adamların ağzı açıla, gözü bərələ qalmışdı. Bu şir ürəyi yemiş igid hardan çıxmışdı?! Necə deyərlər, burda mənəm, Polşada "Həmrəylik" təşkilatının sədri qaynaqçı Lex Valensa.

Nemət meydandakıları, meydandakılar Neməti qızışdırırdı. Bir-iki saatın içində Nemət Bakıda ən çox adı hallanan, ən çox sevilən adam olmuşdu. Ədəbi birlikdə bircə dəfə çıxışını eşidib oxuduğu zəif şeirləri yıxıb sürüdüyümə görə bərk peşman olmuşdum. Noolsun – öz-özümə deyirdim – böyük hökmdarlar da, sərkərdələr də qafiyəpərdazlıq ediblər. Hər şeir qoşanın üstünə düşərlər? Hansı şair qəfildən bu qədər adamı başına yığa bilər? Ədiblərin böyükləri İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Qabil deyil? Həmin axşam televiziyada baş-başa verib Neməti öyəcəkdilər, hətta Qabil fürsət tapıb bu fəhlə oğlanın "Qeyrətinə qurban!" olacaqdı.

Nemətin səsi avazıyandan sonra yan-yörəsindəki ziyalıları birbir özü demişkən, "turbina"ya çağırmağa başladı. Nemət əvvəl bil-

məyə-bilməyə “tribuna” əvəzinə “turbina” deyirdisə, sonrakı mitinq günlərində mənə elə gəlirdi ki, bilə-bilə bu sözü düz işlətmirdi. “Turbina”nı xarizmatik çizgiyə çevirmək istəyirdi. Amma, bir fəhlənin savadsız, lakin sadə, odlu danışığı adamların ürəyinə sarı yağ kimi yayılırdı. Nemətin nə günahı olsaydı, keçərdilər. Çünki indi rejimdən hamının acığını çıxırdı. Sinəsini qabağa vermişdi, türməyə düşə, hətta öldürülə bilərdi.

Dekabrın 5-nə qədər davam edəcək mitinqlərdə mikrofon əldən-ələ keçsə də, onun əsas yiyələrindən biri Nemət olacaqdı. Çox vaxt sözü o verəcəkdi. Hətta mitinqçilərə üz tutub “Mən kimə söz verdim, qulaq asın, kimə söz vermədim, danışmağa qoymayın!” hökmünü oxumuşdu. Danışanda cızığından çıxanların sözünü kəsib, mikrofondan məhrum edəcəkdi. Mitinqdə əvvəl-əvvəl hər çıxış edən natiq millətin meydana yığışmasından vəcdə gəldiyini bildirir, birliyimizi öyür, Topxana meşəsinin qırılmasını lənətləyir, “Qarabağ bizimdir!” “Torpaqdan pay olmaz!” deyirdi.

Kim meydanda adamları yara-yara tribunaya yaxınlaşmağı bacarırdısa, söz alıb çıxış edə bilirdi. Zəif danışıqlar, məzmunca bir-birini təkrar edən çıxışlar millətin fışqıran, qaynayan, vulkan kimi püskürən ruhu içində məna kəsb edib qiymətə minirdi.

Meydanın tən ortasında dayanmışdım. Deyəsən, çox hissə qapılmışdım, ayağım yerdən üzülmüşdü. İndicə qanad açıb uçacaqdım ki, çənəmin altında durmuş, hərdən qanrılıb tərs-tərs mənə baxan, donuq, ağappaq girdə sifətli, çənəsində qısa yumru, qara saqqalı olan, səliqəli geyinmiş, ortaboylu, rusdilli – deyinəndə sözləri düzgün tələffüz etmirdi – bir tip, sanki ətəyimdən tutub məni aşağı dartdı. Həmin an onun iyrənirmiş kimi üzünü turşudaraq tribunadan qollarını yana açıb cırtəhər səsi ilə təkrar-təkrar, qışqıra-qışqıra “Ay millətim, sənə qurban olum!” deyən, bütün meydandakı adamları birdən bağrına basmaq istəyən Nemət Pənahlıya tuşladığı “Ay bedbaxt, sən ela qurbanlıqa oxşayırsan!” kəlmələrini eşidib yerə mıxlandım və gözlərimdən bir topa çınqı, sinəmdən bir neçə ah tüstüsü çıxandan sonra, əyilib onun qulağına ədəblə pıçıldadım: “Qoyun özünüzsünüz!” Gözlərimin projektor kimi işıq saçdığını görüb dilini uddu.

Səsimi başıma atmadım. Onunla əyri-əyri baxışdığımız anda "qurbanlıq" qısa çıxışını bitirdi, diqqətimiz yeni natiqə yönəldi. Yumrusaqqala sonralar da bir neçə dəfə bulvarda, şəhərin mərkəzi yerlərində rast gəldim. Hər dəfə də biri-birimizə təxminən eyni şəkildə yanpörtü baxıb koramal kimi fısıldaya-fısıldaya sovuşub gedirdik.

Mitinqdə hələ konkret danışan, vəziyyətdən ağıllı bir çıxış yolunu göstərən kimsə yox idi. Tribunaya çıxan səsinə güc verirdi, bütün çıxışını "Niyə"lər üzərində qururdu. "Niyə Moskva ermənilərə üstünlük verir?", "Niyə Vəzirov mitinqə gəlmir?" və sair. Onda da, sonrakı günlərdə də Xəlil Rzanın hayqıra-hayqıra oxuduğu uzun şeirlər bitib-tükənmək bilmirdi.

Türkoloq alim, odlu natiq, danışığında bir kitab səhifəsi boyda uzun, səlist cümlələr qurmağı bacaran Aydın Məmmədov həmişə gərgin anlarda müzakirələrə qoşulardı və çıxışına qəribə müraciətlə başlardı. Məsələn: "Ey qızmış başlar..." "Mərkəzi Komitənin qapılarını yalnız Dağlıq Qarabağ hadisələri qızışandan sonra üzümüzə açıblar" deyən alim Vəzirovun zamanında da (*Bir müddət sonra o, dilimizdə axsayan Əbdürrəhman Vəzirova xüsusi müəllim kimi Azərbaycan dilindən dərs keçəcəkdi*), Mütəllibovun vaxtında da orta mövqe tuturdu, hakimiyyətlə müxalifəti anlaşmağa çağırırdı.

Arada mən də ortaya atılıb çıxış etmək istədim. Amma tribunada nə deyəcəyimi ölçüb-biçməli fikirlərimi abzas-abzas sıralamalı idim. Meydanı başına götürən səsə qulaq asa-asa düşünürdüm. Diqqətlə dinləyəndə düşüncələrim qırıq-qırıq olurdu, fikrə gedəndə isə eşitdiklərim axıra qədər mənə çatmırdı. Çıxış etsəydim, nə deyə bilərdim? Bəlkə, birinci elə bu dəqiqə meydanda bizimlə yanaşı dayanmış yumrusaqqal kimi yaramazların məclisimizə dodaq büzməsindən, artıq-əskik danışmasından başlayım? Yox, bu xırdaçılıqdır. Keçmişə baş vurub xalqımızın əsrlərlə başına min oyun açan imperiyalardan bir neçə kəlmə mikrofona üfürmək olmazmı? Yox, bu haqda ümumi danışırlar. Mən tariximizin bütün detallarını yerli-yerində bilmirəm. Eybi yoxdur, – düşünürəm – Akademiyanın elmi sessiyasında deyiləm ki? Bəlkə, gələcəkdən danışam? Gələcəyi aydın görmürəm. Gələcəyimizi müəyyən edən o yuxardakılarla kəl-

mə kəsməmişəm. Vəziyyətə uyğun şeir də bilmirəm. Hələ ki, yerinə düşən şeiri yalnız Nemət oxuyur. Bu, türk şairi Tofiq Fikrətin "Millət şərqisi"dir. Xüsusilə də şeirin iki misrası hamıya güc verir:

Zülmün topu var, gülləsi var,
qələsi varsa,
Haqqın da bükülməz qolu,
dönməz üzü vardır.

Millət ürəyi, yumruğu ilə bir yerə toplaşıb. Ancaq, deyəsən, başı da ürəyə və yumruğa qoşmaq zamanı gəlib.

Əlbəttə, çıxış edənlər kimi mən də səsimi qaldırıb nəyəsə etiraz edə bilərəm. Bu, azdırmı?

Tribunaya tərəf yerimdən tərpənirəm. Amma, kütləni yarıb keçmək asan deyilmiş. İnsanlar ət-ətə dayanıb. Gərək bir-bir adamlara toxunub irəli keçməyə icazə istəyəsən. İnsafən heç kəs üzünü turşutmur. Meydanda ümumi mehribançılıq, canıyananlıq hökm sürür. Tanıdığım və tanımadığım qırmızı, yaşıl, alabəzək bayraqların arasından keçib getməkdəyəm. Bu vurhavurda İranın, Ərəb ölkələrinin bayraqlarını kimlər verib cavanların əlinə? Yoxsa kimin girinə hansı bayraq keçibsə, gözüyumulu götürərək cumub meydana? Bir gün sonra mitinqin axıra qədər əsas tribunlarından biri olacaq şair-publisist Sabir Rüstəmxanlı özgə dövlətlərin atributunun meydandan yığışdırılması ilə bağlı kütləyə müraciətlər edəcək və onun sözü yerə düşməyəcək, əllərdə yalnız Sovet Azərbaycanının bayraqları qalacaq. Amma bu bayrağın da dövranı uzun sürməyəcək.

Güc-bəla çıxışçıların dayandığı hündür, enli daş kürsünün pilləkənlərinə çatıram. Baho, Nemətin iş yoldaşları, Leytenant Şmidt adına zavodun fəhlələri ərəbzəngilər kimi əl-ələ verərək yolu kəsiblər, özləri demiş, hər adamı yuxarı buraxmırlar. Üzüm onlara tanış gəlmir, mən də dedikləri "hər adam"dan biriyəm. "Mən ölüm, sən öl" keçmir. Nemətin adını çəkib onunla yaxın olduğumu deyirəm, xeyri olmur. Bəlkə də, Nemətin özü məni görsə, tanıyıb yuxarı buraxdırar. Ancaq nə səsimi çıxardıram, nə də məni görən var. Başqa

hərəkət etmək arıma gəlir. Lap qışqırsam da, səsim eşidilməz. Belə yerdə ancaq mikrofonla səsə səs verərlər. Suyum süzülə-süzülə üzümü geri döndərirəm. Birtəhər tünlükdən çıxıram.

Əlbəttə, sıravi dinləyici, tamaşaçı kimi də özümü vacib fiqur hesab edirdim. Hətta bayaq hündürdən meydanda dalğalanan kütləyə öz qoşunum kimi baxırdım.

Mitinqə qoşulandan bəri bir gözüm qardaşımı axtarırdı. Axşam evə gəlməmişdi, yəqin, meydanda gecələmişdi. Görəsən, indi harda idi? Deyəsən, bu gecə də meydan əldən verilməyəcəkdi. Mitinqçilər irəli sürdükləri tələblərə hökumətin iyirmi dörd saata cavab verməsi şərtini qoymuşdular. Hökumət susduğuna görə vaxt qırx səkkiz saata qədər uzadılmışdı. Əgər yenə cavab verilməsəydi, nə olacaqdı, bunu heç kəs bilmirdi. Tələblər ağır idi. Moskva Ermənistanda Dağlıq Qarabağ Muxtar Vilayətisayaq Göyçə Muxtar Vilayəti yaradacaqdı? Yoxsa qonşu respublikadan qovulan soydaşlarımızı geri qaytaracaqdı? Amma belə tələblərlə meydanda rəhbərlikdən boğaza qədər narazı olan insanlar o ki var qızışdırılırdı. Bir azdan başlarına qızmızı lent bağlayaraq iki sıraya düzülüb yanımdan "Səttar xan marşı"nı (*"Səttar xan marşı"nı 1946-cı ildə Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Güney Azərbaycanda qurulan milli hökümət zamanında fədai dəstələri oxuyurmuşlar*) oxuya-oxuya keçən "qızılbaşlar" (*"Marş"dakı bu sətirlər qulağımda ilişib qaldı: "Yaşa, Ana Vətən, yaşa, min yaşa. Güney də, Quzey də gərək qovuşa!"*) on altıncı əsr havası ilə yaşayan alim Məhəmməd Hatəminin dəliləridir. Meydan, əllərində şüar axın-axın gələn universitet, institut, texnikum tələbələri, zavod, fabrik fəhlələri kimi onları da gurultulu alqışlarla salamlayır.

Qardaşım nə əcəb qızılbaşların arasında yoxdur? Amma təəccüblənməyə dəyməz, qocalı-cavanlı bütün meydandakılar qızılbaşlar kimi dəliqanlıdırlar. İçi mənqarışıq hamı bir himə bənddir.

Axşama yaxın yadıma düşür ki, səhər gəvələdiyim bir tikə çörəyin üstündəyəm. Sən demə, ayaqlarım da üşüyürmüş. Bir stəkan çay nə ləzzət verərdi? Düşünürəm ki, çay məsələsində, deyəsən, ağ elədim. Camaat nə hayda, mən nə hayda? Biqeyrətlik mənə qalıb? Aclıq deyil ki... Ancaq bir azdan fikrim dəyişir. Meydandan yarım sa-

atlığa aralanıb ağzıma bir şey atmalıyam. Hökumət evinin arxasında olan binanın altındakı çörək mağazasına girirəm. İçəridə xeyli alıcı var. Növbəyə dayanıram. Hamı biri-birinə nəzakət, diqqət göstərir. "Buyur-buyur"dur. Danışıqlardan aydın duyulur ki, bunlar da mənim kimi qarınlarının hayına qalanlardır, meydandan gəliblər. Torba-torba çörək, bulka, bublik, peraşki alırlar. Aha, demək, hay-həşir, alış-veriş meydandakılar üçündür. Satıcılar da cəlddirlər, əllərini görmək olmur. Onlar da meydanla həmrəydir, ümumi işə belə can yandırırlar. Əlacları olsa, heç kəsdən pul götürməzlər. Satıcı qıza sonuncu on altı bulkanı kağız torbaya doldurtdurub qoltuğuma vururam. Böyük bir ərzaq yardımı aparırmış kimi dabanəllialtı gedirəm. Yox, uçuram. Qoltuğumdakı kağız torba şişib paraşütə dönüb, məni buludların üstü ilə aparır. Meydanda bayaq dayandığım yerə çatıram. Hər halda burda üzdən tanış olduqlarım var. Torbanın ağzını gen açıb bulkaları ətrafdakılara təklif edirəm. Utandığımdan adamların üzünə baxa bilmirəm. Belə ərkli olmağa öyrəşməmişəm. Bir-bir "Sağ ol!" deyib bulkaları götürürlər, sonuncunu mənə saxlayırlar. Torbanın dibindəki bulkanı götürmək istəyəndə yenə qeyrətim mənə güc gəlir, aclığım yadımdan çıxır. Onu bir yeniyetmə oğlana verib toxdayıram. Az sonra mənə kimsə peraşki uzadır. Yenidən aclığım yadıma düşür, kağızın arasındakı peraşkini alıb həyatımda ən dadlı yeməyi ləzzətlə yeyirəm.

Efirdən, mətbuatdan, kitablardan tanıdığım, yazdıqlarına yaxından bələd olduğum ziyalılar çıxışlarını davam etdirməkdədirlər. Deyirdilər ki, şair Xəlil Rza və Əlyazmaları İnstitutunun əməkdaşı Ədalət Tahirzadə dizlərinin üstündə dəftər meydandakı çıxışları, gedişatı bircə-bircə qələmə alırlar. Biri gündəlik yazır, o biri salnamə.

Ən ürəyəyatanı odur ki, daha səlis, məntiqli, təmkinli, aydın danışan, kütlənin damarını tutmağın təhərini, yolunu bilən, Nemətlə yanaşı duran, yığıncağın digər aparıcısı Sabir Rüstəmxanlını da şəxsən tanıyıram.

Artıq ikinci gününü başa vurmağa yaxınlaşan mitinqdə söz alanlar çıxışlarının sonunda ehtiyatla, çəkinə-çəkinə "Mitinqimizi bitirib

dağılışaq!” deyirlər. Hətta bu fikri belə də ifadə edirlər: “Gəlin, yenidən yığışmaq üçün dağılışaq!”

Mərkəzi Komitə katibi, Kirovabadda (*Gəncədə)* rəhbər olarkən şəhərin küçələrini, binalarını bişmiş qırmızı kərpiclə üzlədib bəzədiyi üçün “Kərpic Həsən” ləqəbini qazanmış, ziyalılara məhrəmlik göstərən, xalq arasında müəyyən nüfuzu olan Həsən Həsənova hamı diqqətlə qulaq asır, amma axırda kütlənin fikrincə o, yolundan cayır, dağılmaq təklif edir və meydandan gələn səs-küylü etirazlara dözə bilməyib, geri çəkilir.

Şeirləri dillər əzbəri olan şair Bəxtiyar Vahabzadə çıxışının sonunda dağılmaq təklifini ortaya təkrar atınca fitə basılır. Akademik Ziya Bünyadova söz verilir. Vaxtilə Sovet İttifaqı Qəhrəmanının üç, Sosialist Əməyi Qəhrəmanının bir ulduzunu yaxasına düzdürən Leonid İliç Brejnevin SSRİ Dövlət mükafatına layiq görülmüş “Kiçik torpaq” kitabı Bakıda müzakirə edilərək tərifi göylərə qaldırılarkən, Baş katibin Böyük Vətən müharibəsindəki təşkilatçılıq istedadından, ordunu müharibədə səfərbər etmək bacarığından ağızdolusu danışan bir alimə akademik Ziya Bünyadov söz atmışdı: “Brejnev müharibə vaxtı orduda zampalit (*siyasi rəhbər*) olub. Nə şişirdirsiniz onu? Kim idi müharibədə zampaliti hərləyən?”

Ziya Bünyadov həmin Ziya Bünyadov idi (*O bir neçə il sonra çox mötəbər bir yığıncağın uzandığını görüb qəfil məclisi tərk edəndə iclasın sədri “Ziya müəllim, səbr edin, on-on beş dəqiqəyə işimizi yekunlaşdırırıq” deyib onu yerinə qaytarmaq istərkən alim əlini qasığının üstünə qoyaraq deyəcəkdi: Mən gözləyərəm e, amma bu gözləmir axı?*). O, birbaşa mətləbə keçib mitinqçiləri dağılışmağa çağırdı.

Kütlə etiraz edəndə natiq soruşdu:

– Dağılmırıq?

Kütlə uğuldadı:

– Yox!

“Yox!” sözünə qoşulanlardan biri də mən idim.

Ziya Bünyadov dedi:

– Yaxşı, dağılmırıq!

Çıxışlar dayandı. Mikrofonu söndürdülər. Qaş qaralırdı. Gəzişməyə başladım. Payızın sonu olsa da, hava mülayim idi. Dəniz kənarındakı qüllə 11 dərəcə isti göstərirdi. Arada yağış çisələyib kəsdi. Adam o qədər çox idi ki, tanışa rast gəlmək çətinləşmişdi. Əslində, söhbət üçün hər kəsə yanaşmaq olardı. Onsuz da indi hamı eyni istiqamətdə düşünür, eyni mövzuda danışmaq istəyirdi.

Meydanda tonqallar yanmağa başladı. Şmidt zavodunun fəhlələri özlərini meydanın sahibi kimi aparırdılar. Bu fəhlələr Nemətin iş yoldaşları, onun səsinə səs verən, tribunanın qabağında toxunulmaz yeri olan, qabağa düşənlər idi. Mitinq başlayan gündən aclıq aksiyası keçirənlər də Nemətə bağlı adamlardır, deyirdilər. Deyəsən, ilk tonqalları da onlar qalamışdılar.

Hələlik heç bir dəstəyə isinişə bilmirdim. Yalnız həssas dinləyici, müşahidəçi idim. Təkcə, tonqal başında qəfildən üç dəfə ucadan xorla "Qa-ra-bağ!" şüarı səslənəndə birinci "Qa-ra-bağ"ı deməyə ləngisəm də, mütləq, ikinci, üçüncü nəqəratda dəstə ilə səs-səsə verirdim.

Adamlar meydanda çox qürurlu və şax görünürdülər. Elə mən özüm də burnumu dik tutmuşdum. Ömrümdə birinci dəfə idi belə gecəyə düşmüşdüm. Köhnə, hər şeyə gələcəkdən baxmaq xəstəliyim, təmkinlə düşünmək illətim baş qaldırmayaydı kaş. Həmişə özümü baş verən hadisənin, prosesin içərisində sakit aparmağa hazırlamışam. Hadisə, proses bitəndən sonra ağıllı danışmaq, olmuşları təhlil etməyi boşboğazlıq saymışam. Amma indi toxdaq olsam da, prosesin içərisində ilişib qalmışdım. Hara qədər düşünə bilirdim? Kremlin iki günlük həngaməmizdən heç tükü də tərpənmirdi. Öz yerli hökumətimizə qalanda isə, işlər lap fırıq olurdu. Bu saat meydanın hökmü rəsmi dairələrin iradəsindən qat-qat üstün olmuşdu. Mərkəzi Komitəmiz Moskva ilə meydanın arasında qalmışdı.

Özümə yönlü bir həmsöhbət tapa bilməyib gecə saat birə işləmiş evə getmək istədim.

Metroda basabas olsa da, meydandakı mehribançılıq, qayğıkeşlik burda da davam edirdi. Yenə hövllənirəm. Üzdən soyuq görünsəm də, ürəyim yuxadır. Lap məşhur rejissor, aktyor, SSRİ Xalq artisti

Adil İsgəndərov demişkən "Belə şişman olmağıma baxmayın, qəlbim çox nazikdir."

Evə çatıram. Mənzilimin qapısını açaraq işıqları yandırıb mətbəxə keçirəm. Çaydan hələ soyumayıb. Demək, qardaşım uzağı bir saat əvvəl evdən çıxıb. Yəqin indi Azadlıq meydanındadır. Lap yaxşı, heç olmasa ikimizdən birimiz qeyrət işinə baxır. Özümə çay süzəndə gözüm stolun üstündəki yazılı vərəqə sataşır. Qaranın xəttini tanıyıram.

Vərəqdə "Direktorun zəng etmişdi, sabah mütləq işdə olmalısan!" yazılıb.

Qeydə elə vacib bir şey kimi baxmıram. İşdə nə var ki? Binamız, demək olar, bomboşdur, orda üç-dörd yazıçı qiyamət ərəfəsində yazıb-yaratmaqla məşğuldur. Onları mənsiz də yola verirlər. Məni sabahkı mitinq daha çox çəkir.

Direktorumun evinə zəng etmirəm, gecədən keçib. Amma içimi buynuzlayan məsuliyyət hissi beynimə yeridir ki, sabah işə getsəm yaxşıdır. Sonra da özümə lağ eləyirəm ki, həyasızlığa bax, qanuni işinə də xahiş-minnətlə gedirsən.

Səhər giriş qapısından içəri girincə eşidirəm ki, binamıza Ermənistandan qovulmuş qaçqın ailələri yerləşdiriləcək, buna hazırlıq gedir.

Demək, qaçqınlara görə mütləq işdə olmalıymışam. Bilirdim, bu işə özüm rəhbərlik edəcəyəm, direktorumuz hər şeyi mənim üstümə atmışdı. Onun təşkilatçılığa qəti həvəsi yox idi. Nə isə... İndi direktorumuz haqqında qaravəlli danışmaq vaxtı deyil.

Əvvəlcə qaçqınları qarşılamaq mənə asan gəldi. Fikirləşdim ki, yetmiş otağımız var. İki saata onları yerləşdirib ən uzağı günortaya özümü mitinqə yetirərəm. Yayda təcrübə keçmişdim. Bir dəstəni yola salıb, yeni yollayışla gələn otuz-qırx nəfəri çox qısa zamanda yerbəyer eləyib qurtarırdıq.

Amma birdən mənə soyuq tər gəldi. Axı, ömrümdə canlı qaçqınla üz-üzə gəlməmişdim. Qaçqınlardan bəhs edən yönlü bir filmə baxmamışdım, təsirli bir kitab oxumamışdım. Əsirlər barədə antik dövrdən indiyədək bilgim daha geniş idi. Amma əsir başqa, qaçqın başqa.

Fələstin qaçqınları, didərginləri barədə qəzetlərdə yazılanlardan xəbərdardım. Rəssam Bəhruz Kəngərlinin əsrin əvvəllərində Zəngəzur qaçqınlarını təsvir edən rəsmlərini görmüşdüm.

Qaçqınları xeyli gözləməli olduq. "Azadlıq" meydanı mənsiz qalmışdı, mən onsuz. Arada fikrim uçub getdi, istədim üzünü görmədiyim qaçqınların qarşılanmasını işçilərə tapşırıb aradan çıxım, özümü yetirim mitinqə. Sanki, bir əl ətəyimdən tutub buraxmırdı. Düşündükcə ağırlaşırdım, qanadlarım məni havaya qaldırmağa çətinlik çəkirdi. Elə bilirdim, qaçqınlar üstü-başı didilmiş, üzü-gözü qan, ağlaşa-ağlaşa qapıdan girəcəklər. Axı, Ermənistanda soydaşlarımızın döyülməsi, yaralanması, hətta öldürülməsi haqqında hər gün nəsə eşidirdik. Gərginliyim azalmırdı. İş yoldaşlarım da mənim vəziyyətimdə idi. Heç kəsin üzünün bir ilməsi də tərpənmirdi. Hamımız donuqüzlü məxluqa çevrilmişdik.

Günorta iki "İkarus" avtobus qaçqını qarşıladıq. Yerevandan, Spitakdan, Amasyadan, Qafandan olan ailələrdi. Biri-birilərilə son günlərdə tanış olmuşdular. Təsəvvür etdiyim kimi üst-başları cırıq-mırıq, üz-gözləri qanaq-qunaq, gözləri yaşlı-maşlı deyildilər. Artıq ağlayıb qurtarmışdılar, çoxu əsl kənd adamı kimi ucuzvari paltarlar geyinsələr də, üst-başlarını səliqəyə salmışdılar. Hətta binamızın həyətinə girəndə heyrətlə, maraqla, bir qədər də həvəslə yan-yörəyə baxırdılar. Belə rahat yerdə qalacaqlarını duyub bir anda toxtamışdılar. Ancaq danışıqları qəribə gəliridi. Guya, yurd-yuvalarından qovulmalarında əsas günahkarlardan biri də mən idim. Əvvəlcə bizimlə çox tələbkar, əzvay davranmağa başladılar.

Onların incikliyini, faciəsini, narahatlığını başa düşdüyümə görə varlığımdakı bütün dözüm ehtiyatını işlək hala gətirmişdim. Qaçqınların xəbəri yox idi ki, həmin saatlarda canımdakı qəzəbi, hirsi tamam söndürmüşdüm, üstünə də Mərdəkanın duzlu quyu suyundan bolluca səpmişdim. Hətta üzümdə gözəgörünməz xəfif təbəssüm qalxanı vardı. Onlar mənim, iş yoldaşlarımın üzüyola, müti görkəminə baxıb hökm göstərirdilər. Sanki cənnətdən cəhənnəmə qovulmuşdular. Xüsusilə bəzi kişilər təmtəraqlı, ikimərtəbəli evlərindən, həyət-bacalarından danışa-danışa hardan-hara düşdüklərini yana-ya-

na dilə gətirib deyinirdilər. Hər kəsin evinin özünə saray kimi göründüyünü içimdə mən də təsdiq edirəm. Ancaq Ermənistanı boya-boy gəzib soydaşlarımızın ordakı alababat gün-güzəranını gördüyümdən dediklərini şişirtmə sayırdım, susurdum..

Qaçqınları yerləşdirib qurtaranda ikindi vaxtı idi. Qeydiyyat kitabına baxdım. İndiki kimi yadımdadır, iyirmi altı ailə, doxsan üç nəfər kitaba düşmüşdü. Bir həftədən sonra Yaradıcılıq Evindəki uşaqlı-böyüklü qaçqınların sayı yüz yetmiş doqquza çatacaqdı.

Həmin günlərdə rəssam dostum Nadirin emalatxanasına getmişdim. Gördüm nəhəng düzbucaqlı kətanda dəstə ilə gedən qaçqınların təsvirini çəkib.

Hələ tamamlanmamış tablo folklor motivləri üslubunda işlənmişdi. Kətanda iki ata qoşulmuş yük dolu arabanın yanlarında, arxasında gedən iyirmi-iyirmi beş həyəcanlı kişi və qadın təsvir edilmişdi. O zaman, demək olar ki, bütün yaradıcı adamlar vətənpərvərlik mövzusunda nəsə bir iş görürdü. Jurnalistlər məqalə, oçerk, şairlər şeir, yazıçılar hekayə, musiqiçilər musiqi yazır, rəssamlar rəsm çəkirdilər.

Nadiri tablonu tezliklə bitirməyə həvəsləndirdim.

Beş-altı gün sonra fırça ustasının emalatxanasına yenidən baş çəkəndə gördüm şəkildəki qaçqınların sayı üç dəfə artıb. Soruşanda ki, niyə işi uzadırsan, tabloya artırmalar edirsən? Nadir boynunu büküb dilləndi:

– Neynim, qaçqınların dalı gəlir də...

Şəhərə tərəf tərpəndim.

“Azadlıq” meydanına özümü yetirəndə hələ mikrofon guruldayırdı. Elə təzəcə özümü toplayıb natiqə qulaq asmaq istəyirdim ki, yanımdakı adamın səsini duydum. O, eləcə ətrafındakılara eşitdirmək üçün dedi:

– Bizim milli bayrağımız odur! Üçrəngli bayraq! Min doqquz yüz on səkkizinci ildə qaldırılıb.

Onun əlinin uzandığı tərəfə baxıb üç rəngli bayrağı gördüm, yerimdən oynadım.

Ay dadi-bidad, bu həmin bayraq idi ki, sonuncu dəfə 1957-ci ilin 28 mayında Qız qalasının üstündə iki-üç saat dalğalanmışdı.

Cahid Hilaloğlu adında bir vətənpərvər döşünü irəli verib otuz səkkiz il qabaq endirilmiş bayrağı yenidən havaya qaldırmışdı və əqidə dostları ilə birgə bütün həyatını bu qəhrəmanlığa qurban vermişdi.

Daha başqa heç bir şey düşünmədən haqqında eşitdiyim, oxuduğum, lakin heç zaman əlimin toxunmadığı bayrağa sarı üz tutdum. İrəliləyə-irəliləyə illər boyu milli hissləri ürəyimə doldurmuş, damarlarıma yeritmiş, ruhuma hopdurmuş bir neçə insanı ildırım sürətilə xatırladım. Beynəlxalq futbol yarışlarında oyundan əvvəl milli bayraqlarının kölgəsinə sığınıb sağ əllərini ürəklərinin başına qoyaraq bir ağızdan himnlərini oxuyan futbolçulara həsəd aparardım. SSRİ-də adamların iclaslarda, tədbirlərdə himn oxuması dəbdə deyildi. Yığıncaqlarda əvvəl SSRİ-nin, sonra Azərbaycan Sovet Sosialist Respublikasının himnini oxumalıydıqmı? Nümayişlərdə on altı cür bayraq görən adamın hansı bayraq sevgisi ola bilərdi? Ona görə də bayraqlar əllərdə gəzdirilməkdən çox, divarlara, dirəklərə taxılırdı. SSRİ-nin, Azərbaycanın, o biri sovet respublikalarının himnini yalnız orkestrlərin müşaiyəti ilə xor kapellaları oxuyurdu. Şəxsən mənim içimdə bayraq, himn məhəbbəti cücərməmişdi.

Havada əzəmətlə dalğalanan bayrağa çatdım. Dörd-beş nəfər adamın əli bayrağın dəstəyindən yapışmışdı. Ərklə əlimi arxası mənə tərəf olan bayraqdarlardan birinin çiyninə toxundurub dedim:

– Qardaş, icazə ver, səni əvəz edim!

“Qardaş”, qardaşım çıxdı. Qara, üzündə təbəssüm “Buyur!” deyib yerini mənə verdi. Böyük həyəcanla üçrəngli bayrağın dəstəyindən yapışdım. Belə qalın, uzun dəstək görməmişdim. Bayrağın özü də çox iri idi. Göy, qırmızı, yaşıl rəngli qumaş parçanı düzbucaqlı şəklində qayçı ilə kəsib iynə-sapla bir-birinə calamışdılar. Əl işi olduğu aydın görünürdü, əyri-üyrü, irili-xırdalı, yaxın və aralı tikişlər azadlıq nişanəsi olmuşdu. Həm də standart deyildi, meydanda ən iri bayraq idi. Dedilər, Gültəkin adlı bir qadın tikib.

Sonralar həmin qadın “Gültəkin ana” adını alacaqdı və Azərbaycanda “Elman” adlı bir bayraqdar da yetişib bütün tədbirlərdə onun tikdiyi üçrəngli bayrağı əlində bərk-bərk tutub öndə gedəcəkdi.

Meydana baxdım. Hələ də meydan SSRİ-nin, Azərbaycan Sovet Sosialist Respublikasının bayraqlarının hökmündə idi. Ancaq əlim dəstəyində olan üçrəngli bayraq daha əzəmətli və doğma görünürdü. Artıq pıçhapıçla bayrağın nə bayraq olduğu hamıya bəlli olmuşdu. Qulpundan gözləri kösöv kimi işıq saçan, yanaqları əlimizdəki bayrağın şux qırmızısı kimi qızaran bir qız da tutmuşdu. Bayraq sanki nazlanırdı. Qara qızın qulağına nə pıçıldadısa, qız yerini başqasına verdi. Az sonra mən də bayrağın qulpundan əl götürməli oldum, çünki bu xoşbəxtliyə çatmaq üçün növbə gözləyənlər vardı. Qara qolumdan tutub məni yüngülcə özünə sarı çəkdi, baxışları ilə böyründə durmuş qızı göstərib dedi:

– Qardaş, Lalə ilə tanış ol!

Yavaşca soruşdum:

– O qızdır?

Qardaşıma demək istədim ki, əsgərlikdən mənimlə bu qıza vida məktubu göndərmişdin?

Qara başını tərpətməklə dediyimi təsdiq etdi.

Deyəsən, üstüörtülü danışmaq lazım deyilmiş, dəliqanlı Lalə bizim quş dilini başa düşüb, gülümsədi.

Bayaq qızı yüngülvari təsvir eləmişdim. Qoçaq qıza oxşayırdı. Fikrimdən nə keçdi? Öz-özümə dedim ki, dəlim az idi, biri də gəldi. Yaxşı tapışıblar. Gəl indi bunların başını bir yerə yığ. Heç gözüm bir Qaranın üstündə ola bilmirdi, o, ikiləşəndən sonra necə olacaq? Amma qardaşıma haqq da qazandırırdım, diribaşlıq zamanı idi. Gözdən tük qapmaq vaxtına gəlib düşmüşdük.

Mikrofon susdu, mitinq bağlandı.

– İş yoldaşlarımla bir yerdəydik! – Qara dillənib məni fikrimdən ayırdı. – Nemətlə yaxın əlaqə yaratmışıq, gecələr görüşürük də.

Qardaşımı dəstəsindən gen salmaq istəmədim, aralandım. Axşam düşürdü. Hər tərəfdən meydana əvvəlcədən tədarük edilmiş odun şələləri, boş yeşiklər, ağ neft doldurulmuş şüşə qablar gətirirdilər. Şər qarışan kimi tonqallar çatılacaqdı. Ocaq başında dayanacağımı, maraqlı nələrisə görəcəyimi düşünüb meydanda gecələməyi qərara aldım.

Birdən gözüm Leninin heykəlinə sataşdı. Maraqlı mənzərə düzəltmişdilər. Bayaq dəstəyindən yapışdığım üçrəngli bayrağın sapını proletariatın rəhbərinin yuxarı qalxıb gələcəyi göstərən əlinə, həm də əlinin davamı olan qoluna bağlamışdılar. Milli bayrağımızı xəzri əzəmətlə yellədirdi.

Qələbə bayrağı idimi bu bayraq? Onu lazım olan yerə sancmışdıqmı? Türklər Konstantinopolu məngirləyib alanda qala bürcünə dırmaşıb zəfər bayrağını ən uca yerə sancmış, aşağı enərkən oxla vurulub şəhid olmuş Hasan Ulubatlının gördüyü işi təkrar etmək zamanı gəlmişdimi? Fateh Sultan Mehmetdən soruşulanda ki, "Sultan olmasaydın, kim olmaq istərdin?" birnəfəsə cavab vermişdi: "Əlbəttə, Hasan Ulubatlı."

İndi məsələ tamam başqa cür idi. Söhbət haranısa fəth etməkdən deyil, bir zamanlar yad əllərə verilmiş öz şəhərimizi, öz ölkəmizi geri almaqdan gedirdi.

Görən-görən təbəssümlə "Lenin"in əlində yellənən üçrəngli bayrağı seyr edirdi. O anda ürəyimdən keçdi ki, yekə bir plakat düzəldib üstünə iri hərflərlə "Mən də sizinləyəm!" yazasan və Leninin heykəlinin boynundan asasan. Bəlkə də bu fikri Qaraya desəydim, mütləq sabah mitinq başlayanacan tapşırığımı yerinə yetirərdi. Tam əmin idim ki, üçrəngli bayrağın tunc heykəlin əlinə bağlanıb bərkidilməsində Qaranın, hətta onun böyründəki Lalənin də əməyi var.

Ancaq fikrimdən vaz keçdim. Əslində mitinqdəki bütün çıxışlarda quruluşu sağa-sola sürüyüb, yerli hökuməti abırdan salıb, axırda Moskvadan kömək ummaq sonluğu ürəyimə yatmırdı. Son illərdə Vladimir İliç Lenin, əldən-dildən düşmüş, gecə-gündüz canı ağrıyan, zarıyan, nıqqıldayan bir qoca kişidən başqa bir şey deyildi təsəvvürümdə. Hər an kəsərini itirməkdə idi. Qabağa qaçıb deyim ki, bir gün sonra bayrağımızı onun əlindən almışdılar. Sanki etibar etməmişdilər.

Qalanan yüzlərlə irili-xırdalı tonqallar (*Lenin meydanına "Tonqallar meydanı"da deyəcəkdilər*), təkcə ətrafı işıqlatmaq, qızdırmaq üçün deyildi. Elə bil meydanın əfsanəvi qəhrəmanlıq ruhu tonqalların alışdırılmasını vacib edirdi. Axı, biz millət olaraq hələ günü-

müzün çoxunu nağıl təfəkkürü ilə yaşayırdıq, bizi zülmlərdən xilas edəcək ağ atlı oğlanı gözləyirdik.

Yadımda ikən bunu da deyim: altı il sonra Bakının cıdır meydanına yolum düşmüşdü. Gözüm cıdırda bəslənmiş, qaşovlanıb-yuyulmuş, yalı, quyruğu daranmış, sığallanmış balaca bir ağ ata sataşdı. Tanışım olan cıdırın direktorundan "Bu at nə balaca atdır, cinsi nədir?" soruşdum. O, gülümsədi: Bu, Nemət Pənahlının atıdır. Dayçalığından alıb buraxıb bura. Qabaqlar deyirdi ölkə prezidenti seçiləndə, babam Şah İsmayıl Xətai kimi bu atı minib Azadlıq meydanında paraddan keçəcəyəm. Amma dayça at olandan sonra susdu. Çünki at monqol cinsindən çıxdı. Şah İsmayılın atına oxşamadı. Əvvəllər Nemət cıdıra tez-tez gələrdi, indi hərdən-birdən yolunu burdan salır. İndinin qəhrəmanı Nemət Pənahlı onda Heydər Əliyevin dəvətilə Prezident Aparatında dünyada analoqu olmayan, məhz onun üçün yaradılmış Dövlət müşavirinin müşaviri vəzifəsinə təyin olunmuşdu. Ancaq 1988-ci ilin Meydan havası hələ başından getməmişdi.

Meydanda gəzdikcə xeyli tanış üzə rast gəlirdim. Tanıdıqlarımın çoxu yazıçılar, jurnalistlər, alimlər idi. Bəziləri ilə hal-əhval tutsam da, onlardan tez ayrılırdım. Cavanlar çox sevincək olmuşdular. Daxilən inqilabçılığı sevməsəm də, yaşıdlarımın coşqunluğu ürəyimə yatırdı. Hətta düşünürdüm ki, baş verən olaylar mənim nəslimin, mənim yaşıdlarımın hadisələridir. Bu həngamələrə bizim qədər ciddi baxan yoxdur. Biz selik, axınıq, yaşlı nəsil isə təlatümü məcraya, şəklə, formaya salmaq istəyənlərdir. Yalnız bizlərə bu çarpışmaların şöhrət, mənfəət, mənsəb tərəfi gərək deyil. Bəziləri, deyəsən, fürsətdən yararlanmağa çalışırlar. Düşündüklərim sonrakı günlərdə daha aydın hiss olunacaq. Tribunaya yerikləmək illəti güclənəcək, irəli cumub yuxarılardan faydalanmaq cəhdləri üzə çıxacaq.

Fəallıq göstərən universitet, institut, texnikum tələbələri, müxtəlif zavodların, tikinti təşkilatlarının fəhlələri öz tonqallarını yandırıblar. Ziyalıların xüsusi tonqalı yoxdur. Mənim kimilər gah o ocağın başındadır, gah bu ocağın. Tonqalların ətrafı ciddi söhbətlər edənlərlə yanaşı havalılarla, şit zarafat edənlərlə, ucadan danışıb gülənlərlə, cır səslə qışqıra-qışqıra "Qarabağ şikəstəsi" oxuyanlarla, şeir, şüar,

meyxana deyənlərlə, fokus göstərənlərlə, yallı gedənlərlə doludur. Peşəkarlara rast gəlmirəm. Peşəkarlara səhnə rahatdır. Qrimin, işığın, rejissorun köməyi olmadan çıxış etmək zordur. Səhnəyə tamaşaçı salon tərəfdən baxır. "Azadlıq" meydanında isə hər kəs dörd tərəfdən əhatə olunub. Yeddidən yetmişə qədər burda hər yaşda adam var. Bəlkə kiminsə yaşı lap yetmişi də keçib. Hamı bir-birinə qarışıb. Məşhur adam da tribunadan meydana düşəndə sıravi kimi görünür.

Tonqalların başında hamı ayaq üstə deyil. Taxta kətillər, hətta kimlərinsə ərinməyib evdən gətirdiyi, gətirtdiyi stullar yan-yana düzülüb. Lakin oturacaqlar azlıq etdiyi üçün adamlar növbə ilə oturub dincəlirlər, əlüstü nəsə yeyirlər, termosdan bir-birinə çay süzürlər. Meydan döyüşçülərin düşərgəsinə oxşayır. Özü də sanki hələ döyüşə bir neçə gün var.

Tonqallardan birinə yaxınlaşıram. Birdən səs qopur: "Ağasəlim qədeş gəldi! Ağasəlim qədeş gəldi!". Meyxanaçı təklif olunan kətildə oturan kimi "Ay can alan, can Qarabağ bizümdü!" rədifli meyxana deməyə başlayır və hamımız yeri gəldikcə qafiyəni təkrar edirik.

Eynim açılır. Birdən iki nəfərlik əldəqayırma taxta oturacaqda arxası mənə tərəf əyləşmiş Qara ilə Laləni görürəm. Lalə başını qardaşımın çiyninə qoyub. Qızın başı tərpənmir, yəqin ki, mürgüləyir.

Meydanda müəyyən təşkilatçılıq hiss olunur. Pərakəndə gediş-gəlişlərdən başqa əvvəlcədən hazırlanmış dəstələr var ki, gecə növbəsinə gəlib öz meydan dostlarını, yoldaşlarını əvəz edirlər. Hündür tonqallar iri ocağa çevrilib.

Adam çoxluq içərisində başqa cür düşünür, təklikdə başqa cür. Coşmuş kütlə arasında hökmlü, qızğın olursan, elə bilirsən sənə heç kəsin gücü çatmaz. Bədənində yorğunluq, ağrı hiss etmirsən. Gecə-gündüz hamı "Ölkə dağılır!" desə də, bu kəlmə şüurlarda "Hakimiyyət dağılır!" kimi əks olunur. Yaxın tarixdə SSRİ-nin rəhbəri Xruşşovu saraydaxili çevrilişlə işdən götürüblərsə, Qorbaçovun da dalından dəymək olmazmı?

Sonra da öz-özümə deyirəm ki, Moskvanın neçə yüz illik dövlətçilik tarixi var. Vaxtı yetişəndə onlar hər hansı münaqişəni, iğtişaşı,

narazılığı yatırtmaq üçün dönə-dönə sınaqdan çıxmış çoxsaylı üsullardan, vasitələrdən birinə əl atacaqlar. İmperiya mərkəzləri dözümlü olmağa öyrəşiblər. Heç qədimdə də quruluşdan, müstəmləkə siyasətindən narazılıq edənlərin üstünə qoşunu dərhal yollamırdılar. Gözləyirdilər hadisələr durulsun, liderlər baş qaldırsın, güc mənbələri aşkarlansın, hər şey gün kimi aydın olsun, sonra. Yoxsa, rəqibə qarşı on qat qüvvə göndərməyi necə müəyyən edə bilərdilər. Hələ vuruşa başlamaq üçün qarşı-qarşıya gəlməzdən qabaq münaqişə yerində satqınları, yerli imperiya nökərlərini səfərbər etmək lazım idi. İçdən və çöldən vuranda axı, rəqibi daha tez əzirsən. İndi mənim millətim mərkəzin gözündə yavaş-yavaş düşmənə, rəqibə çevrilirdi.

Bu şəhəri idarə edənlər, onun kefini çəkənlər, işini düzəldənlər, əyənlər, adından hökm verənlər Moskvanın dilində danışırdılar, üzdə bizi sayırdılar, arxada yox. İki-üç gündən sonra bəlli olacaqdı ki, bizi burunlayanlar çox imiş. Kütləvi tamaşa yavaş-yavaş hökuməti darıxdırmağa başlayırdı.

Səhər meydandan yorğun, yuxusuz, his iyi verə-verə birbaşa işə getdim. Elə təzəcə qapıdan girmişdim ki, üç qaçqın ailəsi də gətirdilər. İşçilərlə bərabər onları yerbəyer edəndən sonra yeməkxanaya düşdüm. Baş aşbaz və xörəkpaylayanlar başıma yığışıb qaçqınların kobud davranışından şikayət etməyə başladılar. Deyilənləri axıra qədər dinləyib təlimat və nəsihətə oxşayan bir üslubda nitq irad etdim:

– Bu gündən işə münasibətimizi dəyişməliyik. İndiyə qədər qulluq etdiklərimiz ziyalılar idi. Yeni müştərilərimizin qaçqınlar olduğunu unutmayaq. Bunlar kənd adamlarıdır, belə yerləri görməyiblər. Göz açıb sərbəstliyə, genişliyə öyrəşənlər bir binanın dar otaqlarına sığa bilməzlər. Axı, onların kəndləri, şəhərləri, ev-eşikləri, həyət-bacaları, bu vaxta qədər həyatda qazandıqları əllərindən çıxıb. İncidilmiş, qovulmuş, didərgin salınmış, təhqir olunmuş, əsəbləri pozulmuş, ağılları yerindən oynamış adamlardan hansı nəzakəti, hansı nizam-intizamı gözləyirsiniz?

Beynimdən keçdi ki, yeridir, öz işçilərimə bir qədər də siyasi xarakterli təbliğat aparmaq olar, səsimi qaldırdım:

– Hər dövlətin nəçiliyi onun vətəndaşlarının səviyyəsində özünü göstərir. Görün, Ermənistan hökuməti soydaşlarımızın necə sıxıb-sıxıb suyunu çıxardıb, yazıqları nə günə qoyub? Biz ən qısa zamanda onları şəraitimizə, davranış qaydalarımıza alışdırmalıyıq.

Doğrudan da, sonrakı günlərdə, aylarda qaçqınların gəncləri, yaşlıları Yaradıcılıq Evinə uyğunlaşdılar. Ancaq uşaqlar ipə-sapa yatmırdılar, binada, liftdə, dəhlizlərdə atılıb düşürdülər, divarları cızırdılar, təpikləyirdilər, həyət-bacada ora-bura dırmaşırdılar, səs-küy salırdılar, dalaşırdılar, ətrafı zibilləyirdilər.

Hökumət qaçqınların saxlanması üçün idarəmizə pul ayırmışdı. Ayrı-ayrı təşkilatlar da səxavət kisələrinin ağzını açmışdılar. Bayramlarda, adi günlərdə şəxsən gəlib qaçqınları yoluxanlar da az olmayacaqdı.

Axşama qədər işdə ilişib qaldım. Gecəni burda yatıb ertəsi gün meydana gələndə başqa bir mənzərə gördüm. Hər tərəfi yığışdırıb, süpürüb təmizləmişdilər. Meydan mitinqə hazır idi. Adamlar bir ucdan dəstə-dəstə gəlirdi. Tezliklə meydan dolub daşdı. Bəlkə də, indi çevrəmdə yarım milyondan artıq adam olardı. Alınlarına “Qarabağ” yazılı qırmızı lent bağlanmış məktəblilər də gözə dəyirdi. Rayonlardan gələnlər də vardı. Ətrafda tək-tək çadırlar qurulmuşdu. Sonrakı günlərdə “Abşeron” və “Azərbaycan” mehmanxanaları arasındakı çadırların sayı mini ötəcəkdi. Çadırlara yorğan-döşək, yastıq-balınc gətirmişdilər. Çox adam gecələr adyala bürünüb gəzirdi. Qıraqlarda sıra ilə üstündə rayonların adı yazılmış, içi ərzaqla dolu yük maşınları dayanmışdı. Kapotuna milli bayrağımız həkk olunmuş, böyür-başına iri hərflərlə “Azərbaycan”, “Bakı”, “Qarabağ”, “Şuşa”, “Ağdam” yazılmış alabəzək “Jiquli”nin ağdamlı sürücüsü də mitinqə bir maşın pay-püşlə təşrif buyurmuşdu. Hətta iki gün sonra Şəkidən bir maşın diri qoç gətirəcəkdilər.

Bulvar tərəfdə kabab çəkmək üçün manqallar qoyulmuşdu. Kömür kisələri üst-üstə qalaqlanmışdı. Bazardakı kimi asqılarda cəmdəklər yan-yana düzülmüşdü. Dəmir tualetlər sıralanmışdı. Daha gecə-gündüz heç yana getmədən burda daldalana bilərdin. İstəyirsən çıxışçıları dinlə, istəyirsən ye, iç, otur, dur, tıncıxanda da özünü ver

ayaqyoluna. Mitinqdə bəzən belə bildirişlər oxunurdu: “Cəbrayılov Zakir üç gündür evə gəlmir. Oğlu olub. Gözü aydın! Yolunu gözləyirlər.”

Masallıdan gəlmiş bir yük maşınından ərzaq boşaldılmasında axıra qədər tər tökdüm. Düzdür, əl yetirən çox idi, mənsiz də iş keçərdi, ancaq ortada vicdan məsələsi vardı, gərək nəsə bir işə yarıyaydım. Həm də özümü çox gərginlikdən xilas etmək üçün qulpundan yapışmağa bir iş axtarırdım. Nə qədər qaşlarımı çatıb qaraqabaq hərlənəcəkdim? Yay kimi dartılmışdım. Burnumun ox kimi bədənimdən çıxıb harasa dəyməyi qalırdı sanki. Gedişata çox ciddi yanaşırdım. Heç kəs bir yerdə durmurdu. Gündüzlər qızğın çıxışları alqışlayanlar, “Qarabağ!” deyib qışqıranlar, qəzəblə yumruqlarını havada oynadanlar, axşamlar sanki başqalaşırdılar. Bəlkə də, mənim kimi tək-tük adam olardı ki, oxlov udmuş kimi dik-dik gəzirdi. Elə bilirdim, meydanda deyib-gülmək, nəsə yemək, şit-şit danışmaq, çadırda dincəlmək, hətta soyuqdan, tüstüdən qorunmaq ayıbdır. Mənim aləmimdə gündüz qəzəbdən zəncir gəmirən meydan gecələr ciddiliyini itirirdi.

Mitinq televiziyada translyasiya edilən gündən sonra (*Kremlin göstərişi olmasaydı, mitinq birbaşa yayımlana bilməzdi*) bütün Azərbaycanın diqqəti Bakıda, meydanda idi. Ayağı yer tutan paytaxta gəlirdi. Günü-gündən vəziyyət ağırlaşırdı. O qədər ağsaqqal, başbilən ortaya çıxmışdı ki... Mitinq vaxtı adamları ələ almaq daha asan idi. Meydanın səliqə-sahmanı, mütəşəkkilliyi, qorunması məni çox qayğılandırırdı. Elə bil mitinqin komendantı seçilmişdim.

Oturaq mitinqin altıncı günü gecə yarısı məşhur diktor Rafiq Hüseynov efirə çıxıb bildirdi ki, “Mühüm xəbər olacaq!” və hamını nigaran qoydu. Hansı mühüm xəbər ola bilərdi? Bəlkə Moskva, Bakı hökuməti mənqarışıq bütün xalqın tələbinə cavab verəcəkdi? Yəni, Qarabağda işlər yoluna qoyulacaqdı? Dağlıq Qarabağ Muxtar Vilayətinin statusu ləğv ediləcəkdi? Moskvada ölüm hökmü altında yatan Sumqayıt hadisələrinin iştirakçısı Əhməd Əhmədov bəraət alacaqdı? Ermənistandan qovulanlar yerlərinə qayıdacaqdı? Yaradıcılıq Evinə yerləşdirilən qaçqınları sabah-birigün geriyə yola salacaqdıq?

Qıfılbəndi heç kəs aça bilmirdi. Mərkəzi hökumət rəhbərlərinin beyninin qurdu tərpənmişdi. O qurdun gərnəşib, çevrikib, burulub və dilə gəlib nə deyəcəyi milləti vurmuşdu biri-birinə. Yəqin televiziyanın, radionun rəhbərliyi də, diktor da o mühüm xəbərdən hali deyildilər. Yoxsa dillərini dinc saxlamazdılar, dost-tanışın qulağına nəsə pıçıldayardılar.

Gecə saat 24.00-dan səhər saat 05.00-a qədər qadağan saatı elan edildi və Bakı şəhərinin Hərbi komendantı təyin olunmuş Mixail Aleksandroviç Tyaqunovun (*Bu o Tyaqunov idi ki, onun əmri ilə xalq "Azadlıq" meydanından dağıdılandan iki gün sonra Ermənistanda baş vermiş zəlzələyə görə Azərbaycan rəhbərliyinin Ermənistan rəhbərliyinə başsağlığı teleqramı göndərməsindən, "azərbaycanlılar bizi zəhərləmək istəyirlər" deyə ermənilərin tonlarla tibb ləvazimatından, dava-dərmandan imtina etməsindən, dağıntının aradan qaldırılması üçün "İl-76" hərbi təyyarəsi ilə köməyə gedən yetmiş doqquz azərbaycanlının Leninakan yaxınlığında dağa çırpılaraq yanıb kül olmasından bir kəlmə deməden qonşu respublikanın müsibətinə guya bakılıların sevinib toy-bayram etməsini öz televiziyamızın efirindən aləmə car çəkmişdi. Respublika rəhbərliyi ittihamı cavabsız qoymuşdu. Sevincin min çaları var, Bakıda, elə bizim Yaradıcılıq Evində Spitakdan, Leninakan ətrafından olan qaçqın ailələri zəlzələ xəbərini eşidincə sevinib Allaha şükür edirdilər ki, dəhşətli təbii fəlakətdən qurtulublar*) tələblərini eşitməyə başladıq. Bu imiş mühüm xəbər. Düzəlmişdi hər yarağımız, qalmışdı saqqal darağımız.

O gecə meydanda qaldım. Çoxları kimi mən də komendant saatını ciddi qəbul eləmirdim. Ömründə komendant saatı görməyən adamlar bundan artıq nə düşünə bilərdi?! Elə bilirdik halvadır, kefimiz necə istəsə, elə eləyəcəyik. Hətta ertəsi gün "Azadlıq" meydanının ətrafında tankları, hərbi döyüş maşınlarını, silahlı əsgərləri görəndə bir az qaşlarımız çatılsa da, hələ canımıza qorxu düşməmişdi. Öz dövlətimizin hərbçiləri bizə qorxunc, təhlükəli görünmürdü.

Tanklar meydanın bir tərəfinə axıb doluşanda nə ağlımıza, nə də yuxumuza gələrdi ki, onlar haçansa bizə atəş aça bilər. Doğrudan da,

tankların böyür-başındakı əsgər və zabitlərlə nə qədər dostlaşanlar tapıldı. Onları yedirdib-içirtməyə girişənlər az deyildi. Bir gündən sonra artıq tankların lülələrindən qərənfillər sallanırdı. Şair Fikrət Sadıq tank lülələrindəki qırmızı qərənfilləri görüb demişdi: “Gülü güldana qoyarlar, güllədana qoymazlar.”

Hər gün gülllədanlarda su görməyib tez solan qərənfilləri təzələyirdilər. Həyatda hər şeyi dişə vurmağı xoşlayan mən bu işə də əl buladım, bir dəfə əlimdə tər qərənfillər yaxınlaşıb bir tankın üstünə dırmaşdım, gülllədanın güllərini dəyişdim.

1990-cı ilin qanlı iyirmi yanvar gecəsi bu günü xatırlayacaqdım. İndi qərənfillərə və bizə atəş açmayan tanklar hamını arxayın salmaq üçünmüş.

İki gün sonra komendant saatını vecinə almayıb gecə “Azadlıq” meydanına gələn qardaşımı əsgərlər saxlayıb komendantlığa gətirmiş, səhər saat beşdə buraxmışdılar. Qara danışırdı ki, komendantlıqda o qədər saxlanılan varmış ki... Səhərə qədər söhbət ediblər, deyib-gülüb, siqaret çəkiblər.

Qardaşım hərbçilər tərəfindən saxlanmağından elə ləzzətlə danışdı ki, mən də mütləq onun qəhrəmanlığını təkrar etmək istədim. Ancaq bir qədər başqa cür. Komendantlıqda çox qalmaq istəmirdim, sadəcə fikrim oranı görməkdi. Bir gün sonra səhərüzü saat dördə beş-üç dəqiqə qalmış meydandan 11 nömrə ilə, yəni piyada “Nərimanov” metrosuna tərəf yola düşdüm. Yol boyu döyükə-döyükə nə qədər arxaya, yan-yörəyə baxsam da, mənə ilişən hərbçi olmadı. Yanından keçdiyim bir postda dayanmış iki əsgəri yuxu basırdı, başıpozuq görsələr də, yerlərindən tərpənməyə ərindilər. Yəqin ki, komendant saatı bitirdi deyə məni hərləmədilər. Demə, mitinqə gələnləri saxlayırmışlar, evinə gedənləri yox. Nəsə, canımda da axşamkı saxlanmaq ehtirası, həvəsi qalmamışdı, yorulmuşdum, ayaqlarımın hərəsi bir batman gələrdi, gözlərimin qapağını güclə saxlayıb yumulmağa qoymurdum.

Onu da deyim ki, Moskva televiziyası, radiosu, mətbuatı mitinqin yeddinci günündən başlayaraq meydan hadisələri barədə çox qıcıqlandırıcı, insafsız, təhrif olunmuş süjetlər göstərirdilər, danışırdılar,

qızışdırıcı yazılar yazırdılar. Yadımdadır, bir səhər komendant saatı bitən kimi cavan bir oğlan adamlara Moskvanın bugünkü "İzvestiya" qəzetini paylayırdı. Qəzetdə çap olunmuş məqaləni ətrafımdakılara oxuduqca onlar qəzəblərindən az qalırdılar partlayalar.

Son günlər Balaş tez-tez yadıma düşürdü. Yaşadığımız gərgin günlər əsl onluq idi. Qaynayıb daşan "Azadlıq" meydanında ustalıqla görə biləcəyi nə qədər işlər vardı. Tribunada odlu-odlu çıxış etməkdən tutmuş meydana gələn ərzaq, pul yardımlarını qəbul etməyə qədər. Təchizat məsələlərinin bütün incəliklərini onun kimi bilən az-az adamlar tapılardı. Bakıda olsaydı, yəqin ki, meydan hərəkatının tanınmış adamlarından birinə çevrilmişdi. Dostum mənim kimi deyil, heç zaman havayı işləməyi sevməyib. Mən salavata o qədər iş görmüşəm ki... Millət söhbəti gedən yerdə də mütləq az-çox bəhrələnəcəkdi. Əvəzində dəqiq iş mexanizmi quracaqdı. Balaşın bu cəhətini qiymətləndirməmək olmaz. Amma bəxti gətirməmişdi. Elə vaxt gəlib çıxacaqdı ki, lələ köçüb yurdu qalacaqdı. Yenə də özünü artıq adam kimi görəcəkdi. Hayıf ki, ünvanını bilmirdim. Yoxsa özümü saxlaya bilməyəcəkdim, teleqram vurub çağıracaqdım. Eh, görəsən dostumun Bakıdan xəbəri var? Allah bilir, indi hansı sularda üzür? Zalım oğlu özünə iş tapdı də. Burda olsaydı, mən də ortada bayquş kimi tək qalmazdım. Düzdür, kürkü günə yandırmırdı, bilirdim ki, qayıdanda çoxlu söhbətlər, əhvalatlar, macəralar, təzə fikirlər gətirəcək. Amma bu saat Bakı dünyanın bütün şəhərlərindən maraqlı, qaynar və yapışıqlı idi. Heç hara Bakının yerini verə bilməzdi.

Bir axşam Qara məni meydanda tapıb dedi:

– Atam gəlib, evdədir. Məni sənin dalınca göndərdi. Gedək!

Heç nə soruşmadan qardaşımın yanına düşüb yola düzəldim.

Atam mənimlə isti görüşdü. Bu gün səhərdən axşama qədər Azadlıq meydanında olduğunu dedi. Sabir Rüstəmxanlının çıxışları xoşuna gəlmişdi. Bu sözlərini isə olduğu kimi yazıram: "Nemət Pənahlı bizim Qara kimi hay-küyçüdür." Sonra qardaşıma baxıb gülümsədi:

– Amma başqa yol yoxdur. İndi belə lazımdır. Qışqırıb-bağırmasan, sənə baxan yoxdur. Görmürsünüz, bu boyda SSRİ-nin rəhbəri

gecə-gündüz televizordan düşmür. Ölkəni ekrandan idarə eləmək istəyir. Birtərəfli işləyir. Deyir, amma eşitmir.

Atam bizi başdan-ayağa süzüb danışığını davam etdirdi:

– İkiniz də sınıxmısınız. Ancaq qıvraq görünürsünüz. Lap qayış kimisiniz.

Üzündə, baxışlarında qürur cizgilərini sezirdim. Azadlıq meydanı, deyəsən, onu da havalandırmışdı.

Atam qəfildən soruşdu:

– Meydanda pulu kim yığır?

Qara məndən qabaq dilləndi:

– Pulu Rəsul yığır, Nemətin dostu.

Atam əlini onun çiyninə vurdu və: – Sən bilməyən işə qurd düşər! – deyib qoyun cibindən bir dəstə iyirmibeşlik çıxartdı.

Meydana beş yüz manat ayırdı. Hərəmizə yüz əlli manat xərclik verib tapşırdı ki, sabah amanatı yerinə çatdıraq.

İstəsək də, atam gecəni qalmadı. Ətəyini yığıb maşınına mindi və siqnal verməklə sağollaşıb getdi.

Atam səbrlə maşın sürəndi, siqnal verməklə arası yoxdu. Sanki, o da dinc dura bilmirdi, hökumətə etiraz edib, şuluq salmaq istəyirdi. Bayaqdan evdə fikir verirdim, kişi yerində dingildəyirdi. İnsanların kütləyə çevrilməsi, eyni cür düşünməsi, davranması üçün çox da uzun vaxt lazım deyilmiş. Hamı bir məsələ ətrafında eyniləşmişdi. İndi atam da, qardaşım da, mən də sanki bir adam idik. Bu yaxşı idimi, pis idimi, bilmirdim.

Qaradan soruşdum:

– Sən bilən meydanda pulu nədən ötrü yığırlar?

O, bu haqda eşitdiklərini mənə çatdırdı:

– Dəqiq bir fikir yoxdur. Gah deyirlər silah alacağıq, gah deyirlər tələblərimiz yerinə yetməsə, mitinq lap bir il də uzana bilər, xərc ora çıxacaq, gah deyirlər Ermənistandan gələn qaçqınlara yardım ediləcək.

Deyilənlərin hamısı ağılabatandır. Ancaq belə söhbətlər məni çox da maraqlandırmır. Meydanın pulunu güdmürəm. Həmişəki kimi yenə hər şeyin yaxşı tərəfini düşünürəm.

Komendant saatı elan ediləndən bəri meydan gərilmişdi. Artıq mikrofon verilmirdi. Meqafonla mitinqi aparanlar kütləni tez-tez emosiyalara uymamağa, ayıq-sayıq olmağa, əsgərlərlə xoş davranmağa çağırırdılar.

Sonralar uzun müddət lağa qoyulacaq bir məsələ – mitinqin aparıcısı Nemətin tələbi ilə meydandakı adamların bir neçə dəfə oturub-durması – o gərgin məqamlarda baş verdi. İndi kim nə deyir, desin, əslində bu aksiya xoş niyyətlə keçirilirdi. Nemətin qulağına kimsə pıçıldamışdı ki, meydanda Ermənistandan göndərilmiş təxribatçılar dolaşır. Nemət də öz ağlı ilə düşməni üzə çıxartmaq yolunu tapmışdı. Hamı qəfildən oturub-durur, kim dilimizi anlamayıb ayaq üstə qalsa, dərhal bilinəcək ki, bizdən deyil.

Şəxsən mən çox böyük şövqlə oturub-dururdum, dörd gözlə marıqda dayanmışdım. Ancaq bu axtarış üsulu heç bir bəhrə vermədi. Meydanda təxribatçılar olsaydı da, yəqin ki, onlar ördək-mördək deyildilər, bizdən və Azərbaycandakı bütün qazlardan ayıq idilər.

Hə, bir də oturmaq aksiyası mitinqçiləri dağılmağa dəvət edən partiya, hökumət nümayəndələrinin tribunada göründüyü vaxt baş verirdi. Respublika Ali Sovetinin sədri Süleyman Tatlıyevin, Mərkəzi Komitə katibi Həsən Həsənovun, yığışdığımız, rəsmi adı təkcə sənədlərdə qalan Lenin meydanının yerləşdiyi 26-lar Rayon Partiya Komitəsinin I katibi Vəli Məmmədovun çıxışına etiraz olaraq oturmaq və fitə basılmaqla cavab verildiyini görmüşəm.

Həmin dəqiqələrdə cəld oturub durmaq millətə, vətənə xidmət kimi başa düşülürdü. Amma sən demə, belə adi bir aksiyanı biabırçılıq, tərbiyəsizlik kimi qavrayanlar da varmış. Hər halda bu döyüş zamanı yerdə, tozda-palçıqda sürünməkdən asan idi. Ümumi iş uğrunda beş-altı dəfə oturub-durma idmanı niyə ayıb olurdu?

Komendant saatı hökumət adamlarını cəsarətləndirmişdi, mitinqçilərə hər addımbaşı dirsək göstərirdilər. Əbdürrəhman Vəzirov yorulmadan ölkənin məşhurlarını, tanınmışlarını, mitinqdə üzdə olan ziyalıları bir-bir qəbul edirdi. Mərkəzi Komitənin binası karvansaraya dönmüşdü. Qısa bir müddətdə nə qədər şirnikib

özünə geniş mənzil, maşın, bağ yeri alanlar, vəzifəyə yüksələnlər, iş yeri açdıranlar oldu. Amma Vəzirov onların heç birinin sədaqətini qazana bilmirdi. Hətta mitinqdə bəzi çıxışçılar Vəzirovla dünənki, srağagünkü görüşünün “parlaq” məqamlarını kütləyə danışırdı (*Nemət Pənahov meydan hadisələrinin son günlərində açıqca deyəcəkdi ki, Mərkəzi Komitənin I katibi Vəzirov (mitinqdə ermənilərə dostluq təklifi ilə çıxış etdiyi üçün ona “Vəziryan”da deyirdilər) məni son iki həftədə səkkiz dəfə qəbul edib, dinləyib, amma xalqın heç bir tələbini yerinə yetirməyib. Əbdürrəhman Vəzirov sonralar Nemət Pənahovu qəbul etdiyi günlərdən birini belə xatırlayacaqdı: Evdə bişirtdirib gətirtdiyim beş peraşkidən üçünü Nemət yedi, ikisini mən. Çörəyi dizinin üstündə imiş. Yanımdan çıxıb Lenin meydanına gedən kimi yenə də tribunadan “İstefa!”, “İstefa!” bağırmağa başladı*).

Mitinqin ilk günlərində hamı eyni məqsədi güdürdü, ona görə də meydan daha möhtəşəm və cazibədar görünürdü. Elə ki, konkret bir nəticə əldə olunmadı, komendant saatı ortaya çıxdı, dünən yalnız vətənpərvərlikdə birləşənlər yavaş-yavaş öz xislətlərinə, kimliklərinə qayıtdılar, dəstələrə, qruplara, fərdlərə bölündülər.

Məni yandırıb tökən o idi ki, artıq meydanda çadırları əyləncə, kef-damaq yerinə çevirənlərin, qarın otaranların sayı günü-gündən artırdı. Qaradan eşitdim, nə qədər kişilər uşaqlarını da meydana kabab yeməyə gətirirmiş. Azadlığa bax e! Üzündən, gözündən, yerişindən, duruşundan düzəməlli adama oxşamayan bəzi qızlar, gənc qadınlar sırtıqcasına, irişə-irişə çadırlara girib-çıxırdılar. Əlbəttə, mitinqin ilk günlərində fahişələr fahişəliyini, oğrular oğruluğunu, fırıldaqçılar, satqınlar, zorakılar öz murdarlıqlarını evdə qoyub “Azadlıq” meydanına gəlmişdilər.

Meydanda danışırdılar ki, mitinqin ilk üç günü Bakıda heç bir cinayət hadisəsi baş verməyib. Bütün cinayətkarlar meydana toplaşıb vətənin harayına hay veriblərmiş. Ağlı başında olan hər kəs bir insan olaraq vətən haqqında böyük, ali duyğularla yaşamasa da, ən azından düşünür ki, öz evini, ailəsini, şəhərini, iş yerini, dolanışıq mənbəyini qorumaq lazımdır.

Mitinq komitəsinin üzvləri hər gecə qərargahlarına yığışıb baş sındırsalar da, əvvəlki günlərin ötkəmliyindən, tələbkarlığından, coşqunluğundan sonra kütlə qoruna-qoruna geri çəkilməyə başlamışdı. Artıq yuxarıların və lap yuxarıların təzyiqi ilə mitinqin dağılma vaxtının çatması barədə danışıqlar gedirdi. Hökumət tərəfdarları olan ziyalılar efirdə təbliğat aparırdılar ki, rəhbərin ətrafında sıx birləşmək lazımdır. Yoxsa o, erməni separatçılarına qarşı tam gücü ilə mübarizə apara bilməz. Tanınmış tibb alimləri, (*Adilə Namazovanın televiziyada çıxışı yadıma düşür*) həkimlər meydandakı antisanitariyanın epidemiya törədəcəyini çox canfəşanlıqla beyinlərə yeritməyə girişmişdilər.

Meydan günü-gündən, doğrudan da, bərbad vəziyyətə düşürdü. Daha mitinqçilər səhərlər tonqalların gecələr qalan külünü, yerdəki zir-zibili, kağız-kuğuzu fərli yığıb-yığışdırmırdılar. Su verilmədiyindən səyyar tualetlər ətrafa üfunət yayırdı. Bakı şəhər sovetinin ştatında oturan süpürgəçilər, zibil maşınları meydanın həndəvərində belə görünmürdü. Meydan kirlənirdi.

Nemətin tribunadan oxuduğu "Millət şərqisi" deyəsən daha heç kəsə güclü təsir etmirdi. Əksinə, nə qədər adamlar hətta onun qarasınca "Bu da eyni sözləri, görəsən, nə qədər çeynəyəcək?!" – deyib üzlərini turşudurdular. Dolaşıq vəziyyət adamları usandırırdı.

Oturaqlaşan mitinqin axır gecələrini meydanda keçirirdim. Ətrafı dövrəyə almış hərbçilər meydana adam, ərzaq və odun buraxmamağa çalışırdı. Amma əsgərlərin gözünü oğurlayıb tək-tük içəri keçənlər vardı. Gecələr etirazçıların getdikcə seyrəldiyi bir vaxtda ortada qara verməkdən rahatlıq tapırdım. Gündüz mitinqdə səslənən əsas fikirlərdən biri bu idi ki, dünya ictimaiyyətinin diqqətini millətimizin dərdlərinə yönəltməkdən ötrü aksiyamız hələ uzun müddət davam etməlidir.

Hərdən özümlə zarafatım olur, güzgüdə ovurdları çökmüş, çənəsi uzanmış, gözləri quyunun dibinə düşmüş sifətimə baxıb deyirdim ki, oğlan, belinin donqarını düzəlt, şax dayan, sən indi dünyanın gözü qabağındasan. Bəlkə xarici ölkələrin gizli kameraları səni də çəkib ekranda göstərirlər? Həmişə özünü kamera qabağın-

da hiss elə! Daha mitinqin gur vaxtında burnunu sallayıb, peysərini qaşıma. Meydana girəndə sinəni qabağa verib, başını dik tutaraq inamlı addımlarla irəlilə. Yerişinlə, duruşunla cəngavər Don Kixota oxşasan da, ar eləmə. Bəzən Don Kixot inamı yüz-yüz filosofun şübhələrindən üstün olur.

Meydanda mitinqçilərin əllərində bir neçə səsgücləndirici var. Nemət qabaq şüşəsinə “Maştağa sizinlədir!” yazılmış avtobusun üstünə çıxıb meqafonla deyir:

“Ya onlara verən Allah, ya bizə! Hökumət tələblərimizi yerinə yetirməyincə, meydandayıq! Öldü var, döndü yoxdur! Heç bir təxribata uymamalıyıq! Bizi meydandan zorla dağıtsalar, fasiləsiz tətil edəcəyik. Bakı ölü şəhər olacaq!”. Xorla “Biz ölərik, Neməti tərk etmərik!” deyən böyük bir dəstə Neməti avtobusun üstündən endirib çadırına aparır.

Hərbi komendant Tyaqunovun lentə yazılmış müraciəti təkrar-təkrar ucadan səsləndirilir: “Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi adından deyirəm: mitinqlərin keçirilməsi qadağan edilib. Sizi meydanı boşaltmağa, qərara əməl etməyə çağırıram. Əks halda, güc tətbiq ediləcəkdir!”

Arada Qafqaz Müsəlmanları İdarəsinin rəisi, şeyxülislam Hacı Allahşükür Paşazadə tribunadan meqafonla meydana üz tutub mitinqçilərə yalvarır ki, dağılışın, qan tökülməsin. Bir gənc oğlan meqafonla ona cavab verir:

– Şeyx, hamımızın yerinə kəlmeyi-şəhadət oxu, biz bu meydanda öləcəyik!

Meqafonda Şeyxülislamın hönkürtüsü eşidilir.

Soyuqdan üşüdüyüm, tonqalların yanmadığı həmin günün gecəsi Nemətlə şəxsən görüşmək fikrinə düşdüm və onun çadırının yanına gəldim.

Keşik çəkən cavan oğlanlara bildirdim ki, rəhbərinizə deyin filankəs səninlə görüşmək istəyir.

Əlbəttə, adım keşikçilərə heç nə demədi, məni tanımadılar. Ancaq üzlərini turşudaraq burnumun üstündən vurub geri də qaytarmadılar, gözləməyi buyurdular. Təxminən beş-altı dəqiqədən sonra Nemət

gəldi və biz həyatımızda ilk dəfə qucaqlaşıb görüşdük. Bəlkə, belə deyim, bu soyuq havada bir-birimizi azacıq da olsa isindirdik. Bizi doğmalaşdıran meydan idi. Əvvəllər təsadüfən rast gələndə, ya başımızı tərpətməklə salamlaşır, ya da quru-quru görüşüb aralanırdıq. İndi açıq-aşkar görünürdü ki, son günlərdə bərkiyib dəmirə dönsə də, möhkəmlənsə də, elə dəmir kimi də sazaqda üşüyüb, buz bağlayıb, fədakarlar, qoçaqlar görməklə yanaşı dönüklərin, satqınların, əclafların zərbələrindən də yeyib. O zərbələrin izini baş qəhrəmanın üz-gözündə, pırtlaşıq saçında, büzüşmüş çiyinlərində, hətta yaxalıqlarını qaldırdığı qara, əzik-üzük süni dəri plaşının hər nöqtəsində görürdüm.

Nemətin üzünə kölgə çökmüşdü, gəlişimin məqsədini anlamağa çalışırdı. Sanki ağzımı açınca kələfin ucunu tapacaqdı. Hazırlıqsız gəldiyimi indi başa düşdüm. Bu boyda basabasda adam da adamın yanına elə-belə gələr? Nemət hər gələndən təklif, xahiş, şikayət, hədə-qorxu, ehtiyatlı olmağa çağırış, təsəlli, ümid, hiylə, fitnəkarlıq, namərdlik, axır nəsə gözləyir. Bu günlərdə heç kəs boş-boşuna ona baş çəkmir. Deyəsən, məndən əbləhi yoxdur. Hərəkatın qəhrəmanını görüşə çağır və Mıxməmməd kimi ağzına su alıb dur, bax.

– Nemət, – dilləndim, ancaq sözümün dalını gətirə bilməyib dərindən ah çəkdim. Ürəyimdə isə deyirdim ki, ay bədbəxt oğlu, bədbəxt, meydanın zibili çıxıb ey.

Nemət, bəlkə də, bir anlıq məni öyrədilib onun üstünə göndərilmişlərdən hesab etdi. Ancaq sonra gülümsəməyindən başa düşdüm ki, fikri dəyişdi. Onu inadından döndərmək üçün üstünə o qədər hörmətli-izzətli adamı minnətçi saldırmışdılar ki... Mən kim idim? Adi bir sıra nəfəri. Ancaq məsələ burasında idi ki, Nemət indi adi bir tərəfdaşı da, yəni məni də əldən buraxmaq istəmirdi. Hər halda hətta bir avaranın da meydanda veyillənməsi işin xeyrinə idi.

O, məndən ən uzağı xoş bir söz eşitməkdən başqa heç nə ala bilməyəcəyini duyub tıncıxan kimi oldu və əllərini cibinə salıb dedi:

– Birazdan başqa dostlarımız da gələcək. Buralarda ol, yığışıb məsələləri götür-qoy edərik.

İstədim soruşam ki, hansı məsələləri? Ancaq keyim açılmadı. Onu qarşımda ləngidəcək heç bir söz deyə bilmədim, Nemət, yenə görüşəcəyimizi düşünüb sağollaşmadan aralanıb getdi.

Yaxşı ki, ağzımı açıb boşboğazlıq eləmədim. Nə desəydim, yerinə düşməyəcəkdi. Nemətdə Nemətlik qalmamışdı. Neçə gün qabaq isə, gur-gur guruldayırdı. Qabağında söz demək, onunla bəhsə girmək kimin hünəriydi? Yüz minlər onun bir sözünə bənd idi.

Nemətin keçirəcəyi çadır məşvərətinə də qatılmadım. Kor-kor, gör-gör, meydan sönürdü. Bir tərəfdən istəmirdim oturaq mitinq dağılsın, o biri tərəfdən vəziyyətin gedişatı ürəyimcə deyildi. Nigarançılıq məni üzürdü. Meydanda, çayxanalarda, orda-burda min söz danışırdılar. Ay nə bilim, mitinqləri KQB təşkil edir, meydan Moskvadan idarə olunur, kimlərsə hakimiyyət, vəzifə davasındadır, şöhrət, ad-san qazanmaq üçün dəridən-qabıqdan çıxanlar tribunadan bərk-bərk yapışıb yalmananlar yuxarılara özünü göstərir, daha nələr, nələr...

Gecə keçəndən sonra səsgücləndirici ilə dağılmağımız barədə yenə xəbərdarlıq edildi, sonra meydana projektorla işıq saldılar. Tanklar hər tərəfdən uğultu ilə üstümüzə yeriməyə başladı. Meydanın buferinə çevrilən "əfqanlar"ın (*İşğalçı Sovet Ordusunun tərkibində Əfqanıstanda hərbi xidmətdə olmuş, qanlı-qadalı müharibədən keçmiş Azərbaycan oğulları Bakıda komendant saatı tətbiq ediləndən, meydan tanklarla əhatə olunandan sonra hərbi geyimlərini geyərək özlərini döşə verib mitinq iştirakçılarını qoruyurdular*) səddi keçildi. Heç kəsin gözündə qorxu yox idi. Gözlər qurd gözləri kimi parıldayırdı. Çevrə daralanda tanklar dayandı. Hamımız meydanın mərkəzinə topalaşdıq. Qadınları, qızları ortaya almışdıq. Yerə uzananlar da vardı. Əsgərlər bizi dövrələyib dəyənəklə üstümüzə düşdülər. Sonra dəhliz açıb hamını döyə-döyə meydandan qovdular. İnad göstərənləri tutub avtobuslara basırdılar. Mənə də iki dubinka dəydi, amma elə bərk tutmadı. Əsgərlərin açdığı dəhlizdən ötüb nə qədər ətrafa boylandımsa da, Qaranı görmədim. Bəlkə də, qardaşım heç burda deyildi.

Üzgün və yorulmuş halda evə çatdım. Qara axşamüstü gəldi. O, meydandan qovulan böyük bir dəstə ilə neftayırma zavodlarının yer-

ləşdiyi Fəhlə prospektində yürüşə çıxaraq “Tətil!”, “Tətil!” deyə-deyə “Avrora” metrosuna qədər getmişdi. Qara içəri girib otaqda gəzişə-gəzişə hədə biçdi:

– Geri çəkildi yoxdur! Sabahdan yenə dinc durmayacayıq! Əlimizi-qolumuzu heç kəs bağlaya bilməz! Görərlər!

İki gün sonra Qara mənimlə bir yerdə yaşamaqdan vaz keçib, işlədiyi təşkilatın yataqxanasına, dostlarının yanına köçdü. Kitablarım və düşüncələrimlə tək qaldım. İşdə isə qaçqınlar başımı qatırdı. Səhər Yaradıcılıq Evinin həyətinə ayaq basan kimi tökülüşürdülər üstümə. Elə bil dədələrini görürdülər. İnciklik, şikayət, giley nə qədər desən.

Hadisələr kimi fikirlər də, inanclar da tez dəyişirdi. İyirmi-otuz günün içində qaçqınlar inandılar ki, onların təzədən Ermənistana qayıdacaqları havayı söhbətdir. Dərhal öz məsələlərini özləri həll etməyə girişdilər. Bakıda, Gəncədə ev bazarlarına axışıb yiyəsiz qalmış evlərini ya ermənilərlə başa-baş dəyişməyə, ya da dəyər-dəyməzinə satmağa başladılar. Azərbaycanda yaşayan ermənilər də vurnuxub evlərinə, mənzillərinə müştəri axtarırdılar.

Yenə işdə idim. Kabinetimin qapısı döyüldü. Amasiyalı qaçqın Valeh kişi içəri boylanıb salam verdi və salamın cavabını gözləmədən məni həyətə çağırdı.

O, təxminən altmış yaşında olardı, gözlərindən cin yağırdı. Danışmaqdan çox hərəkətə, işə fikir verəndi. Bir yerdə durmazdı. Bərk yorğun görünürdü. Üzünü tük basmışdı, ərklə qoluma girib dedi:

– Bacıoğlu, bilirsən hansı cəhənnəmdən gəlirəm? Bilməzsən! Erməniləri yara-yara vurub getmişdim Amasiyaya, düz Göllüyə, öz evimə oğurluğa. Evdə nə vardı, yığışdırıb basdım maşına. Bir çöp də qoymadım qala. Getməsəydim, ölüncə ürəyimdə nisgil qalacaqdı.

Valeh kişinin bu xəbəri belə erkən mənə verməsinin mənasını başa düşmədim. Qaçqınlarla adətən günortadan sonra, axşamüstülər məhrəm söhbətlər edirdim. Gün ərzində eşitdikləri məlumatlar, gördükləri işlər barədə mənə bir növ hesabat verib ürəklərini boşaldırdılar. Dünyadakı bütün kənd adamları kimi onlar da sirr saxlayan deyildilər.

Gözümü döydüyümü görüb mətləbə keçdi:

– Köçüm darvazanın qabağında dayanan maşındadır, boşaltmağa yerim yoxdur. Gərək beş on-günlük bir daldalanacaq verəsən. Onsuz da bu obşiteldə (*Yaradıcılıq Evinə "Yataqxana" deyirdi*) iylənib qalan deyiləm. Özümə bir kümə qaralayıb külfətimi bu xarabadan qurtaracam. Yoxsa, bağrım çatlar.

Artıq qaçqınların hər cür tələblərini eşitməyə öyrəncəli olmuşdum. Darvazanın qabağına gəldik. Arxası uzun "Kamaz" dayanmışdı.

Ağzımı açmamış Valeh kişi dilləndi:

– Bala, köhnə korpusdakı otaqlar boşdur. İcazə ver, yükü boşaldaq ora. Dediyim kimi, müvəqqəti...

İcazə verdim. Çünki indi səlahiyyəti aşmaq adidən də adi bir şeydi. Əslində, baş idarə ilə razılaşıb darvazanı Valeh kişinin üzünə açdıraydım gərək. Ancaq gözümüzü qan örtmüşdü. Belə işlər onda kişilik, qoçaqlıq, vətənpərvərlik kimi dərk edilirdi. Qaçqının xahişini coşqunluqla yerinə yetirməklə sanki onu yerindən-yurdundan qovanlardan intiqam alırdım. Gücüm buna çatırdı.

Darvaza açılan kimi, sevincək Valeh kişi mürgü vuran sürücünü səslədi:

– Kolya, davay, çək maşını içəri!

Qaranın dediyinə görə, qarışıqlıq vaxtı Azərbaycandan Ermənistana, Ermənistandan Azərbaycana daşınan köçləri separatçılara pul yardımları göstərən Dadamyanın rəhbəri olduğu İttifaq tabeli Bakı Avtonəqliyyat Birliyinin Bakıda işləyən rus sürücüləri aparırdı. Belə maşınlarda işləyən azərbaycanlı sürücülər isə erməni ailələrinin köçlərini Şimali Qafqaz şəhərlərinə, Rostova, Krasnodara, Həştərxana, Krasnovodska, Rusiyanın başqa bölgələrinə çatdırırdılar. Sürücülər yaxşı pul qırırdı. Yəqin ki, hökumət bilə-bilə onları sərbəst buraxmışdı.

Kişilər köməkləşib "Kamaz"ın yükünü boşaltdılar. Axşamüstü mən köçün yanından keçdim. Guya qeyri-adi nəsə görəcəkdim. Səliqə ilə böyür-böyürə düzülmüş ev əşyalarının arasında sınıq-salxaq şifoneri, servantı, bozarmış stulları, qaralmış, rəngi getmiş vedrələri, solğun kilimləri, qulpu qırılmış "Орск" soyuducusunu, ələngə

“Юность” televizorunu, tək-tük pas atmış dəmir yaylı çarpayını, nimdaş kilimləri görəndə bir qədər təəccübləndim ki, belə köhnə-kürüş şeyləri qorxu-hürkü içində daş-qalaq altından, güllə səsindən, köçləri təşkil edən sovet hərbçilərinin özbaşnalığından keçirdib darta-darta bura gətirməyə dəyərdimi? Yəqin, səfərin astarı üzündən baha başa gəlmişdi. Bu itik tapmaqdan çox acıq çıxmağa oxşayırdı. Qaçqın düşənlər kasıb-kusub idi. Varlılar, imkanlılar qaçqın olmurlar. Onlar bir ölkədə ara qarışanda hamıdan qabaq, sadəcə olaraq, özləri demişkən, təhlükəsizlik məqsədilə əlverişli yerə köçürlər. Kasıblar isə, su boğaza çıxmayınca, bıçaq sümüyə dirənməyincə, yerlərindən tərpənən deyillər. Kasıbınkı öz kəndi, dağı, dərəsi, bulağı, meşəsi, aranı, yaylağıdır. Bir məsəl də çəkim: “Qurd öz oylağında ac qalmaz.” Təsəvvür edin, dədənin, babanın, özünün, oğul-uşağının alışdığı, öyrəşdiyi, yüz illərlə qazandığın hər şey bircə günün içində küllü-kuf olur, qalırsan ortada. Buna insan dözər?!

İndi nəinki qaçqınlar, bütün Azərbaycan, bütün Bakı əsəbidir. Keçən dəfə başıma bir əhvalat gəldi. Korların yaşadığı, işlədiyi binaların arasından keçərək yaxınlıqdakı “Nərimanov” metrosuna çatmağa tələsirdim. Bərk külək əsirdi, gözlərimə qum, toz dolduğu üçün tez-tez bir əlimlə üzümü qapayırdım. Binanın tinindən burularkən hündürboylu, orta yaşlı bir qadınla möhkəm toqquşduq. Yəqin, o da küləkdən qaçırdı.

Ləngər verib dayanan və özündən çıxan qadın üstümə çımxırdı:

– Korsan?!

Üzr istəməyin yeri yox idi. Qadının qəzəbini soyutmaq üçün kor kimi divardan tutub suçlu-suçlu dilləndim:

– Hə, xala, koram!

Fəndim baş tutdu, qadın bir anda yumşaldı:

– Kor sən deyilsən, a bala, mənəm! Basaratım bağlanıb. Allaha qurban olum, sənə göz verib, işıq verməyib. Hara gedirsən?

Rolumu davam etdirməyə məcbur idim:

– “Nərimanov” metrosuna.

Qadın əlimdən tutub məni maşın yolundan keçirtdi, metronun girişinə qədər apardı. Qaçqın imiş, qara bəxtindən gileylənirdi...

Gecənin rəngi tündləşmişdi, işdən qayıdırdım. Taksi saxlatdırıb mindim. Sürücü erməni çıxdı. Sifətindən xoşum gəlmədi. Beynim çöndü. Neçə gün əvvəl dağıdılmış mitinqdə səslənən bir fikir yadıma düşdü. Gələcəkdə gicgahına güllə sıxılıb öldürüləcək akademik Ziya Bünyadov tribunadan deyirdi ki, Mahatma Qandi ölkəni ingilislərin üstünə qaldıranda bir etiraz üsulu da seçmişdi: hindli ingilis malı almır, işğalçıya xeyir vermir. Gəlin, biz də nankor ermənilərlə hər cür ticarət əlaqəsini kəsək.

O zaman düşünmüşdüm ki, şəxsən mən ermənilərlə hansı ticarət əlaqəsini kəsə bilərəm? Siqaret çəkən vaxtlar qonşu binanın birinci mərtəbəsindəki "Voyentorq"da əl altından satılan "Axtamar" siqareti alıb dadına baxmışam. İndi heç havayı da versələr, götürmərəm, siqareti atmışam. Erməni konyakını çox tərifləyirlər, o da mənlik deyil. Qalırdı nə?! Bundan sonra erməni dəlləyində başımı qırxdırmaram, erməni çəkməçisində ayaqqabımın altını mismarlatmaram, erməni dərziyə kostyum tikdirmərəm...

Sürücüyə baxdım, özünü sıxıb sükandan ikiəlli yapışmışdı. Dalağı sancmışdı ki, məndən ona xeyir gəlməyəcək. Sanki ürəyimdən keçənləri duyurdu. Hətta deyəsən, məndən qorxurdu da. Niyə də qorxmasın? Gecə qara, cücə qara. Bu qatmaqarışıqlıq vaxtı olmadı elə, oldu belə, başdanxarabın biri qəfil bıçağı çıxardıb dirədi böyrünə. Neyləyəcək? İndi it yiyəsini tanımır. Başlı başın saxlasındı.

Taksi sürücüsünün birdən dönüb ani olaraq diqqətlə baxması məni haldan çıxardır. Yoxsa üzümün cizgilərini yaddaşına köçürmək istəyir? Aha, deməli, hərif buynuzunu çıxardır. Yəqin düşünür ki, birdən ona qəsd etsəm və o, tələdən sağ çıxsa, məni tanıyıb ələ verə bilsin. Deyəsən, çox qızışdım. Bu fətirsifətin, bəlkə də, sürücülükdən başqa əlindən heç nə gəlmir. Niyə min cür fikrə düşürəm? Əcəb adam tapmışam acığımı çıxmağa.

Bu vaxt taksi dayanır. Sürücü "Çatdıq!" deyir. Sayğaca göz atıram. İki manat doxsan qəpiklik yol gəlmişəm. Əl atıb cibimdən pullarımı çıxardıram və göy bir üçlük ayırıb sürücüyə uzadaraq cəsarətlə deyirəm:

– Artığını qaytar!

Bakıda heç vaxt pulun xırdasını qaytardı olmayıb. Xüsusilə taksilərdə.

Sürücü duruxdu, bir anlıq özünü itirdi. Sanki onun başını qarışdırırdım, indicə işarəmlə taksiyə kənardan hücum edəcəkdilər. Ancaq yazıq hardan bilsin ki, ortada bir şey yoxdur.

Tez özünü ələ alıb ciblərini eşməyə başladı. Yan cibindən tapdığı on qəpikliyi mənə uzadanda elə xoşbəxt olmuşdu ki...

Xırdanı alıb cibimə atdım və özümdən razı halda maşından enərək qapını çırpdım. Həyatımda ilk dəfə vətənin adını tutub işimdən əlavə onun üçün on qəpiklik konkret bir iş görmüşdüm.

Xoruzlandım, özüm deyib özüm eşitdim:

– Heç bir gəlmə bu torpağın çörəyini yeyib ona şıllaq atmamalıdır.

O zaman ticarətdə, məişət xidmətində işləyənlərin diribaşları müştəridən artıq qalan beş qəpiklərlə, on qəpiklərlə özlərini tuturdular, yığıb altlarını doldururdular. Hər satılan yumurtadan bir qəpik satıcıya qalanda gör hara vururdu?

Bu hadisədən sonra bir qəhrəmanlıq da etdim. Girdiyim dəlləkxanada bütün ustaların erməni olduğunu görüb geri durmadım. Saçımı qırxdırıb qiymət təlimatını tələb etdim. Özüm özümü tanımırdım. Nə üzlü adam imişəm? Pah atonnan! O biri ustalar da cınqırlarını çıxartmadılar. Yəqin məni araqarışdıran hesab etmişdilər. Bir an gözüm güzgüyə sataşdı, dəllək saçımı elə yöndəmsiz düzəltmişdi ki, doğrudan da, profildən başkəsənə oxşayırdım.

Səhv etmirəmsə, dövlətin qoyduğu qiymətə uyğun otuz beş qəpik ödəyib yaxasından əl çəkdim.

Hər gün işə gedirəm.

Komendant saatına görə Bakıda nisbi sakitlik yaranıb. Qəzetlər meydan sulayır. Gündəlik "Azadlıq" iki yüz min, "Azərbaycan" yüz min tirajla göydə qapılır. "Vətən" cəmiyyətinin həftəlik orqanı kimi nəşr edilərək xaricdə yaşayan soydaşlarmızın həyatını, fəaliyyətini işıqlandıran "Odlar yurdu"nun tirajı iki yüz əlli minə yaxınlaşıb. Meydana atılan bütün yeni müstəqil qəzetlər və jurnallar "qan-qan" deyir.

Baltikyanı respublikalarda qurulmuş xalq cəbhələrinin küləyi Bakıya da gəlib çıxıb. Milli hisslər qızışmaqdadır. Türkçülük möhkəm təbliğ olunur. İş o yerə gəlib çıxıb ki, Moldovada Todor Zanetin qaqauz dilində buraxdığı "Ana sözü" həftəlik qəzetinə Bakıdan qırx min nəfər abunə yazılıb. Abunəçilərdən biri də, əlbəttə, mənəm. Sonralar Qaqauz elində Todor Zanetlə görüşəndə deyəcəkdi ki, "Ana sözü"nü Azərbaycan oxucularının hesabına saxlayırdıq.

Bilmirəm, Mərkəzi Komitədən kiminsə ağlı ilə qaçqınların könlünü almaq üçün onların məskunlaşdığı yerlərə konsert briqadaları göndərilir. Bizim qaçqınların qismətinə Xalq artisti Sara Qədimova düşür və məşhur xanəndə başının dəstəsilə binamıza təşrif buyurur. Qaçqınlar ömürlərində ilk dəfə xanım-xatın, yaşı yetmişi haqlamış Sara xanımın gözəl üzünü görürlər, qırışıqları açılır. Bir hovurluq müsibətləri yadlarından çıxır, ağızları açıla qalır. Zarafat deyil, gör ayaqlarına kim gəlib?! Sara xanım bütün arvadlarla, qız-gəlinlərlə qucaqlaşıb öpüşür, gülənlə gülür, kövrələnlə kövrəlir, danışanla danışır.

Yeməkxanada konsert başlanır. Ustad sənətkar cavan qız cəldliyi ilə mikrofonu əlinə alıb şir kimi meydana atılır və cəngavər duruşu alaraq nərə çəkə-çəkə oxuyub hamını coşdurur. Amma konsertin qızğın yerində qanqaraçılıq düşür. Məndən üç-dörd adam o tərəfə dayanmış qoca bir kişi qəfildən tirtap yerə sərilir. Köməkləşib onu qaldırsaq da, xeyri olmur, kişinin gözləri çevrilir, əlimizdən axır. Musiqi dayanır, qiyamət qopur. Qocanın arvad-uşağı, nəvələri bir nalə çəkirlər ki... Qəriblərin fəryadı nə yaman olurmuş? Masisdən olan, adı yadımda İbrahim kimi qalmış qocaman müəllim özünü itirmədən ölünün gözlərini sığayır və bir arvad da iri qara şalı ilə onun üzünü örtür. Yenə hamının dərdi təzələnir. Arvadlar meyiti dövrələyib ağı deməyə başlayır. Sara xanım da gəlib onlara qoşulur, içərini "Şaxsey-vaxsey" səsi bürüyür. Məni soyuq tər basır. Qəhərdən boğulub bayıra çıxıram.

Bir azdan sonra ağlaşma səsi kəsilir. Sara xanımgili yola salırıq. Heç üç-dörd saat keçməmiş mərhumun Bakının Fatmayı kəndində yaşayan qohum-əqrəbası tökülüşüb gəlir, ölü yiyələri cənazəni maşına qoyub aparırlar.

Ertəsi gün səhər işə gələndə eşidirəm ki, obaşdan sancısı tutan boylu bir gəlini tələmtələsik doğum evinə çatdırıblar. Oğlan uşağının doğulması xəbəri qaçqınlara və bizə çatanda dünənki ölü elə bil yaddan çıxdı. Hamının üzü güldü.

Gəlin xəstəxanadan çıxan vaxt yenə tarixi bir hadisə baş verdi. Mən Yaradıcılıq Evindəki bütün hadisələrin içində olsam da, düzü, bilmədim ki, Xalq şairi Bəxtiyar Vahabzadəni körpənin adqoydusuna kim dəvət edib gətirtdi. Burda təəccüblü elə bir şey yox idi. O zaman bütün ziyalılar çöldə-bayırda idi. Kim harda tükünü yandırırdısa, vətənpərvərlik havasına köklənmiş ziyalılar milli duyğularını nümayiş etdirməkdən ötrü özlərini dərhal hadisə yerinə çatdırırdılar.

Bəxtiyar Vahabzadə körpəni qucağına götürüb alnından öpdü, "Mən bu oğlana "Bəxtiyar" adını qoyuram!" deyib, cibində əvvəlcədən hazır saxladığı şam-şax yüzlüyü bələyinin yaxasına taxdı. Və qaşlarını çatıb qaçqınlara ürək-dirək verdi ki, darıxmasınlar, yaxın zamanlarda ev-eşiklərinə qayıdacaqlar. Qaçqınlar şairin son sözlərini başqalarından da eşitmişdilər. Deyəsən, heç tükləri də tərpənmədi, qoyub gəldikləri evlərini satmaq, dəyişmək fikrindən, yəqin ki, zərrə qədər də əl çəkməyəcəkdilər.

Şəhərdə komendant saatı olsa da, müəssisə rəhbərliyinə daxil olan şəxslərdən biri kimi rayon hərbi komendantının imzaladığı vəsiqəm vardı. Yenə işdə bərk ləngimişdim, Bakıya maşın tapa bilmədiyim üçün Binə aeroportuna gəldim, avtobusla gecə saat birə işləmiş şəhərə çatdım. Aerokassanın böyründəki dayanacaqda düşüb, üzüyuxarı qalxmağa başladım. Küçədə ins-cins gözə dəymirdi. "Qu" desəydin, qulaq tutulardı. İlahi, Bakı nə qədər susqun, qorxulu və miskin görünürdü. Elə bil, dünyanın axırı gəlmişdi. Şəhər necə də yiyəsiz qalmışdı. Sanki, dünyanın son adamı idim. Addımladıqca vahimələnirdim. Üşənə-üşənə düşünürdüm ki, Bakımızı gör nə günə qoyublar!

İçimdə qışqırıram:

"Ey xəzrisi-gilavarı üzümü, sinəmi, kürəyimi şillələləyən, bürküsü sümüyümü əridən, gecə-gündüz neft iyi burnumdan getməyən,

daşına-divarına sürtünə-sürtünə hər künc-bucağına baş vursam da, heç vaxt axıra qədər tanıya bilmədiyim başıbəlalı, dəlisov şəhərim! Bağışla, yox, bağışlama, sənə yaxşı qardaş olmadım. Bir gecəni də əsirlikdən xilas edə bilmirəm."

Bakıdan axır ki, səs çıxır:

– Предявите документы! (*Sənədləri təqdim edin!*)

Özümü silkələyib ayıldıram. Qarşımda iki sovet əsgəri dayanıb. Nə etmək lazım olduğunu anlayıb pasportumu çıxardıram. Buraxılış vərəqəsi pasportun arasındadır.

Sorğu-sual uzun çəkmir. Əsgərlər qarşımdan çəkilib yol verirlər.

Gecə-gündüz çovuyan, burdan vurub, ordan çıxan, heç vaxt dincəlməyən Babayara atam bir dəfə deyir:

– Ay bədbəxt oğlu, gözünü açandan ayaq üstə gicələk qalmısan, yanını yerə qoy bir nəfəs dər də!

Babayar gülə-gülə cavab verir ki, mən axırda birdəfəlik dincələcəyəm, qəbirdə.

Deyəsən, mənim də beynim dincəlməyi axıra saxlamışdı. Yorulub sönənə kimi düşünürdü.

Yaza doğru iş yerimizdə qaçqınların sayı lap azaldı, onlar bir ucdan köçüb Bakıda, Gəncədə, Sumqayıtda ermənilərlə dəyişdirdikləri evlərinə gedirdilər. Hər gün bir-iki saatlıq işdə olurdum.

Osmanlı zamanında yeniçərilər bir ağızdan "Qazan qaldırıldı" deyirdilərsə, deməli, artıq döyüş əmri verilib, yemək bişirilən iri tiyanlar arabalara yüklənməlidir, daha ocaq başında oturmaqdan yanını yer kəsmiş əsgərlərin yeyib-içdisi, kef-damağı bitdi, yürüş vaxtı çatıb, yol tədarükü görülməli, kərənaylar çalınmalı, atlar yəhərlənməlidir.

Bakıda isə hələ qazan pıqqapıq qaynayırdı, qapağı götürülməmişdi. Komendant saatı nisbi sakitlik yaradırdı. Mitinqlər dayandırılmışdı. Sanki bütün qarışıqlıqları yaradan gizli əllər kor-koranə törədilən ixtişaşlardan, başıpozuqluqlardan bezib yorulmuşdular. Elə bil, azadlıq aşiqlərinin, onların böyür-başında hərlənən dağıdıcı qüvvələrin heç olmasa təşkilatlanmasını, bir balaca nizama düşməsini istəyirdilər. Həm də, deyəsən, Moskvanın başı Əfqanıstandan

qoşunun çıxarılmasına, yetim uşaq kimi əmizdirdiyi Anqolanın, Nikaraquanın, daha haraların döşdən kəsilməsinə, qərbi və şərqi Almaniyanın birləşdirilməsi məsələlərinə, Varşava müqaviləsi qoşunlarının gələcək taleyinin həll edilməsinə qarışmışdı. Yerevanın da səsi kəsilmişdi. Zəlzələdən sonra Mixail Qorbaçovun üzünə ağ olub ondan Dağlıq Qarabağı tələb edən Erməni Komitəsinin bütün başçıları həbs olunub Moskvaya aparılmışdı. Mərkəzi hökumət xaricdəki soydaşlarının Ermənistana hərtərəfli yardım etməsinə icazə verdikdən sonra ermənilər gətir-götür həşirində idilər. Bir müddət sonra dünyadakı erməni təşkilatları Ermənistana, ordan da Dağlıq Qarabağa muzdlu döyüşçülər də göndərəcəkdi.

Azərbaycanda Xalq Cəbhəsinin yaradılması haqqında 1988-ci ilin noyabr-dekabr mitinqlərində söhbət getmişdi. Bakıda altdan-altdan Xalq Cəbhəsi təşkilatları papaqlanırdılar. Məclislərdə "Xalq Cəbhəsi" ifadəsini geyinib-bəzənib başa keçən görürdün. Bəzən arasında fasilə verilmədən işlədilən bu iki söz zor bir kəlmə kimi qulaqlarda cingildəyirdi. Mən də yerimdən oynamışdım. Deyilənə görə, artıq təşkilatın proqramı, nizamnaməsi işlənib hazırlanmışdı və qeydiyyatdan keçmək üçün hökumətə təqdim olunmuşdu. Ancaq rəsmiləşmə məsələsi keçmiş bənzətmə ilə desək, acı bağırsaq, müasir təfəkkürə uyğun danışsaq, rezin kimi uzanırdı.

Heç kəsin gözləmədiyi bir vaxtda Əbdürrəhman Vəzirov bir günlük Kremlə baş vurub qayıtdıqdan sonra qəfildən "Xalq Cəbhəsi"-nin Nazirlər Kabinetində qeydiyyatdan keçməsinə "dabro" (*razılıq*) verdi. Sonralar Özbəkistan Prezidenti İslam Kərimovun Moskvanın "Литературная газета"sına verdiyi müsahibəsində bir məqam diqqətimi özünə çəkəcəkdi. İslam Kərimov xatırlayırdı: "Bir dəfə Baş katib Qorbaçov Kremldə məni qəbul edərkən soruşdu:

– Sizdə Xalq Cəhbəsi özünü necə aparır?

– Əl-qol açmağa qoymuruq, Mixail Sergeyeviç! – dedim.

O, mənalı-mənalı mənə baxıb dedi:

– Xalq Cəhbəsinə geniş imkanlar verin!"

Xalq Cəbhəsi Qərbin diqtəsi ilə Baltikyanı respublikalarda yaranmışdı. Qafqaz respublikalarından sonra Moldovada, Ukrayna-

da, Orta Asiya respublikalarında da Xalq Cəbhəsi meydana gəldi. Qorbaçov Litvadan qayıdandan sonra "Baltikyanı respublikalarda aktiv yenidənqurma işləri gedir" deyərək Siyasi Büroda bildirmişdi: "Xalq Cəbhələri Sovet İttifaqı Kommunist Partiyasına müxalif deyil, onlarla iş qurmaq lazımdır ki, düşmən cəbhəyə keçməsinlər".

Qorbaçovun iş kabinetindəki stolun üstündə daim Leninin əsərləri olurdu deyirdilər. Proletariatın rəhbərindən misallar çəkməyi sevirdi. Qorbaçov bəzən əsl kazak kimi özündən çıxırdı, onun kursuna şübhə ilə yanaşan opponentlərinə eşitdirib yerini bərkidirdi: "Mənə nə edirsiniz edin, lap gülləyə tutun, Lenin yolundan əl çəkmərəm!" Tribunadan "Vladimir İliçin əsərlərində yenidənqurmaya işarə edən çox məqamlar var" fikrini səsləndirən Baş katib tez-tez təkrar edirdi: "Xaosdan qorxmaq lazım deyil, proses davam etməlidir".

Xalq Cəbhələri bütün sovet respublikalarında milli azadlıq hərəkatının önündə gedirdi. Milli azadlıq məsələsi bütün SSRİ xalqlarının yaralı yeri idi. Çar Rusiyası və sovet dönəmində milli, dini hissləri boğulmuş xalqlar asanlıqla hərəkata cəlb olunurdu. Hətta Azərbaycana Mərkəzi Komitənin II katibi göndərilmiş Viktor Polyaniçko Azərbaycan Xalq Cəbhəsinin məramnaməsinə din uğrunda mübarizəyə çağırış edən bir bəndin salınması üçün bu sənədi hazırlayanlarla danışıqlar aparırdı. O, yəqin ki, Moskvanın göstərişilə Xalq Cəbhəsinin mübarizəsində din xəttini də gücləndirmək istəyirdi. Ancaq ateizm tərbiyəsi almış cəbhəçilər onun təklifini qəbul etmədilər. Görünür, mərkəz neçə yüzillik rus siyasətinin yetişdirməsi kimi gələcəkdə cəbhənin dikbaşlıq edəcəyi təqdirdə, islam fundamentalizmi adı ilə hərəkatı boğmaq üçün bu toppuzdan istifadə etməkdən ötrü əlyeri qoymaq istəyirdi.

Bakıda komendant saatına nəzarət öz Daxili İşlər Nazirliyimizə tapşırıldı. Sovet əsgərləri çəkilib getdilər.

İş günlərinin birində axşamüstü idarəmizin həyətində hündür danışıq səsləri eşidib eşiyə çıxdım. Çöldə nə qədər adam vardı, ilahi! Bunlar kim idi, görəsən?! Qaçqına-zada oxşamırdılar, özlərini çox vacib adamlar kimi aparırdılar. Çəkilən siqaretlərin tüstüsü havada

seyrək ağ bulud əmələ gətirmişdi. Xeyli baxsam da, yönü mənə sarı olan adamları üzdən tanıya bilmədim.

Birdən direktorumuz Əli müəllim böyrümdə peyda oldu. O, əlini çiynimə qoyub sərkərdə, ən azı dəstəbaşı görkəmi alıb dedi:

– Yarım saat sonra klubumuzda Azərbaycan Xalq Cəbhəsi Əzizbəyov rayon təşkilatının geniş yığıncağı başlayacaq. Rayon təşkilatının rəhbəri dünən mənə bu barədə müraciət etdi, razılıq verdim. İndən belə onlar klubumuzda həftədə bir dəfə iclas keçirəcək.

– Hə – dilləndim – nə yaxşı, "Xalq Cəbhəsi" özü gəlib bizi tapdı.

Əli müəllim adəti üzrə ictimai-siyasi vəziyyət barədə uzun bir söhbət başlaya bilər. Yaxşı ki, susur. Zalım oğlu arxayın danışığı, hərəkətləri, dözümü, səbri ilə dəvə bağrı çatladandı. Çənəsinin altına düşdünmü, ürəyini boşaltmayınca yerindən tərpənməzdi. Ən mənasız qəzeti belə ilk səhifəsinin birinci cümləsindən, sonuncu vərəqinin axırıncı nöqtəsinə qədər oxumayınca "doydum" deməzdi. Heç vaxt onu tələsən görmədim. Səhər yeməyini on ikinin yarısında, günortasını dörd-beş arası, axşam yeməyini gecə yeyərdi. Təsəvvür edin, işdə oturmuşuq, telefonla axşam saat altıya "Bakı Soveti" metrosunun qabağında kiməsə görüş verir. Dəstəyi yerinə qoyanda deyirəm ki, saat altıya on üç dəqiqə qalıb, Şüvəlandan şəhərə hələ qırx dəqiqəlik yolun var. Niyə görüşə çağırdığın yazığı boş-boş gözlədirsən?

Əli müəllim qəribə cavab verir:

– Özü təkidlə altıya görüş istədi. İstəyirsə, qoy gözləsin.

İrad edirəm:

– Axı, demədin ki, uzaqdayam.

– Bu barədə o düşünməliydi.

– Nə bilsin hardan zəng etmisən?

– Mən hər yerdən zəng edə bilərəm.

– Birdən soruşsa ki, niyə gecikdin, nə cavab verəcəksən?

– Narahat olma! Dostlarım məni yaxşı tanıyır.

Həyatda beləsinə az rast gələrsən. Adamda heç nəyə etiraz yoxdur. Hər bir vəziyyətlə dərhal razılaşandır.

İclasda Əli müəllimlə yanaşı otururuq.

Çıxışlar odlu olsa da, "çevir tatı, vur tatı"dır. Amma, deyəsən, hamıya qızışmaq lazımdır. Sanki hər natiq öz çıxışı ilə odu sönməyə qoymur. Lap qədim əcdadlarımız kimi odun keşiyini çəkirlər, ocağa odun atırlar. İndi odun-oduncaq zamanı olmadığı üçün başqa cür ifadələr də ağlıma gəlir. Məsələn, belə: Odun üstünə salyarka, ağ neft, benzin tökürlər. Neft ölkəsinin oğlu olduğum üçün belə düşünməyim tamamilə adi bir şeydir.

İclas gedə-gedə neft haqqında fikirləşirəm. İki yüz ilə yaxındır ki, dünyanı idarə edənlər Bakının adı çəkiləndə diksinirlər, o dəqiqə yadlarına neft düşür. Yaxud, burunlarına petrol iyi gələn kimi Azərbaycanı xatırlayırlar. XIX əsrin ikinci yarısından sonra yerindən duran Bakıya üz tutdu. Bu getdi, o gəldi, o getdi, bu gəldi. Bakının neftini daşıyıb apardılar. A kişilər, 1919-cu ildə Bakıda müstəqil hökumət ola-ola bolşevik Rusiyasının rəhbəri Vladimir İliç Lenin Moskvada "Serebroviski" soyadlı birisini "Azneft"in rəisi təyin elədi. Mircəfər Bağırov ötən əsrin otuzuncu illərində Buzovna qəbirstanlığı ərazisində neft quyusunun qazılmasına qarşı çıxan kənd ağsaqqallarına görün nə deyib? Stalindən əmr gəlsə ki, başımın içində neft var, kəlləmdə quyu qazılmalıdır, etiraz edə bilmərəm.

İclasın gedişi onu sübut edir ki, bir təşkilatın rayon şöbəsi yeni ideya doğura bilməz. Yerli şöbə mərkəzin dediklərini yerinə yetirməlidir.

Yığıncaqdan sonra iş otağıma çəkilirəm.

Nədənsə, Babayarı xatırlayıram. Əslində, onunla bağlı yaddaşım hələ istidir. Keçən həftə türmədə ona baş çəkmişdim. Gedişat türmədəkiləri də silkələyib. Babayarın məsələyə öz münasibəti var. Bu, həm də çox konkret yanaşmadır. Birbaşa deyir: "Bütün varlılar zor-xoş tasa düşməli, yığılan pullardan Qorbaçovun arvadı Raisaya ermənilərin aldığından (*Vaşinqtonda daşnaklar Sovet Mədəniyyət Fonduna hədiyyə etdikləri sənət əsərlərindən başqa Raisa Qorbaçovaya hər biri 80 kiçik brilyant və 20 göy yaqutla bəzədilmiş 102 qramlıq iki qızıl qolbaq, 141 qramlıq qızıl boyunbağı bağışlamışdılar. Bahalı bəxşiş Azərbaycanda və Ermənistanda söz-söhbətə səbəb olduğu üçün Raisa Maksimovna onları SSRİ Dövlət Ləl-cəvahirat*

*xəzinəsinə göndərəcəkdi. 1989-cu ildə "Nedelya" qəzeti bu barədə 4-cü sayında yazacaqdı*) beş-onqat artıq qiymətə, məsələn, ingilis kraliçasının tacındakı vaxtı ilə Nadir şahın Hindistandan qənimət gətirdiyi "Kuhi-nur" almazı (*Bu nələr bilirmiş?!*) kimi sanballı bir "padarka" (*hədiyyə*) düzəltmək lazımdır. Raisa Maksimovna bizim tərəfə keçsə, Qorbaçov tullanıb-düşməz".

Mixail Qorbaçov, dosent arvadı Raisa Maksimovnasız heç yerə getmir. Bütün görüşlərdə daim yanaşıdırlar. Qadın hətta Kremlə də ayaq açıb. İşçilərə ərinin adından tapşırıqlar verir.

Babayar məni fikirdən ayırır:

– Olan söhbətdir, bir gün Qorbaçov arvadına deyib: "Raya, hər yerdə mənimləsən, xahiş edirəm, heç olmasa Politbüroya (*Siyasi Büroya*) gəlmə!"

Raisa Maksimovna cavab verib: "Bir şərtlə gəlmərəm, onda söz ver ki, sən də mənsiz oraya getməyəcəksən!"

Öz-özümə deyirəm, gör Qorbaçov nə günə qalıb ki, evində olan söhbət Bakı türməsinə qədər gəlib çıxıb.

Babayarla öcəşməyə başlayıram.

– Bəs o hədiyyəni Raisa Maksimovnaya kim təqdim etsin?

Babayar:

– Lələşin! Dünyada hədiyyə, bəxşiş, rüşvət verməkdən ləzzətli nə var? Gülərüzlə qarşılanırsan, qabağına çay qoyurlar, işini düzəldirlər, gedəndə də üzündən öpüb hörmətlə yola salırlar.

Lax-lax gülürəm:

– Könlünə Moskva düşüb?

– Qardaş oğlu, xətrimə dəyirsən, yaxşı bilirsən ki, ağlım kəsəndən elimin-obamın bir çöpünə də göz dikməmişəm, Sovet hökumətindən oğurlamışam. Dadandığım yer yük qatarları olub. Çırpışdırdığım pullarla Moskvada, Leninqradda, Kiyevdə, daha haralarda keflər çəkmişəm. Bir vaxtlar erməni, gürcü padelniklərimin (*iş ortağı mənasında – türmə jarqonu*) vasitəsilə Mikoyanın (*Anastas İvanoviç Mikoyan (1895-1978) Stalinin, Xruşşovun, Brejnevin zamanlarında qırx ilə yaxın ali vəzifələr tutmuşdur*) – düzdür, o, Gəncədə doğulub boya-başa çatsa da, fıs çıxmışdı, bizə xor baxırdı.

Daldada qohumuna çımxırıbmış: “Bu uzundıraz türkü hardan götünə salıb gətirmisən?” – canım sənə desin, Georqadzenin (*Mixail Porfiroviç Georqadze (1912-1982) ömrünün son iyirmi ilində SSRİ Ali Sovetinin katibi olub, Yuri Andropov hakimiyyət başına gələndən sonra vəzifədən götürülmüş, ona cinayət işi açılmışdır, tualetində unitazı xalis qızıldan imiş, şəhərətrafı dəbdəbəli evində intihar etmişdir*) bağlarında badə qaldırmışam. Sənin kimi ağzıayrıq cavan olmamışam ey?! Yeriyəndə ayağım yerə dəymirdi, sünbülümdən su damırdı.

Qımışıram. Bu anda kənardan baxan olsa, bilər ki, yadıma nəsə düşüb.

Bir dəfə Babayar öz curu ilə gecə Saatlıya yaxın yerdə dayanmış qatarın vaqonlarından birinin plombunu açır. “Vaqonda hansı yük aparıldığını qapıya vurulmuş plombdan tanıyıram” deyərdi. Qatar hə-hü eləyib tərpənincə iki nəfərə, nə az-nə çox, altmış səkkiz balaca “Saratov” soyuducusunu dörd sıra üstbəüst yükləyirlər “ZiS”in belinə. Yolda çətin bir keçid varmış – Əli Bayramlı şəhərinin girişindəki Kürün körpüsünə çatmamış gecə-gündüz işıq saçan milis postu. Burda hər vaxt dimdik gəzən ütük, sürücüləri və maşınları marıtlayan milislərin hərəsi adama dörd görünür. Babayar hərif deyil. İllərdir milislərlə kəllə-kəlləyə gəlir. Onların cikini-bikini elə-belə yox, əla bilir. Ona görə də posta təxminən üç yüz metr qalmış maşını saxlayır, gözündə qorxu gördüyü yoldaşına deyir ki, sən maşından düş, piyada körpünü keç, cəhənnəm ol. Yanımda qalsan, milisləri görən kimi dilin topuq çalacaq, balalayacaqsan. Narahat olma, sənsiz də birtəhər çulumu sudan çıxardaram!

Babayarın dostu gecənin qaranlığına qarışır. Özü isə maşının kapotunu qaldırıb əllərini motorun qara-qurasına bulaşdırır, posta doğru addımlayır. Postdakı üç milisdən biri Babayara tanış çıxır.

Tanış soruşur:

– Babayar, maşının xarab olub?

– Hə, – Babayar mütrüflüyə başlayır – “12-14” açar lazımdır, deyəsən, karbürator zayıldayıb.

Milislər ona “12-14” açarı tapır, Babayar maşınının yanına qayıdır. Bir hovur girələnib havaya dalbadal iki siqaret fısqırdandan sonra üz-gözünə də qara çəkib yenidən milis postuna dönür. Özünü sevincək göstərib açarı yiyəsinə qaytarır və subaşında sabunla əl-üzünü yuyur, üst-başını qaydaya salır. Sonra cibindən üç şax qırmızı onluq çıxardıb guya “milislərin əli yüngül olduğunu” qeyd edərək pulu onlara paylayır. Pulu görən milislər yalmanırlar.

Babayar ağır yükün altında hıqqanan maşını ilə postdan keçəndə milislər əl eləyib səs-səsə verirlər.

– Babayar, yaxşı yol! Babayar, yaxşı yol!

Doğrudan da, oğru dostumun yolu yaxşı olur. Kürün körpüsünü arxada qoyub sonra gecəynən üz tutur Şamaxının kəndlərinə sarı. Ertəsi gün axşama qədər qəniməti kəndlərdə yarı qiymətinə satıb, yəni dəyər-dəyməzinə xırıd eləyib yüngülləşən Babayar birbaşa qəbirstanlığa gəlir. Oğru yoldaşının payını, öz cibxərcliyini ayırandan sonra pulun qalanını kip meşin torbaya doldurub dədəsinin baş daşının yanında yerə basdırır və deyir:

– Dədə, ilişsəm, pullardan muğayat ol!

İki həftədən sonra oğruları götürürlər.

Türmədən qayıdan Babayar qəbirstanlıqda goreşən kimi yeri cırmaqlayıb pulun büküldüyü meşin torbanı tapanda sevinir, həyatında ilk dəfə dədəsinə “rəhmət” oxuyur. Ancaq torbanı açanda peşmançılıq onu bürüyür. Pullar əlində ovxalanıb tökülür. Çöməlib əllərini dizlərinə çırpır. Sonra yanakı dədəsinin qəbrinə baxır:

– Ay dədə, heç vaxt səndən yarımadım. Zalım oğlu, özün qış yuxusuna getmişdin, bəs sovxa ruhun harda idi?

Yaxşı ki, Babayarın əhvalatını axıra kimi xatırlayıb qurtara bilirəm. Yoxsa, Əli müəllimin yanında düşüncəm qırılacaqdı.

Hə, Əli müəllim qapıdan girir. Xəbərlə gəlib. Dediyinə görə, yaxın günlərdə bir neçə qrup ziyalı hökumət tərəfindən Moskvaya göndəriləcək. Onlar paytaxtın müxtəlif dairələrində Azərbaycan həqiqətləri ilə bağlı çıxışlar edəcəklər, məsul şəxslərlə görüşüb Qarabağ və qaçqınlar məsələsi barədə danışacaqlar. O da nümayəndə heyətinin tərkibinə daxildir.

– Lap yaxşı, – deyirəm – gedin xəbər gətirin, görək oralarda nə deyirlər, nə danışırlar.

Əli müəllim vacib bir iş görəcəkmiş kimi qaşlarını düyünləyib otaqdan çıxır.

Hakimiyyət boşaldıqca özbaşınalıqların sayı çoxalır. Hərə bir tərəfdən yuxarıların işinə əl aparır. Elə mən özüm də bu saat dövləti necə idarə etmək barədə bir stadion adamı çənəmin altına salmağa hazıram.

Artıq o günlər gəlib ki, dinclik, rahatlıq yoxdur. Xəbərlərin sərməstliyindən havalı kimi gəzirsən. "Xalq cəbhəsi" meydan sulayır. Orda iclas, burda iclas, yığıncaq dalınca yığıncaq...

Maraqlanıb öyrənirəm ki, "Xalq cəbhəsi"nin fəalları, yəni başbilənləri tez-tez Yasamalda, sonralar AXC hakimiyyəti zamanında qısa müddət Naxçıvan Muxtar Respublikasının Baş naziri olacaq Becan müəllimgilin həyət evində yığışıb uzun-uzadı müzakirələr aparırlar. Əlbəttə, ürəyimdən keçir ki, mən də onların arasında olum. Ancaq düşünürəm ki, bu saat minlərlə mənimkimilər burunlarını o həyətə soxmaq istəyir. Yaxşısı budur, qoy kişilər öz işləri ilə məşğul olsunlar. Əl-ayağa dolaşmayaq. Sonralar Şimali Qafqazda dincəldiyim sanatoriyada Becan Fərzəliyev və onun xanımı ilə tanış olacağam. Türkiyədə məşkunlaşıb alimliyini, müəllimliyini davam etdirən, özünü Beycan kimi təqdim edən Fərzəliyev və əri ilə müqayisədə çox zirək görünən xanımı bir zaman cəbhəçilərin onların evində keçirdiyi məclislərdən maraqlı söhbət edirdilər. Onda hələ AXC təşkilat kimi dövlət qeydiyyatına alınmayıbmış.

Cəbhəçilər təhlükəsizlik orqanlarından yayınmaq, izi azdırmaq üçün tez-tez ünvanları dəyişib müxtəlif təəssübkeşlərin evində toplaşırlarmış. Bir dəfə qəribə əhvalat baş verir: Təxminən on beş Cəbhə fəalı sözləşirlər ki, axşam saat altıda Yasamal bazarının böyründəki teleradio emalatxanasının önündə görüşüb Becan müəllimgilə getsinlər. Görüş yerinə qırx dəqiqə gecikən Hikmət Hacızadə görür ki, yoldaşları dayanıb onu gözləməyiblər. O, ətrafa boylananda təzə ağ "Jiquli" də saçları hərbçi kimi qısa qırxılmış, gözlərilə sağı-solu nəzarətsiz qoymayan dörd cavan oğlanın oturduğunu görüb onların

təhlükəsizlik orqanlarının işçiləri olduğunu yəqin edir və cəsarətlə yaxınlaşıb soruşur:

– Xahiş edirəm deyin, güddüyünüz adamlar hansı həyətə girdilər?

Zaman dəyişmişdi, artıq gizli orqanların işçiləri də inadkar deyildilər, qulluq etdikləri rejimə inamları sarsılmışdı.

"Jiquli"dəkilərdən biri maşından düşüb qapısını marıtladıqları həyəti Hikmət Hacızadəyə göstərir.

Söz çıxıb ki, Mərkəzi Komitənin I katibi Vəzirov vaxtaşırı o evə gedib-gələnləri qəbul edir. Həm onlardan bəhrələnmək, həm də onları böyür-başına yığmaq istəyir. Xalq Cəbhəsinin rəhbərləri Vəzirovla bərabər tərəf kimi danışırlar. Hətta hərdən naz eləyirlər. Bir ara Əbülfəz bəy onunla görüşdən qaçırmış. Səbəb? Səbəb odur ki, Elçibəy Vəzirovdan hər həftə Şuşaya baş çəkmək üçün vertolyot istəyibmiş. Vəzirov da etiraz etməyib. Daxili işlər nazirinə tapşırıq veribmiş ki, bəyin sərəncamına xüsusi vertolyot ayrılsın. Nazir "Baş üstə!" deyib, ancaq sən demə, Respublikanın cəmi iki vertolyotu varmış, onlardan da biri xarab. İşlək vertolyotu Elçibəyə qıymayan Daxili işlər naziri narazılıq yaradıbmış. Elçibəyin adamı Vəzirovun yanında olanda guya Mərkəzi Komitənin I katibi onun tapşırığını yerinə yetirməyən Daxili işlər nazirini telefonda isladıb-qurudub, hətta ona "Sukin sın!" deyib və dəstəyi qoyandan sonra üzünü şahidə tutaraq əlavə edib:

– Heydər Əliyevin adamlarındandır, qoymur işləməyə.

Aşağılar yuxarıdakıların sözünə, hərəkətinə şübhə ilə yanaşdıqlarından həmin şahid eşitdiklərini olduğu kimi Elçibəyə çatdırıb öz fikrini bildirir:

– Bəlkə də, Vəzirov yalandan telefonun dəstəyini qulağına tutub mənə tamaşa göstərirdi.

Şahidin sonralar mənə danışdığına görə, Elçibəy də Vəzirovun səmimiyyətinə inanmayıb.

Xalq Cəbhəsi fəallarının işi başından aşırdı. Onlar yığıncaqlar, görüşlər, mitinqlər keçirir, rəsmi qəbullarda olur, Mərkəzi Komitə ilə əlaqə saxlayıb onun qarşısında tələblər qoyur, digər respublikalardakı "Rux" və başqa cəbhəçilərlə sıx münasibət qurur, Dağıs-

tandakı, Gürcüstandakı azərbaycanlılara baş çəkir, xaricdən gələn soydaşlarımızı dinləyir, mətbuata müsahibələr verir, jurnalist kimi yazılar yazırlar. Üzdə olan ziyalılar Xalq Cəbhəsinə böyük maraq və rəğbət göstərirlər. Bəxtiyar Vahabzadə, Ziya Bünyadov, İsmayıl Şıxlı, Yusif Səmədoğlu, Xudu Məmmədov kimi tanınmış ağsaqqal yazıçılar, elm adamları Xalq Cəbhəsinin tədbirlərinə qatılır, odlu çıxışlar edir, millətin ağır siyasi vəziyyətdən qurtuluşu üçün bacardıqlarını etməyə çalışırlar. Gərginliyə tab gətirməyənlər də var. Üzeyir bəy Hacıbəylinin ev muzeyinin yarımzirzəmi baxış salonunda AXC-nin keçirdiyi ilk konfransda həyəcanlanan millətsevər alim Xudu Məmmədov ürəyini tutub yerindəcə keçinərək böyründəki adamın üstünə aşmışdı. Dağlıq Qarabağla bağlı Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi Mixail Qorbaçova sərt məktub yazmış SSRİ Xalq artisti, nadir səs sahibi Rəşid Behbudov da Moskva xəstəxanalarının birində yüngül bir xəstəlikdən müalicə alarkən müəmmalı şəkildə qəfildən canını tapşırmışdı. Onun yuxarıların tapşırığı ilə həkimlər tərəfindən öldürülməsi şayiəsi Moskvadan Bakıya ötürülmüşdü.

Yavaş-yavaş üzərlərinə böyük məsuliyyət götürən Cəbhə fəallarının soydaşlarımızın sıx yaşadağı Gürcüstana səfəri, gürcü həmkarları ilə görüşü də maraqlı idi. Gürcüstanda da bizimkiləri sıxışdırırdılar. Həmin səfərdə iştirak edənlər gördüklərini orda-burda danışırdılar. Səfərin eyni epizodunu bir neçə variantda eşitmişdim. Onlardan Zərdüşt Əlizadə danışan variant belə idi: “Gürcüstan Xalq Cəbhəsinin Tiflisin Kino Evində yerləşən qərargahına getdik. Əsib-coşan gürcü cəbhəçiləri çıxış edib guya Borçalı azərbaycanlılarının Rusiya imperiyasına nökərçilik edərək Gürcüstan əleyhinə mübarizə apardıqlarından dəm vururdular. Növbəti sözə başlayan gələcək Prezident Zviad Qamsaxurdiya bizə üz tutub sual verdi:

– Bilirsinizmi Sainqilo nə deməkdir?

Biri-birimizə baxıb çiyinlərimizi çəkdik.

Zviad yekə-yekə dedi:

– Bu, Gürcüstan ərazisinin adıdır, Azərbaycana verilib. Sizlər onu Şəki-Zaqatala zonası adlandırırsınız.

Hikmət Hacızadə yerindən dilləndi:

– Sizin çağırışınızla od söndürməyə gəlmişik. Gəlin, ərazi iddialarını bir kənara qoyaq, demokratiyadan danışaq.

Zviad Qamsaxurdiya sakitləşmədi, daha da qızışdı:

– Köçəri türklər zəbt etdikləri Gürcüstan ərazisini tərk etməlidirlər!

Pənah Hüseynov özündən çıxdı:

– Türkləri Gürcüstana kim gətirib?

– Şah Abbas! – Zviad ötkəm cavab verdi.

O dedi, bu dedi, axırda Pənah mübahisəyə yekun vurdu:

– Əgər torpaqlarınızı geri qaytarmaq istəyirsinizsə, Şah Abbas zamanına dönün, qılınclarınızı qurşayıb atlarınızı yəhərləyin, davaya başlayın!

Sərt atmaca bomba kimi partladı. Gərgin vəziyyəti həmkarları arasında böyük hörmət sahibi olan Merab Kostava yumşaltdı, sülhməramlı danışığa keçildi."

SSRİ respublikalarındakı Xalq Cəbhələri müstəqillik, demokratiya uğrunda çarpışırdılarsa, Qafqazda xalq hərakatına qoşulanlar millətçilik boyunduruğunda çabalayır, əllərində silah cəbhələrdə vuruşurdular. Müstəqillik qazanılandan sonra hakimiyyət davaları başlayacaqdı.

Günlər qəlizləşdikcə, hadisələrin başvermə tezliyi sıxlaşdıqca, xəbərlər, dedi-qodular artdıqca fikrimi bir yerə yığmaqda çətinlik çəkirəm.

Kələfin ucunu hey itirib, yenidən tapıram.

Bütün kitabsız və səmavi kitablı dinlərdə fikricəm olmağı, konsentrasiyanı, sabitqədəmliliyi vacib biliblər, başıpozuqluğun fəlakət doğuracağına işarələr ediblər. Bəlkə Qiyamət gününə yaxınlaşırıq? Amma Qiyamət təkcə bir ölkədəmi baş verəcək? Axı, Qərbi Avropada, Amerikada, Avstraliyada, burdan-bura İranda, Türkiyədə qurd quzu ilə otlayır. Bəlkə vəziyyəti çox şişirdirəm? Bəlkə bəşəriyyətin məhşər ayağına çəkiləcəyi günə yüz min il qalıb? Ara bir balaca qarışan kimi bambılı-bambılı "Qiyamət günü"nü soxuşdururuq araya. Əfəl İsrafil tarixdə heç olmasa bircə dəfə mübarək

şeypurunu havaya füləməyib ki, o həngamədən az-küc qandığımız olsun.

On gündən sonra Əli müəllimin qoşulub getdiyi dəstə Moskvadan geri döndü. Direktorumuz üç gün əlləşib-vuruşduqdan sonra qəbuluna düşdükləri RSFSR Ali Sovetinin Komitə sədri Nikolay Ryabovla olan söhbətlərindən elə təmtəraqla danışırdı, baxan deyərdi ki, vəssəlam-şüdtamam, Qarabağ məsələsi bu gün-sabahlıqdır, həll olunacaq. Əli müəllimin dediyinə görə, bizim ziyalılarımız tarixi dəlil-sübutları ilə, məntiqli sualları ilə Komitə sədrini divara dirəyiblərmiş. Ryabov axırda bizimkilərin konfliktin həlli barədə təkliflərini Mixail Sergeyeviç Qorbaçova çatdıracağına söz verib. Əli müəllim, idarədə hər gün Moskva söhbətini salıb, Kremlin xüsusi tədbir görəcəyini gözləyirdi.

Hər deyilən sözə ciddi baxan, hamıya inanan ürəyi saf patronum tez-tez eyni lətifəni yadıma salırdı. Altmışıncı illərinin əvvəllərində kamança çalmaqda təzəcə məşhurlaşmış Habil Əliyev Moskva səfərindən qayıdıbmış. Musiqiçilərin mərəyə çevirdiyi Filarmoniya bağına gəlincə Əbülfət Əliyev, Əhsən Dadaşov, Arif Babayev, İldırım Həsənov, Boris Keropyan və başqa sənət dostları onu hay-küylə qarşılayırlar, yer-yerdən soruşurlar:

– Habil, hara getmişdin? Harda itib-batmışdın?

Habil, sadəlövh Boris Keropyanı dolamaq üçün o biri dostlarına göz basıb söhbətə başlayır:

– Başıma iş gəlib, söhbətim uzundur. Qulaq asın, danışıram.

Boris Keropyanın gözlərinin alacalandığını görən Habil Əliyev həvəsə gəlir:

– On gün bundan qabaq alış-verişdən ötrü getmişdim Moskvaya. Aradan üç-dörd gün keçmişdi ki, axşamüstü mehmanxanada telefonum zəng çaldı. Dəstəyi götürdüm. Zəng edən kim olsa yaxşıdır?

– Kim? – Habil Əliyevin baməzə olduğunu bilən dostları Boris Keropyanı inandırmaq üçün həyəcanı daha da artırmağa çalışırlar.

Habil Əliyev dillənir:

– Nikita Sergeyeviç Xruşşov!

Boris Keropyan tez təəccüblə soruşur:

– Ara, sənə niyə zanq etmişdi?

Borisin tora düşdüyünü görən Habil Əliyev aramla söhbəti davam etdirir:

– Hə, yoldaş Xruşşov dedi ki, Habil, səndən incimişəm. Neçə gündür Moskvadasan, məni arayıb axtarmırsan. Bu saat arxanca maşın göndərirəm, səni gətirirlər Kremlə...

Habil Əliyev nəfəs dərib siqaret yandırır, gözaltı hamının təlaşla Keropyana, Borisin isə ona baxdığını görüb daha da ciddi şəkil alır:

– Dedim, ay yoldaş Nikita Sergeyeviç, vallah, çaparaq gəlmişəm, tez qayıdıb gedəsiyəm, bir dəfə məxsusi sizinlə görüşə gələrəm.

Xruşşov daş atıb başını tutdu ki, yox, bu gün səni görməliyəm.

Elə telefonun dəstəyini təzəcə yerinə qoymuşdum ki, qapı döyüldü. Məni maşına basıb apardılar Kremlə. Xruşşov uşaq kimi qabağıma qaçıb boynumu qucaqladı, o üzümdən, bu üzümdən "marçamurç" öpüb yanında oturtdu.

Sonra yemək-içmək başladı. Süfrədə nə yox idi? Quş iliyi, can dərmanı! O ki var sağlıqlar dedik. Dostluqdan söhbət düşəndə sizin də adınızı çəkdim. Dedim "Boris Keropyan" adında bir erməni sənət dostum var, kamançaçalandır, onun da şərəfinə badə qaldıraq. Xruşşov etiraz etmədi.

Boris Keropyan "Sağ ol, Habil!" deyib utandığından qıp-qırmızı qızarır.

Habil Əliyev bir az da cuşa gəlir:

– Hə, axırda Xruşşov rütbəmi artırırmış kimi sağ əlini paqon edib çiynimə qoydu və amiranə şəkildə dedi:

– Habil, səni Bakıya qayıtmağa qoymuram. Kremldə kamançaçı ştatı açıram, qalıb yanımda işləyirsən.

Dostlar Borisə baxıb qımışa-qımışa dəm tuturlar:

– Habil, razı oldun?

– Habil, gərək fürsəti əldən verməyəydin!

Birdən Boris Keropyan hövllənir:

– Ara, Nikita Sergeyeviç səni dolayırmış, heç Kremldə də kamançaçı ştatı olar? "

Əli müəllimin Moskva sərgüzəşti ilə Habil Əliyevin Boris Keropyanı dolaması fikrimdə iki paralel xətt kimi yanaşı uzanıb gedirdi. Eyni vaxtda iki əhvalata gülməyim tuturdu.

Cəmiyyətə faş olmuşdu ki, "Azərnəşr"in baş redaktoru Cəmil müəllim (*Az sonra Vəzirov onu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin orqanı olan "Kommunist" qəzetinə baş redaktor təyin edəcəkdi* ) Əbdürrəhman Vəzirovun uşaqlıq, gənclik dostudur. Kişi Respublikanın başına keçən kimi onu bir-iki dəfə məclisində oturdub, hörmətə, izzətə mindirmişdi. Vəzifədən qovulub yenidən "postuna" qayıtmaq üçün dəridən-qabıqdan çıxanlar, mənsəb gözləməkdən gözünün kökü saralanlar, dədəsi-babası hökumət çörəyi yediyindən ailədə karyerist kimi böyüdülmüş cavanlar, onların qohumdan, dostdan, tanışdan olan araçıları baş redaktorun qapısının kandarını yağır eləmişdilər.

Bir dəfə həmin idarədə işləyən baməzə tanışım Telman telefonda dedi:

– Sabah səni tamaşaya dəvət edirəm! Axşamüstü saat beşdə mütləq idarəmizin qabağında ol!

Nə qədər zarafatcıl olsa da, heyvərə, şit adam deyildi. Deyilən vaxtda görüş yerinə gəldim. Qoluma girib məni nəşriyyatın ikinci mərtəbəsinə qaldırdı. Uzun dəhlizdə xeyli adam növbəyə dayanmışdı. Heç birinin səsi çıxmırdı. Əksəriyyəti də fikirli və qayğılı görünürdü.

Telman qulağıma pıçıldadı:

– Lotular hamısı bir-bir Cəmil müəllimin qəbuluna dürtüləcəklər. Baş redaktorumuz bunlar kimisindən beş-altısını Vəzirovdan xahiş edib, qaldırıb. – Telman bic-bic gülüb əlavə etdi – istəyirsən sən də növbəyə dur! Bəlkə bir şey çıxdı.

– Məni ələ salırsan? – Ona hücuma keçdim.

– Yox, – sakitcə cavab verdi – dedim, bəlkə təklif eləməsəm inciyərsən.

Qədim Romada köklü şəhər sakinlərinin gəlmə qabağında döşlərinə döyüb işlətdikləri bir deyim varmış: "Mən Romalıyam!" Bu qürur, fəxr doğurmaqla bərabər xüsusi status, üstünlük, zənginlik,

mədənilik və ən axırda romalı olmayanlara yuxarıdan-aşağı baxmaq deməkmiş.

Paytaxtımızda da özlərinə "Я бакинец!" ("*Mən bakılıyam*!") deyib dərisinə sığmayan ruslar, rusdilli yəhudi, erməni, azərbaycanlı zümrə vardı. Onlar bəzən inciyəndə, bir-birlərinə yovuşa bilməyəndə rayon adamlarına "çuşka" *( rusca çoşka sözündəndir, "donuz balası" deməkdir)* deyən köklü-köməcli bakılıları da yerli-dibli bəyənmirdilər.

"Bakinets!" toplumundan olanlar son zamanlar bərk dilxor idilər. Bakıları əllərindən çıxırdı. Onların şəhəri Ermənistandan gəlmiş qaçqın "Yeraz"larla ("*Yeraz" sözü Yerevan Avtomobil zavodunun buraxdığı "Yeraz" mini-avtobusunun adından götürülmüşdü. İlk dəfə bu kəlməni akademik Ziya Bunyadov qəzetdə getmiş bir müsahibəsində işlətmişdi*) dolurdu və yerlərini dar eləyirdi. "Yeraz"ları çox həqarətlə süzürdülər. Qaçqınlar bu sözdən çox pəjmürdə olurdular. Amma sarsaq ayama onsuz da torpaqlarından qovulmaqla təhqir olunmuş qaçqınları "Ya bakinets" deyən azlığa qarşı birləşdirirdi (*Sonralar hakimiyyətə yaxın mövqe tutan ermənistanlı azərbaycanlılar xeyli müddət biri-birinə ərklə "Ə, Yeraz!" deməyə başladılar. Hətta, bəziləri başqalarına bu sözlə xox da gəlirdilər. Ancaq əcaib müraciət formasının ömrü uzun sürmədi*).

Bizim Baş idarənin baş mühasibi Anna Makarovna da həmin "Bakinets"lərdən idi. Qışda ayda bir dəfə, yay mövsümündə hər həftə Yaradıcılıq Evinə baş çəkirdi. Əli müəllimə və mənə yovuşmurdu. Saç düzümü, görünüşü XIX əsr rus zadəgan xanımlarını yada salırdı və hər dəfə təşrif buyuranda bir anlıq mənə elə gəlirdi ki, nərmənazik xanımı I Nikolay şəxsən Peterburqdan bizi yoxlamağa göndərib. Forsu, ədası adamı əzirdi, elə bilirdim, mənə ən azı min metr yuxarıdan baxır. Mühasibimiz Klara mənim barəmdə onun qulağını nə təhər doldurmuşdusa, qadın qarşımda nəzakət xətrinə üzünə təbəssüm gətirməkdən ötrü çox əziyyət çəkirdi.

Zəmanənin dəyişməsi, insanların başqalaşması Anna Makarovnaya tutduğu vəzifənin elə də böyük mövqe olmadığını dayanmadan diktə edirdi. O isə bununla nəinki barışmaq, heç danışığa da gəlmək istəmirdi.

Təcrübəm olmadığı üçün bilmirdim ki, dövlətin iaşə müəssisələrində məsələn, yüz nəfər üçün nəzərdə tutulmuş ərzaq norması ilə daha artıq adamı yedirtmək olar. Müştərilərin sayı çoxaldıqca, aradakı fərq də dəyişirdi. Əli müəllimin səhlənkarlığı mühasibin əlini-qolunu açmışdı. Səhər, günorta, axşam yüz əlli adamın yeməyi ilə iki yüz adamı yedizdirib qalan ərzağı anbardar və baş aşbazla əlbir olub mənimsəyirdi. Yediklərini yeyirdilər, satdıqlarını satırdılar. Neçə illər belə davam eləmişdi. İndiki qarışıq vəziyyət onları da dikbaş eləmişdi. Saman altından su yeridirdilər. Əli müəllimi aşırtsaydılar, quyruğunda mən də əlli-ayaqlı gedəcəkdim. Amma direktorumuzun son vaxtlar Xalq Cəhbəsinin rayondakı fəalları ilə oturub-durmağı onların işlərini korlayırdı. Ona rəhbərliyin dişi batmırdı. Mən də olmuşdum şərq ədəbiyyatında daim hamının üzünə açıq süfrəsi ilə məşhur olan səxavət simvolu Hatəmi-Tai. Bir dəfə mühasibin oğurluğunu tutmuşdum. Anbardan aparılan mal budunu, bir qutu yağı, xeyli qəndi, çayı, kartofu yarı yoldan geri qaytartmışdım. Hər dəfə gündəlik ərzaq normasını qazana tökdürüb bişirtdirir, süfrəyə düzdürür, müştərilərimiz yeyib durunca idarənin bütün xidmət heyətini, fəhlələri, qarovulçuları qonaq edirdim.

Günlərin bir günü Fondun sədri məni qəbuluna çağırtdırdı, gözlədiyimdən artıq mehribanlıqla qarşılayıb dedi:

– Deyirlər ki, oranı sən idarə edirsən. – Sədrin səsində yüngül istehza hiss elədim – Əlinin başı başqa-başqa işlərə qarışıb.

– Şişirdirlər. Hər kəs öz işilə məşğuldur. – cavab verdim.

– Yadında saxla, bala, – nəsihətə keçdi – cəmiyyətdə mənafedən asılı olaraq hər şeyi təhrif edirlər. Ya yaxşılığa, ya da pisliyə doğru. Obyektiv qiymətə çətin rast gəlirsən. Rəqibin çoxaldısa, qarışqa boyda naqis işini böyüdüb filə döndərəcəklər. Dostun, tərəfdaşın varsa, mərd hərəkətlərini birə-yüz şişirdəcəklər. Rəğbət, sevgi havayı qazanılmır. Çalış rəqibin az olsun. Həndəvərindəkiləri biçib tökmə! Onları da nəzərə al.

Sədrin dediklərindən alındım. Anna Makarovnanın sədrə haqqımda geniş məlumat verdiyi gün kimi məlum idi. Amma görünür, məni başdan-ayağa yamanlamamışdı.

Sədr fikrə getdiyimi görüb sözünə davam etdi:

– Qoçaq oğlana oxşayırsan. Bəlkə səni ora direktor qoyaq?

Dərhal anladım ki, sədr məni yoxlamaq üçün dişinə vurmur. Sadəcə, indiki zamanda birbaşa iş görmək istəmir. Nəyinə lazımdır günü-gündən qüdrəti artmaqda olan Xalq Cəbhəsinin adamları ilə oturub-duran Əli müəllimi işdən çıxardıb özünə düşmən eləsin? Hər şey mənim vəzifəyə şirnikməyimdən asılı idi. Saqqızımı oğurladıb sədrin tərəfinə keçsəydim, direktor təklənəcəkdi. Ancaq mən nəinki direktor olmaq istəyirdim, heç indiki vəzifəmdə də işləmək fikrində deyildim. Bir ayağımı qaçaraq qoymuşdum. Günü sabah yönlü bir iş təklif edən olsaydı, rədd olub gedəcəkdim.

– Direktorluğu bacarmaram, Adil müəllim! Hələ tezdir.

Adil müəllim dinmədi.

Həm təklifdən boyun qaçırtmışdım, həm də sədr üçün əl yeri qoymuşdum. Yəni, şahmatda olduğu kimi sədri heç-heçəyə razı salmaqda idim.

Sədr son sözünü dedi:

– Yaxşı, get işinlə məşğul ol! Dediklərimi yaddan çıxartmayın!

Onun ikinci cümləsi həm mənə, həm də direktoruma aid idi.

Qızışmamışdım, adama çox təklif edərlər. Əsas olan odur ki, aldanmayasan, küyə getməyəsən.

Sədrlə aramda olan söhbəti gizlətməyib Əli müəllimə deyəndə partladı, artıq-əskik danışdı. Amma tez də sakitləşdi, əyri-əyri mənə baxıb soruşdu:

– Bəlkə, direktor olmaq keçir ürəyindən?

Zarafatla dedim:

– Hərifəm, sənin kimi direktoru qoyub özüm başa keçəm? Həm işləyəm, həm söyüləm?

Bu hadisədən sonra Əli müəllim Baş İdarəni saymamağa başladı.

Yuxarıdakılar aşağılarda dərisinə sığmayıb baş qaldıranları, şuluqluq salıb onların işini qurdalayanları sakitləşdirmək, ələ almaq, öz tərəfdarına çevirmək üçün vəzifə paylayırdılar. Elə bil, ölkə ucuz mallar mağazası idi. Həyasız, gözdən tük qapan, kəmfürsət adamların meydanı genişlənmişdi. Münasibət pərdələri səhnə pərdələri kimi

yuxarı qaldırılırdı. Hamı açıq-aydın görünməkdə idi. Hətta, bizim idarənin anbardarı Yaqub da bir dəfə mənə qarşı üsyan etməkdən çəkinmədi. Bic adam idi, qulluqda durmağı, dəllallığı, araçılığı yaxşı bacarırdı. Xeyrin, qazancın hardan gələcəyini havanı iyləməklə duyurdu. İdarəçilik üsulum onu sıxırdı. İmkan versəydim, ixtiyarında olan hər şeyi bazara çıxardardı. Şirnikdirici təkliflərinə mən "Yox" dedikcə, itə dönürdü.

Bir dəfə qəzəbini cilovlaya bilmədi:

– Alə, aləm dağılır e... Bu qədər ötür-ötürdən, apar-apardan bizə bir şey çatmayacaq? Skladdakı (*anbardakı)* təzə malların qiyməti ölür. Vaxtında əl-ayaq eləməliyik. Atam-qərdeşim, usta-usta danışmağı bacaran adamsan, get Vəzirovdan bir vəzifə al, uzaqlaş də, biz də balalarımıza bir tikə çörək qazanaq! Başımızın üstündə dayanıb səhərdən-axşama qədər prava kaçat (*boş-boş qayda-qanundan danışmaq mənasını verir*) eləyirsən.

Yaqub üsyanını bir neçə işçinin yanında yapdı. Sanki təklikdə gücü, cəsarəti çatmazdı. Həm də, yəqin ki, ona zəhər verən Klaranı, Anna Makarovnanı inandırmaq üçün şahidlər lazım idi.

Daxili nizam-intizamım ölkədəki qarmaqarışıqlıqlara heç cür uyğun gəlmirdi. İndiki halda bir yerə başımı soxub rahatlıq tapmaq fikrində deyildim. İş, küçə, vağzal, qatar, avtobus, qonaqlıq, iclas, görüş, fərqi yoxdur, harda olursa-olsun, hadisələrin idarə olunmasında iştirak etmək istəyirdim. Fikrim gah Kremlə qarışırdı, gah Stepanakertə, gah Yerevana... Bakı da öz yerində, Bakı beynimin paytaxtı idi.

Fövqəladə vəziyyətin ixtiyarı Daxili İşlər Nazirliyimizə həvalə ediləndən sonra komendant saatlarının adı qalmışdı. Moskva Qarabağda Xüsusi İdarəetmə Komitəsi yaradıb Arkadi Volskini ora rəhbər oturtduqdan sonra Bakı günü-gündən daha sürətlə siyasiləşirdi. Hər səhər siyasət günəşi doğur, siyasət günü başlayırdı. Gündüz görüşlər, mitinqlər, vurnuxmalar, qəzetlərdə təzə xəbər axtarışı, gecələr vur-tut iki kanalı olan televiziyada Bakının "Günün ekranı", Moskvanın "Vremya" xəbərlər proqramlarına baxmaq hamının vərdişinə çevrilmişdi. Həftə səkkiz, mən doqquz "Vremya"nın iki dəqiqəlik

ermənilərlə münasibətimizi qızışdıran sujeti bütün Bakını, Azərbaycanı özündən çıxardırdı.

Azərbaycanlılar tam qovulduqdan sonra Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı hadisələr yalnız Azərbaycanda baş verirdi. Qarabağı iki qonşu respublikanın dava meydanı eləmişdilər.

AXC rəsmi qeydiyyata alındığı üçün hökumət orqanları onun işinə mane olmurdu, respublika boyu qızğın təşkilatlanma gedirdi. Bakıda, şəhər və rayonlarda qurulan təşkilatlardan savayı, xırda, orta, iri müəssisələrdə də özəklər yaradılırdı. Yerli təşkilatlarda sədr olmaq uğrunda dava gedirdi.

Azərbaycan Xalq Cəbhəsi, deyilənlərə görə, SSRİ məkanında ən güclü siyasi təşkilata çevrilmişdi. Onun keçirtdiyi mitinqlərdə adam əlindən tərpənmək olmurdu. Qurumun bütün çağırışlarına xalq dərhal cavab verirdi.

AXC-nin İdarə Heyətinin üzvləri qərargahlarına hər gün iş yerinə gəlirmiş kimi gəlirdilər. Əsas iclaslar Elmlər Akademiyasının dairəvi salonunda keçirilirdi.

Artıq Əbülfəz Elçibəyi təkcə "bəy" yox, o biri bəylərdən seçilmək üçün "böyük bəy" adlandırırdılar.

İdarə Heyətinin üzvləri məşhur idi. Azərbaycan hökumətinin rəhbərliyi onlar qədər tanınmırdı, adlarını uşaqlıqda "Neftçi" futbol komandasının oyunçularının adlarını əzbər bildiyim kimi bilirdim: Əbülfəz Elçibəy sədr, İsa Qənbərov, Etibar Məmmədov, Rəhim Qazıyev, Nəcəf Nəcəfov, Nemət Pənahlı, Yusif Səmədoğlu, Hikmət Hacızadə, Pənah Hüseynov, Canbaxış Umudov, Zərdüşt Əlizadə, Leyla Yunusova, Tofiq Qasımov, Sabit Bağırov, Əlikram Hümmətov, Sülhəddin Əkbər üzvlər idilər.

Mitinqlərdən, mətbuatda yazılanlardan, ara söhbətlərindən bilirdim ki, İdarə Heyətinin üzvləri arasında fikir ayrılığı var. Zərdüşt Əlizadə ilə Leyla Yunusova Qorbaçovun yenidənqurmasına kömək edilməsi, demokratik dəyərlərə üstünlük verilməsi, konstitusyon yolla dəyişikliklər aparılması, qabaqcıl ölkələrin siyasi təcrübəsindən istifadə olunması, iqtisadiyyatın dirçəldilməsi mövqeyini üstün sayırdılar. Sanki onlar gecə-gündüz iğtişaşları yatırmaq hayında

olan hökumətin təlaşını duymur, Bakının, Gəncənin, Sumqayıtın və başqa şəhərlərin küçələrinə tökülən qaçqınları, pəncəsi üstə qalxıb tezliklə xaosa son qoyulmasını tələb edən xalqı görmür, Qarabağdakı həyəcandan xəbərləri yox idi. Bir dəfə Cəbhə üzvlərini öz yanına məşvərətə çağıran Mərkəzi Komitənin II katibi Viktor Polyaniçko görüşdə sivil siyasi münasibətdən danışan Zərdüşt Əlizadəyə deyir: "Зардушт, вы говорите правильно, но не своевременно." (*Zərdüşt, sizin dedikləriniz düzdür, ancaq yerinə düşmür*).

Zərdüşt Əlizadə və Leyla Yunusovanın liberal mövqeyinə, hökumətlə kompromisə, ermənilərlə barışığa getmək çağırışına, tənqidi çıxışlarına dözməyən cəbhəçilər onları "satqın", "qanıqarışıq" adlandırırdılar.

Radikal qanadın üzvləri hesab edilən Etibar Məmmədov, Rəhim Qazıyev, Nemət Pənahlı hakimiyyətin dəyişdirilməsi üçün təbliğatın genişləndirilməsinin, mitinqlərin, tətillərin davam etdirilməsinin, Qarabağa silahlı yardım göstərilməsinin üstündə durmuşdular. İsa Qəmbərov və ona yaxın olanlar təmkinlə hadisələrin gedişinə göz qoyub irəli atılmağa çalışırdılar.

Sədr Əlülfəz Elçibəy isə hamını haqlı hesab edirdi.

Yaxın gələcəkdə AXC-nin tərkibi dönə-dönə dəyişəcək, ordan ayrılanlar "Sosial Demokrat", "Milli İstiqlal", "Müsavat", "Bozqurd", daha sonra başqa partiyalar yaradacaqdı.

Mitinqlər Üzeyir bəyin "Koroğlu" operasının "Üvertura"sı ilə başlayırdı. Bu musiqi onsuz da dərisinə, qabığına sığmayan adamların coşqusunu daha da artırırdı.

Səksən doqquzuncu ilin iyununda "Spartak" stadionunda başlayan, daha sonra "Azadlıq" meydanında davam etdirilən mitinqləri hərəkatda fəal olsa da, cəbhəçilərə yeni qoşulmuş jurnalist Sirus Təbrizli aparırdı. Etibar Məmmədov mitinqlərin əsas natiqinə çevrilmişdi. Aylarla vaxtaşırı davam edəcək mitinqlərin kəskin tələblərini – şəhərdə komendant saatının götürülməsi, Dağlıq Qarabağda Xüsusi İdarəetmə Komitəsinin buraxılması (*Stepanakertdə altı aydır ki, tətillər davam edirdi*), Ermənistana neft, qaz verilməməsi, hərbi çağırışçıların Azərbaycanda xidmət etməsi, Moskva ətrafındakı

otuzdan artıq müəssisəyə zavod və fabriklərimizdən mal göndərilməməsi üçün lokal tətillərin keçirilməsi, asayişə nəzarətin AXC-yə həvalə olunması və sair – o səsləndirəcəkdi.

Mitinqdə "AXC coşqunluq dövründən kamillik dövrünə adlayıb!" deyən Əbülfəz Elçibəyə hərəkatdan kənara çəkilən Ziya Bünyadov qəzetdəki müsahibəsində "AXC-yə diletantlar, başıpozuqlar rəhbərlik edir!" cavabını verirdi.

Sentyabrda keçirilən mitinqdə ermənipərəst Arkadi Volskinin rəhbərlik etdiyi Qarabağ Xüsusi İdarəetmə Komitəsinin ləğv edilməsi üçün üç günlük tətil çağırışı oldu.

İşə getməsək də, boş deyildik. Mitinqlərə ayaq döymək, dörd tərəfdən tay-tay gələn, bir-birinin üstə qalaqlanmış xəbərləri saf-çürük etmək, ora-bura baş vurmaq, hərdən çayxanada tanışlarla sallanıb oturmaq, atamla tez-tez telefonda danışmaq, gecələr acgözcəsinə oxumaqda davam etmək – bunlar da işdi, həftədə yeddi günlük iş. Mənim və minlərlə insanın hadisələrdə fəallığının bir səbəbi də tez-tez özümüzü Elçibəyin və başqa liderlərin yerində hiss eləməyimiz idi. AXC-nin güclənməsi, Mərkəzi Komitənin onunla hesablaşması, hətta ondan kömək umması ətəyindən yapışmağa təşkilat tapmış xalqı ürəkləndirirdi.

Bir mitinqdə Etibar Məmmədov tribunadan səsləndirdi ki, iki gün əvvəl AXC İdarə Heyətinin bir neçə üzvünü Mərkəzi Komitəyə çağırıblarmış. Səfərdə olduğum üçün görüşdə iştirak etməmişəm. Mərkəzi Komitə katibi Telman Orucov onlara deyib: "Vəzirov Moskvadan zəng vurmuşdu, dedi ki, Qorbaçovla Qarabağ məsələsi barədə heç bir razılığa gələ bilmədim, bizə kömək etməyəcək".

Natiqin bu sözlərini eşidən və ürəkdən inanan insanların Xalq Cəbhəsinə bağlandığı tellərin sayı çoxalırdı.

Elə həmin gecə televiziyada Vəzirovun hansısa zavodun bir qrup kollektivi ilə görüşünü göstərirdilər. Vəzirov xalqı muştuluqlayırdı: "Bu yaxınlarda Xalq Cəbhəsi ilə Azərbaycan Kommunist Partiyası, bax belə – əllərini biri-birinə sıxıb yekə yumruğa döndərir – birləşib Qarabağı azad edəcək".

Dekabrın 1-də Ermənistan SSR Ali Soveti “Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında” sənəd imzalayınca Azərbaycanda vəziyyət daha da gərginləşəcək və beş gün sonra bizim Ali Sovet “Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə Təşkilat Komitəsinin yaradılması haqqında ” qərar qəbul edəcək.

Vəzirov yeni dövrün tələbinə uyğun olaraq rayon Partiya Komitələrinin I katibi vəzifələrinə həmin rayonlarda doğulub yetişmiş, indi Mərkəzi Komitədə, Ali Sovetdə, Nazirlər Sovetində, nazirliklərdə, komitələrdə və digər dövlət təşkilatlarında orta vəzifə tutan adamları göndərirdi. Vaxtı ilə “balaca padşah” vəzifəsi adlandırılan bu post çoxlarını tamahlandırırdı. Amma başqa bir əmma ortaya çıxmışdı. Raykom katibləri başqa bölgədə doğulmuşlardan olanda heç dava da yox idi. İndi öz rayonunda rəhbər olmağa can atanlar yerlilərini səfərbər edərək altdan-altdan qovğa çıxardırdılar.

Cəlilabadda yerli AXC-nin sədri Miralim Bəhramov, onun qızmış dəstəsi qorxu-hürkü bilmədən Mərkəzi Komitə ilə açıq-açığına üz-üzə durmuşdu. Bir raykom katibini qovmuşdular, yerinə təyin edilmiş gəlmə partiya funksioneri özünü naxoşluğa vurub xəstəxanaya yıxmışdı, aranın sakitləşməsini gözləyirdi. Hər gün Cəlilabad rayon Partiya Komitəsinin qabağında mitinq keçirən Miralim və miralimçilər tələb qoymuşdular ki, “Rayonun I katibi” yerli olmalıdır.

Vəzirov yenə geri çəkilir, güzəştə gedir, bir müddət əvvəl təyin etdiyi adamı işdən uzaqlaşdırıb, Mərkəzi Komitədə həmişə ədəbiyyat və incəsənət idarələrinin ideoloji sahədə kuratoru olmuş, təbiətcə həlim, mədəni insan, Cəlilabadın Prişib qəsəbəsində doğulmuş Xeyrulla Əliyevi onun narazılığına baxmayaraq, partiya tapşırığı ilə Miralim Bəhramovun qarşısına çıxardır.

Vəzirov Xeyrulla Əliyevi rayon ictimaiyyətinə təqdim etməyə, köhnə vaxtlarda olduğu kimi, Mərkəzi Komitədən kimisə göndərməyə çəkinir. Yeni I katib yerliləri ilə özü dil tapmalıdır. Xeyrulla müəllim ehtiyat tədbiri görür. Tanınmış söz ustası, son illərdə hərəkata rəğbəti ilə daha da böyük nüfuz qazanmış Bəxtiyar Vahabzadəni və məşhur şair Səməd Vurğunun böyük oğlu, yazıçı, AXC-nin İdarə

Heyətinin üzvü Yusif Səmədoğlunu ağsaqqal kimi götürüb rayona yola düşür. Onlar rayona çatıb görürlər ki, yenə raykomun binasının qabağında mitinqdir. Mikrofonu dayanmadan füləyən Miralim şirə dönüb.

Qabağa düşmüş Bəxtiyar Vahabzadə və Yusif Səmədoğlu heç kəsin tanımadığı yeni I katiblə tribunada görünürlər.

Bəxtiyar Vahabzadə narazı kütləni razı salacaq cümlələrlə sözə başlayır: "Yaxşı eləyirsiniz ki, Cəlilabada yerli adamın Rayon Partiya Komitəsinin I katibi vəzifəsinə göndərilməsini tələb edirsiniz. Mərkəzi Komitə istəyinizi nəzərə alıb".

Səbirsiz kütlə hesab edir ki, şair yaxşı başladı. Alqışlar qopur. Dünənə qədər rayon xəstəxanasının təcili yardım şöbəsinin həkimi işləyən Miralim Bəhramovun çoxsaylı tərəfdarlarının üzünə işıq düşür, elə düşünürlər ki, onlar dediklərini elədilər, indicə Bəxtiyar Vahabzadə AXC sədrinin rayona rəhbər təyin edilməsi haqqında sərəncamı oxuyacaq.

Sükut... Xalq şairi sərəncamı oxuyur. Sərəncamda adı çəkilən başqa adamdır. Meydanda uğultu başlayır. Miralim sırasında olduğu AXC-nin İdarə Heyətinin üzvü Yusif Səmədoğluya məhəl qoymadan şairi tribunadan kənara itələyib səsgücləndiriciyə qışqırır: "Bunlar hər ikisi satqındır, Mərkəzi Komitəyə, Vəzirova işləyirlər. Bəxtiyar Vahabzadənin, Yusif Səmədoğlunun, onun atası stalinpərəst Səməd Vurğunun kitabları yandırılsın!"

Kütlədən yetmiş-səksən adam ayrılıb kitab dalınca yüyürüşür.

Tribunada əsir qalan qonaqlar Miralimin ittihamlarını dinlədiyi on beş dəqiqə ərzində meydana gətirilən ilk kitablardan tonqal çatılır. Kitabların dalı gəlir, ancaq üsyançıların hirsi soyumur, "satqın"-lara hücüm edirlər. Ağlı başında olanlar iki mötəbər yazıçını maşına dürtüb aradan çıxartsalar da, hələ vəzifə kreslosunda oturmamış Xeyrulla Əliyev ələ keçir. Onu möhkəm döyüb kitablar yanan tonqala atmaq istəyəndə rayonun mötəbər seyidi Mirhüseyn Ağa sinəsini qabağa verir. O, müsəlmanın yandırılmasının günah olduğunu təkrar-təkrar qışqırınca peyğəmbər övladının ağır nəfəsindən çəkinən adamların əli soyuyur.

Başı-gözü əzilmiş, qanamış Xeyrulla Əliyev cibində sərəncam Miralim Bəhrəmovun neçə illər xəstə üstünə getdiyi Təcili tibbi yardım maşınında Bakıya göndərilir.

Yerli AXC sədri növbəti I katibi rayon ərazisindən qovandan sonra öz sözü ilə desək, "Xalq hökuməti"nin başçısı kimi qərargahına gəlir. Sağdış-soldışı onu kabinetinə ötürür. Qərargahın qabağında yığışan haylı-küylü cəbhəçilər sədrlərinin yeni tapşırıqlarını gözləyirlər. Birdən Miralimin şilləvuranlarından biri çölə çıxıb elan edir: "Sakit olun, bəy telefondadır, Marqaret Tetçerlə danışır!"

AXC üzvləri sədrlərinin belə telefon möcüzələrinə alışmışdılar, əvvəlki günlərdə Reyqanla, Qorbaçovla, Vəzirovla da "danışmışdı".

Əlbəttə, Miralimin kələklərini anlayanlar az deyildi, ancaq döyülmək, hətta öldürülmək qorxusundan dillərini dinc qoymuşdular.

Sonralar onunla tanış olacaqdım. Mikrofonu əlindən alınmış, dəstəsi dağılmış, gözdən düşmüş, cəzalandırılmış "Çe Gevara"nın necə miskin görkəmi vardı.

Deyirlər, yüksək mövqe adamı yolundan azdırır. Məncə, bu bütöv tərif deyil. Vəzifə, səlahiyyət insanı dəyişdirmir, içindəkiləri üzə çıxardır.

1990-cı ilin ilk günləri çox sakit başlamışdı. Qar yağırdı. Sanki dünənə qədər olan gərginliklər, irili-xırdalı hadisələr getdikcə qalınlaşan qarın altında qalmışdı. Gecədən düşən qırov yeri sürüşkən etmişdi. "Dostluq" kinoteatrının yanından Lenin prospekti ilə dəmiryolu vağzalına tərəf enirdim. Küçəboyu qartopu oynayırdılar. Uşaqlar, yeniyetmələr, cavan oğlanlar küçədən ayaqlarını yerə ehtiyatla, qorxa-qorxa basan ikibir-üçbir qol-qola gedən qızları qar atəşinə tuturdular.

Qızlar bir tərəfdən atılan qartopulardan xoşlanırdılar, o biri tərəfdən isə diqqətləri qartopularda, addımladıqları sürüşkən səkidə qalmışdı.

Yeridikcə tarazlığımı saxlamaqdan ötrü çevrəmə baxırdım. Yeddi-səkkiz addım arxada bir qız gəlirdi. Uzunboğaz çəkmələrinin dabanı hündür və nazik olduğu üçün qız bütün diqqətini yola yönəltmişdi. Tuşumdakı üç-dörd yeniyetmə oğlanın qıza hücuma keçmək barədə biri-birinə him-cim elədiklərini görüb dayandım, qız bərabərimə çatanda dedim:

– İcazə verin, qolunuza girim!

Bilirdim ki, bu, Bakı danışığı deyil. Bakıda belə təklifə görə heç bir qızdan xoş cavab almazsan. Amma xilaskara etiraz edilmir. Sürüşüb ləngər vurmaqdansa, qartopu hücumundan qorunmağa çalışmaqdansa, kiminsə qoluna girməsinə razı olmalısan.

Qız səsini çıxartmadı, üzümə də baxmadı. Onu qartopu atəşinə tutmaq istəyənlər üzlərini döndərib başqa hədəf axtarmağa başladılar. Bakıda belədir, oğlan yanında qıza nəinki söz, heç zarafatla qartopu da atmazlar. Ayaqlarımı yerə bərk basa-basa cangüdənlik edirdim. Zalım balası hər addımından səksənirdi. Ürəyimdə Allaha yalvarırdım ki, ayağım sürüşməsin, yıxılıb biabır olmayım.

Bir dəfə məşhur xalça rəssamı Lətif Kərimov qışda Filarmoniya bağının qarşısından üzüaşağı gedirmiş. Səki buz bağlayıbmış. Görür bir yaraşıqlı xanım irəliləyə bilmir. Xalça ustası xanıma çatıb ona buz üzərində yerimək barədə dərs keçməyə başlayır:

– Əgər addımınızı belə atsanız...

Gözü xanımın gözəl üzündə qalan Lətif Kərimov addım atan kimi sürüşüb yanı üstə beş-altı metr süründükdən sonra dikəlib oturur və sözünü bitirir:

– ... mütləq yıxılacaqsınız.

Tərs kimi bu əhvalat yadıma düşmüşdü, lap vic-vicə içində idim.

Nə mən dillənirdim, nə də qız bir söz soruşurdu. Vicdanla yardımçı missiyamı yerinə yetirirdim.

Dəmir yolu vağzalının qənşərinə çatıb hamara çıxanda qız qəfildən dilləndi:

– Nə qəribə oğlansınız?

İlk dəfə qızla onda baxışdıq.

– Başa düşmədim – cavab verdim.

Qız dedi:

– Qol-qola gedirik, bir söz də soruşmursunuz. Başqa oğlanlar belə fürsəti qaçırmazdı. Tələm-tələsik qızla tanış olmağa çalışardı.

Nə cavab verəydim? Bir anlıq susdum. Tez də özümü toplayıb cavab verdim:

– Siz də düşünərdiniz ki, əcəb ilişdim.

– Bəlkə, elə düşünməzdim?
– Nə bilim?
– Görürsünüz, deyirəm ki, qəribə adamsınız.

Qız vağzalı üzüaşağı keçəndən sonrakı sarı üzlü ikinci binada yaşayırmış. Alaqapının önündə dayanmadan sağollaşdıq. Aralanandan sonra məni peşmançılıq bürüdü, gərək nəzakət xətrinə olsaydı da, telefon nömrəsini götürəydim. Ən azı ona görə ki, qızın öz gözündə qiyməti qalxardı.

Təqvimdə gün dəyişdi, Günəş çıxdı, qar əridi və Bakı yenidən qızışdı.

Fiziki enerjisi aşıb-daşan, danışa-danışa qılıncoynadanlar kimi irəli-geri sıçrayaraq rəqibi fəndə salmaq istəyən, toy-bayram ovqatlı, zirək adam görüntüsü yaradan Əbdürrəhman Vəzirov hər dəqiqə biri-birinə qarşı düşmənçiliyi artan, yaxud artırılan, azərbaycanlılarla erməniləri dostluğa çağırmaqda davam edirdi.

Hansısa qədim siyasətçi deyib: "Səfirin hərbi gəmiləri, qoşunu, qalası yoxdur, yalnız ağlı və dili ilə ölkəsinin mənafeyini qoruya bilər". Vəzirov yeni vəzifəsində də özünü diplomat kimi aparırdı. Sanki, nəhəng səlahiyyəti, əlinin altındakı güc strukturları, icra mexanizmləri... heç nə... ona aid deyildi. O, 1988-ci il mayın 19-da SSRİ-nin Pakistan İslam Respublikasındakı səfiri vəzifəsindən götürülərək Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi təyin ediləndən dərhal sonra Lenin meydanında çağırdığı mitinq zamanı qolunu-qıçını qırdığı Azərbaycan dilində yerinə düşməyən beynəlmiləlçilikdən, yenidənqurmadan, "Əliyevşina"dan danışmasına, kəsərsizliyinə və erməniyə oxşadılan görkəminə görə fitə basılaraq birdəfəlik xalqın gözündən düşmüşdü. Haqqında hər gün yeni lətifələr, deyimlər dövriyyəyə buraxılırdı. Guya bir arvada yanındakı ərgən oğlunu göstərib "Bu uşaq kimnəndir?" (*yəni, oğlun səninlə yaşayırmı?*) sualını verərkən vurğunu üçüncu hecanın üstünə qoyub, arvadı şəkkə salıb: "Uşaq kimdən olacaq? Əlbəttə, ərimdən!" Yaxud, kəndlərdə hamam tikməyin vacibliyindən danışanda hamı təəccüblənib ki, heç indi hamam vaxtıdır, millət məsələsi qalıb bir tərəfdə, bunun elədiyi sərək söhbətə bax! Ali Sovetin tribunasından

deyəcəyi "Fikrət Əmirov iki dəfə Nepala (*onun SSRİ-nin səfiri olduğu ölkə*) gəlib ki, mənimlə vaxt keçirsin" cümləsi də gülüş doğuracaqdı. Bəzən də orda-burda ziyalılar deyirdilər ki, təmiz adamdır, rüşvətxor deyil, Respublikada ədaləti bərpa edib nizam-intizam yaratmaq istəyir. Bu sözlər hardan pırtlayıb çıxırdı, bilmirdim. Göz qabağında olan o idi ki, yaxşı tərəfləri bir rəhbər kimi ona bəs eləmirdi. Heç ağıllı adam da bıçağın sümüyə dirəndiyi, qaçqınların hər yanı bürüdüyü vaxtda deyər ki, biz Ermənistan rəhbərliyi ilə danışmışıq, qaçqınlar geri dönəcəklər, bəs sizi təbrik edirəm, artıq ilk erməni ailəsi Bakıya qayıdıbdır?! Qaçqınlar öz yurd-yuvalarına dönəcəklərinə inanmadıqları üçün bir neçə erməni ailəsini Bakıya qaytardıb ona zamin duran rəhbərin qanını içməyə hazır idilər.

Sonralar Əbdürrəhman Vəzirov Moskvada çap etdirdiyi "Моя дипслужба" (*"Mənim diplomat həyatım"*) kitabında Azərbaycana rəhbər olduğu illəri anıb yazacaqdı: "Diplomatik karyerasının zirvəsində olan mənim kimi güzəştsiz beynəlmiləlçi başıpozuq millətçilərlə vuruşmaq məcburiyyətində qalmışdı."

Respublika rəhbərinin bircə kəlmə geydirmə fikri sabah hamını "Azadlıq" meydanına yığırdı. İnsanların etiraz mitinqi keçirtməkdən başqa, elə bil ağıllarına heç nə gəlmirdi. Artıq heç bir idarə, müəssisə, təşkilat rəhbəri işçilərini mitinqə getməkdən çəkindirmək üçün bir kəlmə "yox" demirdi. Hətta onları pyada qoymamaq üçün avtobusu olanlar minik qayğısına da qalırdı. Sanki "Azadlıq" meydanını doldurmaq üçün onlara kosmosdan xüsusi tapşırıq gəlirdi. Həmin günlərdə bir dəfə Əbülfəz Elçibəy xudmani yemək-içmək məclisində demişdi ki, vallah, mitinqlərin necə təşkil olunmasından bəzən xəbərimiz olmur. Bir də görürük ki, bizi mitinqi idarə etməyə çağırırlar. Bu sözləri həmişə mitinqlərdə olan, Xalq Cəbhəsinə yaxın qardaşım Qaradan eşidəndə çaşdım və düşündüm ki, niyə Əbülfəz bəy, onun çiyin yoldaşları bu sirri tribunadan xalqa açmırlar? Sonra özüm-özümə qarşı çıxıram ki, bəlkə də, Əbülfəz bəy elə söz deməyib, hərəkatı gözü götürməyənlərin dedi-qodusudur bu. Heç Qara da dediklərinə inanmırdı. Əksəriyyət kimi, o da mitinqə can atırdı, adamların arasında özünü rahat, arxalı hiss edirdi.

Bir gün səs yayıldı ki, şəhərdə ermənilərin evinə basqınlar başlayıb. Kim idi bu talançılar? Deyirdilər ki, qaçqınlardır, cəbhəçilərin çağırışına qoşulublar. Talançıları görməkdən ötrü şəhərin harasına getmək lazım idi, bilmirdim.

Xeyli ora-bura vurnuxdum, gözümə heç nə dəymədi. Axı, talan harda gedirdi?

Axşam Moskvanın "Vremya"sı Bakıda erməni evlərinə edilən basqınlardan danışdı. Yatan da ayıldı ki, bəs xəbərimiz yoxmuş, şəhərimizdə talan var.

Yenə mitinq başlandı. Mitinq barədə radioda, televiziyada, mətbuatda xəbər verilməsinə ehtiyac yox idi, onsuz da hamının qulağı səsdə idi.

"28 may" metrosundan çıxıb "Azadlıq" meydanına sarı sallandım. Meydana təxminən iki yüz metr qalmış gördüm ki, Hökumət Evinin yaxınlığındakı onmərtəbələrin birinin qabağında xeyli adam yığışıb. Yerdə üstünə adyal atılmış meyit vardı. Ətrafda isə köhnə bir şifoner, bir divan, bir soyuducu, stol-stul yastılanıb yerə yatmışdı.

Bir cavan oğlan muzey bələdçisi kimi qürurla təkrar-təkrar eyni izahatı verirdi: "Binanın yeddinci mərtəbəsində yaşayan bir erməninin mənzilinə basqın olub. Mənzilin əşyalarını balkondan yerə vızıldadıblar. Doxsan yaşlı qoca alçağı – üstünə adyal sərilmiş meyiti göstərirdi, – dilinə yiyəlik eləyə bilmədiyi üçün pəncərədən atıblar. Kaftar başından yekə danışıb deyirmiş ki, Bakı da, Qarabağ da bizimdir. Ağzının poxunu dağıdıb onu da çərənləyirmiş ki, on səkkizinci ildəki kimi Bakıda türkləri qırmaq lazımdır".

Eşidən-eşidən qızışıb ölüyə acıqla baxırdı, hətta ona sarı tüpürən də vardı.

Belə yerdə soruşmaq olmazdı ki, ay qardaş, erməni qocasının dediklərini haçan eşitdin? Bəlkə sən özün onu yeddinci mərtəbədən atmısan? Axı, doxsan yaşlı ermənininin canında nə təpər, əlində nə səlahiyyət vardı? Bizə neyləyə bilərdi, nəyə gücü çatırdı? Köhnə-kürüş mebellərdən acıq çıxmaq lazımdımı? Sən özün kimə xidmət edirsən?

Bunlar dilimdən çıxsaydı, məni də erməni sayardılar, yaxamdan yapışıb sorğu-suala tutardılar. Yəqin ki, araqarışdıran oğlan tək

deyildi. Bəlkə də çənəmin altını kəsdirənlərdən biri ağız güdürdü. Deyəsən, SSRİ-nin hər yerində Dövlət Təhlükəsizlik orqanları təhlükəli qurumlara çevrilmişdi. Millət ayıq-sayıq olmağa çalışsa da, gözlənilməz, kütləni yerindən oynada biləcək təxribatlar törədilirdi.

Ordan aralandım. İçimdə qeyri-müəyyən qəzəb vardı. Meydanı qoluna qırmızı parça bağlayıb əl-ələ tutmuş adamlar çəpərləmişdilər. Keçid yerlərində hər kəsin sənədinə baxırdılar. Mitinq təşkilatçıları ehtiyat edirdilər ki, dilimizi yaxşı bilən ermənilər "Azadlıq" meydanına soxulub ziyanlıq törədər. Pasportum üstümdə yox idi. İçəri keçmək üçün növbəyə dayandım. Rejim elə də ciddi deyildi. Sənədi olmayanlara ermənilərin tələffüz edə bilmədiyi "f" hərfli "fındıq", "fırfıra", "fəsəli" kimi sözlərdən dedirdib içəri buraxırdılar. Heç "pındıq", "pırpıra", "pəsəli" deyən görmədim.

Mitinqdə şair Xəlil Rza çıxış edirdi. O, erməniləri Bakıdan qovmağa çağırışlar edib, dillərə düşmüş şeirini oxumağa başladı. Şeirin axırı belə qurtarırdı: "Çağırışım budur hər an, Ermənisiz Azərbaycan!" ...

Alqış səsindən az qalırdı meydan dağılsın. Çıxışlardakı "Qardaşlar, bacılar, gəlin provokasiyaya – bu sözü, məhz belə işlədirdilər – uymayaq!" şüarını səsləndirənləri ikrahla qarşılayırdılar. Sanki, heç kəs soyumaq istəmirdi. Bəlkə də, yel verən olsaydı, hər kəs şəhərə cumub tanıdığı erməninin xirtdəyindən yapışardı. Hamının bir qulağı tribunadakı mikrofondan gələn səsdə, o biri qulağı yan-yörədə dolaşan pıç-pıçlarda idi.

Ürəyim sıxılırdı, mitinqdən çıxıb şəhərə üz tutdum. Küçəboyu adamlar üç-üç, beş-beş yığışıb eşitdikləri xəbəri ucadan müzakirə edirdilər. Bir xəbər diqqətimi çəkdi. Xüsusi təhlükəsizlik orqanlarının işçiləri, milislər erməniləri dəmiryolu vağzalının yanındakı "Şəfəq" kinoteatrına toplayırdılar. Deyilən doğru imiş. "Şəfəq" kinoteatrının ətrafında milislər canlı sədd qurmuşdu, kənar şəxsləri yaxına buraxmırdılar.

Ətrafdan baxanlar müşahidəçidən başqa heç kəs deyildilər. Kimlər idi erməniləri təqib edən, sıxma-boğmaya salan? Neçəsindən bu barədə soruşsam da, hər kəs çiynini çəkirdi. Bəs niyə talançılardan,

basqınçılardan birinin adı çəkilmirdi? Həmin qüvvələr niyə gözəgörünməz, əlçatmaz olmuşdu?

Bakıdakı ermənilər bir "Şəfəq" kinoteatrına sığmazdı. Bir azdan xəbər çıxdı ki, burdan onları dəstə-dəstə Dəniz vağzalına aparır və sərnişin gəmilərilə, bərələrlə yola salırlar. Əlbəttə, Ermənistana yox, Rusiyaya. Həştərxandan isə onları Rusiyada ermənilərin sıx yaşadıqları yerlərə paylayacaqdılar yəqin... Deyirdilər, köçürtmə əməliyyatına Moskvadan gəlmiş məsul şəxslər rəhbərlik edirlər. Bakıdakı ermənilərin qəfildən şəhərdən çıxarılması yaxşı əlamət deyildi. Üzdə belə yozula bilərdi ki, Bakı ermənilərdən təmizlənəcək, tarazlıq yaranacaq. Azərbaycanlılar Ermənistandan çıxarıldı, ermənilər də onların daha çox cəmləşdikləri Bakıdan, Azərbaycanın bəzi yerlərindən uzaqlaşdırılacaq və yağış yağacaq, bütün çatlaqlar örtüləcək.

Səhər iş yerimə dəydim. Fikrim işdə bir-iki saat oturub hadisələrin içərisinə qayıtmaq idi. Təsərrüfat işlərinə baxan, əri azərbaycanlı, özü də bir az bizimləşmiş, dilimizin qolunu-qabırğasını qıra-qıra danışan orta yaşlı belarus Natalya qəfildən qaranəfəs içəri girdi:

– İdite posmotrite (*gedin, baxın*), Qala aerodromuna böyük vayenniy samalyotlar pasatka (*hərbi təyyarələr enir*) eləyir.

Bayaqdan eşitdiyim gurultunun hardan gəldiyini indi başa düşdüm, həyətə çıxdım. İri bir hərbi təyyarə yerə qonurdu. Natalya təyyarəyə baxa-baxa dedi:

– Bu, çetvyortıy, ili pyatıy (*bu dördüncüsü, ya beşincisidir*). Bayaqdan baxıram. Bilirəm, çto eto znaçit (*bu nə deməkdir*).

Onun nə düşündüyünü bilmək istədim:

– Nə deməkdir?

– Oni poryadok (*onlar nizam-intizam*) yaradacaq. Qırğın budet! (*olacaq*)

– Heç nə olmaz, qorxmayın!

Öz dediyimdən diksindim. Bu nə arxayın danışıqdı? Elə bil SSRİ Müdafiə naziri Yazov mənim işçim idi, tapşıracaqdım, hər şeyi yoluna qoyacaqdı.

Dediyim sözlərdən sonra Nataşa da gözucu mənə baxanda belə hiss elədim ki, İkinci Dünya savaşında anası ilə işğal olunmuş Bela-

rusiyadan Azərbaycana köçürülüb Şüvəlanda məskunlaşan Natalya təhlükəni daha yaxşı anlayır.

Hərbi təyyarələrin səsi Bakıda uğultu, vahimə yaratdı.

Şəhərə qayıdanda artıq meydanda, küçədə, tində-bucaqda hamı Bakının müdafiəsindən danışırdı. Şəhərin girişləri, çıxışları bağlanmalı idi. İdeyanı kimlər ortaya atmışdı? Bu da növbəti bir tələ idimi? Belə addım atmaq nəyə lazım idi? Düşünməkdən başım şişirdi. Axı, bizim şəhərimizi qorumaq təcrübəmiz olmamışdı.

Tarixə baş vururam. Sonuncu dəfə Bakını, Azərbaycanı hansı düşməndən haçan qorumuşuq? Xanlıq dövrünə qayıtmalıyıq. 1804-cü ildə Cavad xan tələm-tələsik yığdığı qoşunla, könüllülərlə hakimi olduğu Gəncəni çar generalı Sisyanovun nizami ordusundan xilas etməyə girişib. Böyük qəhrəmanlıq göstərilib. Düşmən Cavad xanın meyitinin üstündən keçərək soxulub şəhərə. "İgidin igiddən nəyi artıqdır? – Yarağı!" – deyib atalar. Bəs qoşunun qoşundan nəyi artıqdır? Əlbəttə, sərkərdəsi, sayı, silahı, bir də döyüş ruhu. İndi Bakıda hamının döyüş ruhu var idi. Sayı da düzəltmək olardı. Bəs sərkərdə, silah, vuruşmaq bacarığı?

Bakının sahibi Hüseynqulu xan hiylə və qoçaqlıqla Gəncəni süqut etdirən Sisiyanovun başını Qoşaqala qapısının qarşısında kəsib qoşunu pərən-pərən salmışdı. Ancaq indi bir generalı öldürməklə ordu dağılmır. Bir general ölür, başqası peyda olur.

1920-ci ilin aprel təcrübəsi də bir görk deyildi. Şəhidlər versək də, Rusiyadan gələn XI Qızıl Ordunun qabağını Yalamada kəsməyə qüdrətimiz çatmamışdı.

Bəs indi niyə Bakı döyüş meydanı kimi seçilmişdi? Qoşun bəyəm tanksız şəhərə girə bilməzdi? Yoxsa Bakı Moskvanın əlində deyildi? Onsuz da paytaxtımızda nə qədər hərbi hissə vardı. Sovet generalları Mərkəzi Komitənin binasına girib-çıxmırdılarmı? Kremldən göndərilmiş yüksək vəzifəli şəxslər – İttifaq Sovetinin sədri Yevgeni Maksimoviç Primakov, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Andrey Nikolayeviç Girenko, Mərkəzi Komitədə Millətlərarası şöbənin müdiri Vyaçeslav Aleksandroviç Mixaylov və nümayəndə heyətinin başqa üzvləri müxalifət rəhbərlərini şişirdib

tərəf kimi qəbul edərək onlarla danışığa girişməyəcəkdilər?! Nümayəndə heyətinin sədri Primakov iclas zalına girərkən araya şübhə toxumu salmaq, hamını biri-birinə vurmaq üçün Xalq Cəbhəsinin liderlərindən biri İsa Qəmbərova üz tutub, "Privet, İsa!" (*Salam, İsa!*) deməsi qəsd deyildimi? Şərq üzrə mahir siyasətçinin, "köhnə qurd"un bizim müxalifət liderlərini üz-üzə qoymaq üçün bircə "Privet, İsa!"sı bəs elədi. Müxalifət dərhal inandı ki, aha, deməli aramızda xainlər var, Moskvaya satılıblar.

"Azadlıq" meydanına gəldim. Nemət mikrofonda idi.

Qışqıra-qışqıra deyirdi:

– Sovet Ordusunun qarşısına çıxmağa silahımız var. Artıq Səttarxan zavodu silah istehsal edir!

Xəbəri kütlə necə həyəcanla, qürurla qarşıladı, görəydiniz.

Müjdə məni də qanadlandırdı. Amma beşcə dəqiqə sonra içimə şübhə doldu, ayıldım. Məgər silah istehsal etmək birgünlük, beşgünlük işdir? Sonra Nemətə haqq qazandırdım. Moskvaya hərbə-zorba gəlmək, qəzəbindən zəncir gəmirən kütləni ruhdan düşməyə qoymamaq üçün belə lazımdır. Bir də heç kəs inanmırdı ki, qan töküləcək. İki il əvvəl də Bakıya tanklar yeridilmişdi. Onda yalnız döyüş maşınlarının asfalt üzərində yeriyərkən tırtıllarının səsi eşidilmişdi.

Etibar Məmmədov, Mərkəzi Komitənin II katibi olsa da, faktiki Respublikada birincilik edən, Mixail Qorbaçovun yaxın dostu, ərklə ona telefonda "Mişa" deyə bilən Polyaniçkonu təkbətək görüşdə necə divara dirədiyindən danışdıqca, kütlə dərindən nəfəs alırdı, coşurdu, inanırdı ki, Moskva bizə bata bilməz. Tutaq ki, tanklar, sovet əsgərləri şəhərə buraxılmadı, sonra nə olacaq? Heç kəsdən bu barədə bir söz eşitmək olmurdu. Hamının fikrində və dilində bir məna vardı, qoşun, tanklar geri qayıtmalıdır!

Meydan dağıldı, kütlə şəhərin müdafiəsinə getdi. Bakının giriş yolları nəzarətə götürüldü. Bakının şimal qapısında Salyan kazarmalarının qabağı və Qala aerodromundan gətirilən tankların qarşısını kəsmək üçün Əzizbəyov metrosuna gələn yol qapandı. Hələlik şəhərə Şıxov tərəfdən gələn əsas qapı açıq idi. O tərəfdə hərbçilər görünmürdü. Bu qapı iki-üç gün sonra Hacıqabul-Kürdəmir yolunda kəsiləcəkdi.

Rəsmi adı başqa olsa da, 1904-cü ildə tikilən, başlanğıcını I Pyotr zamanında Salyanda yaradılmış hərbi alaydan götürdüyü üçün rus hərbçiləri arasında "Сальянские казармы" adlandırılan Salyan kazarmalarının qabağına getdim. Qaraya rast gəldim. Sevgilisi də yanında idi. Qardaşım Lalə ilə əcəb görüş yerləri tapmışdı. Nəhəng mitinqlərin tüğyan etdiyi "Azadlıq" meydanı, hay-küylü iclasların, müxtəlif yığıncaqların keçirildiyi klublar, salonlar, xiyabanlar, yürüşlər uzanan küçələr, Sovet Ordusunun önünü kəsən hayqırtılı, ayaq qoymağa boş yeri qalmayan Salyan kazarmalarının qabağı...

Deyəsən, ətrafımdakılardan daha çox məlumatlı idim və bildiklərimə daha ciddi yanaşırdım. Qardaşımkimilər isə hadisələrin ləzzətini yaşayırdılar, vacib işlər gördüklərinə inanırdılar. Moskvanın bizim barədə qəbul etdiyi qərarları veclərinə almırdılar. Artıq Dağlıq Qarabağda, Ermənistanla həmsərhəd rayonlarda fövqəladə vəziyyət elan etmişdi SSRİ hökuməti.

Hava qaralırdı. Kütlə gecə tədarükü görürdü. Tezliklə tonqallar qalanacaqdı. Artıq Bakıda adamların özünəməxsus oturaq mitinq, etiraz aksiyası keçirmək təcrübəsi vardı. Yaxınlıqdakı yastı-yapalaq həyət evlərindən odun əvəzi taxta qırıqları, köhnə maşın təkərləri, neft gətirirdilər. Əllərdə yüngül oturacaqlar gözə dəyirdi.

Gecə növbəsinə gedən fəhlələr kimi nə qədər adamın çiynindən yemək torbaları sallanırdı. Sonu görünməyən gecəni əritmək üçün hər vasitə düşünülürdü.

İki nəfərin - qonşu həyətlərin adamlarına oxşayırdılar – təzəcə çatılmış balaca tonqalın böyründə səs-küylə nərd oynadığını gördüm. Sanki heç bir hadisə onların gündəlik şakərinə mane ola bilməzdi. Həyatlarında ilk dəfə nərd saatı ilə evlərinin böyründə keçirilən aksiyanın vaxtı üst-üstə düşmüşdü, hadisələrin tərkib hissəsinə çevrilmişdi. Nərd oynayanların yüzə-yüz oxşarı olan idarəmizin fəhləsi Ağami dörd-beş gün əvvəl qabağımı kəsib demişdi:

– Müəllim, beləliyimə – cılız bədənini göstərdi – baxma ha, hazır dayanmışam e!

Ağaminin çılğın, tez-tez əsib-coşan adam olduğunu bilirdim, amma dediyini anlamadım.

Hiss etdi ki, fikrini tam çatdıra bilmədi, təzədən dilləndi:

– Deyirəm, naqanım hər gecə başımın altındadı, hay düşən kimi atılacam ortaya. Heç kəsdən əskik deyiləm!

Dişlərini qıcayıb əlavə etdi:

– Fürsət gözləyirəm, fürsət!

Ağamini sakitləşdirməyə çalışdım. Tez ovunan adamlardan deyildi, döşünə yatan bir cümlə fırıldatdım havaya:

– Ağami, – adını çəkincə diksinib susdu – sən igid oğlansan, düşmən qabağından qaçmazsan!

Ağami birdən-birə dişlərini ağardıb hırıldadı, sağ əlini mənə uzadıb dedi:

– Müəllim, mənim adamımsan, vur bura!

Əlimi onun əlinə şappıldatdım və sanki Azərbaycanın vacib məsələlərindən birini həll etdim.

Gecə tanklar gəlib yolboyu ard-arda düzüldülər. Əsgərlərin və zabitlərin sakit davranışları adamları ürəkləndirdi, özlərinə inamı artırdı. Burdakılara elə gəlirdi ki, tankların qarşısını məhz onlar kəsib. Hətta onlara acıqla "Nə gözünüzü döyürsünüz? Qayıdın çıxın gedin xarabanıza!" deyənlər az deyildi. Hərbçilər sanki eşitmirdilər. Yalnız hərdən bəzi hövsələsiz zabitlər "Biz əmrə tabeyik!" deyib dururdular.

Gizlinlərdən xəbərimiz yoxdu.

Birdən zabitlərin və əsgərlərin baxışlarında hiss etdiyim nifrət, ironiya iliyimə işlədi. Şübhələr içimi gəmirməyə başladı. Lap tutaq ki, ordu bu gecə Bakıdan çəkilib getdi, bəs sonra? Yenə özümüzü yeyib tökəcəkdik, mitinqlər keçirəcəkdik, yorulacaqdıq, yatıb dincələcəkdik, hər şey təkrar olacaqdı. Nəticə isə yox idi ki, yox!

Qaraya heç nə demədən piyada evə gəldim. Üst paltarımı təzəcə soyunmuşdum ki, telefon zəng çaldı. Dəstəyi götürdüm, atam idi. Hal-əhval tutub soruşdu:

– Qaranı görməmisən?

– Gördüm, bir yerdəydik. Mən gəldim, o qaldı Salyan kazarmalarının qabağında. Tbilisi prospekti boyunca adamlar şəhərə girən yolu bağlayıb.

– Biz də burda yığışıb Gəncədən gələn tankların qabağını kəsmişik. Tankların qabağında “Kraz”lar, “Ural”lar dayanıb. Ordunu bir addım qabağa getməyə qoymuruq. Bəs niyə evə gəldin?

– Bərk yorulmuşdum.

– Yaxşı, bir az dincəl, dur get, qardaşını tək qoyma! Mən də gedirəm camaatın yanına.

İki buterbrod yeyib, çay içdikdən sonra yenidən paltomu əynimə keçirdib evdən çıxıram. Özümü inandırıram ki, qardaşımın yanına tələsirəm, əslində bu, saman çöpündən yapışmaqdır. Ürəyim narahatdır, içimi gəmirirəm, nigarançılığım var. Mənzil başına çatıram. Qaranı nə qədər axtarsam da, tapa bilmirəm. Gözüm gəzir, sevgilisini də görmürəm. Düşünürəm, bəlkə qardaşımgil beş-on dəqiqəliyə harasa gedib? Yenidən canıma can gəlir. Özümü keşikçi kimi gümrah hiss edirəm. Eşidirəm ki, Xalq Cəbhəsinin liderləri Milli Müdafiə Şurasının yaradıldığını elan ediblər. Şuranın tərkibində Əbülfəz Elçibəy, Etibar Məmmədov, Rəhim Qazıyev, Nemət Pənahlı, nə bilim daha kimlər var (*Milli Müdafiə Şurasının yaradılması, deyilənə görə, Viktor Polyaniçkonun avantürası idi. Sovet Ordusuna rəqib görüntüsü yaratmaq məqsədi daşıyırdı. Guya Milli Müdafiə Şurası könüllüləri toplayıb Qarabağda düşmənə qarşı silahlı mübarizə aparacaqdı. AXC qabağa qaçıb tələm-tələsik öz namizədlərinin adını açıqlasa da, Mərkəzi Komitə geri çəkilib işi pozdu və müxalifətçiləri fakt qarşısında qoydu*). Deyirlər, Mərkəzi Komitənin qabağında mitinq gedir. Artıq Mərkəzi Komitənin qabağındayam. Mitinqi Azərbaycan Dövlət Universitetinin müəllimi, çoxlarının əqidəsinə şübhə ilə yanaşdığı Vəkil Hacıyev aparır. Hər natiq çıxışını bitirən kimi Vəzirovun istefası xüsusi nəqərat kimi səslənir. “İstefa!”, “İstefa!” səsləri Mərkəzi Komitənin binasının pəncərələrini titrədir. Moskvadan gələn rəsmi nümayəndələrdən biri, uşaqlığı və yeniyetməliyi Tiflisdə keçmiş, gənclik illərində iki il Bakıdakı Hərbi-Dəniz məktəbində oxumuş, şərqşünas alim, SSRİ xalq deputatı, Mərkəzi Komitənin üzvü, sonralar daha məsul vəzifələr daşıyacaq Yevgeni Maksimoviç Primakov tribunaya çıxır. Əyninə bronojilet geyinmiş Xalq Cəbhəsi üzvlərindən biri cangüdən kimi onun qarşı-

sında dayanır. Primakov təhlükəsizliyinin təmin olunduğunu görüb ürəklənir, ərəb dili mütəxəssisi kimi biz müsəlmanların ürəyinə yol tapmaq üçün Qurandan zor işlətməmək barədə misal gətirdiyi surəni tərcümə edərək "Дорогие товарищи!" müraciətilə çıxışa başlayır. Hamı diqqətlə dinləyir. O deyir ki, hərəkat üzvləri küçələrdən, kazarmalardan, aerodromlardan mühasirəni götürsələr, dövlət tərəfindən heç bir müdaxilə olmayacaq. Mikrofonun yanında dayanmış Rəhim Qazıyev qışqırır: "Qarşınızda çıxış edən Moskva mafiyasının üzvlərindəndir!"

Kütlə coşur, təlatümə gəlir. Daha ağız deyəni qulaq eşitmir. Primakovu aradan çıxardıb Mərkəzi Komitənin binasına salırlar.

Emissarların dedikləri onların adamları vasitəsilə tərcümə və təhrif olunmuş halda xalqa çatdırılır. Moskvadan gələnlərin bir fikri xususi səslənir: "Ordu əhaliyə atəş açmayacaq!" Adamlar həm natiqlərə qulaq asır, həm də öz aralarında danışırlar. Söz yayılır ki, Naxçıvanda İranla sərhəd dağıdılıb, dövlət sərhədinin bərpa olunması üçün Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi xüsusi qərar qəbul edib. Öz-özümə sual verməkdən beynim yağır olub. Axı, İranla sərhədi kim dağıdıb? Bu bizimkilərin işi ola bilməz. Düzdür, SSRİ-nin tərkibindəki Şimali Azərbaycanla İran Azərbaycanının birləşməsi bizim yüz altmış iki illik arzumuzdur. Amma indi SSRİ ilə İran birləşib ki, biz də sərhəddi açaq? Bu nə oyundur düşmüşük? Ürəyimdən qara qanlar axır. İllərlə burda qırğınlar törədiblər, inqilab eləyiblər, kütləvi həbslər aparıblar. Hamısında da bizim xalqımız, başbilənlərimiz, irəli gedənlərimiz passiv iştirak ediblər, müdafiə olunublar, yönəldiliblər. Məsələlərin başında bizə yad olanlar, başqa dövlətin mənafeyini güdənlər durublar. 1905-ci, 1918-ci ildə imperiya şovinistlərinin və hərbçilərinin qızışdırdığı, maliyyələşdirdiyi, silahlandırdığı erməni daşnakları bizim kökümüzü kəsməyə girişiblər. Amma axırımıza çıxa bilməyiblər. Bakıda inqilabı bolşeviklərin XI Qızıl Ordusu törədib. 20-ci, 30-cu illərdə ələ gələnimizi dənləyiblər. 37-də lap tüğyan eləyiblər. Hər kəs başını qorumaqla məşğul olub.

Yenə də müdafiədəyik. Dünyada heç bir dövlətin gücünün çatmadığı Sovet Ordusunun əsgərlərini Bakıdan çıxartmaq istəyirik.

Hirsimizin-hikkəmizin, nifrətimizin, qəzəbimizin gücü silahların gücündən qat-qat artıq görünür bizə.

Son illərdə hər gecə düşüncəmdə hadisələri istədiyim məcraya yönəldirəm, düşmən tərəfi yerinə oturduram, xəyalımda günahkarlara hər cür cəza verirəm. Cinayət Məcəlləsindən kənara çıxmaqlarım da olur. Asıram da, kəsirəm də, boyun vururam da, həbsxanaya salıram da, hətta döyüb əzişdirirəm də. Cəzalandırmaq üçün növbəyə düzdüklərimin sayı o qədər çox olur ki, bəzən onların sırasını dəyişik salıram. İstəmirəm kiminsə cəzasını sabaha saxlayım. Birdən düşündüklərim məni diksindirir. Belə çıxır ki, böyük gücüm, geniş səlahiyyətim olsa, mən də tiranlar kimi, diktatorlar kimi zora əl ataram, qəddarlıqlar edərəm, asdıraram, güllələtdirərəm, həbsxanaları dolduraram.

Amma sabah yuxudan oyanıb gözlərimi ovuşdururam, fikirləşirəm ki, yenə də qeyri-müəyyən bir günlə üz-üzəyəm. Efirə baxanda, qəzet oxuyanda, küçədə, mitinqdə, daha nə bilim haralarda dünən axşam xəyalımda cəzalandırdıqlarımı daha sağlam, daha çevik, daha qəddar, daha alçaq, daha qorxulu görəndə şaşırıram.

İndi insanları sakitliyə, təmkinə çağırmaq çox gülünc və yersiz səslənir. Vəzirovun istefasına çağırış nə qədər tez-tez təkrar edilsə də, adamı yormur. Sanki, bu dəqiqə bundan vacib məsələ yoxdur. Şayiə gəzir ki, Mərkəzi Komitənin böyründə Vəzirovu asmaq üşün dar ağacı qurulub. Nə qədər yerimi dəyişib göz gəzdirsəm də, hərlənib baxsam da, dar ağacını görə bilmirəm. Amma sonralar Yevgeni Primakov xatirələrində yazacaqdı ki, guya həmin vaxt kütlə respublika rəhbərliyini asmaq üçün Mərkəzi Komitənin qabağına bir neçə dar ağacı gətiribmiş (*Onun şairliyi də vardı. Bir şeirində yazırdı: "Я много раз грешил, но никогда не предал дела, чем живу..." "Çox günah etmişəm, ancaq hesabına yaşadığım işlərdə satqın olmamışam*). Onun "xatirələrini" oxuyanda yadıma başqa bir uydurma əhvalat düşür: Makedoniyalı İsgəndərin ölümündən bir neçə il sonra böyük sərkərdənin yürüşlərində iştirak etmiş filosof Aneskrit digər şahid çar Lisimaxa Zülqərneynin amazonkalarla vuruşduğu səhnəni təsvir edən salnaməni oxuyur. Hərbi səfərdə Makedoniyalı İsgən-

dərdən heç vaxt aralanmamış keçmiş zabitin gözləri kəlləsinə çıxır, təəccüblə soruşur: “Bəs o gün mən harda idim?”

Artıq zaman dəyişib, belə şeylərə heyrətlənmirəm. O qədər saxtalaşdırılmış tarix kitabları oxumuşam ki... Primakov da ona və ölkəsinə sərf edən tarix qondarır. Bir anlıq düşünürəm, görəsən indicə Əbdürrəhman Vəzirov mikrofonu əlinə alıb istefa etdiyini elan etsə, tarixin gedişatını dəyişə bilərmi? Sonralar məlum olacaq ki, həmin gün Vəzirov nəinki Mərkəzi Komitənin binasında, heç Bakıda olmayıb, səlahiyyəti əlindən alındığı üçün bir gün əvvəl şələ-şüləsini yığışdırıb xüsusi hərbi təyyarə ilə Moskvaya yollanıb. Bəs onda Moskvadan yüksək rütbəlilər niyə bizi bambılı kimi oynadıb “İstefa!”, “İstefa!” deyə qışqırdırmışlar? Ey düdəmə dünya! İndi bir nəfər hökumət adamının belə arxasında durmadığı Vəzirov ikicə il əvvəl hakimiyyətə gələndə ona yarınmaqdan, girməkdən ötrü nə qədər dəridən-qabıqdan çıxanlar vardı. Bir hadisəni eşidib xeyli gülmüşdüm. Əbdürrəhman Vəzirov Mərkəzi Komitədə keçirilən iclasda Respublika Nazirlər Sovetinin sədri Həsən Seyidovun tutduğu vəzifədən azad olunmasını elan edib əlindəki vərəqdən oxuyur: “Həsən Nemətoviç Seyidov fəaliyyəti boyu partiyamızın ideyalarına sadiq olmuş, dövlətimizə sədaqətlə xidmət etmişdir. Bir dövlət xadimi olaraq çox təcrübəli yoldaşdır. Partiyamız və dövlətimiz onun xidmətlərini heç zaman unutmayacaqdır. Lakin Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi Həsən Nemətoviçin vəzifədən getməsini münasib sayır.”

Ertəsi gün Həsən Seyidov kollektivlə vidalaşmağa gəlir, iclas salonuna toplaşan iş yoldaşlarına üz tutub deyir:

– Gecəni yata bilməmişəm. Səhərə qədər gözümə yuxu getməyib.

Salonda hamı kövrəlir, bir neçə nəfər ona təskinlik verir:

– Həsən Nemətoviç, fikir eləməyin, vəzifə gəldi-gedərdir, ürəyinizə salmayın!

– Həsən Nemətoviç, özünüzü üzməyin, sizi yaddan çıxartmayacayıq!

– Yoldaş Seyidov, inşaallah, yenə sizə böyük vəzifə verərlər!

– Həsən Nemətoviç...

Həsən Seyidov növbəti təsəllini verməyə hazırlaşanın sözünü ağzında qoyub dillənir:

– Siz nə danışırsınız? Nə fikir eləmək? Nə incimək? Nə ürəyə salmaq? Məni gecə yatmağa qoymayan başqa şeydir.

Hamı təəccüblə ona baxır.

Bir neçə dəqiqədən sonra dediklərinin Vəzirovun qulağına çatdırılacağını dəqiq bilən Seyidov sözünə davam edir:

– Dünən Əbdürrəhman Xəliloviç mənim haqqımda necə yüksək fikirlər söylədi? Hələ də həyəcanımı gizlədə bilmirəm. Doğrudan da, o, nə qədər həssas və qədirbilən adam imiş.

Salonda bu sözü eşidənlərdən bığı olanlar bığaltı, bığı olmayanlar dodaqucu gülürlər.

Bu hadisəni xatırlayıb özümə sual verirəm:

– Görəsən, Həsən Seyidov bax, bu gün, iki il qabaq həssas və qədirbilən hesab etdiyi Əbdürrəhman Vəzirov haqqında nə düşünür? Ümumiyyətlə, heç düşünürmü? Yoxsa, onun yerinə gələcək adam barədə baş sındırmaqdadır?

Tribunada özlərini yeyib-tökən natiqlər mikrofona qışqıraraq adamları hazır avtobuslara minib Salyan kazarmalarının qabağına getməyə səsləyir. Deyirlər, oranı möhkəmləndirməliyik.

Kənarda dayanmış avtobuslar dolub yola düşür.

Mitinqdən ayrılmağımın heç bir əyər-əskik yaratmayacağını, hətta tərpənən kimi yerimin tutulacağını düşünüb piyada Salyan kazarmalarına doğru gedirəm. İstəyirəm hadisələrdə xeyrimizə nəsə bir irəliləyiş olsun.

Yenə də adamlar çovuyur. Qulaqlar bütün xəbərlərə açıqdır. Yanımı səkiyə qoyub otururam, ayaqlarım məni daşımaqdan yorulub.

Saysan, on beşə qədər gənc ana körpəsini qoyduğu uşaq arabalarını o tərəf-bu tərəfə sürür. Əlil arabalarında gəzdirilənlər də var. Əliuşaqlı anaların, körpələrin, əlillərin burdan uzaqlaşmasını dilinə gətirən cavanlar çığıra-çığıra dəli kimi ortada dolaşırlar. Özünümüdafiə fəhlə dəstələrinin üzvləri köhnə Bakı qoçuları kimi var-gəl edirlər. Açıq-aşkar bildirirlər ki, armatur zopalarla, benzin dolu bu-

tulkalarla silahlanıblar. Dünən axşam atam telefonda deyəndə ki, bizim şəhərin girişində də Bakı-Tiflis avtomobil yolunu tam kəsiblər, soruşdum, ata, birdən tanklar hücüma keçsə, qabağını necə kəsəcəksiniz? Silahınız var? Atam gülüb cavab verdi ki, kimsə köhnə qoşalülə ov tüfəngi gətirib, o da gah açılır, gah açılmır. Atam təzədən şaqqanaq çəkib əlavə edir ki, tüfəng iyirmi dörd saat əldən düşmür. Bircə yarağımız olsa da, hər halda silahlanmışıq.

Atamın da canında az yoxmuş. Görünür, müharibələrdə, inqilablarda, çaxnaşmalarda adamlar kim olduqlarını tez göstərirlər. İnanmazdım ki, üzdən bu qədər təmkinli görünən atam döyüş adamı ola bilər. Amma, hər şey göz qabağında idi. Çoxları kimi atam da "dava-dava" deyirdi.

Az sonra Qaranı gördüm. Dörd-beş nəfərlə mənə sarı gəlirdi. Dostlarından ayrıldı, görüşdük, üzündən öpdüm. Müqəddiməsiz-filansız dedi:

– Ermənilər Sədərək tərəfdən Naxçıvana hücum ediblər. Sabah bir dəstə adamla Sədərəyin müdafiəsinə gedirik. Nemət Pənahovun qardaşı bizə bələdçilik edəcək.

– Bəs Bakını kimə tapşırıb gedirsən? – qımışdım.

– Sənə! – sualımı cavabsız qoymadı.

Çoxları kimi qardaşım da tam arxayın idi ki, küçələrə tökülmüş insan seli hərbçiləri Bakıdan kürüyüb-yuyub aparacaq.

– Bəs Lalə hanı? Onu da Sədərəyin müdafiəsinə aparırsan?

– Lalə soyuqlamışdı, getdi evlərinə.

Tam ciddi dedim:

– Gedək, sən də bir az dincəl, sabah yola çıxacaqsan!

Qara cavab verdi:

– Narahat olma, dincəlmişəm! Gecəni burdayam. Sabah səhər 8-də aeroportda olmalıyıq.

Silahdaşlar kimi ayrılırıq. Bilirəm, rəhmətlik Məşədi Zeynəb nənəmin həmişə işlək vəziyyətdə saxlayıb miras qoyduğu "Brauninq" də onun belindədir, amma silahın adını tutub özünü dilə-dişə salmır.

Xeyirxahlığı sevirəm, həm də çox... Hələ ata olmasam da, məndə atalıq, himayədarlıq duyğusu güclüdür. Məni məsuliyyət hissi öl-

dürəcək, bəzən döşümü irəli verəndə eqoist kimi görünürəm. Kimisə nədənsə çəkindirmək istəyəndə, həm də bunu bir qədər ərklə və qaba edəndə duyuram ki, xoşa gəlmirəm. İlahi, özümlə davam haçan bitəcək? Yaxud, heç bitəcəkmi? Özü ilə əlbəyaxa olan adam başqaları ilə savaşa bilərmi? Əlbəttə, bu mümkündür. Həm də belə vuruş daha kəskin, daha dönməz olar. Sanki cəbhədəyəm, səngərdəyəm, rəqibə qarşı içimdə bir barışmazlıq var.

Hava qaralmaqdadır. Yolun qırağındakı tonqallara odun atıldıqca ətrafın işığı artır.

Bu vaxt yaxınlıqda bir ağ "Jiquli" dayanır, içindən iri şaqqalı cavan oğlanlar düşüb az qala xorla qışqırıb deyirlər, möhkəm dayanın, indi sizə silahlı kömək gələcək. Ancaq adamların onlara yaxınlaşdığını görüb sanki özlərini daha vacib yerə tələsən kimi göstərərək, sorğu-suala imkan vermirlər, qaçaraq maşına oturub qeyb olurlar. Yəqin, bu xəbəri başqa yerlərə də çatdırmaq lazımdır. Onları kim göndərib, kimin sözünü deyirlər? Buna o qədər də fikir verən yoxdur. Maraqlıdır, bir il yeddi ay sonra Moskvada QKÇP (*Fövqəladə Vəziyyət üzrə Dövlət Komissiyası*) iğtişaşları zamanı da belə ağ "Jiquli"lər təxribat xarakterli təbliğat aparacaqdılar.

Birdən xəbər yayılır ki, Azərbaycan televiziyasının transfarmatoru partladılıb, televiziya işləmir (S*onra bilinəcəkdi ki, təxribatı SSRİ DTK-sının Moskvadan Bakıya göndərilmiş "Alfa" qrupu törədib*). Xəbər adamların qulaqlarında əriyib gedir. Partlayışa xüsusi məna verən tapılmır. Yer-yerdən deyirlər ki, partlasın da, bir azdan düzəldərlər.

Gecə saat ona işləmiş taytıya-taytıya "XI Qızıl Ordu" metrosuna tərəf üz tuturam. Ayaqqabıda ayaqlarım şişib, dalımca güclə gəlir.

Mənzilimin qapısını açıb ağır qış ayaqqablarımı və qalın, tərli corablarımı soyunuram. Hər iki ayağımın baş barmağı suluqlayıb. Əl-üzümə su vurub qurulanandan sonra paltar-palazlı divana uzanıb leş düşürəm. İki-üç saat dincəlib geri qayıtmaq fikrindəyəm.

Avtomat güllələrinin vıyıltısına yuxudan ayılıram. Vaxtı müəyyən etmək üçün saata baxıram. On ikiyə işləyib. Güllə səsləri kəsilmir, daha da artır. Əl atıb televiziyanı qoşuram, ekran açılmır. Küçədən hay-küy səsləri gəlir. Tez həyətə düşürəm. Bir "Kuban" avtobusu

siqnal verə-verə küçədən keçir. Açıq pəncərədən içəridəki iki-üç nəfər təkrar-təkrar qışqırır:

– Ay camaat! Millətimizi qırırlar. Köməyə gəlin!

Avtobus ara küçələrə girib-çıxır, o yan-bu yana şütüyür.

Güllə səslərinin hayandan gəldiyini dəqiq ayırd eləmək çətindir. Tank tırtıllarının boğuq ulartısı eşidilir. Qəhər məni boğur, havam çatmır.

Ətrafda yığılan yeddi-səkkiz nəfərlə yaxınlıqdakı "Nərimanov" metrosuna tərəf qaçıram.

Avtomat güllələrinin "ta-ta-ta"ları çox vahiməlidir. Hərbi təmayüllü orta məktəbdə oxuduğuma görə bir dəfə Bakının Güzdək kəndinin arxasındakı təlim meydanında "Kalaşnikov" avtomatından doqquz güllə atmışam. Üç gülləni tək-tək, altı gülləni birnəfəsə. Onda atdığım güllələrim dağların daşlarına dəyib necə vahiməli səslər qopardığı yadımdadır. Yenə də güllələr hündür binaların divarlarına dəyib ətürpədici "ciyilti" çıxardır.

Yanımdakı adamlardan biri çox sadəlövhdür. Hay-küy salıb deyir ki, nə durmuşuq, gedək əsgərlərin əlindən avtomatı alıb onları öldürək. Əsgərin əlindən avtomat silahı almaq olar? Bu nə danışır?

Güllələr susmur. Avtobusdakı carçıların dediklərinə, hələ tam inanan yoxdur.

Küçədə hərə bir söz danışır. Gah deyirlər atışma Mərdəkandan Əzizbəyov metrosuna gələn yoldadır, gah deyirlər Salyan kazarmalarının yanında. Moskva prospektinə qədər gedib dayanırıq. Yolda heç bir maşın görünmür. Tanklar gəlsə, bu yoldan keçib şəhərin mərkəzinə getməlidir. Yarım saata qədər dayanıb metro tərəfə qayıdırıq. Biri-birimizə cavabını bilmədiyimiz ümumi suallar veririk. Ürəyimdən keçənlər də suallardır. Görəsən, indi Qara hardadır? Qara, diribaş olduğu üçün güllədən yayına bilər. Onu iki saat əvvəl qoyub gəldiyim yerə gedimmi? Bəlkə, qardaşıma o həndəvərdə rast gəldim? Nahaq onun yataqxanaya köçməsinə razı oldum. İndi lap hadisə yerindən qaça bilsə də, yanıma gəlməyəcək. Görəsən, atamgil Bakıdakı müsibətdən xəbər tutubmu? Heç evdə telefonu yoxlamadım. Telefon işləyirdimi?

Bir ara atışma güclənir. Deməli, məsələ çox ciddidir. Görəsən, güllə atan təkcə əsgərlərdimi? Axı, bayaq deyirdilər etirazçılara silahlı kömək gələcək.

Canımda xof da vardı. Hələ güllə səsi içində sərbəst düşünməyə, davranmağa öyrəşməmişdim. Sanki bir qüvvə sinəmdən geri basır, ayaqlarımı dolaşdırırdı. Bunun adı qorxu idimi? Atamın sözləridir: "Həmişə mərdlik, qoçaqlıq etmək mümkün deyil, insan qorxmalıdır da." Dözmürəm, "İnqilab" küçəsinə çıxıb üzərində işıqsaçan güllələr uçan Salyan kazarmalarının qabağına getmək istəsəm də, hadisə yerindən qaranəfəs qaçanlar məni qayıtmağa məcbur edirlər.

Gecə saat birə qalmış atışma səngidi. Amma dördə qədər arabir atəş səsləri eşidilirdi. Səhərə qədər küçədə var-gəl etdim. Havadakı dəhşətli uğultu qulaqlarımı deşirdi. Elə bil, nəhəng bir mağarada idim. Həmişə neft qoxuyan Bakının havasına indi barıt və qan iyi də qarışmışdı.

Səhərüzü həyətdə eşitdim ki, hamı Mərkəzi Komitənin qabağına axışır. Nəhayət, hər şey aydınlaşdı. Gecə əməlli-başlı qırğın olubmuş. Deyirdilər ölənlərin sayı on mini ötüb. Xəstəxanalar yaralılarla, ölüxanalar meyitlərlə doludur. Təcili yardım maşınlarına da atəş açırlarmış. Mərkəzi Komitənin binasının qarşısındakı hündür səkinin çəhrayı mərmər divarlarına iri, əyri-üyrü ağ hərflərlə "Qarbaçov-palaç!" (*Qorbaçov qatildir!*) sözləri yazılmışdı.

Yenə tribunada natiqlər biri-birini əvəz edib Qorbaçovun, Müdafiə naziri Yazovun, daha kimlərin ünvanına ən təhqiramiz ifadələri işlədirlər və axırda sovet hərbçilərinin Bakıdan çıxmasını tələb edirlər.

Hər kəs Qorbaçova nifrətini bildirməyə vasitə axtarır.

Sabah eşidəcəkdik, bu gün İsmayıllıda qəribə bir əhvalat baş verib. Bakı faciəsini eşidən Rayon Xalq Məhkəməsinin və Xalq Cəbhəsinin sədri Tahir Kərimli səlahiyyətini aşaraq məhkəmə iclası qurub Qorbaçova qiyabi ölüm hökmü kəsmişdi.

Məhkəmə qərarının son bəndi belə bitirdi: "Mixail Sergeyeviç Qorbaçov İsmayıllı rayonunun ərazisinə daxil olan kimi hökm icra edilsin".

Dünyanın işləri qəribədir, 20 Yanvar qırğınından səkkiz ay, iyirmi beş gün sonra Mixail Qorbaçova 1990-ci ildəki fəaliyyətinə görə Nobel Sülh Mükafatı verəcəkdilər. İllər keçəcək, Osloda Nobel Sülh Mükafatı təqdim edilən dəbdəbəli salonda gəzişərkən bir daha düşünəcəkdim ki, SSRİ Prezidentini yüksək ödülə layiq görənlər onun "ulduz müharibəsi"nə son qoymasını, nüvə silahlarını məhdudlaşdırmasını, Əfqanistandan, Şərqi Avropadan sovet qoşunlarını çıxartmasını, Kubanın, Yaxın Şərq ölkələrinin arxasından qaçmasını, Almaniyanın birləşdirilməsinə qol çəkməsini, SSRİ-də sovet rejiminin çərçivələrini dağıdıb demokratiya, aşkarlıq yolunu tutmasını əsas götürüblər, bizim 20 Yanvar qırğınımız, Qarabağ müsibətimiz yada düşməyib. Qəribədir, nəhəng dövlət başçılarının, siyasi müstəqillik bəxş etdiyi milyon-milyon insanların dostuna çevrilmiş bir siyasətçi bizim düşmənimiz olacaqdı.

İzdiham qəzəbdən az qalır partlasın, arabir ağlaşma səsləri eşidilir. Baxışlarım bir cüt şüa kimi ətrafımdakı insanların üzlərində gəzir. Qaranı görmək istəyirəm. Yəqin, Naxçıvana getməyib, avtomobil yolu gecədən bağlıdır, aeroport işləmir. Başında bir iş yoxdursa, mütləq mitinqdə olmalıdır. Ancaq hələ də onu görə bilmirəm.

Birdən tank gurultusu eşidilir. Üst lükundan zabit boylanan nəhəng tank nərildəyə-nərildəyə "Bakı Soveti" metrosu tərəfdən kütlənin qaynaşdığı yerə, yəni bizə sarı irəliləyir.

Zabit meqafonla hamını dağılmağa çağırır. Əks halda, atəş açılacağı barədə xəbərdarlıq edir. Baş vermiş qanlı hadisələrə baxmayaraq, hələ də adamlar ölüm qorxusunu dərk etmirlər. Bu qorxunu mən bir neçə saatdan sonra xəstəxanalarda qardaşımın ölüsünü-dirisini axtaranda duyacağam. Düşünəcəyəm ki, birdən tank kütləni tapdayıb keçsəydi, neyləyəcəkdik?!

İri gövdəli, pəhləvana oxşayan bir cavan oğlan kütlənin içindən çıxıb, qıy vura-vura tankın qarşısında dizlərini yerə qoyub yolu kəsir. Qabaqda gələn tank dayanmalı olur. Arxadakı tanklar da dəvə kimi xıxıb yerində qalır.

Tankın lükundan baxan zabit nə qədər hədə-qorxu gəlsə də, oğlan yerindən tərpənmir. Axırda o, "Я не видел такого народа!" (*Mən*

*belə xalq görməmişəm!*) deyərək sovet hərbçilərinin hərbi nizamnamə termini kimi işlətdikləri məşhur ana söyüşünü söyüb tankı yerində geri çevirtdirir.

Mitinq yenidən qızışır. Adamlar mərkəzi və yerli hökumətə nifrət yağdırmaqdadırlar. Sabir Rüstəmxanlı deyir: "Çoxdan, lap çoxdandır ki, torpağımız, azadlığımız uğrunda can vermirdik. Ötən gecə tökülən qanlar müqəddəsdir!"

Vertolyot havadan vərəqlər səpələyir. Vərəqlər güllə ilə vurulmuş göyərçinlər kimi çırpına-çırpına yerə düşür. "Göyərçin"lərdən birini havada tuturam. Yarım səhifəlik yazıda Bakıda fövqəladə vəziyyət və komendant saatı elan olunduğu bildirilir, şəhər sakinləri asayişi qorumağa dəvət edilir. Xəbərdarlıq Bakı şəhərinin Hərbi Komendantı adındandır.

İzdihamın ortasından kiçik tüstü qalxır. Özümü irəli verib görürəm ki, tonqal çatılıb, adamlar Kommunist Partiyasının üzvlük biletlərini ciblərindən çıxarıb oda atırlar. Üç-dörd nəfər hay-həşir salıb ətrafdakıları partiya biletlərini yandırmağa çağırır. Acığını partiya biletlərindən çıxmaq istəyən az deyil. Amma vaxtilə "Partbiletim sol cibimdə, ürəyimin başındadır" deyən kommunist şair Süleyman Rüstəm kimi əlini partbiletlər saxlanan döş cibinin üstünə qoyub tərəddüdlə tonqala baxanlar da var.

Günahı konkret ölkə rəhbərlərinin adına yazmaq əvəzinə, Kommunist Partiyasını hədəfə almaq, onu "Tövrat"da adı çəkilən "Kozyol otpuşşeniya" (*Günah keçisi*) kimi qapazaltı etmək (*qədim iudeylərdə böyük günah işlədən İsrail övladı üçün ruhanilər tövbə duası oxuyaraq əllərini bir qurbanlıq keçiyə sürtüb, yəni günahları keçiyə ötürüb, bədbəxt heyvanı vəhşilərə yem olmaqdan ötrü meşədə azdırardılar. Elə bizdə də adına qurban kəsilən şəxs əlini ya qoyunun üstünə, ya da ayağını heyvanın bağlı ayaqlarına toxundurur*) kimin ideyasıdır, görəsən? Bu təzə hoqqanı kim durğuzmuşdu? Yenə DTK?!

İzdihamın içindən Mərkəzi Komitənin binasına hücum etmək barədə çağırışlar səslənir. Kütlə bir neçə dəqiqə dalğalanır. Amma tribunadan kimsə mikrofona qışqıra-qışqıra qətiyyətlə deyir:

– Bina silahlı əsgərlərlə doludur. Yeni qırğın törədilə bilər. Ay qardaşlar! Ay bacılar! Biz indi dözümlü olmağı bacarmalıyıq! Bütün Bakı qan ağlayır, şəhidlərimizin meyitlərini ortada qoymayaq! Allah bizi sınağa çəkir!

Kütlənin uğultusu öləziyir, elə bil odun üstünə su səpirlər. Yeni çıxışçılar şəhidlərin bir yerdə basdırılmasını, tarix üçün, gələcək nəsillər üçün görk kimi saxlanılmasını təklif edirlər. Şəhidlərin harda torpağa tapşırılması məsələsi ortaya atılır. Əsas üç yerin adı hallanır: 1918-ci ilin 31 martında bolşeviklərlə ermənilərin əlbir olub qətlə yetirdikləri soydaşlarımızın uyuduğu Çəmbərəkənd qəbiristanlığının ərazisi; 26 Bakı komissarlarının dəfn edildiyi bağ; bir də "Bakı" mehmanxanasının qarşısındakı meydan. Fikir ona görə parçalanır ki, əvvəlki iki yerdə dəfnə yuxarıların icazə verəcəyinə şübhə edənlər var. Çünki Çəmbərəkənd qəbiristanlığı vaxtilə dağıdılaraq yerində Dağüstü park salınıb, ortasında da Kirovun Bakıya meydan oxuyan nəhəng heykəli qoyulub (*Yeri düşmüşkən, Gəncədə (Kirovabadda) çayın şərq sahilində Kirovun sağ əli havaya qaldırılmış heykəli, qərb sahilində Nizaminin inqilab lideri ilə üz-üzə sağ əlini qabağına tutduğu heykəli vardı. Gəncəlilər buna şəbədə qoşmuşdular. Guya Kirov qürurla deyir, Gəncə mənimdir, Nizami isə güngörməzinə işarə ilə cavab verir ki, budey, bunu görərsən*). 26-lar bağını isə Bakı komissarları qəbiristanlığı-xatirə kompleksi tutub. Qalır "Bakı" mehmanxanasının qarşısı.

Bu arada İctimai Dəfn Komissiyasının yaradıldığı bildirilir. Komissiyanın sədri iqtisadçı alim, o qədər də tanınmayan Qüdrət Əbdülsəlimzadə seçilib. Komissiyanın on bir üzvündən yalnız sədri, bir də Şeyxülislam Allahşükür Paşazadəni tanıyıram.

Qüdrət Əbdülsəlimzadə mikrofon önünə çıxıb təşəbbüsü ələ alır, qətiyyətlə bildirir ki, şəhidlərimizin Dağüstü parkda dəfn edilməsi razılaşdırılıb. Rəsmilərin, hökumətin adının çəkilməsi insanları qıcıqlandıra biləcəyini ehtimal etdiyindən sadəcə "razılaşdırılıb" deyir. Onsuz da onun fikri dərhal anlaşılır və hamı bunu bir tələbimizin yerinə yetirilməsi kimi qəbul edir.

Komissiya sədri qəbirlərin qazılması üçün dərhal işə başlamaq lazım gəldiyini bildirir: "Kimlər könüllü surətdə bu savab və müqəd-

dəs işdə iştirak etmək istəyirsə, məndən sağ, sizdən sol tərəfdəki iri saatın yanında toplaşsınlar! Mitinqimiz davam edir!" deyərək saata sarı yön alır. Onun arxasınca addımlayan gənclərin sayı getdikcə artır. Qüdrət müəllim sonralar həmin qanlı günləri xatırlayıb deyəcəkdi: "Yanvarın iyirmisində və ertəsi gün Dağüstu parkda təxminən min nəfərin köməkliyi ilə yüz iyirmi qəbir qazılmışdı. Sərt soyuq, tez-tez başımızın üstündən uğultu ilə ötüb vahimə yaradan hərbi vertolyotlar, şəhərin müxtəlif yerlərində əsgərlərin ara-sıra açdığı atəş səsləri, "Moskva" mehmanxanasının damından ətrafı marıtdayan snayperçilər, təxribat törətmək üçün göndərilən ayrı-ayrı adamlar, əl-ayağa dolaşanlar işimizi uzadırdı. Ən çox başımı ağrıdan şey şəhidlərin dəfn olunacağı günün səhəri bir dəstə dəliqanlının, bəlkə də, qızışdırılmış başıpozuğun hücum çəkib Kirovun nəhəng heykəlini uçurtmağa cəhd göstərməsi idi. Qanım donurdu, qorxurdum mərasimi pozalar, yenidən qarşıdurma yaranar, qan tökülər. Özümü dəstənin qabağına atıb yalvarır, onları dilə tutub bu işdən çəkindirməyə çağırırdım. Yarım saatdan çox dartışandan sonra dəstədəkilərdən biri kobud şəkildə soruşdu:

– Sən Kirovun heykəlinin uçurulmasını istəmirsən?

Dərhal cavab verdim:

– Əlbəttə, istəyirəm! Özü də ürəkdən! Amma bu gün yox! Şəhidlərimizin ruhunu narahat etməyək, hərbçilərin əlinə bəhanə verməyək! Dəfni başa çatdıraq! Heykəli sabah da uçurda bilərik.

Dediklərim dəliqanlıların ağlına batdı. Əmin oldum ki, onlar təxribatçı deyillər, sadəcə, düşməndən acıq çıxmaq istəyənlərdir. Yoxsa, məni saymazdılar, Allah bilir, nə baş verərdi..."

İkicə il sonra "Kirov"u hökumət özü uçurdacaqdı. Düzü, o vaxta qədər mən hər hansı bir heykəlin uçurulmasını canlı-canlı görməmişdim. Demontaj başlandığını eşidincə ərinmədim, Dağüstü parka getdim. Görüntülü bir məqam gəlib çıxmışdı. Tunc baş kranın xortumunda yellənirdi. Sanki nəhəng bir cəlladın əli Kirovun indicə vurduğu başını zəncirə bağlayaraq havada oynadıb bizə göstərirdi. Onun sifətində tarix sırtıqcasına irişirdi.

“Ey gidi dünya!” dedim, gözlərimiz nələri görür? Bu vyatkalı yetimçənin Bakıda qılıncının dalının da, qabağının da kəsdiyi vaxtlar olub.

Bakıda Leninin və o biri inqilabçıların abidələri də söküləcəkdi. Ən axıra 26 Bakı komissarlarından biri olan “Məşədi Əzizbəyov” qalacaqdı. Tariximizdə elə bir günahı olmayan, bolşeviklərə qoşulsa da, qəddarlıq eləməyən, əksinə, cavan canını bolşeviklərin yolunda qurban verib güllələnən soydaşımıza xalqımız mərhəmətli yanaşdı. Bakıda Məşədi Əzizbəyovun heykəli qoyulanda tanınmış bir şairin ona yazdığı şeirin birinci misrası belə idi: “ Yoldaş Əzizbəyov, gözünüz aydın, zaman bayraq kimi qaldırdı Sizi!”

Yeni zaman o bayrağı qırıb və cırıb atırdı.

Partbiletlərin orta əsrlərin inkvizisiya tonqallarına oxşayan tonqallarda yandırılmasının sonrakı günlərdə davam etməsi yetmiş ildən artıq böyük hörmət və üstünlük sahibi olmuş qırmızı biletləri sürətlə gözdən saldı, ucuzlaşdırdı. Partiyaya girmək istəyənlərin sayı kəskin şəkildə azaldı...

Yazıçılar Birliyində də partbiletdən imtina mərasimi düzəltdilər. Mən Kommunist Partiyasının üzvü deyildim. Bəlkə də, zəmanə dəyişməsəydi, gələcəkdə mövqe tutmaq, irəli getmək üçün Kommunist Partiyasının üzvü olmağa girişəcəkdim. Qorbaçov hakimiyyətə gələnə qədər partiyaçı olmaq xoşbəxtliyi hər adama qismət olmurdu. Xüsusən ziyalılara. Fəhlə və kəndliləri çox vaxt ucdantutma partiya sıralarına atmaqla üzvlük haqqı verənlərin, quru-quru əl çalanların, havayı tərəfdarların sayını çoxaldırdılar. Amma ziyalılar partbiletdən bəhrələnib vəzifə qazanmağa can atırdılar. Nəyin bahasına olur–olsun, partiyaya keçməkdən ötrü illərlə gözləyənlər vardı.

Kommunist Partiyasının üzvü olmaq adamlara nə qədər yol açırdısa, uçot vərəqinə yazılmaqla partiya töhməti almaq, protokol cümləsiylə desək, “Partiya sıralarından xaric edilmək” o qədər bədbəxtlik gətirirdi. Çünki partiyadan qovulan adamın üzünə bütün lazımlı qapılar bir batman qıfılla bağlanırdı.

Amma indi Kommunist Partiyasının üstünə düşmüşdülər, onu divara qısnamışdılar. Yenə qabağa qaçıram, çox yox, vur-tut ilyarım

sonra Rusiya Prezidenti Boris Yeltsin Kommunist Partiyasının buraxılması barədə fərman imzalayanda xoruzun quyruğu görünəcək. Çoxları anlayacaq ki, SSRİ-də ilk dəfə Kommunist Partiyası biletlərinin kütləvi şəkildə Bakıda tonqallara atılıb yandırılması nəyə və kimlərə xidmət edirmiş. Bəlkə 20 Yanvar qırğınının törədilməsinin ən böyük səbəbi elə bu imiş? Yoxsa faciəmizdən həm də bu məqsəd üçün istifadə edildi? Axı bizim Bakımız belə məsələlərdə həmişə qabağa salınıb. İyirminci əsrin əvvəllərində Çar hökümətini yıxmaq üçün fəhlə nümayişlərinin, tətillərin, iğtişaşların, qətllərin, pozuculuq işlərinin mərkəzlərindən biri olmamışdımı paytaxtımız?

Həngaməyə baxın, Yazıçılar Birliyində partbiletləri atma mərasimini partiyanın üzvü olmayanlar təşkil edir. Çağırılan rəsmi iclas deyil. Sədr-mədr, katib-matib, yetərsay, reqlament, gizli səsvermə, protokol tərtib etmə-filan olmayacaq. Gəlirsən, partiya biletini partkoma təhvil verirsən, vəssəlam, azadsan, gedə bilərsən. Görünür, gizli yönəldici var, dünən-srağagün küçələrdə, meydanlarda partiya biletlərini oda atıb yandırırdılar, lakin əldə hələ çox bilet qalıb deyə, indi təzə üsula keçiblər? Bunlara bax, müəssisələrdə, təşkilatlarda partiya biletlərini yığıb rayon partiya komitələrinə təhvil verən çıxıblar.

Kommunist Partiyasının üzvü olmayanlardan biri, şair Əlisəmid (*o zaman hələ "Kür" təxəllüsünü götürməmişdi*) məşhur, qocaman, böyük vəzifələrdə işləmiş, hətta Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri, yəni xaricilərin gözündə dövlət rəhbəri olmuş (*ölkəni idarə edən Kommunist Partiyası olsa da, xaricilər Sovet İttifaqı Kommunist Partiyasının Baş katibini dövlət rəhbəri saymırdılar. Ona görə Stalindən Qorbaçova qədər SSRİ rəhbərləri Kommunist Partiyasının Baş katibi olmaqla yanaşı, həm də Xalq Komisarları Sovetinin sədri, yaxud Ali Sovetin Rəyasət Heyətinin sədri vəzifəsini tuturdular ki, digər ölkələrin rəhbərlərilə bərabər statusda danışığa girə bilsinlər. Ancaq müttəfiq respublikalarda bu iki əsas vəzifəni ayrı-ayrı şəxslər daşıyırdılar*), Xalq yazıçısı Mirzə İbrahimovun evinə zəng edir.

Əlisəmidin danışdığıdır:

"Dəstəyi yazıçı özü qaldırdı:

– Bəli!

Onu salamlayıb özümü nişan verdim. Qarşı tərəfdən səs gəldi:

– Eşidirəm, oğlum!

Dedim:

– Mirzə müəllim, Yazıçılar Birliyində partbiletləri təhvil vermək üçün yığıncağa dəvət olunursunuz.

– Bağışlayın, kimdir danışan?

– Əlisəmid!

– Kim?

– Əlisəmid!

– Əlisafir? Yox, belə şair tanımıram!

Mirzə İbrahimov bu cavabla dəstəyi asdı".

Sovet hökumətinin hər sifətini görmüş, dəfələrlə vurulub gözdən salınmış, sonra yenidən özünü dikəltmiş bir insan ağzından süd iyi gələn hansısa şairin sözünə uyardımı? Bəlkə bu cüvəllağı öyrədilmişin birisidir, hökumət veteran kommunistin əqidəsini yenidən sınayır? Partbiletlə zarafat eləmək olar? Ən yaxşısı, arxa plana çəkilib öz məqamını gözləməkdir. Vaxtilə Napoleonun xarici işlər naziri olmuş məşhur siyasətçi Taleyran qocalanda da, yəni bir ayağı gorda olanda da cavanlığındakı prinsiplərindən əl çəkmirdi. 1830-cu ildə Parisdə baş vermiş inqilabın sonuncu günündə dörd-beş tərəfdarı ilə evinin balkonunda oturub hadisələrin bitməsini xəbər verəcək kilsə zənglərinin çalınmasını gözləyirmiş (*O zaman Parisdə kilsə zəngi ilə qələbənin car çəkilməsi bir qayda imiş*). Kilsə zəngləri eşidiləndə Taleyran sevincək olur:

– Biz qalib gəldik!

Biri təəccüblə soruşur:

– Biz, yəni hansı tərəf ?

Taleyran şəhadət barmağını dodaqlarının üstünə qoyur:

– Sss! Biz qalib tərəfdənik!

Partbilet məsələsində Mirzə İbrahimov və Taleyran kimi tədbirli hərəkət edənlər də var. Amma Kommunist Partiyasının üzvü olan Azərbaycan yazıçılarının hamısı Mirzə İbrahimov olub Taleyran kimi düşünə bilməzdi.

Həmin yığıncaqda iştirak etmiş tərcüməçi Natiq Səfərov sonralar deyirdi ki, Əkrəm Əylisli partbiletini elə nümayişkaranə şəkildə ortaya vızıldatdı ki, yadıma "Sevil" tamaşasında Sevilin çadrasını başından atması düşdü.

Amma şəhidlərin qırxı çıxandan sonra yuxarıdakılardan yuxarılar, yəni Moskva, partbiletlərlə bağlı tamaşanı bizimkilərə təzədən oynadacaqdı. Bu dəfə başqa quruluşda. Yəni, bir çox partiyaçılara tüpürdüklərini yalatdıracaqdı. Rayon Partiya Komitələrinin ədalı I katiblərinin rəhbərlik etdikləri iclaslarda xeyli adam pərt və pörtmüş halda partiya biletlərini geri götürüb bu qırmızı ətcəbala karton kitabçaları yenidən əvvəlki yuvalarına – döş ciblərinə qoyacaqdılar.

Birdən içimdə elə bil nəsə qırılır. Burda nə sallanıb durmuşam? Qaranı axtarmalıyam. Gecə onu Salyan kazarmalarının yanında qoyub getməsəydim, bəlkə də indi daha arxayın düşünərdim. Ən qatı faciə məhz qardaşımın gecə olduğu yerdə törədilib. Atışmadan əvvəl ordan getməyibsə, mütləq başında nəsə var. Ağlımdan keçdi ki, tez evə qayıdım. Bəlkə, qardaşım nigaran olduğumu düşünüb mənə baş çəkər. Onda qapının açarı var. Ən azından sağ-salamat olması barədə bir barmaq kağız yazıb stolun üstünə ata bilər.

"Kommunist" küçəsindən keçib gedirəm. Demək olar ki, küçənin adı yazılmış bütün dəmir lövhələri söküb yerə atıblar. Salyan kazarmaları tərəfdə isə yolun qıraqlarında tankların tapdayıb əzdiyi maşınları görürəm. Bir təcili yardım maşının nömrəsinə gözüm sataşır: 67-50 AQP. Maşın güllələrdən deşik-deşikdir.

Ətraf əsgərlərlə doludur. Onlar mat-mat gəlib-keçənlərə baxırlar. Nifrətli baxışlara qarşı gülümsəyənləri də var. Öz-özümə düşünürəm. Bunlar niyə dişlərini ağardırlar? Məgər gecə qırğın törədən bu əclaflar deyil? Demə, yanılırammış. Sonradan məlum olacaq ki, qırğın gecəsi cinayəti törədənlər Moskva, Ryazan, Tula, Kostroma, Pskov, Rostov, Stavropol vilayətlərindən gətirilmiş əsgərlər və muzdlular imiş. Aralarında kazak, erməni yaraqlıları da varmış.

Binamıza çatıb, mənzilimin qapısını açıram. Gümanım özünü doğrultmur. Qardaşım gəlməmişdi. Bir istədim atama zəng edim, yəqin ki, anamla hər ikisi bərk narahat idi. Sonra fikrimdən vaz keç-

dim. Qaranı soruşsaydılar, nə cavab verəcəkdim? Yaxşısı bu idi ki, zəngi axşama saxlayım. Yubanmadan qapını bağlayıb küçəyə çıxdım. Birbaş Semaşko xəstəxanasına gəldim. Xəstəxananın həyətində çox adam vardı. Səsdən qulaq tutulurdu. Deyilənə görə, iki gün bundan əvvəl ağırlığına-yüngüllüyünə baxmadan xəstələri qeydiyyatdan çıxardıb evlərinə buraxıblarmış. Yəni gözlənilən hücumda yaralanacaq və öləcək qurbanlar üçün çarpayıları boşaldırmışlar. Başqa xəstəxanalarda da eyni tədbir görülübmüş. Bakıda böyük hazırlıq işi gedib, nə biz, nə xəstələr, nə həkimlər – birimiz duyuq düşməmişik. Bu kütlükdür, yoxsa təcrübəsizlik? Bəlkə də hər ikisi. Yəni, qəsdi bir-iki nəfər də qanmayıb? Bəlkə də anlayanlar anlayıb. Amma səslərini çıxarmağa qorxublar. Başqa səbəb də ola bilər. Hər halda bir millət olaraq aldadılmışıq. Bəlkə də qızmış kütlə xəbərdarlığa məhəl qoymazdı. Çünki yığıncaqlarda kütlənin iradəsinin əleyhinə nə deyilirdisə, məcazi mənada top-tüfənglə qarşılanırdı.

Yaxşı ki, yaralı, ölü axtarışına çıxmışları növbə ilə xəstəxanaya buraxırdılar. Həyəcanlanmış adamlar öncə ölüxanalara baxırdılar. Dəhlizdən ağlaşma, çığırtı səsləri kəsilmirdi. Qəşş eləyib yıxılan kişilər, ürəyi gedən, üzünü cıran, başına döyən qadınlar adamın ürəyini parçalayırdı. Birtəhər içəri təpildim. Döşəmədə on yeddi-on səkkiz üzüaçıq ölü vardı. Hamısını birdən gördüm. Qardaşım onların arasında yox idi. Tez ölüxanadan çıxıb yaralılara baş çəkməyə tələsirəm. İçimə bir az toxtaqlıq gəlir. Amma bu, iki-üç dəqiqə çəkir. Ölüm xofundan qurtardım, indi də yaralı dərdi çəkirəm. Bəlkə Qara elə yaralanıb ki, heç yarı canı qalmayıb? Çoxları kimi mən də yaralı xəstələrə sürətlə baxıb keçirəm. Mərtəbələri dəyişirəm. Dəhlizlərdə də çarpayılar düzülüb, yaralılar yerləşdirilib. Heç nə, heç kəs gözümdən yayınmırdı. Reanimasiya palatasının qapısında durmuş tibb bacısından içəridə yatan yaralıların kimliklərini öyrənmək olur. Qardaşımın adı çəkilmir. Amma hələ sonuncu mərtəbədə yerləşdirilənləri görməmişəm. Pilləkənlə yuxarı çıxa-çıxa alnımı soyuq tər basdığını hiss edirəm. Dəhlizə burulub bir-bir palataları gözdən keçirirəm. Ürəyim çırpınır. Sonuncu palatanın qapısına yaxınlaşıram. Bəlkə də bu xəstəxanaya aid həyəcanım indi bitəcək. Və sonuncu

qapını döyüb açıram. Qadınlar palatasıdır. Dərindən nəfəs alıram. Burdakılar da yaralı imiş. İçəridə xəstədən çox onların yanına gələnlərdir. Qardaşımın axtarışının bir mərhələsi başa çatır. Geri qayıtmaq istəyəndə birdən qardaşımın sevgilisi Lalə yadıma düşür. Axı, o da həmişə qardaşımladırsa, deməli, yaralana bilər. Bir-bir qadınların üzünə baxıram. Bəzisi özündə deyil, bəzisinin üzü sarıqlıdır. Birdən arxadan kimsə adımı çağırır. Səs doğma gəlir. Geri qanrılıb kimi görürəm, İlahi?! İki il öncə ata-anamın məni evlənmək üçün bəyənməyə göndərdiyi Fərəhi. Səs yaddaşım dəhşətli dərəcədə güclüdür. Onu səsindən tanıyıram, yanılmıram. Yanındakı da yəqin anasıdır, Əminə müəllimə. Gəlib Fərəhin çarpayısının ayağında dayanıram. Anası susur, amma təlaş içindədir, vurnuxur. Bu vaxt həkim gəlir. O da narahatdır. Həkim Fərəhə işarə edib "Xəstəyə mütləq qan vurulmalıdır, çox qan itirib. Xəstəxanada qan çatışmır" – deyir.

Əminə müəllimə həkimə yalvarır:

– Qızımı reanimasiya şöbəsinə keçirdin, halı yaxşı deyil.

Həkim konkret cavab verir:

– Reanimasiya şöbəsində yer yoxdur.

Həkim fikrini məşğul edən məsələnin üstünə qayıdır:

– Donor tapmaq lazımdır!

Əminə müəllimə çarəsiz - çarəsiz həkimə baxır.

Diksinirəm, yoxsa həkim bu sözü mənə eşitdirir? Bir anda özümü donor kimi görürəm:

– Mən qan verərəm. Qanım birinci qrupdur, rezusu da müsbət.

Həkim əlavə bir sözə ehtiyac görmür, məni yanına salıb qanköçürmə otağına aparır. On beş dəqiqənin içərisində qan verib yenə Fərəhgilin yanına qayıdıram. Azacıq başım gicəllənir. Həyatımda əvvəllər iki dəfə, birincisində tələbə olarkən qanvermə aksiyasına qoşulanda, ikincisində isə mədəsindəki qanaxmadan üzülmüş anama qan verdiyimə görə bu məsələdə təcrübəliyəm. Bilirəm ki, başgicəllənməm ötəridir, bir azdan öyrəşəcəyəm.

Fərəhin anası əlləri əsə-əsə hardansa bir fincan şərbət düzəldib gətirir və təkidlə mənə içirdir. Sonra Fərəhi aparıb ona qan köçürdürlər, mənim qanımı.

Qəribə taleli adamam, gərək bütün gözlənilməz macəralar, əhvalatlar mənim başıma gələ. Bəlkə də, elə deyil, daha həssasam, başqalarının adi baxdığı hadisələr mənə çox maraqlı, cəlbedici görünür, nə bilim? Biganə ola bilmirəm.

Fərəhi palataya qaytarırlar. Zəif səslə soruşur:

– Kimi axtarırdın?

Sanki indiki anda adama yalnız bu sualı vermək olar.

– Qardaşımı! – cavab verirəm. Cavabım qadın palatasına aid olmadığı üçün əlavə edirəm – Vallah, bu saat bütün qohumlarımı, dost-tanışlarımı axtarıram. Hamıdan nigaranam.

Fərəh zarıya-zarıya dillənir:

– Güllə dizimin qapağına dəyib. Amma, həkim dedi, bəxtimdən gəzəyən güllə olmayıb.

Anası qızının fikrini davam etdirir:

– Xəstəxanada elə yaralılar var, güllə çiynindən dəyib qarnından çıxıb.

Fərəh gözlərini məndən çəkmir. Elə bil başına gələn müsibəti yadından çıxardıb. Canı ağrılı olsa da, mənə şəfqətlə baxır. Görəsən, vur-tut bircə dəfə baş tutan qəribə görüşümüzdən nəyi xatırlayır indi? Bəlkə onda onu tez başa düşməyimi? Sevgilisinə qovuşması üçün böyük bir maneəni aradan götürməyimi, valideynlərimizi, bax, biri elə bu Əminə müəlliməni arxayın salıb qəflət yuxusunda yatırtmağımı? Fədakarlıq idimi bu, onda mən etdim, bilmirəm. Hərəkətim, yaxud hərəkətsizliyim Fərəhə necə təsir etmişdi? Pis-yaxşı, hər halda iki sevgilinin qovuşmasına səbəbkar olmuşdum, namərdlik etməmişdim, sirri açmamışdım, onların planını pozmamışdım.

Fərəhin anası çox üzgün idi. Gözlərindən yuxu tökülürdü. Amma özünü sıxıb saxlamışdı. Qızının necə yaralandığını danışdı. Əhvalat çox qısa imiş. Gecə atışma səsinə Fərəh balkona çıxır, dizini güllə tutur. Yaxşı ki, onlarda olmuşam – deyir – elə bil Allahdandır, bir tərəfdən iş əyiləndə, o biri tərəfdən düzəlir. Qız evdə tək olsaydı, qan apardı onu, ölərdi.

“Tək niyə, bəs bunun ...?” – Fikrimdən keçir.

– Qızımın baxtı qara gəldi – anası yalnız mənim eşidəcəyim səslə danışır – lay divar kimi ərini öldürdülər, hələ ili çıxmayıb. Fərəhi Bakıya yola salandan bir ay sonra Kuybışevdən qayıdarkən, Qroznıdan keçəndə quldurlar onu davaya salıb sürətlə gedən qatardan atıblar. Yazıq xurd-xəşil olmuşdu, heç axır nəfəsinə çatmadıq. Bilmirəm başıma haranın daşını salım?! Ata-ana xeyir-duası görməyən uşaq xoşbəxt olmur.

Sonuncu cümlə ilə Əminə müəllimə Fərəhin mənimlə baş tutmayan sövdasına işarə vurdu. Qızına müştəri çıxanlardan vacibi ölmüşdü, burnunun üstündən vurulub geri qaytarılanı isə taleyin məsxərəsi kimi indi xəstəxanada peyda olmuşdu. Gözlənilən bir hadisə baş verməyəndə o qədər ehtimallar, yozumlar uydurulur ki... Bəyəm mənim Fərəhlə evlənəcəyim yüz faizlik idi? Bəlkə, bizimki heç tutmayacaqdı. Bəlkə, üçüncü bir variant ortaya çıxacaqdı? Eh, o qədər bəlkələr var ki...

Üzümü Fərəhə sarı çevirəndə baxışlarımız toqquşur. Ürəyimdən sızıltı keçir. Bu qız indi mənim üçün kimdir? Ani, həzin bir xatirəmi? Yenidən yolum üstə çıxmış təsadüfmü? Damarlarında qanım axan insanmı? Bir daha sevgi mövzusunda danışacağım qadınmı?

İçimdə, qəlbimin lap ucqar guşəsində bu qızdan deyəsən, nəsə ilişib qalıb axı? Qalıb, qalıb... Qalmasaydı, dərhal çıxıb getmişdim burdan.

Axı, məni çağıran, arxasınca tələsdirən səbəb də var. Hər tərəfin qan ağladığı bir gündə keçmişə qayıtmağın vaxtıdırmı? Ayaqlarımı yerə mıxlayan nə idi?

Qapıdan çıxanda sonuncu dəfə Fərəhlə baxışdıq. Anası özünü məşğul göstərirdi. Yəqin, ən qısa zamanda bura qayıdacaqdım. Fərəhin gözlərindən intizar yağırdı.

Xəstəxanaların arasında qalmışdım. Hər yerdə biri-birinə oxşayan mənzərələr, görüntülər, həyəcanlar, nalələr, göz yaşları... Qaranı tapmadım, onu "gördüm" deyən olmadı.

Eşidirəm ki, küçədən yığılan ölülərin çoxunu Təzəpir məscidinə aparıblar. Qaranəfəs özümü ora çatdırıram. Məscidin həyətində adamlar zəmi kimi dalğalanır. Qardaşımın meyitini axtardığımı

deməyə məcbur oluram. Yoxsa, irəli addımlamaq mümkün deyil. Dərdimi bilincə, adamların mənə ürəyi yanır. Basırıqda nəfəslərini buraxıb gərilmək hesabına arxadan itələyə-itələyə məni irəli ötürürlər. Qışın bu sazaqlı günü qan-tər içində məscidin yuyat yerinin qapısından içəri girirəm. Mollalar mağmın-mağmın mənə baxırlar, sanki növbəti ölü yiyəsinə təskinlik verməyə söz axtarırlar. Ətrafı gözdən keçirdirəm. Yiyəsi çıxan ölüləri yuyub, kəfənləyib sıra ilə yan-yana düzüblər. Nə qədər yusalar da, güllə dəlmə-deşiklərini pambıqlasalar da, meyidlərin qanını kəsə bilməyiblər, kəfənlərdə iri qan ləkələri görünür. Sayıram, hələlik sahibsiz səkkiz ölü var. Gözlərim ildırım kimi ölülərin üzlərində şaxıyıb sönür. Yox! Bunların heç biri Qara deyil. Səsimin çıxmadığını görən mollalardan biri deyir:

– Bala, sən bir Əjdərbəy məscidinə də baş vur! Bura sığışmadığına görə ölülərin bir hissəsi oraya aparılıb.

Ürəyim sancır, ancaq nəfəs dərmək zamanı deyil. Axtarışı davam etdirməliyəm. Öz-özümə "Gedək!" deyirəm. Ayaqlarım hərəkətə gəlir. Qapının ağzında caydaq bir kişinin yanındakı adama dediklərini eşidirəm:

– 1918-ci ilin martında Bakıda bolşeviklər, daşnaklar böyük qətliam törədiblər. O zaman da küçələrdən, dalanlardan, şəhər gömrükxanasının, yükdaşınma limanının həyətindən yığılan ölülərin əksəriyyətini Təzəpirnən Əjdərbəy məscidində yuyub kəfənləyiblər. Ancaq cənazələrin hamısı axırda Çəmbərəkənd qəbirstanlığına burdan aparılıb.

Demək, yetmiş iki ildən sonra müsibətimiz təkrarlanırdı.

"Göy məscid" deyilən Əjdərbəy məscidində də elə Təzəpirdə gördüklərimi gördüm. Ancaq gendən fərqli bir ölü göstərdilər mənə. Üstündən tank keçmiş, əti-sümüyü qan ləkəli plaşın arasına yığılmış ölünün təkcə dirsəkdən aşağı sol qolu salamat idi. Mürdəşir məni yaxına gətirdi. Tək qol ayrıca qoyulmuşdu ki, bəlkə tanınıb yiyəsinin kimliyi bilinə.

Qola diqqətlə baxdım. Adətən mollalar, həkimlər ölüləri belə təmkinlə başdan-ayağa süzürlər. Qanı çəkilib ağappaq ağarmış, görkəmi dəyişmiş qançır kəsik qol ölçüsünə görə Qaranın qoluna oxşayırdı.

Dəqiqləşdirmək çətin idi. Axı, bu vaxta qədər qardaşımın sağ, sol əlinin cizgilərinə dörd gözlə baxmamışdım. Birdən yadıma düşdü ki, qardaşımla mənim əl dırnaqlarımız biri-birinin eynidir, qısadır, bu cəhətdən anamıza çəkmişik. Qabaqlar anam bu oxşarlığı təkrar-təkrar bizə xatırlatmışdı, onun sözləri köməyimə çatdı. Birinci dəfə baxırmış kimi dırnaqlarıma göz yetirdim. Sonra öz dırnaqlarımı kəsik qolun əlinin dırnaqları ilə tutuşdurdum. O dırnaqlar mənimkindən uzun və yaraşıqlı idi.

İndi nə edəydim? Güman min yerə gedirdi. Nəyin doğru, nəyin yalan olduğunu ayırd eləmək müşkül məsələ idi. Arada söz də gəzirdi ki, yaralıların, ölülərin çoxunu gəmiyə yığıb Xəzərə boşaldıblar. Nargin adasının da adını çəkirdilər. Bu ada ölüm düşərgəsi kimi insanların düşüncəsində çoxdan özünə yer elədiyinə görə canıma vic-vicə düşürdü. Yəni Qaranın soyumamış cəsədi indi Narginin qumlu torpağının altında gizlədilib? Düşüncəmdən diksinirəm. Bu nə sarsaq fikirlərdir, beynimi dalayır? Noolsun, hərə ağlına gələni danışır? Axı, dünən gecə atışma başlayan saatdan bəri Bakı limanındakı bütün gəmilər “SOS” siqnalı verir. Onlar qurşaq kimi Bakının belinə sarılıblar. Heç onların arasından hansısa yad gəmi açıq dənizə çıxa bilərdi? Yenə də axtarışımı davam etdirmək fikrinə düşürəm. Milis, dövlət idarələri iflicdir. İndi itkin düşmüş bir adamdan ötrü harasa müraciət etməyin yeri deyil. Şəhərin bütün sakinləri çaş-baş qalıb. Deyirlər, Salyan kazarmalarında qırğına etiraz edən azərbaycanlı zabitlərlə rus zabitləri arasında qarşıdurma və atışma olub. Ölənlər, yaralananlar var. Dörd tərəfdən qara xəbərlər gəlir.

Yenidən Mərkəzi Komitənin qabağına qayıdıram. Moskvaya, Sovet Ordusuna, yerli hökumət rəhbərlərinə nifrət yağışı yağmaqdadır. Mitinqdə qanlı faciə barədə bütün dünyaya xəbər verilməsi, məlumat göndərilməsi haqqında təkliflər səslənir. Deyirlər, hər kəs Sovet İttifaqı respublikalarının paytaxtlarında olan “Marks”, “Engels”, “Lenin”, “Kalinin”, “Kirov”, “Dzerjinski” və sair məşhur kommunistlərin adlarına qoyulmuş mərkəzi küçələrdəki evlərin mənzillərinə məktublar, teleqramlar vurub Bakı qırğını barədə məlumatlar yaysın. İdeya kimin ağlına gəlmişdisə, məntiqli gediş idi. Sovet İt-

tifaqı respublikalarının nəinki paytaxtlarında, elə irili-xırdalı bütün şəhərlərində böyük küçələr, prospektlər eyni adamların, kommunist ideologiyasının rəhbərlərinin adına idi.

Aksiyaya qoşulmağı vacib bildim. Cibimdə pul da vardı. Mərkəzi poçta getmək istəyirdim ki, keçmiş Bakı milyonçusu Mirzəbəyovun binasının çardağında yerləşən rəssam emalatxanaları yadıma düşdü. Yolunu bilirdim, ordan bütün Bakı aydın görünür. Pilləkənlə "Bakı Soveti" metrosunun qabağındakı altımərtəbəli binanın təpəsinə qalxdım.

Çox qəribədir, tamaşaya dayanmağımla iki-üç gəmi tərəfindən əmrə tabe olmayan bir gəminin gülləyə tutulması başlandı. Bakı qırğını hələ bitməmişdi. Az sonra atışma kəsildi. Görünür, atəşə tutulan gəmi müqavimətin mənasız olduğunu anlayıb itaət etdi. Deyilənlərə inanmağa başladım. Limanda yığışan balıqçı gəmiləri idi, aralarında hərbi gəmilər də vardı. Həmin hərbi gəmilər şəhidlərin meyitlərini daşıyıb dənizə tökə bilərdi.

Binadan enib mərkəzi poçta getdim. Sanki bundan başqa heç bir şey bacarmırdım.

Məktuba hövsələm çatmazdı. Eyni məzmunda teleqram mətni yazıb iyirmiyə qədər şəhərə göndərilməsini xidmətçidən xahiş etdim. Görünür, məndən qabaq da oxşar teleqramlar, məktublar göndərənlər olmuşdu. Poçtda işləyən qız təlimat almış kimi ünvan məsələsini tənzimləyirdi. Teleqramların pulunu ödəyib küçəyə çıxdım. Azacıq yüngülləşdim. Ancaq rahatlığım tez keçib getdi. İndi belə xırda şeylərlə baş qatmaq olmazdı.

Qara ilə bağlı gedəcəyim başqa bir yer ağlıma gəlmirdi. İki günlük axtarışım boşa çıxmışdı. Elə geniş əlaqəli, dost-tanışlı, təcrübəli deyildim ki, asanca çıxış yolu tapam. Kor-peşman evə qayıtmışdım. Elə təzəcə paltarımı soyunub oturmuşdum, qapı döyüldü. Qardaşımı görmək ümidilə cumub qapını açdım. Atam idi, məni görən kimi gözləri parıldadı. Qapıda qucaqlaşdıq. Onun haçansa məni qucaqlayıb bağrına basdığı yadıma gəlmirdi. Bəlkə də, buna heç vaxt tutarlı səbəb olmamışdı. Nə uzun müddət biri-birimizdən aralı düşmüşdük, nə bir çətinlikdən keçmişdik. Ölümdən qurtulduğuma görə məni əzizləyirdi.

– Qara da yanındadır? – Atamın ilk sualı belə oldu.

Tutuldum. İçəri keçdi. Vəziyyəti dəqiqləşdirmək üçün bir də Qaranı soruşdu. Dillənməsəydim, bəlkə də hövsələdən çıxacaqdı, cavab verməyə tələsdim:

– Qaradan xəbər-ətər yoxdur.

Atam udqundu. İndi Bakıda kiminsə güllələndiyinə inanmaq, ölüm xəbərini qarşılamaq çox asan idi. Fikirli-fikirli dedi:

– Deyirlər, on mindən çox adam öldürülüb.

Bu, atamın Qaranın ölümü ilə barışması idi artıq.

Atamla üz-üzə əyləşib xeyli söhbət etdik. Qanlı gecədə gördüklərimi, eşitdiklərimi, gündüz qardaşımla bağlı axtarışlarımı bircə-bircə danışdım. Qaranı daha haralarda axtarmaq barədə atam yönlü bir fikir irəli sürmədi.

Birdən sanki yaddaşımın bir damarı oyandı:

– Ata, bu gün Mərkəzi Komitənin qabağında eşitdim ki, dünən, bu gün həbs edilənlər də olub. Bəlkə Qaranı da tutublar?

Bu versiya hər ikimizə bir qədər rahatlıq gətirdi.

Sabah şəhidlərin dəfni olacaqdı.

“Şəhid” sözünü öldürülənlərin adına yaxşı yaraşdırmışdılar. Bu günə qədər din yolunda canından keçənlərə “Şəhid” deyirdik. Sonuncu dünya müharibəsində cəbhədən qayıtmayanlar “qəhrəmancasına həlak olmuşlar”dı.

Səhər atamla Azadlıq meydanına gəldik. İynə atsaydın, yerə düşməzdi, bütün Bakı burda idi. Millət qan ağlayırdı. Mikrofon qurulmuşdu. Səsgücləndiricilər dəfn mərasimini yönəltməyə xidmət edirdi. Matəm mitinqini Bakı və Kəndlər Birliyinin sədr müavini Məşədi Vaqif aparırdı. Vaxtaşırı fatihə verirdi və əlavə edirdi ki, şəhidlərin xatirəsini anmaq üçün bir dəqiqəlik sükut elan etmirəm, çünki bu, ateistlərin vidalaşma üsuludur. Biz müsəlmanıq, bizimki “Fatihə”dir.

İctimai Dəfn Komissiyasının sədri, üzvləri, ağsaqqallar, din xadimləri hüznlə mikrofonda biri-birilərini əvəz edirdilər. Danışanlar Qorbaçova, Yazova, Bakatinə, Vəzirova, o biri hökumət adamlarına lənət yağdırırdılar. Bəziləri qaçıb gizlənmiş hərəkat rəhbərlərinin, burnu da qanamadan qeyb olmuşların adlarını çəkirdilər.

Arada Məşədi Vaqif tribunadan elan etdi ki, şəhidlərin dəfn olunacağı Dağüstü parka köməyə gedilməlidir. Qəbirqazanlıq etmək barədə düşünəndə bədənimə üşütmə gəlirdi, tüklərim biz-biz olurdu. Elə bilirdim ora getsəm, qardaşımın qəbrini qazacağam. Nəyə görəsə düşünürdüm ki, bu işi başqaları görməlidir. Nədən ötrü? Nə səbəbə? Eh ... başımı yellədirdim, guya hər sualın cavabını bilirdim?

Azadlıq meydanına gələn insanlar sıraları sıxlaşdırırdı. Bir yerdə durmaq mümkün deyildi. İrəli-geri itələnirdik. Hamının baxışları meydanın tribunasında birləşirdi.

Birdən atamın yanımda olmadığını hiss etdim. Böyrümə baxdım, ətrafıma boylandım, onu görmədim. Nəfəs-nəfəsə dayanan insanlar arasında onu necə axtaraydım? Bu boyda dəfn mərasimi görməmişdim deyə, özümü necə aparmağı bacarmırdım.

Vaxt ağır keçirdi. Anlar, dəqiqələr sürünürdü. Elə bil, zaman da yaralanmışdı, güllələrdən deşik-deşik olmuşdu. Hamı böyük güc qarşısında imkansızlığını anlamışdı. İnamlar yerindən laxladılmışdı. Əlbəttə, həmişəki kimi mən qəlbimin dərinliyində məğlub olmurdum. Geri çəkilmək, ayaqlara düşüb ləyaqətimi itirmək fikrindən çox-çox uzaqdım. Dərin, qaranlıq quyuya oxşayan günün içərisindən dişimlə-dırnağımla çıxıb qurtulmağı bacarmalı idim.

İzdiham çalxalandı, üstü qan rəngli qərənfillərlə örtülü tabutlar çiyinlərə götürüldü, ağır addımlarla irəliləməyə başladıq. Mənə ən çox təsəlli verən Abşeron kəndlərindən gətirilmiş milyonlarla qərənfillər idi. Yas tutmaqdan başqa heç nəyə gücümüz çatmırdı. Bəlkə də, tarix boyu heç bir dəfn mərasimində bu qədər gül-çiçək sərf edilməmişdi. 20 yanvar günündən başlayaraq gülçülər hadisə zamanı bütün qan axıdılan yerlərə, şəhidlərin cənazələrinin keçdiyi küçələrin hər qarışına, şəhid məzarlarına göz yaşlarında islanmış qərənfillər düzdülər. Hətta kimsə “Nizami” metrosunun qabağındakı yeddi-səkkiz metr hündürlükdə olan Azad qadın heykəlinin qucağına bir dəstə qərənfil qoymuşdu. Adam elə hündür, dimdik postamentə necə dırmaşa bilərdi? Bəlkə gecə ilə xususi krandan istifadə etmişdilər? Nə bilmək olar?! Bütün SSRİ məkanında neçə onilliklər boyu baha tutulan və çox xeyir işləri aşıran gözəl, utancaq, abırlı-həyalı Bakı qərənfilləri

çevrilib yas, matəm çiçəyi olmuşdu. Bu hadisədən sonra yalnız qəbiristanlıqlara gedən yolların kənarında satılan, həmişə üçə, yeddiyə, qırxa tələsən adamların qucağından ürkək-ürkək boylanan qərənfillərə də şəhid demək olar. Görəsən, qərənfillər haçansa yasdan çıxa biləcəklərmi?

Hamının çiyni batmışdı, ağırlıq daşıyırdı. Fikrimdən irəli durmaq keçsə də, adam əlindən cənazələrə yaxın düşmək mümkün deyildi. Hər bir tabutun altında lazım olduğundan beş-altı dəfə çox adam vardı. Onlar bir-birinin sərbəst addım atmasına mane olurdu. Mən yalnız Teleteatrın yanında on üç yaşlı şəhid Larisanın köçünə yanaşa bildim. Dəfn karvanının təxminən ortalarında idim. Sonralar hərbi operator Seyidağa Mövsümlünün (*O, Xocalı müsibətinin görüntülərini "qeydə alan" operatorlardan biri olacaqdı*) və onun həmkarlarının çəkdikləri videolentlərdə gördüm ki, qarşıda Şeyxülislam Hacı Allahşükür Paşazadə, şair Bəxtiyar Vahabzadə, Qüdrət Əbdülsəlimzadə və başqa ağsaqqallarımız gedirmiş. Tanınmış hökumət adamlarından heç kəs gözə dəymirdi. Yəqin ki, Kreml icazə verməmişdi.

Hönkürtümü boğsam da, gözlərimin yaşı qurumurdu. Larisanın məktəbli paltarlarını, məktəb çantasını tabutun üstünə qoymuşdular. Larisa atası ilə dünən səhər məktəbə gedərkən ata-bala gülləyə tutulmuşdular. Yaralı ata xəstəxanada yatırdı, qızının dəfnində iştirak edə bilmirdi. Anası ağlaya-ağlaya "Larisa, qızım, sinif yoldaşların səni soruşsalar, nə cavab verim? Atan ayılanda səni istəyəcək, axı?" dedikcə ətrafdakıların ürəyinə dağ çəkirdi. Ana elə danışırdı, elə ağlayıb sıtqayırdı ki, sanki qızı bu dəqiqə onun halına dözməyib tabutdan başını qaldıracaqdı.

Dağüstü parka çatdıq. Qələbəlik daha da sıxlaşmışdı. On üç yaşlı şəhid qızın mafəsini tabut gözləyən qəbirlərə yaxınlaşdıranda kimsə sinəmdən basıb məni kənara itələdi. Bir dəqiqə sonra gördüm ki, çıxdaş edilən təkcə mən deyiləm, qəbirlərin ətrafını seyrəltmək üçün yaxına artıq adam buraxmırdılar. Düz də eləyirdilər, basabas yaratmaq zamanı deyildi. Qırağa çəkilib hündürə çıxdım. Qəbirlərin sırasına baxanda birdən atamı gördüm. Əlində bel təzəcə basdırılmış şəhid qəbrinin üstünü torpaqlayırdı. Deməli, "Azadlıq" meydanın-

da qəbir qazanlara kömək edilməsi barədə çağırışa qoşulub mənə demədən buraya gəlibmiş. Heyran-heyran atama baxdım. Necə də cəld işləyirdi. Birdən-birə sinəm genişləndi, qəddim dikəldi. Yox, həyat hələ bitməmişdi. Böyük qürurla atamın əlindən beli alıb onun əvəzinə işlərdim. Ancaq indi bu xoşbəxtliyə qovuşmaq heç də asan deyildi.

Gendən gördüm, Lalə də dəfndə imiş. Yuxusuzluqdan, ağlamaqdan gözləri şişmişdi. Başımın, əllərimin hərəkətləri ilə qardaşımı ondan soruşdum. Dodaqlarını büzüb məzlum-məzlum mənə baxdı. Demək, o da qardaşımı axtarırdı.

Şəhidlər torpağa tapşırıldı. Qəbirlərin üstünü qərənfil qalağı örtmüşdü. Dəfn olunanların qohum-qardaşları qəbirləri dövrələmişdi. Yaşından, milliyyətindən, dinindən, ağlından, dünyagörüşündən, xasiyyətindən asılı olmayaraq hamı biri-birinə qarışmışdı. İlk iki qəbir lap ürək parçalayırdı. Orda yatanlar təzəcə evləniblərmiş. Danışırdılar ki, onları əvvəlcə bir qəbirdə üz-üzə dəfn etmək istəyiblər. Amma sonra fikir dəyişib. Müsəlman dininin ənənələri buna yol vermədiyinə görə yanaşı basdırıblar. Yolda tankların qarşısını kəsib dayandırmaq istəyən İlham güllələndikdən sonra Xırdalanda dəfn edilib. Ancaq, şəhidlərin eyni qəbiristanlıqda basdırılacağı söhbəti yayılanda ailədə onun axirət evinin dəyişdirilməsi fikri ortaya çıxıb. Gənc ərinin birinci dəfninə qədər çatdırıb özünə qəsd edə bilməyən altı ayın gəlini olmuş Fərizə ikinci dəfnə hazırlaşıb. Özünü şübhəli apardığı üçün ona nə qədər göz qoysalar da, gecə hamını yuxuya verərək ölümcül dozada sirkə içib həyatını bitirmişdi zavallı gəlin.

Sıxlıqdan qoşa qəbrin qarşısında çox durmaq mümkün deyildi. İlhamla Fərizənin qəbirlərindən sonra üç naməlum qəbir yanaşı sıralanmışdı. Qüdrət Ədülsəlimzadə həmin qəbirlərin başında dayanıb deyirdi ki, burda 1918-ci il mart qırğınında öldürülmüş soydaşlarımızın sümükləri basdırılıb. Sümüklər qəbir yerlərini qazanda tapılıb. Beləliklə, onlar aradan yetmiş iki il keçəndən sonra yenidən şəhid kimi dəfn edilib. Həyatın işinə bax, Sovet hökuməti daşnakların və bolşeviklərin qanlarına qəltan etdiyi soydaşlarımızın qəbirlərini park

salmaq adı ilə yerlə-yeksan etsə də, cinayətin izini itirə bilməmişdi. Demək, törədilmiş cinayəti birdəfəlik ört-basdır etmək fikrinə düşənlər axmaqcasına yanılırlar.

Qüdrət müəllim yana-yana bir tükürpədici fakt da söylədi. Şəhid Rövşən Rüstəmovun cəsədində 23 güllə yarası varmış. Nifrətə baxın, az qala bütün avtomat darağını əliyalın bir oğlanın bədəninə boşaldıblar.

Qəbiristanlıqda yiyəsiz bir qol da basdırmışdılar. Bu mənim "Əjdərbəy" məscidində gördüyüm yiyəsi xıncım-xıncım olmuş həmin kəsik qol idi.

Birinci gün atam əlli bir şəhid qəbri saymışdı.

Axşam dəfndən qayıdanda canıma dəhşətli bir yorğunluq gəlmişdi, süstləşmişdim. Düşünürdüm ki, şəhidləri dəfn etdik, bəs sonra? Təzədən güc yığmaq lazım gələcəkdi. Qara fikrimi qarışdırırdı. Fərəh də elə bilirdim məni gözləyir bu saat.

Azadlıq meydanından Şəhidlər Xiyabanına qədər çiyinlərdə gedən qırmızı örtüklü tabutlar gözümün qabağından getmir. Deyilənlərə görə, indiyədək Bakıda qəbiristana qədər çiyinlərdə ən uzun yolu yalnız bir tabut gedib. O da qırx beş il bundan əvvəl ölmüş şair Əliağa Vahidin tabutu. Sağlığında gəzərkən əlində çiçək və ya reyhan dəstəsi tutan xalqın sevimli qəzəl şairi Əliağa Vahidin cənazəsi Yazıçılar İttifaqından götürüləndə izdiham məşhur adamların basdırıldığı üç kilomert üzü yuxarıda yerləşən Fəxri Xiyabana yol alır. Hökumətin siyasətinə yad olan şairi xalq, mütəfəkkirlərimizin uyuduğu qəbiristana layiq bilir. Hakimiyyətdən heç bir razılıq almayan üç kilometrlik dəfn karvanı Əliağa Vahidin cənazəsini Fəxri Xiyabanda torpağa tapşırır. İndi şəhidlərin dəfn yerini də xalq seçmişdi. Əliağa Vahid ölən günü taksilər adamları yas yerinə havayı aparırmış. İndi də üç gün idi ki, Bakıda metro pulsuz işləyirdi.

Təxminən bir saatdan sonra atam da gəlib çıxdı. Qapıdan girən kimi telefonun dəstəyini qaldırıb anama zəng etdi. Demə, bu gün səhər anamın qan təzyiqi qalxıbmış, evimizə təcilli yardım maşını çağırılıbmış. Atam telefonda başqa söhbət eləmədi, yalnız sabahdan Qaranı axtaracağımızı dedi. Anamın qan təzyiqi tez-tez oynayırdı.

Son illər ölkədə baş verən faciələrin bizim evin içinə qədər gəlib çıxması anamı haldan salmışdı.

Atam qapqara qaralmışdı. Özü göz qabağında olsa da, fikri bəlkə anamın, qardaşımın, şəhidlərin yanında idi.

Atamla Bakı şəhəri hərbi komendantlığına getdik. Hamının üç gün əvvəl Bakıda törədilən qırğının günahkarlarından biri kimi tanıdığı Bakı şəhər komendantı, general-mayor Dubinyakı görmək idi fikrimiz (*Vladimir Dubinyak 1986-ci ilin dekabrında Alma-Ata qırğınının da baş qəhrəmanlarından biri olmuşdu*). Xəbər çıxmışdı ki, qanlı gecənin ertəsi günü şair Bəxtiyar Vahabzadə AzTV-nin komendantı general Ovçinnikovun üzünə tüpürmüşdü. General əvvəl özündən çıxmışdı, sonra onu başa salmışdılar ki, qarşısındakı elə-belə adam deyil, Xalq şairidir. O, bir saat sonra ətrafındakılara deyirmiş: "Məni təhqir etdiyinə görə, şairi güllələyə bilərdim. Allah üzümə baxdı, adım Puşkinin, Lermontovun qatilləri Danteslə, Martınovla bir sırada çəkilməyəcək."

Yeri düşmüşkən, bu hadisədən təxminən il yarım sonra Moskvanın "İzvestiya" qəzetində oxuduğum bir məqaləni də yada salım. Məqalə general Dubinyakın ölümünə həsr olunmuşdu. General uzun illər ürək xəstəliyindən əziyyət çəkibmiş. Xaraktercə kövrəkliyindən yazılırdı onun. Şairliyi də varmış, hərdən lirik şeirlər yazırmış. Yazının bu yerində dərindən bir ah çəkməyəsən, neyləyəsən? Axı, insan xisləti niyə belədir? Cəllad rolu nəyinə lazım idi şair təbiətli bədbəxtin? Bəlkə ömrü boyu şair kimi tanınmaq istəyib, amma rütbə, mənsəb, tamah hissi onu qəddarlaşdırıb, qan çanağına çəkib. Şəkidə olarkən Kiş kəndində yaşayan şair, tərcüməçi, fransız dilinin bilicisi Vaqif Aslan Migel Servantesin 1845-ci ildə Parisdə çap olunmuş "Don Kixot" romanını mənə göstərib kitabın ön sözündən bir abzası oxuyaraq tərcümə etdi. Məqalə müəllifinin yazdığına görə, Servantes fəxrlə deyirmiş: "Şəxsən mən 1571-ci ildə Misirdə Osmanlılara qarşı müharibədə beş yüz türk əsgəri öldürmüşəm." Basıb-bağlamaq buna deyirlər. Bir yazıçı dayandoldurumla beş yüz döyüşkən əsgəri öldürə bilər?! Türk əsgərləri belə mağmın idilər bəyəm?! Lap tutalım, rəvayətə

inandıq, mənə yer eləyən başqa şeydir, böyük yazıçı amansız qatil olmağı ilə öyünürmüş.

Atamla Dubinyakın qəbuluna düşə bilmədik. Sərt komendant rejimi vardı. O, heç şəhərimizdə fövqəladə vəziyyətin ləğv edilməsi, Bakıdan qoşunların dərhal çıxarılması barədə Ali Sovetin növbədənkənar sessiyasının qərarını vecinə almamışdı, bizi sayacaqdı?! Amma uzun çək-çevirdən sonra öyrəndik ki, Qaranı bir aylıq həbs ediblər, Şüvəlan türməsindədir. Həbsin axırının nə ilə qurtaracağını düşünmədən Qara sarıdan bir az arxayınlaşdıq. Atam evimizə, xəstə anamın yanına qayıtmaqdan ötrü məndən ayrılıb maşınına mindi.

Şüvəlan türməsinə yollandım, Qaranı görməyə. Ancaq yaxına düşə bilmədim. Heç kəs heç kəsin kitabını oxumurdu. Bilmirdin, sözünü kimə deyəsən. Ətrafı qorxu bürümüşdü.

İki gün sonra səhər qəzet köşklərinin qabağında böyük növbə vardı. Hamı "Səhər" qəzetini alırdı.

Qəzetin birinci səhifəsini Bakı şəhər komendantlığının xəbərləri tutmuşdu, qalan səhifələrdə Bakının qana bulaşmış küçələrinin əksi, şəhidlərin siyahısı, onların dəfn mərasiminin şəkilləri, qərənfilli tabutlar, yazıçı Anarın matəm haqda məqaləsi, şair Məmməd Aslanın "Ağla, qərənfil, ağla!" şeiri və başqa materiallar verilmişdi. Baş redaktor Məzahir Süleymanzadə sonralar həmin nömrənin buraxılma tarixcəsindən danışıb deyirdi: "Qəzetin maketini hazırlayıb "Azərbaycan" nəşriyyatının hərbi komendantı general Andreyevə təhvil verdik. Heç bir qəzet hərbi senzuradan keçməmiş çapa göndərilmirdi. Ertəsi gün generaldan cavab çıxdı. Nömrənin çap olunmasına icazə verilirdi, amma bir şərtlə. Şərt ondan ibarət idi ki, on iki səhifəlik qəzetin birinci səhifəsində Bakı şəhər komendantlığının əmrləri, sərəncamları və məlumatları çap ediləcək, qalan on bir səhifədə isə redaksiyanın materialları. Tərəddüd içində idik, xalqın qəzəbinə tuş gələ bilərdik. Faciəmizi eşidib xəstə-xəstə Alma-Atadan Bakıya gəlmiş və fürsət tapıb bizimlə görüşən qazax şairi Oljas Süleymenovla məsləhətləşdik. Oljas ağa dedi:

– Nəinki on bir səhifəni sizə verib bir səhifəni özlərinə götürsələr, hətta bir səhifəni sizə verib, on bir səhifəni özlərinə götürsələr də

razılaşın. Bu nəhəng faciənin xəbərini gecikdirmək olmaz, bütün dünya ondan xəbər tutmalıdır.

Sanki yuxudan ayıldıq, general Andreyevilə razılaşdıq."

Şəhərdə hamının həm qəzəbli və acıqlı, həm də kədərli və tutqun günləri başlamışdı. Düşmənlərimizi düşünüb qəzəblənir, dişimizlə dilimizi-dodağımızı gəmirir, basıldığımızı, itkilər verdiyimizi görüb qaradinməz olurduq. Gücümüz ona çatırdı ki, matəmimizi davam etdirək. Bakıda böyük tətil idi. Az-maz xidmət sahələrinə işə gedən vardı. Çörək zavodlarından başqa hər yer böyrü üstə qalmışdı. Bütün kişilərin üzünü tük basmışdı. Günlər keçdikcə kişilərin saqqalı uzanır, şəhərdə erkəklər biri-birinə oxşamağa başlayırdı. Kişidə sanbalı, zəhmi, ağır oturuşu-duruşu sevən tanış qadın sonralar həmin günləri xatırlayıb mənə demişdi: "Onda Bakı əsl kişi görkəmində idi."

Həyatımda ilk dəfə saqqal buraxırdım. Hər səhər güzgünün qabağında əlimi saqqalıma çəkib həm çölümün, həm də içimin dəyişdiyini açıq-aydın hiss edirdim.

Şəhərdə komendant saatına çox ciddi əməl olunurdu. Gündüzlər adamlar küçələrdə qaynaşsa da, gecələr heç kəs evdən bayıra çıxmırdı. Qaranlıq qarışandan sonra üç-dörd dəfə tək-tük güllə səsi eşidilirdi. Vahimə yaratmaq, adamlara qırğın gecəsini xatırlatmaq istəyirdi hərbçilər.

Yatanda boğulurdum, tez-tez diksinib yerimdən dik atılırdım. Ayaqlarımı çarpayıdan sallayıb oturur, qarışıq şeylər düşünürdüm. Həmişə az qala günortaya qədər yatmağı sevən direktorumuz Əli müəllim növbəti gün səhər saat doqquza işləmiş hardansa zəng elədi ki, dur, işə gəl.

Rişxəndlə məlumat verdi:

– Yeni müştərilərimiz hərbçilərdir!

Eşitmişdim, fövqəladə vəziyyətlə bağlı Bakıda bir çox ictimai binalar gəlmə əsgərlərlə doldurulmuşdu. Yaradıcılıq Evinin zəbt olunması məni təəccübləndirmədi. Tələm-tələsik geyinib evdən çıxdım. "Əzizbəyov" metrosundan Mərdəkana qədər, təxminən iyirmi beş kilometrlik yolun ortasındakı qoşa ağ xətt boyu iki istiqamətdə şəhidlərin xatirəsini andıran qərənfillər düzülmüşdü. Yaslı qərənfil-

lər Mərdəkana gedənlə Mərdəkana gedirdi, Bakıya gedənlə Bakıya. Qərənfillər nədənsə mənə uzun baş daşları üstə şaquli sıralanmış qədim Orxon-Yenisey yazılarını xatırladırdı. Tarix qərənfillərlə yazılmışdı.

Yaradıcılıq Evinin darvazasının qabağına çatanda qapıların barmaqlıqları arasından hərbi maşınları gördüm, üzümün damarları titrədi. Həmişə qənşərində gil yetimdoyduran fincanda pürrəngi çayı buğlanan gözətçi Kamilin balaca stolunun arxasında iki əli avtomatlı əsgər şöngümüşdü. Məni sərt qarşıladılar, vəsiqə istədilər. Əlimi qoyun çibimə atanda əsgərlərdən biri avtomatı şaqqıltı ilə ayağa çəkdi. Görəndə ki, cibimdən silah yox, sənəd çıxdı, gərginlikləri azaldı.

Kabinetimə gəldim. Görüləsi bir işim yoxdu. Otaqda var-gəl etməyə başladım. Direktorun qapısı bağlı idi. Həmişəki kimi ləngiyirdi.

Birdən Yaradıcılıq Evinin köhnə korpusunda özünə sığınacaq tapmış yazıçı Namiq Abdullayev yadıma düşdü. Bir həftə olardı ondan xəbərsiz idim. Hadisələrə başım elə qarışmışdı ki, uşaqlıqdan yetim qalmış, indiki altmış iki yaşında da yetimçiliyi tam gücü ilə davam edən, həmişə kiminsə himayəsinə, atalığına, qardaşlığına, dostluğuna, qəyyumluğuna ehtiyacı olan fil boyda kişini tamam unutmuşdum. Görəsən, bədbəxt oğlu bədbəxti didərgin salmamışdılar?

Köhnə korpusun ikinci mərtəbəsinə qalxdım və Namiq müəllimin otağının qapısını itələyib açdım. Həmin anda o, çarpayısının üstündə oturub başını aşağı salmışdı. Sağ əlinin barmaqları arasında siqaret tüstülənirdi. Məni görən kimi yerindən sıçrayaraq əlisiqaretli boynumu qucaqlayıb uşaq kimi ağladı. Bir az toxtayandan sonra siqaretini külqabına basıb söndürüncə ilk dediyi bu oldu:

– Elə bilirdim, səni də öldürüblər. Neçə gündür yoxa çıxmısan. Axı, məni tək qoyan deyildin. Düşünmürdün ki, bu xarabada bir kəsiyin qalıb?

Namiq müəllimi birtəhər sakitləşdirdim. Düzü, onun mənə bu qədər ürəkdən bağlandığını bilmirdim. Elə bil baxımsız qalmış uşaq onu atıb getmiş dədəsinə gileylənirdi. Təkcə mənim yox, millətin kövrək vaxtında zalım oğlu dərdimin üstünə dərd gətirdi, gözlərim

yaşardı. Özümə gələndən sonra dostumdan binamıza doluşan hərbçilər barədə məlumat almaq istədim.

Namiq müəllimin söylədiyinə görə, hərbçiləri raykomdan bura yönəldiblər ki, guya Yaradıcılıq Evi də Xalq Cəhbəsinin iç adamlarının tez-tez toplaşdığı mərələrdən biridir. Müdafiə naziri Yazov bəyan edibmiş ki, Bakıya AXC-nin strukturunu dağıtmağa gəlmişik.

Dedim:

– Hər şənbə günü cəbhəçilər bizim klubda yığıncaq keçirirdi, bilmirdin?

Yaşımız arasındakı böyük fərqə baxmayaraq "sən"lə danışdığım Namiq müəllim çox təəccüblə üzümə baxdı:

– Doğrudan? Bəs niyə xəbərim olmayıb?

– Sənin başın ayılır ki?

Onu, çox içdiyinə görə arabir sancsam da, məndən inciməzdi. Əlinə düşən pulu arağa-çaxıra verib boğazına tökdüyü üçün hərdən dostumu acılayıb ürəyimdən tikan çıxardırdım.

– Nə qədər əsgər olar burda? – yenə sual verirəm.

– İki yüz altmış nəfər! 20 yanvar gecəsi qırğın törədənlərdən deyillər, iki gün sonra gətiriliblər. Moskva Bakını güllələyən əsgərləri faciənin ertəsi günü aradan çıxardıb. Bunları mənə araq içirdib (*Sözə bir bax e, "içirdib"! Deməli, Namiq müəllim də millətin dar günündə boş dayanmayıb, düşməni hallandıraraq ondan hərbi sirrə oxşar nəsə qopardıb*) əhliləşdirdiyim bir polkovnik danışıb.

Deyinirəm: yüz iyirmi nəfərlik Yaradıcılıq Evinə iki yüz altmış nəfər dürtüşdürüblər? Binanı yaman günə qoyacaqlar.

Namiq müəllim ömrü boyu qazandıqlarını bir iri çantaya doldураraq divarın dibinə qoyub. O, kövrək-kövrək mənə baxır:

– İndi şələ-şüləmi götürüb qapıdan çıxacaqdım ki, sən gəldin.

– Hara gedirdin? – soruşdum.

– Ayaqlarım hara, başım da ora.

– Sən ki burda qala bilərsən. Hərbçilərin səninlə nə işi?!

– Dünənə qədər mən də elə düşünürdüm. Ancaq, dünən...

Nigaran-nigaran soruşdum:

– Nə baş verdi?

– Bayaq sənə bir polkovnikdən danışdım. Elə birinci gündən yanıma gəldi. Sanki havadan iyimi çəkib məni tapdı. Gecə yarısına qədər iki araq şüşəsi boşaltdıq. Çox da dərin adam deyil. Sən bilirsən ki, tək qalanda ən yaramaz adamla da yoldaşlığa dözənəm. Dünən günorta məni nahara dəvət etdi. Elə yeməkxanada qarşı-qarşıya oturub əlimizi süfrəyə aparırdıq ki, onu harasa çağırdılar. O gedəndən sonra mənim kimi yekəpər başqa bir polkovnik gəlib salamsız-kəlamsız qarşımdakı stula çökdü. Zabit yeməyə girişəndə dilim dinc durmadı, ona “Приятного аппетита!” (*Nuş olsun!*) dedim.

Polkovnik tərs-tərs baxıb məni acıladı:

– Если бы тебя не было, еще приятнее было бы! (*Sən olmasaydın, daha artıq nuş olardı!*)

Qaşığı boşqaba atıb ayağa durdum. Donuza cavab verməyi faydasız bildim. Gücüm özümə çatdı, rədd olub aralandım.

Namiq müəllim haçan damağına qoyduğunu görmədiyim siqaretini alışdırıb dərin bir qullab vuraraq dedi:

– Azadlıq böyük nemətdir! Üç gündür özümü əsir kimi hiss edirəm. Çox ağır gəlir mənə, çox ağır! Məni alçaldıblar. Ömrümə, həyatıma nifrət eləyirəm! Kişinin dövləti özününkü olar də!

Hirsindən dişlərini qıcıdırdı, söz eşidəcək halda deyildi. Tüstüsünü ciyərlərinin dibinə qədər çəkərək kötüyü külqabına sıxıb söndürdü. “Daha bir dəqiqə də bu xarabada qala bilmərəm!” dedi və çantasını götürüb qapıya sarı yönəldi.

Hara getdiyini bilmədən onu həyət qapısından yola salıb qayıtdım. Əli müəllim işçiləri kabinetinə yığmışdı. İçəri girəndə Natalyanı danışan gördüm. Deyirdi ki, hərbçilər binaya doluşan gün silahla qorxudub açarları ondan alıblar, lazım olduğundan artıq döşəkağlarını, yorğanüzlərini, balışüzlərini otaqlara daşıyıb aparıblar.

Aşbazlar, yeməkxana xidmətçiləri, anbardar, mühasib, o birilər yer-yerdən gileylənir, başlarını itirmiş kimi Natalyanın dediklərinə dəm tutub öz çarəsizliklərindən danışırdılar.

Hərbçilər Əli müəllimi də yaxına buraxmamışdılar, yerin sahibi kimi onunla heç bir danışığa girməmişdilər.

Direktordan tutmuş qarovulçulara qədər işçi kimi daha heç birimiz hərbçilərə lazım deyildik.

Bütün Bakı tətil etdiyinə görə biz də dağılışıb evlərimizə getdik.

Mixail Qorbaçovun siyasətini dəstəkləyən ABŞ, Böyük Britaniya, digər Qərb dövlətləri Sovet Ordusunun Bakıya təcavüzü ilə bağlı quru bəyanatlar verərək törədilən cinayəti "ölkənin daxili işi" hesab etdilər. Harayımıza hay verən yox idi, ümid özümüzə qalırdı. Yenə də Bakı sakinləri SSRİ-nin başqa respublikalarında yaşayan qohumlarına, dost-tanışa, əsgərlik, tələbə yoldaşlarına, vaxtilə bu şəhərdə yaşayıb köçmüşlərə, imkanı olanlar xaricdəkilərə başımıza gətirilən müsibətlərdən bəhs edən teleqramlar vurmaqda, məktublar yazmaqda, telefon açmaqda davam edirdi. Sanki xilasımız yalnız bunda idi. Şəxsən mən xeyrimizə bir söz eşidəndə, səsimizə səs veriləndə, "Amerikanın səsi"nin harayını, "Azadlıq" radiosundan Mirzə Xəzərin qırğın barədə həyəcanlı danışıqlarını dinləyəndə bir qədər toxdayırdım. Vaxtilə Azərbaycanda Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi olmuş, sonra Sovet hökumətində ən yüksək mövqe sayılan Siyasi Büronun üzvü seçilmiş, SSRİ Nazirlər Soveti sədrinin birinci müavinliyinə qədər yüksəlmiş, üç il öncə Qorbaçov tərəfindən istefaya göndərilmiş, insanların yaddaşında sərt və qətiyyətli dövlət adamı kimi qalmış Heydər Əliyevin Moskvada Respublikamızın nümayəndəliyinə gələrək günahkarları ittiham etməsindən, öz xalqına arxa çıxmasından küçədə, metroda, çayxanalarda rəğbətlə danışılırdı. Xəbər çıxmışdı ki, hadisədən bir gün əvvəl emissarlarının məlumatına inanan və iğtişaşların qarşısını almaq istəyən Mixail Qorbaçov Heydər Əliyevə zəng vurub hökmlə deyib: "Bakının küçələrindən adamlarını yığışdır!"

Heydər Əliyev məsuliyyətin kimin boynuna düşdüyünə işarə edərək təmkinlə cavab verib: "Mənim elə bir səlahiyyətim yoxdur".

Qafqaz Müsəlmanları İdarəsinin rəisi, Şeyxülislam Hacı Allahşükür Paşazadə SSRİ Ali Sovetinin sədri Mixail Qorbaçova nifrət və qəzəb dolu bir məktub göndərmişdi. Qəzetdə çap olunmuş məktub əl-əl gəzirdi. Həmin məktub çap olunmuş qəzeti özümdə saxlamışdım. Məktubun bəzi hissələrinin üzünü buraya köçürürəm:

“Nə qədər olsa da, mənim sözlərim Azərbaycan xalqının sonsuz kədərini, milyonlarla insanın üzərinə hakim kəsilmiş müsibəti çatdırmaq iqtidarında deyil. Bunları ona görə demirəm ki, dərdimizə şərik olasınız, halımıza acıyasınız. Bu, xalqım üçün təhqir olardı. Yanvarın 19-dan 20-nə keçən gecə və sonrakı günlər Bakıda törədilən vəhşiliklər heç bir ölçüyə sığmır. Şəhərin küçələri yüzlərlə günahsız qurbanların qanına boyanmışdır. Bunların arasında uşaqlar, qadınlar, qocalar vardır. Tankların tırtılları altında qalmış, pulemyot və avtomatlarla deşik-deşik edilmiş cəsədlər insanı dəhşətə gətirirdi. Bir dövlət başçısı kimi sizin imzanızla törədilən bu qanlı qırğına, bu dəhşətli cinayətə heç bir bəraət ola bilməz.

Qoşunların yeridilməsi üçün uydurulmuş bütün səbəbləri Azərbaycan xalqı nifrət və qətiyyətlə rədd edir.

Bilin ki, faciə ilə bağlı əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün əlimizdən gələni edəcəyik. Bir dövlət ki, imperiya hökmranlığı niyyəti ilə millətlərarası çaxnaşmanı aradan qaldırmaq əvəzinə onu daha da qızışdırır, bir dövlət ki, ordusunu öz vətəndaşlarının qatilinə çevirir, bir dövlət ki, öz adamlarına layiqli güzərandan daha çox ölmək hüququ verir, belə dövlət ancaq lənətə layiqdir.

Özlərini əsl işğalçı kimi aparan cəza qoşunlarını Bakıya yeritməklə Sovet hökumətini rüsvay etdiniz. Müstəqillik və xalqların ləyaqəti kimi anlayışlar bu hökumətə tamamilə yaddır. Bacarıqsız siyasi xadim və dövlət başçısı olduğunuzu təsdiq etdiniz. Xalqımın adından Bakıdan qoşun hissəllərinin dərhal çıxarılmasını qətiyyətlə tələb edirəm! Heç bir xalqla, həmçinin azərbaycanlılarla silah gücüylə danışmaq olmaz. Zorakılıq 10 gün, Əfqanıstandakı kimi 10 il davam edə bilər. Amma gec-tez ədalət qələbə çalmalıdır. Allah-təalanın izni ilə haqq işi Azərbaycanda da qalib gələcəkdir. Məhz buna görə xalqımın ən yaxşı oğul və qızları özlərini sovet qoşunlarının güllələrinə sipər etdilər. Dərin inamla və imanla üzümüzü böyük yaradana tutur, Onun ulu dərgahından şəhid olan balalarımız üçün rəhmət diləyirik. Qoy Allah-təala xalqımın başına fəlakət gətirənləri, bu işə rəvac verənləri zəlil etsin. Ya Rəbb, Vətənimizin, elimizin ağır günündə bizlərə özün kömək elə. Amin!”

Az sonra Moskvada SSRİ Ali Sovetinin sessiyasında çıxış edən bəstəkar, SSRİ Xalq artisti Arif Məlikov kürsüdən Qorbaçovu suçlayıb, onu “qaniçən”, “cəllad” adlandıracaqdı. Baş katib ittihama cavab verə bilməyib mövzunu dəyişməyə məcbur olacaqdı: “Mənim sevimli bəstəkarım, sizə yeni bir simfoniya yazmağı təklif edirəm.” (*Bizdə padişahın üzünə ağ olmurlar, ona hələm-hələm naqolay cavab qaytarmırlar. Ancaq su xirtdəyə çıxanda dillənənlər də tapılır. Əllinci illərin əvvələrində Mircəfər Bağırov yazıçıları qəbul edərkən, şair Səməd Vurğuna nədəsə nöqsan tutub, onu sıxma-boğmaya salırmış. Bəzi qorxaq yazıçılar da züy tuturmuş. Əlində bir topa karandaş oynadan I katib Əli Vəliyevi durğuzub fukrini soruşur. Əli Vəliyev mülayim səslə deyir: “Yoldaş Bağırov, Səməd Vurğun Azəbaycanın çox istedadlı şairidir!” Rəhbər qəzəblənir: “İdi!” Əli Vəliyev cəsarətlə “İdi və var!” deyərək oturur.*)

Hər gün, bəzən günaşırı şəhidlərin məzarını ziyarətə gedirdim. Sanki hər dəqiqə yas mərasimi təzədən başlayırdı. Hamı özünü ölü yiyəsi kimi aparırdı. Əslində, “sanki” sözünü işlətməyə ehtiyac yoxdur. Sözün həqiqi mənasında yas mərasiminin tempinin aşağı düşməməsinin bir səbəbi ümumxalq kədəri, o biri səbəbi isə məzarların sayının dayanmadan artması idi. Növbəti qurbanlar verirdik, qəbiristanlığa yeni şəhidlər gətirilirdi. Qüdrət Əbdülsəlimzadənin “Bütün Azərbaycan şəhidləri burda basdırılmalıdır!” çağırışından sonra qırğının ilk günlərində qohum-əqraba tərəfindən müxtəlif qəbiristanlıqlarda tələm-tələsik torpağa tapşırılmış şəhidlərin qəbirdən çıxarılıb buraya gətirilənləri də vardı. 20 Yanvar şəhidlərinin dəfnində xalqa qoşulub mərasimdə yaxından iştirak etmiş, çiynini tabut altına vermiş, göz yaşı axıtmış, düşmənin qarşısına çıxdığına görə qürur duymuş soydaşlarımızdan da sonrakı günlərdə şəhid düşüb, hətta, bəlkə, öz qazdığı qəbirdə basdırılanlar da olurdu.

Bakıda yas həmrəylik yaradırdı, adamları biri-birinə yaxınlaşdırırdı. Tarixdə xalqımız indiki qədər doğma, iç-içə olmamışdı. Elə bilirdim, hamı ilə bir nəfəs alıram.

Hərdən saqqalımı barmaqlarımla qarışdırıb təzədən hamarladıqca çoxları kimi düşünürdüm ki, Bakının işi dayandırıb tətil etməsi, əlini

ağdan-qaraya vurmadan oturması Moskvanı, Qorbaçovu geri çəkilməyə məcbur edəcək. Amma vur-tut il yarımdan sonra agah olacaqdı ki, onda nə qədər sadəlövh olmuşam. Və təəssüflə düşünəcəyəm ki, 20 Yanvar faciəsinə etiraz olaraq Bakı tətilə çıxanda da, biz saqqal saxlayanda da, Qorbaçovu və onun başındakıları içlərindən sevindiririkmiş. "Процес пошел!" (*Proses başladı*) deyə-deyə "Yenidənqurma" siyasəti fonunda SSRİ kimi nəhəng dövlətdə idarəetmə aparatını dağıdan adam hamını biri-birinə vururmuş.

İki il qabaq SSRİ müdafiə nazirini işdən çıxardıb başdan eləmək üçün necə asan üsul tapmışdılar. Məzhəkəyə baxın: Rust soyadlı hələ dimdiyinin sarısı getməmiş bir alman uşağı balaca idmançı təyyarəsini quşun quşluğu ilə səkib keçə bilmədiyi dövlət sərhədindən adladıb Kreml meydanına qondurur və SSRİ-dəkiləri ayıldır ki, siz heç də etibarlı, təhlükəsiz bir ölkədə yaşamırsınız.

Rustun cəsarətinə, uzaq hava yolunu basa-basa təyyarəsini adi bir düzənliyə deyil, hara-hara, düz SSRİ-nin göbəyinə endirməsinə heyran qalmışdım. Anlamamışdım ki, yayınıb sərhəddən keçmək, radarları aldatmaq bir yana, bəs oyuncaq təyyarə hansı yanacaqla belə uzun məsafəni arxada qoymuşdu? Nə qədər benzin tuturdu ki? Onda mənim kimi çoxlarının başına döyə-döyə inandırmağa çalışsaydılar ki, bu məsələ şəbehdir, qurğudur, inanan olmazdı. Balaca təyyarənin Almaniya ərazisindən deyil, elə Moskva ətrafından havaya qalxması kimin ağlına gələrdi?

Onda insanlar qəzetə, kitaba elə inanırdılar ki... Çünki yaxın illərə qədər mətbuatda yazılanlar, radio-televiziyada deyilənlər doğru çıxırdı. Hər xəbər, hər söz güclü sovet senzurasından keçirdi. Bir də axı, kim inanardı ki, dövlət başçısı xalqı aldadır?!

Dünən Şəhidlər Xiyabanından piyada qayıdarkən şair Xəlil Rzanı maşına basıb birbaşa Zirə aerodromuna aparmış, ordan xüsusi hərbi təyyarədə Moskvaya uçurtmuşdular. Təyyarəyə mindiriləndə zabitlərdən biri ondan soruşub:

– Silahın var?

Məğrur şair uca başını bir az da dikəldib tapanca kimi açılır:

– Var! Mən elə özüm silaham!

1988-ci ildən üzü bəri Xəlil Rza həmişə hadisələrin ən gur yerində olardı. Məclisə gəldisə, mütləq söz alıb çıxış etməliydi, varlığını bildirməliydi.

Bir dəfə Respublika Prezidenti olmazdan qabaq Bakıda hansısa yığıncağa dəvət edilən Heydər Əliyevdən soruşurlar ki, sizə də söz verilsinmi? Heydər Əliyev qısa və aydın cavab verir: "Mən bir məclisə dəvət aldımsa, oraya getməliyəm, getdimsə, çıxış etməliyəm, çıxış etdimsə, çıxışım mütləq çəkilməlidir, çəkilibsə, efirdə göstərməlidirlər. Əgər bunlar olmayacaqsa, o məclisdə nə işim var?"

Amma Xəlil Rzanınkı siyasətçi prinsipi deyildi. Beş-on nəfər olsa da, on min adamın qarşısına çıxsa da, onu yalnız tribunada söz deməyi maraqlandırırdı. Çıxışının sonunda isə mütləq bir şeir oxumalıydı.

Qırğından dörd gün keçmiş Elmlər Akademiyasında Sovet əsgərlərinin vəhşiliklərinə etiraz məqsədilə toplaşmış ziyalı məclisində yığıncağın sədri yazıçı Anardan çıxış üçün söz alan Xəlil Rzanın imperiya əleyhinə geniş nitqdən sonra, sicilləmə şeir oxuması adamları bıqdırıbmış.

O məclisdə olsam da, çox oturmamışdım, Xəlil Rzanın çıxışından qabaq getmişdim. Anar danışırdı, Xəlil Rza tribunadan ayrılarkən daxilən qəzəblənən Vaqif Səmədoğlu rişxəndlə söz atdı ki, Xəlilin şeirini yaxşı eşitmədim, bəlkə onu bir də oxusun? "İndi zarafat vaxtıdır?" deyib iclası bağlı elan etdim.

Bu həmin Xəlil Rza idi ki, deyirdi: "Mənzili mənə DTK (*Dövlət Təhlükəsizlik Komitəsi*) verib. Qorxusundan!"

Xəlil Rzanı Moskvanın Lefortovo zindanına salmışdılar. Müstəntiqlər gileylənirmiş ki, şairin son illərdə meydanlarda, məclislərdə, görüşlərdə gizli lentə alınmış çıxışlarına qulaq asıb qurtara bilmirlər, istintaq uzanır.

Hərəkat fəallarından Etibar Məmmədov, erməniləri Bakıdan qovmağa çağırış edən Məhəmməd Hatəmi, Tahir Qarabağlı da həmin türmədə yatırdı. Bakıda həbsə alınanların sayı bilinmirdi. Onların tək-tükü tanınmışlardı. Qardaşım Qara kimi sıravilər o qədərdi ki...

Sonrakı günlərdə Şəhidlər Xiyabanında axın-axın insanlardan Xəlil Rzanın, Etibar Məmmədovun azadlığa buraxılması üçün imza

toplayanlardan biri də mən oldum. Qardaşım Qara kimi məşhur olmayanlar üçün isə imza toplanmırdı.

Bir axşam evə dönəndə gördüm Balaşdan teleqram gəlib. Yazırdı ki, quruya çıxan kimi Bakıya qayıdacağam. Sağ qalıb-qalmadığımı bilmək istəyirdi bəlkə də.

Ona vurduğum teleqram 20 Yanvar qırğını ilə bağlı SSRİ-nin böyük şəhərlərinə göndərdiklərimin məzmununda idi.

Bakıda matəm elan olunmuşdu. Şəhərin küçələrindəki dirəklərdən asılmış, binaların giriş qapılarının üstünə taxılmış qara bayraqlar ruhumu əzmək, məni məğlub etmək istəyirdi. Bu, ötən illərdə ölkə başçıları Brejnevin, Andropovun, Çernenkonun ölümü ilə bağlı gördüyüm soyuq rəsmiyyət deyildi, üç gün əvvələ qədər eyni havadan udduğumuz, eyni sudan içdiyimiz, etiraz mitinqlərində yanaşı dayandığımız, qanları küçələrə tökülən, tabutunu çiynimizdə apardığımız həmvətənlərimizin müsibəti idi.

General-mayor Aleksandr Lebedin xatirələr kitabından öyrənəcəkdim ki, 20 Yanvar gecəsindən dörd gün sonra hərəsində on beş nəfər desantçı olmaqla on altı hərbi vertolyot Cəlilabada uçmuş, orda inzibati sturukturları iflic etmiş cəbhəçiləri pərən-pərən saldıqdan sonra Lənkərana, Neftçalaya hücum etmişlər. Neftçalalı rəssam Nadir danışırdı ki, Sovet ordusunun zabitləri Bakıda on doqquz yanvar gecəsi necə quduz və amansız idisə, bizim şəhərdə də eyni cür vəhşiyə dönmüşdülər, güllələnənlər, tank altında qalanlar, həbs olunanlar vardı. Şəhidliyin paytaxtı Bakı olduğuna görə ucqar rayon mərkəzi o qədər dilə-dişə düşmədi. Dünyanın diqqəti Bakıya yönəlmişdi. Neftçala faciəsi də Bakı faciəsinin üstündə gedirdi. Ayrılıqda götürülsə, Lənkəran qırğını da böyük faciə idi.

Azərbaycan boyu şəhidlər üçün çadırlar qurulub yas mərasimləri keçirilirdi, ehsan verilirdi. Cümə axşamı günlərində də yas çadırlarına yığışanlar az deyildi.

Bütün Azərbaycan Şəhidlər Xiyabanını ziyarətə gəlirdi. Hər gün burda matəm musiqisi eşidilirdi. Reproduktorlarda Habil Əliyevin kamançası, Əhsən Dadaşovun tarı, Həsrət Hüseynovun balabanı, Kamil Cəlilovun qoboyu nalə çəkirdi. Çalğılarını yaxşı ayırd edə

bilmədiyim məşhur tarzənlərimizin, neyçalanlarımızın, udçalanlarımızın vaxtilə lentə alınmış yanğılı musiqiləri biri-birini əvəz edirdi.

Bir neçə dəfə xəstəxanaya gedib Fərəhə baş çəkmişdim. Artıq onun dizində əməliyyat aparıb gülləni çıxarmışdılar. Yarası yavaş-yavaş sağalırdı. Ancaq çox narahat idi. Qorxurdu ki, axsaq qalar. Mən ona ürək-dirək verəndə sakitləşirdi, rəngi açılırdı. Bu o demək idi ki, yəni qoy hər şey sənin təsəvvür etdiyin kimi olsun.

Fərəhlə ümumi məsələlərdən danışırdıq, keçmişin üstünə qayıtmırdıq.

Hər dəfə ona baş çəkəndə yanından getməyimi heç istəmirdi. Ondan ayrılanda mənə elə gəlirdi ki, içinə qorxu dolur. Sanki yanımda özünü arxalı hiss edirdi. Bəlkə də, vəziyyəti şişirdirdim. Ancaq açıq-aydın görürdüm ki, gedəcəyimi bildirincə, üzünə bulud çökür.

Tutulduğundan düz otuz gün keçmiş Qaranı azadlığa buraxdılar. İctimai asayişi pozan kimi bir ay saxlanılmışdı. Qardaşımın dediyinə görə, həmin müddətdə türmədə də hamı bütün günü yalnız Bakıda və ətraflarda baş verən hadisələrdən danışırmış. Qardaşımı çox sorğu-suala çəkməmişdilər. Bircə onu xatırlayıb güldü ki, türmədə bayraqdar Elmana rast gəldim. “Sən də burdasan, Elman?!” soruşanda nə cavab versə yaxşıdır? Dedi: “Qardaş, mən elə burda olmalıyam da!”

Bayraqdar Elmanı Bakıda tanımayan yox idi. Uzun illər Özbəkistanda yaşamışdı. Fərqanə qırğınından sonra Bakıya qayıtmışdı. Səksən səkkizinci ildən başlayaraq mitinqlərdə üçrəngli, aylı, ulduzlu bayrağımızı götürürdü. Ünsiyyətdə olmuşdum, sadəlövh, saf adam idi. “Bayraqdar” ləqəbi ona yaraşırdı, bayrağımızı əlindən qoymurdu. Xalq hərəkatının ən fəal sıravi iştirakçısı kimi “bayraqdarlıq”la fəxr edirdi. İki oğlu vardı, birinin adını “Məmmədəmin” qoymuşdu, o birinin adını “Elçibəy”. Heç yerdə işləmirdi. Cəbhəçilər hakimiyyətdə olanda vəzifəli məsləkdaşları hərdən onun cibinə beşdən-ondan basırdılar. Elmanı ələbaxımlığa öyrətmişdilər. Hakimiyyət dəyişəndən sonra yığıncaqlarda cəbhəçilər məzə üçün onun halını soruşanda belə cavab verərdi: “Məmmədəminlə Elçibəy acından ölürlər.” Və azdan-çoxdan yenə də siyasi həmfikirlərindən nəsə qopardardı.

Şəhidlərin qırxı günü millət “Azadlıq” meydanına yığışdı. Ordan Şəhidlər Xiyabanına hərəkət etdik. Artıq hamı yolu bilirdi. Şəhidlərin dəfn günü bu yoldan keçmişdik. Neftçilər prospekti ilə “Azneft” meydanına sarı tərpənirik, ordan sağa burulub Filarmoniyaya çatırıq. Sonra Kommunist küçəsilə yüz metr gedib “Bakı Soveti” metrosunun qabağındakı “Təzəbəy” hamamının yanından bir də sola yön alıb, keçmiş Dağüstü parka üz tuturuq.

“Teleteatr”ın yanından üzüyuxarı qalxanda gördüm ki, bir dəstə cavan çiynində tutduqları iri xərəkdə ağzını göyə tutub ulayan iri bozqurd heykəli aparır. Heykəl gipsdən idi.

Alimlərin, bilicilərin millətimizin totemi, mifoloji başlanğıcı saydıqları bozqurd barədə adamlar hələ o qədər də məlumatlı deyildilər.

Heykəli aparanlara çatanda görürəm ki, onlar ətrafdan maraqlananlara bozqurd haqqında tutarlı məlumat verə bilmirlər. “Əcdadımız bozqurddur!” deyib dururlar.

Bir bakılı yaxınlaşıb soruşur:

– Əmiyoğlu, aparduğuvuz itdü?

Cavab əsəbidir:

– Bozqurddur! Biz bozqurdun törəmələriyik!

Bakılı tərəddüdlə dillənir:

– Alə, bəs deyirdilər, insanlar meymundan əmələ gəlib?

– Onu deyənlər meymundan əmələ gəliblər, biz bozqurddan!

– Həri?

Cavab verən bakılı ləhcəsinə keçir:

– Həri!

Ətrafdakılar hesabını götürür. Bu cavab hamıya sərf edir. Bəs necə? Bir var əslin bozqurd ola, biri var meymun. Hansı yaxşıdır? Əlbəttə, bozqurd törəməsi olmaq.

Hamı özünə qolay görünən şeyə daha tez inanır. Sonralar Bakıda “Bozqurd” Partiyası yaranacaq və heç bir rəsmi quruma tabe olmayan eyni adlı batalyona İsgəndər Həmidov başçılıq edəcək. Partiya lideri mitinqlərdə, iclaslarda tribunaya çıxıb sağ əlini havaya qaldırar, baş, orta barmaqlarını birləşdirib ağıza, şəhadət və çeçələ barmaqlarını şəklənmiş qulaqlara oxşadıb bozqurd başı fiquru düzəldər,

tərəfdarlarını qurd kimi uladar, hamını riqqətə gətirərdi. İlk dəfə bu mənzərəni görən yeniyetmələr, gənclər dərhal bozqurdçu olmağa tələsirdilər. Bozqudçulara həmrəy olmaq mənə də xoş gəlirdi. Arazın o tayından gəlmiş Araz Elsəs adlı gənc aşıq sazını qopuz kimi dizinin üstünə qoyub çalaraq qoşduğu mahnıda "Ulayım, qurd tək ulayım!" nidasının dalınca qurd kimi ulayanda meydan, salon az qalırdı dağılsın. Son vaxtlar Bakıda tez-tez adı tutulan Türkiyə Millətçi Hərəkat Partiyasının sədri, özü də totemimizə oxşayan Alp Arslan Türkeş sağ əlini havaya qaldıraraq bozqurd fiquruna döndərib şəkil çəkdirmişdi. Sonralar Ankarada bir millətsevər komratlı qızdan eşitdim ki, sən demə, simvolu Türkiyəyə qaqauzlar gətiribmiş və Türkeşi də həmin pozada şəkil çəkdirməyə onlar razı salıbmış.

Qara ilə Lalə də bozqurd heykəlini aparanların arasında idilər. Bu dəstədəkilərin hamısı doğrudan da, qurda oxşayırdı. Narahat, çevik, vurnuxan... Özlərini göstərməyə meydan, fürsət axtarırdılar.

Şəhidlərin məzarını ziyarət edib evə qayıdandan sonra içimdə yenə də dərin bir boşluq yarandı. Qırx günlük yas, deyəsən, çoxları kimi mənim də başımı qatırmış. Radio, televiziya insanları yasdan çıxartmaq üçün tanınmış adamların dilindən "Həyat davam edir!" şüarını o qədər səsləndirmişdilər ki...

Yoxsa, yenə ruh düşkünlüyü xəstəliyim mənə güc gəlirdi? Əvvəllərdə olduğu kimi baş barmağımı, düyməyə basırmış kimi, bədənimin nöqtələrindən birinə basıram, xeyri olmur. Sonra özümü motor kimi işə salmaq üçün ikinci, üçüncü, beşinci nöqtələri yoxlayıram, tüküm tərpənmir. Daha sonra baş barmağım qabırğalarım üstündə gəzdiyi nöqtəni axtarır. Deyəsən, əsəb düymələrim yorulub, işləmir, hissiyyatımın kəsəri lap azalıb, bədənimə bəs eləmir.

Fikrimdən keçir ki, bəlkə durub saqqalımı qırxım? Hamama keçib güzgünün qabağında dayanıram, diqqətlə özümə baxıram. İlahi, nə qədər yaşlanmışam. Gözlərimin kənarlarında, alnımda qırışlar əmələ gəlib. Xeyli arıqlamışam, üzümün almacıq sümükləri irəli çıxıb.

Bakıda komendant saatı davam edir. Azərbaycan Kommunist Partiyasının I katibi vəzifəsinə yeni təyin olunmuş Ayaz Mütəllibov öz hakimiyyətini qurmağa girişib.

Ağlıma gəlir ki, saqqallı şəkil çəkdirim, yadigar qalsın. Ertəsi gün şəkil çəkdirməyə gedirəm. Otuz yeddinci ilin şəkildə kədərli, üzgün görünən dustaqları kimi üzdən və yandan profil-anfas şəkillər çəkdirirəm. Bu gün saqqalla üzülüşməliyəm. Şəhidlərin qırxından sonra şəhərdə saqqallıların sayı azalıb elə bil. Adamlar yasdan çıxmağa çalışırlar, amma böyük depressiya hər addımda hiss olunur. Qulağıma dolmuş matəm musiqiləri beynimdə uğuldayır. Şəhidlərin ili çıxana qədər yasın davam edəcəyi lap yəqindir. Şux, oynaq mahnılar oxuyan SSRİ Xalq artisti Zeynəb Xanlarova bəyanat verib ki, bir il səhnəyə çıxıb mahnı oxumayacaq. Şair Qabilin "Bəs Kremlin, görəsən, fərqi nədir Xunta ilə?!" misrası olan "Mərsiyə"si məclislərdə tez-tez səslənir. "Azərnəşr"in direktoru Əjdər Xanbabayevin rəhbərliyi ilə şəhidlərin qırxına çatdırılıb azərbaycanca və rusca buraxılan "Qara yanvar" kitabı növbə ilə satılır.

Gecə evdə saqqalımı qırxmağa girişirəm. Üzümü yaxşıca sabunlayıb yumşaldıram. Ancaq sıx, cod tüklərim üzqırxanımı zora salır. Üzümün bir tərəfini, çənəmi birtəhər taraş edəndə görürəm ki, dərim yığılıb, sifətim balacalaşıb. Bu vaxt telefon zəng çalır. İşimi yarımçıq qoyub telefonun dəstəyini götürürəm. Anamdır, telefonda ağlayır. Əvvəl susuram, elə bilirəm, şəhidlərə ağlayır. Son qırx gündə neçə dəfə mənimlə telefonda danışanda hönkürtüsünü eşitmişəm. Birdən hıçqırtısını kəsib deyir:

– Xalan bayaq keçindi. Sabah Qaranı da götür, gəl!

Anama təsəlli verə bilmirəm. Səsimin çıxmadığını görüb telefonu qapadır.

Beynimdən keçir ki, kaş anam yarımca saat tez zəng edəydi, saqqalıma əl qatmamışdan qabaq. Yasda saqqallı görünməyim mənə daha rahat olardı.

Bu həmin xalamdır ki, Əfqanıstandan əsgər oğlunun yalançı tabutunu göndərmişdilər.

Saqqalımı qırxıb qurtarıram. Üzüm ağappaq yumurtaya oxşayır. Sabah bu üzlə camaatın arasına necə çıxacaqdım, bilmirəm.

Səhər tezdən qardaşımla yolda idik. Xalamızın ölümü hər ikimizi möhkəm sarsıtmışdı, susurduq. Qara hələ saqqalını qırxmamışdı, əzəmətli və zabitəli görünürdü.

Dəfnqabağı xalamgilin həyətinə catdıq. Anam qabağımıza çıxdı. Boynuna sarıldıq.

Xalam, ölən oğlunun böyüdülmüş şəklini sinəsinə basıb can veribmiş, dönə-dönə vəsiyyət edibmiş ki, onu oğlunun tabutu üçün qazılmış, sonra pozulmuş qəbrinin yerində basdırsınlar. Xalamın əri həmin doldurulmuş qəbri açıb hazır elətdiribmiş. Anam, mən sakitləşəndən sonra bunları qulağıma pıçıldadı. Xalam can verəndə bir də deyirmiş ki, oğlum ölməyib, sağdır, özüm onun qəbrinə girəcəyəm ki, Allah oğluma dəyməsin. Anamdan beş yaş böyük olan xalam çox hikkəli, tərs, dediyini eləyən qadın idi. Özünü çatladıb öldürdü. Dilinə gətirməsə də, yəqin ki, qəlbinin dərinliyində oğlunun ölümünə inanmışdı. İnanmasaydı, dərddən çərləməzdi. Bəlkə də, düz düşünmürdüm, ana ürəyini bilmək olmazdı. Torpağa tapşırdıq onu. Xalamın hüzür məclisi soyuq keçdi. 20 Yanvar müsibətindən sonra adamlar hələ də yasdan ayılmamışdılar. Hamı ağlayıb yorulmuşdu. Amma son qırx gündə mənim gözlərimdən hələ yaş çıxmamışdı. Hər gözüm yumru bir qara daşa dönmüşdü. Xalamın cənazəsi evdən çıxarılanda qəfildən qəhər məni boğdu, balkonun məhəccərinə söykənib hönkürdüm. Gözlərimdən son qırx günün yaşı axıb töküldü bəlkə də.

Xalamın dəfnindən bir gün sonra Bakıya qayıtdım. Qara onun üçünü verib gələcəkdi. Yenə də narahat, dəyişkən, amma bağlı olduğum mühitimə qayıtdım...

Aradan iki həftə keçərdi, Novruz bayramına iki gün qalmış səhər İndira gəldi, qucağında da qundaq boyda uşaq.

İndira, içəri girən kimi gülə-gülə dilləndi:

– Bu oğlanla tanış ol! Adı Əsgərdi, sənin adaşın. Balaşın oğludur.

Əsgər mənə doğma gəldi, halım yaxşılaşdı. Son vaxtlar heç belə sevinməmişdim.

İndira çağanı rahatlayandan sonra soruşdu:

– Dostundan nə xəbər?

Dedim:

– Hələ xaricdədir. Teleqram vurmuşdu. Amma gəlişindən bir şey yazmamışdı.

– Düşündüm, bayrama gələr. Axı, sizinkilər Novruzda evlərində olmağı sevirlər.

– Balaşa nə var?! Bir də gördün bacadan düşdü.

– Görürsən, uşaq atasına necə oxşayır?

Başımla İndiranın dediklərini təsdiq etdim.

Əgər İndira əvvəldən həyatda haçansa Balaşa rast gələcəyini bilsəydi, on beş yaşından oturub onu gözlərdi. Sevgilisindən danışanda üzü, gözləri necə də durulurdu. Balaş keçən dəfə İndiranın uşağa qaldığını eşidəndə demişdi ki, vaqonun kupesində əkdiyim tifil mənə lazım deyil.

Dostumun dediklərini İndiraya çatdıra bilmərəm. Bu, əclaflıq olar. Ortada ağıllı gözləri ilə mənə baxan bir körpə var. Allah bəlkə bu oğlanı 20 Yanvar gecəsi ölən cavanlardan birinin yerinə göndərib. Bəlkə də qanlı hadisələr başımı xarab eyləyib deyə belə düşünürəm. Yəqin Əsgər heç kəsin yerinə yox, elə öz yerinə gəlib dünyaya. Balaş niyə övladına yiyə durmasın? Bəlkə həyatda ən böyük arxası olacaq?

İyirmi yaşımız olanda Balaş tez-tez deyirdi: “Təcili evlənməliyəm!” Bir dəfə tələsməyinin səbəbini soruşanda cavab verdi ki, bilmək olmaz, birdən qəzaya-zada düşərəm, ya qolum, ya qıçım kəsilər, gözümün birini itirib şikəst olaram, mənə fərli qız gəlməz, ömrüm boyu yanıb yaxılaram.

O vaxt bu sarsaq fikri birtəhər dostumun başından çıxartmışdım. İndi şikəst-filan olmamış Balaşın fərli qadını da vardı, oğlu da. Amma dostumun başında-beynində yellər əsirdi. İndira kimi mən də çox arzulayırdım ki, bugün-sabah Balaş gəlib çıxsın. Uşağını görsəydi, mütləq yumşalardı.

Çox da Novruz bayramımız qara gəlmişdi, üstəlik, xalam da ölmüşdü, buna baxmayaraq, özümü sındırmadım.

Bayram axşamını üçümüz bir yerdə keçirdik. Xüsusi bir hazırlıq görülməmişdi. Rəngbərəng şamlar yandırmışdım. Balaşa desəydilər, evdə onun belindən gələn, oxşarlıqda fırt eləyib burnundan düşən oğlu ilə, İndira ilə qarşı-qarşıya oturmuşam, gəmidə qanad çıxardıb okeanın üstündən bir anda uçub gələrdi. Amma bilmirdi və ona görə

də qanad çıxartmırdı. Dibinə qədər ona bələdəm, şöhrətpərəstlikdə, işbazlıqda, məqsədinə nail olmaq üçün kombinasiya qurmaqda nə qədər iti, çoxbilmiş, inadkar olsa da, könül məsələlərində o qədər həlim və kövrəkdir. Burda olsaydı, özünü elə aparacaqdı ki, guya gur bir məclisdəyik. Bayram axşamımıza yüngüllük gətirərdi. Kübar davranışı, qarşılamağı, qəbul etməyi, yola salmağı yaxşı bacarırdı. Elə gözəl təşəkkür etməyi vardı ki... Həmişə deyərdi ki, bizə ailədə, məktəbdə necə minnətdarlıq bildirməyi öyrətməyiblər, bizimkilər hədiyyə alanda da təkəbbürlü olurlar. Qonağa ağızucu "Nə zəhmət çəkmisən?" deyib bağlamanı bir tərəfə qoyurlar. Amma başqa millətlər adi sovqatı verəndə də, alanda da bir təmtəraq düzəldib sevinirlər ki,...

Bayram gecəsi Fərəh zəng vurdu. Bayramlaşdıq, amma çox ürkək "Ağırlığın-uğurluğun keçmişdə qalsın!" dedi. Ağlayan Əsgərin səsini eşidib, sözü uzatmadı, sağollaşıb dəstəyi qoydu.

İndiragil üç gün yanımda qaldı. Mane ola bilməzdim, anadır, qoy uşağının atasını gözləyir, gözləsin. Evin təmizlik, biş-düş işlərinə baxdı. Qadınlı mənzildə yaşayırdım. Onların sıxılmaması üçün səhər evdən çıxıb axşam geri qayıdırdım. Qadının Balaşı gözləməkdən başqa Bakılıq işi yox idi.

Qonaqlarımı bayramdan bir gün sonra qatara mindirdim. Ayrılarkən İndira dedi:

– Dostuna çatdır ki, mütləq gəlib oğlunu görsün. Bir saatlıq da olsa, üçümüzün bir yerdə olmasını istəyirəm. Axı, Əsgər böyüyəndə uşağa necə deyim ki, atan heç səni görməyib. Gəlsə, deyərəm ki, oğlum, sən uşaqlıqda onu görmüsən, amma xatırlamırsan. Onsuz da Balaşı onun gözündə ucaldacağam. Qoy həmişə qoçaq, ağıllı, yaraşıqlı bir kişinin oğlu olduğunu düşünüb başını dik tutsun. Başqa heç bir umacağım yoxdur.

Bunları deyib ağladı, bir əlində oğlunu tutmuşdu deyə o biri əlilə boynumu qucaqladı. Mən də kövrəldim. Deyəsən, mənim də üstümdə adını bilmədiyim bir məsuliyyət vardı.

Qatarın dalınca xeyli baxdım. Ürəyimdə zəvzək arvadlar kimi Balaşın dalınca deyindim. Amma o biri tərəfdən də ona haqq qazan-

dırdım ki, çörək dalınca düşüb, ortada avara qalmayıb. Evdə, küçədə, bu boyda şəhərdə özümə yer tapa bilmirəm. Balaşı qoyub öz üstümə düşürəm. Belə getməz, cəmiyyətə qoşulmalıyam, insanlarla qaynayıb-qarışmalıyam. Ancaq ünsiyyətə girə biləcəyim adamların hamısından aralı düşmüşəm. Balaş Atlantik okeanında üzür, Qaranın başı azadlıq hərəkatına, Laləyə, dostlarına qarışıb, ata-ana kənarda, Babayar türmədə, mitinqlərə qadağa qoyulub. Fərəh arada zəng etsə də, mənə can atsa da, ona yaxınlaşmağa tərəddüd edirəm.

Bir istədim son illərdə gördüklərimi yazmağa girişim, fikrim cəm olsun, ancaq 20 Yanvar gecəsi güllə səslərini dinləyə-dinləyə Şekspirin pyesini tərcümə edən yazıçı yadıma düşdü, əlim soyudu, yazmaq qaçmırdı. Görəsən o məşhur yazıçını məhşər gecəsində Şekspirin ətəyindən yapışmağa vadar edən nə idi? Qorxumu? Əli yerdən-göydən üzülən yazıçı titrəyə-titrəyə Şekspirə pənah gətiribmiş. Həm də yəqin iş otağında, stolunu elə yerə çəkibmiş ki, küçədə atılan güllələr onu tutmasın. Bəlkə də yazıçı haqlı imiş, həmin gecə küçələrə düşsəydi, neyləyəcəkdi ki?

Bakıda ümümi ruh düşkünlüyü olsa da, qımıldananların, səsini çıxardanların sayı gündən-günə artırdı.

Min bir tellə dünyaya bağlı olduğum yadıma düşdü. Həmin min bir telin uclarından bərk-bərk yapışmaq lazım idi təzədən. Şəhərə çıxdım. Gəzə-gəzə gəlib böyründə şair Rəsul Rza ilə onun xanımı şairə Nigar Rəfibəylinin barelyefi asılmış binanın birinci mərtəbəsindəki kitab mağazasına girdim. İki ay əvvələ qədər azından həftədə bir dəfə bu kitab mağazasına baş çəkməyim vardı. Heç vaxt kitab mağazasından əliboş çıxmamışdım. Yeni kitablara göz yetirirdim ki, qolumdan kimsə yapışdı. Yazıçı Namiq Abdullayev idi. Üzü yekə projektor kimi işiq saçırdı.

– Nə yaxşı, sənə rast gəldim – dedi.

Deyəsən, mənə görə üzü gülmüşdü. Onun tanış qoxusunu duydum. İçdi-içmədi, həmişə ondan araq-çaxır, tütün iyi gəlirdi. Yazıçı Vidadi Məmmədov deyərmiş ki, haçan vurmağa pulum, çəkməyə siqaretim olmur, gedib Namiq Abdullayevi iyləyirəm.

Namiq Abdullayev adamla əl tutub görüşməzdi. Bəlkə əziyyət vermək istəmirdi? Bəlkə uşaqlıqdanqalma ərincəkliyinə, pintiliyinə görə. Hər halda vasvasılıqdan min ağac uzaq adam idi.

İki kitab seçdi. Kitabsız, araqsız və siqaretsiz qala bilmirdi. Arağı, siqareti həvəslə alsa da, kitaba pulu qızırqanırdı. Bunu bildiyimdən, kitabların dəyərini ödədim, özü demişkən, araq ucuz olanda da, ona pul çatdırmayan ustadın cibinə, bütün dostlarının etdiyi kimi, mən də yanacaq (*onun içki terminləri lüğətində arağın adlarından biri-dir*) parası basdım. Mağazadan çıxıb özümüzü çayxanaya verdik. İçəri isti və tüstü idi. Qarşımıza çay gəldi. Namiq Abdullayev siqa-retə dəm verdi.

Bir stəkan çay içəndən sonra açıldı:

– Gör hansı dövrə gəlib çıxdıq, əzizim! Sən cavansan, özümdən danışıram. Nə qədər insanların ömrü hədər getdi. Sovet hökumətinin yolunda nə zəhmətlər çəkildisə, hamısı havaya uçdu. Otuz yeddinci ildə atamı güllələyib, anamı dul, qardaşlarımla məni yetim qoyanda da bu hökumətin ətəyindən bərk-bərk yapışmışdıq. Xoşbəxt gələ-cəyə inanırdıq. Deməli, aldana-aldana yaşamışam. Qorbaçov hamı-nı qızışdırıb salıb ortalığa. İndi Moskvadakılar, burdakılar bar-bar bağırırlar ki, keçmiş rəhbərlərimiz, görkəmli ziyalılarımız, qabaqda gedənlərimiz hamısı əliəyri, saxtakar, fırıldaqçı, zalım, qaniçən, yel-beyin, xəyanətkar, satqın olublar. Hamısı silahdaşına, əqidə, məslək, qələm yoldaşlarına kəf gəlib, torba tikib, ayağının altını qazıb. Gör kimlərə inanmışıq? Lap tutaq ki, indi hamının iç üzü açılıb, ayılmı-şıq, ağı qaradan seçirik, bəs keçən ömrümüzü bizə kim qaytaracaq?! Bəs rejimin imkanları, qanunları, qadağaları üstündə qurulmuş hə-yatımızı necə davam etdirək? Quruluşa çox bel bağlamışdıq. Bütün yazdıqlarım, kitablarım gözümdən düşüb. Bilirsən niyə? Çünki hö-kumətin çağırışı ilə fantastik əsərlər yazmağa başlamışam bir vaxt. Əllinci illərin sonunda Mərkəzi Komitənin müşavirələrinin birində səslənmişdi ki, Azərbaycanda fantast yazıçı yoxdur. Söz məni tutdu, fantast yazıçı olmaq istədim. Həm də elə-belə yazıçı yox, Azərbay-can ədəbiyyatında fantastika janrının banisi. İyirmi altı, ya iyirmi yeddi yaşım vardı. Bütün məşhur Avropa, Amerika, rus fantast ya-

zıçılarının əsərlərini oxumağı qarşıma məqsəd qoydum. Oxudum, gözüm açıldı, yazdım, yüngülləşdim. Amma mənə ideya verənlərin naxələf, şarlatan, ona-buna badalaq gələn olduqlarını eşidəndə qolum-qanadım qırıldı. Gör nə günə qaldıq ki, arxalandığımız, güvəndiyimiz şanlı Sovet Ordumuz bizi qurşuna düzdü.

Namiq Abdullayevlə bir saatdan çox oturduq. Yenə də içimə qəribə hisslər doldu. Elə bil hər dəfə bu kimsəsiz insandan ayrılanda onu atıb gedirdim. Mənim üçün həyatda ən ağır şey ayrılıq məqamıdır. Hətta qələmimin qarası bitəndə, çay içdiyim armudu stəkan qırılanda duruxuram, bir an da olsa, kövrəlirəm. Dünyaya niyə bu qədər bağlanmışam, axı! Həyat nə şirin çıxıb belə?

Namiq Abdullayev məndən ayrılıb, yenə təklənəcəkdi. Təklik onun üçün gedər-gəlməzdi. O, gedər-gəlməzdən dönməyəcəkdi.

Novruz gecəsi Fərəh zəng edəndə bir söz də demişdi. Demişdi ki, bu günlərdə vaxt tap, mənə baş çək!

Fərəhin dedikləri beynimdən çıxmırdı. Qız sağalandan sonra yenə də qətiyyətli, cəsarətli olmuşdu.

Telefon köşkünə girib dəstəyi götürdüm və pul yerinə ikiqəpikliyim olmadığı üçün eyni ölçülü onqəpiklik atıb yadımdan çıxmayan nömrəni yığdım. Fərəh, yanına gəlmək istədiyimi eşidincə sevindi. “Gəl – dedi – təkəm, anam sabah gələcək”. Anasının fürsət tapan kimi ona baş çəkdiyini Fərəh mənə demişdi. Görəsən, tək olduğunu niyə xüsusi vurğuladı?

Məni ən doğma adamı kimi qarşıladı. Hətta qapıdan girəndə atılıb boynumu qucaqladı, üzümdən öpdü. Ömrümdə heç bir qadın məni belə möhkəm bağrına basmamışdı. Bu, bir insanın öz xilaskarını qarşılamasına bənzəyirdi.

Biz qonaq otağına keçəndə Fərəhin bir ayağını çəkdiyini duydum. Hələ ki, öz hisslərimi, üzümün cizgilərini idarə etmək, gizlətmək ustalığını bacarmadığıma görə yerişini izləyən ani baxışımı tutdu. Ancaq pərt olmadı, deyəsən, taleyinin bu hoqqası ilə də barışmışdı.

Həm özünə, həm də mənə çay gətirəndə dedi:

– Dizimdə bir dəfə də əməliyyat aparılmalıdır. Yoxsa həmişəlik axsayacağam. Bəlkə də qəzaya düşüb belə olsaydım, ürəyimə sa-

lardım. Elnən gələn bəla toy-bayramdır. Hər halda Bakımıza atılan güllələrdən birinin qabağını almışam. Bir az təmtəraqlı səslənir, qoy səslənsin! Əməliyyatdan sonra yerişim düzəlməsə də, heç vaxt deyinməyəcəm. Dediklərimə bircə sən inansan, bəsimdir! Çayımızı içək!

Qarşımızda çay, divanda yanaşı oturmuşduq. Birdən soruşmadan, icazə almadan başını çiynimə qoydu. Saçları sinəmə dağıldı. Kötük kimi hərəkətsiz idim, duyğu üzvlərim donmuşdu. Bir hissdən başqa hissə adlaya bilmirdim. Dayaq kimi möhkəm dayanıb Fərəhin ağırlığı qarşısında əyilməməyin qeydinə qalmışdım.

Fərəh gözlərini yumub susmuşdu. Bir an sonra nə olacaqdı, bilmirdim. O, birinci görüşümüzdə vəziyyəti necə idarə edirdisə, indi də başımın ağası rolunda idi.

Pıçıltısını eşidirəm:

– Əlini saçlarıma çək!

Yenə əmr, yenə göstəriş! Robot kimi onun dediklərinə əməl edirdim. Xidmətçiyəm, nəyəm? Kaş heç bura gəlməyəydim. Niyə xəmirim tez sıyılır? Belə xeyirxah, canıyanan çıxmışam? Axı, bu gəlişin adı nədir? Nə istəyirəm xalxın qızından? O, nəyə ümid edir? Bəlkə ona qayıdacağımı düşünür? Ərini atıb dönsəydi, bu, başqa məsələ, deyərdim, məni unuda bilməyib. Bəlkə düzgün fikirləşmirəm? Nə xam xəyallara düşmüşəm? Axı, hələ xüsusi bir söz deməyib mənə. Bəlkə hələ işin axırını gözləyim?

Fərəh bayaqkı pıçıltı ilə soruşur:

– Saçlarım xoşuna gəlmir?

İçimi yeyirəm. Nə cavab verim? Desəm, xoşuma gəlir, soruşar niyə mənə biganəsən? Susmaq da yerinə düşmür.

Gözləri yumulmuş Fərəhin yenə səsi eşidilir:

– Nə düşünürsən?

– Aha, – öz-özümə deyirəm, – indi də nə fikirləşdiyimi ona bildirməliyəm. Çölümü zəbt edib, içimdən xəbər tutmaq istəyir. Düşündüklərimi gizlətməkdən ötrü yeni bir şey uydurmalıyam. Verəcəyim cavaba qane olmamaq haqqı yoxdur. Axı, aramızdan ciddi bir şey keçməyib, qarşısında məsuliyyət daşımıram. Bir də axı, Fərəhə yönlü bir sö-

züm varmı? İndiyə qədər barəsində üst-üstə götürsək, heç üç-dörd saat düşünməmişəm. Onu əməlli-başlı tanımıram da. Hansı fikrimin ona necə təsir edəcəyini yoxlamamışam. Yalnız qısa söhbətlərimiz olub.

Həyatda hadisələr məntiqi ardıcıllıqla davam etmir, bunu bilirəm, amma hələ də gözlənilməzliklər məni çaşdırır. Hey özümü qəfil baş verən hadisələrə, insan münasibətlərinə soyuqqanlı yanaşmağa öyrətmək istəsəm də, bacarmıram. Bəzən kiminsə yersiz sözünə, hərəkətinə, üzdə olmasa da, içdə hirslənirəm, vulkan püskürürəm.

Fərəhin sol əli dizimin üstə mürgüləyən sağ əlimdən tutur. Sağ əlim sanki diksinir. Astaca əlimi sığallayır. Əlim mənə dönük çıxıb onun tərəfinə keçir. Əclaf bir himə bənd imiş. Bircə anda dirilir, qadının əlində dinc durmur. Özbaşınalıq edən sağ əlimin tamaşasına durmuşam. Fərəhin həniri, nəvazişi artdıqca beynimdə çaxnaşma başlayır. Ondan aralanmaq hissim korşalmaqdadır. Bu vaxt sol əlim də ağ bayraq kimi havaya qalxıb Fərəhin sol çiyninə qonur. Deyəsən, yavaş-yavaş bədən üzvlərimin hamısı onun üçün işləyir. Bu nədir, yoxsa, tam ixtiyarındayam? Artıq ona qarşı çıxa bilmirəm. Qeyri-ixtiyari çiynindən öpürəm. Əlbəttə, paltarının üstündən. Sonra üzümü saçlarına sürtürəm, nəfəsim boynunun ardında gəzir. Hər hərəkətimdən sonra bir az da mənə qısılır. Artıq bir qadınla təmasdayam. Sadəcə, adı Fərəhdir. Bunun axırının necə qurtaracağı haqqında düşünmək istəmirəm. Hərəkətlərim hansı məsuliyyətləri yaradacaq, bilmirəm. Bilmirəm, bilmirəm, heç nə bilmirəm! Üzünə baxıram, gözləri yumuludur, hər yanağında axıb keçmiş bir damcı göz yaşının yeri işarır. Dodaqları kip qapanıb, sanki dilindəki hansısa sözü çölə çıxmağa qoymurlar. Yanağından öpürəm, üzünün bir ilməsi də tərpənmir. Dodaqlarımı dodaqlarına toxundurmağa cəsarət etmirəm. Nəsə mənə elə gəlir ki, Fərəh öpülməyə hazır deyil. Donuq halı mənə təsir edir. Bəlkə həddimi aşdım? Mənə sığınmaq istəyən qadın içimdə şeytani hisslərin baş qaldırdığını duysa, canımı hara qoyacağam? Necə davranırdı, davranaydı, gərək özümü onun ixtiyarına buraxaydım.

Gözlərini açır, iki-üç dəqiqə kipriklərini qırpmadan gözlərimin içinə baxır. Bir az da belə davam etsəydi, özümü tamam itirərdim.

Baxışlarımdan nəyi tutmaq istəyirdi? Özüm öz hisslərimi tam başa düşmürdümsə, o, hara qədər gəlib çıxacaqdı?

Yaxşı ki, Fərəhin qadınlıq vərdişi vəziyyəti dəyişdi. Ayağa durub məişət tonunda soruşdu:

– Yenə çay gətirim?

– Hə, gətir! – dilləndim. – Məndə çaya etiraz yoxdur.

– O da çay içən idi! – Bayaq çay içdiyim stəkanı əlinə götürüb mətbəxə sarı yön alan Fərəh dedi.

– Kim? – könülsüz dilləndim.

Fərəhin mətbəxdən səsi gəldi:

– Rahimi deyirəm.

Rahim onun rəhmətə getmiş ərinin adı idi.

Bir az pis oldum. Görəsən, daha hansı cəhətim ona ərini xatırladır? Özümü əcəb işə salmışam. Yox, belə olmaz! Fərəhlə üzülüşmək lazımdır. Hər dəfə o, mənə baxıb ərini xatırlayacaqmı?

Xoş təbəssümlə çay gətirib qarşıma qoyanda ürəyimdə öz üstümə düşürəm: “Sən də qəribə oğlansan! Heç qadını ölmüş ərinə qısqanarlar? Burda Fərəhlik nə var? Əksinə, ərinə sədaqətinə görə onu alqışlamaq lazımdır.

Ayrılıb gedəndə bir anlıq qarşımda durub mənə baxdıqdan sonra gəlişimdə olduğu kimi yenə də qəfildən boynumu qucaqlayıb üzümdən öpdü və Dədə Qorqud dövrünün qadınları sayaq məni ani iyləyib buraxdı. Yenə xoflanıram. Yaxşı ki, səhər üzümü qırxıb azacıq ətirlənmişəm, bədənimin qoxusunu dəyişmişəm. Fərəh məndən ərinin iyini almaq istəyirdimi? Bədənimdən ərinin qoxusu gələ bilərdimi? Bəlkə, rəhmətlik əri də mənim işlətdiyim odekolondan istifadə edirmiş?

Söhbəti dəyişirəm, artıq Bakının həyat tərzi bir qədər yumşalıb. Tətillər xeyli vaxtdır ki, bitib. Bakı şəhərinin Hərbi Komendantı general Dubinyakın yerinə yenisi təyin olunub. Bu məşhur alimimiz, akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun başqa arvaddan törəyən oğlu, general Valeri Bünyadovdur. Şəklini qəzetdə görmüşəm. Necə də atasına oxşayır, bir almadır, tən bölünüblər. Yəqin Moskva, təyinatın bakılıların ürəyindən olacağını düşünərək

belə addım atıb. Hər halda oğul Bünyadovun əti ətimizdən, qanı qanımızdandır. Ona rəğbət olmalıdır. General Dubinyaksa ən azından əhalinin mərkəzə olan nifrətinin bir hissəsini özü ilə aparıb getsə yaxşıdır. İmperiya başbilənlərinin idarəetmə texnologiyası tələb edir ki, incidilmiş, yaralanmış, əzizlərini itirmiş, özünə arxa, dayaq axtaran insanların qəzəbinin üstünə su çiləmək zamanı gəlib.

Valeri Bünyadovun üzə çıxması məni keçmişə qaytarır. Uşaqlıqda bir dəfə bərk davaya düşmüşdüm, dalaşdığım yaşıdımın məndən yeddi yaş böyük qardaşı Göyüş yanağıma elə bir yumruq ilişdirmişdi ki, başımın içi tərpənmişdi.

Həmin anda istədim ki, mənim də Göyüş kimi böyük qardaşım olsun.

Özümə arxa axtardığım vaxtda xəbər çıxdı ki, bizim küçənin başında yaşayan Xanış kişinin iyirmi üç yaşında oğlu peyda olub. Adamın bazarda çayxanası vardı, onu şəhərimizdə hamı tanıyırdı və ona görə də soraq lap tez yayıldı. Yaşı altmışı keçərdi, Böyük Vətən müharibəsini görmüşdü, ordeni-medalı vardı. Təsəvvür edin, tapıntı adamları bir-birinə vurmuşdu. Bir neçə gün evlərdə, küçələrdə, çayxanalarda, xeyirdə-şərdə söhbətin baş mövzularından biri, bəlkə də birincisi olmuşdu. Sanki möcüzə baş vermişdi. Xeyli müddət adamlar dəstə-dəstə onun evinə gözaydınlığına getdilər. Deyilənə görə, ən çox sevinən Xanış kişinin arvadı Kövsər xala idi. Ər-arvadın yerli-dibli uşaqları olmamışdı. Təhsil almış, əsgərliyini çəkmiş, boylu-buxunlu, qanacaqlı bir oğulun tapılması göydəndüşmə idi. Yaş o yaş deyildi ki, keçmişin haqq-hesabını çəkəsən. Kövsər xala ərinin haçansa ona xəyanət etməsi fikrini, deyəsən, heç ağlına gətirməmişdi. Bəlkə də, xəbəri eşidən bəzi ağzıgöyçəklər tində-bucaqda nəsə mırıldanmışdı, ancaq deyilənlər havaya uçub getmişdi. Atamla anam da iki ahılın kəsərdən düşən vaxtlarında birdən-birə bəxtlərinin alçı-toxan vurmasına şad olmuşdular.

Xəbər yayılanda əvvəl hamı elə bilmişdi ki, Xanış kişi Soveti müharibədə olduğu yerlərdə əkib gəlib. Çünki "Sovet" milli ad deyildi, adamı çaşdırırdı. Deyənlər vardı ki, eləsi buralarda çox dözüb duruş gətirməz. Ancaq Sovetin qara başını, qara qaşını, qara bığını, alışıb

yanan qara gözlərini görəndə arxayın-arxayın Xanış kişiyə isti sözlər deyirdilər. Sən demə, Xanışın oğlu iyirmi üç il heç də uzaqda deyil, lap burnumuzun ucunda, Göyçayda böyüyüb başa çatıbmış. Anası, yəni Xanış kişinin qeyri-qanuni arvadımı deyim, sevgilisimi deyim, bilmirəm, həmin qadın rəhmətə gedəndən bir müddət sonra oğul soraq-soraq gəlib atasına qovuşmuşdu.

Görəsən həmin qadın sağlığında niyə qoymurmuş oğlu atasına yavuq gəlsin? Ona fərli oğul verən kişi ilə aralarından nə keçibmiş ki, birdəfəlik üzü dönübmüş? Sualların çox cavabı ola bilərdi. Yaxşı ki, soruşan yox idi.

Zalım oğlunun bəxti varmış, üzə çıxan kimi şəhər kitab mağazasının qoca müdiri başını yerə qoyub öldü. Xanış kişi zirək tərpənib iki-üç həftənin içərisində tanış-bilişin köməyi ilə kitabxanaçı ixtisasına yiyələnmiş oğlunu kitab mağazasının müdiri vəzifəsinə düzəltdi. Bu hadisə də oğlanın gəlişini bir qədər təmtərağa mindirdi. Küçəyə çıxanda tamaşasına duranlar vardı.

Söz yayılmışdı ki, Kövsər arvad altdan-altdan qız axtarır. Aradan heç üç-dörd ay keçməmiş, Sovet hamı ilə qaynayıb-qarışdı, oldu bizlərdən biri. Hətta məni də şəxsən tanıdı. Çünki bazar günləri mütləq onun mağazasına baş vururdum. Hər dəfə heç olmasa bir-iki yeni kitab götürürdüm.

Sovetin gəlişi o qədər uğurlu olmuşdu ki, kənarda gizli uşağı olan kişilər cəsarətlənmişdilər. Çox keçmədi, bazburutlu, ötkəm danışıqlı, nəslinin ağsaqqalı olan, beş qız atası Soltanın da oğlu tapıldı. Yeniyetmə oğlan yaxınlıqdakı kənddən imiş. Sovetdən də yaraşıqlı və gözəgəlimli idi. Elə bil, bunları min cavanın içindən seçib gətirirdilər. O biri tərəfdən də beş bacıya bir qardaş lazım idimi? Kim deyər ki, lazım deyil, əlbəttə, lazımdır! Özü də beləsindən. Kəkilli Nizam çox şən, deyib-güləndi. Atası Soltan onu geyindirib-keçindirib böyrünə salırdı, "Qaz-21" maşınında gəzdirirdi, toylarda başına şabaş töküb oynadırdı. Nizamın sındıra-sındıra bir "Köçəri" oynamağı vardı, bəh! İki göz istəyirdi tamaşasına. Köç aparan, yenicə sevdaya düşmüş igid kimi bütün əzalarını oynada-oynada fərqli hərəkətlər edirdi. Onun rəqsi heç bir rəqqaslıq məktəbinin öyrətdi-

yi rəqslərdən deyildi. Nə əvvəllər, nə də sonralar eləsini görmədim. Məşhur rəqqas kimi tanınan Mahmud Esambayevin oynamaqları onunla müqayisədə saya görünürdü. Amma Nizamın başqa özəlliyindən xəbərim yoxdu. Bir də axı, nə yaşı vardı, hələ heç əsgərliyə getməmişdi.

Dəmiryolu stansiyasında rəis işləyən Əlisahibin də vaxtilə əsgərlikdə olduğu Çerniqovdan oğlunun tapılması xəbəri yayılan gün mən evdə atamla anamın yanında dedim:

– Kaş mənim də böyük qardaşım tapılaydı!

Anam şübhə ilə atama baxdı. Atam donquldandı:

– Bunlar lap şitini-şorunu çıxartdı. Gəl indi uşaq-muşağa cavab ver!

Doğrudan da üçüncü tapıntı balaca şəhərimizdə dedi-qodu yaratdı, əvvəlkiləri də ovsanadan çıxartdı. Əlisahibin iki oğlu, iki qızı vardı, ona əlavə övladı gərək bilmirdilər.

Bir müddət ailələrdə əksər qadınların qulaqları səsdə qaldı. Görəsən ərləri haçansa bir qələt qarışdırmayıb ki...

Amma mən doğrudan, böyük qardaş gözləyirdim. Elə bilirdim, o gəlsə, küçəmizdə ən arxalı uşaq olacağam. Həmin günlərdə Qaradan soruşdum ki, böyük qardaşımız tapılsa, sevinərsən?

Qara arxayın cavab verdi:

– Mənim böyük qardaşım var! Sən o sualı özünə ver!

Göyüşdən hayıfımı ala bilməsəm də, sonralar sevindim ki, nə yaxşı, Qaradan başqa qardaşım yoxdur. Tapılan o üç oğlanın heç birinin axırı yaxşı qurtarmadı. Kaş onlar bizim şəhərə gəlib çıxmayaydılar. Üçüncüsündən kimsənin xəbəri olmadı, gələndən on-on beş gün sonra ya üzünə yaxşı baxmadılar, ya atasıgilləri bəyənmədi-nədi, bilmirəm, öz yerinə-yurduna qayıtdı, söz-söhbəti kəsildi. Ancaq əvvəlki ikisi bədbəxt oldu. Bir ildən sonra Xanış kişi insult keçirib öldü, Sovet ikinci dəfə yetim qaldı. Kövsər arvad ərinin ili çıxandan sonra oğulluğunu evləndirsə də, xoş günləri uzun sürmədi. Mağazada əskiyi gəldiyi üçün Sovet tutuldu, yaş yarımlıq oğlunu başsız qoyub türməyə getdi. Nə az, nə çox, yeddi il iş almışdı. Türmədən qayıdandan sonra isə içkiyə qurşanıb heçə-puça çıxdı. Kövsər xala

onun gəlişini, düşkün həyatını görmədi, Sovet türmədə olanda bir gecə yatıb səhər oyanmamışdı.

Nizamsa əsgərliyini çəkib gələndə atası Soltanın əli aşağı düşmüşdü. Oğlu bir işin qulpundan yapışmaq fikrilə Yol tikintisi idarəsindən “Kraz” maşını götürüb sürücü işləməyə başladı. Heç ikicə ay keçməmiş qəzaya düşüb öldü.

Eh, danışmalı söhbət çoxdur...

Şəhərə çıxıb dəhşətli bir xəbər eşidirəm. “Azərnəşr”in direktoru Əjdər Xanbabayev dünən gecə öz maşınında tapançadan açılan atəşlə qətlə yetirilib. Onu bir qədər yaxından tanıyırdım. Bir neçə dəfə işinə yaramışdım. Ötən yay indi içində qətlə yetirildiyi qırmızı “Jiquli”sini sürüb gəlmişdi Yaradıcılıq Evinə. Elə qapıdaca rəhbərliyi soruşmuşdu, qabağına mən çıxmışdım. Qarşıdakı bazar gününə bağını şumlatdırmaq üçün fəhlə istəmişdi məndən və çıxıb getmişdi. Hörmətli adam idi, biganə qalmaq olmazdı. Deyilən vaxtda idarəmizdəki bağbanlardan birini onun bağına aparıb qoymuşdum. Bağban səhərdən axşama qədər bağı belləmişdi.

Aradan on-on beş gün keçəndən sonra Əjdər müəllim məni bağına çay içməyə çağırmışdı. İri hovuzun yanındakı tut ağacının altında kötüklərdən düzəldilmiş stullarda əyləşib tariximiz, ədəbiyyatımız barədə geniş söhbət etmişdik. Əjdər müəllim dul idi, arvadı ölmüşdü. İki qızı vardı, böyüyü Afət ərə getmişdi, Nərgiz nişanlı idi. Qızlara nənəsi, Əjdər müəllimin qaynanası baxırdı. İndi bağda Əjdər müəllimlə ikimizdik. Ev sahibinin sanki qadına ehtiyacı yox imiş. Ev işini özü görürdü. Mən gəlincə, hətta bardaqlarda piti bişirmişdi.

Əjdər müəllim təbiətcə şən adama oxşasa da, söhbət zamanı hərdən tutulurdu, yorğun və sirli gözləri bir nöqtəyə dikilirdi. Bunun günahını özümdə görürdüm. Düşünürdüm ki, ən tanınmış ziyalılarla dostluq edən, tez-tez onlarla bax, bu bağdaca isti məclislər quran dünyagörmüş bir adam üçün nə dərəcədə maraqlıyam? Amma ölümü ilə bağlı bəzi hadisələr açılanda Əjdər müəllimin fikrinin o vaxtlar niyə qarışıq, özünün narahat olduğunun səbəbini anladım.

Son illərin hadisələrində fəal iştirak edən insanların hamısının Əjdər müəllimlə münasibəti vardı. Çünki uzun illər kitab nəşri ilə

məşğul olmuşdu. Nəşriyyat direktoruna bütün kitab yazanların işi düşürdü. Hərəkatda seçilənlərin əksəriyyəti elə kitab yazanlar idi. Sonralar aydınlaşacaq ki, Əjdər müəllimi qatilə nişan verən bələdçi də bir zaman öz alim oğlunun kitabını nəşr etdirməkdən ötrü onunla tanış olubmuş.

Sovetlər zamanında mənim və uşaqlıq yoldaşlarımın heç birinin arzu menyusuna "siyasətçi, dövlət xadimi" sözləri yazılmamışdı. Bizim dövrün uşaqları alim, müəllim, həkim, mühəndis, aktyor, sürücü, kosmonavt olmaq istəyirdi. Çünki bizə bu peşələrin sahibi olmağı arzuladırdılar. Milis olmaq istəyənlər də vardı ki, ürəyindəkini müəllimdən gizlədirdi. Heç bir müəllimdən eşitmədim ki, bizdən soruşsun: "Bəs sizin aranızda "ölkə rəhbəri", "sərkərdə", "general" olmaq istəyən yoxdur?" Sanki belə arzular bizim millətin uşaqları üçün yasaq idi.

Mikrorayonda Əjdər müəllimin yaşamış olduğu binanın qarşısına gəldim. Həyətdə xeyli adam toplaşmışdı. Heç kəsin üzünə baxmadan pilləkənlərlə üçüncü mərtəbəyə qalxmağı özümə borc bildim. Mənzilin qapısı açıq idi. Surəti gözümün önündən getməyən mərhumun tabutu qonaq otağında stolun üstünə qoyulmuşdu. Tabutun çevrəsində cavan bir mollanı və yeddi-səkkiz nəfərin oturduğunu gördüm. Yan otaqda arvadların ağlaşma səsləri eşidilirdi. Afət ağlaya-ağlaya içəri girib "Ay papa! Ay papa!"deyib üzünü tabuta sürtür. Nərgiz meyitdən qorxduğu üçün yaxın gəlmir *(o, atasının müsübətinə dözməyəcəkdi, iki il sonra oturduğu kreslodaca ürəyini tutub keçinəcəkdi).* Afət axşamdan bəri o qədər ağlamışdı ki, gözləri şişmişdi. Üzülmüş qız özünü kölgə kimi sürüyürdü. Əmisi onu sakitləşdirməyə çalışırdı. Qardaşının nə səbəbdən öldürüldüyünü anlaya bilməyən böyük qardaş əllərini dizlərinə çırpırdı: "Əjdərin heç bir düşməni yox idi, axı, onu kim öldürüb?"

Güllə atılan gecə onun qadın üstə öldürülməsi xəbəri yayılmışdı. Məsələ burasında idi ki, Əjdər müəllim ili təzəcə verilmiş dostugilin həyətindən çıxıb maşınında oturan anda gicgahından güllələnmişdi. İsmayıl müəllim qardaşının tabutunun böyründə oturub şayiəni uyduranların ağzını yummaqdan ötrü deyirdi: "Yüz

il qala, bu boşboğazlığa inanmaram! Əjdər hara, Rizvanın arvadı hara?"

Amma yəqin ki, inananlar olacaqdı. Dul, nüfuzlu kişi, ərsiz qadın. Deyəsən, uyğun gəlir, axı?

Afətlə qol-boyun bir arvad içəri girdi. Bu Rizvanın arvadı Elmira imiş, ağlaya-ağlaya gəlib tabutun ayağını qucaqladı. Heç kəs onu sakitləşdirməyə cəhd etmədi. Sanki, doğrudan da, günahkar o idi. Deyilənin havayı söhbət olduğuna dərhal inandım. Amma bu xanımı hamıya göstərmək mümkün deyildi. Elmira gonbul, yanbızları çıxmış orta yaşlı bir qadın idi.

Mərhumun tabutu yanında yarım saat oturduqdan sonra ayağa durdum, pəncələrimin üstündə çıxışa doğru getdim. Pilləkəndə bir kişi oturub hönkürürdü. Afət "Seyfəl əmi! Seyfəl əmi! Gör başımıza nə müsibət gəldi?" deyə-deyə onu ovutmağa çalışırdı. Əjdər müəllimin bağında olanda "Seyfəl" adını eşitmişdim, dostu üçün pay göndərmişdi. "Seyfəl əmi" kəlməsi Əjdər müəllimin qızlarının dilində çox şirin səslənirdi. Aradan bir müddət keçəcək, məlum olacaq ki, Seyfəl "mavr"ların başçısı imiş. Onda bu kişinin indi hönkür-hönkür ağladığı mənzərə təkrar-təkrar yadıma düşəcək, xəyalımda canlanacaq və məni hər dəfə müxtəlif versiyalarda düşündürəcək.

Əjdər Xanbabayev İkinci Fəxri Xiyabanda dəfn olundu. Vida mərasimində çıxış edənlərdən kimsə deyəndə ki, tezliklə qatil tapılacaq, cəzalanacaq, arxamda duranlardan kimsə rişxəndlə dilləndi:

– Ay tapıldı ha!

Arxaya çevrilib adamlara göz gəzdirsəm də, o sözləri deyənin kim olduğunu ayırd edə bilmədim. Bəlkə də adam qətllə bağlı nəsə bilirdi.

Mərhumun üçündə, yeddisində, qırxında "Seyfəl əmi"– Hacı Seyfəl məclisin başında oturardı. "Yas məclisinin əsas xərcini də o çəkir" deyirdilər. Gendən-genə çoxları kimi ona rəğbətim yaranmışdı. Hadisələrin düyünü açılmasaydı, haçansa o kişi haqqında pis heç nə düşünməzdim. Amma zaman təlatüm içində idi, ən gizli sirlər belə faş olub adiləşirdi. Çünki Əjdər müəllimin məsələsi böyük məsələ idi. Öldürülməsi üçün o qədər adam cəlb edilibmiş ki, onlardan ən

azı birinin, ikisinin sirri saxlamağa gücü çatmayacaqdı. Bütün vicdanlar sussaydı, onda bəşəriyyətin kökü kəsilərdi.

Əjdər müəllim, öldürüləcəyinə inanmasa da, güdüldüyünü, iş, ev telefonuna qulaq asıldığını bilirmiş. Onu hətta ölümündən bir gün qabaq şair Bəxtiyar Vahabzadə xəbərdar edibmiş ki, hakimiyyətə qarşı çıxıb Moskvadan Heydər Əliyevi çağırmağın zamanı yetişməyib, özünü yığışdır, qan tökülə bilər. Guya Respublika rəhbəri Ayaz Mütəllibov Bəxtiyar Vahabzadəni şəxsən qəbul edərkən onu minnətçi kimi Əjdər müəllimin yanına danışığa göndəribmiş. Sən demə, iyun ayının 6-da, yəni bir neçə gündən sonra Bakıda keçiriləcək Azərbaycan Kommunist Partiyasının XXXII qurultayında Naxçıvan MSSR-dən nümayəndə seçilən Heydər Əliyevin iştirakı gözlənilirmiş. Ayaz Mütəllibov Naxçıvan şəhərində Muxtar Respublikadan qurultaya nümayəndələr seçən iclasda iştirak edibmiş və Heydər Əliyevin Moskvadan dəvət edilməsi təklifinə üzdə olsa da, razılıq veribmiş. Amma səfərdən qayıdan kimi sözündən qaçıb və güclü rəqib saydığı şəxsin Bakıya gəlməsinin qarşısını almaq üçün Milli Təhlükəsizlik Komitəsi başda olmaqla bütün qurumları işə salıb.

Heç bir xəbərdarlığı, hədə-qorxunu vecinə almayan Əjdər Xanbabayev güdülən iş yerində Milli Təhlükəsizlik Komitəsi işçilərinin səsini dinləyib lentə köçürdüyü telefonundan Moskva ilə uzun-uzadı danışır, təkidlə Heydər Əliyevi qurultayda iştirak etməyə çağırırmış.

Heydər Əliyev qurultayda iştirak etsəydi, nə olacaqdı? – deyə bir dəfə yuxarıda qardaşı barədə yazdıqlarımı mənə danışan İsmayıl müəllimdən soruşuram.

Həmişə xəstə gördüyüm İsmayıl müəllim əvvəllərdə olduğu kimi yenə də nəfəs almasını nizama salıb asta-asta cavab verir:

– Qurultayqabağı belə bir fikir uydurulubmuş ki, guya, tədbirdə Heydər Əliyev çıxışını bitirən kimi qurultay iştirakçıları natiqi sürəkli alqışlayacaq, sonra da yekdilliklə onun Azərbaycan Kommunist Partiyasının I katibi seçilməsini tələb edəcəklər və Ayaz Mütəllibovu hakimiyyətdən qovacaqlar.

İnanmıram. Moskvadan, Qorbaçovdan xəbərsiz hakimiyyətin dəyişdirilməsi ağılasığmazdı. Amma bilmədiyim çox şey ola bilər. I

katib belə təşvişə düşübmüşsə, deməli, təhlükə varmış, hətta eşitdiyimə görə, Ayaz Mütəllibov özü də Heydər Əliyevə zəng edib onun bir müddət Bakıya gəlməməsini xahiş edibmiş. Dinlənilən telefon danışıqlarından gəliş barədə qəti qərar olduğu bilinəndə ciddi addımlar atılmasına göstəriş verilib yəqin.

Heydər Əliyev sonralar deyəcəkdi: "Əjdər Xanbabayevi məni qorxutmaq üçün öldürüblər."

Qırmızı "Jiquli"də üç nəfər varmış. Sürücünün adı "Ceyil" ləqəbli Tofiq, bələdçinin adı Hacı Seyfəl, az sonra qatil olacaq adamın adı isə Tarixdir. Qırmızı "Jiquli"dəkilər başqa bir qırmızı "Jiquli"-nin sahibi Əjdər Xanbabayevi öldürməyə gedirlər. Bələdçi hədəfin gündəlik marşurutlarını bilir. Axı, onun iç adamıdır. Bu marşrutları dəfələrlə bərabər gediblər.

Əjdər Xanbabayev, kiçikli-böyüklü bütün rəsmi idarələrin rəhbərləri kimi, axşam işdən gec çıxır, səhər qızı Afətin verdiyi tapşırığı yada salıb güdükçülərin nəzarəti altında beş addımlıqdakı "Passaj" bazarından pomidor və göyərti alır, sonra ərzaq mağazısına baş çəkib qonaq gedəcəyi ev üçün "Nağıl" tortu götürür, yola düzəlir. Maşını mərhum dostu Rizvanın həyət qapısının qabağında saxlayıb içəri keçir. Əjdər müəllim qonaq getdiyi evdə iki saata qədər ləngiyir. Qəsdə hazırlaşan Tarixin barmağı cibindəki "Makarov" tapancasının tətiyindədir. Sonrakı istintaq ifadələrinə görə, iki saat ərzində sürücü susubmuş, bələdçi isə qətl törədəcək şəxsi qızışdırmaqda davam edirmiş.

İki saat üzüntülü keçsə də, keçir. Əjdər müəllim küçəyə çıxıb maşınına oturur. Motoru işə salınca, Tarix özünü yetirir, yan qapının şüşəsini taqqıldadır. Ömrü boyu çox müraciətlərə cavab vermiş naşir şüşəni endirir ki, görsün yad adam nə istəyir. Adam onun canını istəyirmiş. Güllə açılır. İçərini qan bürüyür, Heydər Əliyevin Bakıya gəlişinin qarşısı müvəqqəti alınır.

"Jiquli"dən qana bulaşmış giliz, pomidorlar, göyərtilər əşyayi dəlil kimi tapılıb protokol sənədlərinə qeyd edilir.

Bir neçə gün sonra Ayaz Mütəllibov qurultayı Heydər Əliyevsiz keçirdir və yenidən Respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçilir.

Nəfəsinizi dərin, davam edək!

Söhbətlərdə yenə də vətənpərvərlik baş mövzudur. Bu vaxta qədər yazılmış kitablardan yalnız vətənpərvərliyə həsr edilənləri önə çıxıb. Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim...", Sabir Rüstəmxanlının "Ömur kitabı", Rafael Hüseynovun 37–ci il repressiyasının qurbanı şair-dramaturq Hüseyn Cavidin özünün və ailəsinin həyatından bəhs edən "Vaxtdan uca" kitabları əl-əl gəzir. Ziya Bünyadovun, Süleyman Əliyarovun tariximizi öyrədən araşdırmaları, Fəridə Məmmədovanın "Qafqaz Albaniyası..." tədqiqatı, erməniləri ifşa edən rus yazıçılarının, tarixçilərinin əsərləri böyük tirajlarla buraxılır və kitab mağazalarında əriyib gedir. Erməni xisləti ilə bağlı əski kitablardan nələri eşib çıxardırlar? O vaxtacan bilməmişdim ki, hətta ermənilərin də rus ədəbiyyatının Günəşi saydıqları Aleksandr Sergeyeviç Puşkin hansısa əsərində "Ты раб, ты вор, ты армянин!" (*Sən köləsən, sən oğrusan, sən ermənisən!*) deyibmiş. Puşkinin bu söyüşünü Azərbaycanda artıq hər kəs bilirdi. Hər dəfə bu ifadə işlədiləndə daxilən bir rahatlıq duyuram ki, nə yaxşı, Puşkin bu sözləri bizim haqqımızda işlətməyib. Afrika törəməsi kitablarında bizlərə də az sataşmadığını bilənlər vardı. Lakin onları açıb-ağartmağın zamanı deyildi.

Ancaq Ayaz Mütəllibovun kitab oxumağa macalı olmazdı, vəzifəyə yeni adamlar gətirirdi. Nə qurmaq istədiyi aydın bilinməsə də, hakimiyyətini möhkəmləndirmək cəhdləri göz qabağında idi. Hərbə-zorba zamanı olduğuna görə güc strukturunun rəhbərləri daha çox diqqəti cəlb edirdi. Baş prokuror İsmət Qayıbov tez-tez Qarabağda milli zəmində cinayət törətmiş tək-tək ermənini özü ilə bərabər efirə çıxardıb sorğu-suala tuturdu. Başını aşağı salıb qorxudan girməyə deşik axtaran, hərdən qırıq-kəsik bir-iki kəlmə cavab verib peşmançılıq bildirən tutaq ki, Ambartsum çarəsiz-çarəsiz ekrandan bizə baxırdı. Ancaq belə şeylər Qarabağda beyni çönmüş, kənardan münaqişə ocağının istisinə-tüstüsünə axışıb gələn muzdlu araqarışdıranlara dərs olmurdu. Daxili işlər naziri Məhəmməd Əsədov isə milis sistemini gücləndirməklə Stepanakert və onun ətrafında son illərdə pozulmuş əmin-amanlığı bərpa etməyə girişmişdi. Rusiyada

olduğu kimi, Azərbaycanda da Daxili İşlər Nazirliyinin tərkibində yaradılmış Xüsusi Təyinatlı Milis Dəstəsi – “OMON” abbreviaturası ilə dilə düşmüş, cinayətkarlara, işpozanlara qarşı amansız və güzəştsiz mövqe tutan qurum getdikcə genişləndirilirdi. Əsgərliyini bitirmiş güclü, sağlam, boylu-buxunlu gəncləri təmənnasız, tapşırıqsız milisə götürürdülər. İki-üç il əvvələ qədər Azərbaycanda sıravi milis düzəlməyə can atan, tanışlıqdan, pul-paradan, qohumluqdan istifadə etməyə çalışanların arzusu çin olmuşdu. Totalitar quruluşda ayaq altında qalıb əzilməməkdən ötrü həyata gözünü açan hər bir şəxs hökm, səlahiyyət sahibi olmaq təşnəsində idi. Yaşadığımız zamanda milis peşəsi insanların şüurunda hələ də əvvəlki illərin havasını saxlayırdı. “OMON”-çular gələcəkdə Qarabağ müharibəsində böyük şücaətlər göstərəcəkdi.

Cəmiyyət silkələnməkdə davam edirdi. Görürdüm, aydınca başa düşürdüm ki, ölkə düzgün idarə olunmur. Axı, Qorbaçova bu qədər iclaslar, plenumlar, yığıncaqlar, hətta qurultaylar keçirmək nə üçün lazım idi? Həftə səkkiz, mən doqquz televizor vasitəsi ilə evimizin içinə girib uzun-uzadı nəsihət, məsləhət verirdi, iradlar edirdi, keçmişimizin üstündən xətt çəkib yenidən qurulmağımızı istəyirdi. Mənası dəqiq başa düşülməyən “yenidənqurma”, “plüralizm” ifadələri insanlarda Baykal-Amur magistralının tikintisi qədər, Tallində nəhəng dəniz limanının qurulması qədər praktik təsəvvür yaratmırdı.

Baş katibin məqsədini anlamağa çalışırdım. Nə qədər yorucu, uzun olsa da çıxışlarını ötürmürdüm. Öz-özümə düşünürdüm ki, Qorbaçov konkret danışıb əvvəlki dövrlərin rəhbərləri kimi efirdə, mətbuatda az-az görünsə, insanların fikri aydınlaşar, öz işlərinə başı qarışar. Sonraki gedişat göstərəcək ki, o və onun komandası maymaq deyilmiş, əksinə, beynəlxalq idarəetmə institutlarının hər hansı bir quruluşu dağıtmaq üçün hazırladığı proqramlardan, üsullardan istifadə etməklə milli qarşıdurmaları, münaqişələri, tökülən qanları, işsizliyi, qıtlığı, fəlakətləri nəzərə almadan nəhəng bir imperiyanı, rejimi dağıtmağa vasitəçilik edirmiş.

Stalinin şəkli ildə on-on beş dəfə “Pravda” qəzetində görünərmiş, Xruşşov fəaliyyətinin son illərində ağını çıxarıb, hər gün daz

başını 1 nömrəli qəzetin birinci səhifəsinin yuxarısında parıldadarmış. Brejnev bir az geri çəkilmişdi, şitini-şorunu çıxartmırdı, nə az görünürdü, nə çox. Televiziya, radio görüntülərini də nəzərə alsaq, özünü ucuz tutmurdu. Amma indi hara baxırdınsa, Qorbaçovu görürdün. Heç kəs onun radiodan gələn səsindən, telegörüntülərindən, qəzetlərdən tutmuş divarlara qədər sağı-solu bəzəyən şəkillərindən çəkinmirdi. Qorbaçov hər kəs üçün öz məhəllə uşağına dönmüşdü. Milisin, milli təhlükəsizlik orqanlarının işçilərinin yanında zərrə qədər qorxmadan onun keçəl başındakı iri, xəritədə Cənubi Amerika qitəsinə oxşayan xalına görə ölkə rəhbərini rişxəndlə “Xallı” adlandırırdılar. “Xallı” Azərbaycanda həm də it adlarından biridir. Düzünü deyim ki, “Xallı” sözünü bircə dəfə də dilimə gətirməmişdim. Şair Nazim Hikmət Stalin öləndən sonra onun haqqında yazdığı bir şeirində “yediyim şorbanın içindən də Stalinin bığı çıxır” deməsi bərk xətrimə dəymişdi. Mircəfər Bağırova daldada “Bığı bəy” deyənlər vardı... Qorbaçovu isə sağlığında lağa qoymağa başlamışdılar. Onun respublikalardakı kadrlarına da şəbədə qoşurdular. Ayaz Mütəllibov üzdən yaraşıqlı olduğuna görə gözü götürməyənlər onu “Göyçək Fatma” eləmək istəyirdilər. Respublika rəhbərinin adına bu ləqəbi qoşanlar Ayaz Mütəllibovun da nağıl qəhrəmanı Göyçək Fatma kimi düşdüyü vəziyyətdə aciz qalmasınamı işarə edirdilər? Bəlkə də... Qaynanası maştağalı olan Ayaz Mütəllibov Əzizbəyov metrosundan Maştağaya doğru gedən avtomobil yolunu genişləndirib düzəltdirəndə ağzıgöyçəklər bu yola “Qaynana yolu”undan danışmağa başladılar və... Və rəhbər dedi-qodudan çəkinib işi yarımçıq qoydurdu. Hər halda ayamalara dilim dönmürdü. Elçibəyin on bir aylıq prezidentliyinin axırlarında başı pozuqların orda-burda onu “Keçibəy” adlandırması məni tamam hövsələdən çıxardırdı. Amma xalqın ağzını bağlamaq olmaz, nə qədər özümdən çıxsam da, axırda gəlib həqiqətə dirənirdim.

Görünür, binadan rəsmiyyət damarım yoğundur. Məktəbdə oxuyarkən boynumdan pioner qalstukunu açandan sonra, yaxama təkcə komsomol nişanını taxmaqla kifayətlənməmişəm. Səliqəli, daram geyinməkdən başqa həm də böyüklər kimi qalstuk taxardım. Yed-

dinci sinifdə oxuyanda bir neçə qalstukum vardı. O qalstukları indi də xəyalıma gətirə bilirəm. Birini daha çox sevirdim. Yeri lalə rəngində idi, üstünü romb şəkilli qara xallar bəzəyirdi. Bakıda yeni dəbə düşən qoşa düyməli kostyum almışdı atam mənə. Xarici maldı. Elə bil üstümə biçilmişdi. Tünd göy kostyumumu, təzə qara ayaqqabımı geyinib, əlvan qalstukumu taxıb məktəbə gedən günü hamı mənə baxırdı. Daha doğrusu, kostyumumun və qalstukumun tamaşasına durmuşdular. Diqqət mərkəzində olmağın mənasını, məncə, onda duydum ilk dəfə. Rus dili dərsində Tamella müəllimə məni lövhə qabağında dərs danışmağa çağırdı, enimə-uzunuma təbəssümlə xeyli baxandan sonra dedi:

– Bu saat lap Polad Bülbüloğluna oxşayırsan!

Dərslərini sevə-sevə öyrəndiyim sevimli müəlliməmin bənzətməsi heç xoşuma gəlmədi.

Yalnız xəyalımda yaratdığım qəhrəmana oxşamaq istəmişəm. Çünki o qəhrəman elə mən özüm idim. Uşaqlıq şəkillərim durur. Nədənsə, birinci sinifdə oxuyarkən çəkilən bir şəkildə hamı gülümsədiyi halda mən heç bir dəxli olmadan döyüşə girmək məqamında özünü tarıma çəkən cəngavər kimi fotoqrafa baxmışam, əndirəbadi duruşumla kollektivin şəklini korlamışam.

Doqquzuncu sinifdə bizə tarix fənnindən dərs deyən sinif rəhbərimiz Şirin müəllim üzünü mənə tutub dedi:

– Niyə həmişə axırıncı partada oturursan? Adətən oxumayan uşaqlar sonuncu partada oturub müəllimin gözündən yayınmağa çalışırlar.

Hazırcavablıq elədim:

– Döyüş vaxtı sərkərdə qoşunun arxasında olur!

Şirin müəllim “Bah!” deyib ucadan şaqqanaq çəkdi. Əlini çiynimə vurmağından başa düşdüm ki, dil pəhlivanlığım bərk xoşuna gəlib.

Ölkə boyu üzdə azacıq sakitlik yaranmışdı. Moskvada oturan rəhbərlik sanki düşüncəyə dalmışdı. Azərbaycan televiziyası Ayaz Mütəllibovun istehsalat müəssisələrində zəhmətkeşlərlə görüşlərini nümayiş etdirirdi. Amma, o görüşlərdə Respublika rəhbərinin sək-

səkə, narahatçılıq içində vurnuxduğu aydın görünürdü. Fikri başqa yerdə olurdu, ona məruzə edənləri sanki eşitmirdi. Darıxdığını, tıncıxdığını televiziya kamerasından gizlədə bilmirdi.

Yaxın qohumum Ayaz Mütəllibovun Bakının Buzovnadakı hərbi zavoda səfərini mənə təsvir edir: “1991-ci ilin əvvəlləri idi. Respublika başçısı Ayaz Mütəllibov zavodumuzla tanış olmağa gələcəkdi. Tədbirə qabaqcadan hazırlıq görülmüşdü. Hamı ayaqda idi.

Ayaz Mütəllibov başının dəstəsilə zavodun geniş həyətinə daxil olan kimi dərhal maşını saxlatdırıb düşdü. Zavod kollektivi kiminsə göstərişi ilə görüş ssenarisini pozan, tanışlığa uzaqdan başlayan ali qonağa sarı axışdı. “Xoşgəldin” üçün hazırlanmış fəhlə məqam tapıb özünü irəli verdi və sözə başladı:

– Hörmətli Ayaz Niyazoviç! Xoş gəlmişsiniz! Çoxdan yolunuzu gözləyirdik. İşinizin gərgin vaxtında imkan tapıb zavodumuzla yaxından maraqlandığınıza görə kollektivimizin adından dərin minnətdarlığımızı bildiririk. Siz həmişə əməkçilərə böyük qayğı göstərmisiniz. Sizi əmin edirik ki...

Fəhlənin “Xoşgəldin”i bitdikdən sonra hamı Ayaz Mütəllibovun arxasınca düşüb, tribuna və mikrofon qoyulmuş yerə gəldi. Direktor tribuna arxasına keçib dövlət rəhbərini salamladı, zavodumuz haqqında nitq söylədi. Sonra kollektiv adından çıxış etmək üçün bayaq ssenaridən kənar “Xoşgəldin” edən fəhləyə söz verdi.

Qonaq qabağına çıxarılmaqda yonulub yontanmış fəhlə bayaqkı çıxışını daha da genişləndirilmiş şəkildə təkrar etdi. Bütün rəsmi tədbirlərdə olduğu kimi, nitqinin son cümləsini əl çalmağı qandıran elə tonda söylədi ki, gurultulu alqış qopsun.

Zavoda baxış başladı. Gəzinti zamanı bayaq dövlət rəhbərini iki dəfə salamlamış fəhlə birdən işlədiyi dəzgahın arxasından çıxıb, yenə nəsə demək istəyəndə Ayaz Mütəllibov özündən çıxdı:

– Bəsdir də! İmkan vermirsən gözümüzü açaq! İtil cəhənnəmə!”

Qohumumun gülə-gülə danışdığı, fəhlənin həyasızlığını, sırtıqlığını qabartdığı, rəhbərin onu haqlı olaraq “bir qəpiklik” etməsini canlandıran əhvalat məni güldürmədi. Bu, hətta bizi başdan idarə edənlərin sovet dövrünün əxlaqından, davranışından bezdiklərinə

işarə idi. Yaxın illərə qədər həm ekranda, həm həyatda siyasi rəhbərlərin rəsmi, quru, tox çıxışlarına çox qulaq asmışdıq. Ancaq indi Qorbaçovun fikirlərini uzun-uzadı izah etməsi, ətrafı inandırmağa çalışması, əsib-coşması, yersiz əl-qol hərəkətləri, Mütəllibovun fəhləyə "İtil cəhənnəmə!" deməsi açıq-aydın göstərirdi ki, belə uzun getməz.

91-ci ilin yazında artıq Kreml yaddan çıxmışdı, hərc-mərclik bütün ölkəni bürümüşdü. 20 Yanvar müsibətindən sonra Azərbaycan Xalq Cəbhəsi yenidən dirçəlməkdə idi. Xəlil Rza, Etibar Məmmədov, Məhəmməd Hatəmi xeyli vaxt idi ki, Lefortovodan buraxılmışdılar.

XII çağırış Azərbaycan Respublikası Ali Sovetinə seçkilər sovetlər zamanında keçirilmiş seçkilərdən tamamilə fərqlənirdi. İlk dəfə idi ki, bir seçki dairəsində iki, uç, dörd, beş hətta daha artıq namizəd qeydə alınmışdı. Kremlin buyruğu ilə əvvəlcədən şəhər və rayon icra başçılarını Prezident Aparatına yığıb tapşırmışdılar ki, nomenklaturadan kənar adamların seçilməsinə mane olmasınlar, amma limit aşılmasın. Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Zaqatala kimi şəhərlərdə mütləq demokratik qüvvələrin nümayəndəsi deputat mandatı qazanmalı idi. Hakimiyyət üçün ən böyük problem Naxçıvan Muxtar Respublikasında Heydər Əliyevin deputat seçilib-seçilməməsi idi.

Seçki marafonu da gur keçdi. Təbliğat, mitinqlər, görüşlər, iclaslar ara vermirdi. Əgər köhnə kommunistlər, nazirlər, komitə sədrləri, partiya funksionerləri seçkiləri ələ almaq üçün ciblərinin ağzını gen açıb səxavət göstərirdilərsə, xeyriyyə işləri görürdülərsə, tərsləri yola gətirib onlara görüm-baxım eyləyirdilərsə, milli və demokratik qüvvələr Qarabağın xilası və milli birlik ideyasına söykənməklə seçicilərin rəğbətini qazanmaq üçün dəridən-qabıqdan çıxırdılar.

Nəhayət, 360 dairədən 349-unda seçki baş tutdu. Dağlıq Qarabağın və Goranboyun 11 dairəsində seçki keçirilməmişdi. Sonradan Ali Sovetin iclaslarında kommunistlərdən "Komblok" fraksiyasına qarşı mübarizə aparacaq "Demblok"a 25 nəfər müxalifətçi deputat hüququ qazanmışdı. Moskvanın, Bakının siyasi və inzibati dairələrinin saysız-hesabsız əngəllərinə baxmayaraq, Heydər Əliyev də artıq

millət vəkili idi. Naxçıvan Muxtar Respublikasının Nehrəm kənd seçki dairəsində tam qələbə qazanmışdı.

Deputatların cəmi altıca faizi olan "Demblok"çular gələcəkdə Respublikanı lərzəyə gətirəcək, böyük dəyişikliklərə səbəb olacaqdılar.

1990-cı ilin sentyabırında Ali Sovetə seçkilər keçirilsə də, dünya parlament tarixində nadir hadisə baş verdi: yeni deputatların bir araya gəldiyi ilk sessiya beş ay sonra, 1991-ci ilin fevralında baş tutdu. Müxalifətçi deputatların israrlı tələbilə uzun dartışmadan sonra Qorbaçovun SSRİ Xalq Deputatlarının qurultaylarında olduğu kimi, bundan sonra plenar iclasların televiziya vasitəsilə birbaşa yayımlanması qərara alındı.

Qısa zamanda efir vasitəsilə bütün millət vəkillərimizi tanıyacaqdıq. Parlament iclasları Moskvadan göstərilən çoxseriyalı Amerika filmi "Santa Barbara" kimi hələ neçə il davam edəcəkdi.

Ali Sovetin yeni tərkibinin ilk iclası keçirilirdi. Bu iclas çox hay-küylü oldu. Sessiyanın ikinci günü Naxçıvandan deputat seçilmiş Heydər Əliyevin çıxışından sonra bir çox həmkarlarının ona qarşı ədəbsiz, aqressiv münasibəti mavi ekrandan yığıncağı izləyən insanları qəzəbləndirdi.

İclasda Heydər Əliyev 1988-ci ildən sonra Azərbaycan rəhbərliyinin Dağlıq Qarabağla bağlı apardığı yarıtmaz siyasəti tənqid etdikdə, hər iradı iqtidar tərəfdarları nifrətlə qarşılayır, ayaqlarını döşəməyə döyüb küy qaldırır, səsbatırıcı əl çalmaqla natiqi həvəsdən və tribunadan salmağa çalışırdılar. O binada heç vaxt belə ədəbsizlik görülməmişdi. Yuxarıdakılar necə çaşmışdılarsa, kənardan onlara fikir verildiyini sanki, anlamırdılar.

Bu hadisə ilə siyasi həyatımızın mənzərəsi dəyişdi. Təxminən on il əvvəl respublikamızdan Moskvaya getmiş Heydər Əliyev, onu yaxından tanımayan yeni nəsildə ilkin rəğbətini yaratdı. Yaşıdlarım və bizdən sonra gələnlər Heydər Əliyevə o qədər də bələd deyildi. Özümü götürsəm, tərcümeyi-halımın səkkiz ili Heydər Əliyevin hakimiyyətdə olduğu dövrə bağlı idi. Ancaq bu səkkiz il hələ yaxşını yamandan ayırd eləmədiyim vaxtlara düşürdü. Onun Azərbaycana

başçı seçildiyi gün indiki kimi yadımdadır. Axşamüstü Bakıdan qayıdan atam həyətimizdəki oturacaqda mənə nağılvarı bir əhvalat danışan nənəmin və ona danışdığına ayaq verən anamın yanında təzə xəbər verdi:

– Rəhbərimiz dəyişdirildi. Gələn Heydər Əliyevdir.

Nənəm nəyəsə görə təəccüblə soruşdu:

– Heydar Əliyev?!

Sonralar xatırlayacaqdım ki, o zaman nənəm "Heydər" sözünü bizim bölgənin şivəsində "Heydar" kimi işlətdi.

Respublikaya yeni rəhbərin gəlişi bizim ailədə əvvəlcə xüsusi bir ovqat yaratmadı. Hər halda yaddaşımda belə qalıb.

Ancaq Heydər Əliyevin rəhbər kimi keçirdiyi birinci iclas atamı silkələdi, hökumət işində çalışdığını sanki indi anlamışdı. Dəyişikliyin onun üçün düşər-düşməzi ola bilərdi.

Bir neçə gündən sonra evimizdə Həvva arvadın papirosunu tüstülədə-tüstülədə nənəmə şeir dediyini eşitdim:

Bağırov çox qırdı getdi,
Mustafayev vardı, getdi,
Axundov lap yordu, getdi,
Heydər Əli, ya Əli mədəd!

Nənəmin həmsöhbəti şeiri bazardan gətiribmiş, bir göz qırpımındaca əzbərlənibmiş. Mənasını sonralar başa düşəcəyim Azərbaycanın son dörd rəhbəri haqqındakı dörd sətir necə eşitmişəmsə, indiyəcən elə də yaddaşımda ilişib qalıb.

Ali Sovetin həmin iclasında Xalq yazıçısı, Qarabağa Xalq Yardımı Komitəsinin sədri Bayram Bayramovun çıxışı ekrandan iclası izləyən insanları qəzəbləndirmişdi. Onun "Heydər Əliyev, gəl səni vertolyota mindirib Qarabağa aparım, ordakı yüksəlişi öz gözlərinlə gör" atmacası ahıl, sanballı bir adama qarşı hörmətsizlik sayıldı. Adamlar rişxəndlə deyirdi: "Gör kim kimi vertolyota mindirmək istəyir?!"

Heydər Əliyevə qahmar çıxdığını əyani bildirmək istəyənlər ertəsi gün Bayram Bayramovun kitablarını gətirib Yazıçılar Birliyinə

atıb gedirdilər. Yazıçılar Birliyinin foyesində böyük kitab qalağı yaranmışdı. İlk dəfə idi belə aksiya keçirilirdi. Yazıçının müxtəlif kitabları baş-ayaq olub biri-birlərinə baxırdı.

"Aydınlıq" qəzeti yazıçı Bayram Bayramovun Heydər Əliyevi "Ədəbiyyat və İncəsənət"də təriflədiyi məqalədən bir parçanı, "Gün batanda" kitabındakı avtoqrafı dərc etdi:

"Əzizimiz Heydər Əliyeviç!

Xalqımıza qeyrətli və müdrik rəhbərlik etdiyinizə görə Sizə "Çox sağ olun!" deyirik. Xalqımızın xalqlar arasında, Respublikamızın respublikalar arasında ön cərgələrə çıxmasında fövqəladə fəaliyyətiniz, intəhasız fədakarlığınız üçün Sizə ürəkdən "Var olun!" deyirik. Daha yeni, daha böyük uğurlar naminə canınız sağ olsun, ömrünüz dağa dönsün!

Minnətdarlıq əlaməti olaraq

Bayram Bayramov 05.11.81."

Fevralın 19-da bir gün əvvəl vəfat etmiş şairə Mədinə Gülgünün cənazəsi Abbas Mirzə Şərifzadə adına Aktyorlar Evində qoyulmuşdu. Mərasimə hələ Bakıda olan Heydər Əliyev də gəlmişdi. Çıxışlardan sonra qohum-əqrabasının mərhumə ilə vidalaşmasına mane olmamaq üçün hamı salonu tərk etdi. Aktyorlar Evinin qarşısında Heydər Əliyevin başına xeyli adam yığışdı. Mən onun üç addımlığında dayanmışdım. Hətta alıb-verdiyi nəfəsinin səsini də eşidirdim. Diqqətim tam onda idi.

Yaxınlaşıb görüşən kim, Ali Sovetin iclasında Bayram Bayramovun hələ soyumamış tənqidinə qarşı ona arxa çıxdığını bildirən kim...

Tənqidçi Qulu Xəlilli Heydər Əliyevə dedi:

– Heydər Əliyeviç, məni tanıdınızmı? Qulu Xəlilliyəm! Bir zaman kitabımı sizə hədiyyə vermişəm. Avtoqraf da yazmışdım.

Heydər Əliyev həmişəki məğrur ədası ilə cavab verdi:

– Tanıdım sizi, Qulu Xəlilov! (*Səksəninci illərin sonunda milli şüur oyanmışdı deyə, bir çox ziyalılar soyadlarının sonluğunu dəyişdirib "ov"dan azad olmuşdu. Bəziləri atalarının adlarını da adı ilə soyadının arasına yerləşdirmişdi*) Kitabınızı saxlayıram. Avtoqraf

da yadımdadır. Hətta Bayram Bayramovdan da təmtəraqlı yazmışdınız!

Üç il əvvəl Qorbaçovun onun əleyhinə başlatdığı kampaniya davam edirdi. Jurnalist Arkadi Vaksberq "İzvestiya" qəzetində çap etdirdiyi məqaləsində Heydər Əliyevin keçmiş fəaliyyəti barədə nələr yazmamışdı?

Moskva Heydər Əliyevi susdurmaqdan ötrü onun Azərbaycandakı fəaliyyətini yoxlatdırmaq üçün komissiya göndərəcəyi barədə xəbərlər ötürürdü Bakıya. Əsrin əvvəllərində həmin Moskva ikicə il Azərbaycanda Xalq Komissarları Sovetinin sədri, yəni hökumətin başçısı olmuş Nəriman Nərimanovu milli təəssübkeşliyinə görə öz vəzifəsindən və millətindən ayırıb Kremlə aparandan sonra xüsusi komissiya göndərib Bakıdakı işlərini qərəzlə yoxlatdırmış, ədalətsiz qərarla humanist bir insanı xəstəliyə salmışdı.

Heydər Əliyevin üzündə narazılıq cizgiləri vardı, amma özünü tox tuturdu. Təxminən bir ay sonra Yazıçılar İttifaqının Bakı Filarmoniyasında keçirilən qurultayında onu necə gördüyümü təsvir etmək istəyirəm:

Qurultay başlayanda şair Məmməd Aslan iclasın sədri Anardan Heydər Əliyevin rəyasət heyətinə dəvət olunmasını xahiş etdi. Yazıçılar bu təklifə qoşularaq əl çaldılar. Heydər Əliyev ayağa durub ucadan dedi:

– Yerim rahatdır. Mən həmişə yuxarıdan aşağıya baxmışam. İndi isə aşağıdan yuxarı baxmaq istəyirəm!

Əslində, o, bu müdrik kəlamı deməklə Moskvada və Bakıda hökumət başında əyləşənlərin naşı idarəçiliyini diqqətlə izlədiyinə işarə edirdi.

Fasilə vaxtı Heydər Əliyev foyeyə çıxdı. Nə bufetə getdi, nə də tualetə. Hiss olunurdu ki, tanıyıb-bilmədiyi yerdə nəinki ehtiyatlıdır, hətta heç suyu üfürə-üfürə də içmir. Və bir qıraqda dayanıb ətrafındakılarla söhbətə başladı. Ona cəmi yeddi-səkkiz nəfər yaxınlaşmışdı. Cavanlar onunla şəxsi tanışlığı, ünsiyyəti olmadığına görə, yaşlı yazıçılar isə hakimiyyətlə davada olan bu insanla adının hallanmasından ehtiyatlanaraq ondan gen gəzirdilər.

Birinci şair Xəlil Rzaya söz atdı:
– Niyə Naxçıvana gəlmirsən?
Xəlil Rza cəngavər duruşu ilə ötkəm cavab verdi:
– Ustad Cəlaləddin Ruminin bir beyti var, sətri tərcüməsi belədir:

Şair şah qapısında gədadan gəda,
Şahsa şair qapısında ucadan uca!

Heydər Əliyev gülümsədi:
– Şükür Allaha, nə mən şaham, nə də sən saray şairi. On dörd il (*1969-1982*) "şahlıq" etdim, səni bircə yol da Mərkəzi Komitənin həndəvərində görmədim. Buyur gəl, qonağım ol!
Kimsə yenə sarı simə toxundu, Heydər Əliyevə qarşı son illərdə edilən haqsızlıqları mövzuya çevirdi. "Kommunist" qəzetində son vaxtlar çap olunmuş bir məqalədə belə ittiham vardı ki, Heydər Əliyev Azərbaycanın rəhbəri olarkən şəxsi məqsədləri üçün bacarıqlı kadrları ləkələyib, onun siyasətini bəyənməyən günahsız dövlət xadimlərini təqiblərə məruz qoyub.
Heydər Əliyev sınayıcı nəzərlə hamımızı süzüb dedi:
– Məni qınayırlar ki, bir çox adamları cəzalandırmışam. Bir tərəfdən düz deyirlər, kimlərinsə ziyanlı fəaliyyətinin qarşısını almışam, onları cəmiyyətdən təcrid etmişəm. Amma elələri təmiz adamlar olmayıblar. Atatürk bir gecənin içərisində dövlətçiliyə qarşı çıxmış otuz min adamı həbsxanaya saldırdı, güllələtdirdi, asdırdı, sürgünə göndərdi. Nə üçün? Türkiyənin sabahını qorumaq naminə. Bu gün Türkiyə Atatürkü bayraq kimi başının üstündə saxlayır. Mən özümü onunla müqayisə etmək istəmirəm, ancaq bir dəstə dələduzun, xəyanətkarın, əliəyrinin cəzalanmasına görə məni gözdən salmaq cəhdlərini başa düşə bilmirəm bunların. Bəs gördüyüm müsbət işlərdən niyə danışmırlar? Buna görə də inciyirəm. Siz yazıçılar gərək susmayasınız, haqqı-nahaqdan ayırasınız.
Yaxşı ki, fasilə bitdi, yoxsa Heydər Əliyevin sərt ittihamına cavab vermək lazım gələcəkdi.
Heydər Əliyevi insan, siyasətçi, dövlət xadimi kimi son günlər tanımağa başlamışdım. Əvvəllər ekranda gördüyüm farağat duruşunu,

məntiqli, səlis, qətiyyətli çıxışlarını xatırlayıb, xəyalımda onun obrazını genişləndirməyə çalışırdım. Ancaq etiraf edim ki, Respublika rəhbərinin uzun-uzadı çıxışlarının heç birini axıra qədər dinləməyə həvəsim olmamışdı. Deyəsən, o çıxışlar işin içində olanlar üçün daha maraqlı idi. Amma Heydər Əliyevin rəhbər xarakteri ilə bağlı bəzi söhbətlər eşitmişdim.

Yetmişinci illərdə vaxtaşırı təsərrüfat sahələrinə baş çəkməkdən ötrü bölgələrə gedər, zona müşavirələri keçirər, hesabatları dinlər, tapşırıqlar verər, əməkçiləri ruhlandırardı. Belə səfərlərdə həmişə başının dəstəsində dövlət xadimlərilə yanaşı yazıçılar, bəstəkarlar, rəssamlar, aktyorlar və başqa sənət adamları da olardı.

Növbəti səfərqabağı dəvət olunmasa da, özünü Bakı dəmiryolu vağzalına çatdırıb dəstəyə qoşulan kino aktyoru Nodar Şaşıqoğlunu görən Heydər Əliyev soruşur:

– Sən də burdasan? Axı, siyahıda adın yox idi?

Nodar Şaşıqoğlu canfəşanlıqla dillənir:

– Yoldaş Əliyev! Məni də özünüzlə aparın, sizi müşahidə etmək istəyirəm, bir də gördünüz ki, rolunuzdayam!

Heydər Əliyev halını dəyişmədən ona cavab verir:

– Buna ehtiyac yoxdur, mən öz rolumu özüm oynayıram!

Elə vaxt idi ki, bütün ziyalılar, siyasətçilər, hətta ömründə heç zaman tribunaya çıxmamış və çıxmayacaq adamlar belə öz çevrələrində "Tək əldən səs çıxmaz!" deyib hamını birliyə çağırırdılar. Görüş yerlərində, xeyirdə-şərdə, avtobusda, metroda çoxlarının dilində "Birləşməliyik! Bir olmalıyıq!" şüarları səslənirdi. Yığıncaqlarda zahirən birləşsək də, ayrılanda sanki tənhalaşırdıq. Bakıda, Qarabağda işlər geri getdiyindən, hərənin ağzından bir avaz gəlirdi. Qeyri-müəyyən vəziyyətə düşdüyümüzün səbəbini birləşə bilməməkdə görürdük.

Heydər Əliyev qəzetə müsahibəsində bu cümlələri işlətmişdi: "Xalq öz-özünə birləşmir. Onu yalnız səlahiyyətli orqanlar, dövlət başçısı birləşdirə bilər!"

Heydər Əliyev Naxçıvana qayıtdı və onun Bakıda olan epizodik görüşlərinin söz-söhbəti qarşıdakı günlərdə arxa plana keçdi.

Moskvada Qorbaçovla Yeltsin arasında hakimiyyət uğrunda gedən mübarizənin təsiri ilə Bakıda, Qarabağda yeni hadisələr baş verirdi. Durmadan hər şey dəyişirdi, iradəmdən asılı olan heç nə yox idi bu miskin dünyada. Amma istəyirdim olsun. Tez-tez özümü toplayıb gedişata müdaxilə etmək istəyirdim, çabalayırdım.

Axşamların birində Qara milis paltarında gəldi. Gözləri parıldayırdı. Milis geyimi ona çox yaraşırdı. Bir azdan qarşı-qarşıya oturub çay içirdik. Davranış stilim başqadır. Hər bir yeni hadisəni, təzə xəbəri hay-küysüz, təəccübsüz, həyəcansız qarşılamağı bacarıram.

– Atamgil bilir? – soruşdum.

– Bilmirlər – sakitcə çayını qurtumlayan qardaşım cavab verdi.

– Gərək xəbər verərdin!

– Xəbəri sən yaxşı verirsən. Yerli-yataqlı. Müqəddimələrin aləmdir. Adamı xəbərə elə hazırlayırsan ki... Bir də, ata-anamız milisdə işə girməyimə təəccüblənməyəcək. Neçə illərdir hara çatdım, deyirəm ki, milis olmaq istəyirəm.

– Haçandan işə başlamısan?

– Dörd gündür milisdəyəm. Təlimdən gəlirəm. Tapança ilə, avtomatla əlləşirik. İki ayımız tamam olanda Qarabağa göndərəcəklər.

Qaranı milis uniformasında görmək, düzünü deyim ki, mənə qəribə gəlirdi. Nəsilimizdən milis çıxmamışdı. Dünənə qədər yaşadığımız ölkədə hər kəs milis görəndə tük salırdı. Bir milis serjantı istənilən adamı, yaxud adamları çək-çevirə sala bilirdi. Gizlətmirəm, şəxsən mən milislə üz-üzə, göz-gözə gələndə çaşıb özümü şübhəli adam kimi aparırdım. Milisə o qədər səlahiyyət verilmişdi ki, istədiyinə ilişə bilirdi. Uşaqlıqda milisi ən çox şəhərimizin bazarında görürdüm. Bir də ictimai yerlərdə hay-küylü çəkişmələr, dartışmalar düşən vaxtı onlar sanki göydən zənbillə enirdilər. Qarşıdurmanı sakitləşdirəndə, xuliqanları qabaqlarına qatıb aparanda onlara rəğbətim yaranırdı. Ancaq elə ki, dava salanları ertəsi gün küçədə görürdüm, yenə fikrim dəyişirdi. Hərdən böyüklərdən eşidirdim, deyirdilər ki, filankəsi tutmuşdular, dərisini soyub buraxdılar. Bıçaqlanma, ölüm, qan olmasaydı, işi barışıqla sovuşdurub hər iki tərəfi boğmalayırdılar. Bir əhvalat dilə-dişə düşmüşdü. Döşünə döyənlərdən biri bazar-

da süpürgəsatan Ağaş kişiyə durduğu yerdə solaxay bir şillə ilişdirir. Yekəpər olsa da, sakit təbiətli Ağaş kişi vurulmağının səbəbini soruşmadan qarşısındakına deyir:

– Əlim aşağıdır, bir şillə də vur, yüz manat ver! Bu bazarda milisə düşsən, şillənin biri əlli manatdır ha!

On iki yaşım olanda küçədə tutulub milis şöbəsinə aparılmağım yadıma düşür.

Dəmir yolu vağzalının arxasında dombagöz bir oğlan məni yanlayıb dedi:

– Qəşəng "Vostok" saatı satıram! Alırsan?

"Qəşəng" sözü məni tutdu:

– Göstər görüm!

Oğlan cibindən qəttəzə iri metal qol saatı çıxardıb mənə uzatdı. Saatı alıb dörd gözlə o üzünə, bu üzünə baxdım, yoxlamaq üçün həvəslə qoluma bağladım. Əlbəttə, saatın bağı qoluma böyük gəldi. Amma belə qalmayacaqdım, böyüyəcəkdim də.

– Öz qiyməti qırx manatdır. On beş manata satıram! – saata hayıl-mayıl olduğumu görən dombagöz dilləndi – Buralarda bundan tapılmaz. Dayım Moskvadan göndərib. Şakaya pul lazımdır! (*Onda çox baxılan "Daş və çiçək" adlı hind filminin qəhrəmanı Şakanın işlətdiyi bu ifadə dilə-dişə düşmüşdü*)

Gözümü saatdan ayırmadan soruşuram:

– Birdən saat oğurluq olar?

Elə-belə soruşurdum, əslində saatı əldən vermək fikrində deyildim. Bir də ki, bu sual mənim sualım deyildi, bizim şəhərdə oğurluq ucuz mal çox alınıb-satıldığından haram olduğuna görə deyil, qiyməti öldürmək üçün işlədilirdi.

– Oğruya oxşayıram? – dombagöz gözləri ilə məni yedi.

Ürəyimdə dedim "Oxşayırsan!", amma dilim tərpənmədi, fikrim saatda qalmışdı.

Üzümü çevirib cibimdən pullarımı çıxartdım. Nazik dəstin arasından bir qırmızı onluq və bir göy beşlik ayırıb oğlana uzatdım. Dombagöz pulları havada qapıb vağzala sarı fitillədi.

Qolumda saat sinəmi qabağa verib şax addımlarla milis şöbəsinin qabağından keçəndə – evimizə kəsə yol burdan idi – kiminsə arxadan "Ay oğlan! Ay oğlan!" deyə mis kimi ağır səslə çağırdığını eşitdim. Geri dönmək istəyən anda sol çiynimi bir əl qamarladı. Dayandım. Kələ-kötür, divə oxşayan bir serjant məni darta-darta gətirib milis şöbəsinin qapısından içəri saldı. Heç bir müqavimət göstərmədim. Milis şöbəsini ilk dəfə görürdüm. Bu mənim üçün göydəndüşmə idi. Haqqında çox eşitdiyim bir yeri öz gözlərimlə görəcəkdim, təsəvvürümdə canlandırdığımla müqayisə edəcəkdim. Məktəbdə, məhəllədə sinif yoldaşlarıma, dostlarıma "dastan" danışacaqdım. Amma məni düşüncəmdən tez ayırdılar. Stulda bir mayorla üz-üzə oturdum. Onda artıq rütbələrdən başım çıxırdı. Milis mayoru yaşıl qələmi ilə adımı, familyamı, atamın adını dəftərə yazandan sonra sorğu-suala başladı:

– Qolundakı saatı hardan almısan?

Duruxdum. Deməli, bayaqdan küçədə tez-tez heyran-heyran baxdığım saatıma görə bura salınmışdım. Mayor gözlərimin içinə baxa-baxa məndən cavab gözləyirdi.

– Bayaq vağzalın dalında əldən almışam.

– Kimdən?

– Bir oğlandan.

– Kim idi o oğlan?

– Bilmədim.

– Görsən, üzdən tanıyarsan onu?

... Bu suala cavab vermədim.

– Neçəyə aldın saatı?

– On beş manata!

– Oğlanın əlində neçə saat gördün?

– Başqa saat görmədim.

– Düzünü de!

– Düz deyirəm.

– Bu saatdan başqasında da görmüşdün?

– Yox!

– Aç saatı qoy stolun üstünə! Saat oğurluqdur!

Saatı qolumdan açıb stolun üstünə qoydum. On beş manat zibilə düşmüşdüm, cəhənnəmə! Gözlərimi döyürdüm. Elə bilirdim bununla iş bitdi, mayor indicə deyəcək ki, dur, rədd ol get!

Ancaq mayor sakitcə ayağa durub qonşu otağa keçdi, kiməsə göstəriş verib geri qayıtdı.

Üç-dörd dəqiqə sonra iki milis içəri təxminən qırx yaşında bir kişi gətirdi. Saçları pırtlaşıq, üzü yorğun, üst-başı əzik-üzük və çirkli olan bu arıq kişinin baxışlarından kin yağırdı. Elə bil ömründə gülməmişdi.

Mayor, gətirilənə məni göstərib dilləndi:

– Akka, bu uşağı tanıyırsan?

Addan diksindim. Onun türmə həyatı, macəraları haqqında çox eşitmişdim. Bacıoğlusu Sahib bizim sinifdə oxuyurdu, söhbətləri o gətirirdi. Dayısı türmədən haçan çıxmışdı görəsən? Onu türmədə yatan bilirdim.

Akkanı axırıncı dəfə nəşə üstə şərləyib tutmuşdular. Şərləyib ona görə deyirəm ki, rəislərinin tapşırığı ilə milislər bir gün küçədə onun qoluna girib milis şöbəsinə gətirirlər. Yolda pencəyinin yan cibinə xəlvətcə nəşə bükülüsü atıblarmış.

Rəis Akkanın üstünə kəkələnir:

– Cibindəki nəşəni çıxart, qoy ortaya!

Akka şeşələnir:

– Cibimdə heç nə yoxdur! Mənim nəşəm nəşəsatandadır, rəis!

Rəis milislərə göstəriş verir ki, cəncəlin ciblərini çevirsinlər!

Akkanın şalvarının, pencəyinin ciblərini çevirmək istəyən milislərin əlləri boşa çıxır, demə, gözünə döndüyüm macərabaz ona torba tikiləcəyi ürəyinə damdığından bütün ciblərini kəsib gəzirmiş. Ancaq yaxasını tələdən qurtara bilmir, rəis stolunun siyirməsindən yumaq boyda marixuana kisəsini çıxardıb yuxarı qaldırır:

– İndi sübut et ki, bu nəşə kisəsi sənin deyil.

Sahib demişdi, dayısının adı Ağaxandı. Neçə il qabaq təkbaşına şəhərimizin rüşvətxor prokurorunun evini aparmışdı. Məhkəmə hökmü oxunandan sonra hakimə deyibmiş ki, mən türmədən qayıdınca iş yerini dəyiş, yoxsa gəlib sənin də evini şmon (*alt-üst edib dağıtmaq, jarqon*) eləyib, paylayacam yetim-yesirə.

Akka rişxəndlə dedi:

– Akka o günə qalıb ki, ağzısulu uçaq-muşaqla oturub dursun? Kişi kimi dedim ki, vaqonun plombunu özüm açmışam, on yüngül saat karobkası (*qutu*) nədir ki, hələ ondan ötrü özümə prisep (*qoşqu*) də qoşum?!

Mayor üzünü mənə tutub soruşdu:

– Bunu tanıyırsan?

Akka məndən qabaq dilləndi:

– Nəçənnik, bu şəhərdə məni tanımayan var?

Mayor ona bozardı:

– Qoy uşaq özü cavab versin!

Həm başımı bulamaqla, həm də dilimlə cavab verdim:

– Yox, tanımıram!

Oğrunu apardılar. Sonra mayor sakit-sakit mənə baxdı və mənimlə böyük adam kimi danışdı:

– Atanla salam-məleykim var. Görürəm şərə-şür uşaq deyilsən. Heç vaxt qiymətindən ucuz mala yaxın durma! Hansı axmaq halal malını su qiymətinə satar?!

Kağız-qələm verib mənə izahat yazdırmağa başladı. Yönəltsə də, çətinlik çəkirdim. Çünki bu nə imla idi, nə ifadə, nə də inşa. Sonralar fikrimdən tez-tez keçəcək ki, ilk hekayəmi bir mayorun təkidi ilə milis şöbəsində yazmışam. Milis mayoru dombagözə rast gəlməyimi, onun cibindən təzə saat çıxarıb göstərməsini, saatdan xoşum gəlməsini, aramızda olan bütün söhbətləri, hətta "Şakaya pul lazımdır!" deməsini, on beş manata saatı alıb qoluma bağlamağımı, cüvəllağının vağzal binasına girməsini bircə-bircə yazmağa vadar etdi məni.

Yaza-yaza düşünürdüm ki, görəsən satqınlıq eləmirəm? Bizim şəhərdə həqiqəti desən belə, kimisə ələ vermək bağışlanmırdı. Qoca arvadlar da türmə jarqonu olan "suka"nın "satqın" mənası verdiyini gözəl anlayırdılar. Milisə xəbərçilik etdiyimi eşidib-bilən olsaydı, mütləq adımın quyruğuna "suka" ayaması yapışdıracaqdılar. Gəl, indi bu adla məktəbdə, küçədə başını dik tut, gəz!

İzahatımın son cümləsini quraşdırıb yazmaq istəyəndə atam qapıdan girdi. Milis mayoru quş cəldliyi ilə ayağa durub atamın

qabağına getdi. Onların görüşüb qucaqlaşmasını görüncə, rahatca udqundum.

Mən yaddan çıxdım. Onların başı özlərinə qarışdı. İçimdə toy-bayram idi. Qələmi vərəqin üstünə atdım. Saata sarı heç baxmırdım da, sanki oğurluq olduğunu indi başa düşmüşdüm.

Birdən mayor əmi kimi mənə ərklə dedi:

– Əkil, get evə! Bir də belə qurumsaqlıq eləmə!

Amma milis xislətini unutmamışdı, yerimdən durub arxaya baxa-baxa qapıdan çıxana qədər nəzərini üstümdən götürmədi.

Küçəyə çıxıb rahat nəfəs aldım. İzahatım yarımçıq və imzasız qalmışdı. Dombagözün də dalınca düşməyəcəkdilər. "Qurumsaq" olmaq "suka"lıqdan min dəfə yaxşı idi.

Bir neçə gün pərt gəzdim. Hər halda sarsaq iş tutmuşdum. Atam söhbətin üstünə qayıtmadı. Görünür, anama da bu barədə bir söz deməmişdi. Çünki anam bir neçə dəfə qaşqabaqlı gəzməyimin səbəbini soruşmuşdu.

Atamın mənim üçün "Raketa" saatı alıb gətirməsi eynimi açdı.

Akkadan bir müddət sonra xəbər tutdum. Ona yeddi il iş vermişdilər. Sinif yoldaşımın dediyinə görə, dayısı işi tək görməsə də, heç kəsi satmamışdı, bizim şəhərlilərin düşüncəsinə görə, kişi hərəkəti eləmişdi.

Keçən keçmişdi, indinin milisi kəsərdən düşmüşdü. Meydanlarda şəhərin ixtiyarı kütlənin əlində olurdu. Qardaşım kimi insanlar milisliyə başlayandan sonra onlardan çəkinməyə dəyərdimi?

Qaranı Şuşaya göndərdilər. Mənim də içimdə Qarabağa getmək istəyi oyandı. Bilirdim, bir zaman gördüyüm gözəl yerlər haqqında yaddaşımdakı təəssüratım bərbad yenisi ilə əvəzlənəcəkdi. Amma istəyirdim. Həm də indi oralarda təbiətin yaxşı vaxtı idi. Düzdür, indinin xoş, günəşli fəsli, Cıdır düzünün ipək havası, möcüzəli İsa bulağının daim sakit və arxayın axması ilə baş verən qanlı hadisələr, qarşıdurmalar heç cür uyuşmurdu. Dinc dövrə müharibənin, qan-qadanın, qarışıqlığın, əsəbin, gərginliyin gəlişi nə qədər eybəcər olsa da, hər halda yenilikdir. İnsanlar yeni ağır, əzablı şəraitə dözməklə yanaşı, işləməli, özlərini oda-közə vurmalı, ailələrini yedirtmə-

li, geydirməli, xəstələrini müalicə etdirməli, qocalarına baxmalı idi. Gərgin, qeyri-müəyyən, dəyişkən şəraitdə başını itirməyən, öz işindən bərk-bərk yapışanlar da, karyerasının qayğısına qalanlar da, sevənlər də, toy çaldıranlar da, səfərə çıxanlar da, qonaq qarşılayanlar da var. Dəmiryolu vağzalı, aeroport, avtovağzal xırda-xırda qaynayır, insanlar vurnuxurlar.

Həyatımda ilk dəfədir ki, mağaza vitrinlərinin günü-gündən boşaldığını görməkdəyəm. Səhərin gözü açılmamış çörək mağazalarının qabağında uzun növbələr yaranır. Ət, yağ ayda adam başına bir kiloqram olmaqla talonla verilir. Müəssisə rəhbərləri iki ilə yaxındır ki, kortəbii şəkildə, yəni düşəndən-düşənə kartof, soğan, dondurulmuş ət, bitki yağları tapıb işçilərinə bazardan ucuz qiymətə siyahı üzrə satdırır. Şəxsi təşəbbüsü ilə doğulduğu kənddən gətirib iş yoldaşlarına kilo-kilo bal, pendir, qoz, fındıq satanlar əmələ gəlib. Küçə alverçilərinin sayı gündən-günə artır. Qabaqlar belə deyildi. İndi hündür binaların aralıqlarında cöngələri, danaları böyürdə-böyürdə, qoçları, quzuları mələdə-mələdə kəsib kilo-kilo satırdılar. Səhərlər xırda-xuruş satanların alıcı soraqlayan qışqırığına yuxudan oyanırdım çox vaxt. Qabaqlar obaşdan süd, qatıq satanların səsi gəlirdisə, indi satıcılıq səriştəsi olmayan, bir tikə çörək ucbatından "çak-çuk" eləməyə girişmiş qaçqınlar əsəbi şəkildə qəribə səslər çıxarır, qıy vururdular.

Köhnənin söhbətidir, bir dəfə səhərin gözü açılmamış qatıqsatanın çığırtısına yuxudan dik atılıb ayılan SSRİ Xalq artisti Rəşid Behbudov pəncərəni laybalay açıb acıqlı-acıqlı ona deyir:

– A kişi, səsini nə atmısan başına? Qoy yataq də!

Qatıqsatan məzəli adammış, sənətkara belə cavab verir:

– Rəşid qağa, mən bircə səhərlər çığırıb adamların zəhləsini tökürəm, sən gecə-gündüz!

Şəhərdə qıtlıq yarandıqca, sanki, insanlar daha çox yemək istəyirlər. Az keçəcək, "Azadlıq" meydanındakı mitinqlərdə Etibar Məmmədovun tez-tez işlətdiyi, hamını həyəcana gətirən bir cümləsi olacaq: "Bakıda üç günlük un ehtiyatı qalıb". Kütləni daha artıq qıcıqlandırmaq istəyəndə isə "üç gün"ü, "iki gün"lə əvəz edirdi.

Etibar Məmmədov Ayaz Mütəllibovun hakimiyyətinin son günlərindəki çıxışlarında hətta Bakıda bir günlük un ehtiyatının qaldığını da ağzından od püskürə-püskürə havaya üfürəcək. Məlumatı hansı mənbədən götürdüyünü dilinə gətirməzdi, arxayın idi ki, ona möhkəm inanırlar. Həm də belə kütləvi elanları ömrümüzdə eşitməmişdik.

Tələsməyək, bir az əvvələ qayıdaq. Hələ ölkə ərazisində "SSRİ dövlətinin saxlanıb-saxlanmaması" məsələsini həll etmək üçün ümumxalq referendumu keçirilir. İşi pozmaq üçün Baltikyanı respublikalar səsvermədən boyun qaçırıb. Bizdə isə bu vaxtacan gördüyümüz laqeyd, soyuq səsvermədi. Guya əhalinin doxsan altı faizi SSRİ-nin saxlanılmasına səs verib. Artıq əksər insanlar nə Moskva, nə də Bakı hakimiyyətinə inanır. Xeyirdə-şərdə ağıllı adamlar açıq-açığına bildirirlər ki, referendum keçirilməsinin özü SSRİ-ni dağıtmağa xidmət edir. Bu, dəlinin yadına daş salmaqdır. Ancaq Azərbaycan Moskvanın heç bir işinə qarışa bilmədiyinə görə belə böyük məsələdə seyrçidən başqa bir şey deyilik. Mərkəzdən asılı olsaq da, kütləni Moskvada baş verən hadisələrdən artıq Bakıdakı, Qarabağdakı, İrəvandakı çək-çevirlər daha çox narahat edir.

Dövr çox qəzəblidir. Hər hansı bir səhv, çoxluğun heysiyyatına toxunan adi bir münasibət gərginliyi birə-beş artırır. Dünən öyülən adam bu gün söyülür. Yaxud, gözdən düşmüş birisi cəsarətli bir çıxışı ilə yenidən gündəmə gəlir. Alqışla qarğış tez-tez yerini dəyişir. Zamanə yelbeyin, dəlisov, hərdəmxəyal adama oxşayır, qarşısında qaya kimi, dağ kimi möhkəm durmaq sadəcə mümkün deyil. Adi bir misal çəkim: hadisələrin əvvəlindən bəri dinclik bilməyən, tribunalarda oxuduğu vətənpərvər şeirləri, çağırışları ilə seçilən, ötən ilin 20 yanvar qırğınından sonra tutulub Lefortovo zindanına atılan Xəlil Rzanın, görün nədə yaxası ələ keçmişdi. Mərkəzi televiziyanın gözdən pərdə asmaq, guya Azərbaycan-Ermənistan qarşıdurmasını yumşaltmaq məqsədilə təşkil etdiyi verilişdə danışdırılan şair söhbətinin bir məqamında xalqımızın əleyhinə çoxlu cəfəngiyyatlar yazmış, radikal millətçi erməni şairəsi Kaputikyanı "Silva xanım" deyərək yad etmişdi. (*Silva Kaputikyan, neçə illər*

*qabaq Bakıda qonaq olarkən demişdi: "Nə gözəl, nə şirin diliniz var. Məsələn, nağıllarınız belə başlayır: "Biri vaarmışşşş, biri yooxmuşşşş..." Bəh! Bəh!")* Əslində vətənini sevən, amma boşboğazlıqdan, hay-küy salmaqdan başqa əlindən bir şey gəlməyən adamlar Xəlil Rzanın "Silva xanım" sözlərini əlində tutalğa eləyib, onu yamanlayırdılar. "Erməni şairi bizim qadına "Xanım" deyərmi?" kimi ibarə uydurub, hətta onun ermənilər tərəfə keçdiyini iddia edənlər vardı.

Şair həbsxanadan çıxandan sonra birinci bu qınaqdan qurtulmaq istədi. Bir müsahibəsində sarı simə vurdu:

– Bəli, mərkəzi televiziyadakı çıxışımda Silvaya "Xanım" demişəm. Yetmişinci illərdə Yerevanda səfərdə olarkən xəstələnmişdim. Silva məni evinə apardı, qulluğumda durdu, bədənimi ovuşdurdu, kürəyimə banka saldı, qonağına xanımlıq elədi.

Xəlil Rzanın bu sözləri kütləni tamam toxtatdı. Baho, biz bilməmişdik, erməni şairəsi şairimizə bir gecəlik olsa da, kənizlik edib. Yəqin arada "o məsələ" də olub. Hamı güldü, xəyalında əlini şairin kürəyinə vurdu. Hətta bu açıqlamada vətənpərvərlik çaları tapanlar da oldu. Dünən suç sayılan şey bu gün ürəklərdən tikan çıxartdı.

Filarmoniya bağından keçərkən yaşından çox qoca görünən şair Balasadığa rast gəlirəm. Əlini əlinin üstünə qoyaraq uzun oturacaqda tək əyləşib, qalın şüşəli eynəyinin arxasından gəlib gedənlərə baxır. Həmişəki kimi fikirlidir. Məni gendən görüncə canlanır, köhnə kişi olduğundan ədəb xatirinə ayağa durur. Bir-iki ilin tanışıyıq. Görüşüb yanaşı otururuq. "Balasadıq müəllim, necəsiniz?" deməyimlə dərdi açılır. Demə, ürəyindəkiləri danışmağa adam axtarırmış:

– Əşşi, belə şey olar? Zəmanə korlanıb, adamlarda insaf qalmayıb. Nə qanundan qorxan var, nə allahdan. Dünən arvadım topdansatış yerindən iyirmi kilo kartof almışdı. Kisəni əlimə götürdüm, mənə yüngül gəldi. Tərəzidə çəkdim, gördüm on üç kilodur. Eh...

Başımı bulamaqla ona dəm tutdum. Nəfəsini dərib sözünə davam etdi:

– Rəhmətlik atam Hacı Zeynalabdin Tağıyevin evində xidmətçi işləmişdi. Danışırdı ki, on səkkizinci ildə Bakı türklərin əlində

olarkən Hacının Rusiyadan tacir qonağı gəlmişdi. Qonaqdan göz-qulaq olmaq mənə tapşırılmışdı. Rus taciri möhkəm vurandı. Qışın oğlan çağında Bakının sazağını vecinə almırdı, içib gəzirdi.

Bir axşam gəzintiyə çıxmışdı, mən də yanında. Yenə də kefli idi. Gəzə-gəzə gəlib Goburnat bağına çıxdıq. – "Bu bağı deyir e!" – Balasadıq hekayəni kəsib əlavəsini elədi. – Tacir oturacaqda əyləşən kimi qoltuğundan araq şüşəsini çıxardıb başına çəkdi, yuxuya getdi.

Çiynində qalın xəz kürk vardı, şaxta hələm-hələm ona kar eləməzdi. Ancaq məni soyuq kəsirdi, əynim yuxa idi. Sətəlcəm olmaqdan qorxub qonağı asta-asta dümsükləməyə başladım. Xeyri olmadı, araq onu götürmüşdü. Taciri zorla yerindən durğuzdum, qoluna girib darta-darta "Metropol" mehmanxanasına sarı aparmağa başladım. Haçandan-haçana mənzil başına çatdıq. Tacirin otağına girəndə gördüm, kürkü çiynində deyil. Sarımı uddum, işi korlamışdım. Qaranəfəs Goburnat bağına tərəf götürüldüm. Oturacaqda tacirin kürkünü görüncə, ağlım üstümə gəldi. Kürkə cumurdum ki, arxadan səs gəldi:

– Dur!

Geri dönüb patrul dəstəsini görəndə yerimdə qurudum. İndi yadıma düşdü ki, türk əsgərləri Bakıda nizam-intizama ciddi nəzarət edirlər. Onlar tutduqlarının cinayətini sübut edən kimi günahkarı ya asırdılar, ya da güllələyirdilər.

Dəstənin başçısı soruşdu:

– Kürk kimindir?

Gerisini düşünmədən cavab verdim:

– Mənimdir!

– Kürkün ciblərində nə var?

Tutuldum.

– Düş qabağa! – Əmr etdi.

Qabağa düşdüm. Gedə-gedə başımı arxaya döndərib başçıya dedim:

– Düzü, kürk mənim deyil.

Cavab:

– Bəs niyə sənin olmayan şeyi götürürsən?
– Kürkü götürməsəydim, işim bitəcəkdi.
– Nədən?
– Çünki, kürk Hacı Zeynalabdin Tağıyevin tacir qonağınındır. Mən Hacının adamıyam. Tacirin kürkünün dalınca gəlmişdim.
– Yoxlayarıq!
Komendantlıqda məsələnin araşdırılması iki saata qədər çəkdi. Oğru olmadığım sübuta yetəndən sonra buraxıldım.
Şair əhvalatı bitirdikdən sonra danışdığından həzz almış kimi dedi:
– Nizam-intizam bax, belə olar. Yoxsa indiki kimi?!
Ona baxa-baxa düşünürəm. İndi hər kəs dövrü dəyişmək istəyir. Balasadıq kimi qocalar da, mənim kimi cavanlar da.
Evimizdən qayıdırdım, anam əlimə dolu bir zənbil vermişdi. Zənbilin ağırlığı bir tərəfimi əyib. Qabaqlar evdən özümə nəsə yük eləməyi sevməzdim. Mən olam, əlimdə özüm üçün yemək daşıyam?! Ay-hay?! Amma son aylarda anam Qara ilə məni pay-püşsüz yola salmaz. Heç olmasa ayda, qırx gündə bir məni yeddi-səkkiz gün növbələrdə durmaqdan xilas edir. Daha özünü dartıb gəzməyin zamanı deyil. Bir az nəm-nüm eləsəm də, Bakıda yaşadığım evin yanındakı böyük ərzaq mağazasının vitrinlərində üst-üstə yığılmış kilkə konservlərindən, kisel qutularından, duzlu xiyar, pomidor balonlarından başqa bir şey görmədiyimi yada salanda ata-anamın təkidi qarşısında yumşalıram. Tək adamam, bazarlıq çox işim olmasa da, hər halda qiymətlərin durmadan artması məni də hərdən divara qısnayır. Zənbildəkiləri soyuducuya yığanda birdən beynimdən keçir ki, gətirdiklərimdən Fərəh üçün sovqat aparım. Bir qədər duruxuram, görəsən, bu, yüngüllük olmaz? Belə kişilənməyim necə yozular? Cavan qadına nəcib hədiyyə apararlar. Məsələn, gül-çiçək, ətir... Amma tərəddüdlərin üstündən ildırım sürətilə hoppanıb keçməyim var. Telefonun dəstəyini götürüb, Fərəhi yığıram. Fərəh səsimi eşidincə, məni yeddi yerdən dindirir. Halımı, durumumu, işimi-gücümü, içindən keçib getdiyimiz günlər, hadisələr barədə o qədər suallar yağdırır ki, elə bil mən yox, o zəng edib. Onu aramağımın səbəbini

soruşmur. Gör nə vaxtdır bir-birimizin səsini eşitmirik? Uzun müddətlik fasilədən sonra ünsiyyətimizin bərpa olunmasında çətinlik yaranmır.

İkicə saat əvvəl şəhərimizdən qayıtdığımı Fərəhə bildirəndə danışığında daha da fəallaşır. Şəhərimizdən sorğu-suala başlamasına aman verməyib söhbətin məcrasını dəyişirəm:

– Fərəh, gələndə anam mənə bir zənbil yükləyib. İstəyirəm onu iki yerə bölək.

Fərəhin səsi tutulur, dəstəkdə həyəcanlı nəfəsini hiss eləyirəm. Nə fikirləşirdi? Dolanışığın indi hamının beynini qıcıqlandırdığı bir vaxtda Fərəhin xoşuna gəlməkdən ötrü fənd işlətməyim kimi görünməzdi ki bu? Bir sözü deyərkən, bir işi edərkən hər şeyin yalnız yaxşı tərəfini düşünə bilirəm. Dediyim söz, gördüyüm iş başqa cür yozulanda ayılıram, ehtiyatsız hərəkət etdiyimi anlayıram. Neynim, nə qədər ağıllı, tədbirli olmaq istəsəm də, həmişə hissə qapılmağım işlərimi bir qədər əyir, korlayır.

Fərəh yenə əvvəlki Fərəh olur, məlahətli səsi ilə deyir:

– Heç nə lazım deyil! Sağlığın bəsdir! Dur, gəl! Sən gələnə qədər çay süfrəm hazır olacaq.

Zənbildən anamın qoyduqlarını götürüb ayırd edirəm. Qoç budunu, bir toyuğu, on yumurtanı, iki-üç göyərtini, təndir çörəyini sellofan torbaya yığıb Fərəh üçün aparmağı qərara alıram.

Fərəh məni çox ərklə qarşılayır. Sovqatımı içəridə qapının ağzında qoyub ayaqqabılarımı soyunuram. Fərəh keçən dəfəki kimi boynumu qucaqlayıb, o üzümdən-bu üzümdən öpür. Elə bil xalamdır, bibimdir. Onun arvad-arvad davranmağı acığıma gəlmir, əksinə, məni bu qadının ailəcanlı, evdar olduğunu düşünməyə vadar edir.

Keçib divanda otururam. Bu saat qapıdan içəri biri girsə, aydınca görər ki, mənzildə qonaq qarşılamaq üçün azacıq da olsa, hazırlıq görülüb. Qarşımdakı alçaq mizin üstündə iki boşqab, çəngəl-bıçaq dəstləri, salfet səliqə ilə düzülüb.

Fərəh, əlində məcməyi həm özünə, həm də mənə çay, tort, sarı şüşə kimi gilas mürəbbəsi gətirir. Çayı qarşıma qoyanda deyir:

– Nə zəhmətdir, çəkmisən?

Dillənmədiyimi görüb əlavə edir:

– Hansı yeməyi daha çox sevirsən? De, gətirdiyindən bişirərəm, gəlib yeyərsən.

Ürəyimdə öz-özümə donquldanıram ki, əliaçıqlığımla yeni dəvət üçün ipucu vermişəm.

Fərəh böyrümdə oturub bir də soruşur:

– Sevdiyin yeməyin adını demək istəmirsən?

Çiynimi çəkirəm:

– Çox ac olanda yediyim elə bilirəm ən çox sevdiyim yeməkdir.

– Eybi yoxdur, – ərklə dillənir – sənə sevdiyin yeməyin adını öyrədərəm.

Cavabı ürəyimdə qaytarıram: "Yox, öyrədə bilməyəcəksən! Bəlkə, heç bir daha bu qapıya ayaq basmadım!"

– Çox istiqanlısan!

Təəccüblənirəm:

– Bəs deyirlər, adamayovuşmazam, soyuğam?

– Onlar səni üzdən tanıyanlardır.

– Söhbətin mövzusunu dəyişə bilərik?

– Dəyişək! İstəyirsən Qorbaçovla Yeltsinin didişməsindən danışaq?

– İndi o mövzuda danışmayan yoxdur.

– Danışdırırlar, danışırıq. Hamı əsəbi olub. Bilirsən, ürək-damar xəstəliklərindən müalicə olunanların sayı nə qədər artıb? Hə, sənə deməmişəm, təzəlikdə "Semaşko"da işə düzəlmişəm. Tibb bacısıyam.

– Təbrik edirəm, Tibb bəyin bacısı!

Fərəh gülümsəyir. Çaydan bir qurtum alıb torta qaşıq vurur. Çay içə-içə onun başını aşağı salıb şirin-şirin tort yeməsinə baxıram. Bu qızda ürəyimə yatan nəsə sirli bir şey var. Kiprik çalmadan onu marıtlayıram. Fərəh bunu hiss edib başını qaldırır. Baxışlarımdan üzünə qızartı çöksə də, təsirdən tez çıxır:

– Niyə tortunu yemirsən? Ye, dadlıdır! Özüm bişirmişəm!

– İncimə, şirin şeyləri sevmirəm. Şirin şey yeyəndə başım ağrıyır. Hətta çayı da çox vaxt yavan içirəm. İldə bir-iki dəfə dilimə qənd

dəyə-dəyməyə. Uşaqlıqda atamın Bakıdan alıb gətirdiyi şokoladların özündən çox bəzəkli kağızlarını sevərdim.

– Amma turş mürəbbədən xoşun gəlir.

– Hardan bildin?

Cavab vermək əvəzinə rəngi dəyişir, durub mətbəxə keçir.

Özümü qınayıram ki, gərək məcbur da olsa, tortu yeyəydin. Nəyi xoşlayıb, xoşlamadığımı nümayiş etdirməyə yer tapmısan? Başqasını da düşün də! Xalxın qızı tort bişirib, süfrə açıb, sən də nazından-forsundan qalmırsan.

Fərəh mətbəxdən kiçik nəlbəkidə mürəbbə gətirir:

– Göyəm mürəbbəsidir. Tumturşdur.

Göyəm mürəbbəsi ilə çay içməyə başlayıram.

Fərəh oturduğu yerdən donuq-donuq mənə baxır, susur. Süfrədə şirin şeylərə əl vurmayıb turş göyəm mürəbbəsinə cummağım niyə onu qayğılandırır görəsən? Burda qəribə nə var ki? O şirini xoşlayır, mən turşu.

Yaxşı ki, Fərəhin üzündəki bulud tez keçib gedir. Hansısa yeni duyğu onun yanaqlarını işıqlandırır:

– Nədəndirsə, sənin yanında sərbəst oluram. Xətrinə dəyməkdən qorxmuram. İstəyirəm buna alışasan. Qorxma, zəhləni tökməyəcəyəm!

Beynimdən televiziya ekranının ayağından axan titr kimi bir cümlə keçir: “Deyəsən bu qız məndən əl çəkməyəcək”

Fərəh ayağa durub böyrümə gəlir, əlini çiynimə qoyub deyir:

– Səndən bir xahişim var!

– Xahişin? – altdan yuxarı ona baxıram.

– O da şirini sevmirdi, turşa meyilli idi. Səninlə onu açıq-açığına müqayisə edəndə incimə! Mənə belə rahatdır. Axı, onu sevirdim. Elə indi də sevirəm. O qədər oxşar cəhətləriniz var ki...

Fərəh hıçqırır. Yerimdən durmaq istəyirəm. O, yüngülcə çiynimdən basıb, ayağa qalxmağıma mane olur. Müqavimət göstərmirəm. Qoy ağlasın, ürəyini boşaltsın.

Bilmirəm indi nə etmək lazımdır, axı, müsibət görmüş adamla dostluq, yoldaşlıq təcrübəm yoxdur.

Fərəh əlini çiynimdən götürüncə ayağa qalxıb ona sarı dönürəm. Mənə sarılıb üzünü sinəmdə gizlədir. Təsəlli üçün Fərəhin saçlarına bir sığal çəkirəm, əlim açılıb kürəyinə tökülmüş saçlarının ucuna qədər gedir. Tarixdə bəlkə də belə uzun bir sığal olmayıb.

Sonra saçından öpürəm. Bu da özlüyümdə onu sakitləşdirməkdən ötrüdür.

Fərəhin hıçqırığı kəsilir. Bir üzünü götürüb o biri üzünü sinəmə qoyur, təzədən mənə sığınır. Hərəkəti kəsilir. Elə bil yuxuya gedib. Onu ayaqüstü yuxudan oyatmaq istəmirəm. Öz-özümə düşünürəm, indi körpə kimi sinəmə qısılıb qalan qadın ayrı vaxt dil-dil ötən, söhbətdə həmişə məni üstələyən Fərəhdirmi? Bədən üzvlərim öz ahəngi ilə həzin-həzin işləməkdədir. Hiss edirəm ki, Fərəhin qolları arasından çıxmağa cəhd etmək bacarmadığım bir şeydir. Nə qədər istəsə, məni buraxmaya bilər. Məmnuniyyətlə, bu dəqiqə Fərəhi öpüb-oxşayardım, bədəninə əlimi sürtərdim, ancaq bunu sui-istifadə kimi qəbul edə biləcəyini düşünüb dayanmışam. Hə, belə çıxır ki, bu qadınla tez-tez bir yerdə olsam, ona möhkəm bağlanacağam. Fərəh təsvir etdiyim kimi, hərəkətlidir, ayıqdır, ünsiyyətcildir. Düzdür, illərlə xəyalımda yaratdığım qız qədər gözəl, cazibədar deyil, ancaq təsəvvürümdəki ideal Fərəhlə münasibətlərimi genişləndirməyə mane ola bilməz bəlkə də.

Fərəh qəfil başını sinəmdən götürüb aralanır və mətbəxə gedən dar dəhlizdən hamam otağına keçir.

İndi Fərəhlə bir mənzildə olmağıma ata-anamın, Qaranın, bizi tanıyanların gözlərilə baxıram, üzərimdə narazı baxışlar hiss edirəm. Baxışlar ondan üstünlüyümü açıq-aydın sübut etməyə çalışırlar. Bəlkə də Fərəh bütün insani keyfiyyətlərinə görə məndən bir baş yuxarıdır, ancaq dul bir qadın olması İslam dəyərlərinə görə, göstəriciləri mənim xeyrimə dəyişir. Ona ərini xatırlamaqda yardımçıyam. Bəlkə, bundan ötrü görüşdən imtina etmir? Zəng edən kimi deyir, dur, gəl!

Otağa qayıdır. Üzünü yuduğunu hiss edirəm. Saçını arxaya yığıb. Addım atdıqca köynəyinin altında döşləri yırğalanır. Yenə də şux, həyat eşqi aşıb-daşan Fərəhdir bu.

– Çay gətirim? – soruşur.

– Bəsdir, sağ ol, gedirəm.

– Tələsən yerin var?

– Heç yerə tələsmirəm.

– Burda qala bilərsən? Anam gəlməli idi, amma səhər fikrini dəyişdi. Zəng edib dedi ki, sabah axşam gələcək. Axır vaxtlar gecələr təklikdən qorxuram, bədənimə titrətmə gəlir. Qabaq belə deyildim.

Qulaqlarıma inanmıram: o, doğrudanmı, mənimlə bərabər gecələmək istəyir? Soruşuram:

– Qalmağımı ürəkdən istəyirsən? Yoxsa bu məsələ barədə fikrimi öyrənirsən?

Fərəh boynuma atılır. Mən də onu bərk-bərk qucaqlayıram. Elə bil uzaq səfərdən qayıtmışam, vağzalda məni qarşılayır. Onun təşəbbüsü ilə utancaq, qırıq-qırıq öpüşürük. Deyəsən, o məni daha çox öpür. Fərəhin fəallığı artınca qollarım boşalır. Nədənsə özümə pələng əlinə keçmiş şikar kimi baxıram. Sanki indicə parçalanacağam.

Birdən Fərəh də sönür, boynumdan asılıb qalır. İlk dəfə onu təsirimə sala bilməyim içimi qızdırır. Bu, insafsızlıqdır. Onu ovundurmaq üçün bir qədər ehtiraslı kişi rolunu oynaya bilərdim. Bəlkə Fərəh gözlərini yumaraq, rəhmətlik ərini xəyalında canlandırıb mənə sığınmışdı? Hər halda kişi-qadın məsələsində təcrübəli olmadığım üçün əlim-ayağım əsir. Sevgi oyunu oynaya bilmirəm.

Fərəhin havası dəyişir. Sanki beş dəqiqə əvvəl olanlar lap çoxdan baş verib. Hətta hadisənin xeyli hissəsi yaddan çıxıb, unudulub. Heç nə olmamış kimi üz-üzə oturmuşuq. Fərəh tam özündədir. Bəlkə, indi heç ərini də xatırlamır. İynə üstə oturmuşam, bilmirəm qalım, yoxsa gedim.

– Getmək istəyirsənsə, get! İşin ola bilər.

Fərəh qəlbimə dəymədən məni özündən xilas edib azadlığa buraxır. Arxamca qapını bağlamazdan qabaq xəbərdarlıq edir:

– Bu günlərdə telefon zəngimi gözlə!

Pilləkənləri enirəm. Elə ki, binadan aralanıram, içimdə öz üstümə düşüb deyinirəm: "Nə özünü çəkib qoymusan dağın başına!

Səni yeməyəcəkdi ki? Qal deyirdi, qalaydın da gecəni onun yanında. Guya onunla nəfəs-nəfəsə yatıb xumarlanmaq istəmirsən?"

Küçədə dayanıb dururam. Tərəddüd keçirirəm. Bəlkə qayıdım? Bu yüngüllük olmazmı?! Yaxşı ki, fikrim balaca durulur, irəliyə yol açılır. Nəhayət, Fərəhin cazibə qüvvəsindən çıxa bilirəm...

Beynim ögey uşağına göz verib işıq verməyən ifritə qadın kimi mısmırığını sallayıb kənardan məni izləməkdə, hisslərimi soyudub buza döndərməkdədir. Moskvadan yeni həyəcanlı xəbərlər gəlir. İyulun sonuncu günlərində Qorbaçovun, Yeltsinin, Nazarbayevin – SSRİ-nin, Rusiyanın və Qazaxıstanın Prezidentlərinin Novo-Oqaryovo deyilən yerdə görüşüb Sovet dövlətinin gələcək taleyini müzakirə etməsi və 1922-ci ildə SSRİ-nin yaradılması haqqında müqaviləni pozub, yeni İttifaq müqaviləsinin bağlanması barədə danışması bütün dünyanın üzünü və fikrini günəbaxan kimi Moskvaya sarı döndərir. Günəbaxanlardan biri də mənəm.

Deyəsən, yeni İttifaq müqaviləsinin nə olduğunu Qorbaçovdan başqa heç kəs bilmir. Bu müqavilə hansı şəkildə olacaq, nəyi dəyişəcək? Yuxarılardan aydın bir fikir səsləndirən yoxdur. Efirdən, qəzetlərdən, yan-yörədən hərə bir zurna piləyir. Amma heç bir məntiq özünü doğrultmur. Qorbaçovun beyni bütün məntiqləri puça çıxartmaqla məşğuldur sanki. Hamının intizar içində yeni İttifaq müqaviləsinin bağlanacağını gözlədiyi ərəfədə birdən-birə, Babayar demişkən, ibnəsi qalxır ki, bəs iki həftəlik Krıma müalicəyə getmək üçün məzuniyyət götürürəm. Dalınca da xəbər yayılır ki, Prezidentin qulunc ağrısından başqa heç bir xəstəliyi yoxdur. Gələcək taleyi üçün insanların səksəkə içində olduğu bir vaxtda rəhbərin öz istirahətinin qayğısına qalması böyük çaşqınlıq yaradır.

Oxucular, keçmişə uçuruq! Kəmərləri möhkəm bağlayın! Çox uzağa getmirik. Səkkiz-doqquz illik məsafəmiz var. Uçuş müddəti ... Tələsməyin!

1979-cu ildə Böyük Britaniyada Marqaret Tetçerin Baş nazir, 1980-cı ildə Almaniya Federativ Respublikasında Helmut Kolun kansler, Fransada Fransua Mitteranın prezident seçilməsindən, 1981-ci ildə Amerika Birləşmiş Ştatlarında Ronald Reyqanın ha-

kimiyyətə gəlişindən sonra dünyada böyük proseslər başlamışdı. Hələ 1946-ci ilin yazında II Dünya müharibəsinin qalib liderlərindən biri, Böyük Britaniyanın Baş naziri Uinston Çörçill Amerika Birləşmiş Ştatlarının Fulton şəhərində Vestminster kollecinin tələbələri ilə keçirdiyi görüşdəki çıxışında – tarixçilər bunu "Çörçillin Fulton nitqi!" adlandırırlar – demişdi ki, faşizm üzərində qələbədən sonra Şərqi Avropa ilə Qərbi Avropa arasında keçilməz sədd cızan və bu qitənin mədəni paytaxtları olan Berlində, Praqada, Varşavada, Budapeştdə, Buxarestdə kommunist hakimiyyətləri quran SSRİ, əslində kapitalist dünyası ilə öz arasında dəmir pərdə çəkib. O, dünyada böyük gücə çevrilən ABŞ-ı və anqlosakson dövlətlərini birliyə çağıraraq kommunist sisteminə qarşı mübarizəyə səsləyirdi. Hətta dünyada sülhü qorumaqdan ötrü Birləşmiş Millətlər Təşkilatının ordusunu yaratmağı təklif edirdi. Çörçillin "BMT ordusu" arzu olaraq qalsa da, 1949-cu ildə iki sistemi biri-birinə qarşı qoyan Şimali Atlantika Bloku (*NATO*), 1955-ci ildə isə Varşava Müqaviləsi Təşkilatı hərbi birlikləri yaradılmışdı. Dünya iki nəzarət yarımdairəsinə bölünmüşdü. ABŞ Prezidenti Ronald Reyqan isə 1983-cü ilin martında Florida ştatında çıxış edərkən SSRİ-yə "Şər imperiyası" damğası vurmuşdu və II Dünya müharibəsindən sonra başlanıb il-ildən qızışan soyuq müharibə yeni mərhələsinə qədəm qoymuşdu.

Yeniyetməlikdə, gənclikdə dünyada nə baş verdiyini axıra qədər anlamasam da, dövlət təbliğatına uyub, günlərin bir günü ulduzlararası nüvə döyüşlərinin başlayacağını düşünüb üşənirdim. Evdə, məktəbdə, ayağımız dəyən yerlərdə eşidirdik, kitabdan, mətbuatdan oxuyurduq, Amerika Birləşmiş Ştatları ilə vətəndaşı olduğumuz Sovet İttifaqı arasında silahlanma yarışması gedirdi. Ordan Amerika, burdan Sovet kosmonavtları həftə səkkiz, mən doqquz hərbi məqsədlə kosmosa uçub uzun müddət fəzada köç salırdılar. Başında ABŞ-ın durduğu, mərkəzi Brüsselldə yerləşən NATO və SSRİ-nin iradəsinə tabe olub, Varşavada qərargah qurmuş "Varşava Müqaviləsi Təşkilatı" adi silahlarını təkmilləşdirməkdən ötrü hər il büdcələrini şişirdib artırırdılar. Nüvə başlıqlarının, yaxın və uzaq mənzilli

raketlərin istehsalı isə milyardlara başa gəlirdi. Güclü silahlanma iki siyasi sistemin, sosializm cəbhəsi ilə kapitalizm cəbhəsinin biri-birindən müdafiəsi kimi yozulurdu. SSRİ-də belə bir şüar vardı: "Biz hərb istəmirik! Hərbə hazırıq!"

Çar Rusiyasının davamçısı olan SSRİ həmişə hərbi dövlət olub. Hər iki dünya müharibəsində ən fəal tərəf kimi iştirak edib. Birinci dünya müharibəsində itirdiklərini ikincisində artıqlaması ilə qazanıb.

Savaşdan qalib çıxan SSRİ, ABŞ və Böyük Britaniya dünyanı yenidən bölüb üstündə oturmuşdular. O vaxtdan özünü demokratiyanın baş dirijoru sayan Böyük Britaniya və ABŞ həmişə dünyanı istədikləri kimi yönəltməyə çalışıblar. Birləşmiş Ştatların hər yeni prezidenti andiçmə nitqində dünyanın idarə olunmasında öz ölkəsinin böyük məsuliyyət daşıdığını mütləq xüsusi vurğulayaraq bununla qürur duyduğunu bəşəriyyətə bəyan edib. İngiltərənin hər yeni baş naziri də elə... Avropada demokratiyanın bərqərar olması üçün əllərindən gələni əsirgəməyəcəyini səsləndirib. Böyük Britaniyanın Baş naziri olmuş Bencamin Dizraelinin XIX əsrin ortalarında dediyi bir fikri cib dəftərçəmə yazmışdım: "İnamım budur ki, Avropada böyük problemlərin həllində İngiltərənin iştiraki sülh üçün ən etibarlı zəmanətdir".

Həmişə dünyaya az-çox düzən verən böyük dövlətlər olub. Qədim Babilistandan üzü bəri... Makedoniyalı İsgəndər, Roma imperiyasının sezarları, Hun imperatorları, Ərəb xəlifələri, Çingiz xan, Əmir Teymur, Osmanlı sultanları... İntibah dövründən sonra Avropa dövlətləri yeni dünyanı kəşf etdilər və okean sularına, Amerikaya, Avstraliyaya yiyələndilər. Afrikanı koloniyaya çevirib Asiyaya üz tutdular. Bizim nəsil bunları tarix kitablarından öyrəndi. Biz gözümüzü açıb dünyanın qotazlı yüyəninin SSRİ, Amerika Birləşmiş Ştatları, Avropanın nüfuzlu dövlətləri kimi "təpəgözlər"in əlində gördük. Amma Avropa dövlətləri SSRİ-nin qorxusundan ABŞ-ın qoltuğuna sığınmışdı. Lap sadə şəkildə desək, SSRİ, ABŞ və bütün beynəlxalq məsələlərdə onun yanından bir addım aralanmayan Böyük Britaniyanın başının bəlasına çevrilmişdi, onlar da SSRİ-nin.

Brejnev dövrünün sonuna qədər ABŞ prezidentlərinin heç biri SSRİ ilə dil tapa bilmirdi. ABŞ Prezidenti Niksonun Moskvaya səfəri quru, rəsmi və protokol qaydalarından bir santimetr kənara çıxmadan keçmişdi. İki illik Andropov zamanı da aranı yumşaltmamışdı. 1984-cü ildə xəstə, əldən düşmüş Çernenko hakimiyyətə gələndə isə müvəqqəti saydıqları bu adamla danışıq aparmağa lüzum görməyən ABŞ və Qərb ona deyil, onun varisi olacaq Qorbaçova girişdilər.

Taleyin qəribə sirləri var. Söhbət 1975-ci ildən gedir. Onda ömrünü siyasətə həsr etməyə söz vermiş əyalət qızı Marqaret Tetçer müxalif Mühafizəkarlar Partiyasının lideri, 37 yaşına qədər özünün dediyi kimi, əyləncə mühitində olmuş, aktyorluq, futbol yarışlarına radioşərhçilik etmiş Ronald Reyqan Kaliforniya ştatının qubernatoru idi. Londonda rəsmən görüşən partiya funksioneri və dövlət xadimi alışıb-tutuşdular. Sonralar "siyasi nikah"a girəcəkdilər. Marqaret Tetçer "Dauninq Stritdə keçən illər" memuarında Reyqan haqqında yazacaqdı: "Onun hərarəti, ədası, quru vəzifə sahiblərinə oxşamaması məni heyran etdi." Ronald Reyqan isə həmin görüşü belə xatırlayacaqdı: "London görüşündən mənə aydın oldu ki, dövlətçilik və insan azadlığı haqda bizim düşüncələrimiz biri-birini tamamlayır. Görüşümüzün axırında Marqaret dedi ki, biz birgə mübarizə aparmalıyıq".

Bir müddətdən sonra yazışmalarında Tetçer Reyqanı "Ron", Reyqan isə dostunu sadəcə, "Marqaret" adlandırırdı.

Reyqanın bioqrafı Lu Kennon onların münasibətinə belə ad qoyacaqdı: "Reyqan kinoulduz idi, Tetçer kinossenarist".

Tetçerin həyatını yazan Hüqo Janq isə müqayisəni belə aparacaqdı: "Hətta Ruzveltlə Çörçill onlar qədər anlaşa bilməmişdilər. Axı, Ruzvelt Çörçillin böyük imperiya ambisiyaları ilə barışa bilmirdi".

Sonralar "sevgililər" biri-birinə yeni epitetlər tapacaqdılar. Tetçer Reyqanı "Amerikanın Uinston Çörçilli" hesab edərək, "Vacibliyinə görə həyatının ikinci kişisi" sayacaqdı. Reyqan üçün isə Marqaret Tetçer "Dəmir ledi" və ya "Yubkalı Çörçill" olacaqdı.

Birləşmiş Ştatlarda "Dəmir ledi"ni Reyqan Administrasiyasının qeyri-rəsmi üzvü hesab edirdilər. Reyqan prezident seçkiləri ərəfəsində bir dəfə ağzından qaçırtmışdı ki, vitse-prezident vəzifəsinə bir qadın götürməyi planlaşdırır. Ətrafındakılar "Amerikalılar hələ buna hazır deyillər" deməklə onu fikrindən daşındırmaq istəyəndə Reyqan ürəyindən keçəni bildirir:

– Sizi başa düşmürəm, məsələn, Marqaret Tetçer bizdə vitse-prezidentliyin öhdəsindən yaxşı gələrdi.

Avropanın dövlət başçıları onlara həsəd aparırdılar. Fransa Respublikasının Prezidenti Fransua Mitteran öz köməkçisi Jak Attali ilə söhbətində demişdi ki, Marqaret avropalı həmkarları ilə söhbətdə necə də təkəbbürlü və sərtdir, halbuki Reyqanı görən kimi səkkiz yaşlı balaca qızcığaza dönür.

1984-cü ilin dekabrında, Konstantin Ustinoviç Çernenkonun ölümündən üç ay qabaq Baş naziri Marqaret Tetçer olan Böyük Britaniya Mixail Qorbaçovu və xanımı Raisa Maksimovnanı qonaq çağırdı.

Qonaqlar Siyasi Büronun digər üzvləri kimi madam Tüssonun Avropa paytaxtlarının müzeylərində nümayiş etdirilən mum fiqurlarına oxşamırdılar. Cavan, gülərüz, çevik, əl-qolla danışan və ünsiyyətcil idilər.

Marqaret Tetçer ölkəsinin dərinliklərini qonaqlara göstərməkdən ötrü onları Londondan yüz yetmiş kilometr kənara apardı. Çekers paytaxt tünlüyündən aralı bir şəhər idi. Asudəlikdə rahat geninə-boluna söhbət etmək, lap çənə vurmaq olardı. Çekersdə onlar üçün ayrılmış apartamentdə azacıq dincəldikdən sonra üst-başlarını dəyişib ziyafət salonuna daxil olan Qorbaçovlar şıq geyimləri ilə Marqaret Tetçeri heyran qoyur. O, sonralar xatirələrində yazacaqdı: "Raisanın əynində Qərb üslubunda boz rəngli gözəl kostyum görəndə hayıl-mayıl oldum, dərhal ürəyimdən keçdi ki, kaş mən də belə geyinəydim".

Kimsə deyə bilər: arvad ki, arvad, hətta ali məqamda da geyim, bər-bəzək haqqında düşünür. Əslində, Marqaret Tetçer həmişə zövqlə geyinirdi. Kostyumları əyninə qutu kimi otururdu. Özünə baxan qadın idi. Mirvari sırğalarına, boyunbağılarına, şlyapalarına, ayaqqabılarına söz ola bilməzdi. Gəlin, sadəlövh düşünməyə tələs-

məyək. Raisa Maksimovnanın geyimi, saç düzümü, makiyajı Tetçerin onunla və əri ilə aranı açıb məhrəm söhbətə başlaması üçün keçid mövzusu idi, lap bir-iki kəlməlik olsa da. Marqaret Tetçerlə Qorbaçovun söhbəti tutur. Açıq, səmimi və reqlamenti aşan ikitərəfli tanışlıq görüşü tarix yazır. Lakin Qorbaçov hələ Böyük Britaniyanın Baş nazirinə şübhə ilə baxır, ona lord Pallermonun fikrini xatırladır: "İngilislərin əbədi dostları, düşmənləri yoxdur, əbədi maraqları var". Tetçer isə Çekersdəcə ətrafındakılara deyir: "Qorbaçovdan xoşum gəldi, onunla əməkdaşlıq edə bilərik".

Daha sonralar Böyük Britaniyanın "Dəmir ledi"si çevrəsindəki ekspertlərin Qorbaçov haqda dediyi fikirlərlə razılaşacaqdı... "ehtiyatsız, tez təsirə düşən və yumşaq". Qərb dünyasının on illərlə gözlədiyi Sovet lideri... Onun kağıza baxmadan sərbəst şəkildə tribunada dil-dil ötməsi belə əvvəlki Baş katiblərin yuxulu nitqlərindən bezmiş, "Şər imperiyası"na bata bilməyən Qərbi silkələmişdi. Çox qəribədir, prinsipial, sərt "Dəmir ledi" üzüyola, sıyıq Baş katib sevdasına düşmüşdü.

Baş katib Çernenkonun dəfnindən sonra Qorbaçovun mərasimdə iştirak etmiş Tetçerlə on beş dəqiqə nəzərdə tutulmuş görüşü bir saatdan artıq çəkdi. "Dəmir ledi" sonralar arxasınca "arvadağız" adlandıracağı Qorbaçovun saqqızını oğurladı. Tezliklə Sovet vətəndaşlarının eşidəcəyi yeni sözlər – "перестройка", "демократизация", "новое мышление", "плюрализм", "гластность", "ускорение", "рыночная экономика", "приватизация" ingiliscədən ruscaya çevrilmiş və yaxud orijinalda olduğu kimi saxlanılmış siyasi, iqtisadi terminlər idi. Onlar Tetçer hökumətinin iqtisadi siyasətinə dəstək verən Nobel mükafatı laureatları Fridrix Hayekin, Milton Fridmanın əsərlərindən götürülmüşdü.

Yeni "sistem dəyişiklikləri" Karl Marksın iqtisadi nəzəriyyəsinə söykənən yetmiş illik bir quruluşu dağıdacaqdı.

Gözlərinin çınqısı əskik olmayan Marqaret Tetçeri çox sonralar Londonun Regent-park ərazisindəki evinin qarşısında təsadüfən görəndə yadıma onun xatirələr kitabından oxuduğum bir epizod düşəcəkdi. Həmin epizodda Qorbaçovdan soruşurdu: "Yenə də ölkə-

ni idarə etmək istərdinmi?" Qorbaçov başını bulamaqla etiraz etdikdə, eks Baş nazir deyir: "Ancaq mən məmnuniyyətlə yenidən idarəetmə sükanının arxasına keçərdim".

Ölkəsi "cədvəl üzrə dəqiq hərəkət edən ingilis qatarı" hesab etdiyi Baş nazirə vergilərin artırılmasını, dövlət xərclərinin azaldılması üçün bəzi təşkilatların büdcədən çıxardılmasını bağışlamadı. Həyatının mənasını "iş planlarında, bir il əvvəlcədən siyahısı tutulan rəsmi görüşlərdə, siyasi düşüncələrdə, idarəetmədə – bir sözlə, ictimai fəaliyyətdə görən" Dəmir Ledi 1991-ci ilin noyabrında hakimiyyətdən salınandan bircə ay sonra Qorbaçov da ali mövqeyi ilə üzülüşdü. Kim bilir, bəlkə də Tetçerin hakimiyyəti bir-iki il uzansaydı, Qorbaçovun da tərcümeyi-halında Prezidentlikdən uzaqlaşma tarixi başqa cür yazılacaqdı.

Qorbaçov hakimiyyətdən gedənədək Böyük Britaniyanın Baş naziri Marqaret Tetçerin və ABŞ prezidentləri Ronald Reyqanın, onun xələfi Corc Buşun havasına oynayacaqdı.

Get-gəllər başlayacaqdı. Tetçer, Reyqan, Mitteran, Kol Moskvanın, Qorbaçov isə Londonun, Vaşinqtonun, Parisin, Bonnun yolunu su yoluna döndərəcəkdi. Lenindən sonra Sovetin sayca yeddinci rəhbəri olan Qorbaçov, I Pyotrdan başlayaraq rus hökmdarlarının zor gücünə genişləndirdikləri imperiyanı qısa bir zamanda xeyli kiçildəcəkdi. Yəhudi əsilli ABŞ siyasətçisi Henri Kissincer "Diplomatiya" kitabında yazacaqdı: "Qorbaçov Stalinin mənən sındırdığı sovet rəhbərlərindən fərqli nəslə mənsubdu. "Nomenklatura"nın əvvəlki nümayəndələrinin "ağır əli" onda yox idi!"

Marqaret Tetçer vəzifəsindən istefa verdikdən bir neçə gün sonra fəxri qonaq kimi ABŞ-ın Hyuston şəhərində Amerika Neft İnstitutunun keçirdiyi tədbirə dəvət edilmişdi. Axı ixtisasca kimyaçı idi. Lakin iclasda çıxışı siyasi məzmunlu oldu. Məzğinə görə məruzənin adını "Biz Sovet İttifaqını necə dağıtdıq?" qoymaq olardı:

"Sovet İttifaqı Qərb dünyası üçün ciddi təhlükə mənbəyidir. Hərbi təhlükəni nəzərdə tutmuram. O əslində olmayıb. Bizim ölkələr həm yaxşı silahlanıb, həm də nüvə silahına malikdir. İqtisadi təhlükədən danışıram. Sovet İttifaqında planlı təssərrüfatın, maddi və mənəvi

dəyərlərin hesabına yüksək iqtisadi göstəricilərə nail olunmuşdu. Milli gəlirin daxili artım faizi bizim ölkələrdən iki dəfə yüksək idi. Əgər SSRİ-nin zəngin təbii ehtiyatlarını nəzərə alsaq, onun tezliklə bizi dünya bazarından sıxışdırıb çıxarmaq imkanları vardı. Ona görə də biz Sovet İttifaqının iqtisadiyyatını zəiflədib ölkədaxili problemlər yaratmağa girişdik.

Əsas gücü onları silahlanma yarışına çıxartmağa verdik. Biz bilirdik ki, Sovet hökuməti hərbi məsələdə NATO-dan geri qalmamağa çalışır. Nəticədə SSRİ dövlət büdcəsinin on beş faizini hərbi xərclərə yönəldirdi, bizsə cəmi beş faizlə kifayətlənirdik. Tezliklə Sovet İttifaqının iqtisadiyyatı axsadı. Onlar, özlərinin dediyi kimi, xalq tələbatı mallarının istehsalına yönəldiləsi vəsaitə qənaət etməyə başladılar. Bilirdik ki, bu, əhalinin kütləvi narazılığına səbəb olacaq. Biz fənd işlədərək SSRİ-ni daha artıq hərbi xərclərə salmaq üçün silahlarımızın sayı haqda onlara şişirtmə məlumatlar "sızdırıb" SSRİ-ni əlavə vəsaitlər itkisinə vadar edirdik. Siyasətimizdə SSRİ Konstitusiyasındakı boşluğa da böyük önəm verirdik. Orda göstərilirdi ki, müttəfiq respublikalar istədiyi vaxt İttifaqın tərkibindən çıxa bilər. Amma Kommunist Partiyası və güc strukturları bu məsələnin mümkünlüyünü mötərizəyə alırdı.

Səylərimizə baxmayaraq, SSRİ-də siyasi stabillik dəyişməz olaraq qaldı. ABŞ-la bizim siyasətimizdə əsas yerlərdən birini "Raketdən özünümüdafiə sistemlərinin yaradılması" ideyası tuturdu. Düşünürdük ki, SSRİ də çox baha başa gələn analoji addımı atacaq. Təəssüf ki, bizim ümidlərimiz boşa çıxdı, Sovet İttifaqı siyasi protest verməklə işini bitmiş hesab etdi.

Çox çətin vəziyyətə düşmüşdük. Bu arada xəbər gəldi ki, Sovet lideri ölüm ayağındadır, məqsədlərimizi həyata keçirə biləcək adamı köməyimizlə hakimiyyətə gətirmək fürsəti yaranmışdı. Ekspertlərimin fikri belə idi. Onu deyim ki, mən Sovet İttifaqı üzrə çox mükəmməl ekspert qrupu formalaşdırmışdım. SSRİ-dən ölkəmizə mühacirətə gəlmiş bəzi gərəkli, işini bilən mütəxəssisləri də bu dəstəyə qoşmuşdum.

Mixail Qorbaçovun üzərində dayanmışdıq. “Xalq Cəbhələri”nin yaranması ideyasını önə çəkdik. Bu iş böyük vəsait tələb etmirdi, ofis texnikasının xərci və “cəbhəçi”lərə maddi dəstək, vəssəlam!

Bu məqamda ABŞ-ın keçmiş prezidentlərindən biri Riçard Niksonun kəlamı yada düşür: “Təbliğata bir dollar yatırmaq silaha on dollar yatırmaqdan hər halda sərfəlidir. Çünki silah işə düşməyə bilər, təbliğat isə hər saat, hər gün işləyir”.

Boris Yeltsini Ali Sovetin sədri, sonra Rusiya Respublikasının Prezidenti etmək üçün əvvəl “Xalq cəbhəsi”nin rəhbəri qoymaq istəyimiz mütəxəssis qrupu üzvləri arasında böyük mübahisələrə səbəb olmuşdu. Ekspertlərin çoxu kommunist keçmişinə, şəxsi keyfiyyətlərinə görə onun namizədliyinin əleyhinə çıxırdı. Bizim müvafiq əlaqələrimizdən və razılaşmalarımızdan sonra Boris Yeltsinin “ortaya atılması” məsələsi həll olundu. Çox böyük zəhmət hesabına Yeltsin Rusiya Ali Sovetinin sədri seçildi və tezliklə Rusiya Federasiyasının suverenliyi haqda bəyannamə qəbul edildi. Çünki sual meydana çıxırdı: Sovet İttifaqı bir zaman Rusiya ətrafında formalaşdırılmışdısa, özü niyə müstəqil deyildi? Məhz bu addım SSRİ-nin dağılmasının başlanğıcı oldu.

1991-ci ilin avqust qiyamında Sovet rəhbərliyi Qorbaçovu təcrid vəziyyətinə salarkən SSRİ-nin bütövlüyünü saxlamaq üçün Boris Yeltsinə böyük köməyimiz dəydi. Yeltsin güc strukturları üzərində real hakimiyyətə sahib olduğuna görə onun tərəfdarları duruş gətirə bildilər. Bundan sonra müxtəlif respublikalar SSRİ tərkibində olsa da, siyasi müstəqilliklərini elan etdilər.

Beləliklə, de-fakto Sovet İttifaqı parçalanmışdır, amma hələ ki, de-yure qalmaqdadır. Sizi inandırıram ki, yaxın bir neçə ay ərzində Sovet İttifaqının dağılmasının hüquqi həlli barədə eşidəcəksiniz”.

Marqaret Tetçerin hansı cümləsinin səmimi, hansı cümləsinin qeyri-səmimi olduğunu ayırd eləmək fikirində deyiləm. Axı, o, böyük siyasətin başında duranlardan idi. Onun ömrü boyu pərəstiş etdiyi Uinston Çörçill bir zaman demişdi ki, mən Böyük Britaniya naminə verdiyim sözü üç dəfə dəyişməyə hazıram.

Əgər bu hadisələr otuz-qırx il qabaq baş versəydi, böyük siyasətçi və dövlət xadimi olan xanımın dediklərinə, bəlkə də axıra qədər inanardım. Amma ambisiyalı dövrdə yaşayırdım, gündəlik hadisələri həm öz gözlərimlə görürdüm, həm də müasirlərimin ziddiyyətli müşahidələri və fikirləri ilə tanış olurdum.

Eks Baş nazir Tetçer 1992-ci ildə Azərbaycan neftinə müştəri çıxan "Britiş Petroleium" şirkətinin elçisi kimi Bakıda olarkən bizim rəsmilərlə İçərişəhərdə gəzirmiş.

Bizimkilər suvenirlər satılan köşkdən Marqaret Tetçer üçün xüsusi işləməli bir nərd alırlar. Nərdin qapağını qaldıranda zərlərin olmadığını görüb satıcıdan soruşurlar:

– Bəs bunun zərləri hanı?

Marqaret Tetçeri tanımış müdrik satıcı deyir:

– Narahat olmayın, bu xanım çoxdanın zər atanı, zər tutanıdır. Onun öz ingilis zərləri var.

Marqaret Tetçerdən sonra Ronald Reyqan da, Corc Buş da, Helmut Kol da, Henri Kissincer və Zbiqnev Brejinski kimi neçə-neçə politoloqlar da SSRİ-nin dağılmasını özlərinə sərf edən şəkildə şərh edəcəkdilər.

Xatırlamaq elə də çətin deyil, aradan vur-tut yeddi il keçib. Onda Qorbaçovun "Yenidənqurma"sı başlamışdı. Baş katib Sovet xalqını yeni düşüncə tərzinə öyrətmək istəyirdi. Onun dönə-dönə dedikləri bizim üçün təzə idi, Avropa, Amerika bu mərhələləri çoxdan keçmişdi.

1989-cu ilin əvvəllərində Qorbaçov guya Kissincerə deyirmiş ki, hələ yetmişinci illərin əvvəllərində dostum Şevardnadze Şimali Qafqazda qonağım olarkən etdiyimiz söhbətdə kommunist rejiminin dəyişdirilməsinin lazım olduğu qənaətinə gəlmişdik.

Qorbaçovun SSRİ Xarici işlər naziri vəzifəsinə gətirdiyi Eduard Şevardnadze 1988-ci il iyulun 25-də keçirdiyi mətbuat konfransında nitq söyləyərkən ağlamsınan səsilə etiraf edirdi ki, Sovetin Əfqanıstan fəlakəti, Avropa İqtisadi Birliyini düzgün qiymətləndirməməsi, Çinlə mübahisəsi, baha başa gələn silah yarışması... düzgün olmayan xarici siyasətin nəticəsi idi.

Qorbaçov isə bütün iclaslarda “Надо перестраиваться!” (“*Yenidən qurulmaq lazımdır!”*) kəlmələrini tez-tez təkrar edirdi. Əvvəlki Baş katiblərdən fərqli olaraq, Qorbaçovun iş həftələri çox sıx keçirdi. Onun görüşləri, qəbulları, mətbuat konfransları, müxtəlif mövzulu iclasları, qurultayları... Pekinə, Dehliyə, Romaya, Parisə, Bonna, Reykyavikə, Budapeştə, Kiyevə, Krasnoyarska, Urala, Minskə... bir sözlə, xaricə və ölkə içinə səfərləri, televiziyadan Sovet xalqına müraciətləri bitmirdi. Londondan vurub Havanadan çıxırdı, Ermənistanda zəlzələ baş verdiyini eşidib Nyu-Yorkdan Yerevana uçmuşdu. Hələ Moskvaya səfər edən, bizə əlavə demokratiya dərsləri gətirən böyük, nüfuzlu ölkələrin dövlət başçılarına ayrılan qızıl vaxtlar... Onun başını qaşımağa macalı yox idi. Baş katib, demək olar ki, efirdən düşmürdü, qəzet səhifələrindən əskik olmurdu. Yenidənqurmanın, yeni düşüncə tərzinin bir nömrəli təbliğatçısı özü idi. Çünki xarici həmkarlarının qeyd etdiyi kimi, oturuşmuş kapitalizm cəmiyyətində bir nəfər hər şeyi sürətlə dəyişə bilməzdi, amma totalitar sistemdə bu, mümkündü.

Sovet Konstitusiyasına dəyişikliklər edilmişdi, qanunvericilik aktları yenilənmişdi. Rejimə qətiyyən uyğun gəlməyən təzə qanunlar qüvvəyə minmişdi. Yeniləşmə bütün sahələrə aid idi, hətta alkoqolizmə də.

Qorbaçovun yeni düşüncə tərzini Sovet xalqına yeritmək üçün Ronald Reyqan, Marqaret Tetçer, Helmut Kol köməyə gəlirdilər. Bu ali qonaqlar təkcə Qorbaçov və onun komandası ilə görüşməklə kifayətlənmirdilər, xanımlarını, ərlərini yanlarına salıb Moskvanın küçələrinə düşərək özlərini göstərirdilər, mötəbər universitetlərdə demokratiya mövsuzunda çıxışlar edib tələbələrin sadəlövh suallarına şirnikdirici cavablar verirdilər. Ronald Reyqan Moskvada keçirdiyi görüşlərdə “Bibliya”dan, ingilis, Amerikan siyasətçilərindən, rus yazıçılarından, öz həyatından rəvayətlər, macəralar danışmaqla, sitatlar gətirməklə gəncləri ovsunlayırdı.

Marqaret Tetçer çıxışlarında tez-tez əri Denisin adını çəkdiyi kimi, Reyqan da səfərlərdə yanından əskik olmayan üçüncü arvadı Nensidən mütləq bir kəlmə də olsa, nəsə deyirdi və sadə, xoşbəxt

ailə obrazı yaradırdı. Müşahidəçilərin qənaətinə görə, Reyqan hamı ilə xoş ünsiyyətdə olduğunu nümayiş etdirsə də, əslində, daxilən tənha adam idi. Heç kəsi özünə axıra qədər yaxın buraxmırdı. Marqaret Tetçer isə xatirələrində əri Denisin ondan tamamilə fərqli, “başı öz kefinə qarışmış” adam olduğunu yazırdı.

Stalindən başlayaraq bütün tədbirlərdə tək, yəni arvadsız iştirak edən Sovet rəhbərlərinin mifini dağıtmaq istəyən Qorbaçov ictimai yerlərdə bəzən Raisa Maksimovnanın kölgəsində qalırdı. Bunun Sovet xalqının əksəriyyətində ikrah, həsəd, paxıllıq, gözügötürməzlik kimi hisslər oyatdığını bilən xarici həmkarları yumşaldıcı təşəbbüslər göstərirdilər. Yeri gəlmişkən deyim ki, Qorbaçov da – Avropa ölkələrini demirəm, oralarda bu adi şeydir – Asiya ölkələrinə, məsələn, Çinə səfər edərkən bu sərt rejimli kommunist ölkəsinin paytaxtı Pekində küçəyə çıxıb əhali ilə ünsiyyətə girirdi, onlarda onilliklər boyu formalaşmış Sovet rəhbərinin quru, adamayovuşmaz obrazını dəyişməyə çalışırdı.

Reyqan Moskva Dövlət Universitetinin tələbələrilə görüşdə azadlıq, demokratiya haqqında isti söhbətlər edib, onların hər birini Amerikaya dəvət edirdi. Amerika Birləşmiş Ştatları kimi nəhəng, güclü bir ölkə Prezidentinin davranışları sadə sovet ailələrindən çıxmış tələbələri şövqə gətirirdi (*ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin eks-direktoru Robert Qeyts memuar janrında yazacağı “Borc” kitabında qeyd edəcəkdi ki, Qorbaçovun “Yenidənqurma”sını rəsmi Vaşinqton əvvəlcə kommunistlərin növbəti kələyi kimi qəbul etdi. Yalnız Yeltsin siyasi fiqur kimi ortaya çıxandan sonra biz Rusiyaya yeni prizmadan baxmağa başladıq*).

Tələbələrdən biri ABŞ Prezidentini yoxlamaq istəyir. Soruşur ki, ikinci prezidentlik müddətiniz başa çatır. Üçüncü müddətə də postunuzda qalmaq istərdinizmi?

Ronald Reyqan öz üslubunda uzun bir cavab verir:

– Ölkəmizdə iki dəfədən artıq prezident seçilməmək ənənəsi yaranıb. Bunun əsasını birinci Prezidentimiz Vaşinqton qoyub. O, ikinci prezidentlik müddəti başa çatanda istefa verib ki, aristokratlıq varisliyi yaranmasın. Bir çox prezidentlərimiz ikinci müddətə

seçilməyiblər. Lakin dörd seçkidə qalib gəlmiş Franklin Delano Ruzveltdən sonra prezidentin iki dəfədən artıq seçilməməsi barədə Konstitusiyaya əlavə edilib. Prezidentlik müddətim başa çatandan sonra fikrim var, müxtəlif auditoriyalar qarşısında, yığıncaqlarda, qəbullarda, yüksək məclislərdə çıxış edib xalqı inandırım ki, Konstitusiyamızdan həmin əlavənin götürülməsinin vaxtı çatmışdır. Çünki bu, vətəndaşların demokratik hüquqlarını məhdudlaşdırır. Qoy xalq istədiyi şəxsə neçə dəfə istəyirsə, səs versin!

Görürsünüzmü, nəhəng bir dövlətin başçısı sələfləri kimi demokratiya silahını bir an belə yerə qoymur. Bütün məhdudiyyətlərə qarşı çıxırdı, bu da biz sovet adamlarına xeyli cəzbedici görünürdü. Yetmiş səkkiz yaşlı Prezident Reyqanın bu çıxışından iki il sonra Azərbaycan Prezidenti Ayaz Mütəllibov altmış səkkiz yaşlı Heydər Əliyevin hakimiyyətə yolunu bağlamaqdan ötrü Konstitusiyada dəyişikliyə nail olub, prezident seçilmək üçün altmış beş yaş həddini müəyyən edəcəkdi.

1987-ci ildə Moskvada olan Marqaret Tetçer də fəallıq göstərmişdi. Səfərinin sonunda, hətta Şevardnadzenin vətəni Tiflisə də birgünlük səfər etmişdi. Yadımdadır, Mərkəzi televiziyaya geniş müsahibə verən xanım Tetçer yenidənqurmanı müdafiə və təbliğ edərək özünü Qorbaçovun vəkili kimi aparırdı. Sovet adamlarına üz tutub "Hayıf ki, sizin hər birinizlə ayrı-ayrılıqda görüşə bilmirəm" deyə canıyananlıq edirdi. Sanki bizə ayrı-ayrılıqda yenidənqurmanın böyük perspektivlərinin sirrini açacaqdı.

Sovet xalqı Böyük Britaniyada çəkilmiş, Moskva televiziyasında nümayiş etdirilən, başında Marqaret Tetçerin olduğu ingilis hökumət üzvlərinin məzəli kukla surətlərinə tamaşa edib "demokratiya" həsrətilə qovrulurdu.

Qayıdaq Qorbaçova. Onun çıxışları dini rəhbərlərin ibadət mərasimlərindəki moizələrinə oxşayırdı. Sanki (*müqəddəs atalar kimi*) hər çıxışı ilə "İncil"ə nəsə əlavələr edirdi. Hərdən onu Birləşmiş Millətlər Təşkilatının sədrinə bənzədirdim. Yalnız quru sənədlərə imza atmaqla, bəyanatlar verməklə işini bitmiş hesab edirdi. Bütün ali orqanların rəhbərləri komanda gözləyə-gözləyə qalmışdı. Cəzasız-

lıq adi həyat normasına çevrilirdi. ABŞ Prezidenti Ronald Reyqanın xahişi ilə türmədəki bütün dissidentlər azadlığa buraxılmışdı. Buraxılanlar arasında həmyerlimiz, kommunist rejiminə qarşı çıxdığına görə on səkkiz il dəlixanalarda, həbs düşərgələrində can çürütsə də, sınmamış, əyilməmiş Nadir Ağayev də vardı.

Yenidənqurma çoxları kimi mənim üçün də maraqlı idi. Xalqda canlanma əmələ gəlmişdi. Ölkə "hürriyyət" bolluğunda üzürdü. Dünənəcən quruluş əleyhinə eyhamla danışanlar, sətiraltı yazı yazanlar sərbəstləşmişdi. Hamı haqqında hər şey danışmaq, yazmaq olurdu. Yeni idarəçilik sisteminə keçirdik. İdarəetmə strukturları ixtisar edilməkdə idi. Müəssisələrə azadlıq verilir, sahə nazirlikləri ləğv edilirdi. Bacardıqca mərkəzi hakimiyyətin səlahiyyətləri yerlərə ötürülürdü. Qorbaçov "Xaosdan qorxmaq lazım deyil!" deyirdi. İllərlə sovet adamının görmədiyi bir şey: idarələrdə, müəssisələrdə, kolxozlarda, sovxozlarda rəhbərlər əvvəllərdəki kimi formal yox, yeni qaydada, kollektivin razılığı ilə seçilirdi. Saysız-hesabsız insanlar sahibkarlıq fəaliyyətinə girişmişdi. Banklar ssudalar, kreditlər verirdi. Bakıda böyük binaların zirzəmiləri təmizlənir, təmir edilir, ofisə, emalatxanaya, anbara, kafeyə, mağazaya çevrilirdi. Xırda ticarət günü-gündən genişlənirdi. Dünənəcən sovetin, sosialist ölkələrinin istehsalı olan paltarları, ayaqqabıları geyən, məişət məhsullarını işlədən əksər adamlar İran, Türkiyə, Çin malları hesabına görkəmini, həyatını dəyişirdi. Şəhərlərdə, sərhədyanı bölgələrdə yeni bazarlar – "talkuçkalar" yaradılırdı. Əhalidə xarici valyuta olmadığına görə avtobus-avtobus qonşu ölkələrə ticarətə gedənlər barterə üstünlük verirdilər. Təsərrüfat mağazalarını silib-süpürüb İrana, Türkiyəyə daşıyırdılar. Ordan isə bizdə qıt olan sənaye və ərzaq malları gətirirdilər. Alış-veriş etmək üçün borca, sələmə pul götürən diribaşlar varlanır, küyə düşüb alverə girişən əfəl-üfəllər isə olan-qalanını da əlindən çıxardıb quru yurdda qalırdılar.

"Cinayət Məcəlləsi"ndə tüfeyli həyat tərzinə görə məsuliyyət daşıdığını bilən, kütləvi işsizliyin nə olduğunu anlamayan biz sovet adamlarının başı zahiri görüntülərə qarışmışdı. Dövlətin alkoqolizmə qarşı amansız mübarizəsi Azərbaycanda dini, əxlaqi baxımdan

əhalinin böyük əksəriyyətini razı salırdı. Amma bu kampaniyanın ölkədə üzümçülüklə məşğul olan milyonlarla kolxoz və sovxozların işini iflic etdiyini görənlər az idi. İllərlə yetişdirilmiş üzüm bağları onlara qulluq edənlərin öz əlləri ilə yerlə-yeksan olunurdu. Bağlarda, şərab zavodlarında, nəqliyyatda, satış şəbəkələrində, banklarda, üzümçülük və şərabçılıq qurumlarında işləyənlər boş-bekar qalıb əl-ayağa dolaşırdılar. Ticarət dövriyyəsi aşağı düşdüyündən xəzinənin kəsiri böyüyürdü.

Spirtli içkilər mataha dönmüşdü, bahalaşmışdı. Milyonlarla meyxoşluğa meylli insan "samaqon" deyilən əldəqayırma araqların, çaxırların, uyuşdurucu otların, narkotik bitkilərin ümidinə qalmışdı. İçki tapmayanda məst olmaq üçün nə gəldi içəri ötürənlərin əlindən mağazalarda satılan "Traynoy" odekalonlar göydə qapılırdı. İçkidən zəhərlənənlər ya uşaqlarını yetim qoyurdu, ya da xəstəxana çarpayılarında günlərlə, aylarla zarıyırdı.

Az keçəcək, İrandan gətirilən texniki spirtlərdən düzəldilmiş girdirmə araqlar satılacaq, Bakıdakı və Gəncədəki şərab zavodlarında "Nastoyka"lar istehsal olunacaq. İki şair – Aydın Səlimzadə və Eldar Baxış cavan yaşlarında bu zəhrimarların qurbanı olacaqdılar.

Bir səhər yuxudan ayılıb eşidirik ki, Moskvada fövqəladə vəziyyət elan olunub. Mərkəzi televiziya gün boyu klassik balet tamaşaları nümayiş etdirir. Yalnız "Xəbərlər" oxunanda musiqiyə fasilə verilir. QKÇP (*Fövqəladə Hallar üzrə Dövlət Komissiyası*) şəhərə qoşun yeridib. Vəziyyətə SSRİ-nin Vitse-prezidenti Gennadi Yanayev rəhbərlik edir. Qorbaçov, sevimli arvadı Raisa Maksimovna ilə birlikdə Forosdakı istirahət evində təcrid olunub. Sovet hökumətinin, demək olar ki, bütün rəhbər vəzifə tutan şəxsləri Yanayevin başındadır. Milli təhlükəsizlik naziri Vladimir Kryuçkov, Müdafiə naziri Dmitri Yazov fəallıq göstərirlər. Belə görünür ki, ölkədə hərc-mərcliyə son qoyulur, Qorbaçovun hökmü əlindən alınır. Çox adamlar bu hadisəni rəğbətlə qarşılayır, nə olur-olsun, təki sabitlik yaransın, əvvəlki sakit həyat bərpa olunsun, qayda-qanunlar işləsin. Bakıda 20 Yanvar faciəsini törətdiyinə görə Qorbaçova olan nifrət yenidən alovlanır. Bir zaman Sovet İttifaqı Kommunist Partiyasının I katibi, SSRİ Nazirlər Sove-

tinin sədri, yəni on il SSRİ dövlətinin başçısı olmuş Nikita Xruşşovu da yan-yörəsindəkilər belə devirmişdilər. Baş verənlərə görə nə qədər dərindən nəfəs alanlar vardı. Hətta SSRİ respublikalarından birinin başçısı teleqram vurub Yanayevi təbrik etmişdi. İran İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycan Kommunist Partiyasının I katibi Ayaz Mütəllibov da Təbrizdə jurnalistlərə verdiyi müsahibədə QKÇP-yə rəğbətini bildirmişdi. Moskvanın "Рабочая трибуна" qəzeti həmin müsahibədən bir parçanı çap edəcəkdi. Fövqaladə Hallar üzrə Komissiyanın ikigünlük hakimiyyətindən sonra bu "rəğbət" onun əbədi qaxıncına çevriləcəkdi. Onda Şuşada olan qardaşım Qara sonralar mənə deyəcəkdi ki, həmin vaxt bir dəstə erməni bulaq başında kabab çəkib şadyanalıq edirmiş və adam salıb bizimkilərə barışıq təklifi göndəribmiş. Şəkili dostumun dostu isə danışacaqdı ki, QKÇP zamanı Stepanakert toxuculuq kombinatından üç gün dalbadal Şəki İpək fabrikinə maşın-maşın parça göndərmişdilər.

Axşam Moskva televiziyası Yanayevin mətbuat konfransını göstərir. Bu vaxta qədər efirdə az görünən, sovet dövrünün idarə üsullarına görə bütün ikinci, üçüncü və sonrakı dərəcəli adamlar kimi kölgədə saxlanılan Yanayev də az tanındığından hər kəs ona çox diqqət yetirir. O, jurnalistlərin suallarına dağınıq, inamsız, qeyri-müəyyən cavablar verir. Məyus-məyus ona baxıram. Yəqin ki, bu saat əksər sovet adamları pərtdir. Çünki onların xilaskarı kimi ortaya çıxarılan adam qrip olub, tez-tez yekə, əzik-üzük cib dəsmalı ilə hayxırıb burnunun seliyini silir, tünd eynək arxasında gözlərini gizlədir. Qətiyyətsizdir, səsi ürəkdən tikan çıxartmır.

Vəziyyət yenidən dəyişir. Qorxu içində "tuthatut" başlayacağını gözləyən xalq, qiyamçıların iki günlük gərginlikdən sonra öz bağlarına, evlərinə çəkilib, müəmmalı şəkildə yuxu dərmanı icib yatırmış kimi özlərindən getdiklərini görüb küçəyə tökülür, RSFSR Ali Sovetinin Rəyasət Heyətinin sədri, adi vaxtlarda əhli-kef görünsə də, gərginlikdə beyni Kreml saatı kimi dəqiq işləyən Boris Nikolayeviç Yeltsin ölkədə demokratiya xəttini davam etdirmək üçün öz komandası ilə irəli çıxır. SSRİ Müdafiə naziri Yazov tankların Moskvadan çıxarılması barədə göstəriş verməyə məcbur olur.

Hadisənin üçüncü günü Cənabi-Cəbraili xatırladan Qorbaçov göy rəngli qəşəng xarici idman kostyumunda Moskvanın Şeremetyevo hava limanına enmiş təyyarənin trapında görünür. Təntənəli bir televiziya reportajı hazırlanıb. Qorbaçov əl-qol ata-ata kameraya poza verir, demokratik qüvvələrə minnətdarlıq bildirir. Sonra Raisa Maksimovna qaş-gözünü süzdürə-süzdürə nağılvarı əhvalat danışır: "18 avqustda Moskvadan Forosa gələn dörd general Prezidentin bağ evində düz bir saat Mixail Sergeyeviçi paytaxtda Fövqəladə vəziyyətin tətbiq edilməsi barədə fərmana qol çəkmək üçün dilə tutdular. Mixail Sergeyeviç generallara söyüşlə cavab verərək onları "avantürist" və "fırıldaqçı" adlandırdı. "Elçilər" gedən kimi bağ evinin bütün telefonlarını kəsdilər, ancaq mühafizə otağındakına dəymədilər".

Raisa Maksimovna mühafizə otağına yaxınlaşmaqdan ötrü ərilə etdiyi cəhdlərdən elə bir əfsanə düzəltmişdi ki, bu versiya yalnız macəraçılar üçün maraqlı ola bilərdi. Ölkənin rəhbərini hakimiyyətdən təcrid edirlərsə, necə olur ki, mühafizə otağını nəzarətsiz buraxırlar? Vallah, gülməlidir! Gülə bilən gülsün! Ancaq neyləmək olardı, cəfəngiyyatı televiziya vasitəsilə hamıya sırıyırdılar. Təsəvvür edin, qəhrəmanlar sənin-mənim istifadə etdiyimiz adi telefonla Moskvanın kodunu yığıb rəhbərlikdə oturanlardan birinin katibəsinə düşürlər, qızcığazdan xahiş edirlər ki, onları, tutaq ki, filan Mərkəzi Komitə katibi ilə calaşdırsınlar, katibə də tez rabitə əlaqəsi yaradır, beləliklə çevrilişin qarşısı alınır.

Sovet hökumətinin idarəetmə üsullarından, yuxarıların telefonuna düşməyin necə məşəqqətli iş olduğundan azacıq başı çıxan adam yaxşı bilir ki, Raisa Maksimovna bizimlə "təkmə-cüt" oynayır.

Təfərrüatın yalnız təqdim olunan tərəflərini bilməyim məni nigaran qoyur.

Demokratik qüvvələr rusların amerikanları yamsılayaraq "Ağ Ev" dedikləri parlament binasının qabağında inqilabvari barrikadalar qururlar. Yeltsin fərman verib, QKÇP-ni qanundankənar elan edir. Həmin fərmana əsasən, SSRİ-nin bütün icra orqanları güc strukturları ilə birlikdə Rusiyanın tabeçiliyinə keçir. Mixail Qorbaçov ilin

sonunda istefa verərkən deyəcəkdi: “Rusiyada nəyə görəsə heç bir işi başa çatdırmaq olmur”.

Sonra xoruzun quyruğu göründü. Bakıda 20 Yanvar qırğınından dərhal sonra Kommunist Partiyasının qırmızı biletlərinin tonqallara atılması ilə başlanan mərasim Moskvada başa çatdı. Yeltsin ölkə rəhbəri kimi başqa bir fərmanla Rusiya ərazisində Kommunist Partiyasının fəaliyyətini qadağan etdi. Yetmiş dörd il qılıncının dalı da, qabağı da kəsən bir siyasi partiya gözümüzün qabağındaca kəsərdən düşdü və az sonra “Belovej” razılaşması adlanan sənədlə nəhəng bir dövlət ömrünü başa vurdu. Həmin razılaşmaya görə, Rusiyanın, Ukraynanın və Belarusun daxil olduğu Müstəqil Dövlətlər Birliyinin yaradılması bəyan edildi. Moskvanın, Bakının siyasətçiləri mətbuatda yazırdılar ki, Müstəqil Dövlətlər Birliyi “SSRİ”pərəstlərin, həqiqi kommunistlərin gözündən pərdə asmaq üçün yaradılıb, özünü doğrultmayacaq.

İki gün sonra Azərbaycan Xalq Cəbhəsi QKÇP-nin axırına çıxmış Rusiya demokratları ilə həmrəylik mitinqi keçirdəcək və QKÇP-yə rəsmi rəğbətini bildirmiş Prezident Ayaz Mütəllibovun cəzalandırılması üçün Rusiya Prezidenti Boris Yeltsinə müraciət qəbul edəcəkdir. Bakı şəhər polis idarəsi mitinqi dağıdarkən qarışıqlıqda Əbülfəz Elçibəy və Sabir Rüstəmxanlı “dubinka” yeyəcəkdilər. Növbəti mitinqdə Sabir Rüstəmxanlı cəbhədən qayıtmış döyüşçü kimi başı sarıqlı çıxış edəcək, kütlədə “mənfur” hakimiyyətə qarşı nifrəti artıracaqdı.

QKÇP hadisələrindən sonra yenidənqurma tamamilə yaddan çıxacaq, Mixail Qorbaçovun SSRİ Prezidenti kimi hay-hayı gedəcəkdi, vay-vayı qalacaqdı. Daha hökmü keçməyəcəkdi, xarici səfərləri bitəcəkdi. Rusiyaya gələn rəsmi xarici qonaqlar Yeltsinin qəbuluna tələsəcəkdilər. Yalnız xalaxətrin qalmasın deyə, sonuncu gücü – nüvə silahlarının düyməsi barmağının altında olan Qorbaçova atüstü baş çəkəcəkdilər.

Yaşım az olsa da, yaşadığım ölkəni xeyli gəzib dolaşmışdım. Xəritədə qızmış pələngə bənzəyən, ucu-bucağı görünməyən, amma yaddaşımda kövrək xatirələr yaratmış bir dövlət dağıdılmışdı. Adam

tanımadığına biganədir. Artıq tərcümeyi-halımda arxayın "bir dövlətin süqutunu görmüşəm" yazardım və bu cümlənin altında nələr yatdığından uzun-uzadı əhvalatlar danışa bilərdim. Özü də elə-belə yox, bütün hissiyyat üzvlərimin fəal iştirakı ilə. Geniş götürəndə, hər saniyə, hər dəqiqə tarixin bir qəlpəsidir. Amma həyatda baş verən hadisələrin, yaşantıların hamısı yazılmır. Sevgi macərasını qələmə alan hansısa yazıçının rəqəmlərdən istifadə etdiyinə rast gəldiyimi xatırlamıram. Kim özünü gülünc yerinə qoyub yazar ki, məsələn, min doqquz yüz filanıncı ilin filan günündə, filan saatında, filan dəqiqəsində bir qıza vuruldum. Vətəndaşı olduğum dövlətin süqut vaxtı ömrümdəki illərlə üst-üstə düşürdü və elə bil Kürlə Arazın birləşdiyi yerdə – Suqovuşanda dayanıb gedişata baxırdım.

İlk dəfə Rusiyaya getdiyimi xatırlayıram. Tələbəliyimin birinci ilini başa vurub tətilə çıxmışdım. Kitablarımın içində eşələndiyim günlərin birində atam otağımın qapısını açıb müjdə verirmiş kimi dedi:

– İstəyirəm səni gəzməyə göndərim. Yoldaş tapmışam. Qoşul ona, get Leninqrada. Çox "Ermitaj, Ermitaj" deyirsən... Çağırmışam, axşamüstü Hacıbalanın oğlu bizə gələcək, tanış olarsan. Diribaş oğlandır, görüşüb söhbət eləmişəm. Deyir, oraları yaxşı tanıyır.

Axşamüstü Hacıbalanın oğlu bizə gəldi. Tanış oluruq, adı Mənsimdir. Məndən on iki yaş böyükdür. Ağbəniz, yaraşıqlı oğlandır. Əynində dəbdə olan təzə göy cins şalvar, buralarda satılmayan, dar qırmızı qısaqol köynək, ayağında hündürdabanlı, şalvarı rəngində ayaqqabı var. Hamar qara saçları çiyninə qədər tökülüb. Boyu qısadır. Hiss olunur ki, müasir və mədəni görünməyə çalışır. Deyir ki, adı hansısa tikinti təşkilatında fəhlə kimi gedir, amma özü işə çıxmır. Sonrakı nəsillər anlasın deyə, belə işləməyin mənasını açıram. Sovet hökuməti heç kəsi işsiz qoymurdu. Yerli milis orqanları adamı küçədə avara gəzən görəndə tüfeyli kimi tutub maşına basır, aparıb təşkilatlarda işə düzəldirdi. Alverlə, "çak-çuk"la məşğul olan diribaş adamlar az maaşlı yüngül işlərə adlarını yazdırıb "ştat"a düşürdülər. Belə işçilərə ruslar "мертвая душа" yəni, "ölü canlar" deyirdilər. Bizdə də bu termini tərcümə etmədən birbaşa dilə-dişə salmışdılar.

Əksər təşkilatlar "myortvı duş" saxlayırdı. Təşkilatların rəhbərləri belələrinin əmək haqlarını mənimsəməkdə maraqlı idilər.

Mənsim sərbəst yaşaması ilə öyünürdü. Dediyinə görə, ildə yeddi-səkkiz dəfə Rusyata (*şifahi dildə belə deyirik*) baş vurmaqla özünü tutur. Orta hesabla hər ay adı yazılan "iş"dəki maaşından on qat artıq qazanır. Onun "Qaz vurub qazan doldurmaq" söhbətinə donuq-donuq baxdığımı görəndə gülümsəyə-gülümsəyə mövzudan sürüşüb çıxır. Elə ki, ondan Peterqofda olub-olmadığını soruşdum, sanki iç dünyama gedən çığırı göstərdim, nələrə meyil göstərdiyimi anladı. Saqqızımı tez oğurladı. Artıq yol tədarükü barədə danışırdıq. Bir həftədən sonra qatarla Bakıdan Leninqrada yola düşdük. Plaskart vaqona minmişdik. Bir az yol gedəndən sonra Mənsimin çox şit, sürtük adam olduğunu başa düşdüm. Nə öz hərəkətlərinə düzgün qiymət verirdi, nə də başqalarının davranışına. Yüngül xasiyyətli Əhmədi-biqəm imiş. Fikri-zikri bu idi ki, özünü onun-bunun böyrünə verib müftə yesin-içsin, kart, domino oynasın, dayanacaqlarda qatarlardan düşüb yol yoldaşlarından kimisə çənəsinin altına salıb boşboğazlıq etsin, vaxt öldürsün. Qroznıya qədər səsimi çıxartmırdım, daxilən əsəbiləşsəm də, özümü sıxıb saxlayırdım. Amma bir hərəkətindən sonra dözmədim. Bəlkə də qatara minəndən sonra iki dəfə məndən "Yola nə qədər pul götürmüsən?" deyə soruşmasaydı, etdiyi hərəkətini mənalandırmazdım. Atam yol üçün mənə min iki yüz manat pul vermişdi. Bu bir tələbə üçün böyük pul idi. Bakıdan Leninqrada qatarla yol haqqının iyirmi yeddi manat olduğunu düşünsək, min iki yüz manatın qüdrətini anlamaq çətin deyil. Onda da, indi də cibimdə nə qədər pul olduğunu kimsə bilməz. Ən acığım gələn sual "Maaşın nə qədərdi?"dir. Mənsimin sualından yayındım, mövzunu dəyişdim.

Gecə üst paltarlarımızı soyunub yerimizə girdik. Gedən qatarın "taraq-taraq"ı layla çalırdı. Gecənin bir aləmi Mənsimin şıqqıltısına ayılıb gözlərimi açdım, içəri yarıqaranlıq idi. Gördüm, divardan asdığım cins şalvarımı götürüb geyindi, tambura sarı getdi. Yüz faiz əmin oldum ki, hərif ən azından pullarımı saymaq həvəsinə düşüb. On-on beş dəqiqədən sonra geri qayıdanda məni oyaq gördü. Şalvarımı əynindən soyunub yerindən asaraq hırıldadı:

– Çaşıb sənin “cins”ini geyinmişəm, bağışla!

Cavab vermək əvəzinə gözlərimi yumdum. Onsuz da şalvarımın cibində əlli-altmış manat ancaq olardı. Balqabaq deyildim, əsas pulumu üzdə saxlamırdım.

Artıq anlamışdım ki, Mənsimlə mənimki tutmayacaq. Amma neyləyəcəyimi hələ bilmirdim. Qarşıda uzun yolumuz vardı.

Qroznıda yanımıza bir rus qızı mindi. Mənimlə yaşıd olardı, gözəl qızdı. Üzündə məsumluq vardı. Mənsimin çiçəyi çırtladı. Bir azdan qızla söhbətə girişdi. Məlum oldu ki, Olyanın atası generaldır, Qroznıda hərbi xidmətdədir. Leninqradda tənha yaşayan nənəsini görməyə gedir. Mənsim az qaldı çırtıq çalıb oynasın. Qulağıma pıçıldadı ki, ayağın yüngüldür, bu qızı bişirsəm, kef çəkəcəyik. Hələ bəlkə nənəsigildə qaldıq. Ürəyini sıxma, sənə də qəşəng bir qız taparıq. Rus qızlarının dilini yaxşı bilirəm, bizlərdən ötrü ölürlər. Mənzil başına çatana qədər qardaşın Olyanın dadına baxacaq.

Elə inamla danışırdı ki, dediklərinə inanırdım. Gözümü açandan ayağısürüşkən rus qızları ilə bağlı o qədər rəvayətlər eşitmişdim ki...

Şəhərimizdən hansı oğlan, hansı kişi Rusiyaya gedib-gəlirdisə, söhbətinin ən çoxu rus qızlarından, arvadlarından olurdu. Əsgərlikdən gələnlər general arvadlarının aşnası olduqlarından danışırdılar, rus əsgər yoldaşlarını gözüqıpıq etdikləri ilə öyünürdülər. Belə söhbətləri tez-tez eşidən Həvva arvad deyirmiş ki, vallah, bu işə məəttəl qalmışam, ölkə rusun, hökumət rusun, top-tüfəng rusun, necə olur ki, bu xarabadan kim əsgərliyə, alverə gedirsə, rusun çörəyini yeyir, rusun balasını qapazaltı eləyir, rusun gözəl arvadının kələsi olur?

Olya Qafqaz mühitində böyüdüyünə görə bizim şəhərin hərbi şəhərciyindəki qızlar kimi ehtiyatlı davranırdı. Süfrə açıb yemək yeyərkən, çay içərkən, oturmaqdan keyləşmiş ayaqlarını açmaq üçün dəhlizə çıxarkən Mənsimin qızı izləməsi, ona sürtüşməsi Olyada narahatçılıq yaradırdı.

Qatarda getdiyimizin ikinci günü Olya xahiş etdi ki, dostuma deyim, onu narahat etməsin.

Mənsimi tambura çəkdim. Fiziki cəhətdən üstün olduğumu hiss edirdim. Lazım gəlsəydi, onu yumruğumun, təpiyimin altına sala bilərdim.

Yaxasından yapışıb acıqlı-acıqlı dedim:

– Özünü yığışdır! O qızla işin olmasın!

Mənsim qəzəbimdən dərhal qorxdu, sözümün qabağına söz qoymadı, eləcə küçükləndi. Qorxaqlığı onu bir az da gözümdən saldı.

Yerimizə qayıdanda artıq heykəl kimi oturub pəncərədən çölə baxırdı. Az sonra Olya minnətdarlıq dolu baxışlarla oğrun-oğrun məni süzürdü.

Qatara minəndən bəri Mənsim vaqonlarda veyillənib vaxt keçirtmək üçün tanış-biliş axtarırdı. Bir də görürdün, iki saat, üç saat yoxa çıxdı. Arada kart sıxmağı da vardı. Özü demişkən, "lox" tapanda, ondan beş-on manat qopartmağın ustası idi. Mənsimin ovunu tələyə salmaq üsulunu öyrənmişdim. Birinci gün iki-üç dəfə qatarda məni quyruğuna salıb vaqonlarda hərlətmişdi. Xam adamı o dəqiqə gözü alırdı. Çalağan kimi üstünə şığıdığı qurbanının əvvəlcə qılığına girirdi, sonra guya darıxdığından yola körpü atmaq üçün çibindən təptəzə kart dəstini çıxardırdı. "Duraki" başlanırdı. Oyuna başqa bir axmaq hesab etdiyi mən də cəlb olunurdum. Sonra cibindən xırda pullar çıxardıb, "Beş qəpikdən oynamaq oyunu qızışdırır" deyərək qabağına qoyurdu. Əgər qarşı tərəf pulla oynamağa həvəs göstərirdisə, Mənsim "21"-ə keçib mütləq nəsə udurdu. Çünki kartları istədiyi kimi düzməyi əla bacarırdı. Ancaq çox pul udmağa meylli deyildi. Birini axıra qədər udarsa, yaranacaq təhlükədən çəkinirdi. Kimsə uduzduğunu qaytarmaq üçün ona hücum çəkə bilərdi. Elə ki qarşıdakı pulla oynamağa razı olmurdu, Mənsim kartları səliqə ilə yığışdırıb çibinə qoyurdu və ayağa dururdu.

Bir az sonraya qaçım, biz Leninqrad – Moskva – Bakı qatarı ilə geri qayıdanda Mənsimdən lap iyrənəcəkdim və bu səbəbə görə sonralar onunla salam-kalamı kəsəcəkdim. Səbəb nə idi? Qatarda gecə yuxudan ayılıb gördüm ki, Mənsim kupe yoldaşımızın üst qatda yerləşdirdiyi çamadanlarını eşələyir. Çamadanların yiyəsinin başı qonşu kupelərin birində tanışı ilə söhbətə qarışmışdı. Mənsimin çır-

pışdırıb mənə göstərdiyi üç dəst qadın kostyumu və dörd-beş dəst donluq parça vaqonun zəif işığında çox yaraşıqlı göründü. Qənimətlər bahalı şeylərə oxşayırdı.

Ötkəm səslə Mənsimə dedim:

– Götürdüklərini qaytar qoy yerinə!

Mənsim pıçıldadı:

– Bölüşəcəyik, bağırma!

Daha da ciddiləşdim:

– Mənə oğurluq mal lazım deyil!

Həyasızcasına dedi:

– Mənə isə lazımdır!

Hədə-qorxuya keçdim:

– Götürdüklərini qaytarıb yerinə qoymasan, bu dəqiqə gedib yiyəsinə xəbər verəcəyəm.

Kupenin qapısını açıb, bir ayağımı çölə qoydum.

Mənsim nə desə yaxşıdır?!

– Min manatlıq qazancıma bais olursan!

Qan beynimə vurdu, ağzımdan ağır bir söyüş çıxdı.

Yumşalmayacağımı görüb götürdüklərini yerinə qoydu, hələ günahını da malaladı: "Səni sınayırdım, imtahandan yaxşı çıxdın!" Sonra aşağı düşüb boynumu qucaqladı, hirsindən qurumuş dodaqları ilə yanağımdan ölüvay bir öpüş götürdü.

Hə, bayaq sözüm yarımçıq qaldı... Aramızdakı söhbətdən sonra səfər yoldaşım yenə başmaq seyrinə çıxmaqdan ötrü ayağa qalxaraq mənə "Mən bir şey eləyə bilmədim, sən Olyaya giriş! Necə yerlisən, canciyər, bir rus qəhbəsinə görə az qalmışdı mənə kəllə atasan." deyib getdi, gecə yatıncaya qədər gözə görünmədi. Olyanın qorxusu çəkildi, sərbəstləşdi. Biz oxuduğumuz kitablardan – mütaliəli qız imiş – xəyalımızdakı Leninqraddan – o da bu şəhərə birinci dəfə gedirmiş – arzularımızdan – romantikası aşıb-daşırdı – danışdıq, onu qatarın restoranına dəvət etdim, yemək yedik.

Stansiyaların birində qatardan düşüb, ona balaca çiçək topası aldım. Hədiyyəmdən elə təsirləndi ki...

Tualetdən su gətirdim, çiçək topasını güldanı əvəz edən stəkana qoyduq. Mənzil başına qədər çiçəklər tez-tez baxışlarımızı özündə birləşdirirdi...

Leninqrad vağzalında səhərçağı qatardan birgə düşdük. Mənsim arxamızca gəlirdi. Olyanın nənəsi nəvəsini qarşılamağa çıxmışdı. O, məni hələ canı sulu olan nənəsilə tanış etdi, yol yoldaşı olduğumuzu bildirdi. Nənənin fikri nəvəsində idi. Ayrılarkən Olya bir məktub uzatdı. Bunu elə etdi ki, yoldaşım görməsin. Sağollaşaraq yüngül çamadanını yellədə-yellədə nənəsinə qoşulub getdi.

Onlar tünlüyə qarışandan sonra Mənsim qancıq-qancıq soruşdu:

– Yolda Olyanı yaxşıca əlləşdirə bildin?

Tərs-tərs Mənsimə baxdım. Amma heç tükü də tərpənmədi, görünür, belə baxışlardan çox görmüşdü. Sırtıqcasına dedi:

– Yaxşı şey idi! Yolda əlinə-ayağına dolaşmamaq üçün yanınıza gəlmədim.

Söhbəti dəyişdim:

– Hara gedəcəyik?

Mənsim cavab verdi:

– Çamadanlarımızı kamraxraneniyaya (*kameraxraneniya – saxlama kamerası*) qoyub bazara dəyək, bizim uşaqları görək.

– Birinci özümüzə yer tapaq – dedim.

Arxayın-arxayın dilləndi:

– Ürəyini buz kimi saxla!

Çamadanlarımızı hərəmiz bir saxlama kamerasına yerləşdirdik. Olyanın yazdığını arxamı Mənsimə çevirib, yaxud tualetə girib oxumaq istəmirdim. İstəyirdim ki, asudəliklə, tam ləzzət ala-ala məktubdan xəbər tutum.

Bazarda Mənsimin tanışları onu şit zarafatlarla qarşıladılar. Bunlar şəhərimizin adamlarına oxşamırdılar. Yaşca məndən böyük idilər. Mənsim onlara savadım, ağlım haqqında ağızdolusu çərənlədi, elə bil, satlıq malını işə sürmək istəyirdi. Atamı çox şişirtdi, əndazəni aşdı. Hiss etdim ki, Mənsim hərif kimi mənə maya qoyur. Yəqin əvvəllər neçələrini tovlayaraq yanına salıb, buralara gətirmişdi.

Onun tanışlarından biri dedi:

– Axşam qardaşın gəlişini yuyarıq. Özümkünə deyərəm, podruqalarından (*rəfiqələrindən*) birini sənə gətirsin. Nazlanarıq da.

Axırıncı sözdən diksindim. Bu söz bizim şəhərin sözü idi. Nəşəxorlar dostlarını nəsə çəkməyə üstüörtülü dəvət edəndə “Gedək, nazlanaq!” deyirlər. Yəqin ki, jarqonu Mənsim onların dilinə salmışdı.

Yol yoldaşım curları ilə günortadan keçənə qədər laqqırtı vurandan sonra bazardan çıxdıq. Mənsimin üzündə şeytan tükü vardı. İlk baxışdan adam ona uyurdu, sehrinə düşürdü. Bayaq məni qoltuğuna vurub bazara aparanda gözləri gülürdü, dedim, görəsən, hara gedirik. Yenə də qarmağında idim. Trolleybusa mindik, sonra avtobusla yolumuza davam etdik. Fərqli bir yerə gedəcəyik deyə həvəslənmişdim. Beşmərtəbəli bir binanın blokuna girəndə təəccübləndim. Mənsim pilləkənləri qalxa-qalxa dedi:

– Tolikgilə bir baş çəkək! Dostumdu, canlara dəyən oğlandır! Şənbədir, mütləq evdədir.

Tolikgil üçüncü mərtəbədə yaşayırmış. Mənsim zəngi basdı. Qapını yaşlı bir qadın açdı. Yəqin evin nənəsi idi. Qadın Mənsimi bağrına basdı, yüz ilin tanışı kimi qucaqlaşdılar. Bütün ailə; Tolik, arvadı, qızları bu evdə Maksim kimi tanınan dadaşımla görüşmək növbəsinə dayandılar. Bunları biri-birinə bağlayan hansı tellər idi görəsən? Axırda ümumi şəkildə mənə də “Xoşgəldin” elədilər. Az sonra məlum oldu ki, bu fəhlə ailəsinə tək Mənsim yox, bizimkilərdən başqaları da gəlib-gedir.

Süfrə axşama hazır oldu, iki yüz vurandan sonra Tolikin dili açıldı, “Suleman” adlı birisinin dalınca deyindi:

– Suleman ötən yay tətilimizi zay elədi. Ailəvi yığışıb on günlük Azərbaycana getdik, bizi əsir eləyib balaca küməsində saxladı. Boşboğaz basıb bağlayırdı ki, gəlin, hər cür şəraitim var, sizi gəzdirərəm, yeyərik-içərik, kef eliyərik. Lütün biri imiş. Sizinkilər niyə yalançıdır, hə!? Uşaqlarıma pambıq tarlasını da göstərmədi. Axı, uşaqlar pambıq qozası görmək istəyirdi.

Sıxılmağa başladım. Tolikin anası, arvadı yerimdə qurcuxduğumu utancaqlıq kimi qəbul edib, nazımla oynamağa başladılar. Xoş

sözlər deyir, nəvazişlə boşqabıma ümumi qabdan yemək çəkirdilər. Səmimi insanlar idi. Amma məni tıncıxdıran buraya nə üçün gəlməyimizin səbəbini bilməməyimdi. Qına çəkilib çərənləməkdən, laqqırtı vurmaqdansa, Leninqrad kimi şəhərin bir yerini gəzə bilərdik. Deyəsən, Mənsimin tezliklə getmək fikri yox idi. Gümanım düz çıxdı. Yarısərxoş olsa da, narahatçılığımı duyub yastı-yastı ağzının horrasını tökdü:

– İynə üstə oturma! Görürsən, üzümüzə yaxşı baxırlar. Uzaq yoldan gəlmişik, hələ dincələk, sabahdan səni yaxşıca gəzdirəcəyəm.

– Sən qal dincəl! – deyib ayağa durdum. – Mən getdim, nigaran olma, itib-batmaram.

– Axşamdır, hara gedəcəksən? Azmaqdan qorxmursan?

– Yox, qorxmuram!

Öz dilimizdə danışdıq deyə mənzil sahibləri dediyimi başa düşmədi, Mənsimsə sözümü ciddi qəbul etmədi, Tolikin siqaret çəkməsi üçün onunla balkona çıxdı.

Əslində, nabələd olduğum nəhəng şəhərdə tək gəzməkdən ehtiyat edirdim. Amma cibimdəki pula, az-çox səyahətçilik təcrübəmə arxayın idim.

Heç kəslə sağollaşmadan sivişib özümü qapıdan bayıra saldım. Arxama baxmadan sürətlə dayanacağa gəldim. Taksi saxlatdırıb dəmiryolu vağzalına sürdürdüm. Taksidən düşəndə dərindən nəfəs aldım. Arxayınçılığa çıxmışdım. Yerim-yurdum olmasa da, avaragor yoldaşımdan canımı qurtarmışdım. Vağzallarda gecələmək ayıb sayılmır. Şəhərimizdə böyüyən bütün uşaqlar kimi mən də bizimkilərin Rusiyanın şəhərlərində gecələr qalmağa yer tapmayanda özlərini dəmiryolu vağzalına vermələri barədə çox eşitmişdim. Vağzalın iri güzgüsündə özümə sataşıb dedim:

– Gəl, bu gecəni vağzalda keçirək!

Gülümsədim. Əksim də gülümsədi, demək, razılaşdı. İki saata qədər ətraf küçələrdə gəzib-dolaşandan sonra vağzal restoranına gəldim. İçəri tünlük idi. Restoranın qapıçısı çətinliklə mənə bir yer tapdı. Onun bığının altından keçib künc tərəfdə oturdum. Buranın orkestrdən uzaq olması xoşuma gəldi. Özümə yemək, şərab sifariş

verib yumşaq stulda yayxandım. Bax, səhərdən bunu istəyirmişəm. Dinclik və sərbəstlik. Qoy Mənsim indi kiminlə nə qədər boşboğazlıq eləyir, eləsin.

Bir-iki tikə yeyib boğazımı yaşlayandan sonra Olyanın əzik məktubunu cibimdən çıxartdım. Gecəni məktubla baş-başa keçirəcəkdim. Əsas o idi ki, indi bu qərib şəhərdə yaramaz Mənsimdən başqa məni tanıyan, ancaq harda olduğumu bilməyən, bəlkə də haqqımda düşünən bir qız da vardı.

Ehtiyatla zərfi açdım. Qatlanmış dama-dama dəftər vərəqinin arasında yolda onun üçün aldığım xırda çiçəklərdən birinin üç qırmızı ləçəyi vardı. Vərəqdə nənəsinin ev telefonunun nömrəsini yazıb əlavə etmişdi: "Позвони!", yəni zəng elə!

Canıma elə bir istilik, elə bir güc gəldi ki... Olyaya zəng etməklə bu şəhərə qovuşacaqdım. Leninqrad mənə doğma, aydın, anlaşıqlı göründü. Lap özümü Bakıdakı kimi hiss etdim. İçdiyim üç-dörd qurtum şərab damarlarımda qaynayırdı. Saata baxdım, on ikiyə iyirmi beş dəqiqə işləmişdi. Heç Bakıda belə vaxtda kiməsə zəng etməzdim, onda qalmış Leninqradda ola. Zəng sabaha qalsın. Yəqin ki, Olya uzun yol yorğunluğundan sonra yatıb şirin yuxuya getmişdi. "Bəlkə yuxusunu qaçırıb məni düşünürdü?" Amma vəziyyəti çox şişirtdiyimi anlayıb geri çəkildim. Olyanı elə yuxuda təsəvvür etməyim də bəs eləyirdi. Saat birə qalmış restorandan çıxıb vağzalın gözləmə zalına gəldim. İçəridə adam az deyildi. Boş yer tapıb oturacaqda əyləşdim. Olya haqqında xatirəm o qədər az idi ki, geniş düşünə bilmirdim. Onu cəmi bircə saç düzümündə, bircə paltarda, bircə səfərdə görmüşdüm. Hətta xatirəmə nənəsini də əlavə etsəm, onu az tanıyırdım. Xatirəsi beş-altı dəqiqəlik sənədli filmə bənzəyirdi. Başlamağı ilə qurtarmağı bir olurdu.

Haçan yuxuya getmişəm, bilməmişəm. Ayılanda böyrümdə Mənsimi gördüm. Səhər açılmışdı.

Xoruzlandı:

– Görürsən, gəlib səni tapdım. Mən dönük deyiləm. Niyə xəlvətcə aradan çıxdın? Qalsaydın, yuyunub-rahatlanıb indi yuxu bişirirdik.

Yatıb yuxusunu almışdı, qıvraq görünürdü. Mənimsə başım bir pud daş kimi çiyinlərimin üstə yırğalanırdı.

Mənsim dedi:

– Gəl səni aparım dostum Kazisin evinə. Üç otaqlı mənzildə tək yaşayır. Bir araq alıb verərsən, bir sutka səninlə işi olmayacaq. Kopoyoğlu möhkəm vurandı. Yatarsan, dincələrsən, sabah dalınca gələrəm.

Mənsimin üzünə qabardım:

– Hara gedirsən get, məni rahat burax! Qapılarda sülənməyə gəlməmişəm.

Mənsimə belə sözlər toxunmur:

– Niyə sülənirik? Elə bilirsən qastinitsada (*mehmanxanada*) yer tapacaqsan? Ezamiyyət vərəqi tələb edəcəklər. Nə dəymədüşərsən? Cavan oğlanıq, yatdığımız yer yatağımızdır, gəzdiyimiz yer oylağımız. Sənsə nazbalış axtarırsan.

– Nazbalış axtarmıram, sərbəst yerdə dincəlmək istəyirəm.

– Sərbəstlik havayı deyil, pul xərcləmək lazımdır.

– Xərcləyək də!

– Bu şəhərdə nə qədər gedən yerim var. Boş-boşuna niyə pulu havaya sovuraq?

Uzun çək-çevirdən sonra çamadanımı götürdüm. Taksiyə mindik. Məni səliqəli bir mənzilə gətirdi. Mənzil sahibəsi Natalya Petrovna da Mənsimin tanışı imiş. Ancaq bu gülərüz, gonbul, yaşı əlli-altmış arasında olan qadın kirayənişin saxlayırmış. Kirayə pulunu qabaqcadan ödədim. Günü üç manatdan on gün burda qalacaqdım.

Ayrılanda Mənsim soruşdu:

– Axşam dalınca gəlim?

Tapança kimi açıldım:

– Yox, gəlmə!

Qırımımdan qorxdu, tez razılaşdı.

– Haçan məni görmək istəsən, gəl həmin getdiyimiz bazara. Görsən yoxam, bizimkilərdən soruş, yerimi deyəcəklər.

Vağzalda Mənsimlə səhər yeməyi yemişdik. Yuyunub mənə ayrılan balaca otaqda yatağa girdim.

Yuxudan ayılanda günorta idi. Özümü düzəldib Olyanın verdiyi telefon nömrəsini yığdım. Dəstəyi nənəsi, tanışlıqdan adını yadımda saxladığım Yekaterina Mixaylovna qaldırdı. Kimliyimi qadına xatırlatdım. Olya evdə yox idi, gəzməyə getmişdi. Hər halda ev sahibəsi belə dedi. Nə zaman, kiminlə çıxmışdı? Bunu Yekaterina Mixaylovnadan soruşmağa cəsarət etmədim. Amma qaldığım mənzilin telefon nömrəsini nəzakətlə ona yazdırdım, Olyaya salamımı və nömrəmi çatdırmağı xahiş etdim.

Şəhərə çıxıb üç saata qədər zaman-zaman haqqında oxuduğum, eşitdiyim, televiziya, kino ekranlarında gördüyüm tarixi yerlərin qarşısından keçdim, yanında dayandım. Elə rahat və toxtaq idim ki... Şam yeməyi yeyib, taksi ilə qaldığım mənzilə qayıtdım. Natalya Petrovnadan mənə zəng olub-olmadığını soruşanda onu sərxoş gördüm. Zəng olmadığını deyib işvə satdı. Servantdan uzunsov qədəh götürüb qrafindən mənə şərab süzdü. Nəzakət xətrinə badələrimizi toqquşdurduq. Şərabdan bir qurtum aldım. Şirin "Ağdam" çaxırının dadını verirdi.

Növbəti qədəhdən sonra Natalya Petrovna daha da hallandı, mənə girişməyə başladı. Fıs-fıs fısıldayan lırt arvad sərt vanil qoxusu verən ətri ilə beynimi çatladırdı. Yenə şərab qrafininə əl atıb boşalmış yekə qədəhini doldurdu, mənimkinin kəmçiyini düzəltdi. Kef çəkmək haqqında bir-iki qatar söz deyib şərabı başına çəkdi. Mən əvvəlki qaydada şərabla dodaqlarımı islatdım. Natalya Petrovna xalatının üst düymələrini açıb inək yelininə oxşayan döşlərini çöldə qoyaraq yenidən hücuma keçdi. Qadın ehtirasından doğan həmlələri dəf etməklə məşğul idim. O, arabir yarızarafat, yarıciddi məni yataq otağına sarı itələyirdi. Bayağı sözlərlə qulağımı yağır edirdi.

İnadım axırda onu sərxoşluqdan ayıltdı. Qadın məni yoldan çıxara bilmədiyinə görə yüngülvari əsəbləşdi. Xalatının düymələrini bağlayıb çəkisinə yaraşmayan cəldliklə qapıdan çıxdı. Onca dəqiqədən sonra əlində birlitrlik şərab şüşəsi yırğalana-yırğalana içəri girdi.

Şərab şüşəsinin etiketindəki "Kürdəmir" kəlməsini oxumaq Natalya Petrovnaya baxmaqdan çox-çox maraqlı idi.

İçki məclisi yenidən başlandı. O, şərab içdikcə qızışır, mahnı oxuyur, məni qucaqlayıb rəqs etdirir, ora-buramı əlləyir, amma buzumu əridə bilmirdi.

Hətta belə bir təklif də etdi:

– Ehtirasımı söndür, kirayə pulunu qaytaracağam!

Başqa cavab tapmadım, qısıla-qısıla dedim:

– Natalya Petrovna, öz sevdiyim var, ona xəyanət edə bilmərəm.

Arvad acı-acı mənə baxıb dilləndi:

– Balvan! (*kötük*) Sənə görə üç şüşə çaxırın zibilinə düşdüm. Nə özümü, nə də səni sərxoş eləyə bildim.

Canıyananlıq etdim:

– Ziyana şərik ola bilərəm!

Qadın onu doladığımı düşünüb ifritə sifəti aldı:

– Sizin uşaqlardan kim burda qalıbsa, dilinə içki dəyən kimi özü mənə cumub, sən o söz deyilsən ki?

Ürəyimdə Mənsimi söydüm. Bəlkə də qəsdən məni Natalya Petrovnaya ürcah eləmişdi.

Görəcəyim varmış, xədimə də oxşadıldım. Amma özümdən çıxmadım. Sözdür də, qoy desin. Sözü kimin deməyinin mənim üçün həmişə xüsusi əhəmiyyəti olub.

Səhər Natalya Petrovna otağımın qapısını döyüb telefona çağırıldığımı dedi.

Olya idi, səsi bir anda məni yuxudan tam ayıltdı.

Danışığımızın axırı belə qurtardı ki, iki saatdan sonra görüşüb Ermitaja gedəcəkdik.

Vaxtından beş dəqiqə əvvəl özümü yetirsəm də, Olya görüş yerinə məndən tez gəlmişdi. Yüz ilin tanışı kimi görüşüb biri-birimizə qoşulduq.

Ermitajı başdan-ayağa görməkdən ötrü ən azı bir həftə vaxt lazım idi. Ona görə də Olya ilə razılaşdıq ki, bizi maraqlandıran bölmələri gəzək.

Ayaqlarımız qırılana qədər muzeydə dolaşdıq. Arada muzeyin kafesində nahar etdik. Qapıdan axırıncı çıxanlardan biri də biz idik. Hətta ertəsi gün uzun növbədə durandan sonra XX əsr Avropa impressionist rəssamlarının sərgisinə baxdıq.

Və... Və bu günə qədər də söhbətlərimdə o muzeydə gördüyüm xüsusi məqamları xatırlayaraq zövq alıb, zövq verirəm.

Sonralar general rütbəsi qazanmış bir dostumun əlli illiyində rəssam Sakit Məmmədova sifarişlə onun iri portretini işlədib hədiyyə apardım. Fotolardan istifadə edilərək çəkilmiş şəkildə dostumun üz cizgiləri dəqiq işlənmişdi, sərt xarakteri aydın görünürdü.

General portretin qabağında xeyli donub qalandan sonra dedi:

– Şəkildə çox zabitəli və qəzəbli görünürəm. Gələcəkdə bu şəkli görənlər mənim barəmdə düzgün düşünəcəklərmi?

Yadıma Ermitaj duşdü.

Ermitajın böyük zallarından birində keçmişdən üzü bəri Rusiyanın apardığı müharibələri idarə etmiş generalların möhtəşəm portretləri sıralanmışdı. Hamısının üzündə inam, qətiyyət, hərbi məqsədi yerinə yetirmək, dövlətinə xidmət etmək ehtirası vardı. Ürəyimdən keçirdi ki, nolaydı, Bakının tarix muzeyində belə bir portret salonumuz olaydı. Görkəmindən mətinlik yağan generallarımızın şəkillərinə baxıb ürəklənəydik. Dağlıq Qarabağ haqq-hesabı başlanandan bəri bu arzu qəlbimdən daha tez-tez keçir.

Əziz oxucum, istədim bir hovur ürək parçalayan hadisələrdən gendə olasan. Qulağına güllə vıyıltısı, top gurultusu, ağlaşma səsi gəlməsin. Yalnız və yalnız ona görə keçmişimə baş vurdum. Yoxsa indi xatirələri çözələmək vaxtıdır?

Yenə Bakının “Azadlıq” meydanında mitinqlər başlayır. SSRİ Ali Sovetinin qərarına əsasən, yuxarıdan aşağı, yəni hökumətdən xalqa, bizlərə doğru hadisələr elə sürətlə baş verir ki, bir dəyişikliyin üzərində dayanıb geniş düşünməyə macal yoxdur.

Tarix yadımdadır, sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirilir. Baş katib 15 mart 1990-cı ildə SSRİ Ali Sovetində Prezident seçiləndən sonra müttəfiq respublikalarda da I katiblər

Prezident elan olunmuşdu, subyektlər öz ərazilərində İttifaq qanunlarını dayandırmaq hüququ qazanmışdı. Ayaz Mütəllibov legitim, yəni, xalq tərəfindən seçilmiş Prezident olmaq istəyir. Seçkiyə bir həftə qalmış "Azadlıq" meydanında Ayaz Mütəllibovu müdafiə və təbliğ edən mitinq keçirilir. Bakı Dövlət Universitetinin rektoru, akademik Mirabbas Qasımovun apardığı mitinqdə bir çox ziyalılar, ədəbiyyat və incəsənət xadimləri iştirak edir. Televiziyada isə, demək olar ki, hər gün efirdən boylanan jurnalist Vüsal Əfəndiyev (*Şair Hikmət Ziyanın oğludur. Həmkarlarının qınağına dözməyən ata hardasa deyibmiş ki, Vüsalı oğulluqdan çıxartmışam*) demokratik qüvvələrin ünvanına eybəcər pamfletlər oxuyur. Xalq seçkiyə laqeyddir. Heydər Əliyevin rəhbəri olduğu Naxçıvan Muxtar Respublikası isə seçkini tanımır. Səsverməyə adamlar az qala məcburi gətirilirlər. Prezidentliyə digər namizəd sosial-demokrat Zərdüşt Əlizadədir. Hər ikisinə ümumi münasibət rişxəndlərlə, gileylərlə, narazılıqlarla doludur. Çoxları kimi mən də səsverməyə getmirəm. Apaydınca bilirəm ki, sovet dövründə olduğu kimi, əvəzimdən seçki qutusuna bülleten salacaqlar.

İndi bir ölkədə on beş Sovet Sosialist Respublikası var, on altı Prezident. On altıncısı SSRİ-nin Prezidenti Mixail Qorbaçovdur. Respublikalar yeni prezident seçkiləri keçirib, müstəqillik bəyannaməsi qəbul ediblər, dövlət atributları dəyişdirilib. Artıq bizim respublikamızın da bayrağı, gerbi, himni başqadır. 1918-ci ilin 28 mayından 1920-ci ilin 28 aprelinə qədər 23 ay yaşamış Azərbaycan Xalq Cumhuriyyətinin dövlət rəmzləri yenidən bərpa olunub.

Azad Cümhuriyyət dövründə Milli Şuranın sədri olmuş, dövlət müstəqilliyimizin ideoloqlarından biri sayılan Məmməd Əmin Rəsulzadənin və onun silahdaşlarının adı yetmiş bir ildən sonra yenidən cəmiyyətin dilində əzbərə çevrilməkdədir. O zaman müstəqilliyin başlanğıcında "Bir dəfə yüksələn bayraq bir daha enməz!" söyləyən, bolşeviklərin bayrağımızı endirdikdə isə, "Bayrağımız torpaqlara deyil, millətin vicdanına endi" deyən, "İnsanlara hürriyyət, millətlərə istiqlal!" məramı ilə yaşayan, həyatını başa vurana qədər bir gün də əqidəsindən dönməyən, mübarizə aparan, son nəfəsində

"Azərbaycan! Azərbaycan!" nidasını səsləndirən Məmməd Əminin portretləri Əbülfəz Elçibəyin hakimiyyəti zamanında dövlət məmurlarının kabinetlərində Vladimir İliç Leninin və Mixayil Sergeyeviç Qorbaçovun portretlərini əvəz edəcəkdi.

Amma Qorbaçov başda olmaqla SSRİ dövlətinin üst strukturu qalmaqdadır. Onun axırı görünür. Üççə ay əvvəl Rusiya Federasiyasının Prezidenti seçilmiş Boris Yeltsinin komandası irəliləməkdədir. Rusiyanın hərbi naziri Yevgeni Qraçov Qarabağda vəziyyətə nəzarət edir.

Sentyabrın 20-də Boris Yeltsinlə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev qəfildən Azərbaycana gəlir. Danışıqlarda ali qonaqların məqsədi üzə çıxacaqdı: onlar Qarabağda atəşkəs elan edib bölgədə Rusiyanın və Qazaxıstanın sülhməramlı hərbi qüvvələrini yerləşdirmək istəyirdilər. İki gün keçincə Jeleznovodskda Rusiya, Qazaxıstan, Azərbaycan və Ermənistan prezidentlərinin görüşü də bu məsələyə həsr olunacaqdı. Boris Yeltsin və Nursultan Nazarbayev "Brejnevin evi"ndə müxalifət nümayəndələri İsa Qəmbərovu, İsgəndər Həmidovu, Leyla Yunusovanı, Etibar Məmmədovu, Pənah Hüseynovu və Rus icmasının üzvü Valentina Sergeyevanı bir saat qəbul etdikdən sonra axşamüstü "Azadlıq" meydanında mitinq keçirildi. Mitinqi aparan İsa Qəmbərov görüşdəki danışıqların nəticələri barədə məlumat verdi: "Rəsmi qonaqlar bildirdilər ki, Azərbaycana qonşu dövlətlərin başçıları kimi gəliblər, daxili işlərimizə qarışmaq istəmirlər. Ancaq respublikamızda rusların, qazaxların və başqa xalqların övladlarının qanı axdığı üçün buraya səfər etməyi vacib sayıblar. Boris Yeltsin dedi ki, nüvə silahı, ordu vahid mərkəzdən idarə olunmalıdır. Müttəfiq respublikalar müstəqillik qazansalar da, Sovet İttifaqının dağılmasını istəmirik. Görüşdə İsgəndər bəy, Etibar bəy qonaqların nəzərinə çatdırdılar ki, Sovet qoşunları Azərbaycandan çıxarılarsa, silahlar bizdə qalmalıdır".

Prezident Ayaz Mütəllibov sonralar müsahibələrinin birində bildirəcəkdi: "Prezidentlərin gəlişi təşəbbüsünü biz yox, ermənilər, daha doğrusu, Ermənistan Prezidenti Ter-Petrosyan irəli sürmüşdü.

Məlumat çatan kimi qonaqların qarşılanması üçün göstəriş verdim. Sonra Mixail Qorbaçov mənə zəng vurdu. Soruşdu ki, Yeltsin Bakıya gəlibmi? Təsdiq etdim. Qorbaçovun acı gülüşü eşidildi. Dedi ki, nədir, Yeltsin Dağlıq Qarabağ məsələsini həll etmək istəyir? Baxaq, görək necə həll edəcək! Bildirdim ki, Mixail Sergeyeviç, xahiş edirəm, Qarabağ məsələsinə kim necə bacarırsa, kömək etsin!

Qorbaçov hələ üzdə də olsa, ölkəyə rəhbərlik edirdi, Yeltsin isə Rusiyanın Prezidenti kimi vəzifə etibari ilə ona tabe idi.

Qərara gəldik ki, Xankəndiyə gedək, orda xalqın qarşısında çıxış edək. Yolda Gəncədən məlumat aldıq, şəhərin baş meydanında Ermənistan və Rusiya bayraqları dalğalanır. Yeltsin dərhal Gennadi Burbulisə zəng edib tapşırıq verdi ki, ermənilərdən tələb etsin, təxribat dayandırılsın. Çatanda gördük, bayraqlar dəyişdirilməyib. Boris Nikolayeviç çıxış edərkən onun sözünü kəsib erməni bayraqları barədə etirazımı bildirdim. Bu dəfə o da hirsləndi, çünki onun da sözünə məhəl qoyan yox idi. Nəhayət, məcbur qalıb erməni bayrağı asılmayan Qarabağ üzrə Dövlət Komitəsinin binasında yığışdıq. Həmin görüşdə Yeltsin Ter-Petrosyanın adından vasitəçi kimi məndən xahiş edirdi ki, bu ilin aprelində Çaykənd, Manaşid, Buzluq və digər yaşayış məntəqələrindən qaçqın düşmüş ermənilər geri qaytarılsın. Bildirdim ki, bir şərtlə razılıq verərəm, Qərbi Azərbaycandan qovulmuş soydaşlarımız öz dədə-baba yurdlarına dönsünlər. Qazaxıstan Prezidenti Nazarbayevin xalqımızın dərdinə şərik çıxmasını, danışıqların gedişində bizi dəstəklədiyini qeyd etməliyəm. Bütün qaldırılmış məsələlərdə əvvəldən axıra qədər bizim haqlı mövqeyimizi dəstəklədi". Ancaq... Ancaq həmin görüşlərdə iştirak etmiş yazıçı Anar deyirdi: "Fasilədə Nursultan Nazarbayev gileyləndi ki, niyə söhbət zamanı sizinkilərin hamısı Boris Yeltsinə müraciət edir? Mən də bir ölkənin Prezidentiyəm..."

Qarabağ münaqişəsi SSRİ-ni və bütün dünyanı yerindən oynatmışdı. Sosialist məkanında silahlı toqquşmalar, siyasi çevrilişlər, milli qarşıdurmalar məhz Qarabağdan başlamışdı. Qarabağ dünyanı silkələyən ictimai-siyasi zəlzələnin episentri olmuşdu. Rumıniyada adına "diktator" damğası yapışdırılıb taxtdan salınan dövlət başçısı

Nikolaye Çauşesku üsyançılar tərəfindən güllələnməzdən qabaq son nəfəsində demişdi: “Ah, lənətə gəlmiş Qarabağ!”

Azərbaycan Rusiyanın tərkibinə daxil ediləndən bəri ilk dəfə idi ki, imperiyanın rəhbəri başqa bir respublikanın Prezidentini də özünə yoldaş edib Qarabağa təşrif buyurmuşdu.

Yeniyetmə vaxtı atamla Şuşaya səfərim zamanı Stepanakerti görmüşəm. Atamın erməni tanışının evində iki-üç saatlıq qonaq olsaq da, şəhəri içdən tanımamışam, üzdən isə mənə soyuq gəlib. Onda atamın şəhərə baxıb mənə dediyi sözlər yadımda qalıb: “Elə bil Ermənistandasan. Binalar, küçələr Leninakanın, Kirovakanın binalarına, küçələrinə oxşayır. Hər yerdə yazılar ermənicə iri, rusca xırda hərflərlə yazılıb”.

Yeltsin, Nazarbayev şəhərin baş meydanındakı mitinqdə yüngülcə çıxış edib, Bakıdan gələnlərlə uzun müddət Muxtar Vilayət Partiya Komitəsinin I katibi olmuş Gevorkovdan sonra rəhbər kürsüsündə oturdulmuş Poqosyanın başının dəstəsilə görüşərək danışıqlar apardı. Həmin gün Xocalı aeroportundan Yerevana uçdular.

Ertəsi gün xəbər çıxdı ki, Yeltsin və Nazarbayev Xankəndidə olarkən Vilayət Partiya Komitəsinin qarşısındakı meydana toplaşmış qəzəbli kütlə rusiyalı jurnalistlərə qoşulub Bakıdan görüşü çəkməyə gəlmiş iki jurnalistimizi döyüb, Elxan Əliyev adlı kinooperatoru isə oğurlayıblar. Məlumat Prezident Aparatının qarşısında mitinqdə elan ediləndə bir uğultu qopdu ki...

Özü danışıb, Elxan Partiya Komitəsinin binasını dövrələmiş kütləni yarıb keçmək istəyərkən onu qamarlayır, qabaqlarına qatıb dümsükləyə-dümsükləyə aparırlar. Yolda kamerasını kimsə əlindən qapıb alır. Dəstə dalanı dönüb Elxanı başqa dəstəyə təhvil verir. Yeni dəstə onun başına kisə keçirdib darta-darta bir zirzəmiyə gətirir. Sorğu-sual başlanır. Danışıq Azərbaycan dilində gedir. Təsəvvür edək, həmin dəqiqələrdə Yeltsinlə Nazarbayev erməni və Azərbaycan nümayəndələrini danışdırır, burda isə beş-altı araqarışdıran Elxanı divara dirəyib. Hətta Elxana bir “TT” markalı pistolet göstərib deyirlər ki, cibindən düşüb, boynuna al ki, silah sənindir, təxribat törətməyə gəlmisən. Hələ o zamandır ki, Yerevandan gəlmiş saqqallılar, onların

təsirinə və tələsinə düşmüş yerli cavanlar sorğusuz-sualsız, heç kəsi dızına almadan azərbaycanlıları güllələyə bilmirlər, ehtiyat edirlər. Üzü üzlər görmüş, minlərlə hər cür rütbədən, vəzifədən və peşədən olan adamı lentə almış Elxan ürəyində "Harda qırılar-qırılar" deyib cinayətkar adını üstünə götürmür. Yazığı möhkəm əzişdirirlər, avtomatın qundağı ilə üzünə necə zərbə ilişdirirlərsə, on yeddi yaşının tamamında ata-anasının hədiyyə kimi qabaq dişinə taxdırdığı qızıl qapaq da diş qarışıq ağzından düşür. Başqa saqqallı insaflı çıxır, qızıl qapaqlı dişi yerdən götürüb əlində oynatdıqdan sonra Elxanın yan cibinə atır.

Qəfildən bir qozbel əlində bıçaq gəlib Elxanın sağ qulağından yapışaraq yekə-yekə deyir:

– Əgər silah sənin olduğunu boynuna almasan, qulağını kəsəcəyəm.

Elxan kükrəyir:

– Binamusun qulağını kəsərlər! Ya məni öldürün, ya da tapançanı verin, başıma bir güllə çaxım, sizin canınız məndən, mənim canım sizdən qurtarsın.

Qulaq kəsmək istəyən dirəşir:

– Deyirlər, Ağdam bazarında kəsilmiş erməni qulaqlarını biri bir manatdan satırlar. Ermənilər binamusdur?

– Yalan sözdür, təxribatdır, elə söz eşitməmişəm. Sizi aldadırlar.

Girovun əlini-qolunu bağlayıb gedirlər. Bir azdan sonra bayaq Elxanın qızıl dişini yerdən götürüb onun cibinə qoyan adam geri qayıdır. Demə, ev onun imiş. Elxana deyir:

– Səni görən kimi tanıdım.

Elxanın gözləri kəlləsinə çıxır, qarşısındakını yadına salmaq istəyir. Ev yiyəsi dillənir:

– On üç il əvvəl, 1978-ci ilin yayında Şuşadakı pioner düşərgəsinə Ukraynadan qonaqlar gəlmişdi. Mən pioner baş dəstə rəhbəri idim. Qonaqların bizimlə görüşünü çəkirdin. Elə sevinirdim ki... Həyatda ilk dəfə yaxından operator görürdüm deyə üzün yadımda qaldı. İndi xilas olmağını istəyirəm, amma bağışla, səni qaçırda bilmərəm. Qaçırtsam, Yerevandan gələnlər başıma oyun açar. Hətta bəlkə məni

satqın kimi gəbərdərlər. Hə, onu da deyim, – birnəfəsə danışırdı – Şuşa türməsində dörd adamımız yatır, Yerevandan gələnlərdəndir. Bu gün sizlərdən dörd girov götürməliydik, ələ təkcə sən keçdin. Səni türmədə yatanlardan ən azı biri ilə dəyişmək fikrindəyik.

Mənə çay, yemək, siqaret gətirdi. Yemək hayında deyildim. Amma çay içib, doyunca siqaret çəkdim. Bərk ağrıyırdım, deyəsən, içimi zədələmişdilər. Gecə döyib-dolaşan olmadı. Səhər ev yiyəsi – adı bizim adlardan imiş, Vaqif, amma yoldaşları onu "Vaqo" deyə çağırırdılar – yanıma gələndə üzündə həyəcan gördüm. Nədən narahat olduğunu gizlətməyib dedi:

– Səni möhkəm axtarırlar. Dünən jurnalist yoldaşların sənə görə vay-şivən salıblar. Başqa ölkələrdən gəlmiş jurnalistlər də onlara dəm tutublar. Yeltsinlə Nazarbayevin yolunu kəsib samalyota (*təyyarəyə*) minməyə qoymurlarmış. Yeltsin sənin təcili tapılmağın üçün özününkülərə xüsusi göstəriş verib.

Vaqif gedəndən sonra təlaş içində xilas olunacağım anı gözləməyə başladım. Ürəyim gup-gup döyünürdü. Arada ev yiyəsinin bayaq gətirdiyi çaynikdəki soyumuş çaydan fincana süzüb qurtumlayırdım. Siqaretimin tüstüsü içərini bürümüşdü.

Günorta küçədən atışma səsi eşidildi. Bu vurhavur nə idi görəsən? Vaqif içəri girib dedi ki, Yerevandan gəlmiş başqa bir dəstə səni bizim əlimizdən almaq istəyirdi, birini yaraladıq.

Vaqif düz deyirdi, yalan deyirdi, bilmirdim, amma arsız-arsız qımışıb qürrələndim və fikrimdə dəbdəbəli bir cümlə düzətdim: "Gör nə matah olmuşam, uğrumda vuruşurlar, adam güllələyirlər, dünya jurnalistləri müdafiəmə qalxıb, Azərbaycan hökuməti əl-ayağa düşüb, o boyda Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin məni axtartdırır".

Bir gecə də girovluqda qaldım. Ertəsi gün səhər iki gün əvvəl Vaqiflə məni buraya gətirənlər qapıdan girdilər. Çox da qəzəbli deyildilər, köpləri alınmışdı. Vaqif bildirdi ki, guya "TT" tapançasının sənin olmadığı sübuta yetirilib, ona görə də azad olunursan. Başıma kisə keçirib bayıra çıxartdılar, maşına mindirib xeyli dolandırdılar. Stepanakert nə boyda şəhər idi ki? Yəqin izi dolaşıq salmaq istəyir-

dilər. Axı, qaçırılanda yol bu qədər uzanmamışdı. Saqqallılar çəkinirdilər ki, onları ələ verə bilərəm.

Kisə başımdan çıxarılanda özümü hərbi komendantlıqda gördüm. Məni Bakıya yolladılar. Xəstəxanaya yerləşdirildim...

Qoy Elxan müalicəsində olsun, biz öz işimizə baxaq.

İki gün sonra Jeleznovodskda Yeltsin və Nazarbayevin vasitəçiliyi ilə Azərbaycan Prezidenti Ayaz Mütəllibov, Ermənistan Prezidenti Levon Ter-Petrosyan arasında görüş keçirildi. Görüşdə münaqişənin sülh yolu ilə həlli barədə bəyannamə imzalandı. Ancaq sənədin heç bir xeyri olmadı.

Stepanakert və Şuşa ətrafındakı kəndlər atəş altında idi. Artıq tüfənglərin, Kalaşnikov avtomatlarının səsinə "Alazan"ların, "Qrad"ların gurultusu da qoşulmuşdu. Yeni silah növlərinin adlarını eşidirdik. Qarabağın boşalan kəndlərindən didərgin düşənlər pərakəndə şəkildə əsasən Ağdam, Bərdə ərazilərinə sığınırdı. Artıq sərhəd bölgələrində könüllü özünümüdafiə dəstələri formalaşırdı.

Bakı mitinqlərində silahlanmaq, Azərbaycanda hərbi nazirliyin yaradılması, sözdən işə keçmək barədə çağırışlar tez-tez səslənirdi.

İndiki mitinqlərin görünüşü də, məzmunu da səksən səkkizinci, səksən doqquzuncu illərin mitinqlərindən çox fərqlənirdi. Müəyyən peşəkarlıq, mütəşəkkilik vardı. Hər kəs mitinqdə özünü suda balıq kimi hiss edirdi. Elə bil gündəlik vacib işimizi görürdük. Mitinqdə təxminən kimlərin çıxış edəcəyini, natiqlərin ağzından nə çıxacağını bilirdim. Çünki günlərlə danışıqların məzmununda ciddi dəyişiklik olmurdu. Səksən səkkizinci ilin noyabr-dekabr mitinqlərində meydanda Azərbaycan Sovet Sosialist Respublikasının bayrağı ilə yanaşı tək-tük üçrəngli bayrağımız, neçə-neçə ölkənin bayrağı gətirilirdisə, indi üçrəngli bayraqlarımız meydanı bürüyürdü.

18 oktyabrda Milli Məclis Azərbaycan Sovet Sosialist Respublikasının müstəqillik aktını qəbul edəndə əhali küçələrdə papağını göyə atıb-tutmadı. SSRİ dura-dura hansı tam müstəqillikdən danışılırdı? Hələ Bakıda və onun ətrafında, Gəncədə, Naxçıvanda, Lənkəranda, Stepanakertdə, Qəbələdə, Hacıqabulda SSRİ Müdafiə, Daxili İşlər nazirliklərinin qoşun hissələri yerlərində möhkəm dayanmışdı.

Rəsmi sənədlərdən başlayan müstəqilliyi göz qabağında olanlarla tutuşdurduqda insanların çoxu vəziyyəti düzgün qiymətləndirə bilmirdi. Gənclik həvəsindən düşmüş, ömrünün çoxu gedib azı qalmış, gözü aydın görməyən, qulağı yaxşı eşitməyən, canı ağrıyan, sızıldayan insanları anlamağa çalışırdım. Axı onlar sakit, dinc, firavan həyat arzulayırdı. Hər birinin ən böyük istəyi dövlət rəhbərinin yumruğunu yerə çırpıb azğınları, qudurğanları susdurması, ölkədə nizam-intizam, əmin-amanlıq yaratması idi. Beləlləri ilə müstəqilliyin üstünlüyü barədə mübahisələrimdə çox vaxt onları inandıra bilmədiyimi görüb susurdum. Elə düşünürdüm ki, tutarlı dəlil, sübut gətirə bilmirəm, "Azadlıq toy-bayramla yox, qan-qada ilə, vuruşla, qurbanla gəlir" deyəndə ağzımın üstündən vururdular. Xalq şairi Bəxtiyar Vahabzadə döşünə döyüb bəyan edəndə ki, müstəqilliyə çıxsaq, Parlamentimizin qapısında qapıçı duraram, istəyirdim bütün yaşlı nəsil onun səsinə səs versin. Təsəvvür edin, xalqın məşhur şairi yenicə müstəqillik qazanmış dövlətinin əsas binalarından birinin giriş qapısında bircə gün, mühafizəçi paltarında içəri keçənlərin sənədlərini yoxlayır. Təəssüf ki, şair dediyini eləmədi. Bu fakt tariximizə güclə sığardı. Bəlkə indiki qapıçılar daha artıq vətənsevər idilər. Amma sıravi adamlardan tarixi fiqurlar düzəltmək çətindir.

Azadlıq təşnəsi olan insanlar söhbətlərində, xəyallarında, yuxularında müstəqillikdən bərk-bərk yapışmışdılar. Tarixi şansın çin olmasını gözləyirdi hamı. Sevən qız "sevir-sevmir" deyə-deyə çiçəyin ləçəklərini bir-bir qopartdığı kimi fal açmağa belə ərinmirdilər. İki-üç il qabaq, xalq hərəkatı təzə-təzə başlayan vaxtlar şair Bəxtiyar Vabahzadə və qələm dostu Qasım Qasımzadə çar dövründə Nikolayevski, bolşeviklər gələndən sonra Kommunist adlanan (*sonra "İstiqlaliyyət"adlanacaqdı*) küçə ilə aşağı enirmişlər. Azərbaycanın tezliklə müstəqilliyə çıxacağına axıra qədər inanmadığını bildirən Bəxtiyar Vahabzadəyə Qasım Qasımzadə dirəşirmiş: "Müstəqilliyimiz çox da uzaqda deyil".

Onlar Sabirin heykəlinin tuşuna çatanda yerdə bir kibrit qutusu görürlər.

Deyəsən fal açmaq zamanıdır, Bəxtiyar Vahabzadə dillənir:

– Qasım, kibrit qutusunun içərisindən salamat bir çöp tapsan, sən deyən olacaq, tapmasan, mən deyən.

Qasım Qasımzadə kibrit qutusunu yerdən götürüb açır. Kibrit çöplərinin hamısı salamat imiş.

Bəxtiyar Vahabzadə kibrit qutusunu həmsöhbətindən alıb cibinə qoyur, qələm dostuna söz verir ki, müstəqillik qazanan kimi bu kibritlə sənin siqaretini yandıracağam.

Müstəqillik aktı qəbul ediləndən bir neçə gün sonra Bəxtiyar Vahabzadə Qasım Qasımzadə ilə görüşür və cibindən kibrit qutusunu çıxardıb dostuna deyir:

– Bu kibrit qutusu yadındadırmı? O vaxtdan saxlayıram. İndi siqaretini yandıracağam...

Pul ölürdü. Manatın dollarla müqayisəsi başlamışdı. Böyük alqı-satqıda iştirak edənlər, əli pulla oynayanlar, bank işçiləri mətbuata sızdırırdılar ki, otuz manat bir dollara bərabərdir.

Bir qədər əvvəl Qorbaçov 1 manatlıqdan tutmuş 3, 5, 10, 25, 50, 100 manatlığa qədər bütün əskinasları dəyişdirmişdi. Puldan başı çıxanlar bunun səbəbini anlamağa çalışırdılar. Dövlətin zayı çıxmış təbliğat maşını beyinlərə yeritməyə çalışırdı ki, bu tədbir saxta pulları aradan götürmək məqsədi daşıyır. Hər vətəndaşa banklarda məhdud miqdarda pul dəyişməyə icazə verirdilər. Bu da əhalini dövlətdən narazı salmaq üçün qəsdən törədilmiş növbəti təxribata oxşayırdı. Mən də bankda növbəyə durub beli bağlı əllilik dəstini dəyişdirəsi oldum. Pullar mənim deyildi. Keçmiş direktorum Əli müəllim verib xahiş eləmişdi ki, öz adımdan dəyişdirim. Əli müəllimdə də o qədər pul olmazdı. Dediyinə görə, yeznəsinindi. Pullular pullarını özləri dəyişməyə ehtiyat edirdilər. Sovet hökumətinin xofu hələ canlarından çıxmamışdı.

Hakimiyyət nə qədər çabalasa da, əyilmiş belini dikəldə bilmir. Xalq Cəbhəsi tərəfdarlarının sayı günü-gündən artır ha! Bakıda, respublikanın bütün rayonlarında adına qısaldılmış şəkildə “AXC” və yaxud “Cəbhə” deyilən təşkilatın şöbələri, özəkləri sarmaşıq kimi buğum atıb böyüyür, şaxələnir. Cəbhənin liderləri söz sahibidirlər. Dünənəcən Cəbhənin dayaqlarından biri olan Etibar Məmmədov

Milli İstiqlal Partiyası yaradıb. Mitinqlərdə cəbhəçilərlə bir olsa da, dəstəsi ayrıdır. AXC-nin orqanı "Azadlıq" qəzetidir, onun partiyasınınkı "Millət" qəzeti. AXC liderləri ilə nüfuz savaşında nəinki geri çəkilir, hətta tez-tez bir addım qabağa çıxır, həmişə müstəqil olmağa, fərqli fikirlər söyləməyə çalışır. Hakimiyyətlə münasibətində də AXC-yə qaynayıb qarışmır. 1988-ci ilin fasiləsiz noyabr-dekabr mitinqlərinin iki əsas tribunu olan Sabir Rüstəmxanlının və Nemət Pənahlının davranışları əvvəlki kimi yenə də biri-birindən kəskin seçilir. Sabir Rüstəmxanlı fəaldır, millətsevər ziyalı mövqeyini davam etdirir, mitinqlərdə odlu, həm də tutarlı çıxışlar edir. Nemət Pənahlı isə gecə-gündüz cəbhəçilərlə əlbəyaxadadır. Beyninə girib ki, xalqı təkcə özü bir yerə yığa bilər, mitinqləri yalnız o aparmalıdır. Nədənsə mənə elə gəlir ki, Nemət 1988-ci ildə qalıb, doxsan birinci ilə, yəni indiyə gəlib çıxa bilmir. Üç ildir eyni davanı döyür. Sanki "mitinq" adlı mülkünü qoparıb əlindən alıblar. Mətbuatda-toplantılarda radikal, kəskin çıxışlarla mirasını geri qaytarmaq istəyir. Amma heç cür qəbul edə bilmir ki, 20 Yanvar faciəsi ərəfəsindəki "qan-qan" deyən çıxışları, çoxlarının dediyi kimi, "xalqı güdaza verib faciədən sağ çıxması" onu gözdən salıb. Xalq Nemətin tərəfini saxlamadığına görə cəbhəçilər onu qapazaltına çeviriblər, yerli-yersiz yamanlayıb nə söz gəldi döşəyirlər qabırğasına.

Azərbaycanın Ali Sovetinin iclaslarında "dartma, yaxam cırıldı"dır. Prezident tərəfdarları ilə müxalifətçi deputatlar biri-birini qırırlar. Onların dediyi bunların, bunların dediyi onların boğazından keçmir. Bir neçə gün əvvəl Ali Sovetin növbədənkənar sessiyası keçirilmişdi. Sessiyada çıxış edən dörd-beş deputat davaya başladı. Bəxtiyar Vahabzadə mikrofona yaxınlaşıb iclasa sədrlik edən Ali Sovetin sədr müavini Telman Orucovdan soruşdu: "Telman müəllim, Azərbaycan Respublikasının Konstitusiyasına düzəlişdə yazılıb ki, 112-ci maddənin 2-ci hissəsinin sonuncu cümləsi çıxarılsın. Bizə xırdalayın görək... bu nə deməkdir?" Telman Orucov izahat verdi: "Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri birbaşa Azərbaycan Ali Sovetinin sədrinin müavini olur".

Müzakirə kəsilmədi, mikrofonlarda növbə idi. Danışanlar qeyd edirdi ki, Konstitusiyaya düzəliş Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Ali Sovetə yaxın buraxılmamasına hesablanıb. Təkliflər irəli sürülürdü ki, həmin düzəliş ləğv edilsin.

Müzakirənin dördüncü günü iclasın sədri hirsləndi və "düzəliş"in heç kəsin ağlına gəlməyən səbəbini göstərdi: "Bu məsələ Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlıdır. Sabah onların da sədri Ali Sovetin sədr müavini kimi gəlib oturacaq burda"

Salona sakitlik çökdü, deputatlardan birinin təklifi ilə mübahisəli müzakirə təxirə salındı. Sonrakı beş ayda Konstitusiyanın 112-ci maddəsi Ali Sovetin iclaslarında zaman-zaman xatirlandı, 1992-ci il martın 25-də yeni spiker Yaqub Məmmədov məsələni səsə qoyub həll etdi. Lakin gələcəkdə Heydər Əliyev bu imtiyazdan yararlanmayacaqdı.

20 Yanvar qırğınından sonra Bakının konsert həyatı öləziyib. Yaxın keçmişə qədər toylara aparılmaq üçün Filarmoniya bağında qaynaşan cavan xanəndələr, musiqiçilər gözə dəymirlər. Müştərilərin sayı azalıb deyə çörək pulu dalınca hərəsi bir yana dağılıb. Onlardan zirəkləri təzə toy yerləri tapıblar. Sakit, qurdla quzunun bir yerdə otladığı Türkmənistanda toy aparanlar var. Orta yaşlı, qoca xanəndələr, uzağa getməyə həvəsi olmayan musiqiçilər Filarmoniyanın çayxanasında çay içib, nərd atıb səhərdən axşamacan mırt vurmaqla günlərini keçirirlər.

Mən də yay vaxtları hərdən o çayxanada bir qıraqda oturub çay içirəm. Ara dildə desək, manıslar Qarabağ məsələsini özlərinəməxsus şəkildə müzakirə edə-edə hadisələrin gedişinə qiymət verməyə çalışırlar. Çoxu qarabağlı olduğu üçün qohum-qardaş vasitəsi ilə isti xəbərlər gətirirlər.

Çayxanada Habil Əliyevin başında hər dəfə yığnaq görürəm, söhbətinə qulaq asmaq istəyən çoxdur. Həmişə bağın ortasındakı eyni stolun başında oturar. Bu stolu heç vaxt boş görməzsən. Habil Əliyev oldu, olmadı, həmkarları stolu zəbt edib mövqeyi əldə saxlayırlar. Kaman ustası hər gün nəsə yeni bir lətifə quraşdırmalıdır.

Danışdığı lətifələr əvvəlcə Filarmoniya bağında stoldan-stola, sonra da bütün Azərbaycana yayılır.

Fikir vermişəm, Habil Əliyev hər hansı bir məzəli əhvalatı danışmazdan qabaq xeyli susqun olur. Onsuz məclisin soyuq keçdiyini bildiyindən diqqətin tam özünə yönəldiyi ana qədər gözləyib birdən çox ciddi tonda dillənir:

– Qarabağ məsələsini həll etməyin asan yolunu bilirəm!

Ətrafdakılar gözlərini döyə-döyə kaman ustasının ağzına baxırlar. Hər kəsin dodağı azacıq qaçıb, hamı gülməyə hazırlaşır.

Pauza bitir:

– Məndən olsa, Firudin Şuşinskini bircə günlük ermənilərə verərdik.

Məclislərdə monoton səsilə dil boğaza qoymadan danışan, erməniləri qorxaq adlandıran, istədiyi adamı acı dililə sancan, yetənə yetib, yetməyənə daş atan, özünü hamıdan ağıllı, zövqlü sayan, siyasət, sənət, sənətkarlar haqqında qəribə hökmlər verən, müasirlərini bəyənməyən, səsini eşitmədiyi keçmiş, ötən əsrdə yaşamış Qarabağ xanəndələrini geninə-boluna tərifləyən, onlar haqqında yazdığı oxşar oçerkləri qalın bir kitabda toplayan və heç kəsin susdura bilmədiyi musiqişünas Firudin Şuşinskini hamının yadına salır. Sonra sözünə davam edir:

– Ermənilər Firudin Şuşinskini bircə gün saxlaya bilsələr, böyük şeydir. Ertəsi gün onun danışığından boğaza yığılıb Firudinqarışıq Dağlıq Qarabağı bizə qaytaracaqlar.

Habil Əliyevin zarafatları bir yana qalsın, millət, doğrudan, danışqan olub. Dərd hamını danışdırır. Teatrımız da, konsertimiz də, əyləncəmiz də siyasət meydanına atılanların ağıllı, ağılsız, ciddi, baməzə, ağır və yüngül hərəkətləridir.

Müxalifətdən olan deputatlar Ali Sovetin iclaslarında “at çapırlar”. İclas zamanı salonda adına “dördüncü mikrofon” deyilən mikrofon qurulur, salonda həmin səsgücləndiriciyə yaxın oturmuş müxalif deputatlar istədikləri vaxt yerindən tullanıb çıxış edənlərlə mübahisəyə girişirlər. Dördüncü mikrofondan, demək olar ki, ancaq müxalifətçilər yararlanırlar. Deputatlar Etibar Məmmədov, İsgəndər

Həmidov, Rəhim Qazıyev, İsa Qəmbərov, Arif Hacıyev, Tofiq Qasımov, Pənah Hüseynov, Faiq Baxşəliyev, İbrahim İbrahimov, Tahir Kərimli, Fəzail Ağamalıyev, Mürşüd Məmmədov, Ədalət Rəhimli, Nurəddin Əhədov, Hicran Kərimli... daha neçələri dördüncü mikrofona boğaz ortağıdırlar. Onlar mitinqdə dediklərini burda da təkrar edirlər. Çıxışlarının bəzən bütöv, bəzən də xalq arasında deyildiyi kimi, qayçılanmış, kəsilib-doğranmış, yəni redaktə olunmuş şəkildə efirdə verildiyini bildiklərindən daha uzun, daha coşqun, daha kəskin danışırlar. Bilirlər ki, xalqın gözü onların ağzındadır. Dövlət başçısı, səlahiyyətli orqanlar müxalifətçilərin dilini kəsə bilmir. Ayaz Mütəllibov üç cəbhə ilə üz-üzədir: Moskva, Ermənistanın qarışdırdığı Dağlıq Qarabağ, müxalifət. Özü də başını itirib. Ləngdir, hərəkətləri və hərəkətsizlikləri idarəçilik üslubundan asılı olmayaraq şahlara, krallara, prezidentlərə, dövlət xadimlərinə, sərkərdələrə aid oxuduğum kitablardakı başçıların davranışlarına uyğun gəlmir. Heç bir məsələdə qətiyyət, iradə, çeviklik göstərmir. Prezidentin fəaliyyəti adamları darıxdırır.

O, müxalifəti parçalamaq, öz tərəfinə çəkməkdən ötrü onun ayrı-ayrı adamlarına altdan-altdan vəzifələr təklif edir. Ancaq hələlik deputatlardan üçünü yola gətirə bilib. Xalq Cəbhəsinin fəal üzvü Tamerlan Qarayev Ali Sovetin sədr müavinidir, Sabir Rüstəmxanlı Respublikanın Mətbuat və İnformasiya naziri təyin olunub, Faiq Baxşəliyev isə Mingəçevirə Şəhər İcra hakimiyyətinin başçısı vəzifəsinə göndərilib. AXC-nin sədri Əbülfəz Elçibəy qorxub ehtiyat tədbiri görür, AXC yığıncağında qərar çıxardır ki, təşkilatın üzvləri İdarə heyətinin zəmanəti olmadan heç bir dövlət vəzifəsini tuta bilməz. Bu qərar öz bəhrəsini verir, axının qabağı dayanır. Amma Prezidentin müxalifətə doğru atdığı addımlar aşağıların ona qarşı münasibətini yumşaltmayıb. Hər xırda bir səbəb böyük nümayişlərə, mitinqlərə səbəb olur. Tələbələrin günü mitinqlərdə keçir.

Prezident Aparatında, hökumətdə gedən dəyişiklikləri rəsmi xəbərlərdən də izləyirəm deyə yeniliklərdən dərhal xəbərim olur. Oktyabrın sonunda Prezident Ayaz Mütəllibov Azərbaycan Respublikasının Dövlət Şurasının yaradılması barədə fərman verir. Bu, onun

əvvəllər yaratdığı və işlədə bilmədiyi Təhlükəsizlik Şurasından və Müdafiə Şurasından sonra tərtib etdiyi növbəti məşvərətçi qurumdur. Tərkibində müxalifət nümayəndələri də vardır.

Yeni təsis edilmiş Dövlət Katibi postuna akademik Tofiq İsmayılov gətirilir.

Noyabrın əvvəllərində Ali Sovetimiz Dağlıq Qarabağ və Azərbaycan-Ermənistan sərhədində erməni silahlı qüvvələrinin hücumlarının genişlənməsi ilə bağlı xarici dövlətlərin parlamentlərinə müraciət edəndə çoxları sadəlövhcəsinə düşünür ki, tezliklə dünya səsimizə səs verəcək.

Amma sanki Azərbaycanın fəryadları göyün yeddinci qatından da yuxarı uçub gedir, şikayət məktubları isə dibsiz qaranlıq quyulara düşür.

O axşam evdə oturmuşdum, kitab oxuyurdum. Televizor işləyirdi. Azərbaycan televiziyasının efir proqramı tez-tez dəyişdiyinə görə gərək televizoru açıq qoyaydın. Yoxsa, nəyisə ötürəcəkdin. İçimdə dəhşətli xəbər aclığı vardı. Hər an qulağım səsdə idi. Ekranda növbəti proqram bitəndən sonra uzun-uzadı klassik musiqi çalınmağa başladı. Dalağım sancdı. Dəli kimi öz-özümə dedim: "Vəssəlam, yenə nəsə əngəl çıxıb". Biz efirdə, radioda qəmli, ürəkçəkən klassik musiqinin çalındığını eşidəndə hansısa bəd xəbərə hazırlandığımızı bilirdik. Gümanım min yerə gedirdi. Bəlkə Moskvadan ağır xəbər gəlib? Bəlkə Qorbaçov ölüb, yaxud öldürülüb? Azərbaycan rəhbərlərindən heç biri bu vaxtadək vəzifə başında qəfildən dünyasını dəyişməyib. Ona görə də bilmirəm, Allah eləməsin, belə bir hadisə baş versə, yuxarıdakılarımız özlərini necə apararlar? Bəlkə Qarabağda yenə qazan qaynadıblar? Axı, nə ola bilər?

Nəhayət, üzücü musiqi kəsilir. Üzünə kədər çökmüş diktor ekranda görünür və əlindəki vərəqdən mətni oxumağa başlayır. Məlum olur ki, Dağlıq Qarabağda, Martuni rayonunun Qarakənd kəndinin ərazisində Qazaxıstana məxsus "Mİ-8" hərbi vertolyotu dumana düşərək dağa çırpılıb. Vertolyotda kimlər yoxmuş? Dünənəcən həmin bu baxdığım ekrandan düşməyən, zirək, çevik, hələ rayon prokuroru olduğu vaxtdan gendən-genə tanıdığım Respublikanın

Baş Prokuroru İsmət Qayıbov, keçmiş Daxili işlər nazirimiz, Stepanakertdə, Əsgəranda böyük təmizləmə əməliyyatları keçirmiş, ekstremist separatçıların gözlərini qırmış, indi Prezident Aparatında hüquq-mühafizə orqanlarını kurasiya edən general Məhəmməd Əsədov, cəmi iyirmi beş gün əvvəl Dövlət Katibi təyin edilsə də, qətiyyətli olduğunu göstərə bilmiş akademik Tofiq İsmayılov, onun köməkçisi Rafiq Məmmədov, təhkim olunduğu üçün Qarabağa tez-tez gedib-gələn Baş nazirin müavini Zülfü Hacıyev, Kənd Təsərrüfatı nazirinin müavini Qurban Namazəliyev, SSRİ xalq deputatları – Şuşanın keçmiş İcra başçısı Vaqif Cəfərov, Bakı şəhəri Səbail rayonunun İcra başçısı Vəli Məmmədov, Prezident Aparatında ötən ildən şöbə müdiri işləyən, peşəkar jurnalist Osman Mirzəyev, Dağlıq Qarabağ Muxtar Vilayətinin prokuroru, bakılıların dililə desək, əl rusu, Azərbaycanda doğulmuş, dilimizdə təmiz danışan Vladimir Plavski, Dağlıq Qarabağ Vilayətinin Daxili işlər idarəsinin, milli təhlükəsizlik şöbəsinin, fövqəladə vəziyyət rayonunun rəhbərləri Vladimir Kovalyov, Sergey İvanov, Nikolay Zinkin, Jeleznovodsk sülh sazişinə əsasən Dağlıq Qarabağ münaqişəsi regionunda sülh yaratmaq missiyasını üzərinə götürmüş Rusiya və Qazaxıstanın müşahidəçilər qrupunun rəhbərlərindən olan Qazaxıstan Daxili işlər nazirinin müavini Sanlal Serikov, rusiyalı milis general-mayoru Mixail Lukaşov, polkovnik-letenant Oleq Koçerov, AzTV-nin “Xəbərlər” proqramında çalışan jurnalist, dəfələrlə çayxanada əyləşib çay içə-içə söhbət etdiyim, sanki başqasının eşidəcəyindən çəkinirmiş kimi dodaqlarının ucunda Bakıda, Qarabağda baş verən hadisələrin mahiyyətini özünəməxsus şəkildə şərh edən Alı Mustafayev, onun həmkarları operator Fəxrəddin, işıqçı Arif... Heyət üzvləriqarışıq vertolyotdakı iyirmi iki nəfərin hamısı həlak olub.

Xəbərdən sonra efirdə yenə də hüznlü klassik musiqi çalınmağa başladı...

Prezident Ayaz Mütəllibovun başçılığı ilə Dəfn komissiyası yaradıldı, respublikada 21 noyabrdan başlayaraq üç günlük matəm elan edildi.

Dəfndə mən də vardım. Meyitləri Ağdam məscidində yuyub kəfənləmişdilər. Vidalaşma mərasiminin keçirildiyi Şəhriyar adına klubun qabağından cənazə karvanına qoşulmuşdum. Karvanın qabaq tərəfində rəsmiyyət aydın hiss olunurdu. İrəlidə tanımadığım adamları daha çox görürdüm. Müxalifət liderlərindən heç kəs gözə dəymirdi. Hələ yuxarılar hadisəni terror aktı kimi qələmə vermirdilər – həlak olmuş dövlət və hökumət nümayəndələrinin cənazələri Fəxri Xiyabana doğru yön almışdı. Alı Mustafayevin, Fəxrəddinin, Arifin nəşinin Şəhidlər Xiyabanında dəfn ediləcəyini deyirdilər. Rusiyalı və qazaxstanlı qurbanların, vertolyot ekipajının harda torpağa tapşırılacağından xəbər yoxdu. Pıç-pıçlardan bəzi şeyləri qulağım alırdı. Danışılırdı ki, guya Prezident Ayaz Mütəllibov hadisənin xəbərini alan anda hər iki əlilə başına döyüb və deyib: "Vay! Evim yıxıldı!"

Onu da deyənlər vardı ki, əsli-kökü Ağdamdan olan Ali Sovetin sədr müavini, həm iqtidarın, həm də müxalifətin rəğbətini qazanmış Tamerlan Qarayev onca dəqiqə sonra partladılacaq "Mİ-8" havaya qalxmazdan az öncə vertolyotdan düşüb, deməli, nəsə bilirmiş.

Ayaz Mütəllibovun qara xəbəri eşidib başına döyməsi inandırıcıdır, çünki hər bir rəhbər öz komandası ilə güclüdür. Lap futbolda olduğu kimi. Güclü oyunçular zədələnib oyundan çıxdaş olunanda komandanın kapitanı nə vəziyyətə düşür? Prezidentin etibarlı kadrları bir anın içərisində yanıb külə dönmüşdü. Bu boyda itkilərə görə kimlərinsə ona ürəyi yanacaqdımı? Üç günlük matəm başa çatan kimi mitinqlərdə bar-bar bağıracaqdılar ki, Prezident öz ölkəsinin ərazisində yüksək dövlət məmurlarının təhlükəsizliyini qoruya bilmədi.

Dəfndə Ağdamdan gəlib iştirak edənlər var. Onlardan biri astadan çox aydın və məntiqli danışır. Deyəsən, işin içində olan adamdır. Deyir ki, hadisədən iki gün əvvəl, Ağdama xəbər yayıldı ki, erməni saqqallıları bir dəstə silahlı hərbçinin köməyi ilə Qaradağlı kəndinə basqın edib. Kənddə böyük dağıntı olub, ölən, yaralananlar var. Kənd camaatının çoxu Ağdama qaçmışdı. Dövlət Katibi Tofiq İsmayılovun başçılığı ilə hadisəni yerində öyrənməyə gələn hökumət adamları Ağdam aeroportuna enəndə onları Xocavənd və

Qaradağlıdan didərgin düşənlər, Ağdamdakı Ermənistan qaçqınları, yerli adamlar qarşıladı. Qəzəbli kütlənin sayı bəlkə də beş mini keçərdi. Soyuq, çiskinli havada qonaqlar rayonun keçmiş İcraiyyə Komitəsinin binasında yerləşən, Viktor Polyaniçkonun rəhbərlik etdiyi "Respublika Təşkilat Komitəsi"nin qərargahına gəldilər. Həyətdə toplaşan qaçqınlar, köçkünlər onların və Prezident Ayaz Mütəllibovun ünvanına küçə söyüşləri söyürdülər. Camaatın bir hissəsini binanın iclas salonuna buraxdılar. Dövlət Katibi Tofiq İsmayılov iclas keçirməyə başladı. Stepanakertdən çağırılmış Dağlıq Qarabağ Vilayətinin Daxili işlər idarəsinin rəisini, prokurorunu, dövlət təhlükəsizlik bölməsinin rəisini, Fövqəladə vəziyyət rayonunun komendantını yarıtmaz fəaliyyətlərinə görə bərk danladı.

Salondakılar təkidlə tələb edirdilər ki, komissiya üzvləri Qaradağlıya gedib törədilən vəhşilikləri yerindəcə görsünlər. Hərbi komendant bildirirdi ki, Qaradağlıda noyabrın 18-də heç nə baş verməyib. Qərara alındı ki, hadisə yerinə gedilsin. Saat on ikiyə işləmiş komissiya üzvləri Ağdam aeroportundan hərbi vertolyotla havaya qalxdı. Vertolyotun Qarakənd kəndi üzərindən uçarkən dağa dəyib qəzaya uğraması barədə xəbər axşam saat yeddiyə yaxın Ağdama gəlib çıxdı. Xəbəri Stepanakertin hərbi komendantlığından Ağdam hərbi komendantı Petrova vermişdilər. İsti-isti hadisə yerində olanlar danışırdılar ki, vertolyot elə yanırdı ki, onun alüminiumdan olan hissəsi əriyib su kimi yamacdan üzüaşağı axırdı. Hərbçilərin sözlərinə görə, vertolyot qadağan olunmuş, dəhşətli yanğın törədən silahla vurulmuşdu.

Kimsə Tamerlan Qarayevin nümayəndə heyətindən ayrılıb vertolyota minməməsinin düzgün olub-olmaması barədə sual verəndə ağdamlı nədənsə ehtiyat edib sözünü kəsir, addımlarını yavaşıdaraq arxada qalır.

Cəsədlər yanıb tanınmaz hala düşdüyündən söz yaymışdılar ki, Məhəmməd Əsədovla İsmət Qayıbov həlak olanlar arasında yoxdur. Guya vertolyot yerə sağ-salamat enib, onları əsir alandan sonra vertolyotu yandırıblar. Bu əfsanənin təsiri ilə Məhəmməd Əsədovun, İsmət Qayıbovun xanımları uzun müddət ərlərinin yolunu

gözləyəcəkdi, qəzetlərə verdikləri müsahibələrdə ümidli danışacaqdılar.

Matəm günləri bitdikdən sonra yenə də mitinqlər guruldayır. Adamlar erməni separatçılarının Dağlıq Qarabağdakı özbaşınalıqlarından təngə gəliblər. Hamının üzündə nifrət, qəzəb var. Mitinqlərdə millət intiqam hissi ilə qıvrılır. Yenə də axırda günahkar dövlət çıxır. Etibar Məmmədov tribunadan Ayaz Mütəllibovun aşını, suyunu verir. Hakimiyyətin dişsizliyi açıq-aydın görünür. Çoxlarına elə gəlir ki, Prezident istəsə, çox şey eləyə bilər. Hakimiyyətdən qəti tədbirlər görülməsi tələb olunur. Ermənistanla müharibəyə çağırışlar səslənir. Bu saat mən də müharibə tərəfdarıyam. Onsuz da adına Dağlıq Qarabağ Muxtar Vilayəti deyilən xarabanın hər tərəfində, Ermənistanla sərhəd Goranboy, Gədəbəy, Tovuz, Qazax rayonlarının qıraq kəndlərində Allahın verən günü çaxnaşmadır.

Qəzetdə-jurnalda yazılandan başqa mitinq tribunalarından, efirdən Məmmədhüseyn Şəhriyarın "Azərbaycan" şeiri tez-tez səslənir. Hər dəfə şeirin bir misrasını isə xüsusi vurğu ilə deyirlər: "Ya azad ol, ya tamam yan, Azərbaycan!"

Şeirin misralarını təkrar-təkrar eşitdikcə öz-özümə düşünürəm. Gör nə qədər qəzəblənmişik ki, risk eləyib, qumarbazların "va-bank" addımını atmaq istəyirik. Hirsindən partlayan insanlar ən qısa zamanda məsələni çürütmək istəyir. Ciddi bir çağırış olsa, kütlə mitinq meydanından hazırlıqsız-filansız birbaşa düşmənin üstünə yeriyər. Bir neçə gün əvvəl televiziyada çıxış edən Borçalı aşığı sazını tüfəng kimi tutub deyirdi ki, mən bu sazımla yağıların qabağına çıxacağam. Amma soyuq başla düşünənlər də vardı. Onlar bilirdilər ki, azad olmaq yaxşı şeydir, amma tamam yanmaq böyük fəlakətdir.

Hamı gözləyir ki, törədilən terror aktına qarşı hökumət hansı tədbiri görəcək? Mitinq əhli "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin statusunun ləğv edilməsini Respublika rəhbərliyindən təkidlə tələb edir. İki ay əvvəl ermənilər "Dağlıq Qarabağ Respublikası" yaratmaq barədə qanundankənar qərar çıxardıblar. Qərar növbəti təxribat kimi insanları qıcıqlandırıb.

Üç gün sonra Azərbaycan Ali Sovetinin sessiyası çağırılır. Sessiya başlamazdan qabaq yuxarılardan məlumat sızır ki, Ali Sovetimiz Dağlıq Qarabağ Muxtar Vilayətinin statusunu ləğv edəcək. Xəbər doğru çıxır. Sessiyanın qərarının mətnini radio, televiziya dönə-dönə oxuyur. Ertəsi gün jurnalist Tofiq Rüstəmovun baş redaktoru olduğu "Xalq qəzeti"nin (*keçmiş "Kommunist" qəzetinin Kommunist Partiyası ləğv edildikdən sonra adı dəyişdirilmişdi*) birinci səhifəsində Ali Sovetin qərarını oxuyuram. Stepanakert şəhərinin adı dəyişdirilir və keçmiş "Xankəndi" adı bərpa olunur. "Mardakert", "Martuni" adları da "Ağdərə", "Xocavənd" tarixi adları ilə əvəzlənir. Hadrut rayonunun ərazisi Xocavəndə verilir, Əsgəran ərazisi əsasında Xocalı inzibati-ərazi bölgüsü yaradılır. Şuşa rayonu əvvəlki kimi saxlanılır.

Ertəsi gün SSRİ Dövlət Şurası Dağlıq Qarabağda "vəziyyəti sabitləşdirmək" haqqında qərar qəbul edir. Bu, dağılmaqda olan nəhəng bir imperiyanın Qarabağ münaqişəsinə dair sonuncu sənədi olacaqdı.

Bir neçə gün intizar içində qalıram. Ali Sovetimizin qərarının Ermənistana, Dağlıq Qarabağ ermənilərinə necə təsir edəcəyini gözləyirəm.

İntizarım məyusluğa çevrilir. İki həftə sonra Dağlıq Qarabağ erməniləri müstəqillik haqqında referendum keçirirlər.

Düşmənlərin azğınlığı hamını partladır, "Azadlıq" meydanında etirazçılar əlindən tərpənmək mümkün deyil. Ermənilərin burnunun ovulması istənilir. Müdafiə naziri general Valeh Bərşadlı nazirliyin işini qura bilməməkdə, yarıtmazlıqda, kəsərsizlikdə ittiham edilir. Və mitinqdə birdən onun istefası tələb olunur. Qəzəbli kütlənin ağzından od püskürür. Hökumət qəzəbin qarşısında dayana bilmir, cəmi üç ay qabaq təyin olunmuş ilk müdafiə nazirimiz istefaya göndərilir. Yerini Respublika hərbi komissarı Tacəddin Mehdiyev tutur.

Əksəriyyətimizə elə gəlir ki, müharibəyə başlasaq, nəinki Dağlıq Qarabağı, hətta Ermənistanı da beş-on günə "hopp" eləyib uda bilərik. Yeni müdafiə naziri Bakını sakitləşdirmək, ermənilərin gözünü qırmaq üçün mütləq bir tədbir görməlidir. Çünki hər doğulan gün köhnə narahatçılıqlara yeni bir gərginliyin əlavə edilməsi deməkdi.

Naxçıvanla dəmir yol əlaqəsi tamamilə kəsilmişdi, dünənəcən Xankəndidə yaşayan yeddi min azərbaycanlıdan bir nəfər də bu şəhərdə qalmamışdı, hamısı qovulmuşdu.

Qarşıdan yeni il, 20 Yanvar şəhidlərinin ikinci ildönümü gəlirdi. Qəzetlər yenidən şəhidlərdən yazmağa başlamışdı, televiziyada matəm havasında verilişlər verirdilər. Məni bir şey ağrıdırdı. Bizim bir çox ziyalılarımız da, alimlərimiz də yəhudi, erməni ziyalıları, alimləri kimi öz xalqının əzabkeş xalq olmasını dünyaya bəyan etməyə başlamışdı. Axı, tarixdə babalarımız bu yolu tutmamışdı. Soy-kökümüzün mənsub olduğu türklər həmişə qələbələrini bayram kimi keçirtmişdilər, məğlubiyyətlərini unutdurmağa çalışmışdılar. Axı türklərin tarixində xüsusi qeyd etdikləri hüzn günləri yoxdur. Amma bu hadisənin qəhrəmanlıq tərəfini düşünənlər də az deyildi.

Artıq Yeltsinin təşəbbüsü ilə Rusiyanı, Ukraynanı və Belarusu birləşdirən Müstəqil Dövlətlər Birliyi yaradılıb. Mixail Sergeyeviç Qorbaçov SSRİ-nin Prezidenti vəzifəsindən istefa verib. Bundan sonra "SSRİ" deməyə öyrəşmiş dilimiz "MDB"yə (*Müstəqil Dövlətlər Birliyi*) alışmalıdır.

Moskva köhnə SSRİ respublikalarını MDB-yə cəlb etmək istəyir. Belovejskdə çağırılan iclasda başda Qazaxıstan olmaqla bir neçə respublika MDB-yə üzv qəbul edilir.

Latviya, Litva və Estoniya yığıncağa qatılmayıb. Prezident Ayaz Mütəllibov Azərbaycanı Birliyin üzvü etməyə boyun qoymur. Çox-çox sonralar eks-prezident, qəzetə verdiyi müsahibəsində qəzəblə etiraf edəcəkdi ki, vəzifəmdə ən böyük səhvim Bakıda Azərbaycan Xalq Cəbhəsinin qarışıqlıq salacağından çəkinib Azərbaycanın MDB üzvlüyünə qəbul edilməsinə imza atmamağım olub. Nümayəndə heyətinin üzvü Araz Əlizadə, o yaramaz məni inandıra bildi ki, Moskvaya nifrət edən Xalq Cəbhəsi və onun bir işarəsinə bənd olan milyonlarla insan hakimiyyəti devirəcəklər. Moskva arxamdan qaçdı, meydanda tək qaldım.

Yeni il qabağı Azadlıq meydanındakı mitinqdə qəfildən içimdən bir soyuq keçir, qəribsəyib ata-anamı görmək istəyirəm. Bəhram Gurun heykəlinin yanına gəlib müştəri gözləyən taksiyə yaxınlaşıram.

Sürücü məni "Jiquli"nin qabaq oturacağında əyləşdirir. Qanrılıb geriyə baxanda Fərəhi və anasını görürəm. Ha eləyirəm, Fərəhin anasının adı yadıma düşmür. Ümumiyyətlə, adam adları elə də yadımda qalmır. Gərək bir adamla çox ünsiyyətdə olam ki, adı yaddaşımda möhkəmlənsin.

Tanış sərnişinlərlə yüngülcə hal-əhval tuturam. Yola çıxırıq. Arxadan Fərəhin kürəyimə dayanan baxışlarını hiss edirəm. İçimi yeyə-yeyə öz-özümə deyirəm, yüz dəfə çalışsan ki, ayrı-ayrı yerlərdən gəlib Fərəhgillə eyni taksiyə minəsən, bəlkə də bu istəyin baş tutmaz, ancaq təsadüfə bax, indi gözləmədiyin halda onlarla bir maşındasan. Taksi dayanacağına onca dəqiqə gec gəlsəydim, yəqin ki, indi yerimdə başqa müştəri əyləşmişdi. Bədənimdə qızdırma kimi bir hiss dolaşır. Fərəhin anasına görə sıxılıram.

Yaxşı ki, taksi sürücüsü ordan-burdan danışmağa başlayır. İstəyirəm ki, sürücü yol boyu susmasın, lap hətərən-pətərən danışsa da, dil boğaza qoymasın, boşluğu doldursun, nəzakət xətrinə belə Fərəhlə anasına bir söz deməyimə imkan verməsin. Lap maşının radiosunu, maqnitofonunu açıb musiqi ilə yola körpü atsa da olar.

Gözünə döndüyüm sürücünün radiosu da, maqnitofonu da özüdür. Elə bil fikrimi üzümdən oxuyub. Dayanmadan vəziyyətin ağırlığından, bahalıqdan danışır. O da öz ağlı ilə ölkədə nizam-intizam yaradılmasını istəyir. Sonra da əlavə edir: Hitleri bəyənmirik. Görün neyləyib?! Hakimiyyət başına keçəndə gəlib ona xəbər verirlər ki, bəs qatarlarda bir çox sərnişinlər biletsiz gedir, qarşısını ala bilmirik. Hitler göstəriş verir, əyalətdən Berlinə gedən qatar stansiyaların birində dayanan kimi təhlükəsizlik xidmətinin əsgərləri biletsiz sərnişinləri qatardan düşürüb sıraya düzürlər, ucdantutma hamısını ayağından güllələyiblər. Bununla da o boyda Almaniyanın bütün qatarlarında nizam-intizam yaradıblar. Dövlət istəsə, qayda-qanunu yerinə qoya bilməz?! Qoya bilər, əlində hər cür imkan var, amma istəmir. A kişilər (*taksidə iki qadın , bir kişi var. Bu sürücü ya bütün sərnişinlərə kişi kimi baxır, ya da hər gün müştərilərlə etdiyi söhbətin mətnini dəyişmir*), Prezidentin əlində Daxili İşlər Nazirliyi, KQB (*DTK*) ola-ola niyə özü üçün "Qardaşlıq" cəmiyyəti yaradıb, qoçu

dəstəsi saxlayır? Etibar Məmmədovun, elə o birilərin də hərəsinin bir sürü cangüdəni var. Yaman günə qaldıq. Oğlum Moskvadan təzə-cə qayıdıb. Getmişdi ki, bəlkə bir az pul-para qazana. Deyir, Moskvanı reketlər idarə edir. Alverlə məşğul olan bütün obyektlərdən aylıq alıb, guya onlara "krışalıq" (*himayədarlıq mənasında*) eləyirlər. Hər küçənin öz quldur dəstəsi var, dediklərindən çıxdın, qanın getdi, başını əkəcəklər. Qaralara göz verib, işıq vermirlər, basdıqlarını basırlar, kəsdiklərini kəsirlər. Adam oğurlamaq toyuq oğurlamaq kimi bir şey olub Moskvada. Uşaq baş çıxarda bilməyib geri qayıdıb.

Sürücü deyir ki, üç il bundan qabağa qədər əmək və rəsmxətt müəllimi işləyib. Görüb dolana bilmir, müəllimliyin daşını atıb.

Deyəsən, "Jiquli"dəkilər, xüsusilə də mən, yaxşı dinləyicilərik. Sürücü danışdıqca hərdən dönüb mənə göz atır, həvəslə ona qulaq asdığımı, başımı tərpədib dediklərini təsdiq etdiyimi görüb daha da qızışır, təzə bir şey deməsə də, yana-yana danışması onu maraqlı edir.

Ürəyimdə tutmuşam ki, mənzil başına çatanda irəli durub Fərəhlə anasının yol pulunu verəcəyəm. Düzdür, mentalitetə görə, hərəkətim ananın mənə münasibətini təzələyə bilər, amma üzümü yana tutub onlara qarşı diqqətsizlik göstərsəm, onda da öz gözümdən düşərdim.

Bir azdan şəhərimizə çatırıq. Axşamüstüdür. Maşını bazarın yanında saxlatdırıram, burdan bizim evə yaxındır. Təxmini bildiyimə görə, Fərəhgilin evinə hələ xeyli var. Sürücüyə qadınları göstərib onların pulunu məndən götürməsini bildirəndə Fərəh astaca "Xəcalət verirsən!" desə də, hiss edirəm ki, hərəkətimdən razı qalır.

Anası isə imkansız olmadığımı bildiyindən bircə kəlmə deyir:

– Anana salam deyərsən!

"Jiquli"ni yola salıb, evimizə tərəf addımlayıram. Fərəhin anasının salamını yəqin ki, anama çatdırmayacağam. Çünki təsadüfi yol yoldaşlığının, Fərəhgillə eyni maşında gəlməyimin izahatı uzun çəkər. Niyə anamı nigaran qoyum ki? Olmasın bir salam. Birdən elə bilər ki, məni qoyub qaçmış, indi dul qalmış Fərəhə uymuşam.

Hə, Fərəhin anasının adı yadıma düşdü, Əminə müəllimə. O, anama rast gələndə Bakıdan birgə gəlməyimizin söhbətini salsa, anam xəbərə məhəl qoymaz. Xasiyyətini bilirəm, xırdaçı deyil. Əgər ona deməmişəmsə, deməli, elə ciddi bir əhvalat baş verməyib.

Evimizə çatmağa az qalmış başıaşağı mənə sarı gələn, dörd-beş ev bizdən aralı tək oğlu ilə yaşayan Zərri arvadı görürəm. Bu qadın da məni öz şəhərimə bağlayan xüsusi adamlardan biridir. Gözümü açandan ərsizdir. Dəmiryolu stansiyasında süpürgəçi işləyib balasının, özünün başını saxlayıb. Həm də mənə səbəbini bilmədiyim xüsusi münasibəti var. Deyilənlərə görə, Zərri arvadın gözü daşdan keçir. Vaxtilə ətrafımızın kişiləri, qadınları onu görəndə bədnəzəri öldürmək üçün yanlarını qaşıyıblar. İyirmi il əvvəl atam özünə təzə "Moskviç" alıb evimizə gətirəndə Zərri arvad avtomobilin qarşısına çıxıb, üççə dəqiqə sonra "Moskviç"in dörd təkərinin dördü də birdən deşilib. Amma indi Zərri arvad tamam başqalaşıb, gözəgəlimli adamları uzaqdan görüncə baxışlarını yayındırmağa çalışır. Təkcə ələyi ələnmiş, xəlbiri göydə fırlanıb düşmüş qocalarla, öz yaşıdları ilə üz-üzə, göz-gözə söhbət edir. Elə adamlarla ki, onlarda nəzər kəsəsi heç nə qalmayıb.

Daha Zərri arvadın öz bədnəzərini gizlətməsini, başqa cür desək, zərərsizləşdirməsini hamı kimi mən də bilirəm. Adamları özündən qoruması mənə fədakarlıq kimi görünür. Hər halda özünə qalib gəlmiş adamdır. Anam danışırdı ki, Bakıda 20 Yanvar qırğını baş verdikdən sonra Həvva arvad küçədə Zərri arvadın qabağını kəsib soruşub ki, ay Zərri, görmürsən Qorbaçov başımıza nə oyunlar gətirir, nəzərin niyə onu kəsmir?!

Zərri arvad ciddi cavab verir:

– Allah məni bədbəxt yaradıb, gözüm ancaq həsəd apardığım adamlara dəyir. Axı, Qorboçova nifrətlə baxıram.

Zərri arvadın bərabərinə çatanda ayaq saxlayıb üzümə baxmadan mənimlə hal-əhval tutur. Gəlişli-gedişli qatar stansiyasında çalışdığı üçün hərədən bir söz eşidən ayıq adam kimi məndən Bakı barədə soruşur. Ümumi cavabım onun halına təsir etmir. Görünür, dediklərimi o da bilir. "Allah axırını xeyir eləsin!"- deyib sovuşur. Aradan

il yarım keçəcək, Zərri arvadın qırx yaşında doğduğu, bizim "İnti" dediyimiz oğlu İntiqam əsgər gedəcək, Murovda vuruş vaxtı qar uçqununa düşəcəkdi, meyiti tapılmayacaqdı.

Həyətimizdə qarşıma anam çıxır, bir az sınıxıb. Atam evdədir. O da fikirli və yorğundur. Mən də onların gözünə dəyişik görünürəm. Daha əvvəlki dönüşlərimdəki kimi görüşmürük. Arada soyuqluq var. Bunu başa düşməyə nə var?! İndi o zaman deyil.

Bir azdan anam süfrə açır, yarpaq dolmasını süfrəyə gətirəndə deyir:

– Səndən ötrü də, Qaradan ötrü də bərk darıxanda sizin bəyəndiyiniz yeməkləri bişirirəm (*Yarpaq dolması Qaranın sevdiyi yeməkdir*). Gör arabir atanla başımızı nə ilə qatırıq? Sizdən danışmaq üçün yüz cür bəhanə axtarırıq. Ölkədə vəziyyət ki, belə qarışıb, havadan da, sudan da ayrılıq qoxusu gəlir.

– Bakının başı özünə qarışıb, – atam danışmağa başlayır – Yerlərdə təzə yaranmış icra hakimiyyətləri şikəst uşaq kimi çabalayır. Bizim İcra hakimiyyətinin başçısı özünü dəllal kimi aparır. Elə bil dünyanın axırıdır, fikri-zikri pul qamarlamaqdır. Hər iş pulnandır. Gedib görməmişəm, deyirlər ki, sovet əsgərləri gedəndən sonra boşalan hərbi şəhərcikdəki bütün mənzillər dəyər-dəyməzinə satılıb. Mənzilləri bir-bir İcra başçısının özü satır. Görəsən Bakıda oturan Azərbaycan hökumətinin bundan xəbəri yoxdur? Axı bu qədər də olmaz! Müstəqil dövlət oluruqsa, müstəqil dövlətə müdafiə lazım deyil? Hazır hərbi şəhərcikdir də, niyə qoyulur dağılsın? Nadanlığa bax ki, ən ağır hərbi təyyarələr üçün tikilmiş enmə zolağının beton plitələrini ekskavatorla sökdürüb harasa daşıtdırırlar.

Həmişə gülərüz olan anam son aylarda qan təzyiqinin oynamasından gileylənir. "Dava-dərmanla bir təhər keçinirəm, təki əmin-amanlıq olsun!" deyir. Danışıqlarından aydın görünür ki, atamla-anam məndən çox Qara üçün nigarandır. Haqlıdırlar, hər halda qardaşım güllə qabağındadır. Gündə bir xəbər gəlir. Qara ən azı həftədə bir dəfə evimizə zəng edirmiş. Mənimlə az danışır. Qara Xankəndinin böyründəki Kərkicahan kəndində posta çıxır. Telefonda qorxulu bir şey demir. Hərdənbir atışmalardan, əhali

arasındakı narahatçılıqdan danışır. Amma yəqin ki, söhbəti yumşaldır. Son danışığında qardaşım deyirmiş ki, ezamiyyət müddətini uzatmasalar, yeni il bayramına gələcək. Keçən ay bir dəfə də belə deyib, amma onu buraxmayıblar.

Atamı bir şey də narahat edir. Hərbi nazirliyimiz yaradılandan sonra bir para adamlar əsgərlik yaşına çatmağına az qalmış oğullarını çörək qazanmaq adı ilə Rusiyaya gedən alverçilərə qoşub respublikadan çıxardırlar. Hətta bizim şəhərdə hərbi çağırışdan yayınmaq üçün oğullarını pasport qeydiyyatından çıxartdırıb, pul gücünə Dağıstanda qeydiyyata saldıranlar da var.

Anam daha evlənməyim barədə danışmır. Yəqin düşünür ki, indi o söhbətin vaxtı deyil. Ancaq bilirəm ki, bu mövzu dilinin ucundadır. Həyatın qəribə işləri var. Anam istəyirdi Fərəhi alım. Təsəvvür edin, Fərəhlə evlənmişəm, bizdə qonaq qalan qaynanam Əminə müəllimini də götürüb taksi ilə şəhərimizə qayıdırıq. Anam da qarşımıza çıxıb boynumuza sarılır. Bu gün hadisənin yarısı baş verib, yarısı yox. Anamın hadisənin baş vermiş birinci hissəsindən xəbəri yoxdur.

– O gün – anam danışmağa başlayır, – Təhsil şöbəsində Əminə müəlliməyə rast gəldim. Qızının başına gələn müsibətlərdən danışırdı.

Atam çeynədiyi son tikəsini udub süfrə başından durur, eşiyə çıxır. Görünür, anamın Fərəhgildən söz salması xoşuna gəlməyib.

Amma atamın otaqdan bayıra çıxması anamın ürəyincədir, rahat nəfəs alır.

– Əminə müəllimə deyirdi ki, – anam söhbətinə davam edir, – Fərəh cızığından çıxdığına görə qarğışa düşüb Allahın bəlasına gəldi.

Anamın sözünü kəsdim:

– Ay ana, cızığından niyə çıxırdı, sevdiyi oğlana qoşulub qaçmışdı da. Yoxsa ona qarğış eləmişdin?

– Yox, yox, yox! Ürəyimə xal düşdü, amma qarğış eləmədim. Hətta təsəlli tapıb sevindim ki, nə yaxşı, bizdən ağıllı çıxdın, işi uzatdın. Birdən o qıza nişan taxardıq, sonra qoşulub qaçardı, el içində biabır olardıq. Nə isə, olan oldu, keçən keçdi...

Boynunu qucaqlayıram:

– Ana, söz verirəm ki, atamla sənin xeyir-duan olmadan evlənməyəcəyəm!

Üzümdən öpür:

– Alacağın qız da xeyir-duasız olmasın.

Darıxmağa başlayıram. Heç indiyə qədər ata-anamın yanında sıxılmamışdım.

Müharibə, inqilab, anarxiya, qarışıqlıq dövrləri adamı avara qoyur. İşdən-gücdən eləyir.

Sülh dövründə yaşamaq nə asan imiş?! Yaşlı nəslin müharibədən nə qədər qorxduğunun, yerli-yersiz əmin-amanlıq arzulamasının mənasını indi-indi anlayıram. Dünənəcən Sovet İttifaqının bu başından vurub o başından çıxırdıq, "gözün üstə qaşın var" deyən yox idi. O qədər arxayınçılıq idi ki, bəzən həftələrlə itirdik, ata-anamız bizdən xəbər tutmurdu. İki ay yarım Sibirdə tələbə inşaat dəstəsində oldum, bir dəfə də evimizə məktub yazmadım. Telefonla danışmaq üçün mərkəzi poçta gedib sifariş vermək, uzun-uzadı, bəzən saatlarla gözləmək lazım gəlirdi. Buna da ya ərinirdim, ya da ehtiyac görmürdüm. Elə yoldaşlarımın da çoxu mənim kimi hərəkət edirdi.

SSRİ-nin nə qədər yerində olmuşdum, hansısa səfərdən qayıdanda ata-anamın üzündə nigarançılıq nişanələri görməmişdim. Səksəkəni, qorxunu yaradan sabitliyin pozulması imiş. İki ilə yaxındır Azərbaycandan kənara çıxa bilmirəm. Hara gedəsən?! Qatar təhlükə, təyyarə təhlükə, gəmi təhlükə. Hər addımda elə bil cəbhədəsən.

Bayıra çıxıram ki, həyətdə gəzişəm. Atam fikrimin dağınıq olduğunu hiss edir, əlini çiynimə qoyub deyir:

– Bitmiş hadisələr haqqında ağıllı mülahizələr yürütmək asandır. Amma sonu görünməyən proseslərin içindəyik. Özünü çox üzmə! Bacardığını eləsən, yenə böyük şeydir.

Atamın idarəetmə işindən başı çıxır, güc, həvəs, enerji ehtiyatından mənə ötürmək, oğlunu şar kimi üfürüb doldurmaq istəyir.

Qardaşım Qara yeni il bayramına evimizə gələsi olmur.

Bakıya qayıdıram.

Yanvarın başlanğıcı yenə qara gəlir. Xəbər yayılır ki, Krasnovodskdan Bakıya gələn dəniz bərəsi partladılıb, çoxlu sayda ölənlər, yaralananlar var. Yenə qəzəblər alovlanır. Elə bil şeytanlar bizi rahat buraxmırlar. Azacıq sakitlik yaranan kimi yeni bir hoqqa uydururlar. Yeni təxribat növləri axtarıb tapırlar, faciə menyumuzu tez-tez dəyişirlər. Bəd xəbərlərimizi rəngarəng, maraqlı, gözlənilməz etməyə çalışırlar. Bizim üçün bu günə qədər qatar, avtobus, vertolyot partlatmışdılar, bircə gəmi, yaxud bərə qalmışdı. Gözümü açandan Xəzərdə gəmimiz batmamışdı.

Qatarda, avtomobildə, vertolyotda partladılanın heç olmasa bir tikəsi, para tikəsi tapılır, gəmidə partladılanları kimdir axtaran? Qatillər quruda cəhənnəmə vasil etdiklərinin dalınca "Külünü havaya sovurdum!" deyirlərsə, suda batırdıqlarının arxasınca, "Cəsədlərini balıqlara yem etdim!" cümləsini firladırlar. Görünür, qatil üçün də həmişə eyni cəzanı vermək yorucudur.

İki gün keçmiş anamın zəngi məni təzədən həmin qara xəbərə qaytarır.

O, təəssüflə bildirir ki, Fərəhin atası da Xəzərdə partladılan bərədə olub, bu gün üçünü veriblər.

Sonra deyir:

– Gedib Əminə müəlliməyə, Fərəhə başsağlığı verdim. Ona lap ürəyim yandı. Yazıq qız ayaq üstə quruyub qurtarıb.

İlahi, niyə bu qıza urcah oldum? Hey istəyirəm, ondan uzaq gəzim, ancaq baş verən faciələr sanki məcburi şəkildə məni ona, onu mənə tərəf dartır. Özümü yaxşı tanıyıram, Fərəhin faciəsinə şərik çıxmaqdan ötrü mütləq zəng edib, ona təsəlli verəcəyəm. Bilirəm, o da mütləq məni görmək istəyəcək, bəhanə gətirə bilməyib çağırışına gedəcəyəm. Elə bilirəm ki, Fərəh bizə, tutaq ki, biri elə mənim özümə gələn bəlaların qarşısına sipər çəkib. Necə olur, ölkədə qarışıqlıq yaranandan üzü bəri bu qıza üç dəfə zərbə dəyib. Zalım qızının adı taleyinə heç uyğun gəlmir.

Hesablayıram, atasının yeddisi çıxıb, evdə olar, axşam Fərəhə zəng vururam. Ancaq telefon susur. Yalnız qırxdan sonra ona dü-

şürəm. Anam düz deyirmiş, Fərəh o Fərəh deyil, səsi elə bil quyunun dibindən gəlir.

Fərəh danışdıqca dirilir, səsi gümrahlaşır.

Təsəllilərdən sanki yorulub. Nəsə məndən ayrı sözlər eşitmək istədiyini duyuram.

Dilim açılır:

– Səni görmək istəyirəm, Fərəh!

Sevincək olur:

– Sənsiz elə darıxmışam ki... Anamın xoşuna gəlmisən. O gün taksi ilə Bakıdan gedəndə yol boyu gözü səndə olub.

Ertəsi gün axşam Fərəhin yanına gedirəm. Yanaqları alışıb yanır. Başını sinəmə qoyub deyir:

– Daha səndən başqa güvənəcəyim kimsə yoxdur! Sənə aid olan hisslərimin adını tapmıram. Sevginə layiqəmmi? Bilmirəm! Amma yanında çox rahat oluram, özümü arxayın hiss edirəm. Belimi bərk-bərk qucaqla! Saatlarla köksünə sığınıb qalaram. Sənə ehtiyacım elə çoxdur ki... Məni tək qoyma!

Son cümləsindən diksinirəm. Axı, mənim də içimdə tənhalıq hissi günü-gündən güclənir. Qorxulara, həyəcanlara, qeyri-müəyyənliklərə qarşı təkbaşına çıxmaq çox çətindir.

Fərəhi möhkəm-möhkəm özümə sıxıram. Az qalır birləşib bir adam olaq. Saçının tağından öpürəm.

Gecə Fərəh məni getməyə qoymur, təkid etsəm, özümü naza qoysam, yalvarmağa hazırdır. Bir anlıq xəyalımda özümü Fərəhin yatağında görürəm. Görürəm ki, Ayın pəncərədən düşən nazlı işığında uzanmışıq. Doğrudan da, bayaq Fərəhin yanına gələndə Ay işığı göy üzünü bürümüşdü, aydınlıq idi.

Fərəh gəlib qonaq otağının divanını mənə açdırır. Divanın sandığından nazik yorğan-döşək çıxardıb yataq düzəldir. Ürəyimdə sevinirəm ki, beşcə dəqiqə qabaq beynimdən keçənlər düz çıxmır. Xam xəyala düşübmüşəm, məni yatağına çəkmək fikri yox imiş. Bayaqkı düşüncələrimdən utanıram.

Yataq otağına keçib arxasınca qapını örtür. İşığı söndürüb yatağa girirəm. Amma uşaqlıqdan üzü bəri həmişəki kimi, yerimin içində

eşələnməliyəm. Aradan təxminən bir saat keçmiş yataq otağının qapısı açılır, Fərəh tünd gecə köynəyində oğrun-oğrun mənə sarı gəlir. Yaxınlaşıb divanın ucunda özünə yer eləyir. Sakitcə oturub baxır, gözlərim yarıyumulu olduğu üçün elə bilir yatmışam. Əlini yorğanın üstündən ayağıma toxundurur. Yəqin ki, məni yuxudan oyatmaq istəyir. Gözlərimi açıram.

– Niyə yatmırsan, Fərəh?

– Yuxum qaçıb.

– Hara qaçıb yuxun?

– Uzaqlara!

– Tutub gətirim?

– Yox, getmə!

Səsi titrəyir. Özünü sürüşdürüb divanın orta hissəsinə çatır. Əyilsə, üzü üzümə çatacaq. Əlindən tutunca, pırtlaşıq telləri yanaqlarımı dalamağa başlayır.

Birinci Fərəh məni öpür. Öpüşlərinə cavab verirəm. Üstümü açıram ki, Fərəh yanıma uzansın. O, gedən qatara minirmiş kimi qucağıma tullanır və bərk-bərk məndən yapışır, elə bil qollarım vaqon qapısının qulplarıdır.

Fərəh çox qüvvətli imiş. Az qalır məni sıxıb özünə yapışdırsın, dişləyib udsun. Alışıb yanıram, ehtiraslanıram, üstünə çıxmaq istəyəndə birdən "Yox! Yox!" deyib sinəmdən itələyərək özündən aralayır, üzünü yana çevirir. Deyəsən, həddimi aşmışdım. Dinib-danışmağa həvəsim qalmır. İçimdə etdiyim hərəkətlərdən utancaqlıqla peşmançılıq arasında adını dəqiq bilmədiyim bir hiss var. Fərəhlə odlu-odlu öpüşmək ürəyimdən olsa da, son anda özümü idarə edə bilməməyim mənə ar gəlir. Amma bu xəcalətin quyruğunda bir təskinlik də var. Nə yaxşı, aranı açmadıq, yoxsa biabırçılıq olacaqdı.

Az sonra Fərəh sakitcə divandan düşür, bir tükü də tərpənməyən canlı cəsədimin üstünü örtüb, yataq otağına keçir.

Səhər Fərəh işə getməlidir. Üzümdən öpüb məni yuxudan oyadır. Əl-üzümü yuyub mətbəxə keçirəm. Yüngülvari süfrə açıb, qayğanaq

bişirib. Uşağı kimi qayğıma qalır, çiynimə, başıma sığal çəkir, az qalır qonağını özü yedirtsin.

Sağollaşırıq. Məndən sonra evdən çıxacaq. Hər halda qonum-qonşu var, ayıbdır, görən-bilən olar.

Evə qayıdanda qatlanıb qapının dəstəyinə keçirilmiş bir vərəq görürəm. Balaşın xəttini dərhal tanıyıram, vərəqdə üççə söz yazılıb "Gəlmişəm, axşam görüşərik!"

Təəccüblənirəm, nə əcəb həmişəki kimi gecə yuxuma girməyib? Bəlkə başqa yerdə gecələmişəm, ona görə? Bəlkə də elə deyil, indi nə yerindədir ki? Yuxular da pərən-pərən düşüb.

Balaş üçün burnumun ucu göynədi. Bir gün yadımdan çıxmasa da, son illərdə ondan ötrü bu qədər bərk darıxmamışdım. Bilmədim günümə onsuz necə davam edim.

Axşam gec gəldi. Mənimlə elə adi görüşdü ki, sanki dünən ayrılmışdıq. Köhnə yoldaşlarına baş çəkibmiş. Səhərdən axşama qədər Bakıda olması həmişəki coşqunluğunu götürmüşdü. Demə, onu Şəhidlər Xiyabanına da aparıblarmış. Hələ özünə gəlməmişdi. Allah bilir, Bakıda baş verənlər barədə nələr danışmışdılar. Hər halda ortada müxtəlif versiyalar olsa da, ümumi həqiqətlər eyni idi.

Yeyib gəlmişdi, bir az vurmuşdu da. Hələ ona bir az ehtiyatla yanaşırdım. Düzdür, özlüyümdə inanmırdım ki, tezlikdə xarakterini dəyişsin. Amma dənizçilər barədə o qədər qeyri-adi, məzəli şeylər eşitmişdim ki...

Balaşı danışdırmaq istədim:

– Deyirlər dənizçilər quruya çıxan kimi yeyib-içməyə, pul xərcləməyə, kef çəkməyə can atırlar.

Gülümsəyən kimi oldu:

– Dəniz adamı deyiləmmiş. Dənizçilərin deyimidir: "Hər hava dənizçi havasıdır". Mənim öz havam var. Dünyanı görmək istəyirdim. Bu müddət ərzində neçə ölkənin sahilinə çıxdım. Ağ, sarı, qırmızı, qara dərili insanlar gördüm. Anladım ki, yad mühitə alışmaq elə də asan deyil. Adamın vətənində ayağının altı çox möhkəm olurmuş. Arxanda güclü bir təşkilat, bir dövlət qurumu dayanma-

sa, kənarda əl-qol aça bilməzsən, itib-batarsan. Anqola sahillərində bir həmyerlimizə rast gəldim. Saç-saqqal basmış arıq qoca idi. Özü mənə yaxınlaşdı. Son illər adda-budda sahilə yan alan Sovet gəmilərinin dənizçiləri arasında azərbaycanlı axtarırmış. Gördüm bir nəfər düz üstümə gəlir. Biri-birimizə sarılmışdıq. Rus, latış, eston, litvalı olan gəmi yoldaşlarım dayanıb mat-mat bizə baxırdılar. Əsli Mərdəkandan olan bu qoca ilə sahil kafesində oturub yemək yedik, iki şüşə portuqal çaxırı boşaltdıq. Nə işin sahibi olduğunu gizlətmədi, kəşfiyyatçı imiş. Dediyinə görə, yetmişinci illərin ortalarında "KQB" xəttilə bura atılıb. Əvvəllər limanda yaxşı işdə çalışırmış. İndi işi zaydır, özü demişkən, dəvə götü yağlayır. Subaydır, rus arvadı üç il əvvəl onu atıb Kaluqaya qayıdıb. Son illərdə itirib-axtaranı yoxdur, bəlkə də tamam yaddan çıxarıblar. SSRİ Anqolaya yardımı kəssə də, Anqola SSRİ-nin ətəyini hələ əlindən buraxmır. Ümid edir ki, aradakı soyuqluq müvəqqətidir.

Deyirdi, günlərlə üzünü qırxmağa həvəsi olmur. Qocaya baxıb anladım ki, geri qayıtmaq lazımdır. Nə qədər uzaqlaşsan da, gərək vətənlə əlaqən itəcək yerə qədər getməyəsən. Qocanı gəmiyə mindirə bilsəydim, Bakıya gətirərdim. Ancaq gücüm çatan iş deyildi. İnanırsan, sahildən ayrılanda qoca uşaq kimi dalımca ağlayırdı.

Sual verirəm:

– Dediklərini anlamaq üçün Anqolaya qədər getmək lazım idi?

– Bir şeyi də başa düşdüm – cavab verir. – Adam gərək öz vətəninə möhkəm tellərlə bağlansın.

Zarafata keçdim:

– Bundan ötrü neçə metr kəndir lazımdır?

– İndiradan danışmırsan, deyəsən, ondan xəbər yoxdur? – Ehtiyatla soruşur.

– Elə bildim İndiranı unutmusan?

– Ağlı başında olan adam heç nəyi unutmur.

– Onu görmək istərdin?

– İstərdim! Demişdin, uşaq birə-bir mənə oxşayır.

– Hə!

– Uşaqlıq şəkillərimi xatırlayıb körpəni gözümün qabağına gətirirəm,onu gah iməkləyən, gah yeriyən, gah ağlayan, gah gülən görürəm. Hərdən şəklim kimi gözlərini qırpmadan mənə baxır.

– Yaxşı, kövrəlmə! Ağlaşma quracaqsansa, dəsmal gətirim.Təzəlikcə iri hamam məhrəbası almışam.

– De, görüm, mənə yoldaşlıq edə bilərsən?

– Nədə?

– Bəlkə gedək Terekə, İndiragilə, oğlumu görməyə.

– Nə deyirəm?!

Dostum təəccüblə mənə baxır. Deyəsən, qərarımı tez verirəm. Ona görə də hər ikimiz bir qədər susuruq. Sonra dediyimin fərqinə varıb birinci mən danışıram:

– Yollar qorxuludur.

– Bilirəm, – cavab verir.

– Başımıza bir iş gəlməz ki?

– Nə bilim, bəlkə də gələr. Taledən qaçmaq olmur. Başa bəla gələndə elə hər yerdə gəlir. Beynimə dolub ki, uşağı görüb arxayınlaşmasam, əlim heç bir işə yatmayacaq.

– Neçə günlüyə gedək?

– Bir gün o yana, bir gün bu yana, iki-üç gün də orda qalarıq, bəsdir. Sən də havanı dəyişərsən.

Səhər ayrılırıq. Tamam gərginəm, sıxılmışam, elə bil gücüm tükənib. Harasa getsəm, bəlkə dəyişərəm, təzələnərəm. O, biri tərəfdən də düşünürəm ki, getsəm, sanki kələfin ucunu itirəcəyəm, baş verən hadisələr arasında əlaqə qırılacaq, çaş-baş qalacağam. Guya mənsiz Bakının işi keçməz.

Ertəsi gün xəbər çıxır ki, ermənilər Xankəndinin böyründəki Kərkicahan kəndini ələ keçiriblər. Şuşa dayanmadan raket atəşinə tutulur.

Bizim ailədə yenə hamı biri-birinə dəyir. Axı, Qara Kərkicahandakı posta çıxırdı. Yazıq anam telefonda mənimlə güclə danışır. Atamın da səsində narahatçılıq duyulur. Düşünürəm, bəlkə məlumat almaq üçün Daxili İşlər Nazirliyinin qəbul otağına gedim? Görəsən, nəsə öyrənə bilərəmmi? Atam anamdan və məndən təmkinli çıxır,

bir-iki gün gözləməyə üstünlük verir. "Nə olubsa, olub! – deyir, – özümüzü ağır-yüngül etməyin heç bir mənası yoxdur".

Başqa bir xəbər fikrimizi azdırır. Həmin gün Naxçıvanda Kərki kəndi də işğal olunur. Naxçıvan Muxtar Respublikasının rəhbəri Afiyəddin Cəlilov Rusiyanın müdafiə naziri Pavel Qraçova şikayətlənəndə əzvay cavab eşidir:

– Bütün Şərqi Avropa, Almaniya Demokratik Respublikası, Əfqanıstan, Yaxın Şərq əlimizdən gedib, siz də qoz boyda Kərki hayındasınız.

Hadisələrin istisi yavaş-yavaş Balaşı da qarsıdır. Terekə getmək fikrindən daşınıb. Əksinə, İndiranı mən ona xatırladıram. Başını qaşıyır. Hiss edirəm ki, sadəcə dağınıq fikirlərini bir yerə yığmaq üçündür bu.

Handan-hana dillənir:

– Terek durub, biz durmuşuq, səfəri sonraya saxlayaq!

İki gün sonra Qara Şuşadan zəng edərək bir-iki kəlmə danışıb səsini anama eşitdirir. Atam evdə yox imiş. Anam həyəcandan qardaşımı danışdıra bilməyib, vəziyyət barədə heç nə öyrənməyib.

Balaş hər gün günortaya qədər çarpayıdan düşmür. Onu tanımayan düşünər ki, illərin yorğunluğunu canından çıxartmaq istəyir. Amma mən bilirəm: dostum çox vaxt gözlərini yumsa da, yatmır, düşünür.

Bakıda yenə ara qarışır. Ötən ay Müdafiə naziri təyin olunmuş Tacəddin Mehdiyevin şəxsən rəhbərlik etdiyi batalyon Şuşanın Daşaltı kəndində ilk döyüş əməliyyatı keçirərkən pusquya düşür. Neçə-neçə döyüşçümüz düşmən gülləsinə tuş olur. Hamı "Daşaltı əməliyyatı"ndan danışır, günahı hərbi nazirdə görür. Mitinqdə Tacəddin Mehdiyevin istefası tələb olunur.

Fevralın ilk günündə qəfildən xəbər çıxır ki, son dörd ildə Bakıda baş verən hadisələrin ən fəal iştirakçılarından biri, şair Xəlil Rzanın oğlu Təbriz Xəlilbəyli Ağdamda döyüş zamanı şəhid olub. Bu xəbər də Bakını silkələyir. Xəlil Rzanın məşhurluğu qara xəbərin acısını min qat artırır.

Balaşla Təbriz Xəlilbəylinin dəfn karvanına qoşulub Şəhidlər Xiyabanına gəlirik. Yan-yörəmdə yaxından-uzaqdan tanıdığım nə qədər adam var. Cənazə torpağa tapşırılandan sonra qəbirüstü mitinq başlanır. Xəlil Rza həmişəki kimi məğrur və yenilməzdir. Sanki oğlunun qəfil ölümü onu zərrə qədər də sarsıtmayıb. Həyatımda ilk dəfədir ki, oğlunu indicə dəfn etmiş atanı belə başıuca, belə qürurlu görürəm... Nitq söyləyir. Yenə də alovludur, üsyan saçır. Havada gözlərindən çıxan qığılcımları görürəm. Bu qarabasmadır, yoxsa həqiqət?!

Xəlil Rza üzünü gəlininə tutub təntənəli şəkildə deyir:

– Mən şəhid oğlum Təbrizin yastıq yoldaşı Sevinc xanımı təbrik edirəm! Onun Təbrizi vətənin müqəddəs torpağı uğrunda can verdi. Bu, pak, müqəddəs ölümdür! Eşq olsun belə ölümə!

Bakı mitinqlərinin bir nömrəli natiqi Etibar Məmmədov söz alır. Gur səsi, cəzbedici danışıq tempi tanışdır, mitinqlərdə dediklərini təkrar edir. Amma çıxışının sonunu fərqli bitirir:

– Biz ölənin dalınca “Allah rəhmət eləsin!” deyirik. Ancaq nə qədər ki, Qarabağ düşmənlərdən təmizlənməyib, Allah şəhidlərimizə rəhmət eləməyəcək! Vətənimiz azad olunmayınca şəhidlərimiz qəbirlərində rahat yatmayacaqlar.

Şəhidlər Xiyabanından çıxırıq. Qəbirüstü mitinq Balaşa möhkəm təsir edib, səsi çıxmır. Günümüz susqun keçir.

Qarabağda düşmən azğınlaşıb, dinc əhaliyə qarşı terror əməliyyatları amansızlaşır. Ağdam-Şuşa marşrutu ilə uçan sərnişin vertolyotu Xankəndidən atılan raketlə vurulub, qırxdan artıq adam yanıb külə dönüb. Biri-birinin dalınca Şuşa ətrafındakı Sırxavənd, Malıbəyli, Quşçular kəndləri işğal olunur.

Əslində bu, müharibə deyil, vəhşicəsinə, quldurcasına aparılan etnik təmizləmə əməliyyatıdır. Haqqında oxuduğumuz, tarixcə bizə yaxın olan, yaşlı nəsillərin gördüyü İkinci Dünya müharibəsində almanlar işğal etdikləri nəhəng ərazilərin müqavimət göstərməyən dinc əhalisinə toxunmayıblar. Amma Qarabağda vəziyyət tamam başqadır. Türksənsə, ya doğma kəndindən qaçmalısan, ya da öldürülməlisən.

Bakıda mitinqlər davam edir. Prezident xalqı sakitləşdirmək üçün fəaliyyətinin "qırxı" təzə çıxmış müdafiə nazirini istefaya göndərir. Müdafiə nazirliyi başsız qalır.

Növbəti mitinqdən birgə çıxarkən Balaş deyir:

– Səfərbərlik elan edilsəydi, müharibəyə gedərdik. Əsgərlikdə tankçı olmuşam.

– Üç ay. Sonra keçmisən kaptyorkaya.

– Noolsun? Yenə tank hərləyə bilərəm.

– Müharibəni təşkil etmək dövlət üçün asandır?

– Əlbəttə, çətindir!

– Bilirsən, Prezident Ayaz Mütəllibov onu müharibəyə təhrik edən ətrafındakılara nə deyib?

– Nə deyib?

– Deyib ki, rus ordusunun qabağına çıxa bilmərəm! (*Az sonra Prezident Şuşaya "Qrad" gətirdən şəhərin hərbi komendantı Rəhim Qazıyevə telefonda qışqıracaqdı: Nə aranı qızışdırırsan, elə bilirsən ermənilər "Qrad" tapa bilməyəcək?!*)

– Biz kiminlə vuruşuruq?

– Üzdə Ermənistanla, amma əslində... Bir anlıq dərindən düşünsək, Ermənistanda da hökumət zəifdir, bizdə də, onlarda da hərbi nazirlik təzə qurulub, bizdə də, onlarda da iqtisadi tənəzzüldür, bizdə də, onların cavanları da bir tikə çörək dalınca Rusiyaya qaçır, bizim cavanlar da, onlarda da mağazalar boşalıb, bizdə də. Biz Azadlıq meydanında mitinq eləyirik, onlar Teatr meydanında. Təşkilatçılıq sıfır, qoşun yox, silah yox... Hər gün tərəfləri münaqişəyə cəlb etməkdən ötrü nələr düşünüb tapmırlar?! Heç beynəlxalq təşkilatlar da siyasi maraqlar ucbatından səbəbkarın adını tutmur.

– Sən indi dediklərini sabah "Azadlıq" meydanının tribunasında təkrar edə bilərsən?

– Yox!

– Niyə? Qorxursan?

– Qorxmuram! Rəsmi şəxs deyiləm ki, desinlər dövlət adından danışır.

– Bəs niyə?

– Bu sözləri tribunadan desəm, məni fitə basarlar. Çünki ermənilərlə bizim döyüşümüz qladiator döyüşüdür. Böyük dövlətlərin siyasəti, marağı, həzzi üçün arenaya çıxarılmışıq. Səncə, qladiator silahı əlindən atıb qaça bilərmi? Biz də, ermənilər də vuruşmağa məhkum edilmişik. Onlar da, biz də öldürülməmək üçün öldürməliyik. Başqaları üçün vuruşsaq da, qalib gəlmək istəyirik. Necə ki, qladiator rəqibindən canını qurtarmaq üçün son nəfəsinə qədər vuruşur. Ən pisi odur ki, münaqişə bizim Qarabağda gedir.

– Ermənilərin də beyninə yeridiblər ki, dava onların ərazisindədir.

Balaş mövzunu dəyişir:

– Hadisələri izləyirsən, bu ATƏM nə olan şeydir?

– ATƏM-in açması – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsidir. Keçən həftə vəziyyəti öyrənmək üçün nümayəndə heyəti göndərmişdilər. Onlar Bakıda, Yerevanda, Xankəndidə oldular. Birinci təşkilatdır ki, Avropadan buralara gəlir.

– Səncə,yaxşılığa doğru nəsə dəyişə biləcəklər?

– Bilmirəm!

– Bəs nəyi bilirsən? – zarafata keçir.

– Bir rəvayət var, deyirlər ki, şahın baş vəzirini vəzirlərin gözü götürmürmüş. Çünki baş vəzir müdrik olduğuna görə şah onu çox sevirmiş. Günlərin bir günü saraya uzaq ölkədən bax, ATƏM nümayəndələri kimi, bir dəstə elçi gəlir. Söhbət vaxtı elçilər deyir, padşahımız bizi ölkə-ölkə gəzdirir, elə bir müdrik adam axtarırıq ki, desin görək, dünyanın axırı necə olacaq?

Baş vəzir o biri vəzirlərin susub onun ağzına baxdıqlarını görüb dillənir:

– Şah sağ olsun, sualın cavabını bilmirəm. Allah bilən məsləhətdir.

Qonaqlar yaddan çıxır, vəzirlər fürsətin yetişdiyini düşünüb yer-yerdən baş vəzirdən soruşurlar:

– Sarayda ən yüksək məvacib alan sənsən. Bəs niyə sualın cavabını bilmirsən?!

Baş vəzir ah çəkir:

– Mən bildiklərimə görə məvacib alıram. Bilmədiklərimə görə maaş versəydilər, şahımızın xəzinəsi də buna çatmazdı.

– Sənə heç bildiklərinə görə də bir şey vermirlər! - dostum məni lağa qoyur.
– Mən baş vəzir deyiləm – Balaşın sözündən incimirəm.
– Baş vəzir olsaydın, neylərdin?
– Şahı inandırardım ki, tamah dişini çıxartdırmamış sənə heç bir vəzifə verməsin.
Balaş siqaretini alışdırıb dərin bir qullab vurur:
– Neçə gündü eynim açılmırdı. Səninlə birinci zarafatımızı elədik indi.
– Zarafat eləmirəm.
– Amma mən bir zarafat eləyim, qurtaraq!
– Elə!
– İstəyirəm Xalq Cəbhəsinə qoşulum.
– Qoşul də!
– Deyirdin, Əbülfəz Elçibəy sənin tanışındır. Məni onun yanına apar!
– Elçibəylə tanış olmaq elə də çətin bir iş deyil, çox sadə adamdır. Get qərargahlarına, tanışlıq ver.
– Bəs deyirlər, yan-yörəsindəkilər hər adamı yaxın buraxmırlar.
– Bəyəm hər adam Bakıdan vurub Afrikadan çıxa bilər?! Xalq Cəbhəsinin İdarə heyəti, rayon şöbələri az qala hər gün yığıncaq keçirirlər. Üç-dörd iclasa getsən, işin içinə girəcəksən.
“9 Yanvar” bağındakı kafeyə gəlirik. Hər stolun başında qızğın söhbət gedir. Yüngül mübahisə edənlər də var. Dövlət İncəsənət İnstitutu və onun Tədris teatrı, Rus Dram teatrı, Aktyorlar Evi həndəvərdə olduğu üçün buralarda aktyorlara tez-tez rast gələrsən.
Elə qabağımıza təzəcə sosiska, göy-göyərti, mineral su qoyulmuşdu ki, aktyor Fazil Salayevə birəbir bənzəyən birisi qapıdan içəri girdi. Məşhur aktyor neçə illər qabaq ölməsəydi, deyərdim ki, bu, odur. Oturanları xeyli gözdən keçirtdi. Deyəsən, tanış adam tapa bilmədi. Başına beret qoymuş, əyninə yekə palto geyinmiş bu adam yanımızda boş stul görüb, bizim stola sarı gəldi. Yaxınlaşıb əvvəl məndən, sonra Balaşdan soruşdu:
– Boşdu?

Mızıldandım:
– Boşdur. Əyləşin!
Qonağın gözləri güldü, böyrümdə oturdu, guya məni tanıyırdı:
– Canik, sənsən?
– Mənəm, Canik! – deyə cavab verdim.
Fazil Salayevin bütün sənət yoldaşlarını “Canik” deyə çağırdığını, onların da buna “Canik” ayaması qoşduğunu çoxdan bilirdim.
Adam yerini rahatlayandan sonra soruşdum:
– Siz mərhum Fazil Salayevin qohumusunuz?
Cavab qısa oldu:
– Sonra deyərəm. Mənim də adım Fazildir.
Diksindim. Sanki qarşımızda oturan Fazil Salayevin özü idi. İstedadlı aktyorun söhbətlərini, deyimlərini çox eşitdiyimə görə qımışdım:
– Canik, nə var, nə yox?
Fazilin mətləbə keçməsi üçün əlverişli sual vermişdim. Həvəslə dilləndi:
– “Zakuska” var, araq yox!
Adam tanımaqda mahir olan Balaş xidmətçini səslədi:
– Bir araq gətir, bir pors da sosiska!
Araq adı eşidən qonaq yerində dingildədi:
– Canik, sosiska lazım deyil, “zakuska” var. Məndəki alayı şeydür e!
Cavab gözləmədən bakılı ləhcəsində “ayrı cür” mənasını verən “alayı şey” dediyi mətahı nimdaş paltosunun yan cibindən çıxardıb süfrəyə qoydu. Bu, nazik sellofan torbaya bükülmüş bir ədəd badımcan tutması idi. Qonağımız badımcanı boşqabda bıçaqla üç bərabər hissəyə böldü.
Biz birinci yüzü atandan sonra Balaş tutmanın dadına baxıb şövqlə dilləndi:
– Çoxdandır badımcan tutması yemirdim.
Fazil uşaq həvəsi ilə soruşdu:
– Nöşün, Canik?!
Balaş:

– Afrikaya gedib çıxmışdım...

Fazil, eynən Fazil Salayev kimi qıyğacı baxdı:

– Qədeş canı, çağırseydün hər qoltuğumda bir balon badımcan tutması, dəvəyə oxşayan buludların belinə minib gələrdim ora. Heç zəncilərlə vurmamışam.

Dostum canlanır, elə bil qonaqla min ilin tanışıdır.

Mən də, "Canik" də araqdan sonra şoraba payımızı məzə kimi içəri ötürürük.

Balaş ikiyüzqramlıq çapma stəkanlara araq süzəndə Fazil dağ başından axan şəlaləyə tamaşa edirmiş kimi butulkadan tökülən "cənnət suyu"na baxır, yumşaqca deyir:

– Canik, araqları bərabər süz! – Ani pauza verib əlavə edir, – demirəm e, mənə artıq düşsün? Yox! Araq bərabər süzülməyəndə haram olur.

Sonra cibindən nazik sellofan torbaya bükülmüş dörd ədəd alça tutması çıxardıb süfrəyə qoyur.

Fazilin sosiska payı gəlir.

Balaşdan soruşur:

– Canik, Afrikada alça olur?

Sual Balaşı hövlləndirir:

– Azərbaycandan olmaz, Canik! – deyə badəsini əlinə götürür, sağlıq deyir – Gəlin içək Azərbaycanımızın sağlığına!

Beynimdən keçir ki, Azərbaycanın sağlığına içmək də son illərdə dəbə minib, bütün yemək-içmək məclislərində səslənir. Qabaqlar belə sağlıq yada düşməzdi. Bu, insanlarda vətənpərvərlik cosqusundan irəli gəlirdi yəqin.

Badələrimizi başımıza çəkib, alçaların axırına çıxırıq.

İçki şüşəsinin dibi görününcə, süfrəyə yeni araq gətirdirik. Növbəti badəni içməyə hazırlaşanda "Canik" yenə möcüzə göstərdi. Süfrəyə qoyduğu torbadakı tutmanın nə olduğunu ayırd edə bilmədik. Bir qom gömgöy saplaqlar idi.

Balaş saplaqlardan birini götürüb soruşdu:

– Bu nədir, Canik?

– Aləm şeydü, çaşırdu, Naxçıvandan pay gəlib.

Badələri boşaldıb çaşır çeynədik.

Balaş Fazilin stol arxasından görünən hissəsinə göz gəzdirib soruşdu:

– Ciblərin şoraba anbarıdır?

"Canik" qaşlarını yuxarı dartıb beretinə işarə edərək dilləndi:

– Təkcə cibim yox, beretim də.

– Beretində də nəsə var? – bu dəfə sualı mən verdim.

– Var, Canik, var!

Düşündüm, yəqin Fazil Salayevin əkizi hesab etdiyim adam əynindəki gen, uzun paltarları ciblərində daşıdığı şeylərə görə geyinir. Hətta başındakı beret də mənə böyük göründü. Fikrimin düzgünlüyünü yoxlamaqdan ötrü soruşdum:

– Paltarların əynindən tökülür, paltonun, pencəyin, beretin yekəsini niyə alırsan? Ölçünü bilmirsən?

"Canik" bəlkə də heç kəsdə olmayan qəribə iri ala gözləri, kədərli təbəssümü ilə fərqli cavab verir:

– Nöş seçə bilmirəm, quşbala-zad döyüləm ki?... Ancaq bahasına bir ətək pul verirəm, qoy elə böyügünü alım də. Paltarım gen olmayanda canım sıxılır.

Bu vaxt radioda müxbir işləyən tanışım Abbas qapıda göründü. Onu səslədim, yanımıza gəldi. Fikri dağınıq, özü qaşqabaqlı idi. Stulu çəkib oturdu.

Yemək təklif ediləndə Abbas dedi:

– Siz nuş edin, mən bir stəkan çay içəcəyəm. Kəndçimə bu kafedə görüş vermişəm.

– Qanın niyə qaradır? – soruşdum.

Dilləndi:

– Kefinizə soğan doğramaq istəmirəm. Amma özümü də ələ ala bilmirəm.

– Noolub, axı?

– Nolacaq? Qaradağlıda yenə vəziyyət ağırlaşıb, dörd tərəf erməni kəndidir, mühasirə vəziyyətindəyik. Bir həftə bundan qabaq evimizə getmişdim, hər gün qan tökülür.

Stolumuzda ovqat dəyişir.

Fazili bilmirəm, amma Balaşla mən yüngül sərxoşluqdan tamam ayılırıq, elə bil dilimizə araq dəyməyib.

Bir gözü yarımçıq araq şüşəsində qalan “Canik” yerində narahat-narahat qurcalanır. Başqa adamın yaxasından yapışır kimi paltosunun yaxalığından tutub öz-özünə deyir:

– Gör necə zəmanə gəldi?! Qabaqlar içib sərxoş olardın, indi içib daha da ayılırsan.

Balaş hər cür adamla oturub-durduğu üçün peşəkar hərəkət edir, yarımçıq araq şüşəsini ərklə qonağın paltosunun yan cibinə dürtüb deyir:

– Fazil müəllim, siz narahat olub bizi gözləməyin, qardaşla söhbətimiz uzun çəkəcək. – Sonra çayçıya uzaqdan sifariş verir: – Bizə bir çaynik çay gətir!

Fazil gedəndə dilim dinc durmur, bir də soruşuram:

– Demədiniz aktyor Fazil Salayevin nəyisiniz?

“Sonra deyərəm, sonra... Bəlkə də, onun özüyəm, ölməmişdim, on dörd illik paxmeldən (*xumarlıqdan*) ayılıb gəlmişdim” deyib arxasınca qapını örtür.

Üçümüz də təəccüblə biri-birimizə baxdıq, indi hər cür dəliyə rast gəlmək olurdu.

Abbas dərdini danışmağa başlayır:

– Bilmirsən, dərdini kimə deyəsən? Daha Ayaz Mütəllibovdan yuxarısı yoxdur ki? İki ay əvvəl kəndin ağsaqqalları ilə bərabər atam da onun qəbulunda olmuşdu. Ali Sovetin sədri Elmira Qafarova da orda imiş. Atamgil səksən səkkizinci ildə Stepanakertdə “Miatsum”(*ermənicə – birləşmə*) mitinqindən sonra kəndimizin başına gətirilən müsibətləri bir-bir Prezidentə, Ali Sovetin sədrinə danışıblar. Hətta ötən il Prezident seçkisi keçirilən gün Ağdamdan qayıdan Qaradağlı avtobusunun gülləyə tutulduğunu, avtobusdakı qırx adamdan səkkizinin öldürüldüyünü, iyirmidən çox adamın ağır yaralandığını yada salıblar. Prezident də deyib ki, bu gündən Qaradağlı oldu mənim kəndim, müdafiəsi ilə şəxsən özüm məşğul olacağam. Doğrudan da, atamgil kəndə qayıdanda görüblər ki, xüsusi təyinatlı dəstədən olan on bir nəfər pəhləvan kimi hərbçimiz kəndimizdə

yerləşdirilib. Hərbçilər Qaradağlıda olduğu bir ay müddətində heç kəsin burnu qanamadı. Onlar yerli özünümüdafiə dəstələri ilə birgə kəndimizi çox peşəkarlıqla qoruyurdular, kənardan bir güllə açılan kimi atəş nöqtəsini susdururdular. Ancaq Gədəbəyin Başkəndində ara qarışanda həmin on bir nəfəri oraya göndərdilər. Yenə kəndimizin qara günləri başladı.

Qonağımız soyumuş çay stəkanını ağzına aparır. Sanki qarşımızdakı çayları indi görürük. Soyuq çaydan qurtumlaya-qurtumlaya fikrim uzaqlara getdi. Düşündüm ki, indi Abbas öz kəndləri haqqında yanıqlı-yanıqlı danışır, axı Qarabağın hər nöqtəsində bu saat böyük gərginlikdir. Səksən səkkizinci ilin əvvəllərində Qarabağda əvvəl daş davası başladı, yoldan keçən maşınları öyrədilmiş uşaqlar, cavanlar daşa basırdı. Sonra hər iki tərəfdən ov tüfəngləri işə düşdü, ilk qurbanlar verildi. Moskvadan göstəriş gəldi, Qarabağda evlərdən ov silahlarını yığdılar. Sovet Ordusunun hərbi hissələrindəki zabitlər Stepanakertdə ermənilərə, Gəncədə bizimkilərə avtomat silahlar, qumbaralar satmağa başladı, postlarda "Alazan" topları qoyuldu. Səksən səkkizinci ildə ermənilər tribunalardan bar-bar bağırıb, Dağlıq Qarabağın iqtisadi cəhətdən geri qaldığını aləmə car çəkirdilər. Mixail Qorbaçovun Azərbaycan və Ermənistan ziyalılarının iştirakı ilə Dağlıq Qarabağ məsələsinin müzakirə edilməsi, bunun iki xalqın arasının daha da qızışdırılması üçün mərkəzi televiziyanın efirinə çıxarılması hökumətimizi tərpətdi. Dağlıq Qarabağda quruculuq işləri başladı. Uzun illər unudulmuş Azərbaycan kəndlərində məktəblər, xəstəxanalar, uşaq bağçaları, mağazalar, kənd sakinləri üçün evlər tikildi, ayrıca "Qayğı" qəsəbəsi salındı, yollar çəkildi. Arkadi Volskidən sonra Dağlıq Qarabağı idarə edən "Respublika Təşkilat Komitəsi"nin sədri, dağda, bağda təkbaşına bir erkəyin kababını yeyib üstündən sərin su içən iri gövdəli, qollu-budaqlı Viktor Polyaniçko deyirmiş ki, illər boyu kilometrlərlə əlinizdən gedən torpaqları santimetr-santimetr geri qaytarıram. Amma söz var, deyirlər, neynirəm o qızıl teşti, içinə qan qusum. Azərbaycan hökuməti Qarabağda əhalini şirnikdirmək hesabına yerində saxlamaq istəyirdi. Bakıdan rayon icra hakimiyyətləri, ayrı-ayrı iri təşkilatlar Dağlıq

Qarabağdakı şəhərləri, qəsəbələri, kəndləri hamiliyə götürüb vaxtaşırı oralara tikinti materiallarından tutmuş ərzağa qədər dolu-dolu maşınlar göndərirdilər. Viktor Polyaniçko əmrlər, tapşırıqlar verməkdən başqa hissləri coşdurmaq işinə də baxırdı. Kənd müəllimlərindən biri ona sual verəndə ki, nə səbəbə Moskva tərəfkeşlik edib ermənilərin dalında durur, niyə quldurlar başımıza od yağdırırlar? Viktor Polyaniçkonun cavabı belə olub:

– Ermənilər paylarını alacaq. Müəllim, ermənidən qorxuruq?! Biz ne kişi? (*Kişi deyilik?*)

Abbas dərindən ah çəkib deyir:

– Belə getsə, Qaradağlı da Kərkicahanın gününə düşəcək. Deyirlər bu gün-sabah hücum gözlənilir. Kömək getməsə, kəndi əldə saxlamaq mümkün olmayacaq. Bizimkilərdən kəşfiyyata gedib görən olub, onların bir neçə tankı var.

Bu vaxt Abbasın yaşlı kəndçisi gəlir. Məlum olur ki, Ayaz Mütəllibovun qəbuluna düşmək istəyir. Gündüz Prezidentin işi çox olduğu üçün axşam onunla görüşmək ümidindədir.

Qarşı-qarşıya çay içdiyimiz adamları tək qoymuruq, bərabər metroya minib, “Bakı Soveti” stansiyasından çıxırıq. Prezident Aparatının binasına yollanırıq. Qəbul otağına girən ağsaqqal heç iyirmi dəqiqə keçməmiş qayıdıb gəlir. Deyir ki, bir məsul işçi onun yanında Prezidentin köməkçisi ilə danışıb. Köməkçi bildirib ki, cənab Prezident məsələdən xəbərdardır, tədbirlər görmək üçün bərk məşğuldur. Qəbula ehtiyac yoxdur.

Dağılışırıq. Üç gündən sonra xəbər gəlir ki, Qaradağlı işğal olunub. Demə, biz Prezident Aparatının qarşısında olan vaxt Qaradağlıda qanlı döyüşlər gedirmiş.

Sonralar Az.TV-nin həyətindəki çayxanada Abbas Qaradağlı müsibətlərini mənə bircə-bircə xırdaladı. O, baş verənlər barədə çox dəqiq, statist kimi rəqəmlərlə danışırdı.

İşğalqabağı kəndi yüz iyirmi beş nəfər qoruyurmuş. Bunlardan on dörd nəfəri axır-axırda Ağdamdan göndərilmiş Milli Ordunun əsgəri, qalanları Qaradağlının özündən imiş. Yetmiş nəfər kəndin özünümüdafiə dəstəsinin döyüşçüsü, o cümlədən on yeddi nəfər yaşı

altmışdan yuxarı olan kişi, on üç nəfər məktəbli silahlanıb düşmənin hücumunu gözləyirmişlər. On bir nəfər qadın heç nədən qorxmayıb kənddə qalaraq, ərlərinin, oğlanlarının, qardaşlarının, qohumlarının, qonum-qonşularının xidmətində durublarmış.

İşğaldan bir ay qabaq qaradağlıların Azərbaycan xalqına müraciətini radioda dönə-dönə yayımladan da Abbas imiş. Müraciətdə dörd ildən bəri ardı-arası kəsilməyən özbaşınalıqlara, təzyiqlərə, hücumlara, itkilərə baxmayaraq, düşmən qabağında kəndin duruş gətirməsindən bəhs açılır, erməni quldurlarının doluşduğu Xocavənd və Xankəndi yolunun üstündə yerləşən Qaradağlını böyük təhlükə gözlədiyi barədə haray çəkilirdi.

Qaradağlıya fevralın 15-də başlanan hücumda qonşu erməni kəndlərindən yığılmış döyüşçülər, muzdlular, bir də on gün sonra Xocalı müsibətini törədəcək Xankəndidəki Rusiya Ordusunun 366-cı motoatıcı alayının zabit və əsgərləri iştirak edirmiş.

Düşmənin əlinin altında tanklar, hərbi döyüş maşınları olmasaymış əvvəlki döyüşlərdə olduğu kimi, müdafiəni qurmaq mümkün idi. Amma 1988-ci ildən necə Sovet Ordusunun hissələri Ermənistandan soydaşlarımızı silah qabağına qatıb, Azərbaycana qovmuşdularsa, Qarabağda da ermənin arxasında dayanıb onu döyüşlərdən qalib çıxardırdı. Bizimkilər iki döyüş maşınını partlatsa da, müxtəlif millətlərdən olan ağ, sarı, qara rəngli on bir muzdlunu zərərsizləşdirsə də, kənd işğal olunur. Ölən ölür, əsir alınan əsir alınır.

Abbas yaxın tanışım olmasaydı, Qaradağlı müsibətindən geniş xəbər tutmazdım. Çünki bu barədə bir cümləlik rəsmi məlumat verildi, Qaradağlı boşaldılmışdır, vəssəlam.

Balaş artıq cəbhəçilərə qoşulmaq üzrədir. Tez-tez Azərbaycan Xalq Cəbhəsinin mərkəzi qərargahına gedib-gəlir, onların tədbirlərində iştirak edir. Cəbhəçilərlə çayxanalarda saatlarla oturur, tanışlarının sayını artırır. Yerində dura bilməyən, həmişə bir ayağı qaçaq olan bu adamı Bakıda saxlayan, bəlkə paytaxtımızın gərgin, qaynar həyatıdır. Amma dostum hərif adam deyil, tükü-tükdən seçəndir. Adam tanıyan olduğuna görə qısa tanışlıqdan sonra görüşdüyü adamların xarakterini, bacarığını ayırd edə bilir. Heç vaxt reallığı

unudub, hissə qapılmaz. Dəqiq bilirəm ki, getdiyi iclaslarda eşitdiyi emosional çıxışlar onu yerindən oynatmır. Baş verən hadisələrin mahiyyətini, meydanda olan adamların kimliyini, kimə bağlı olduğunu, hansı məzhəbə qulluq etdiyini öyrənmək həvəsindədir. Adamı dişinə vurub yoxlamağına, dəqiq xasiyyətnamə verməyinə söz ola bilməz. Azərbaycan Xalq Cəbhəsinin lideri haqda öz mülahizələri var. Balaşın iki-üç dəfə yeddi-səkkiz nəfər cəbhəçini səhər xaş qonaqlığına aparması onu bəziləri ilə "çaşka-loşka" edib.

Bir gün Balaş gəldi ki, cəbhə uşaqlarından birinin qohumu Yasamalda üç otaqlı mənzil satır, istəyirəm alam. Mərtəbəsi də yaxşıdır. Doqquzmərtəbənin beşinci qatı. Alım atım, qalsın. Bir az əl gəzdirib yaşamaq olar.

Xeyir-duamla dostum dediyini elədi, aparıb aldığı mənzili mənə göstərdi. Deyəsən, həyat eşqi, gələcəyə inamı məndən daha böyük idi, bu vurhavurda sabahını düşünürdü. Şəxsən indi mənim əlimdə iri pul olsaydı, özüm üçün yekə bir şey almaq həvəsinə düşməzdim. Ən azından o pulun yarısını ya hissə-hissə, ya bütöv şəkildə banklarda yardım üçün açılan hesablara köçürdərdim. Necə ki, son illərdə az qazancımdan ehtiyacı olan xəstələr üçün xırda məbləğlər köçürtmüşəm. Bu, mənə rahatlıq gətirirdi.

Səhər köşkdən aldığım qəzetlərin arasından "Azərbaycan"ı götürüb vərəqləyirəm. İkinci səhifədəki xəbəri oxuyuram: "Fevralın 17-də Ağdam şəhərində Azərbaycan Xalq Cəbhəsinin fövqəladə sessiyası keçirilmişdir. Sessiyada AXC İdarə heyətinin üzvü Pənah Hüseynov çıxış edərək ordunun ərzaq təminatı ilə bağlı rayonlarda qərargahların yaradılması, respublikada gələcək qıtlığın, aclığın qarşısının alınması üçün yaz əkinlərinə xüsusi nəzarət edilməsi barədə danışdı, televiziyaya (*Az.TV-yə*) kəskin münasibət bildirdi.

Sonra AXC-nin sədr müavini İsgəndər Həmidov öz çıxışında döyüşdən qaçanların yerindəcə güllələnməsi, növbəti sessiyanın Şuşada və Füzulidə keçirilməsi məsələləri üzərində dayandı.

Mingəçevir İcra hakimiyyətinin başçısı Faiq Baxşəliyev isə döyüş gedən rayonlarda bütün səlahiyyətin AXC-nin rayon şöbələrinə verilməsindən bəhs etdi.

Sessiyada respublikamızın müdafiəsinin təşkili, koalisyon hökumətin yaradılması, ümumi səfərbərliyin aparılması, fərarilərə cəza verilməsi üçün hərbi səhra məhkəmələrinin yaradılması, dövlət sabotajının qarşısının alınması, didərginlərin yerləşdirilməsi, hərbi sirlər barədə informasiya vasitələrində ciddi senzuranın tətbiqi, "Azərinform" rəhbərliyinin tezliklə dəyişdirilməsi, cəbhədə şəxsi məsələlərə baxılmasına qadağa qoyulması, varlı ictimai təşkilatların ləğv edilib hesablarındakı pulların Müdafiə Komitəsinin hesabına köçürülməsi, döyüş gedən rayonlarda xüsusi məntəqələrin təşkili kimi vacib məsələlər müzakirə edilib qərarlar qəbul olundu".

Qırmızı qələmi götürüb – uşaqlıqdan həmişə stolumun üstündə rəngbərəng qələmlər olur – mətni yenidən oxudum, çıxışlarda səslənən hər bir tələbin altından xətt çəkdim. Sanki Azərbaycan dövləti süquta uğrayıb.

AXC dövlətin görməli olduğu işlərin sərəncamçısına çevrilmək sevdasındadır. Qurum üzvləri Prezident Mixail Qorbaçovun istefası ilə SSRİ-nin tamam dağılmasından sonra artıq iflic hökumət qarşısında heç bir tələb qoymur, hərbi səfərbərliyi də, təchizat məsələlərini də, döyüşü də, fərariliyin qarşısının alınması məsuliyyətini də, didərginlərin yerləşdirilməsini də, hərbi vəziyyətin elan edilməsi məsələlərini də öz üzərinə götürmək istəyir, tezliklə koalisyon hökumətin yaradılacağına inanır. Görün, necə vəziyyət yaranıb ki, AXC üzvü, Mingəçevir İcra Hakimiyyətinin başçısı döyüş gedən bölgələrdə bütün idarəetmə səlahiyyətlərinin AXC rayon şöbələrinə verilməsini təklif edir. "Azərinform" rəhbərliyinin dəyişdirilməsi" çağırışı isə Azərbaycan rəhbərliyinin dəyişdirilməsinə işarə verir.

Hər gün, hər saat öz səlahiyyətlərini iri-iri, xırda-xırda, parça-parça əldən verən kəsərsiz hakimiyyətdən mən də yorulmuşam. Allahdan nəsə arzu eləməklə, istəməklə, ona yalvarmaqla ölkə düzələn deyil. Allah başqa üsullarla işləyir, Qarabağ məsələsini bəlkə yüz il götür-qoy edəcək. Bizimsə haqsızlığa hövsələmiz çatmır.

Moskvanın "Независимая газета"sında oxuduqlarım isə məni tam ayıldır: "Rusiya Federasiyası Prezidentinin Müdafiə məsələləri üzrə dövlət müşaviri Konstantin Kobets jurnalistlərə dedi: "Tam

məsuliyyətlə və dəqiqliklə elan etməliyik ki, Rusiyanın öz dövlət maraqları var, biz onu zor işlətməklə olsa da, müdafiə edəcəyik. Ermənistana kömək etmək bizə Zaqafqaziyaya "qayıtmağa" imkan verəcək".

Hə, qardaş – ucadan öz-özümə deyirəm, – görəcəyimiz hələ qabaqdadır. – Və dilimə şair Xəlil Rzanın 1990-cı ildə Moskvanın Lefortovo zindanında yatarkən hər gün səhər yuxudan duranda gündəliyinə yazdığı ilk birsözlük cümlə gəlir: "Qüdrətliyəm!"

Mətbəxdən Balaşın səsi eşidilir:

– Kiminlə danışırsan?

Dərhal cavab verirəm:

– Özümlə!

Xocalının qəfil işğalı ilə Bakıda yenə vəziyyət qarış-bulaş olur. Əslində bu talesiz şəhərin mühasirəsi çoxdan davam edirdi. Amma nəyə görəsə, orda amansız qəddarlıq törədiləcəyinə nə özümüz inanırdıq, nə hökumətimiz. Amerikalılar, ingilislər, başqa Avropa dövlətləri dünyanın hansısa ölkəsində kiçik bir siyasi qarışıqlıq yaranan kimi öz adamlarını təcili geri çağırırlar. Ancaq hökumətimiz ciddi hücumlar, basqınlar getdiyi bir vaxtda dinc əhalini yerindən tərpətmək fikrində deyildi. Qəzetlərdə, mitinq tribunalarında çıxış edənlər, çayxanalara yığışanlar, işdə, evdə, küçədə... hamı danışırdı ki, Xocalı ilə hətta vertolyot əlaqəsi də kəsilib. Azərbaycan hökuməti məsələni Rusiya hərbçiləri vasitəsilə həll etmək istəyirdi. Görünür, dövlət rəhbərini arxayın edib, başını yastığa qoyan vardı.

Xocalıda törədilən vəhşiliklərlə bağlı informasiyalar günü-gündən çoxalır. Ağızdan-ağıza gəzən söhbətlər daha tükürpədicidir. Deyirlər ki, indi də əsir alınmış qızlara, cavan gəlinlərə işgəncə verərək, onları zorlayaraq qışqırıqlarını, bağırtılarını səsgücləndirici vasitəsi ilə ətrafa yayırlar. Müxalifət qəzetləri başı kəsilmiş, qətlə yetiriləndən sonra üzü eybəcərləşdirilmiş qocaların, qadınların, güllələnmiş anaların qucaqlarında don vurub ölmüş uşaqların ürək parçalayan fotoşəkillərini çap edir. Düşmənin bizə gör nə qədər nifrəti varmış? Öldürməklə ürəyi soyumur, hələ bir meyitlərimizdən də qisas alır. Televiziyanın "Xəbərlər" proqramında Xocalı ilə bağlı Ağdamda çə-

kilmiş bir süjet göstərirlər: yük maşını dövrə vurub arxasını kütləyə sarı çevirir və ağlayan, qıyya çəkən, üzünü cırıb saçını yolan arvadlar maşına sarı cumurlar. Maşının banının arxası açılıb üst-üstə yığılmış meyitləri görüncə hönkürtülərin, bağırtıların səsi daha da artır.

Qəhər məni boğur, otura bilmirəm, dura bilmirəm, otaqda vurnuxuram. Üzünü gizlədib, balkonda siqaret sümürən Balaşın yanına gedib deyirəm:

– Balaş, gəl elə indi yola çıxıb gedək Ağdama! Hər şeyi öz gözümüzlə görək.

Balaşın cavabı ötkəm olur:

– Tamaşaya gedirsən? Yəqin ki, televizorda baş verənlərin yüzdən birini göstəriblər. Bir gördüyünü yüzə vur, Xocalı müsibəti alınsın! Hökumət tərpənməsə, xeyri yoxdur. Biqeyrət-biqeyrət faciəyə tamaşa eləməkdənsə, işin içinə girmək lazımdır.

Yenə mitinqlər qızışır, Xocalı faciəsi barədə daha geniş məlumatlar, bilmədiyimiz təfsilatlar açılır. Rusiya Ordusunun 366-cı motoatıcı alayının bir dəstə erməni quldurunu üzünə tutub Xocalıda törətdiyi vəhşilik təkrar-təkrar dilə gətirilir, lənətlənirdi. Prezident Ayaz Mütəllibov daha sərt tənqid edilməkdədir. Çıxış edənlər Prezidentin adını düşmən tərəfin adından daha çox çəkir. Sanki ermənilərin, onların arxasında duranların az günahı var, axıdılan qanların səbəbkarı özümüzük.

Faciədən iki gün sonra Prezident Qarabağdakı silahlı qüvvələrimizin vahid komandanlıqda birləşdirilməsi barədə fərman verir. Rəhbərlik müdafiə nazirinin birinci müavini, general-mayor Dadaş Rzayevə tapşırılır.

Bu arada Praqadan xəbərlər gəlir. ATƏM Ali Ranqlı Rəsmi Şəxslər Komitəsinin görüşünü keçirdib. Yayılan bəyanatda deyilir: “Tərəflər Azərbaycanın Dağlıq Qarabağ regionunda dərhal atəşkəs rejimini tətbiq etmək, daxili, xarici sərhədlərin toxunulmazlığına hörmət etmək, onları yalnız dinc yolla və ümumi razılıqla dəyişdirmək, düşmən təbliğatının bütün növlərindən tam imtina edilməsi də daxil olmaqla, hər cür ərazi iddialarından imtina etmək əzmində olduqlarını bildirməlidirlər”.

Hələ o zamandır ki, bizlər beynəlxalq təşkilatlara çox inanırıq, onların gizlin məqsədlərini dərindən ayırd edə bilmirik. ATƏM-in bəyanatlarına rəğbətlə yanaşırıq, elə bilirik ki, onun müdaxiləsindən sonra yaxşılığa doğru nəsə dəyişəcək. Amma Qarabağ məsələsində hələlik bizim üçün işığa tərəf heç bir yol getmir.

Moskva yenə qızışdırıcı addım atır. Guya Azərbaycan xalqını ovutmaq üçün Müstəqil Dövlətlər Birliyinin silahlı qüvvələrinin Baş komandanı Yevgeni Şapoşnikovun əmri ilə Xocalı qırğınının əsas törədicisi 366-cı motoatıcı alayın Xankəndidən çıxarılmasına başlanılır. İqtidar elə təbliğat aparır ki, sanki bu, öz hünəridir. Alayın bütün texnikası ermənilərə bağışlanır. Şəxsi heyət isə Tiflisə köçürülür.

Amma Bakıda Xocalı məsələsi günü-gündən şişir. Xocalı faciəsi ilə bağlı müzakirələrin aparılması qərara alınır. Ali Sovetin Fövqəladə sessiyası çağırılır. Prezident Ayaz Mütəllibovun iştirakı ilə keçirilən sessiya martın 5-də başlanır. Müxalıfətçi deputatlar jurnalist Çingiz Mustafayevin Xocalı qurbanlarının donmuş meyitlərinin çöllərdən yığılması zamanı çəkdiyi tükürpədici videolentin ekranda göstərilməsini tələb edirlər. Ali Sovetin binasını dövrəyə almış kütlənin hay-küyündən, qışqırığından, uğultusundan qulaq tutulur. Hər tərəfdən binanın qapıları, pəncərələri fasiləsiz yumruqlanır, döyülür. Qapılar silkələnir, pəncərələr cingildəyir. Polislər gicələk qalıblar. Bina hündürdə, təpənin başında olduğuna görə hər şey göz qabağındadır. Kişi səsindən çox qadın qıy-qışqırıqları eşidilir. Aydınca hiss olunur ki, canfəşanlıq edənlər xüsusi tapşırıqla buraya toplaşmış adamlardır. Bəyəm etirazı bir qədər sakit etmək olmaz?

Hamı qəzəbdən qıvrılır, hər kəsin köksündə ürəyi kin, nifrət tiyanı kimi qaynayır. Amma bunu hərə bir cür ifadə edir.

İçimdəki təlatümə yön vermək istəyirəm.

Ali Sovetin qabağından keçən maşın yolu kəsilib. Yolun qırağındakı dayanacaqdan bir az aralıda ayaqlı mikrofon qoyulub. Əllərdə "Bütün hakimiyyət Milli Şuraya!", "Qarabağ torpağı Prezident Mütəllibovun ucuz siyasətinin qurbanıdır!" kimi azərbaycanca, rus-

ca və ingiliscə şüarlar var. Ali Sovetin binasının içində qızğın müzakirə, qarşısında hay-küylü mitinq gedir. Müzakirəni Ali Sovetin sədri Elmira Qafarova, mitinqi şair Məmməd İsmayıl və Məşədi Vaqif aparırlar. Sessiyada gedən söhbətlərin hamısından çölün xəbəri var. Xəbər daşıyanlar get-gəldədir. Rəhbərlik müxalifətdən olan deputatlara güzəştə getdikcə kütlənin coşqunluğu artır. Adamların bir qulağı mitinqdə deyilənlərdədirsə, bir qulağı içəridə gedən müzakirələrlə bağlı gəzən söhbətlərdədir.

Müxalifətçi deputatlar meydan sulayır. Etibar Məmmədovun, İsgəndər Həmidovun, Rəhim Qazıyevin, İsa Qəmbərovun, Tofiq Qasımovun adları dillərdən düşmür. Tez-tez bu deputatların adları tutularaq "O elə dedi, bu belə dedi" nidaları ətrafa yayılır. İqtidarı müdafiə edən deputatların dediklərinin heç bir təsiri yoxdur. Onların ağızlarından çıxanlar quş kimi havada bir-iki dəfə qanad çalandan sonra müxalifətçi deputatların sərrast atəşi ilə vurulub yerə salınır.

Uzun müzakirədən sonra Çingiz Mustafayevin Xocalı şəhidləri ilə bağlı çəkdiyi süjetin deputatlar qarşısında göstərilməsinə razılıq verilir. Xəbər mitinqdə qələbə kimi qeyd edilir. Sənədli kadrlar nümayiş etdirildikdən sonra həm içəridə, həm də çöldə vəziyyət gərginləşir. Həqiqəti gizlətdiyinə görə iqtidar daha kəskin lənətlənir.

Mitinqdə "İstefa! İstefa!" tələbləri səslənir. Maraqlı bir məqam başlayır. Müxalifətçi deputatlardan bəziləri arada bayıra çıxıb mitinqdə də çıxış edir və bununla meydan daha da qızışır. Bu mitinq "Azadlıq" meydanında keçirilən mitinqlərdən xeyli fərqlənir. Birincisi, ona görə ki, Bakı mitinqlərinin fəalları bu dəqiqə daha vacib işlə məşğuldurlar, deputat kimi Ali Sovetin iclasında növbə ilə təkrar-təkrar çıxışlar edirlər. Bir növ içəridə də mitinq gedir, kütlənin diqqətinin doxsan faizi onların yanındadır. İkincisi, aparıcı mikrofonu boş qoymamaqdan ötrü kütlənin tanımadığı adamlara da söz verir. Üçüncüsü isə, ilk dəfədir ki, mikrofonun ətrafında seyrəklikdir, çıxış üstündə dava getmir. Hələlik əsas aparıcı şair olduğuna görə çoxlu vətənpərvərlik şeirləri səslənir. Xəlil Rza geniş çıxış etdikdən sonra poema uzunluğunda bir şeir oxuyur, mikrofondan ayrılanda hiss olunur ki, çıxış etməkdən doymadı. Zəlimxan Yaqub darıxma-

dan, tələsmədən təmtəraqlı danışır, Dirili Qurbanidən, Xəstə Qasımdan, Dədə Ələsgərdən, başqa ustad aşıqlarımızdan, şairlərimizdən qəhrəmanlıq, namus, qeyrət, vətən sevgisi barədə misallar gətirib hamını birliyə səsləyir, Xocalı qırğınını törədənlərdən intiqam almağa çağırır. Mitinq elə qurulub ki, bütün çıxışların sonu eyni cür bitir. Kim nə danışırsa danışsın, axırda "İstefa! İstefa!" deyib mikrofondan ayrılır. İki il qabaq qoşalülələr kimi Vəzirova tuşlanan "İstefa! İstefa"lar yada düşür.

Birdən gözlərim kəlləmə çıxır. Aparıcı dillənir:

– Uzun müddət uzaq ölkələrdə xidmət etmiş vətənpərvər soydaşımız, Azərbaycanın çətin günündə işini atıb doğma yurduna qayıtmış Balaş qardaşımıza söz verirəm.

Nəyə görəsə aparıcı dostumun soyadını deməyi lazım bilmir. Bəlkə də, düz eləyir. Belə yerdə soyadına nə ehtiyac?!

Balaş hardan peyda olmuşdu? Dünən onu şəhərimizə yola salmışdım. Gedəndə demişdi üç-dörd gündən sonra qayıdacaq. Bəlkə cəbhəçi yoldaşları xəbər eləyib onu geri qaytarmışdılar. Axı, Azərbaycan Xalq Cəbhəsi böyük mitinqlər keçirəndə əvvəlcədən xəbər göndərib, öz təşkilatlarının rayon fəallarını da Bakıya çağırtdırırdı. Bəlkə də heç onu xüsusi dəvət etməmişdilər, özü eşidib gəlmişdi.

Balaş çıxışına həyəcanla başladı. Aydın hiss olunurdu ki, çoxluq qarşısında özünü bir balaca itirib. Amma getdikcə nitqi hamarlaşdı. Heç nə uydurmurdu deyə, fikri aydın idi. Sanki mənə hesabat verirdi. Arxayın idi ki, ən azından onu bir nəfər diqqətlə dinləyən var. Arzularının dalınca Tallinə getməyindən, bir tanışının köməyi ilə okeanda üzən balıqçı gəmisinə işə düzəlməyindən, uzaq ölkələrə səfərindən və axırda Azərbaycandakı gərginliyə görə vətənə qayıtmasından səmimi söhbət edirdi. Amma bu söhbət deyəsən yerinə düşmürdü. Çünki adamların fikri Ali Sovetin binasında qalmışdı. Adamlar eşitmək yox, Xocalının intiqamını almaq, qəzəblərini soyutmaq üçün nəyəsə nail olmaq istəyirdilər. Natiqlər "İstefa!" dedikcə, kütlə onların səsinə səs verib, daha da havalanırdı. Balaş səsinin tonunu sərtləşdirib "Biz Qarabağı xilas etməliyik!" deməklə çıxışını bitirir, deyəsən "İstefa! İstefa!" demək yadından çıxır.

Aparıcı onun ardınca "İs-te-fa! İs-te-fa!" şüarını səsləndirib, tarazlığı bərpa edir.

Dostum uzaqdan məni görübmüş kimi düz durduğum yerə doğru gəlirdi. Onun qabağına çıxdım. "Başqa cür danışacaqdım, fikrim dolaşdı" dedi, günahkarcasına mənə baxdı. "Yaxşı çıxış etdin!" – toxtaqlıq verdim. Həmin anda son bir ildə müxalifət tərəfindən tutduğu vəzifədən getməsi tələb olunan Ali Sovetin sədri Elmira Qafarovanın istefa verməsi xəbəri yayıldı. Kütlə qələbəni fitlə, qışqırıqla, alqışla qeyd etdi. Əslində, Elmira Qafarovanın istefası heç nəyi həll etmirdi, hadisələrə elə də fəal müdaxilə edən, müxalifətin, eyni zamanda xalqın ciddi bir şey umduğu fiqur deyildi, Bakıda 20 yanvar qırğınından bir gün sonra faciə ilə bağlı Moskvaya qarşı verdiyi sərt bəyanatı ilə yadda qalmışdı. Uzun müzakirələrdən sonra Ali Sovetin yeni sədri seçilir. Bu, deputat, Tibb İnstitutunun rektoru Yaqub Məmmədovdur. Onun sədr seçilməsi rəğbətlə qarşılanmır. Dostum Yaqub Məmmədov barədə məndən məlumat almaq istəyir. Mən qayıdanda ki, onun institut rektoru olmasından başqa kimliyi barədə bir şey bilmirəm, hətta üzdən tanımıram, Balaş məyuslaşdı. Amma kütlə içərisində Tibb İnstitutu ilə bağlı adamlar varmış. Tez-tələsik sədrin tərcümeyi-halını şifahi şəkildə formalaşdırıb dövriyyəyə buraxırlar. Ağızdan-ağıza yayılan məlumatdan biz də xəbər tuturuq. Neçə ay əvvəl bitən Sovet dövründən qalma bir xasiyyət var adamlarda. Dövlət məmurlarına, vəzifə adamlarına şübhə ilə yanaşırlar. Cəmiyyətdə belə bir fikir formalaşıb ki, dövlətdə işləyən mütləq xasiyyətcə təkəbbürlü, quru, əməlcə süründürməçi, rüşvətxor, əliəyri, firildaqçı və sairdir. Sovet dövründə yüksək vəzifəli adamlar yaxşı yaşadıqlarını cəmiyyətdən nə qədər gizlətsələr də, istədiklərinə axıra qədər nail ola bilmirdilər. Onlar tox yerişləri, duruşları, özündənrazı davranışları, təmiz və səliqəli geyim-keçimləri ilə diqqəti cəlb edirdilər. Yeniyetməlikdə şəhərimizin böyük vəzifə sahiblərini yaxından-uzaqdan tanıyırdım, məktəbdə uşaqlarını görmüşdüm. Vəzifəlilər adam arasına nadir hallarda çıxırdılar, xeyirdə, şərdə az görünürdülər, əsasən bağlı və açıq rəsmi tədbirlərdə gözə dəyirdilər. Böyük Oktyabr Sosialist inqilabının ildönümünə, 1 May Həmrəy-

lik gününə həsr olunmuş nümayişlərdə xüsusi düzəldilmiş kürsülərdən parad qəbul edirdilər. Nümayişlər vaxtı atam həmişə məni onlarla bəzən yaxından, bəzən də gendən-genə tanış edirdi. Düzünü deyim ki, məmurlara rəğbətim vardı. Onların görkəmi, davranışları cəzbedici görünürdü.

Amma yoldaşlarım arasında valideynlərinin dediklərini tutuquşu kimi yamsılayıb vəzifə adamlarına əyri baxanlar çox olduğuna görə müdafiəçi rolunda axıra qədər çıxış edə bilmirdim. Atam vəzifə adamlarını tanıdığına görə onların müsbət insani keyfiyyətlərindən az-çox nəsə bilirdim. Kimisə qeybətlərdən qorumaq istəyəndə söhbətim inamsız qarşılanırdı. Bir dəfə raykom katibinin yaxşı adam olduğunu dilimə gətirəndə bizdən dörd-beş yaş böyük Alxas dediklərimi lağa qoydu: "Atasına görə belə danışır." Yetim olduğuna görə Alxasa cavab vermədim.

Öz-özümə düşünürəm ki, görəsən indi istər iqtidar, istər müxalifət deputatları arasından kimi Ali Sovetin sədri seçsəydilər, çoxluğun ürəyincə olardı? İqtidar deputatlarından yəqin ki, heç kimi. Axı, cəmiyyət onların əksəriyyətini tanımırdı. Bu adamlar çox vaxt Ali Sovetin iclas salonunda səssiz, hərəkətsiz oturub məzlum-məzlum çıxış edənlərin ağzına baxırdılar. İki il əvvəl partiya orqanlarından, elm, təhsil, mədəniyyət mərkəzlərindən, istehsalat müəssisələrindən seçilib yığılan beləəri sanki yalnız qərarların lehinə səs verməkdən ötrü idi. İqtidar deputatlarından ən fəalı heç bir ciddi keçmişi, dünyagörüşü, savadı olmayan Hacı Əbdül idi. Balaca boylu, ləhcə ilə danışan başı buxara papaqlı, saqqallı, əli təsbehli bu adamın siyasi tərcümeyi-halından danışmaq yersizdir. Möhtəkirlik üstə bir dəfə türmədə yatmışdı. Hakimiyyətlə hansı ilişkisinə görə deputatlığa gətirildiyindən xəbərim yoxdu. Üzdə olan isə o idi ki, bu adam "Tövbə" adlı dini cəmiyyət yaradıb, gənc üzvlərini spirtli içkilərdən, narkotik maddələrdən uzaqlaşdırmağa çalışır. O, ziyanlı adətini tərgitmək istədiyi cavanları yerə uzadıb uzun qamçı ilə şəxsən şallaqlamaqla, "Quran"a and içdirməklə haqqın yoluna gətirir. Hacı Əbdül AXC-nin iclaslarının birində çıxış edərkən təklif etmişdi ki, Cəbhənin İdarə heyətinə üzvlər "Tövbə" cəmiyyətində yoxlanıldıq-

dan sonra seçilsin. Əlbəttə, dindarın bu təklifi gülüşlə qarşılanmışdı. Onun başqa dindən olan tək-tük gəncləri sünnət elətdirib müsəlman eləməsi də vardı. Və maraqlıdır ki, Hacı Əbdülün "Tövbə" Cəmiyyəti adından elədiklərini Azərbaycan Televiziyası şövqlə xalqa nümayiş etdirir.

Əksəriyyət təəccüblənirdi ki, bu mollafason adam necə deputat seçilib? Hacının Ali Sovetin tribunasından danışdıqları o qədər bəsit, loru, məzəli idi ki, getdikcə lətifə qəhrəmanına çevrilirdi. Çıxışlarında dini hədislərdən nümunələr gətirər, ibrətamiz məsəllər çəkər, qısa rəvayətlər söylərdi. Prezidenti dəlilsiz-sübutsuz birbaşa müdafiə etdiyinə görə dedikləri iclas salonunun daş divarlarına dəyib çilik-çilik olardı. Tribunada dili dolaşıb çaşan kimi "Təkbir!" nidasını səsləndirərək, salondakıları "Allahü Əkbər" deməyə dəvət etməklə fikirlərini nizama salmaq üçün taym-aut götürürdü. Pis adama oxşamırdı. Görün, Prezidenti istefaya göndərmək istəyənlərin qarşısına hansı məntiqlə çıxırdı: danışdığı "Hacıleylək" əhvalatı sonradan dillərə düşəcəkdi. Hacı Əbdülün danışığında cümlələr baş-ayaq, yöndəmsiz olduğu üçün əhvalatın mətninə əl gəzdirməyə məcbur oluram: "Bir göldə qurbağalar özlərinə başçı seçirlər. Sonra görürlər ki, başçı quruldamağı sevmir. Onları da quruldamağa qoymur. Qurbağalar başçını bəyənmirlər, quruldaşıb yenisini seçirlər. Təzə başçıdan da narazı qalırlar, ona itaət göstərmirlər, yerli-yersiz, vaxt-bivaxt quruldamaqda davam edirlər. Axırda Allah bir hacıleylək göndərir, hansı qurbağa səsini çıxardırsa, qapazlayıb udur. Sonra "İstefa!" qışqıran deputatlara xəbərdarlıq edirmiş kimi eşitdirirdi: – Bir gün hacıleylək gəlib sizi dənləyəcək ha..."

Başqa bir deputat da vardı, Ağa Axundov. Səhv etmirəmsə, Bakının Maştağa kəndindən idi. Özünü qoçu kimi aparırdı. Prezidentin istefasından söhbət gedəndə Ali Sovetin tribunasından, bir əlini cibindəki tapançasının üstünə qoyub deyirdi:

– Nə istefadan danışırsuz, alə?! Ayaz Mütəllibov bu vaxta qədər kimin toyuğuna "kış" deyib?!

Bayaqdan söz gəzirdi ki, Ağa Axundovun qoçu dəstəsi vəziyyətə nəzarət edir. Guya işarə verən kimi atəş açıb kütləni meydan-

dan dağıdacaqlar. Ətrafa boylanıb qoçuları özüm üçün ayırd eləmək istəsəm də, gözümə dəyənlərin heç birini Ağa Axundovun adamına oxşatmırdım. Axı, təsəvvürümdə yaratdığım qoçu dikyerişli, özündənrazı, əlini silahına yaxın tutmuş birisi olmalı idi.

Ali Sovetdə müzakirələr acı bağırsaq kimi uzanır. Sicilləmə çıxışlar sanki gərginliyi artırmağa xidmət edir. Konkret bir fikir söyləyən yoxdur. Arxası kütləyə möhkəm bağlı olan müxalifətçi deputatlar salonun ortasında qoyulmuş dördüncü mikrofonun arxasında növbəyə dayanıblar. Onlar Xocalı faciəsinin əsas səbəbkarını öz hakimiyyətimiz daxilində axtarırlar. İqtidarçı deputatlar isə erməni yaraqlılarının arxasında duran 366-cı motoatıcı polkun törətdiyi vəhşilikləri dilə gətirib diqqəti düşmən tərəfə yönəltməyə çalışır. Hakimiyyət köhnə, ələngə ev kimi çox davamsız, miskin görünürdü. İtələsəydin, uçacaqdı. Ağlımla yaxşı qanırdım ki, 20 Yanvar, Xocalı qırğınından sonra qana gedilməyəcəkdi. Belə gediş indiki halda vəziyyəti bir az da qızışdırmaq deməkdi. Kütlənin qəzəbini nə soyutmalıdır? Hakimiyyətin elə gücü yoxdur ki, ermənilərdən Xocalının hayıfını çıxıb adamları toxtatsın. Xocalı müsibəti Prezident Ayaz Mütəllibovun dilini qısıq edib. Kənardan da ona hay verən yoxdur. Rusiyaya bağlı olsa da, Kreml Bakıda bir Ayaz Mütəllibova görə ikinci 20 Yanvar avantürasına gedən deyil. Böyük imperiya təcrübəsi olan nəhəng bir dövlət tez-tez eyni təcavüz texnologiyasından istifadə etməz.

Prezident tribunaya çıxır. Həmişəki səliqəli görkəmdə deyil, üzü-gözü şişib, daraq əvəzinə barmaqları ilə qaydaya saldığı şaçları qarışıb. Son söz sahibi kimi salondakıları və Ali Sovetin binasının qabağında "İstefa" deyib dad çəkənləri sakitləşdirməyə çalışacaq. Nizamsız danışsa da, sözünün canı budur ki, Qarabağ məsələsinin həllində son söz Rusiyanındır. Azərbaycan SSRİ-yə alternativ kimi yaradılmış Müstəqil Dövlətlər Birliyinə qoşulmasa, ermənipərəst Rusiya hökuməti bizi məğlub durumda saxlayacaq. Sonra idarəetmədə səhvlərə yol verdiyini, hakimiyyəti düzgün bölüşdürmədiyini etiraf edir, Xocalı hadisəsində özünü günahkar saymır. MDB-yə qoşulmağa imza atmadığına görə peşmançılıq çəkdiyini bildirir. Nə-

hayət, qəzəblənir: “Kim deyir ki, Qarabağ məsələsini iki aya həll edərəm, çıxsın qabağa!”

Gözlənilməz hadisə baş verir.

Deputat Etibar Məmmədov irəli yeriyib qışqırır:

– Mən deyirəm!

Prezident gözlənilməz müdaxilədən pərt olur, tez söhbətə yekun vurur:

– Yaxşı, bunu sizinlə müzakirə edərik!

Bundan sonra bütün çatışmazlıqları demokratik qüvvələrin köməyilə aradan qaldıracağına söz verir. Ancaq Prezidentin çıxışı nə içəridəkilərə, nə də çöldəkilərə təsir edir. Yenidən “İstefa” çağırışları səslənir.

Axşam düşür, hava qaralır. Ali Sovetdə iclas dayandırılır. Müxalifətçilər elan edir ki, Prezident istefa verməyincə, binadan çölə buraxılmayacaq. Zarafat deyil, bizim 1988-ci il 17 noyabr - 5 dekabrdan, 1989-cu il 17-19 dekabrdan təcrübəmiz var. Bir gecə nədir ki, lap bir neçə gecə meydanda lövbər salıb qala bilərik.

Ertəsi gün hər şey yenidən qızışır. Ali Sovetdəki müzakirələr də, binanın qarşısındakı mitinq də. Sanki arada gecə olmayıb. Deputatlar Ali Sovetin binasında dünənki yerlərində oturduqları kimi, mitinqdə də hər kəs öz yerindədir. Arada gəzişənlər də dünənki adamlardır. Balaşla mən tribuna ilə üz-üzə olsaq da, bir az arxadayıq.

Prezident hər an məğlubiyyətə doğru gedirdi.

Birdən Balaş soruşur:

– Vəziyyəti kim idarə edir? Başda duran kimdir? Ayaz Mütəllibov istefa versə, yeni Prezident kim olacaq?

Zarafat edirəm:

– Sən!

Balaş diksinir. Cibindən siqaret qutusu çıxardıb mənə də təklif edir. Çəkən olmasam da, hərdən ona dəm tutmağım var. Dostum siqaretlərimizi yandırıb soruşur:

– Səncə, məndən Prezident çıxar?

Bilmirəm, ciddi sual verir, yoxsa məni dolayır. Çünki elə adamdır ki, sözü hər mənada işlədə bilir.

Bu zaman meydandan xorla "İs-te-fa! İs-te-fa!" səsləri ucalır. Ali Sovetin binasına hücum etməyə çağırışlar az qalır qulaqları batırsın. Bina dörd tərəfdən yumruqla döyəclənir. Qapılar cırıldayır, pəncərələr cingildəyir. AXC Qadınlar Şurasının fəalları Ali Sovetin foyesinin dünən sındırılıb yenisilə əvəz edilmiş şüşəsini çilik-çilik edir. Çıxışçıların bir hissəsi Prezidentə hədə-qorxu gəlib zorla onu istefaya sürükləyirsə, orta mövqe tutanlar Respublika rəhbərinə müdrik addım atıb, qansız-qadasız öz postunu təhvil verməyi tövsiyə edir. Təklif olunan bütün variantlar Prezidentin istefasına yönəlib. İqtidarçı deputatlar sudan qırağa atılıb çabalayan balıqlara bənzəyirlər. Hiss olunur ki çabaladıqca nəfəsləri daralır.

Arada xəbər yayılır ki, Ayaz Mütəllibovun halı pisləşib, iclas salonunu tərk edib, arxa otaqda həkimlərin əhatəsindədir. Amma Prezidentin durumu kütlədə heç bir mərhəmət oyatmır.

Bir xəbər də dolaşır ki, Şeyxülislam xalqın tələbi ilə istefa vermək üçün Prezidenti dilə tutmaqdadır.

Mitinqdə isə aparıcı Məşədi Vaqif təkrar-təkrar qışqırır ki, Ayaz Mütəllibov qorxağın biridir, möhkəm dursaq, istefa verəcək.

Balaşdan aralı düşmüşəm, deyəsən, özünü lap irəli vermək həvəsində deyil. Onu gözdən itirməməkdən ötrü geri qanrılıb baxanda bir anlıq quruyub yerimdə qalıram. Baho! Fərəh də burda imiş. O da Ayaz Mütəllibovu devirməyə gəlib.

Heç bir müqavimət, qadağa görməyən meydan əhli xirtdəklərinə qədər cəsarətləniblər. Milislər hərəkətsizdir, üzlərindən aydınca oxumaq olur ki, onlar da usanıblar, maraqla işin axırını gözləyirlər. Allahdan üzü aşağı Prezidentimizi qoruyacaq kəsərli qüvvə qalmayıb.

Nəhayət, Prezident Ayaz Mütəllibov axşam saat 18:10 da 37 saatlıq inaddan sonra özünü toplayıb Ali Sovetin tribunasına çıxır. "İstefamı müzakirəsiz qəbul edin!" deyərək hələlik siyasi fəaliyyətdən əl çəkib Bakıda qalacağını bildirir, sonra isə "Müstəqillik uğrunda birgə mübarizə aparaq!" – şüarını səsləndirib kürsüdən enir. Meydan, futbolda qol vurulandakı kimi bir neçə dəqiqə uğuldayır, nərildəyir, guruldayır. Hamı özünü qalib sayır. Ali Sovetin binasından

çıxıb özünü tribunaya çatdıran müxalifətçi deputat İsgəndər Həmidov meydandakıları Prezidentin istefası münasibətilə təbrik edir, iki gün danışmaqdan, qışqırmaqdan səsi batmış şair Məmməd İsmayıl meydanla sağollaşıb mikrofonu söndürür.

Tamaşa, hadisə, nağıl başa çatır. Adamlar biri-birinin üzünə baxır. Üzlərdə, gözlərdə bir sual var: "Göydən üç alma nə zaman düşəcək?!"

İstiqlal savaşında yunanlara qalib gəlindikdən sonra general Kazım Qarabəkir Qazi Mustafa Kamal Paşadan soruşur:

– İstiqlal savaşı bitdi, indi neyləyəcəyik?

Mustafa Kamal Paşa mənalı-mənalı gülümsəyib cavab verir:

– İndi də biri-birimizlə didişəcəyik.

Atatürkün dediklərini Balaşa misal çəkirəm, gözlərini döyür, fikirlidir.

Ali Sovetin iclası bitməsə də, meydan seyrəlməyə başlayır. Saatlarla ayaq üstə gərgin dayanmış adamların yorulduqları yadlarına düşür sanki. Balaşla "Bakı Soveti" metrosuna üz tuturuq. Üzülmüşük, heysizik. Metroya girib leşimizi qatara atırıq. Yarım saatdan sonra yuvamızdayıq. İçəri girən andan televizorun düyməsini basmışam. Ali Sovetin iclas salonundan birbaşa teleyayım davam edir. Yenə də mikrofonların qarşısında danışmaq üçün növbəyə dayanıblar.

İndi də müdrik addım atıb qan tökülməsinə yol vermədən istefaya gedən Prezidenti gözəlləmələrlə yolasalma mərasimi başlayıb. İqtidar deputatları da, müxalifət deputatları da kövrəliblər. Dünəndən biri-birinə min bir ittiham söyləyən sanki bunlar deyildi. Tribunaya Hacı Əbdül çıxır, başını üç-dörd dəfə yelləyib deyir:

– Süz ki Ayaz Mütəllibovu belə tərifləyirsüz, day nöş istefa versin ki? Elə qalıb işləsün də!

Qanuna görə, yeni Prezidentimiz seçilənə qədər onun səlahiyyətlərini Ali Sovetin sədri icra edəcəkdi. Neçə illər ali məktəbdə rektorluq etmiş Yaqub Məmmədov dünən Ali Sovetin sədri postuna qalxmış, bu gün isə Respublika Prezidenti səlahiyyətlərinə yiyələnmişdi. Dünya dövlətçiliyi tarixində, bəlkə də belə hadisə baş verməmişdi.

Mən sivil, qanuni dövlətçilik tarixindən danışıram. Çevriliş etməklə hakimiyyəti zəbt edənlər başqa tarixə aiddir.

Yaqub Məmmədov Ali Sovetin sədri seçilən andan addımbaşı hiss etdirirdi ki, idarəetmə təcrübəsi olmayan, əsəbi, kəmhövsələ adamdır. Heç bir mübahisəyə dözümü yoxdur. Bir dəqiqənin içində özündən çıxırdı. Elə apardığı birinci iclasdaca mərəkə qaldırdı. Onun adından Bayıldakı Rusiya qoşun hissələrinin az əvvəl Ali Sovetin mühasirəsinə çağırıldığını eşidib "İstefa verirəm!" deyərək yerindən durdu, cəld addımlarla iclas salonunun çıxışına yön aldı. Bir neçə iqtidarçı deputat onun dalınca şığıdı. Əvvəl-əvvəl tuturdular, tutulmurdu, elə bil kostyumu balıq pulundan idi. Nəhayət, salonun ortasında onu dövrəyə alıb dayandırdılar, "Allah-Allah"la qaytarıb yerində əyləşdirdilər.

Yaqub Məmmədovun rəhbər kimi işə başlaması ilə Bakıda mitinqlər səngiyir. O, fəallıq göstərməyə çalışır. Üç ay əvvəl Daxili İşlər Nazirliyinin tərkibində ayrıca struktur kimi yaradılan Daxili Qoşunlar Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzündə ilk döyüşə çıxır, fədakarlıq göstərir.

Şuşanın Hərbi komendantı, Xalq Cəbhəsinin fəal üzvü Rəhim Qazıyev Respublikanın müdafiə naziri təyin olunur. Yeni nazirin xalq arasında böyük nüfuzu var, hamı ona ürəkdən inanır.

Təxminən qırx gün bundan qabaq idi. "Azadlıq" meydanındakı mitinqdə çıxış edən Etibar Məmmədov qəfildən çıxışını kəsdi, həyəcanla elan etdi:

– İndicə xəbər gəldi, Şuşada gecə əsgər kazarması gülləbaran edilib. Ölənlər, yaralananlar var.

Aktyor kimi pauza verəndə mitinqdəkilər nəfəslərini içlərinə çəkib xəbərin ardını gözləyirdilər. Mənim də boğazım qurumuşdu. Etibar Məmmədov təmtəraqlı intonasiyası ilə nitqinə davam etdi:

– Kazarmada gülləbaran edilənlər arasında Rəhim Qazıyev də olub. – Natiq adamlara zülm edirdi, sözləri çəkib uzadırdı. – O, ağır yaralanıb.

Sanki Ali Baş komandan yaralanmışdı, hamının bir anlıq nitqi tutuldu.

Həmişəki kimi kütləni tərpətməkdə usta olan Etibar Məmmədov dedi:

– Rəhim Qazıyevə sui-qəsd hazırlandığını hələ yanvarda bilirdim. Onda milli təhlükəsizlik naziri İlhüseyn Hüseynova bu barədə demişdim. Bundan başqa, Milli Şurada bildirmişdim ki, Amerikanın Mərkəzi Kəşfiyyat İdarəsi Ayaz Mütəllibovu, Əbülfəz Elçibəyi, məni və bir neçə nəfəri gözaltına alıb.

Meydandakılar da, elə mən də Etibar Məmmədova şəkk gətirməyi ağlımıza sığışdırmayıb xəbəri ciddi qarşılamışdıq.

Axşam Az.TV-nin "Xəbərlər" proqramı Şuşada təzəcə çəkilmiş süjeti göstərdi. Emin adlı əliavtomatlı əsgər kazarmaya girib qaranlıqda sağa-sola atəş açmışdı. Səkkiz əsgər ölmüş, altısı yaralanmışdı. Hamını maraqlandıran əsas məsələ Rəhim Qazıyevin vəziyyəti idi. Bunu yaxşı bilən telejurnalistlər onu ayrıca göstərdilər və danışdırdılar. Rəhim Qazıyev topuğundan yüngül, lap yüngül yaralanmışdı. Laçın xəstəxanasında müalicə alırdı. Deməli, ya Etibar Məmmədova dünən məlumatı düzgün verməmişdilər, ya da o özü çıxışının duzunu, istiotunu bilə-bilə artıq etmişdi.

Rəhim Qazıyev könüllü özünümüdafiə dəstələrinin nizami ordu hissələrinə daxil edilmələri barədə əmr imzaladı, qeyri-rəsmi yaradılmış batalyonlar və dəstələr Milli Ordunun tabeçiliyindəki briqadaların tərkibinə verildi. Lakin hərbi quruculuq işləri çox ləng gedirdi.

Bu arada ATƏM Şurası Helsinkidəki toplantısında Qarabağ münaqişəsinin nizamlanması üzrə Minskdə konfrans keçirmək qərarına gəlmişdi, Azərbaycan, Ermənistan, Belarus, Çexoslovakiya *(bir il sonra bu ölkə iki yerə bölünüb Çexiya və Slovakiya olacaq, Minsk qrupunda ayrıca təmsilçiyə çevriləcəkdilər)*, Fransa, Almaniya, İtaliya, Rusiya, İsveç, Türkiyə və ABŞ-ın iştirakı ilə Minsk qrupu yaratmışdı. Minskdə konfrans keçirilməsə də, o gündən başlayaraq Minsk qrupu Qarabağ münaqişəsində vasitəçilik təsisatı kimi formalaşdı.

Minsk qrupunun yaradılması xəbəri Azərbaycanda hamını çox ümidləndirdi. Daha bundan o yanası yox idi ki... Zarafat deyildi, dünyanın aparıcı dövlətləri Qarabağ məsələsini ədalətlə həll edəcək-

di. Almaniyanın, Fransanın, Amerika Birləşmiş Ştatlarının, Türkiyənin işə qarışmasına çox ciddi baxırdıq. Elə bilirdik ki, böyük dövlətlər hər çətin məsələyə ürək yanğısı ilə yanaşır, haqsızlığa yol vermir. Amma bir neçə il keçəcəkdi, bütün dövlətlərin iç üzünü tanıyacaqdıq, kəsərini görəcəkdik. Görəcəkdik ki, onlar hər məsələyə ədalət ucalığından deyil, güc mövqeyindən yanaşırlar. Nə isə... Vaxtdan, zamandan, hadisələrdən ayrılmayaq.

Aprel təzə girmişdi. Bakı avtovağzalının yan-yörəsindəki ağaclar tumurcuqlamışdı. Bakı-Ağdam avtobusunun pəncərəsindən gördüyüm alça ağacı, yəqin ki, sabaha çiçəkləyəcəkdi. Balaş böyrümdə oturmuşdu. Dünən axşam beynimizə dolmuşdu ki, gedək bir Ağdama baş çəkək, hərə bir söz deyir, öz gözümüzlə görək orda nə var, nə yox?

Avtobusda eşitdiyimiz söhbətlərdən məlum oldu ki, Ağdamda da qarışıqlıqdır. Yol boyu hərənin ağzından bir avaz gəlirdi. Heç kəsin dediyi heç kəsə batmırdı. Bir müəllim deyəndə ki, Birləşmiş Millətlər Təşkilatının Baş Katibinin xüsusi nümayəndəsi Sayrus Vens Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Bakıya gəlib, sabah Yerevana, ordan da Xankəndiyə gedəcək, hamı bir dəqiqəlik təsirə düşüb susur. Yəqin beyinlərində götür-qoy edirlər ki, bundan bir fayda olacaqmı? Bir dəqiqədən sonra yenə çevrilib həmin adam olurlar. Onları döndərmək çətindir, çünki eşitdiklərinə yox, gördüklərinə inanırlar. Bakıdakı mitinqlərdə adlarını eşidib qurrələndiyimiz Ağdam özünümüdafiə batalyonunun komandirləri haqda başqa-başqa sözlər eşidirik. Batalyon komandirlərindən Bakıda ən çox adı çəkilən AXC Ağdam rayon özünümüdafiə dəstəsinin başçısı Allahverdi Bağırovun ara qarışana qədər dava üstə türmədə yatması, sonra restoran işlətməsi, Yaqub Rzayevin qəbir daşı ustası olması, qərargahını qəbiristanlığın yanında qurması xəbəri Balaşı xeyli təəccübləndirir. Qulağına pıçıldayıram: - Noolsun, elə peyğəmbərlərin də çoxu əvvəlcə çoban olublar. Səttarxan nəçi imiş? Mehtər. Tanıdığın, adını eşitdiyin Sovet İttifaqı qəhrəmanlarının əksəriyyəti əyninə təzəcə hərbi paltar geymiş kəndçi balaları olub. Hər peşənin sahibi qeyrətli vətəndaş ola bilər.

Balaş fikrə gedir. Çox güman, düşünür ki, görəsən, Ağdamda, yaxud sərhəd bölgələrinin birində ondan könüllülər batalyonunun komandiri çıxar?

Gümanımı yoxlamaq üçün Balaşa sual verirəm:

– Sən də goranboylu Maşallah kimi, qazaxlı Alik kimi könüllüləri başına yığıb batalyon düzəldə bilərsən?

Balaş gümanımı həqiqətə çevirir:

– Elə fikrimdən o keçirdi. Amma bunun üçün yerli adam olmalısan.

Biz Ağdama çatıb avtobusdan düşürük, hara və kimin yanına gedəcəyimizi bilmədiyimizdən məşhur Ağdam bazarına üz tuturuq.

Ağdam bazarı on il, beş il bundan qabaqkı deyil. Bu bazarın zənginliyini göstərmək üçün belə deyim vardı: "Ağdam bazarında atom bombasından başqa nə istəsən, taparsan".

İndi zaman dəyişmişdi, nəinki Ağdam bazarında, elə hər yerdə silah satılırdı. Bakı bazarları ilə müqayisədə burda bahalıq idi. Dəqiq yadımdadır, ət yetmiş manata, qənd qırxa, yağ yüz əlli manata çıxmışdı. "Astra" siqareti Bakıda beş manata idi, Ağdamda yeddiyə. Adamların üzü tutqundur. Üç kilometr aralıda isə döyüş zonasıdır.

Bazarın çayxanasına giririk. İçəri səs-küylü, tüstülüdür. Bir nəfərin danışığı aydın eşidilir. O, Allahverdi Bağırovun, Xalq Cəbhəsi fəallarının bir neçə gün əvvəl Xramord və Faruq kəndlərindəki döyüşlərdə həlak olmuş on bir əsgərin meyitini geri alarkən nə baş verdiyini nağıl edir. Erməni tərəfi meyitlərin əvəzində altmış dörd ton benzin istəyirmiş. Allahverdi Bağırov onlara deyib ki, bu qədər benzin heç bütünlükdə Ağdamda yoxdur. Sonra ermənilər tələblərini endirə-endirə uzun çək-çevirdən sonra ton yarım benzinə düşüblər. Benzin söhbəti baş tutmayanda onlar sövdələşdikləri pulu alıb iyirmi litr benzinsiz meyitləri verməyəcəklərinə təkid ediblər. Axırda bizimkilər məcburi bu şərtə razı olub. Ölü alverçiləri həmin iyirmi litr benzini on bir meyitin üstünə töküb yandırandan sonra tanınmaz hala düşmüş cəsədləri qaytarıblar.

Çayxanada əsas söhbət ermənilərin gücündən gedir. Hadisələr təzə başlayanda hər gün rişxəndlə işlənən "Erməni qan gördü qorxa-

caq!" ifadəsini dilə gətirən yoxdur. Əksinə, ermənilərin Rusiyaya söykənməsindən, xaricdəki güclü diasporasından danışılır. Aydınca hiss olunur ki, Xocalı qırğını adamların gözünü qırıb. Bəlkə də indi çayxanada çənə döyənlərin hamısı qarlı-şaxtalı çölün düzündən maşına yığılıb Ağdam məscidinin həyətinə gətirilən yarıçılpaq Xocalı şəhidlərini öz gözləri ilə görüb.

Aydın olur ki, oturanların yarıdan çoxu elə-belə, yoldan ötən adamlar deyil. Onlar son illərdə Ağdamda, Ağdamdan kənarda baş verən hadisələrdən əməlli-başlı xəbərdardırlar. Sanki çay içmək bəhanəsilə müzakirə üçün bura toplaşıblar.

Başında molla papağı, əlində təsbeh olan bir kişi Qarabağda ağır övliya sayılan Seyid Lazım ağanın Ağdam bazarında həmişə oturduğu yerə keçən həftə "Qrad" mərmisinin düşməsindən və Allahın möcüzəsi ilə partlamamasından danışıb kafirlərə lənət oxuyur.

Söhbət hərlənib-fırlanıb bu gündən uzaqlaşır, Xocalı faciəsi baş verməmişdən bir neçə gün əvvələ gedib çıxır. Yenə Bakıda müzakirələrə, qəzet səhifələrinə çıxarılan "Xocalı qırğınının qarşısını almaq olardımı?" sualı meydana atılır. Hərə bir tərəfdən dillənir. Ağdamdakı özünümüdafiə alay və batalyonlarının komandirləri Fred Asifin, Allahverdi Bağırovun, Şirin Mirzəyevin, Yaqub Rzayevin – üzü ağ ləkəli olduğu üçün ona "Ala Yaqub" deyən də var – adlarını çəkirlər. Bu adları Bakıda min dəfə eşitmişəm.

Mühasirəyə düşmüş Xocalının yolunu açmaq üçün gah İcra hakimiyyəti başçısının kabinetində, gah batalyonların qərargahlarında hücum planları qurulurmuş. General Dadaş Rzayevlə kənd təsərrüfatı nazirinin müavini Cümşüd Nuriyev birbaşa Əsgərana hücum etməyin üstündə durubmuş. Silahlı dəstələrin komandirləri Abdal-Gülablı kəndi tərəfdən Xocalıya dəhliz açmağın tərəfdarı imiş. Eyni vaxtda müxtəlif istiqamətlərdən zərbə endirmək məsələsi də müzakirə edilirmiş. Danışıqlar uzanır, gün-günə satılırmış. Ala Yaqub yaxasını kənara çəkibmiş. Allahverdi Bağırov, Fred Asif bir fikrə gələ bilmirmiş, Şirin Mirzəyev hərbi təlim görməmiş, hərbi texnikasız az qüvvə ilə hücum etməyin məğlubiyyətə gətirəcəyini deyirmiş. Hamısı Bakıdan hərbi kömək gözləyirmiş.

Kimsə Viktor Polyaniçkonun adını çəkib onu söyür: – Polyaniçko əclaf Volskidən sonra bizi aldatdı. Təşkilat Komitəsinin sədri kimi Stepanakertdə oturanda, heç olmasa, o tərəflərə gedib-gələ bilirdik. Qurğu qurub özü iş yerində olmayanda qranatatanla kabinetini dağıtdırdı. Sonra da guya təhlükəsizlik məqsədi ilə qərargahını Ağdama köçürtdü, ayağımızı Stepanakertdən kəsdi. Ermənilərə meydan verdi. Yadınızdadır, – çayxanadakıların diqqətini özünə çəkmək istəyir – mitinqlərdə şeşələnib deyirdi: Ya Vaş! Ya Vaş! Yəni, mən sizinəm, mən sizinəm!

Danışılanları eşitdikcə öz-özlüyümdə düşünürdüm ki, artıq müharibənin içindəyik.

Küncdə oturmuş iri bığlı, qalın dodaqlı, yağlısifət bir adam ucadan "A kişilər!" deyib hamının diqqətini özünə yönəldir:

– A kişilər, müharibə məsələsində biz avamıq, vallah, çox avam. Müharibə kolxozda-sovxozda işləyib tər tökmək deyil e... Altı-yeddi ay bundan qabaq Bərdənin bazarında eşitdim ki, pullu kişilər Qəbələdən bir top alıb gətiriblər Şelliyə... Tez maşına minib özümü kəndə çatdırdım. Top qoyulan yerə yaxınlaşanda gördum, dəli təkcə mən deyiləm, bura nə qədər adam yığışıb, ilahi?! Lüləsi çöldə qalsa da, özü ot-ələf altında gizlədilmiş silahın ətrafında bir şadyanalıq var, bir dəstgah var, gəl görəsən. Yeddi-səkkiz arvad sacda yuxa bişirir, erkəklər kəsilib kabablar çəkilir. Bircə sazəndələr çatışmır. Yuxalar bişib sacdan çıxdıqca ətrafdakılar isti çörəkdən alıb, yağlı kababla dişə çəkirlər. Hətta hərbi sirr-zad saxlayan yoxdur. "Bəsdir ermənilər bizi boğaza yığdılar, bu gecə onların axırıdır" deyib biri-birinə nə qədər gözaydınlığı verənlər var.

Topçunu az qala əl üstə gəzdirirlər. O, saçının qabağı getmiş, arıq, üzü vaxtından tez qırışmış mırıq bir rusdur. Dilimizdə də bülbül kimi ötür. Deyir ki, Stepanakerti üç tərəfdən vuracağam – mərkəzdən, sağdan və soldan. Bir nəfər də sağ çıxmayacaq o dağılmışdan.

Bir azdan Günəş batır, axşam düşür. Hamı həyəcan içindədir. Cavanlar topun üstünü ot-ələfdən təmizləyir. Topçu əvvəlcədən hazırladığı məşəli yandırıb dəstəyini yerə sancır, ətrafa işiq salır. – Əhvalatı danışan kişi nəfəsini dərib pauza verir, hiss olunur ki,

diqqətlə dinlənilməsi döşünə yatır, bir qurtum çay içib söhbətinə davam edir – Xeyli qurdalanandan sonra hamını kənarlaşdırıb topdan birinci atəşi açdı. Səsdən qulaq tutulurdu. İkinci mərmidə adamlar bir az da kənara çəkildilər. Üçüncü mərmi atılandan sonra hamının içinə rahatlıq çökdü. Qıyya çəkib, əl çaldıq. Demə, bura araq da gətiriblərmiş. Hətta kimsə bir şampan da partlatdı. Stəkanları, qədəhləri, fincanları doldurub birnəfəsə içərək, qələbəni qeyd edirdik.

Rus topçu bir çappa stəkan arağı başına çəkib guruldayır:

– Hə, gedin gecə "Vremya"ya baxın! (*Mərkəzi televiziyanın Moskva vaxtı ilə saat 21:00-da, Bakı vaxtı ilə saat 22:00-da efirə çıxan "Zaman" xəbərlər proqramı*)

O, artıqlaması ilə haqqını alıb guya ilişməkdən qorxduğu üçün tez maşına mindirilib Bakıya yola salınanda saata baxıram, "Vremya"nın başlamasına hələ çox var. Hamı dağılışır, hər kəs özünü evinə çatdırmağa tələsir. A kişilər, – şaqqanaq çəkib güldü – arsız-arsız üç gün "Vremya"nın qabağını kəsdirib oturdum ki, bəlkə Stepanakertin dağılmasından bir söz deyələr. Heç bilinmədi atılan mərmilər hansı cəhənnəmə düşdü. Rus topçu bizlərə belə fırıldaq gəldi.

Balaşla baxışıb biri-birimizə işarə verdik və çayxanadan çıxdıq. Bu saat bizim buraları, burdakı adamları yaxşı tanıyan bir tanışa ehtiyacımız vardı. Hər ikimiz acgözcəsinə görmək, eşitmək, öyrənmək istəyirdik. Birdən qulağımız çalır ki, Ali Sovetin sədri, Prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov Ağdamdadır. Yəqin cəbhə bölgəsində vəziyyətlə tanış olmağa gəlib. İcra hakimiyyətinə tərəf gedirik. Elə bilirik ki, ya mitinq, ya da iclas eləyib ağdamlılara sözünü deyəcək. Gözlədiyimiz olmur. Xəbər çıxır ki, Yaqub Məmmədov müdafiə naziri Rəhim Qazıyevlə Ağdamdakı yerli özünümüdafiə dəstələrinin başçılarını barışdırmağa gəlib. Dünənəcən yerli özünümüdafiə dəstələri müstəqil vuruşublar. Xocalı müsibəti hamını ayıldıb. Artıq bir komandanlığa tabe olaraq vuruşmağın vacibliyini hamı başa düşür. Erməni tərəfini peşəkar zabitlər idarə edir. Bizdə isə hələ birlik yoxdur. Hər dəstə özünə ərazi ayırıb, vətənpərvərlik göstərir. Birləşmək söhbəti gələndə kimin ətrafında birləşmək sualı-

nın cavabı tapılmır, hərə yenidən öz mövqeyinə çəkilir. Hərbi nazirliyin isə onları öz qanadı altına almağa gücü çatmır.

Köhnə azarım baş qaldırır. Balaşa deyirəm ki, burda Çörək muzeyi var, təzə açılanda baxmışam, gedək sən də gör, maraqlı eksponatları var. Bir rus arvadı müharibə vaxtı Leninqrad blokadada olarkən kartoçka ilə aldığı bir günlük qara çörək payını saxlayıbmış, otuz beş ildən sonra gətirib bu muzeyə təhvil verib.

Balaşı maraqlandıra bilmirəm, fikri qarışıb. Küçələrdə gəzə-gəzə şəhərin görkəminə baxırdıq. Ara-sıra atılmış mərmilərdən zədələnmiş, dağılmış tək-tük evlər, hasarlar görürdük.

Dostum qəfildən deyir, gəl, Bakıya qayıdaq. Sözümüz çəp gəlir, mən qalmaq, şəraiti öyrənmək, məlumat toplamaq istəyirəm. O, isə təkid edir ki, hər şey məlumdur, gedək Yevlaxa, gecə qatarı ilə dönək geri. Yol yoldaşımın xasiyyətinə yaxşı bələdəm, qalsaq, dinclik verməyəcək, qaşqabağını sallayıb zəhləmi tökəcək. Ondan son xahişimi edirəm. Deyirəm, acam, gedək, Allahverdi Bağırovun restoranında bir tikə çörək yeyək, sonra yola düşərik. Allahverdi Bağırovun adını eşidən Balaş razılaşır. İkimiz də onu görmək istəyirik. “Bulvar” deyilən yerin ayağındakı restoranı tapırıq, ikimərtəbəlidir. Birinci mərtəbə qəlyanaltı yeri, ikinci mərtəbə restorandır. Hər iki mərtəbəni gözdən keçirdikdən sonra yüngülvarı nahar etmək üçün birinci mərtəbədəki salonda əyləşdik. Nahar vaxtından keçdiyinə görə içəridə bizdən başqa cəmi iki hərbçi vardı, çay içirdilər. Restoran haqqında Bakıda eşitmişdim. Üç-dörd il əvvələ qədər çox gur yer olub. Ağdamlı cavanlar dəstə-dəstə indi biz oturan salona adla deyilən Gorus pivəsi içib, Bakı sosiskası yeməyə gəlirmişlər. İndi Gorusqarışıq Ermənistan bizə düşmən kəsilib, Bakıdan pivə gəlmir, Ağdamda yeyib-içmək, kef eləmək arsızlıq sayılır. “Qartal” ləqəbli Allahverdi Bağırovun restoranı əsasən könüllü hərbçilərin yeməkxanasına çevrilib. Restorandan tez-tez səngərdəki döyüşçülərə qazan-qazan yeməklər aparılır. Xidmətçidən öyrənirik, Allahverdi Bağırovun qərargahı restoranın arxasındakı “Pioner evi”ndədir, ancaq indi orda heç kəs yoxdur, axşam yığışacaqlar.

Yeyib mədəmizi aldadandan sonra Yevlaxa gəlirik. Yorğunuq. Gecə qatarına minən kimi Balaş başını atıb yatır. Mən də yerimə uzanıram. Gözümə yuxu getmir. Qatar yırğalandıqca beynimdən o qədər fikirlər keçir ki... Bu yaşda necə də girinc qalmışdıq. İş-güc yaddan çıxmışdı. Axı, yeniyetmə, ilk gənclik vaxtlarımızda, onca il sonranı tamamilə başqa cür təsəvvur edirdik. Gələcəkdə böyük sevgi, diqqət mərkəzində olmaq, özünə güvənmək, yaxın-uzaq səfərlərə getmək, daha nələr, nələr vardı. Heç ağlımıza gəlməzdi ki, dünya dəyişər, ölkədə sabitlik pozular, it yiyəsini tanımaz. Sanki azıb tamamilə özgə bir gələcəyə gəlib çıxmışdıq.

Səhər qatardan düşüb evə qayıtdıq. Balaş tutqun idi. Çay içəndə deyir ki, qatarda o da çox yatmayıb, düşünüb. Onun düşüncəsinin nəticəsi sabah məlum olacaqdı. Biz dəniz qırağında gəzəndə deyəcəkdi:

– Konkret işləri sevirəm. Xalq Cəbhəsi ilə mənimki tutmadı. Mitinqə, iclaslara getmək, tinini yerə verib saatlarla siyasi söhbətlər etmək mənlik deyil. Dostlara zəng elədim, deyirlər nə boş-boş oturmusan Bakıda, Moskvanın küçələrində pul sel kimi axır, yığıb-yığışdırmağı bacaran oğul lazımdı. Durma, tez gəl! Bilirsən, pul qazanmaq konkret işdir. Sabah uçuram!

Balaş “konkret” işin dalınca uçub Moskvaya gedir.

Bir neçə gün sakitlikdən sonra yenə gərginlik davam edir. Hakimiyyət uğrunda dava qızışır. Hər dəstə bir hakimiyyət forması təklifini ortaya atır. Konstitusiyaya görə, yeni prezident seçkisi keçirilməlidir. Ancaq üç aylıq seçki “uzundərə”sini gözləməyə neçələrinin səbri çatmır, təcili tədbir görülməsini tələb edənlər var.

Prezidentin istefasından on səkkiz gün sonra yenə də Ali Sovetin növbədənkənar sessiyası çağırılır. Sessiyada çıxış edən deputatlar Cahangir Müslümzadə, Əli Ömərov, Araz Əlizadə Ali Sovetdə yaradılan, lakin fəaliyyətsiz qalan Milli Şuranı ləğv edərək, Dövlət Müdafiə Komitəsi qurub, bütün idarəetmə səlahiyyətlərinin ona verilməsini təklif etməklə, yeni prezident seçilməsinin vacib olduğunu bildirdilər.

Çıxışlara Xalq Cəbhəsinin nümayəndələri möhkəm müqavimət göstərdilər. Salonda səs-küy qopdu. Ağız deyəni qulaq eşitmədi.

Sessiyaya qonaq kimi çağırılan Xalq Cəbhəsinin sədri Əbülfəz Əliyev söz alıb tribunaya çıxdı. Böyük hörmət sahibi olan Elçibəyə hamı diqqətlə qulaq asırdı. O, dedi: "Baş nazirlə Xalq Cəbhəsi arasında koalisyon hökumət yaratmaq haqqında məsələ həll olunub. Lakin bunun nəticəsi yoxdur... Deyirsiniz prezident seçkilərinə gedək. Prezident seçirsiniz seçin, Prezident hakimiyyəti əldə saxlaya biləçəkmi? Bir ildən sonra Xalq Cəbhəsi onu yıxmayacaq ki?.."

Onun ardınca tribunaya çıxan İsa Qəmbərov Elçibəyin mövqeyini müdafiə etdi: "Azərbaycanda hakimiyyətsizlik hökm sürür... Prezident istefa verib. Baş nazirə koalisyon hökumət yaratmaq səlahiyyəti Ali Sovetdə səsə qoyulub, keçib. Ali Sovetin sədri və Baş nazir Xalq Cəbhəsinə rəsmi müraciət edərək yeni hökumətdə onları iştirak etməyə çağırıb. Hətta koalisyon hökumətin yaranması haqqında Baş nazir Həsən Həsənov (*az sonra Yaqub Məmmədov onu rəqibi hesab etdiyi üçün vəzifəsindən kənarlaşdırıb Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatında səfiri kimi Vaşinqtona göndərəcəkdi)* və AXC sədri Əbülfəz Elçibəy arasında razılaşma protokolu imzalanıb".

Bu çıxışdan sonra spiker deyilənləri təsdiq etdi.

Yenidən salonda xaos yarandı. Yaqub Məmmədov özündən çıxıb, "Belə vəziyyətdə mən nə Prezident, nə də Ali Sovetin sədri səlahiyyətlərini icra edə bilmərəm" deyərək, iti addımlarla iclas salonundan çıxdı.

Artıq Respublikada Prezident də yox idi, Ali Sovetin sədri də...

Xeyli fasilədən sonra ərköyün spikeri dilə tutub, kürsüsünə qaytardılar. O, müzakirələri yarımçıq qoyub, iclası bağlı elan etdi.

Ali Sovetin növbəti sessiyasında uzun dartışmalardan sonra prezident seçkilərinin günü təyin olundu.

Aprelin sonunda "Aydınlıq" və "İki sahil" qəzetlərində Azərbaycan Respublikasının Konstitusiyasındakı 121-ci maddənin 2-ci hissəsindən "yaşı 65-dən yuxarı olan şəxsin prezident seçkilərində iştirak etmək hüququ yoxdur" cümləsinin çıxarılması üçün Ali So-

vetdə ona yenidən baxılması məsələsi gündəmə gəldi. Məsələ Milli Şuranın təklifi ilə iclasın gündəliyinə salınsa da, bu maddənin 69 yaşlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevlə bağlı olduğunu bilən müxalifətçi deputatlar onun səs qazanmasına imkan vermədilər.

Təcrübəli dövlət adamları, orta və yaşlı nəsil, Heydər Əliyevin gücünü görənlər, siyasətdənkənar insanlar onun hakimiyyətə gəlməsini günü-gündən daha çox arzulayırdılar. Ancaq meydanda bütün keçmiş Sovet məkanında olduğu kimi, Azərbaycanda da milli, demokratik çağırışlarla böyük nüfuz qazanan Xalq Cəbhəsi və onun çoxsaylı tərəfdarları vardı.

Ali Sovetin qarşısında Azərbaycan Dövlət Universitetinin professoru Murtuz Ələsgərovun başçılığı ilə Heydər Əliyev tərəfdarlarının mitinqi başlayıb. Meydanda adam çox olmasa da, mitinqçilər qətiyyətlidir. Onlar Heydər Əliyevin prezidentliyə yolunu bağlayan yaş məhdudiyyətinin ləğv edilməsi üçün odlu çıxışlar edirlər, bölgələrdə bu məsələyə həmrəy olan təşkilatların, insanların bəyanatlarını, məktublarını oxuyurlar. Professor Səfiyar Musayevin mitinq apardığı gün maraq üçün mən də bir saatdan artıq çıxışları dinlədim. Respublikanın indiki ağır vəziyyətində Heydər Əliyevin prezidentliyə yeganə layiq şəxs olduğu dönə-dönə vurğulanır. Ali Sovetdən qərar qəbul edilməsi tələb olunur, xalq bu məqsəd uğrunda mübarizəyə çağırılırdı. Deyilənə görə, iyirmi bir gün davam edən mitinqlər hər gün günortadan axşam hava qaralana qədər uzanmışdı. Sonra başda deputatlar Hacı Əbdül və Ağa Axundov olmaqla, bir qrup adam Heydər Əliyev tərəfdarlarını Elmlər Akademiyasının qarşısına qədər sıxışdırdılar. Yaş senzi ilə bağlı etirazlar bir neçə gün də Elmlər Akademiyasının binası qarşısında səsləndirildi. O vaxta qədər ki, Heydər Əliyev təşəbbüslərinə görə mitinq iştirakçılarına təşəkkürünü bildirdi, aksiyanı dayandırmağı tövsiyə etdi.

Ali Sovetin binası qarşısında mütəllibovçular köç saldı. Hacı Əbdül deyirmiş: “Əlhəmdülillah, meydanda sinavarlarımız (*samovarlarımız*) qeyniyir, çayniklərimiz dəmdədü, yemək-içməyimiz boldur,

indicə impırtnı (*xarici*) kolbasa da getirəceylər, bircə adamımız azdır. O da düzələr, inşaallah!"

Demə, torbada pişik var imiş.

Ölkəni, hakimiyyətdən artıq qəzetlər, radio və televiziya idarə etməkdədir. Jurnallar ayda bir dəfə çıxdığına görə hadisələrlə ayaqlaşa bilmir. Gündəlik çıxan qəzetlərə maraq daha böyükdür. Hamı səhər qəzetdən, axşam televiziyadan yeni xəbərləri öyrənmək istəyir. Sonralar bir jurnalist tanışım mənə danışacaqdı ki, Naxçıvanda Heydər Əliyevdən götürdüyüm müsahibəni aylıq jurnalda çap etdirmək istəyəndə razılaşmadı, "Qəzet yaxşıdır, tez çıxır, – dedi, – kimdir, bir ay oturub jurnal gözləyən?"

Televiziya, kütləvi informasiya vasitəsi kimi birinci yerdədir. Adamlar haqqında eşitdikləri yeniliklərin təsvirini də görmək istəyirlər.

Jurnalist Mirşahinin AzTV-də həftədə bir dəfə apardığı on beş dəqiqəlik ANS şapkalı "Xəbərçi" proqramı keçən ildən dəbdədir. Hamı "Xəbərçi"yə baxmaq üçün həftə sonunu həsrətlə gözləyir. İti danışıqlı, qırğıgözlü Mirşahin də biri-birini sürətlə izləyən süjetlərlə sanki ağzından yox, avtomat lüləsindən çıxan odlu sözləri növbəyə düzür.

Belə bir vaxtda AzTV-yə gedib gəlirəm. Bədii verilişlər redaksiyasında işləyən əməkdaşlarla ünsiyyət saxlayıram. Arabir kiçik ədəbi süjetlər üçün ssenarilər yazıb qonorar alıram. Hər gün, günaşırı televiziyanın səhərdən axşama qədər uğultusu kəsilməyən çayxanasında oturub nə qədər adamlarla tanış oluram. Bütün Azərbaycan çayxanaları kimi, bu çayxana da qaynayır, bir ucdan dolub-boşalır. Müştərilər xeyli ayıq-sayıq adamlardır. Bütün yeni informasiyalar bu binaya axır deyə, radio-televiziya işçiləri gözdən tük qapırlar. Baş verən hadisələrdən tutmuş dövlət adamlarına, ziyalılara, sənətkarlara, müğənnilərə, sıravi adamlara qədər bütün mövzularda yeni, xoruz səsi eşitməmiş xəbərlər, tutarlı məlumatlar, dedi-qodular ağızlardan çıxıb içərinin siqaret tüstüsünə, dumanına qarışır.

Günlərin bir günü Qarabağa çəkilişə gedən telejurnalist, şair dostum Ağalar Mirzənin dəvəti ilə ona qoşulub Füzuliyə yola düşdüm.

“Jiquli”də beş nəfər idik: Ağalar, operator Əli, əsli Füzulidən olan qəzetçi Nemət Veysəlli, onun həmyerlisi və bu səfəri təşkil edən sürücümüz Adil müəllim, bir də mən. Adil müəllim qıvraq adam idi. Kəndi Aşağı Veysəlli yenicə işğal olunduğu üçün maşını qəzəbdən qovrula-qovrula sürürdü. Öz kəndindən olan adamları birləşdirib kəndi necə geri qaytarmaq barədə versiyalar irəli sürürdü. Yolboyu danışa-danışa gedirdi. Elə zaman idi ki, sərhəd boyu erməni tərəfi fəallaşmışdı. Dünənəcən əllərində bel, yaba, kətmən, dəryaz tutmaqdan başqa bir iş bacarmayan kəndlilər tək-tük silahla azsaylı özünümüdafiə dəstələri yaratsalar da, rəqibin qarşısında duruş gətirə bilmir, döyüşdə itki verə-verə addım-addım geri çəkilirdilər. Bakıda sərhəd rayonlarının xeyriyyə cəmiyyətləri yaradılmışdı. Ziyalılar, fəhlələr, sənətkarlar, tələbələr, bir sözlə, bütün təbəqələrdən olan cəsur, vətənpərvər adamlar öz rayonlarının xeyriyyə cəmiyyətlərinin başına yığışır, iclaslar keçirir, topladıqları ianələrə silah, güllə və vacib bildikləri nə lazımdırsa, alıb doğma yerlərinə aparırdılar. Moskvadan, keçmiş SSRİ məkanının yaxın-uzaq şəhərlərindən təkbaşına cəbhəyə pul-para göndərənlər də az deyildi. Paytaxtdan bəzən işini-gücünü atıb, bəzən məzuniyyət götürüb, kəndinin keşiyini çəkməyə gedənlər də vardı. İstirahət günlərində narahat dədə-baba ocağına baş vurub qayıdan fərli, qeyrətli oğullar nə qədər desən! Amma bu cəhdlər, hərəkətlər azlıq edirdi.

Füzuli şəhərinə hava qaralanda çatdıq. Bakıdan gec çıxdığımıza görə yolda dayanmamışdıq, birbaşa gəlmişdik. Narahat yolda maşın bizi o qədər atıb tutmuşdu ki, özümüzü güclə dartırdıq.

Adil müəllimin bizi gecələmək üçün apardığı böyük həyət evində yenicə boşaldılmış kəndlərdən didərgin düşmüş iyirmi-qırx yaş arası kişilər məskən salmışdılar. Bir yerdə durmadıqları, içəri tez-tez girib çıxdıqları üçün saylarını bilmədim. On beş nəfərdən çox olmazdılar. Solğun, qəzəbli görkəmləri vardı, üzlərini tük basmışdı, kirin-pasın içində idilər. Ötkəm danışırdılar. Günləri səngərdə keçən bu adamlar müdafiə mövqeyini başqalarına verib, dincəlməyə gəlmişdilər.

Uzaqdan tək-tük top səslərinin gurultusu eşidilirdi. Güllə səsləri də gəlirdi. Düşmənlə dörd-beş kilometr aramız vardı. Sobanın ətrafında siqaret çəkə-çəkə bizimlə söhbət edən kişi – tarixçi Cahangir müəllim vəziyyət barədə məlumat verirdi. Dediyinə görə, rayon mərkəzindən müəyyən imkanlı adamlar ailələrini çıxarıb cəbhədən uzaq rayonlara, Gəncəyə, Bakıya göndərmişdilər. Şəhərdən başını götürüb getmək istəyənlərin sayı günü-gündən çoxalırdı. Bir neçə həyətə, evə "Qrad" mərmisi düşmüşdü. Güllədən, mərmidən ölənlərin, yaralananların sayı artmaqda idi.

Cahangir müəllim sanki Bakıdan gələnlərin gizli həyəcanını duyub dedi:

– Top səsləri çox uzaqdan gəlir. Atılan mərmilər heç şəhərin həndəvərinə də gəlib çatmaz. Bu atəşfəşanlıq əhalini vahimə içərisində saxlamaq üçündür.

Silahla davranmağın bir sirrini öyrənib sakitləşirəm.

Kişilərin bişirdiyi dadsız bozartma yeyirik. Çörək boyatdır. Cahangir müəllim silah-sursat gətirdiyinə görə Adil və Nemət müəllimə dərin təşəkkürünü bildirir. Adilin məlumatından Ağalarla mən indi öyrənirik ki, sən demə, Bakıdan gəldiyimiz "Jiquli"nin yük yerində üç "Kalaşnikov" avtomatı, bir neçə tüfəng, güllə daraqları, durbin gətirirmişik. Hətta avtomobilin salonunda da yol boyu üstündə yırğalandığımız oturacağın altında güllə qutuları gizlədilibmiş.

Səhər yerimdən cəld durdum. Şərait məni qıvraq eləmişdi. Çay içib bir tikə çörək yeyəndən sonra Adil müəllim bizi "Jiquli"sinə mindirdi. Döyüş mövqeyinə gedirdik. Çövşad kəndini keçib, səngər qazılmış bir yerə gəldik. Aralıda yenicə işğal olunub yandırılmış Hoğa kəndinin tüstüsü havada buludlanırdı. Səngərdə əlitüfəngli dörd cavan oğlan vardı. Adil onları tanıyırdı, kəndin adamlarından idilər. Qırımlarından qoçaq uşaqlara oxşayırdılar. Yerdə oturmaqdan, daşa-divara sürtünməkdən iri çəkmələri, qalın paltarları toz-torpağa bulaşmışdı. Adil birinə siqaret, konfet, peçenye dolu kağız torba verib soruşdu:

– Bəs yoldaşlarınız hanı, dörd nəfərlə səngər qoruyursunuz?

– Adil müəllim, yeddi nəfər olmalıydıq. Üç nəfər yuxarı sinif şagirdi idi. Gördük soyuğa dözmürlər, yola saldıq getdilər.

Adil müəllim sərt tonda dedi:

– Neyləyək, səngərə otopleniye (*istilik qurğusu*) çəkdirək?! Möhkəm dayanmalıyıq! Görək axırı hara gedib çıxacaq?

Hiss olunurdu ki, Bakıda yaşayan Adil müəllimin bir ayağı buralardadır, yaxasını kənara çəkmir. İrad eləməyə, ötkəm danışmağa haqqı vardı.

Operator müdafiəçiləri səngərdə silahlarını düşmənə tərəf tuşlamış vəziyyətdə lentə alır. Sonra da bizi silahlandırıb çəkir. Ağalar öz işindədir, veriliş düzəldir.

Yenidən yola düşürük. Maşında Nemət müəllim deyir:

– Əşşi, ağzısulu məktəbli uşaqlarla hərbi təlim görmüş düşmən əsgərlərinin, muzdluların qabağında dayanmaq olar? Rəhbərlik ciddi ölçü götürməlidir. Ermənilərə nə var?! Onların arxası möhkəmdir. Bütün dünya erməniləri Yerevana yardım göndərir. Xəlil Rza gecə-gündüz üç yüz milyonluq türk dünyasından dəm vurur. Burdan bura Türkiyədəki, İrandakı qardaşlarımızdan səs çıxmır.

Ağalar başqa cür danışır:

– Hər ölkənin öz siyasəti, öz dövlət marağı var. Bizə görə heç bir dövlət nizamını pozmaz. Öz ordumuzu qurmalıyıq!

Adil müəllim dillənir:

– Ordu qurmaq bir ilin, iki ilin işidir?! Bilirsiz, nə qədər vəsait lazımdır? Bütün füzulililəri cəlb eləmişəm, heç yüz nəfəri adi silahlarla silahlandıra bilmirəm. Hələ topdan, qranatamyotdan, pulemyotdan danışmıram. Yüz nəfərin geyimi, yeyib-içməyi, ailəsinin xərci bilirsinizmi, nə qədər pul aparır? Bu xərclərin qarşısında yalnız dövlət dura bilər. Könüllülər təkcə döyüşdə deyil, hər işdə könüllü hərəkət edirlər. Onları idarə etmək çox çətindir. Vətənpərvər olmağına vətənpərvərdirlər, amma komandaya axıra qədər tabe olmurlar. Bir də görürsən silahqarışıq yoxa çıxdılar.

"Jiquli"miz torpaq yola düşür. Bir az irəliləyəndən sonra yolda hərbçiyə rast gəlirik. Adil müəllim maşını saxlayır, düşüb onunla görüşürük. Məlum olur ki, yenicə yaranmış Hərbi nazirliyimizə tabe

olan batalyonun zabitidir, döyüş mövqeyindən gəlir. Qərargaha ehtiyat avtomat gülləsi dalınca gedən bu suyuşirin, qarayanız oğlan bizi döyüş mövqeyinə getməkdən çəkindirmək istəyir. İnad etdiyimizi gördükdə Adil müəllimə deyir ki, maşını yolun kənarı ilə sürün, yol minalanmış ola bilər. Bayaqdan piyada gəlirəm, bəzi yerlərdə qazıq gördüm, şübhələndim.

Yolun kənarları yovşanlıq olsa da, hamardır. Xeyli getdikdən sonra ya başımız söhbətə qarışdığından, ya da Adil müəllim çaşdığından döyüşçülərimizin mövqe qurduğu yüksəkliyin arxasına keçmək əvəzinə qabağına gəlib çıxırıq. Maşından düşən kimi gülləyə tutuluruq. Başımızın üstündən atılan güllələr bizimkilərin mövqe tutduğu qayalığın yaxasında vıyıltı qoparır. Kənardan qışqırıq səsi eşidirik:

– Yerə yatın, tərpənməyin!

Paltarlı-palazlı yerə sərilirik. Yaxşı ki, qarşımızda daldalana biləcəyimiz alçaq təpə var, yerə uzanmış bizləri qoruya biləcək hündürlükdədir.

Güllə yağışı davam edir, getdikcə güclənir. Güllə qabağında dayanmaq zarafat deyilmiş.

İndi anlayıram ki, yol yoldaşlarım kimi, mən də axmaqlıq eləmişəm. Bayaq rast gəldiyimiz zabit bax, bu həngaməyə görə istəmirmiş atəş xəttinə gələk. Görünür, müharibənin nə olduğunu hələ dərk etmirik.

Birdən top atılır. Səsdən qulaq tutulur.

Atəş açan bizimkilərmiş. Topdan sonra güllə səsləri ara verir. Qarşımızda səngər varmış. Səngərdən bir zabit başını qaldırıb əmr edir:

– Mənə tərəf sürünün!

Zabitə sarı sürünməyə başlayırıq. Əynimdə ağ uzun plaş, dirsəklərimlə, ayaqqabılarımın burnu ilə yeri eşə-eşə irəliləyirəm. Boynumda qalstuk da var. Öz-özümə deyirəm: "Ay əbləh, ağlı-başı üstündə olan adam da bu paltarda döyüş meydanına burnunu soxar?! Məhsul bayramına, yoxsa iclasa gəlmisən?"

Qarınlı olsa da, Nemət müəllim qabaqdadır. Güləcəksiniz, desəm ki, onun əlində meşin qovluq var. Jurnalist ki, jurnalist. Gö-

zündən-başından cinbalalıq yağan operatorumuz arxada qalıb, həm canını, həm də kamerasını qoruyur. Qan-tər içində səngərə enirik. Səngər enli qazılıb. Baxıb dodaqaltı sayıram, bizi on altı nəfər qarşılayır. Üzümüzdə həyəcan, qorxu görən əlində binokl tutmuş əsgər deyir:

– Bizimkilər top atan kimi ermənilər pərən-pərən düşdülər. Onlar təzəcə mövqe qururlar, hələ topları yoxdur.

Başqa bir əsgər komandasız-filansız sanki bizim qorxuluğumuzu götürməkdən ötrü əlindəki avtomatın lüləsini səngərin üstündə əvvəlcədən düşmənə tərəf qoyulmuş qalın və iri düyməli trubanın içərisinə tutub ardıcıl atəş açır, tükürpədən vahiməli səs çıxardır. Sonra atəşi kəsib izahat verir:

– Trubanın içərisində atanda avtomat üç dəfə artıq səs çıxardır, düşməni çaş-baş salmaq üçün icad etmişik.

O, bizə uğurlu sirk nömrəsi göstərib qurtarmış jonqlyor kimi gülümsəyir. Üzü üzlər görmüş qıvraq operatorumuz kürəyini səngərin divarına söykəyib oturaraq yerini rahatlayır və cibindən təzə "Bakı" siqaretinin qutusunu çıxardıb açır, əsgərlərə təklif edir. Əsgərlərin hamısı siqaret çəkənmiş. Hərəsi bir siqaret götürüb, damağına qoyur. Adil müəllim də, Ağalar da siqaretə əl uzadır. Qutuda axrıncı güllə kimi son siqaret qalır. Operator kibritlə damaqlardan ona sarı uzanmış siqaretləri alışdırır. Elə bil, bayram şamları yandırır. Araya şuxluq qatmaq üçün kameranı göstərib bizə deyir:

– Səngərə tərəf sürünəndə sizi çəkirdim. Öldürülsəydiniz, əla kadrlar çıxacaqdı. Bütün dünyaya göstərmək olardı. Bu saat jurnalistlərin ölümü ən populyar hadisədir. Hayıf, güllə sizi tutmadı, lentlərim zay oldu.

Hamımız gülüşürük.

Sonra uzanan səngərlə əsgərlərimizin təpəsində top qurduqları qayanın arxasına keçdik. Dörd əsgərimiz də burdaymış. Bir əsgər Adil müəllimin "Jiquli"sini qayanın arxasına keçirdəndə yenə atəşə tutuldu. Yaxşı ki, cəld tərpənib maşını daldaya keçirdir. Maşından düşüb, "Jiquli"nin üstündəki güllələrin sıyırdığı yerləri bizə göstərir. Adil müəllim heç nə olmamış kimi maşının yük yerindən çıxartdı-

ğı bir neçə blok siqareti, bir ərzaq bağlamasını əsgərlərə bağışladı. Sovqat bizi bir az da isinişdirdi. Biz getmək istəyəndə caydaq bir əsgər dilləndi:

– Qalın, bir azdan kabab çəkəcəyik, yaxşı zoğal arağımız da var.

Adil müəllim dəstənin başını çəkməsəydi, şəxsən mən qalıb əsgərlərimizin yeyib-içmək məclisini görmək istəyərdim. Birbaşa rayon mərkəzində yerləşən hərbi hissəyə gəlib, içəri keçirik. Başçımıza görə bizdən sənəd-zad istəyən yoxdur. Geniş həyətdə xeyli əsgər var. Nizamsızdırlar. Topa-topa yığışıb söhbət edir, siqaret çəkirlər. İki-bir, üç-bir hərlənənlər də az deyil. Adil müəllimlə Nemət müəllim rəhbərliklə görüşməyə gedir. Topalardan birinə yaxınlaşırıq. Yeni çağırışçılarmış, iki həftədir əsgərliyə başlayıblar. Hələ hərbi and içməyiblər.

Ağalar onları söhbətə tutmaq istəyir. Operator kamerasını çiyninə qoyub, hazır dayanır. Amma əsgərlərdən nisbətən yaşlı olanı qabağa çıxıb acıqlı-acıqlı deyir:

– Efirdə görünmək istəmirik. Hökumət başımızı aldada bilməz. Varlı balaları öz keflərindədir, kasıb-kusub balalarını, yetim-yesiri güllə qabağına göndəriblər.

O biri əsgərlər onun səsinə səs verirlər. Operatorumuz kamerasını yanına salır.

Yeni Müdafiə naziri təyin olunmuş Rəhim Qazıyevin hökmü hələ bunlara gəlib çatmayıb. Əsgərlər komandanlığın əmrini gözləmək əvəzinə, öz anlaqlarına və dünyagörüşlərinə uyğun vəziyyəti dərk etməyə çalışırlar. Nə doğulduğum şəhərdə yerləşən hərbi hissədə, vaxtilə gördüyüm sərt hərbi şəraitdən, nə də izlədiyim filmlərdəki əsgər nizam-intizamından burda əsər-əlamət var. Özüm əsgər olmamışam. Universitetdə hərbi kafedra olduğuna görə qırx gün Lənkərandakı hərbi hissədə təlim keçmişəm.

Yoldaşlarımız bir zabitlə qayıdıb gəlirlər. Zabit Ağalara xüsusi ehtiram göstərir. Bizi arxasınca salıb aparır. Üstündə "Anbar" yazılmış balaca tikilinin qabağında dayanırıq.

Zabit dillənir:

– Anbarda əsir saxlayırıq. Keçən ay bir zabitimizin kiçik qardaşının başını ermənilər kəsib. O da əsirin boğazını üzmək istəyirdi, qoymadıq.

Zabit cibindən yekə açar çıxarıb, qapıdan asılmış iri qıfıla salır. Dörd gözlə onun hərəkətlərini izləyirəm. Sanki indi anbarın içərisinə girib divlə, yeddibaşlı əjdaha ilə üz-üzə gələcəyəm. Elə bil heç erməni görməmişəm. Qarabağda qarışıqlıq salan erməni saqqallılarının adı gələndə hər bir azərbaycanlı kimi mən də həmin anda gözlərindən bizə qarşı kin-küdurət, qəzəb, nifrət yağan, qanımızı içməyə hazır olan bir hannibal obrazı təsəvvür edirəm. Bədənim yay kimi dartılır. Ancaq anbara girib əsir görüncə içimdə öz-özümə gülürəm. Mağmın, boynubükük, əynində köhnə-kürüş paltarı, başında əzik-üzük, it ilindən qalma, bir qulağı sallaq papağı olan, üzünü tük basmış orta yaşlı bir kəndlidir. Ayaq üstə qırxı çıxıb. Aydın görünür ki, ömrü ağır zəhmət-zillət içində keçib. Onun kiminsə çağırışının arxasınca getməyə heyi yoxdur. Zabit deyəndə ki: "Tutulanda qayışı boynuna keçirilmiş silahı varmış", məsələ aydın oldu. Onun boynundan xaç əvəzinə silah asmışdılar. Adam bizdə heç bir düşmənçilik hissi doğurmur.

Yadıma üç il əvvəl avtomobil qəzasında ölmüş yazıçı Vidadi Məmmədov düşür. 1988-ci ilin noyabrında Azadlıq meydanındakı mitinqlərdə beyni qızmış natiqlər arvadı erməni olanlara üz tutub deyirdilər ki, "haxçi"ləri boşayın. Dostları Vidadiyə ilişəndə yazıçı qəh-qəh çəkirdi:

– Mən erməni qızını alıb bəxtəvərliyə çıxartmamışam ki... Bədbəxt eləyib saxlamışam da yanımda.

Buna oxşar başqa əhvalat da var: "Altmışıncı illərdə Xalq şairi Məmməd Rahim ermənilərin Xalq şairi Avetik İsaakyanın bir kitab şeirini ruscadan dilimizə çevirib çap etdiribmiş. Üçüncü bir Xalq şairi Süleyman Rüstəm şeirin suyunun suyu olan tərcümənin çox yarıtmaz olduğuna eyham edərək zarafatla deyirmiş:

– Rahim daşnaklardan hayıfımızı aldı".

Zabit əsiri vecsiz saydığımızı görüb dillənir:

– Bu yaramazı əsir düşmüş adamlarımızla dəyişmək üçün saxlayırıq.

Hərbi hissədən çıxıb Bakıya üz tuturuq. Adil müəllim gecə yarısı bizi mənzil başına çatdırır.

Bakının başı prezident seçkilərinə qarışıb. Respublikada möhkəm siyasiləşmə gedir. Əlbəttə, Azərbaycan Xalq Cəhbəsi öndədir, tərəfdarlarının sayı-hesabı bilinmir. Sıraları gündən-günə genişlənir. Mitinqləri idarə edir. Müxalifət qəzetlərinin cilovu əllərindədir, hakimiyyətdəki narazılardan dəstək alırlar və nəhayət, Qarabağda, Ermənistanla sərhəd rayonlarda yaradılan silahlı dəstələr onların ağzına baxır.

Faktiki olaraq respublikada ikihakimiyyətlilikdir. Hələ ki xalq qarşısında heç bir cavabdehliyi olmadığına görə Xalq Cəhbəsi hakimiyyəti üstələməkdədir. Hakimiyyət mənasında işlənən, o zaman Türkiyə türklərinin dilindən götürülmüş "iqtidar", "müxalifət" sözləri burun-burunadır. Buraxılmış səhvlərə, çatışmazlıqlara, qarışıqlığa, gündəlik gərginliyə, qaçqınlara, inflyasiyaya, işsizliyə, özbaşınalığa və hər şeyə görə bütün məsuliyyət iqtidarın boynundadır, döyülən, söyülən odur. İqtidardakılar hakimiyyətlərini qorumaq üçün problemlər içərisində çabalayır, vurnuxur, çıxış yolu tapmağa çalışır, müxalifətdə duranlar isə zəif iqtidarı tənqid etməklə, gözdən salmaqla məşğuldur. Xalq Cəhbəsinin mərkəzinə, yerli şöbələrinə şəxsi işləri, məişətləri ilə bağlı axın-axın şikayətçi gəlir. Bəziləri istəyinin yerinə yetirilməsi üçün "Sizdən Xalq Cəhbəsinə şikayət edərəm ha!" deyə rəsmi şəxslərə "xox" gəlməyə, onları qorxutmağa çalışır. Bu yolla işlərini aşıranlar da olur. Düşünürəm ki, müxalifətdə durmaq necə də asandır.

Böyük nüfuzu və xeyli tərəfdarı olan Milli İstiqlal Partiyasının sədri Etibar Məmmədov da üzdədir. Bu balacaboy, diribaş və çevik oğlan istənilən yerdə etdiyi bir nitqlə kütləni yerindən oynada bilir.

Respublikada prezident olmaq istəyənlərin sayı o qədər də az deyilmiş. Namizədlər bir ucdan qeydə alınır. Bunlar kimlərdir? Ali Sovetin sədri, Prezidentin səlahiyyətlərini icra edən Yaqub Məmmədov, Ali Sovetin sədr müavini, Doğru Yol Partiyasının sədri Tamer-

lan Qarayev, Azərbaycan Xalq Cəhbəsinin sədri Əbülfəz Elçibəy, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Etibar Məmmədov, Respublikanın keçmiş Baş Prokuroru İlyas İsmayılov, akademik Nizami Süleymanov Azərbaycan Xalq Demokratik Partiyasının sədri Rafiq Turabxanoğlu. Hələ namizədliyini verib, qeydə alınmayanlar nə qədərdir?

Sonralar yazıçı Anar danışacaqdı: “1992-ci ilin aprel ayı idi. Prezident seçkilərinə namizədlər qeydə alınırdı. Növbəti iş günlərinin birində kabinetimin qapısı döyüldü. “Buyurun!” deyincə, Yazıçılar Birliyinin üzvü, ədəbiyyatşünas alim Gültəkin Bakıxanova içəri girdi. Əyləşən kimi dedi:

– Anar müəllim, bilirsiniz, nədən ötrü gəlmişəm?

– Deyərsiniz, bilərəm.

– İstəyirəm, Prezidentliyə namizədliyimi verəm.

– Verin də!

– Namizədliyimi Yazıçılar Birliyi versin. Axı, bir təşkilatı təmsil etməliyəm.

Bir anlıq bu xanımı Prezident kimi təsəvvür etməyə çalışdım, ancaq yönlü bir şey düşünə bilmədim.

Dillənməyə məcbur oldum:

– Gültəkin xanım, bizim öz namizədimiz var!

– Kimdir? – maraqlandı.

– Vidadi Babanlı! – zarafatla yarım saat əvvəl tamamilə başqa məsələdən ötrü yanıma gəlmiş yazıçının adını çəkdim.

Qadın sözümə ciddi yanaşdı:

– Bağışlayın! Bağışlayın! Bilməmişəm, – deyib ayağa durdu, kabineti tərk etdi”.

Anarın başına gələn əhvalat, yəqin ki, başqa yerdə başqalarının da rastına çıxıb. Prezident olmaq çoxlarına asan gəlirdi. Niyə də gəlməsin? İdarəetmə işində heç bir təcrübəsi olmayan alimlər, müəllimlər, fəhlələr, işsizlər prezidentliyə namizədlik üçün sənəd toplayırdılarsa, Vidadi Babanlının namizədliyi niyə təəccüblü görünməli idi?!

Nədənsə Azərbaycan Xalq Demokratik Partiyasının sədri Rafiq Turabxanoğlunun namizədliyi şair-publisist Tofiq Abdinə maraq-

lı gəlmişdi. "Qobustan" jurnalının redaksiyasında məni görüb, bu barədə söhbət saldı və dedi ki, fəhlədir, siyasi baxışlarına görə yatıb çıxıb, gedək həm yaxından tanış olaq, həm də ondan qəzetlərin biri üçün müsahibə götürək.

Soraqlaşıb Rafiq Turabxanoğlunun partiyasının yerləşdiyi ünvanı tapdıq. "Nərimanov" metrosunun yanındakı fəhlə yataqxanasının birinci mərtəbəsində iki otaq vermişdilər onun təşkilatına.

Başı tünlük deyildi, bizi dərhal qəbul etdi. Məlum oldu ki, bu partiya Azərbaycan Xalq Cəbhəsinin, onun lideri Əbülfəz Elçibəyin rəğbət göstərdiyi bir siyasi qurumdur. Sədr Sumqayıtdan olduğundan ətrafındakılar əsasən sumqayıtlılardır. Partiya turançılıq xətti yeridirmiş. Rafiq bəyin xoş siması, sadəliyi, dinləmək mədəniyyəti, səmimi münasibəti Tofiq Abdində də, məndə də rəğbət oyatdı. XIV-XV əsrlərdə yaşamış Azərbaycan şairi İmadəddin Nəsiminin dünyagörüşünü partiyasının ideologiyası kimi qəbul edirdi, məşhur hürufinin poeziyasında türk dünyasını birləşdirən çoxlu bağlar tapmışdı. Onun düşüncəsinə görə, "Məndə sığar iki cahan, mən bu cahana sığmazam!" beyti məhz bizlər üçün yazılmışdı və cahana sığmayan türklər haçansa "Kamil insan" kimi dünyaya sahib olacaqdı. Partiyanın mavi rəngli bayrağının ortasında ağzını göyə tutub ulayan bozqurd şəkli vardı. Azərbaycanın parlaq gələcəyini türklərin birliyində görürdü.

Rafiq bəydən geniş müsahibə götürüb işimizi bitirdik. Tofiq Abdin turançılıq ideyasını özünə yaxın buraxmırdı, hiss etdim ki, yeni tanış olduğumuz siyasətçi ilə onun son görüşüdür. Bunu Rafiq bəy də duydu, diqqətini mənə yönəltdi. Üç gün sonra keçirəcəkləri partiya yığıncağına dəvət aldım.

Üç gün sonra Rafiq Turabxanoğlu ilə bizim müsahibə çap olunmuş "Yeni fikir" qəzetini götürüb, Azərbaycan Xalq Demokratik Partiyasının başqa binada keçirilən iclasına getdim. Sədr giriş sözü ilə xeyli danışandan sonra gözləmədiyim halda və razılığımı almadan natiq kimi sözü mənə verdi. Millət, mənəviyyat, turançılıq, Nəsimi yaradıcılığı barədə mülahizələrim coşqun alqışlarla qarşılandı. Deyəsən, bu partiya üzvləri arasında güclü natiq yox idi, çıxışım

hamının ürəyincə olmuşdu. Yığıncaqdan sonra yubanmadan məni, necə deyərlər, “qol-qıç eləyib” partiyanın qucağına atdılar. Bircə həftənin içərisində artıq sədrin sevimli adamı, partiyanın fəal üzvü idim. Axır ki, özümə gedən yer tapmışdım. Görüşlərdə odlu çıxışlar edirdim, təzə dostlar, yoldaşlar qazanmışdım. Uzun müddət Kommunist Partiyasının üzvü olmuş atama AXDP-nin üzvü olduğumu deyəndə və partiya barədə məlumat verəndə qımışdı, amma bir söz demədi, hiss elədim ki, bu işə ciddi baxmadı.

Partiyaya yaxınlıq etdikdən sonra bildim ki, Bakıya Türkiyədən, türk dilli müstəqil, muxtar respublikalardan, vilayətlərdən, toplumlardan çoxlu qonaqlar gəlirmiş. Hətta uzaq Yakutyadan, Xakasiyadan, Altaydan gələn qonaqlarla – bizim kimi siyasətə son illərdə qoşulmuş əksəri tarixçi alim, yazıçı olan ziyalılarla tanış olurdum. Tale belə gətirəcəkdi ki, iki ay sonra, prezident seçkiləri ərəfəsində Mədəniyyət Nazirliyinin göndərişi ilə Bakıdan Moskvaya, ordan da yenicə formalaşdırılıb “Saxa Respublikası” adlandırılan üç milyon iki yüz min kilometrlik nəhəng əraziyə malik bir ölkənin paytaxtı Yakutska səfərə yollanacaqdım. Onların da bizim Novruz bayramı kimi bayramı varmış. Biz yazın gəlişini bayram edirik, onlar yayın. Evlərin dayaq üstə tikildiyi buzlaq diyarda ildə ikicə ay havalar xoş keçir. YUNESKO xəttilə keçirilən Isax (*Is – isti mənasında*) bayramına ABŞ-dan, Çindən, Fransadan, Norveçdən, Moskvadan, Orta Asiya respublikalarından nə bilim, daha haralardan xeyli qonaq çağırmışdılar. Azərbaycandan gəldiyim üçün özümə qarşı xüsusi hörmət görürdüm, onların da milli hissləri oyanmışdı. Görən-görən “Kan tartır!”, yəni “Qan çəkir!” deyib öz doğması kimi məni bağrına basırdı.

Böyük sərnişin gəmisində Ob çayının bizim Kürdən enli qolu olan Vilüydə bir həftə o başa, bu başa min kilometr üzdük. Gecələr yol gedir, gündüzlər çayın sahilindəki şəhərlərdə el bayramlarına qoşulurduq, çıxışlar edirdik. Hər tərəf ağcaqanad olduğuna görə, ilk gündən hərəmizə at quyruğundan hazırlanmış şallağa oxşayan bir yelpik vermişdilər. Yelpiksiz keçinmək, sadəcə, mümkün deyildi. Arada yakut dostlarım məni qızışdırıb “xapsaqay” (*qapış – güləş*)

yarışına da qoşdular. Amma əzələləri şişkin, güclü rəqibim qonağa əl bulaşdırmadı, gülümsəyərək boynumu qucaqlayıb məni dostlarımın yanına ötürdü. Nürba şəhərində gördüyüm şölən olmasaydı, bəlkə Saxa səfərimdən yazmazdım. Şimal qütbünə yaxın olduğu üçün yay vaxtı buranın bircə saat gecəsi olurmuş. Bizi saata uyğun erkən oyadıb, şölən qurulan yerə gətirmişdilər. Geniş çevrə cızan məclisin ortasında tonqallar qalanmışdı. Milli paltar geyinmiş qızlar piyalələrdə qımız paylayırdılar. Uzun saçlı, ağ paltarlı, əllərində iri qavallar tutmuş şamanlar dualar oxuyub, Günəşi çağırırdılar. Hava tutqun idi, buludlar göyün üzünü örtmüşdü. İsti ölkədən gələn mən Günəş həsrəti çəkən yerli adamların arasında Günəşə həmyerlisi kimi tanışlıq verib, görünməyə dəvət etmək həvəsinə düşmüşdüm. Amma Günəş bu saat nə məni, nə o biri qonaqları, nə də yerliləri sayırdı, bizim tərəflərdə öz kefindəydi. Şamanlar bəd ruhları qovmaq üçün nə qədər dualar oxusalar da, nə qədər özlərini həlak eləsələr də, xeyri olmadı – buludlar göyün üzündən çəkilmədi. Axırda şamanların böyüyü elan etdi: “Biz insanların günahı o qədər çoxdur ki, Tanrı bizə qəzəblidir, Günəşi gizlədib.”

Şölənin başa catmasına sevindim, qımızdan qarnım pozulmuşdu. Deyəsən, zəmanə hər şeyi gözümüzdən gətirdiyi kimi, xatirəmin də axırı yaxşı qurtarmadı.

Elə vaxta gəlib çıxmışdıq ki, nə şaman, nə rahib, nə ravvin, nə molla bəd ruhları başımızın üstündən qova bilmirdi. Amma biz də həvəsdən düşmürdük, ciyəbaz kimi kəndirin üstündə tullaqlanırdıq.

Bakıda üzləşdiyim bir mənzərəni təsvir edim: Yenicə “İstiqlaliyyət” adlandırılmış gur gediş-gəlişli baş küçəmizdə şəklini qəzetlərdə gördüyüm və haqqında eşitdiyim Cənnətə rast gəldim. Yetimxanada böyümüş, Naxçıvanda ali təhsil almış, sonra Qorbaçovun ölkədə xırda biznesə meydan verməsindən əl-qol açıb, Rusiyanın Sverdlovsk şəhərində kooperativ yaradaraq Bakıdan vurulan qərənfil alverindən yaxşı pullanıb gəlmiş bu dəliqanlı qəribə hərəkətləri ilə diqqəti cəlb edirdi. O, iri, yaşıl islam bayrağının üstündə “Quran”dan ayələr yazdıraraq teleqüllənin başından asdırmış, metaldan Həzrət Əli Əleyhissəlamın ağzı haçalı “zülfüqar”ına oxşar on bir metrlik

qılınc hazırlatdırıb, fonunda şəkil çəkdirərək hansısa qəzetdə çap etdirmişdi. Deyilənə görə, bir dəfə də özünə dəfn mərasimi düzəltdirərək, diri-diri içində tirlənib uzandığı tabutu dostlarının çiyninə götürdüb videoya aldırmışdı, kefi gələndə xudmani məclislər qurub kino göstərirdi. İndisə indus kimi uzun saçları çiyinlərinə tökülmüş halda, sağ əlində keşiş əsası, başında ravvin kipası-araqçını, müsəlman mollası sayaq üzündə nazik xətti, sol əlində təsbehi, boynunda xaçı, nümayişkəranə şəkildə küçədən keçirdi. Maraqlanıb kimliyini soruşanlara deyirdi ki, sülh carçısıdır, insanları birləşdirməyə çalışdığı üçün bütün dinləri eyni vaxtda qəbul edib, dilindən, dinindən asılı olmayaraq, hamının dostu, qardaşıdır. Cənnət küçədə özünü göstərməklə işini bitmiş hesab etmirdi. Müxtəlif dinlərdən olan dindaşlarının rəğbətini qazanmaq üçün məscidə cümə namazına gedir, kilsədə moizələrə qulaq asır, kirxada dini orqan konsertlərində iştirak edir, sinaqoqda ibadətlə məşğul olanlarla bir cərgədə dayanır, Suraxanı atəşgahında kahinə dönüb saatlarla gözlərini bir nöqtəyə zilləyir, induslara qoşulub "Rama-Rama" oxuyurdu. Doğrudanmı, Bakıda, Azərbaycanda hər kəs bütün dinləri qəbul etdiyini aləmə car çəksəydi, dünyanın diqqətini özümüzə yönəldə bilərdik, təcavüzlərdən canımız qurtarardı?!

Bakıdakı səfirliklərin rəhbərləri bərk əl-ayağa düşmüşdülər, partiya sədrləri olan prezidentliyə namizədlərlə tez-tez görüşürdülər. Hələ ki hamısına ciddi yanaşırdılar. Hakimiyyətə kim gəlsəydi, onların əhd-peyman bağladığı lider olacaqdı.

Məşhur beynəlxalq neft şirkətləri də marıqda idilər. 1989-cu ildə SSRİ-də birgə müəssisələrdə xarici tərəfdaşların iştirakına icazə verən "Müəssisələr haqqında qanun" qüvvəyə minən kimi beynəlxalq neft şirkətləri Bakıya ayaq açdılar. Tez-tez hakimiyyət dəyişiklikləri onların işini ləngidirdi. Keçmiş Prezidentlə Azərbaycan neftinin məsələsini həll edə bilməmişdilər. Ayaz Mütəllibov Xəzərdə çıxarılacaq neftə, nədənsə yalnız Amerika Birləşmiş Ştatlarının "Amoko" şirkətini cəlb etmək istəyirdi. "Azneft"in sədri Sənan Əlizadə danışıqlar aparmışdı. Müxalifət müqavilə şərtlərini lağa qoymuşdu, iş pozulmuşdu. AXC hakimiyyəti zamanında "Britiş Petroleum" irə-

li buraxılacaq, ilkin sənədlər imzalanacaq, hətta bonus alınacaqdı. Hakimiyyət dəyişikliyi danışıqları yarımçıq qoyacaqdı. Təcrübəli şirkət rəhbərləri işlərini möhkəm tutmuşdular. Onlar müqavilənin şərtlərinə hakimiyyət dəyişikliyinin prosesi yarımçıq qoymayacağı maddəsini də salmışdılar. İl yarım sonra dünyanın bir çox neft şirkətləri ilə "Əsrin müqaviləsi" ən sərfəli şərtlərlə yeni Prezident Heydər Əliyevin zamanında bağlanacaqdı.

Heydər Əliyev neft müqaviləsindən həm də Azərbaycanın siyasi məqsədləri üçün istifadə etdi. Əgər əvvəlki hakimiyyət rəhbərləri bu işdə Azərbaycanın və Qərbin mənafelərini nəzərə alırdısa, Heydər Əliyev "Britiş Petroleum"un qanadları altında regionda az-çox təsiri olan bütün ölkələrin maraqlarını bölüşdürürdü.

Prezidentliyə namizədlər tanınmış xarici siyasətçilərlə, elm, mədəniyyət xadimlərilə görüşürdülər, qurduqları ünsiyyətlə qürrələnir, özlərini ali kürsüdə təsəvvür edirdilər.

Axşamüstü atam zəng elədi. Dedi ki, Qara ikigünlüyə evdədir, vaxtın varsa, dur gəl, görüşün. "Azneft" meydanından taksiyə minib özümü evimizə çatdırdım. Demə, anamın qan təzyiqi yenə də kəlləçarxa qalxıbmış, Qaranı arzuladığına görə atam qardaşımı iki günlüyə gətirdibmiş. Yaxında olduğum üçün məni çağırmağa tələsməyiblər. Anamın gözlərinin dərinliyində nigarançılıq vardı. Atam da fikirli görünürdü. Bir azdan qardaşım qapıdan girdi, dediyinə görə, arxa küçədəki tay-tuşları ilə görüşdən gəlirdi. Yüngülcə qucaqlaşdıq. Elə bil, biri-birimizə yadırğamışdıq. Fikri bəlkə də Şuşada qoyub gəldiyi yoldaşlarının, Bakıdakı sevgilisinin yanında idi. Çünki bayaq içəri girəndə ağzından qaçırtdı ki, sabah səhər mənimlə Bakıya gedib, axşam geri qayıdacaq.

Atam anama dərmanlarını içirdirdi. Anam narahat olmasın deyə nə mən, nə də qardaşım gəldiyimiz yerlərdən danışmırdıq. Mənə qədər Qara evimizdə nə söhbət etmişdi, bilmirdim. Atam isə, demə, keçən həftə şəhər ictimaiyyətinin toplayıb cəbhə bölgəsinə göndərdiyi pal-paltar, sovqat, dərman ləvazimatları, daha nələrlə dolu dörd yük maşınına rəhbərlik edirmiş. Yükü Ağdama təhvil verib, qayıtmışdı.

Yəqin atam bu söhbəti evimizdə xoş ovqat yaratmaq üçün mənə eşitdirirdi. Hətta, söhbətinə onu da əlavə etdi ki, hərbçilər üçün başqa rayonlardan da maşın karvanları gəlmişdi. Yəni, dediyi odur ki, xalqımız boş oturmayıb, əmin-amanlığa çıxmağımızdan ötrü əlindən gələni edir. Amma atam anamı ətraf mühitdən, radiodan, televizordan, qəzetlərdən aralaya bilməzdi, o da baş verənlərdən xəbər tuturdu.

Gecə Qara ilə həyətdə xeyli söhbətləşdik. Şuşada vəziyyətin qorxulu olduğundan danışırdı. Deyirdi, şəhərdə özbaşınalıqdır, hərə bir tərəfə çəkir, ağızbirliyi yoxdur. Müdafiə işləri bir komandanlıqdan idarə olunmur. Polis, hərbçilər, Xalq Cəbhəsinin könüllüləri sanki ayrı-ayrı dövlətlər üçün vuruşur. Hətta ərzaq bölgüsündə narazılıq var. Bir ay əvvələ qədər Şuşa hərbi komendantı olmuş Rəhim Qazıyevin bir deyimi dillərə düşüb. O deyirmiş ki, squşonka (*qatılaşdırılmış şirin süd*) yeməkdən az qalır polislərin döşlərinə süd gəlsin, hərbçilərə isə baxan yoxdur.

Vəziyyəti ən çox qorxulu edən küçələrdə saysız-hesabsız yük "Kamaz"larının dayanmasıdır. Şəhər əhalisi olan-qalanını "Kamaz"lara yükləyib köçür. Hamı çaşqınlıq içindədir. Sinəsini irəli verib qabağa duran bir komandan, bir rəhbər yoxdur. Şəhər boşaldıqca müdafiəçilərin döyüş ruhu sınır. Düzdür, müharibə qanunlarına görə, dinc əhalini atəş altında saxlamaq olmaz. Amma biz fəal müharibə aparmırıq, axı! Xocalı qırğınından sonra heç kəs dövlətə bel bağlamır. Vuruşmaq istəyən polislər, əsgərlər, könüllülər az deyil. Məncə, biz müdafiə olunduqca, ermənilər güc toplayır, bir gün hücüma keçəcəklər. Onları qabaqlayıb Xankəndini də ala bilərik, o biri yerləri də.

Qara Şuşada Heyva arvadı gördüyündən danışdı. O, qardaşımdan çəkinmədiyi üçün Şuşaya nədən ötrü gəldiyinin səbəbini gizlətməyib. Demə, arvad tapança alverinə qurşanıbmış. Atamdan da eşitmişdim ki, şəhərimizdə silah alış-verişi başlayıb. Silahlar müxtəlif məqsədlər üçün alınırdı. Kimi qarışıqlıqda ailəsini oğrulardan, quldurlardan qorumaq üçün, kimi erməni xofunun təsiri ilə, kimi də özünü göstərmək, forslanmaq üçün. Son vaxtlar toylarda atəş səsləri

eşidilirdi. Borc, qumar, alver mübahisələrini, şifahi dildə deyildiyi kimi, "razborka"ları həll edən "vorzakon"lar silahlı idi. Təkcə şəhərimizdə yox, Bakıda, Gəncədə, rayonlarımızın əksəriyyətində türmədə ad almış lotular günü-gündən üzə çıxıb parlayırdılar. Lotuların yan-yörəsində xüsusi adamlar, yəni "şillələvuranlar" vardı. Özbaşınalıq artdıqca, onların təsir dairəsi genişlənirdi. Atam Moskvada, Bakıda, bizim bölgədə məşhurlaşmış sabirabadlı Hikməti görmüşdü. Danışırdı ki, Hikmət Sabirabad şəhər bazarının arxasındakı Tonuğun çayxanasında ikiqarışlıq belində tapança, qabağında pürrəngi çay şəstlə oturub, təsbeh çevirirdi. Beş-altı nəfər də dediklərinə dəm tuturdu. Müşkülə düşənlər hüzuruna gəlirdilər. Doğrudan da, Hikmət yerli hökumətdən kəsərli idi, çox adamların işini düzüb-qoşurdu, mübahisələri həll edirdi, oylağını genişləndirirdi. Ona təhlükəsizliyi üçün aylıq "haqq" verən idarə, təşkilat, bazar, mağaza, restoran müdirləri vardı.

Sonralar bir dəfə Bakıda tanınmış bir adamın yasında təsadüfən Respublika daxili işlər naziri Ramil Usubovla üz-üzə oturmuşdum. Söz sözü çəkdi, bir əhvalat danışdı: "Təzəcə nazir təyin olunmuşdum. Bir gün səhər Heydər Əliyevin köməkçisi məni cənab Prezidentlə calaşdırdı. Heydər Əliyev telefonda həmişəki kimi birbaşa mətləbə keçdi:

– Ramil Usubov, Bakıda bir ifadə işlədirlər; "Qanuni oğru!" Nə deməkdir onun mənası?

– Sizi başa düşdüm, cənab Prezident! – deyə cavab verdim. Axşam bu barədə məruzə edərəm!

Heydər Əliyev dəstəyi asan kimi dərhal əməliyyat müşavirəsi keçirdib qanuni oğruları, "vorzakonlar"ı həbsə aldırmağı əmr etdim.

Əməliyyat uğurla nəticələndi, kriminallar həbs edildi, onların yaşadıqları mənzillərdən çoxlu soyuq və odlu silahlar, narkotik vasitələr tapıldı.

Həmin günün gecəsi – Heydər Əliyev gecə yarısına qədər işdə olurdu – telefonla Prezidentə məruzə etdim:

– Cənab Prezident! Tapşırığınız yerinə yetirildi.

O, dedi:

– Ramil Usubov, hər kəs yadında saxlasın: Heydər Əliyev hakimiyyətində qanunlar var, qanuni oğrular yox!"

Ertəsi gün səhər atam, qardaşım və mən anamın hazırladığı süfrə başında əyləşib yemək yedik, çay içdik. Axırda anam da bizə qoşuldu. Demə, bu, bizim dördümüzün axırıncı dəfə birgə yemək yeməyimiz olacaqmış, hardan biləydik?!

Bir azdan atamla anam bizi həyət qapısından yola saldı. Bakıya çatanda qardaşım vaxtı az olduğu üçün "Bakı Soveti" metrosunun qabağında məndən ayrıldı.

Evdən anama zəng vurub mənzil başına çatdığımızı bildirdim, halını soruşdum. Səsi dünənkinə baxanda elə bil bir az durulmuşdu. Həmişəki kimi özümü qorumağımı tapşırdı. İstədim deyəm ki, ay ana, sən özündən muğayat ol. Amma demədim, sözümü dilimin ucundan qaytardım, xəstəliyini yadına salmaq istəmədim. Sonra kitab şkafından Nəsiminin "Seçilmiş əsərləri"ni götürdüm, divana uzanıb kitabı vərəqləməyə başladım. Nəsiminin qəzəllərində partiyamızın karına gələcək tutarlı dəlillər axtarırdım. İstəyirdim, çıxışlarımda istifadə etmək üçün uyğun misralar, beytlər tapım. Bir dəfə Nəsiminin Azərbaycan, Türkmənistan, Özbəkistan və Türkiyədən başqa türk respublikalarında, toplumlarında çətin başa düşüləcəyini deyib partiyanın xəttinin bir az müasirləşdirilməsini ona təklif edəndə, Rafiq bəy çox əminliklə bildirdi:

– Narahat olma, yaxın zamanlarda Nəsimini bütün dünyada tanıdacağıq!

Bir daha o söhbətin üstünə qayıtmadım. Çünki Nəsiminin fışqıran, yaşamağa səsləyən çılğın ruhu mənə partiyasız da güc verirdi.

Axşamüstü Qara gəldi. Bıçaq vursaydın, qanı çıxmazdı. Küçədə çal-çağırla, siqnal verə-verə gedən toy karvanına rast gəlmişdi. Dedi ki, Şuşa qan ağlayır, Bakıdakılar kefindən qalmır!

– Bəlkə, toy edənlər heç azərbaycanlı deyil? – onu sakitləşdirməyə çalışdım.

– Kim olur olsun, bizdə milli birlik olsaydı, heç kəsin elə fısqırıq toy eləməyə cəsarəti çatmazdı. – Qara daha da qızışdı, bir qatar da söz fırlatdı: – İndi Bakıda böyükdən-kiçiyə hamı düşünməlidir

ki, həmvətənləri Qarabağda top-tüfəng qabağındadır. Belə arsızlıq olmaz!

Qardaşım Bakıdan küskün getdi.

Hamı istəyirdi ki, ölkədə rahat, nizamlı, qayda-qanunların işlədiyi bir idarəçilik qurulsun. Amma heç kəs bilmirdi ki, bunun açarı kimin əlindədir. Deyəsən, heç belə bir açar yox idi. Açar itmişdi. Hər kəs gündüzün işığında, gecənin qaranlığında o açarı axtarırdı. Prezident seçkiləri keçiriləcəyi gün həsrətlə gözlənilirdi. Hətta deyəsən, bu dəqiqə Prezidentin səlahiyyətlərini yerinə yetirən, Respublika Ali Sovetinin sədri Yaqub Məmmədov da mübarək günə can atırdı. Prezidentliyə namizəd kimi heç kəs onun rəhbər seçiləcəyinə inanmasa da, deyilənə görə, rayonların icra hakimiyyətlərinə özünə dəstək barədə müəyyən tapşırıqlar verirdi. Aprelin əvvəllərində öz fərmanı ilə Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı rayonlarında və Ermənistanla həmsərhəd bölgələrində birbaşa prezident üsul-idarəsi tətbiq edib, vəziyyəti ələ almaq istədi. Amma bir irəliləyiş olmadı. Əlimyandıda Qarabağda atəşkəsə nail olmaq üçün vasitəçi ölkələr axtarırdı. Rusiya əl vermirdi, Türkiyəni Ermənistan yaxına buraxmırdı. İran İslam Respublikasının Prezidenti Əli Əkbər Haşimi Rəfsəncani danışıqlar aparmaq üçün Azərbaycan və Ermənistan rəhbərlərini Tehrana dəvət etməyi boynuna götürmüşdü.

Mayın 7-də Yaqub Məmmədov Tehrana rəsmi səfərə yollandı. Ermənistan Prezidenti Levon Ter-Petrosyan da İran İslam Respublikasının paytaxtına uçdu. İki günlük müzakirələrdən sonra Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair birgə bəyannamə qəbul olundu. Yaqub Məmmədov Bakıya dönmək üçün Tehran aeroportuna gələndə ona xəbər verirlər ki, Ermənistan ordusu Şuşanı işğal edib. Yaqub Məmmədov sonralar danışırdı ki, Şuşanın işğal edilməsini İran Prezidenti Haşimi Rəfsancaniyə bildirəndə güldü.

Doğrudan da gülünc günə qalmışdıq. Düşmənə gücümüz çatmırdı, içimiz qan ağlayırdı. Şayiə yayılmışdı ki, Şuşa satılıb. Atam rişxəndlə gülüb deyirdi: “Təxribat müharibədə ən güclü silahdır. Şuşanı alan da məlumdur, onu bizdən qopardıb satan da”.

Türkiyənin Baş naziri Süleyman Dəmirəl Şuşanın işğalı ilə bağlı bəyanat verdi, Ermənistanın təcavüzünün genişlənəcəyi halda, Türkiyənin Azərbaycana hərbi yardım göstərəcəyini bildirdi.

Qardaşım Qara Şuşada idi. Zəng edib anamdan xəbər tutdum – atam Gəncəyə getmişdi. Şuşada ölənləri, yaralananları Gəncəyə gətirmişdilər. Yaxşı ki, atamdan tez xəbər gəldi. Qara sağ qolundan və sinəsindən yaralanmışdı. Yarası ağır deyildi. Hələ xəstəxanada yatacaqdı.

Prezident Aparatının qabağı yenə adamla dolu idi. Xeyli adam Azərbaycan dövlətindən respublikada hərbi səfərbərlik elan olunmasını tələb edirdi. Beş-altı gənc qələm əhli "Qobustan" jurnalının redaktoru, şair Fikrət Qocanın başına yığışmışdı. Fikrət Qoca Şuşanın süqutuna görə hirsindən dişi bağırsağını kəsən cavanlara ürək-dirək verib deyirdi:

– Ümidinizi itirməyin! Dünyanın axırı deyil! Hitler SSRİ-nin yarısını almışdı. Axırı nə oldu? Gec-tez erməniləri yerində oturdacağıq.

Jurnalın işçisi Maarif Soltan dözə bilmədi, partladı:

– Fikrət müəllim, siz Allah, bu qədər ümidli olmayın!

Fikrət Qoca geri çəkilmədi:

– Maarif, təkcə ümidli yox, lap inamlı olun! Mən ölü, siz diri, görəcəksiniz!

Mənqarışıq hamı bir az toxdadı. Öz-özümə düşündüm ki, doğrudan da, müharibələr dünyanın xəritəsini o qədər dəyişib ki... Həyat mübarizədir. Əbədi qələbə olmadığı kimi, birdəfəlik məğlubiyyət də yoxdur.

"İstiqlaliyyət" küçəsi ilə Sabir bağına tərəf üzüaşağı enərkən çiynində maral buynuzu aparan şair Lətiflə üzləşdim. Bu mərkəzi küçədə həmişə ziyalılara, yaradıcı adamlara rast gəlmək olurdu. Çünki əksər nəşriyyatlar, qəzet redaksiyaları həndəvərdə yerləşirdi. Üç il qabaq Yaradıcılıq Evinə qonaq gəlmiş ukraynalı ər-arvad iki şairi burda gəzdirərkən onlar çox adamla salamlaşdığımı, görüşdüyümü görüb demişdilər: "Səni Bakıda nə çox tanıyan var?" Onlara küçənin ziyalılar oylağı olduğunu deyəndə qonaqlar cavabımı təvazökarlıq kimi qəbul eləmişdilər.

Bir az havalı adam olan Lətif qabağımı kəsib dedi:

– Qardaş, çiynimdəki maral buynuzunu məndən al, cibimdə bir qəpiyim yoxdur. Bunu Altaydan hədiyyə gətiriblər. Alim dostum Nizami Cəfərovun iş yerinə getmişdim ki, ondan nəsə qopardım. Dedi ki, mənim də pulum yoxdur, al bu maral buynuzunu sat, özünə xərclik elə! İki saatdır küçədən gəlib keçənlərə təklif edirəm, yaxın duran yoxdur. Qismət səninmiş, götür, böyük Turanın nişanəsidir.

Onu dilə tutmağa çalışdım:

– Maral buynuzunu mənə yük eləmə! O halda deyiləm!

Lətif ciddiləşdi və yəqin ki, indi hamını qayğılandıran Şuşanın işğalını nəzərdə tutub dedi:

– Heç narahat olma! Biz tezliklə qalib gələcəyik! Arxamızda böyük Turan var! Götür maral buynuzunu! Bu buynuz sənə əcdadlarımızın gücünü verəcək!

Belə kövrək vaxtda onu sındırmaq istəmədim, cibimdəki pulları çıxardıb yarı böldüm. Lətif pulu saymadan döş cibinə basdı. Sonra taksi saxlatdıq, buynuzu arxa oturacağına yerləşdirdik. Taksiyə oturdum. Fikrim Şuşaya getdi. Daha bir müddət şuşalı cavanlar şəhərdə özünü yaxşı aparmayan qıraq adamlara "xox" gəlmək üçün yüz doxsan beş il qürrələndikləri " Qaqa, burda Qacar *(Ağa Məhəmməd şah)* baş qoyub gedib!" deyimini dillərinə gətirməyəcəkdilər.

Binamıza çatıb buynuzu çiynimdə dördüncü mərtəbəyə qaldırdım. Ağır deyildi, ancaq yöndəmsiz və iri olduğu üçün ehtiyatla qapıdan içəri keçirtdim. Otağa göz gəzdirdim, onu qoymaq üçün ən münasib yer enli kitab skafının üstü idi. Mənzilimin görüntüsü dəyişdi. İçim istiləndi. Saman çöpündən yapışmışdım.

Aradan bir həftə keçmişdi, xəyalımda hər şeyi yaxşılığa doğru dəyişirdim. Bakı gözəlləşmişdi, odlu, axar-baxarlı günlər yaşayırdım, atamın öz işinə başı qarışmışdı, anam sağalmışdı, Qara polis zabiti olmuşdu, Balaş İndiranı və oğlunu götürüb gəlmişdi, Fərəh daha axsamırdı. Hətta Babayar da türmədən çıxmışdı. Həzz içində xoşallanırdım. Telefon zəngi düşündüklərimi bir anda pərən-pərən elədi.

Partiyamızın sədri Rafiq bəy zəng etmişdi. Son vaxtlar axşamlar hərdən telefonda görüşürdük. Elə qızğın və şirin söhbətlər edirdi ki, gücüm, həvəsim, enerjim birə-beş artırdı. Sədrimiz əsl neft ölkəsinin, odlar diyarının oğlu idi. Neft kimi, qaz kimi o da enerji daşıyıcısı sayıla bilərdi. Rafiq bəy sabaha məni qərargaha dəvət edirdi. Seçki platformasının çapa gedəcək mətnini oxumağımı istəyirdi.

Ertəsi gün səhər saat on radələrində partiyamızın qərargahında eşitdim ki, bu gün Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası keçiriləcək və iki ay əvvəl istefa vermiş Ayaz Mütəllibov yenidən prezident kürsüsünə oturdulacaq. Yerimdə quruyub qaldım. Ən azından ona görə ki, heç vaxt Azərbaycanda belə şey görünməmişdi. Gör hakimiyyətdə nə qədər boşluq var idi ki, istefa vermiş bir rəhbər ölkəni sahibsiz görüb özbaşınalıq edirdi.

1925-ci ildə ingilislərin köməyilə Qacar sülaləsinin sonuncu hökmdarı Əhməd şahı devirib hakimiyyəti ələ keçirmiş general Məhəmməd Rza xandan soruşurlar ki, heç kəsin gözləmədiyi halda necə hakimiyyətə sahib oldun?

O, gülə-gülə cavab verir:

– Gördüm ki, tac ortada yiyəsiz qalıb, götürüb qoydum başıma, oldum şah.

Başda Azərbaycan Xalq Cəhbəsi olmaqla, partiyaların, ictimai birliklərin namizədləri həvəslə, hay-həşirlə Prezident olmağa can atdıqları bir vaxtda Ayaz Mütəllibov yenidən peyda olmuşdu. Öyrədilib Ali Sovetin iclasına gətirilmiş Tərtər döyüş batalyonunun könüllü döyüşçüsü Ələmşah Məmmədovun sədrə üz tutub: "Sizi deputat seçdirən Ayaz Mütəllibovdur, niyə onu qorumadınız, niyə MDB-yə vaxtında girmədiniz? Ordu yoxdur, könüllü bir, iki, üç ay döyüşüb köməksiz arvad-uşağının yanına qayıdır. Moskva ilə danışın, razılığa gəlin, milləti havayı yerə qırdırmayın, bütün məsələlər onlarla həll olunur" dedikdən sonra "Biz böyük oyunun peşkalarıyıq!" şüarını səsləndirən Ali Sovetin sədri, prezidentliyə namizəd Yaqub Məmmədov, doğrudan da, siyasət oyununda "peşka" *(piyada)* olduğunu bir daha nümayiş etdirirdi. Kim bilmir, razılıq verməsəydi,

Ali Sovetin növbədənkənar sessiyası çağırılmaz, maymaq deputatlar səkkiz milyonluq xalqa, bütün dünyaya vəzifəsindən istefa verdiyini bildirmiş adamı utanmaz-utanmaz başa çıxartmazdılar.

Əvvəl-əvvəl çoxları kimi elə mən də düşündüm ki, əcəb yerdə axşamladıq, yenə də "Köhnə hamam, köhnə tas" məsələsi.

Deyilənə görə, Ali Sovetin binasının ətrafı tam sakitlik idi. Qabaqcadan hüquq-mühafizə orqanları əl-ayaq eləmişdilər.

Günorta xəbər gəldi ki, Ali Sovetdə Xocalı faciəsini araşdıran deputat komissiyası hadisədə Ayaz Mütəllibovun heç bir günahının olmadığını elan edəndən sonra 6 mart 1992-ci il tarixli qərar qüvvədən salınmış və eks-prezident əvvəlki vəzifəsinə qaytarılmışdır.

Axşam Ali Sovetin sessiyasını AzTV-də göstərdilər. Hiss olunurdu ki, lentə alınmış iclas efirə verilərkən güclü montaj olunub. Bəzi yerlərdə, televiziyaçılar demişkən, "skaçoklar" – sıçramalar vardı. Məclisdə müxalifətçi deputatlar iştirak etmədiyinə görə içəridə narahatlıq yox idi. Ayaz Mütəllibov tribunaya dəvət ediləndə diqqətimi topladım.

Çıxışına çox sakit başladı:

– Son iki ayda çox düşünüb-daşınmışam, səhvlərimi götür-qoy etmişəm...

Ayaz Müləllibov bir qədər sakit danışandan sonra yavaş-yavaş səsinin tonunu qaldırmağa başladı, respublikada qarışıqlıq salanlara, pozuculuq fəaliyyəti ilə məşğul olanlara qarşı ciddi mübarizə aparılacağını bildirdi. Sonra Naxçıvan Ali Sovetinin sədri Heydər Əliyevi indiki ağır vəziyyətdə iqtidarla əl-ələ verib, Azərbaycanı fəlakətdən xilas etməyə səslədi. Müxalifət liderlərini də unutmadı. Axırda nazir Rəhim Hüseynovun adını çəkərək dedi:

– Rəhim Hüseynov özünü çox etibarlı apardı, hər gün məndən xəbər tuturdu. Onu Baş nazir təyin etmək üçün deputatların razılığını almaq istəyirəm.

Deputatlar təklifə yekdilliklə razılıq verdilər. Salonda alqış qopdu. Ayaz Mütəllibov tribunadan enəndə xeyli deputat onun üstünə axışdı. Prezidentin əlini sıxıb təbrik edən kim, qucaqlayıb bərk-bərk bağrına basaraq üzündən öpən kim, Respublika rəhbərinə yaxınlaş-

mağa cəsarət etməyib, ortada tülkülənən kim, gözlərini böyük ixtiyar sahibinə zilləyən kim...

Tösmərək Hacı Əbdül Prezidentin boynuna sarılanda papağı kiminsə əlinə dəyib arxaya sürüşdü. Yaxşı ki, vaxtında əl atıb papağı tutdu, yoxsa yerə düşəcəkdi. Şadyanalıq xeyli çəkdi.

Prezidentin başına pərvanə kimi dolanırdılar.

Kameraların ” görmədiyi” bir əhvalat da baş verir.

Ayaz Mütəllibovun istefasından sonra AzTV-nin sədrliyindən çıxarılmış Məmməd Murad ona yanaşır:

– Ayaz Niyazoviç, bəs mənim taleyim necə olacaq?

Prezident konkret cavab verir:

– Səni işdən çıxartmamışam!

Məmməd Murad Ali Sovetin binasından çıxıb, tez-tələsik özünü otuz addım qarşıda yerləşən AzTV-nin həyətinə salır. Xəbərdən xəbər tutublarmış. Köhnə sədri Ayaz Mütəllibovsayaq öz kreslosuna oturdurlar. Məsələ bununla bitmir. Binadan əl-ayaq çəkiləndən sonra sədr öz curlarını başına yığır, yağlı bir erkək quzu gətizdirib həyətdə kəsdirir, manqal qalatdırıb kabab çəkdirir və dostlar mayın xoş havasında səhərə qədər Ayaz Mütəllibovun sağlığına düt deyincə vurub, fani dünyadan kam alırlar.

Səhər Xalq Cəbhəsinin baş qərargahının qabağında millət yığışdığını eşidib özümü ora yetirdim. Səsgücləndiriciyə qoşulmuş maqnitofonda türklərin mehtər marşı səsləndirilirdi. Bu möhtəşəm hərbi musiqi qana işləyirdi, irəli atılmaq, vuruşmaq istəyirdin. Gizli heç nə yox idi, açıqca danışılırdı ki, Ali Sovetin binasına yürüş olacaq. Tamaşaya gələnlər belə mıxlanıb yerində qalmışdı. Hamı yürüşün başlayacağı anı gözləyirdi. Arada musiqi dayandırıldı. Mikrofon AXC sədri Əbülfəz Elçibəyin ikinci mərtəbədəki kabinetinin balkonunda qoyulmuşdu (*Bakı şəhəri 26-lar Rayon Partiya Komitəsinin binası bir neçə ay əvvəl Azərbaycan Xalq Cəbhəsinə verilmişdi*). Mitinqi Məşədi Vaqif aparırdı. Aparıcı sözü Əbülfəz Elçibəyə verincə o, əlinin işarəsi ilə alqışları kəsib, Prezidentliyi zəbt etmiş Ayaz Mütəllibov qarşısında AXC-nin qoyduğu tələbi bir daha təkrar etdi. Tələb belə idi: “Ayaz Mütəllibov bu gün günorta saat 14.00-a qədər tele-

viziyada istefasını xalqa elan etməlidir. Əks təqdirdə, keçən dəfəki kimi xalqın iradəsi ilə devriləcəkdir...” Bəy çıxışını şüarla bitirdi: “Ya azadlıq, ya ölüm!”

Elçibəy balkondan çəkilincə yenə marş gurultusu ətrafı bürüdü.

Öz-özümə düşünürdüm ki, görəsən, niyə yürüş Prezident Aparatına deyil, Ali Sovetin binasınadır. Bir neçə saatdan sonra bunun mənasını başa düşəcəkdim. Məqsəd Respublika Prezidentinin səlahiyyətlərini icra edən, Ali Sovetin sədri Yaqub Məmmədovu aşırmaq imiş. Ayaz Mütəllibov onsuz da qanundankənar hesab olunurdu.

Gözlənti xeyli çəkdi. Nəhayət, kütlə dalğalandı. Xalq Cəbhəsinin binasına yaxın dayananların ötürdüyü xəbərlər ildırım sürətilə arxalara yayılırdı. Deyilirdi ki, binanın həyətində tanklar, piyadaların döyüş maşınları var. Xalq Cəbhəsinin tərəfdarı, “Qatır Məmməd” adına Ağdam özünümüdafiə batalyonunun komandiri Yaqub Rzayev özü gəlməsə də, adamlarını göndərmişdi. Əlbəttə, əgər hərbi maşınlar vardısa, yanlarında silahlı hərbçilər də olmalı idi.

Motor nəriltisi eşidildi. Təzəcə rənglənmiş köhnə modeldən olan balaca bir tankın asta-asta irəlilədiyi göründü. Tankın üstündə və arxasınca əli avtomatlı gedən əsgərlər qələbə əzmində olduqlarını nümayiş etdirməyə çalışırdılar. Sonra birinci tanka oxşar ikinci tank göz qabağına çıxdı, onun dalınca adını bilmədiyim əcaib, piyadaların döyüş maşınına oxşar balaca bir hərbi texnika irəlilədi. Bir azdan ələngə döyüş maşını yolda yoxuşu qalxmağa gücü çatmayıb dirənəndə dalından basacaqdılar. Cəmi altı texnika ixtiyarımızda idi, onların mərmi ata biləcəyinə adamın inanmağı gəlmirdi. Qabaqda Xalq Cəbhəsinin rəhbərləri, arxada isə biz kütlə yürüşə çıxdıq. Marşrut belə oldu: Rəşid Behbudov küçəsi – Abbasqulu ağa Bakıxanov küçəsi – İnşaatçılar prospekti – Nərimanov prospekti. Prospektin sonunda Ali Sovetin binası görünürdü. Marşrutu niyə cızıram? Kəsədən getmək olmazdımı? Yox, olmazdı. Tarixin elə məqamları var ki, onu dəqiq təsvir etmək lazımdır. Bəlkə gələcəkdə kütlənin bu xəttdən yenə də istifadə etməsi lazım gəldi? Böyük, qədim dövlətlərin bir münaqişəni, bir qarşıdurmanı, milli

mənafeyə toxunan məsələni aradan qaldırmaq üçün əllərinin altında neçə cür əməliyyat planları olur. Çünki çox sınaqlardan çıxıblar, çox təcrübə qazanıblar, adi bir müşkülün əlində aciz qalmırlar. Zamanca irəli-geri gedib respublika rəhbərləri Əbdürrəhman Vəzirovu, Ayaz Mütəllibovu, Əbülfəz Elçibəyi anıram, onlar iş başında olarkən təzyiqlərə dözməyib tribunalardan gur-gur guruldayan Nemət Pənahovun, Etibar Məmmədovun, neçə-neçə üsyançıların, müxalifətçi deputatların qabağından qaçdılar, səlahiyyətlərini bir-bir əldən verdilər. Amma idarəetmə ustası Heydər Əliyev hakimiyyətə gələndə nə qədər özündən deyənlərin paxırını açdı, yerində oturtdu, təmkinlə kim olduqlarını onlara göstərdi.

Onun Milli Məclisin sədri kimi prezidentin səlahiyyətlərini icra etməyə başladığı ilk vaxtlarda keçirdiyi iclaslar tarixi dərslər idi. Bir dəfə cəbhəçi deputat İbrahim İbrahimova belə demişdi:

– İbrahim İbrahimov, axı sən kimsən? Naxçıvanda Zeynəddin kəndinin müəllimi... Sən nə bilirsən böyük siyasət nədir?!

İbrahim İbrahimli Heydər Əliyevə cavab qaytara bilmirdi. Çünki özünü onunla tən tutmağı ağlına sığışdırmırdı. Bilirdi ki, Heydər Əliyev Yaqub Məmmədov, İsa Qəmbər deyil. Heydər Əliyev Prezident seçiləndən sonra hakimiyyət iddiasında olan, orda-burda Baş nazirliyə adını hallandıran Azərbaycan Milli İstiqlal Partiyasının lideri Etibar Məmmədovun hələ siyasət aləmində naşı olduğunu eyhamla görün, necə bildirmişdi: rəsmi qəbulların birində müxalifət nümayəndələri ilə görüşərkən son zamanlar mətbuatda iqtidara qarşı qərəzli, qəzəbli çıxışlar edən Leyla Yunusovanın əlini sıxıb soruşur:

– Leyla xanım, niyə sizin boyunuz belə balacadır?

Əslində Heydər Əliyev onun siyasi yetkinlik baxımından balaca olduğunu deyirdi, amma Leyla Yunusova sualı ilkin mənasında başa düşüb cavab verdi:

– Allah verən boydur də, cənab Prezident, neyləyə bilərəm?

Heydər Əliyev düşüncəsinin ikinci qatını açdı:

– Balaca da var, balaca da... Daha Etibar Məmmədovdan da balaca yox də...

Qayıdaq Ali Sovetin binasına gedən yola. Mən həmin yola çıxandan bir az sonra dəstənin qabağı Ali Sovetin binasına çatmışdı. Birdən atışma başladı. Əvvəl elə bildik, hökumət kütləyə qarşı silah qaldırıb. Adamların bir hissəsi pərən-pərən düşüb yolun sol qırağındakı beşmərtəbəli binaların arxasına qaçdı. İki il əvvəl 20 Yanvar qırğınını görmüş adamların güllə səslərindən xoflanması başa düşülən idi. Mənim də canımdan üşütmə keçdi. Güllə səsləri çoxaldıqca gərginlik artırdı. Amma bu, uzun çəkmədi. Qabaqdan güllə səsi yeyinliyi ilə xəbər gəldi ki, hökumət tərəfdən heç bir müqavimət yoxdur.

Atəş açan Ali Sovetin binasının qarşısındakı "Moskva" mehmanxanasının üstünə düzülmüş könüllü əsgərlərimizdir. Hay-küy yaratmaq üçün atırlar. Güllələrinin içi boşdur.

Hücumda cəmi bir nəfər qurban verdik. O da necə olmuşdusa, BTR-in altında qalmışdı. AXC fəalı, polis zabiti Fəhmin Hacıyev televiziyanın efirinə çıxıb Prezidentə ultimatum verdi:

– Ya istefa ver, ya da Prezident Aparatını bombardman edirik!

Ayaz Mütəllibov üzə çıxmadı. Prezident Aparatını qoruyan Bakı qarnizonunun əsgərlərinin isə göstəriş alıb hərbi hissələrinə çəkildikləri xəbəri gəldi.

Təxminən yarım saatdan sonra Ali Sovetin binasının on beş addımlığına qədər irəliləmişdim. Xeyli adam binanın içərisinə doluşmuşdu. Ali Sovetin binasının qabaq tərəfindəki iri vitrin şüşələrindən biri bilmirəm nə iləsə vurulub sındırılmışdı. Ali Sovetin sədri Yaqub Məmmədov üzünü adamlara tutub çığıra-çığıra deyirdi:

– Niyə şüşəni qırmısınız? Bu binanın nə günahı var?

Gözümü Yaqub Məmmədovdan çəkmirdim. Çox qəzəbli idi, üzü sallanmışdı. Danışanda əl-qol atdığı üçün pencəyi əyninə düzgün oturmurdu, qalstuku əyilmişdi. Ancaq indi onu vecinə alan vardımı heç? Bu saat heç kimə, hətta özünə də gücü çatmırdı. Çığırsa da, kütlənin qışqırığı, nəriltisi Ali Sovet sədrinin daha nələr dediyini eşitməyə qoymadı. Əlini yelləyib, "eh" deyərək binanın içərisində gözdən itdi. Nə düşündüyü, necə hərəkət edəcəyi sanki heç kəsin vecinə deyildi.

Bir azdan xəbər yayıldı ki, müxalifətçi deputat İsgəndər Həmidovun başçılıq etdiyi dəstə AzTV-nin binasını zəbt edib. Necə deyərlər, dövlət çevrilişinə oxşar bir hadisə baş verib. Hökumət binaları, poçt, radio və televiziya müxalifət qüvvələrin əlindədir. Bəlkə bank da nəzarətdədir, nə bilim? İsgəndər Həmidov efirdə çıxış edərək dünən yenidən hakimiyyətə qayıtmış Prezident Ayaz Mütəllibovun bu gun hakimiyyətdən qovulduğunu elan etdi. Hamı bildi ki, Ayaz Mütəllibov Bakıda deyil, xüsusi təyyarə ilə Moskvaya qaçıb.

Moskvadan təzə qopmuş demokratik və milli respublikaların başçıları Rusiyaya bağlı olduqları üçün bəd ayaqda öz himayədarına sığınırdı. Almaniya Demokratik Respublikasının başçısı Erix Honekker də, Əfqanıstan Demokratik Respublikasının rəhbəri Babrək Karməl də hakimiyyətlərinin sonunda xalqdan qorxub, Moskvaya üz tutmuşdular. Bir neçə ildən sonra Qırğızıstanın Prezidenti Əsgər Akayev də hakimiyyətdən salınanda hara qaçacağını biləcəkdi.

Prezidentimiz Əbülfəz Elçibəy isə... İndi o söhbətin yeri deyil, hələ onu Prezident seçək, sonra...

Yenə də deyirəm və yazıram: ölkənin tərcümeyi-halı mənim tərcümeyi-halım idi. Bakıda, Azərbaycanda baş verən hər bir hadisə həyat romanımın süjet xəttinə daxil olurdu.

Həmin gün Müdafiə naziri Rəhim Qazıyev Ali Sovetdə və binanın qarşısındakı mitinqdə çıxış edərək hakimiyyətin hərbçilərə verilməsini təkidlə tələb etsə də, ona məhəl qoyan olmadı.

İki gün sonra yeni bir fəlakət baş verdi. Mitinqlərdə güvən yeri kimi adları hallanan nə Etibar Məmmədovun silahlı dəstəsi, nə AXC-dən olan Arif Paşayevin batalyonu, nə hökumət qüvvələri heç nə eyləyə bilmədi, Laçın işğal olundu. Artıq Bakıda hakimiyyət yenidən dəyişmişdi. İsa Qəmbərov Ali Sovetin sədri seçilərək Prezidentin səlahiyyətlərini yerinə yetirməyə başlamışdı. O, dərhal İsgəndər Həmidovu daxili işlər naziri təyin etdi. Təyinatdan sonra yeni nazirin Milli Məclisdəki çıxışının ilk cümləsi belə oldu: “Gedirəm o şeytan yuvasını dağıtmağa!”

Onun nəzərində illərlə çalışdığı Daxili İşlər Nazirliyi şeytan yuvası kimi bir şey idi. Az sonra özünü lap milli qəhrəmanımız Koroğlu kimi aparacaqdı. Bir dəstə polislə Lənkəranda kriminal avtoritetlərin üstünə gedəcək, cinayətkarları həbs edərkən atışmada iki nəfər güllələnəcəkdi. Onun şəxsən iştirakı ilə bizim Hacıqabulda keçmiş məhbuslardan ibarət oğruları bir göz qırpımında dustaq maşınına basacaqdılar.

Partiyamızın qurultayında bütün iştirakçıların, o cümlədən türk dünyasının hər tərəfindən təşrif buyurmuş qonaqların qarşısında deyəcəkdi ki, atom bombasını vertolyotdan öz ayağımla itələyib Stepanakertə atacağam.

Kaş görəydiniz, salondakılar ayağa qalxıb pəncələri üstə onu necə alqışlayırdılar.

Çox adam bəlkə də bilmirdi ki, ibtidai atom bombasının çəkisi 500 kilodur, hələ indikilərin ağırlığını demirəm. Onu vertolyotdan atmırlar.

İsgəndər Həmidovu kütlə sevirdi, hər sözünü, çıxışını sürəkli alqışlarla qarşılayırdı. Çünki hamının ürəyindən xəbər verirdi, yağmasa da, guruldayırdı. O, böyük səxavət göstərirdi. Kimlərəsə maşın peşkəş edirdi, kimlərəsə mənzil açarı bağışlayırdı, kimlərinsə cibinə pul basırdı. Heç kəs soruşmurdu ki, İsgəndər bəy, bu maşınlar, bu mənzillər, bu pullar sizdə hardandır? O, varlılardan alıb, kasıblara paylayırdı. Bir dəfə yaxın qohumu şair Adil Cəmil ona deyir ki, İsgəndər bəy, nazirsən, təmkinli ol, iş görəndə yüz ölç, bir biç.

Nazir şairi acılayır:

– Gələn dəfə də mənə nəsihət verəcəksənsə, daha bizə gəlmə!

Şair də dilini dinc saxlamır, deyir:

– İsgəndər, adam özü nazir olanda ağlı da nazir olmur ey...

Respublika sarayında böyük rəsmi tədbir keçirilirdi. Prezident Əbülfəz Elçibəy iqtidarın gördüyü işlər barədə danışanda salondan şair Murad Köhnəqala sərxoş səslə qışqırdı:

– Elçibəy, nə basıb-bağlayırsan, bu saat ciblərimdə ac siçanlar oynaşır.

İsgəndər Həmidovun barmağının işarəsi ilə Murad Köhnəqalanı alıcı quş kimi bir anda caynağa götürüb, ayağını yerdən üzdülər. Foyedə nazir qəzəblə şairə yaxınlaşaraq ona bir şillə tutuzdurur. Bu vaxt gözlənilməz bir hadisə baş verib. Şair Murad Köhnəqala da qəfildən nazirin qasığına bir təpik ilişdirib və deyib:

– Sən jurnalisti vura bilərsən, şairi yox! Şairə əl qaldıran cavabını alacaq.

Murad Köhnəqala “jurnalist” kəlməsini elə-belə işlətmirdi. Sözün içində söz vardı. Məsələ burasında idi ki, o vaxta qədər İsgəndər Həmidov Heydər Əliyevə rəğbət göstərən “Aydınlıq” qəzetinin əməkdaşı Mahal İsmayıloğlunun yumruqla gözünün altını qaraltmışdı, xalq hərəkatından üz döndərmiş jurnalist Sirus Təbrizlini isə Bakıdan didərgin salmışdı.

Yadımdadır, “Azadlıq” meydanında 1988-ci ilin Meydan hadisələrinin dördüncü ildönümünə həsr olunmuş mitinqdə Prezident Elçibəy və Milli Məclisin sədri İsa Qəmbər çıxış edəndən sonra daxili işlər naziri İsgəndər Həmidova söz verildi. O, tribunaya çıxıb dedi:

– Nə deyim e... Danışmaqdan nə çıxır? Mənimki vurmaq, dağıtmaqdı. Haranın deyirsiniz, altını üstünə çevirim. Kimi deyirsiniz, basım içəri!

Kütlənin alqışından az qalırdı “Azadlıq” meydanı dağılsın. Sanki üzündə şeytan tükü vardı. Danışanda mən də ona heyran olurdum. Amma çıxışını bitirən kimi başımın dumanı çəkilirdi.

Şairi polis bölməsinə aparsalar da, bir gün sonra Prezident Elçibəyin göstərişi ilə azad etdilər. İsgəndər Həmidovun çılğın xasiyyəti ilə Əbülfəz Elçibəyin yumşaqlığı biri-birinə heç uyğun gəlmirdi.

Lap İsgəndər Həmidov kimi tələskənlik edib qabağa qaçdım. Bir az hövsələmizi basaq, geri qayıdaq.

18 may 1992-ci ildə keçirilən Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında sədr Yaqub Məmmədovun istefa ərizəsi oxundu, yeni spikerin seçilməsi məsələsi ortaya çıxdı. Hakimiyyəti devirmiş Azərbaycan Xalq Cəbhəsinin nümayəndəsi deputat İsa Qəmbərovun üstünlüyü şəksiz idi. Ancaq digər deputat, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, son aylarda Ali Sovetin iclaslarına

gəlməsə də, Respublikada nüfuzu ildırım sürətilə artan Heydər Əliyevin namizədliyi də təkrar-təkrar dilə gətirilirdi. Onun namizədliyini irəli sürən deputat Eldar İbrahimov oldu. Deputatlar Arif Rəhimzadə, Əli Ömərov və başqaları onun səsinə səs verdilər. Hətta Arif Rəhimzadə təklif etdi ki, iclasa fasilə verilsin, Naxçıvana zəng edib Heydər Əliyevlə telefon əlaqəsi yaratmaqla onun sədr olmaq barədə fikri öyrənilsin.

Əks cəbhənin qızğın çıxışları başladı. Deputat Arif Hacıyev nəzərə çatdırdı ki, Heydər Əliyevin Ali Sovetin sədri seçilməsi onu acınacaqlı vəziyyətdə qoya bilər, çünki onun arxasında AXC kimi təşkilat yoxdur. Deputat Vaqif Səmədoğlu mövqeyini birbaşa açıqlamadı, əlyeri qoyub belə dedi: "Heydər Əliyev təcrübəli siyasi xadimdir, onu blokada şəraitində çabalayan Naxçıvandan ayırmaq cinayətdir". Millət vəkili Tofiq Qasımov isə bildirdi ki, Ali Sovetin reqlamentində iştirak etməyən adamın sədrliyə namizədliyinin irəli sürülməsi mümkün deyil.

Namizədliyi gündəlikdə olan İsa Qəmbərov da Heydər Əliyevi görkəmli siyasətçi adlandırdı, Arif Hacıyevin dediyi fikri başqa sözlərlə ifadə etdi: "İndiki məqamda Heydər Əliyevin AXC-dən etimad mandatı yoxdur. Biz istənilən variantda hakimiyyəti ələ keçirə bilərdik, amma iyunun 7-də prezident seçkilərini gözləyirik!"

İclasda mübahisələr davam etsə də, Heydər Əliyevin əleyhinə bir kəlmə söylənməsə də, zaman öz işini gördü: İsa Qəmbərov Ali Sovetin sədri seçildi və Rusiyada, Baltikyanı respublikalarda, Gürcüstanda, Ukraynada olduğu kimi, Azərbaycanda da yeni qüvvələr hakimiyyətə gəldi.

Bircə gün sonra, mayın 19-da üç yüz qırx doqquz nəfərlik Ali Sovetin səlahiyyətləri əlli nəfərlik Milli Məclisə verildi. İki il əvvəl demokratik qüvvələrdən deputat seçilmiş iyirmi beş deputatdan iyirmi beşi də Milli Məclisdə təmsil olundu. Digər iyirmi beş Milli Məclis üzvü isə yerdə qalan üç yüz iyirmi dörd deputatın arasından seçildi. Bu seçim hansı prinsiplə edildi? Bax, bunu dəqiq bilmirəm. Deyəsən, onların sessiyalarda fəallığı nəzərə alınmışdı. Hər halda prezident üsul-idarəsi olan respublikada Parlamentin köhnələrlə ye-

nilərin mübarizəsi meydanına çevrilməsi Prezident seçiləndən sonra da davam etdi.

Başqa deputat mandatı olanlar Milli Məclisin iclaslarında yalnız məsvərətçi səslə iştirak edə bilərdilər. Sonralar bir il boyunca bu oyundankənar deputatlar əvvəlki statuslarını qaytarmaq üçün imza toplayıb, Ali Sovetin növbədənkənar sessiyasını çağırmaq istəsələr də, nəticəsi olmayacaqdı. Hətta imza toplayan deputatlara Respublika Prokurorluğu tərəfindən qanun pozuntusuna yol verməkdən çəkindirmək haqqında xəbərdarlıq məktubları göndəriləcəkdi.

Prezidentin seçiləcəyi gün yaxınlaşırdı. Azərbaycanda təbliğat kampaniyası keçirməkdə hələ elə yönlü bir təcrübə yox idi. Bir tərəfdən müharibə şəraiti, imkansızlıq, qarışıqlıq, o biri tərəfdən kortəbii baş verən qəfil hadisələr, namizədlərin çoxluğu və onların ətrafındakıların naşılığı nizamsızlıq, hərki-hərkilik yaradırdı. Əsas güc mitinqlərə verilmişdi. Etibar Məmmədov namizədliyini geri götürəndən sonra Azərbaycan Xalq Cəbhəsinin sədri, prezidentliyə namizəd Əbülfəz Elçibəyin Prezident seçilməsi daha real görünürdü. Amma gözlənilməzliklər də vardı. Hələ cəmiyyətin yaxşı tanımadığı, səlis və odlu danışığı ilə rəğbət oyadan prezidentliyə namizəd, akademik Nizami Süleymanovun televiziyadakı təbliğat çıxışı kütləni silkələmişdi. Ətin, yağın, qiymətlərini əvvəlki illərin səviyyəsinə endirəcəyini, üç aya Qarabağ məsələsini həll edəcəyini, əmək haqlarını üç dəfə artıracağını, ölkədə daxili sabitlik yaradacağını, nefti, pambığı, hətta özünün kəşf etdiyi sutəmizləyici qurğunu xaricə baha satmaqla bolluq yaradacağını elə qəti şəkildə deyirdi ki, çoxları buna inanırdı. Əbülfəz Elçibəy o biri namizədlər ehtiyatla danışırdılar. Nizami Süleymanovun adını çəkməsələr də, xalqı populist, şişirtmə çıxışlara məhəl qoymamağa çağırırdılar.

Professor Qəzənfər Paşayevdən eşitdiyim bir əhvalat yadıma düşür:

Prezidentliyə namizədlik söhbəti ortaya çıxanda Yusif Səmədoğludan soruşdum:

– Yusif müəllim, məşhur adamsınız, Səməd Vurğunun oğlusunuz. Niyə prezidentliyə namizədliyinizi vermirsiniz?

Yusif Səmədoğlu siqaretinə dərin qullab vurub dedi:

– Qəzənfər müəllim, qorxuram namizədliyimi verəm, seçiləm. Bunun sonrası da var axı?!

Sonuncu televiziya debatında Əbülfəz Elçibəydən başqa bütün namizədlər dəyirmi masa arxasında əyləşmişdilər. Lap Amerika Birləşmiş Ştatlarında olduğu kimi. Demokratiya şəbehi qurulmuşdu. Turkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özal Əbülfəz Elçibəy hakimiyyətə gələndən bir neçə ay sonra Bakıda olarkən ona və tərəfdarlarına deyəcəkdi: "İndi sizə demokratiyadan yox, siyasi müstəqillikdən bərk-bərk yapışmaq lazımdır!"

Yaqub Məmmədov əsəbi-əsəbi haray çəkdi: "Niyə Əbülfəz Elçibəy debata qatılmayıb?! Niyə özünü üstün tutur, bizi saymır? "Demokratiya! Demokratiya!" deyirsiniz. Budur demokratiyanız?!" (*İsgəndər Həmidov "Azadlıq" meydanında keçirilən aprel mitinqlərində tez-tez təkrar edirdi ki, seçkilərə hamılıqla getməliyik. Əbülfəz bəyi zorla da olsa, hakimiyyətə gətirəcəyik. O, Azərbaycan Xarici Dillər İnstitutunda prezidentliyə namizəd Əbülfəz Elçibəylə görüş keçirilərkən "Əgər siz prezident seçilsəniz..." deyə sual vermək istəyən tələbənin sözünü kəsmiş, şüar səsləndirirmiş kimi demişdi: "Əbülfəz bəy artıq Prezidentdir!"*)

Digər namizədlər susurdular, sanki Elçibəyin onlara qoşulmamasının səbəbini bilirdilər.

Tamerlan Qarayev namizədliyini geri götürdüyünü elan edib, tərəfdarlarını Əbülfəz Elçibəyə səs verməyə çağıranda Yaqub Məmmədov yenidən coşdu. "Bu nə deməkdir? Seçicilərlə alver edirsiz? Kim kimə istəyir, səs versin də!" dedi.

Bir neçə gün sonra Nizami Süleymanov xalqa axırıncı beş dəqiqəlik telemüraciətini etməyə əlində müqəddəs "Quran" çıxmışdı. Yenə də əvvəlki vədlərini təkrarlayıb xahiş etdi:

– Əziz xalqım, sizə and verirəm gördüyünüz bu "Quran"a, seçkiyə gəlin, səs verin!

Nizami Süleymanovun çıxışına baxmışdım, ağzından çıxanları qulaqlarımla eşitmişdim. Amma səhər şəhərdə hara gedirdimsə, deyirdilər ki, axşam prezidentliyə namizəd Nizami Süleymanov televiziyadan xalqa müraciət edərkən hamıya "Quran"a and verib boğaz çəkib ki, ona səs versinlər. Hətta açıq danışanlar vardı: "Quran"dan qorxuram, Nizami Süleymanova səs verəcəyəm!"

Nizami Süleymanov o qədər də siyasi təcrübəsi olmayan, yetmiş illik Sovet dövründə dininin həsrətini çəkmiş xalqımızın zəif damarını tutmuşdu.

Səsvermənin ilkin nəticələri elan edilməmişdən qabaq söz çıxartmışdılar ki, Nizami Süleymanov bütün namizədlərdən artıq səs toplayıb. O, doğrudan da, bəzi bölgələrimizdə səslərin çoxunu qazanmışdı. Mərkəzi Seçki Komissiyası intizara son qoydu. Səs verənlərin əlli iki faizi Əbülfəz Elçibəyə "hə" demişdi. Seçkidən bir gün əvvəl partiyamızın üzvlərinin bir hissəsinə pıçhapıçla tapşırılmış, yerdə qalanlara da şifahı xəbər göndərilmişdi ki, öz namizədimizə deyil, Əbülfəz Elçibəyə səs versinlər.

Rəsmi məlumata görə, Nizami Süleymanov səslərin otuz üç faizinə yiyələnə bilmişdi.

Seçkinin nəticəsi dövrün mənzərəsini açıq-aydın göstərirdi. Son dörd ildə meydanda olan Azərbaycan Xalq Cəhbəsi az qala xalqa yağlı vədlər verən Nizami Süleymanova uduzacaqdı.

Sonralar eşitdim: bir iqtisadçı alim Nizami Süleymanovdan soruşub ki, əhalinin əmək haqlarını hansı vəsait hesabına üç dəfə artıracaqdın?

Nizami Süleymanov gülə-gülə cavab veribmiş: "Dövlət büdcəsinin başını açıb buraxacaqdım əmək haqlarına. O biri xərcləri azaldacaqdım. Mənə səsləri qazanmaq lazım idi." (*Nizami Süleymanov Milli Yaradıcılıq Akademiyası yaratmışdı və xeyli məşhur ziyalını bu Akademiyanın üzvü etmişdi. Hətta Respublika Elmlər Akademiyasının prezidenti Eldar Salayev də bu Akademiyanın fəxri üzvi idi. Nizami Süleymanov onda da, sonrakı ağır illərdə də hər ay, yazıçı Anar demişkən, "onlara yaxşı maaş" verirdi. Dediyinə görə, bu pulların mənbəyi onun kəşflərinin tətbiqindən gələn gəlirlər idi. Sonra*

*hamıya bir şey də məlum olacaqdı: Akademik yumor dəlisidir. Amerikadan belə dünyanın bütün siyasətçilərinin, dövlət adamlarının quyruğuna vedrə bağlamaqda ustadır. Bir neçə il "ANS" televiziyasının "Qulp" verilişinin tez-tez qonağı olub hər şeyə qulp qoymağı ilə tanındı. Bizim bölgədə doğulmuşdu deyə şəhərimizdə sözü, söhbəti səngimirdi. "Qulp" camaatımıza söhbət üçün təzə-təzə mövzular verirdi. Bir dəfə bazarın çayxanasında özünə çay süzən Babayarın əlindən çaynik döşəməyə düşür, qulpu qırılır. Çayniki yerdən götürən çayçı oğlana deyir:*

*– Ürəyini sıxma, çayniki göndərərik Bakıya, qulp salarlar. Qulp qoyanların başında duran Nizami müəllim yerlimizdir)*

Əbülfəz Elçibəy yenicə yaradılan Milli Məclisdə qırx beş dəqiqəlik yüngülvari andiçmə mərasimi keçirərək Prezidentliyə başladı. İnauqurasiyadan dərhal sonra Azərbaycanın Milli Ordusunun birləşmələri Qarabağda hücuma keçdi. Qazanılan ilk qələbələr iki il əvvəl 20 Yanvar gecəsində əzilən ruhumuzu diriltdi. Hər axşam televiziyada saat 20.00 "Xəbərlər"inə beş dəqiqə qalmış Sovet-Alman müharibəsi zamanı radioda "Vnimanie! Vnimanie!" (*"Diqqət! Diqqət!"*) deyib müharibə xəbərlərini oxuyan Levitan kimi tunc səsli Şəmistan Əlizamanlının xoş müjdələri eşidilirdi. Bütün Azərbaycan üç-dörd günün içində Şəmistan Əlizamanliya alışdı və azad olunan kəndlərimizin adlarını onun dilindən eşitdikcə yüngülləşməyə başladı. (*1988-ci ildən başlayaraq Qarabağda anti-Azərbaycan hərəkatının başçılarından biri, sonralar Ermənistan Respublikasının Prezidenti olmuş Robert Köçəryanın Moskva qəzetlərindən birinə verdiyi müsahibədə "Həyatınızda ən çətin anlar nə zaman olub?" sualına cavabı belə idi: "Qarabağda Azərbaycan ordusu 1992-ci ilin payızında total hücuma keçərkən dəhşətli durumda idik. Əhali Ermənistana qaçırdı. Rəqib qoşunlarının bir ucu gəlib Vəngə dirənmişdi. Əgər müttəfiqlərimiz vaxtında köməyə gəlməsəydi, hər şey başqa cür olacaqdı"*)

Ağdərənin azad edilməsi yeni Prezidentə etimadı birə-beş artırdı.

Bəstəkar Cavanşir Quliyev, sözləri əsrin əvvəllərinə aid olan "Azərbaycan əsgəri" marşını yazdı. Bu marş "Cəngi" kimi ən

ərincək adamın da qanını coşdururdu. Qara hərdən deyərdi ki, Üzeyir bəyin yazdığı “Koroğlu”nun “Uvertüra”sı çalınanda heç kəs qabağımda dura bilməz. Televiziyada, radioda gündə bəlkə on-on beş dəfə “Cəngi” və “Uvertüra” ilə yanaşı, “Azərbaycan əsgəri” marşı da səsləndirilirdi. Yadıma 1988-ci ilin noyabr mitinqləri düşür. Onda kimsə “Qalx ayağa, millət...” misrası ilə başlayan şeir (*sonra bildim, müəllifi şair Elçin Mirzəbəyli imiş*) yazmışdı. Universitet tələbələri xorla “Heyratı” üstə bu şeiri oxuya-oxuya “Azadlıq” meydanına daxil olurdular. Dövr yeni ruhlu mahnılar tələb edirdi.

Rusların Stalin dövründən qalan yüksək döyüş ruhlu mahnılarını çox dinləmişdim. Türklərin Osmanlı imperiyası dövründə yaratdıqları saysız-hesabsız mehtər marşlarına qulaq kəsilib damarlarımdakı qanı dönə-dönə at kimi şahə qaldırmışdım. Amma “Azərbaycan əsgəri” mahnısı başqa mahnı idi. Xalqımız yaxın, ən azı iki yüz illik keçmişdəki döyüşlərində yalnız müdafiə olunduğu üçün qəhrəmanlıq, hücum mahnıları yarada bilməmişdi. “Azərbaycan əsgəri” mahnısını qısa müddətdə məmə yeyəndən pəpə yeyənə qədər hamı əzbərlədi. Ölkədə hərbi səfərbərlik elan edilməsə də, bu mahnı hamını birləşdirirdi. Hara gedirdin, əllərində oyuncaq silah, taxtadan düzəldilmiş yaraq-yasaq tutmuş dəstə-dəstə uşaqları əsgərlər kimi irəli addımlayaraq bu marşı oxuyan görürdün.

Başlanğıcı belə idi:

Vətən məni yetişdirib bu yerlərə yolladı...
Bu torpağa qurban deyib Allaha ismarladı.
Boş oturma, “Çalış” dedi, xidmət elə Vətənə,
Südüm sənə halal olmaz, sən baş əysən düşmənə.
Marş irəli! Marş irəli! Azərbaycan əsgəri!
Dönməz geri! Dönməz geri! Azərbaycan əsgəri!

Səslənəndə nəinki Azərbaycan əsgəri, yaşından və kimliyindən asılı olmayaraq bütün vətənpərvər soydaşlarımız sanki marşla irəli addım atırdı.

Toylar da “Uvertüra” ilə başlayırdı. Cavanlar “Cəngi” havasına qol açıb oynayırdılar. “Azərbaycan əsgəri” isə dönə-dönə səslənirdi. Hamı inanırdı ki, tezliklə Qarabağda qələbə çalacağıq, Ermənistan təslim olacaq, qaçqınlar yurd-yuvasına qaytarılacaq, əvvəlki kimi sülh içində yaşayacağıq.

Cəbhəyə gedən könüllülərin sayı günü-gündən artırdı. Təzəcə dağılmış SSRİ-nin hər tərəfindən hərbçi soydaşlarımız xidmət yerlərini atıb övladlıq borcunu yerinə yetirmək üçün Azərbaycana axışırdılar. Dünənə qədər Bakıda mitinqlər, iqtidara qarşı müxalifətin çıxışları maraqlı idisə, gəncləri, yeniyetmələri bu gün cəbhə özünə çəkirdi.

Milli Ordumuz itkilər də verirdi. Həyatını riskə qoyaraq Xocalı müsibətini operator kimi kamerasının lentinə almış, soyqırım görüntülərinin bütün dünyaya göstərilməsinə səbəb olmuş və bununla ömründə ən böyük işini görmüş Çingiz Mustafayev Naxçıvanik kəndində gülləyə tuş olmuşdu.

Bakıdakı və rayonlardakı şəhid xiyabanları günü-gündən böyüsə də, vətən uğrunda ölüm şərəf sayılırdı. Paytaxtdan əsgər getmiş şəhidləri, AXC fəallarının meyitlərini Bakıdakı Şəhidlər Xiyabanına gətirirdilər. Demək olar ki, hər gün 20 Yanvar şəhidlərinin ayaq tərəfində qəbir yerləri qazılırdı. Yeni dəfn edilmiş əsgərlərin xatirəsini anmaq üçün yaylım atəşləri açılırdı.

Xalq zarafatından da qalmırdı.

Belə bir əhvalat danışırdılar: “Təxminən bir ay qabaq məşhur artist Eldəniz Zeynalov 9 yanvar bağının tinindəki kafedə sənət dostları ilə bircə arağı olan kasıb süfrə arxasında oturubmuş. Bəstəkar Şəfiqə Axundovanın oğlu, gənc pianoçu Taleh Axundov qapıdan girib Eldəniz Zeynalova yaxınlaşır, aktyor dostu Sərvəri soruşur.

Eldəniz Zeynalov Talehin onlara qəmiş olmaması üçün yalan quraşdırır:

– Sərvər könüllü əsgər getdi, cəbhədədir.

Taleh qapıdan çıxır, amma bir dəqiqə keçməmiş geri dönüb başqa sual verir:

– Eldəniz əmi, Sərvər hansı cəbhədədir?

Aktyor kəsədən gedir:

– Füzuli cəbhəsindədir, Füzuli cəbhəsində!

Taleh bir də gedib qayıdır:

– Dəqiq yerini bilmək istəyirəm. Sərvəri necə tapa bilərəm?

Eldəniz Zeynalov özündən çıxır:

– Alə, atam-qərdeşim, qoy rahat zəhərlənək də! Get, Şəhidlər Xiyabanının qabağında gözlə, bu gün-sabah Sərvərin meyidini ora gətireceylər (*Bu əhvalatdan bir müddət keçmişdi, eşitdim Sərvər cəbhəyə yollanıb. Oğul həsrətində qovrulan üç qız atası Sərvəri kimsə inandırmışdı ki, inqilablar, müharibələr vaxtı kişilərin qanı qaynayıb coşur, oğlan uşaqları çox doğulur. Sən də gedib cəbhədə vuruşsan, mütləq oğlun olacaq. Könüllü əsgər gedən Sərvər iki ay vuruşandan sonra güllə yarası alaraq qayadan yıxılıb, üç qabırğasını sındırır və Eldəniz Zeynalovun ona şəbədə qoşduğu kafenin yanındakı Travmatologiya xəstəxanasında xeyli müddət gipsdə yatır. İki il sonra doğrudan da, Sərvərin oğlu dünyaya gəldi*)".

Artıq hakimiyyətdə köhnə iqtidardan çox az adam qalmışdı. Onların da hadisələrin gedişinə heç bir təsiri-filanı yox idi. Azərbaycan Xalq Cəbhəsinin zəmanət məktubları ilə iqtidara yeni adamlar gəlirdi.

Xalq Cəbhəsinin mərkəzi aparatında, rayon şöbələrində fəal cəbhə üzvləri vəzifə növbəsinə dayanmışdılar. Cəbhəçilər, müsavatçılar, onların yan-yörəsindəkilər Prezident Aparatına, Nazirlər Kabinetinə, nazirliklərə, banklara, şəhər icra hakimiyyətinin strukturlarına, mənzil – istismar idarələrinə, ali və orta ixtisas təhsil müəssisələrinə... hər yerə doluşurdular. Gəncədə də, Sumqayıtda da, Şəkidə də, Lənkəranda da, Əli Bayramlıda da, Mingəçevirdə də eyni vəziyyət idi. Bir neçə ay idi ki, Prezident Aparatından, Nazirlər Kabinetindən tutmuş şəhər və rayonlardakı ən xırda dövlət vəzifələrində dünənəcən heç bir dövlət işində çalışmayan, idarəetmə səriştəsi olmayan adamlar işləyirdilər. Ağlım kəsəndən bəri bir neçə hakimiyyət dəyişikliyinin şahidi olsam da, bu qədər kütləvi vəzifə yerdəyişməsi görməmişdim. Amma vaxtilə Rusiyada və Azərbaycanda bolşeviklər hakimiyyətə gələndən sonra bütün və-

zifələri bolşeviklər tutmuşdu. İndi ona oxşar həngaməni öz gözlərimlə görürdüm.

Tezliklə Prezident Əbülfəz Elçibəy bizim partiyanın rəbhərini Respublikanın Avtomobil Nəqliyyatı nazirinin birinci müavini vəzifəsinə təyin etdi. Bir neçə nəfər onu təbrikə getdik. İlk dəfə idi nazirin birinci müavinin qəbulunda olurdum. Rafiq bəy həmişəki kimi qartal burnunun, siqaretdən saralmış iri bığının altından qımışa-qımışa "Ya Allah!" deyərək əlini əlimizə çırpıb bizimlə çox isti görüşdü, hal-əhval tutdu. Zarafat deyildi, biz də yekəlmişdik, başqanımız vəzifəcə balaca adam deyildi. O, partiya iclasına oxşar bir yığıncaq keçirtdi, siyasi fəallığımızı artırmağa çağırdı. Çox nikbinliklə dedi ki, arxayın çalışın, inşaallah, Əbülfəz Elçibəy uzun illər, lap qəbrə qoyulunca Prezidentimiz olacaq (*Rafiq Turabxanoğlu hakimiyyət dəyişikliyindən sonra vəzifədən çıxarılacaq, bir il bekar qalıb mayadan yeyəcək, dostlarının dəvəti ilə işləmək üçün Kazana üz tutacaqdı*).

Yoldaşlarımın görüşdən necə şuxlandıqlarına, şellənib papaqlarını yan qoyduqlarına baxmaq tamaşa idi. Allah bilir, hər biri indi özünü hansı vəzifədə görürdü. Amma hələ heç kəs ürəyindən keçəni dilinə gətirmirdi.

Aradan az bir müddət keçəcək, vəzifə məsuliyyətini dərk eləməyən adamların iş başına gəlməsi, yersiz, yanlış hərəkətlərə yol verməsi idarəçiliyi gözdən salacaq, adiləşdirəcəkdi. Şahidiyəm ki, bu vaxta qədər nəşriyyatda korrektorluq etmiş AXC fəalına nazir müavini vəzifəsi təklif ediləndə qəzəblənib özündən çıxaraq "Nazirlərdən nəyim əskikdir?! Nazir olmaq istəyirəm!" deyib dururdu. Amma bütün bunlara baxmayaraq, yeni dövr yeni kadrlar tələb edirdi. Vəzifəyə təyin olunanlar təcrübəsiz, bacarıqsız olsalar da, vətənsevər, fədakar, səmimi idilər.

İqtidarda hamı biri-birinə yetmiş beş il qabaq, Azərbaycan Xalq Cümhuriyyəti zamanında olduğu kimi, "bəy" deyə müraciət edirdi. Hətta Xaçmazda İcra başçısının "İvan" adlı rus sürücüsü də ona "İvan bəy" deyilməsini umurdu. Heydər Əliyev hakimiyyətə qayıdandan sonra yenə Prezident Aparatının işçisi kimi Xaçmaza eza-

miyyətə getmişdim. İcra başçısı dəyişsə də, İvan sürcülüyündə qalırdı. Köhnə tanış kimi "İvan bəy, necəsən?" deyincə, sürücü duruxdu, "Mən indi İvan müəlliməm!" deyə cavab verdi.

Bəzi ağzıgöyçəklər hakimiyyəti rişxəndlə "Bəylərin hakimiyyəti" adlandırırdı.

Təkcə iqtidardakılar yox, Azərbaycanda elə hamı "bəy" olmuşdu. Mən də bəy idim. Kişiləri İranda "ağa", Türkiyədə "əfəndi", İngiltərədə "mister", Fransada "müsyö", qonşu Gürcüstanda "batono" deyə çağırırdılarsa, biz niyə dəstədən dala qalırdıq? Dünənə qədər vəzifəsindən və yaşından asılı olmayaraq, peşəsi müəllim olmayanlara da hörmət mənasında "müəllim" deyirdilər. Məsələn, jurnalistlər adlı-sanlı pəhləvan Salı Süleymandan müsahibə almaq istəyəndə "Süleyman müəllim!" deyib onu söhbətə tuturdular. Ötən əsrin altmışıncı illərinə qədər kommunist müraciət forması olmuş rusca "tovariş", bizim dilcə "yoldaş" sözünün yeri daralmışdı. "Ayaz Niyazoviç" müraciət forması sərhədi keçib, Rusiyaya getmişdi. Hətta müəllimlər də "bəy"ə keçmişdi.

Prezident Əbülfəz Elçibəy kəndi Kələkiyə üz tutandan sonra Prezident Aparatının yeməkxanasında üç iş yoldaşımla bir stol arxasında oturub, şorba qaşıqlayırdıq. Birdən qalın bığı altından ağappaq dişləri parıldayan Əjdər Tağızadəni stolumuza yaxınlaşan gördüm. Əslən Ərdəbildən olsa da, İsveçin Malmö şəhərində yaşayırdı, son illərdə bir ayağı Bakıda idi. Elçibəylə, cəbhəçilərlə dostluq edirdi. Siyasətçi kimi cənubdakı qardaşlarımızın azadlığı uğrunda çalışırdı. Bir il olardı, aramızda xoş münasibət yaranmışdı. O, mənimlə bir stolda oturanlarla da tanış idi. Heydər Əliyev Ali Sovetin sədri, Prezident səlahiyyətlərini həyata keçirən şəxs kimi qızğın fəaliyyətə başladığına və hakimiyyətdəki bəylər istefa verdiklərinə görə dillərdə "bəy" sözü seyrəlir, "müəllim" kəlməsi yenidən hörmətə minirdi. Bu məsələyə işarə ilə "Əjdər bəy" deyə çağırdığımız güneyli soydaşımız başımızın üstə əyilib pıçıldadı:

– Salam, müəllimlər!

Bu, böyük ironiya idi...

Neçə ildən bəri ziyalilar arasında “Bəy” kimi tanınan Əbülfəz Elçibəy “bəy” çağırışına dodaq büzənlərə bir Kərkük mahnısının iki-üç sözünü dəyişərək söyləməyi xoşlardı:

“Sənə sultan deməerəm,
Sultanlıqdan düşərsən.
Yox, sənə xan demərəm,
Sən xanlıqdan düşərsən.
Mən sənə bəy deyərəm,
Bəy həmişə bəy olur”.

Əbülfəz Elçibəy “sultanlıqdan” düşəndən sonra da hamı onu “Əbülfəz Elçibəy” deyə çağıracaqdı və anacaqdı, bircə Nemət Pənahovdan başqa. O, “Əbülfəz Əliyev” deyib duracaqdı.

Hələ bugündəydik, həmin ironiya anına doğru yol gedirdik.

Bir neçə ay əvvəl rəsmən “Ağdərə” adlandırdığımız Mardakert rayonunun mərkəzi Ermənistan silahlı qüvvələrindən təmizlənəndə toy-bayram oldu. Lap yüz il, min il əvvəllərin tarixlərində olduğu kimi, döyüşçülərimizin məğlub şəhərin rəmzi açarını Prezidentimiz və Ali Baş komandanımız Əbülfəz Elçibəyə təqdim etməyə hazırlaşdıqları televiziya ekranından nümayiş etdirilirdi. Ağılla bilsəm də ki, bir şəhərin alınması hələ tam qələbə deyil, mövqe üstünlüyüdür və efirdə təbliğat görüntüləri əsgərlərin vətəndaşlıq, döyüş ruhunu yüksəltməyə xidmət edir, coşğunluğum azalmırdı. Özümü şərəfli, möhtəşəm bir dövrdə hiss edirdim.

Avqustun əvvəllərində Prezident Əbülfəz Elçibəy “Ərazi müdafiə qərargahlarının yaradılması haqqında” fərman verdi. Qərar Dağlıq Qarabağda və sərhəd bölgələrində erməni qüvvələrinə qarşı mübarizədə yerli əhalinin səfərbər olunmasını nəzərdə tuturdu. Bu fərmandan sonra yerli özünümüdafiə batalyonları təşkil edildi.

Bir də eşitdim ki, Babayar türmədən buraxılıb, çiynində “Kalaşnikov” şəhərimizin bazarında görünüb. Onun dediyinə görə, daxili işlər naziri İsgəndər Həmidov türmədən Qarabağda vuruşmaq istəyən dustaqları açıb buraxmışdı. Dustaqlar cəhbəyə göndərilmişdi. Baba-

yar Korpus komandiri Surət Hüseynovun ixtiyarına verilmişdi, hərbi avtomobil sürürdü. Orduda güclü nizam-intizam olmadığı üçün Babayar hətta sürdüyü iri avtomobili hər həftə "qaçırdıb", şəhərimizə gətirirdi. İcazə alırdı, yoxsa aradan çıxırdı, nə idi, bilmirəm, amma heç olmasa, üç-dörd saatlığa olsa da, gəlirdi.

Bir payız günü onunla evimizdə görüşdüm. Atam onu qonaq çağırmışdı.

Atam, mən, bir də Babayar həyətimizdəki üzüm çardağının altında oturmuşduq. Babayar qənşərindəki armudu stəkandan çayı qurtumlaya-qurtumlaya son iki ayda cəbhədə başına gələnlərdən danışırdı. Əsas işi sürdüyü maşınla döyüş bölgəsindən Gəncədəki 3 nömrəli Təcili yardım xəstəxanasına əsgər meyiti daşımaqmış. Babayar həyatda özü demişkən, nə dirilərdən qorxurdu, nə də ölülərdən. Cəbhədə hər cür ölüyə rast gəldiyini deyirdi. Deyirdi ki, ölülərin də xoşbəxti, bədbəxti olur. Döyüşdən sonra dərhal götürülüb, dəfnə aparılan ölülər xoşbəxtdir. Amma günlərlə qızmar Günəşin, qarın-yağışın altında qalıb şişən, çürüyən, qurd basan meyitlər bədbəxt və talesizdir. Canını vətən yolunda qurban vermiş hər bir əsgəri qəhrəman sayırdı və deyirdi ki, hayıf onlardan, hardasa səhv buraxıblar, güllədən, mərmidən yayına bilməyiblər. Babayarın danışdıqları yerli-yataqlı yadımdadır:

"Məni cəbhədə bir neçə dəfə kəşfiyyata göndəriblər. Özümün də düşmənin saqqızını oğurlamaqdan xoşum gəlir. "Dil" gətirməyə gedəndə quş kimi yüngül oluram. Hətta yerə basdırılmış minanın üstünə çıxsam, mina partlamaz.

Hə, heç bir ay olmaz, gecədən tərpəndik. Üç yoldaş idik. Sübhə doğru düşmən mövqeyinin arxasına keçdik. Son iki gündə atışmaya ara verilmişdi, sakitçilikdi. Ətrafı dinşəyə-dinşəyə səngərə yaxınlaşdıq. Bəlkə də qarovul çəkənlər yuxuya getmişdilər, ancaq ehtiyatı əldən vermək olmazdı. Sığınacaq kimi qazılmış iri xəndəyin beş-altı addımlığına qədər süründük. Birdən qadın səsi eşidildi. Qadın ağlar səslə "Alçaqlar! Oğraşlar!" deyə-deyə inildəyirdi. İrəlilədim. Xəndəyin ağzına çatanda nə görsəm yaxşıdır? Yekəpər bir saqqallı qurşaqdan aşağı lüt bir qızı ayı kimi iri caynaqları arasında sıxaraq

zorlayır. Tez ətrafa göz gəzdirdim, xəndəkdə daha üç nəfər də vardı, biri-birindən azacıq aralı sərələnib yatmışdılar, avtomat silahları da böyürlərində. Silahları qızı zorlayan saqqallının yatmış yoldaşlarının üstünə tuşladıq. Rusca "Tərpənməyin!" dedim. Saqqallı dərhal qızın üstündən düşdü. O biri əsgərlər sanki əmrimə tam əməl edirdilər, qımıldanmırdılar. Səsimi ucaldıb yatanları oyatmaq istəyim boşa çıxdı, əsgərlər xorhaxor yatırdılar. Hərəkətlərindən qızı zorlayan saqqallının içkili olduğu anlaşıldı. O, ilk anda vəziyyəti aydın dərk eləmədi, bizi yoldaşlarından biri sayıb ermənicə bizim "Gedin, vızqırdın!" kəlməsinə oxşar bir söyüş söydü. Sonra qıza "Paltarını geyin!" dediyimi eşidib özünü yığışdırdı, tez şalvarını əyninə çəkdi. Düşməni tərksilah edib, silahlarını götürməkdən ötrü yoldaşlarımdan biri xəndəyə enəndə ayaqlarının altında boş içki şüşələri biri-birinə dəyib cingildədi. Burnuna tanış iy gəldi, dedi:

– Tut arağından möhkəm mıxlayıblar!

Ləngiməməli idik. Yoldaşımız silahları götürüb bizə verdi və yatmış sərxoşları təpikləməyə başladı. Təpikləndikcə onlar yerlərində qurcalandı, ortada yatan ən cavanı ayılıb dikəldi, gözlərini ovuşdurandan sonra key-key bizə baxdı. Qalan iki nəfər hələ də yuxu bişirirdi. İstəyirdik, dörd əsgərin dördünü də əsir aparaq.

Əmrimlə iki saqqallı xəndəkdən çıxıb əllərini boyunlarının dalında daraqladılar. Sonra köməkləşib qızı qaldırdıq. O, yorğun və uzgün halda idi. Bəlkə də, dörd erməni yaraqlısının yerdə qalan üçü də vəhşicəsinə onu növbəyə qoymuşdular. Qızın uzaqbaşı on səkkiz yaşı olardı. Ani fikrimdən nə keçdi? Allah bilir, əsir tutduqlarımız kimlərdir. Harda doğulublar? Hansı ailədə tərbiyə alıblar? Təhsilləri varmı, yoxmu? Səmimi sorğu-suala tutsaq, özlərindən nələr danışarlar. Bəlkə də beş-altı saat əvvəl hansınınsa ad gününü bax, bu xəndəkdə qeyd ediblər. Məclislərinə əylənmək üçün bir əsir qız da gətiriblər. Yəqin ki, başqa zamanda, başqa şəraitdə onlarla xoş bir məclisə düşsəydik, biri-birimizlə özgə cür davranardıq. Bəlkə də, söhbətimiz yaxşı tutardı. Ancaq müharibənin havası bambaşqadır. İndi onların tərcümeyi-halları bizi qətiyyən maraqlandırmır. Biz onlara düşmənik, onlar da bizə, vəssəlam!

Mən öldürməyi yox, əsir tutmağı xoşlayıram. Xəndəkdəki iki sərxoşu ayıldıb aparmaq mümkün olmayacaqdı. Onlar haçan ayılası, biz haçan yola düşəsi... Ələ keçə bilərdik. Düşməni sağ buraxmaq da olmazdı. Bəlkə də özlərini yuxululuğa vurmuşdular, biz azacıq aralanan kimi səs-küy salıb, özününküləri duyuq salacaqdılar. Yoldaşımız bıçaqla sərxoşların işini bitirdi.

Əsirləri qabağımıza qatıb tərpənmək istəyəndə qız ağlaya-ağlaya ayaqlarımı qucaqlayıb yalvarmağa başladı:

– Səni and verirəm Allaha, məni öldür! Heç hara getmirəm. Nə üzlə ortalığa çıxa bilərəm?! Mən ləkələnmişəm! Bu alçaqlar özümü öldürməyə də qoymadılar.

Qızın əllərini ayaqlarımdan aralaya bilmirdim, hönkürərək özünü yeyib-tökürdü:

– Sənə əmi, dayı, qardaş deyə bilmərəm, çünki murdaram, namusumu qoruya bilməmişəm. Öldür məni, öldür!

Qıza təpindim:

– Özünü ələ al. Səsini kəs, bizi ələ verərsən! Sən ki, namusunu satmamısan, düşmən təcavüz edib.

Dediklərim qızın ağlına batdı, sakitləşdi, ayağa durub yanımıza düşdü. Biz əsirlərlə bərabər cəld düşmən mövqeyini tərk etdik. Yolda heç bir hadisə baş vermədi, qərargaha qayıtdıq. Qərargahın həyətində birdən qızın nərəsi eşidildi, pələng kimi sıçrayıb yolda gözümüzü oğurlayaraq yerdən götürdüyü qənbər daşı bayaq onu zorlayan gödək boylu saqqallının başına çırpdı. Saqqallı it kimi zingildəyərək yerə çökdü, başından qan şoraladı. Qız əlindən düşmüş qənbər daşı yerdən qapıb, əsirin başına döyəcləməyə başladı. Donub qalmışdıq. Əslində, bizə bir əsir də bəs eləyirdi. Qızın arıq cüssəsinə qeyri-adi güc gəlmişdi, yerə yıxılmış saqqallı əsirdən əl çəkmirdi. Əlləri, yaxası, əlindəki daş əsirin qanına bulaşmışdı. Fınxırıb o biri əsirə cummaq istəyəndə, qoymadıq. Hirsi soyumurdu, gözlərindən alov çıxırdı. Onu sakitləşdirməyə cəhd eləmirdik, susurduq, nəsihətin yeri deyildi.

"Dil"i və qızı qərargaha təhvil verib dincəlməyə getdik. Həmin günün axşamı cəbhədə möhkəm atışma oldu. İki şəhid verdik. Səhər

əmr aldım, meyitləri Gəncəyə aparmalı idim. Sanitarlar xərəkdə maşına dalbadal üç meyit yükləyəndə soruşdum:

– Üçüncü şəhid də var?

Sanitarlardan biri cavab verdi:

– Dünən xilas etdiyiniz qız gecə özünü asıb.

Məni soyuq tər basdı. Handan-hana soruşdum:

– Heç olmasa kimliyini öyrənəydiniz.

– Ondan söz ala bilməyiblər. Öləndən sonra üstündən sənəd də tapılmayıb. Təkcə barmağında nişan üzüyü varmış. Görəsən, nişan üzüyünü – cibindən çıxardıb mənə göstərdi – necə qoruyub? Nə əcəb əlindən almayıblar? İndi bu üzüyü neyləyim?

– Neyləyəcəksən, – dedim – göndər Bakıya, Aqil Abbasa. O, müharibəyə yardım edənlərin adlarını "Ədalət" qəzetində çap eləyir. Qoy siyahıda belə yazsın: erməni əsirliyi görmüş naməlum və nakam bir qızın nişan üzüyü.

"Ədalət" qəzetinin baş redaktoru, yazıçı Aqil Abbas sonralar mənə danışırdı ki, o zaman onun vasitəsilə əhalidən 12 kiloqram qızıl, bir az da brilliant toplanıb, "Ləl-cəvahiat Fondu"na göndərilib. Onu da qeyd edirdi ki, zor, ya xoş bilmirəm, sovet-alman müharibəsi boyunca Azərbaycan əhalisi SSRİ Müdafiə Fonduna 682 kiloqram qızıl bağışlayıb. Yazıçının dediklərinə əlavə edirəm: 1921-ci ildə Sovet dövlətinin Xalq Komissarı Mixail Frunzenin başçılığı ilə yeni yaradılmış Türkiyə Cümhuriyyətinə aparılan yardımın böyük hissəsi kömək çağırışına qoşulmuş Azərbaycan qadınlarının qızıl, ləl-cəvahirat hədiyyələri idi.

Meyitləri aparıb Gəncədə təhvil verdim. Həyatın qəribə işləri var, indi elə gün olur, diridən çox ölü görürəm. Keçən dəfə çöldə zənci meyitinə rast gəldim. Məndən də uzun, nataraz bir şey idi. Təzə ölü deyildi. Allah bilir, neçə gündü torpağa sərələnib qalmışdı, görüncə məni dəli gülmək tutdu. Elə bil Azdramanın səhnəsində idim. Bilirsiniz də, teatrı sevirəm, aktyor Hamlet Xanızadənin "İblis" tamaşasındakı pozalarından birinə pərçimlənib, belə bir monoloq söyləməyə başladım: "Ey axmaq zənci, sənin Qarabağda nə ölümün vardı? Meyitinə yiyə duran da yoxdur. Guya peşəkar

döyüşçü olmusan, muzdla vuruşmusan. Belə yaxşı vuruşan idin, ay qırışmal, niyə öldürülürdün? Ölkələr basa-basa gəlib, qürbətdə gəbərmisən. Bizdən neçəsini öldürmüsən, bu barədə cib dəftərçəndə qeyd varmı? Bağışla, səni öz torpağımızda basdıra bilməyəcəyəm! Bizim çalağanlar yəqin ki, zənci ətinin dadına baxmayıblar. Qoy gəlib desertə qonaq olsunlar!"

Babayar yeni bir söhbət başlayır: "Stepanakert, Şuşa türmələrindən bizimkilər malyava (*xəbər – türmə jarqonu*) göndərib. Oralarda Karine adında adamyeyən bir qız pırtlayıb çıxıb ortalığa, iyirmi səkkiz yaşı var. Deyəsən, familyası Arutyunyandır, həmişə qara plaşda gəzir, qara eynək taxır, "MORE" siqareti çəkir. Azərbaycanlı əsirlərin gözünü qırmaqdan ötrü nə vəhşiliklər eləmir?! Gözünə xoş görünməyəni seçib əlini-qolunu bağlatdırır, çarpayıya, dirəyə sarıtdırır, sonra da iti dırnaqları ilə onların ya gözlərini ovur, ya da balta dişləri ilə burnunu, qulağını, dodaqlarını gəmirir, eybəcər hala salır. Bir əsirin iti bıçaqla cinsi orqanını dibindən kəsib götürüb. Bir dəfə də Stepanakertdəki klubda zabit və əsgərlərin qarşısında qəribə hoqqa çıxardıb. Erməni bəstəkarı Aram Xaçaturyanın "Spartak" baletinin musiqisinin müşayiəti ilə səkkiz yaşlı azərbaycanlı uşağı səhnəyə gətirib. Oğlanın əlini buraxmadan vəhşicəsinə şeytan rəqsi edib, axırda qırmızı manikürü göz qamaşdıran uzundırnaqlı barmaqları ilə uşağı havada boğub səhnəyə çırpıb. O qədər tükürpədici tamaşa imiş ki, bəzi hərbçilər dözməyərək başlarını tutub özlərini salondan bayıra atıblar. Deyilənə görə, Ermənistan hökuməti belə-belə işlərinə görə ona medal da verib".

Kükrəyib sözünü belə bitirir: "Əlinə düşə, o qancığı saçından tutub sürüyəsən!"

Babayar gedəndə onu ötürən atamla həyətimizin çıxışında dayanıb xeyli xısınlaşdılar. Bir müddət sonra Qara danışacaqdı ki, Babayar atama Gürcüstandan oğurluq gətirilən satlıq "Kalaşnikov" avtomatı təklif edib. Deyib al, ya özün ehtiyat üçün saxla, ya da cəbhəyə yolla, onsuz da ordumuz silah-sursat sarıdan korluq çəkir. Atam razılaşıb, həmin axşam rustavili gürcülərdən hər biri üç min manata iki "Kalaşnikov" alıb və Babayarla Tərtərə göndərib.

Babayar fərqli adamdır, onu hələ tam təsvir etməmişəm. Heç vaxt fikirli, tutqun, mısmırığını sallamış görünməz. Həmişə qıvraqdır, çevikdir, hər dəqiqə ayaqdadır, yola düşməyə hazırdır. Hər mövzuda saatlarla həvəslə, şövqlə danışmağın həvəskarıdır. Allah bilir, gecələr bəlkə üç-dörd saat yata, yatmaya.

Babayarın boyunun ölçüsünü dəqiq bilmək çətindir. Lazım olanda boynunu top lüləsi kimi uzada, içəri yığa bilir. Dəvədəlləyi qədər olmasa da, başını hamıdan artıq arxaya çevirir. Şax duranda boyu bir doxsanı keçər. Ona gendən qırx yaş vermək olsa da, pasportunda şəklini və doğum tarixini görüb yaşının artıq olduğuna inanırsan. Evlənməyə macalı olmayıb, nə qədər türmədə yatmaq olar? Bu enerji ki onda var, mədəni, köklü-köməcli, babat bir ailədə doğulub boya-başa çatsaydı, çox qabağa gedərdi, sayılıb-seçilərdi, tanınardı. Amma gözünü açıb kasıbçılıq görmüşdü, yetimçiliklə böyümüşdü, on-on iki yaşından çörək dalınca düşmüşdü. Uşağı özbaşına buraxsan, hardan nə qazanacaq?! Kim idi onu qanadının altına alan? Bir anası vardı, o da qonum-qonşunun qapı-bacasında qurdalanıb bir qarın çörəyə işləyirdi. Babayarsa oğurluqdan başqa qazanc yolu bilmirdi. Xırda oğurluqlar eləməyə başlamışdı, bazardan meyvə, qonşulardan toyuq-cücə, yumurta çırpışdırırdı. Sonra yük qatarlarına dadanıbmış. Oğrulara qoşulub yavaş-yavaş papaqlanırmış. Yük qatarları bizim şəhərin oğruları üçün ən yaxın, ən rahat, ən zəngin qazanc yeri idi. Nə qədər qatar oğrusu tutulurdu, xeyri olmurdu. Yeni oğrular yetişirdi. Türməyə düşənlər də cəzasını çəkib gələndən sonra yenə yük qatarlarına dırmaşırdılar. İlk dəfə cinayət məsuliyyətinə cəlb ediləndə on dörd yaşı varmış. Türmə həyatına Tırnauz (*Dağıstanda şəhər*) uşaq koloniyasından başlayıb. Çox-çox sonralar bir dəfə yaşı yetmişi keçmiş Babayardan soruşdum:

– Babayar, – aramızdakı böyük yaş fərqinə baxmayaraq, onu adı ilə çağırırdım – türmədə nə qədər yatmış olarsan?

Dərhal cavab verdi:

– Qardaş oğlu, bu vaxta qədər mənə məhkəmələrdə on bir dəfə hökm oxunub. Üst-üstə qırx bir il, üç ay, on beş gün iş almışam. Am-

ma onun iyirmi il, doqquz ay, altı gününü içəridə yatmışam. SSRİ-nin Sibirdən belə on altı türməsində can qoymuşam. Oğurluq, xuliqanlıq maddələrindən başqa maddələrim olmayıb. Heç vaxt haqsızlığa dözməmişəm. İki dəfə amnistiyaya düşmüşəm. Məcburi əməyə göndərildiyim vaxtlar da olub. Stalin müharibə vaxtı türmədə yatanları cərimə batalyonlarına qatıb, döyüşlərin ön xəttinə atdırırmış. Mən də indi türmə yoldaşlarımla cəbhəyə göndərilmişəm. Anamın ölüm, Dövlət müstəqilliyimizin bəyan edilməsi xəbərlərini türmədə eşitmişəm. Müstəqillik çox vacib şeydir. Öz ölkənin türməsində yatmağa nə var?! Əlin yetməsə də, səsin hər yerə çatır.

Söhbətin bu yerində, pyeslərdə olduğu kimi, remarka verirəm: Babayar səhnədən gedir.

Yaşlı nəslin müharibə haqqında təsəvvürləri 1941-1945-ci illərin təcrübəsinə söykənirdi. Bu müharibə barədə veteranların danışıqlarından, kitablardan, sənədli və bədii filmlərdən, tamaşalardan, şəkillərdən biz də çox şey öyrənmişdik. Yaşlıları əsəbiləşdirən hökumətin Hitler – Stalin, Ruzvelt, Çörçill müharibəsinin tələblərinə uyğun hərəkət etməməsi idi.

Onların fikrincə, Azərbaycanda təcili səfərbərlik elan edilməli, güclü ordu yaradılmalı, hər kəs cəhbə üçün çalışmalı, təxribatçılar, fərarilər güllələnməyə qədər ağır cəzalandırılmalıdır.

Ordumuz Xocavəndi nəzarətə götürəndən sonra çox adamlarda elə fikir yaranmışdı ki, bugün-sabah Xankəndi də, Şuşa da alınacaq, Prezident Elçibəy demişkən, erməniləri sərhədlərimizdən o tərəfə qovub, məsələni bitirəcəyik.

Elə ki, Surət Hüseynovun komandan olduğu hərbi korpusun hissələri Laçın-Şuşa istiqamətlərində aparılan döyüşlərdə məğlub oldu, ölkədə vəziyyət dəyişdi. Məğlubiyyətdən az öncə, bəlkə də tarixdə rast gəlinməyən, görkəzmə, qəribə bir hadisə baş vermişdi, Prezident Əbülfəz Elçibəy, Laçını düşmən tapdağından azad edəcəyinə boyun olduğuna görə Surət Hüseynovu qabaqcadan "Azərbaycanın Milli Qəhrəmanı" adı ilə təltif etmişdi (*O, düz bir il, on bir ay, iyirmi iki gün "Milli Qəhrəman" fəxri adını daşıyacaqdı.1994-cü ildə dövlət çevrilişində suçlandığı üçün Prezident*

*Heydər Əliyev xüsusi fərmanla onu bu şərəfli addan məhrum edəcəkdi*).

Oktyabrın 9-da hökumətimiz əsgərlərimizin döyüş ruhunu yüksəltməkdən ötrü Azadlıq meydanında hərbi parad keçirtdi. Həmin gün 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti ordu yaratmağa başladığı gün idi.

Parada xeyli zirehli döyüş maşını, tank, hərbi avtomobillərə qoşulmuş top çıxarılmışdı. Müxtəlif qoşun növlərindən olan zabitlər, əsgərlər nizamla yeriyirdilər. Demək olar ki, səksən səkkizinci ildən bəri Bakıda keçirilən bütün mitinqlərdə, böyük yığıncaqlarda, mərasimlərdə, yürüşlərdə iştirak etmişdim. Bu hərbi parad qədər məni silkələyəni olmamışdı.

Tarixdən məlumdur ki, 1941-ci ilin 7 noyabrında, yəni 1917-ci ilin 25 oktyabrında (*yeni təqvimlə 7 noyabr*) baş vermiş inqilabın ildönümü günündə Stalinin Ali Baş Komandanı olduğu Qızıl Ordu hissələri Qızıl Meydanda hərbi paraddan keçib birbaşa SSRİ paytaxtının 27 kilometrliyindəki cəbhəyə yollanmışdı və ölüm-dirim savaşında Almaniya ordusunu geri oturtmuşdu. Oxşar hadisə baş verə bilərdi. Hərbçi olmasa da, Müdafiə nazirimizin əynində hərbi səhra-geyimi, başında sovet generallarının papağı kimi qaragül dərisini xatırladan dəridən tikilmiş boz papaq vardı. Onun içində ayaq üstə durduğu üstüaçıq hərbi avtomobil tribunanın önündə dayandı. Nazir Rəhim Qazıyev Prezident, Ali Baş Komandan Əbülfəz Elçibəyə raport verdi. Elçibəy hərbçiləri salamladı: “Salam əsgər!”. Azadlıq meydanındakı bütün əsgərlər bir ağızdan guruldadı: “Salam!”

Mənim kimi tamaşaçılardan da əsgərlərə qoşulub “Salam!” deyənlər vardı.

Fikir verdim, hərbi parada tamaşaya gəlmiş uşaqlı-böyüklü hamı sevinirdi. Yəqin adamlar düşünürdü ki, paraddan keçən zabitlər və əsgərlər, bütün hərbi texnika birbaşa cəbhəyə yollanacaq.

Atam da mənimlə idi. Son vaxtlar bir yerdə dura bilmirdi. Hökumətimizin hərbi parad keçirəcəyini eşidib, özünü Bakıya çatdırmışdı. O da hadisələri sürətləndirməyə, cəbhədə tam, qəti qələbə qazanmağımıza tələsirdi.

Atam öz-özünə danışırmış kimi deyir:

– Bir zaman Qərb çox çalışdı, Osmanlı torpaqlarında erməni dövləti yaratmağa gücü çatmadı, amma bolşeviklər Azərbaycanın torpaqları hesabına "Ermənistan Respublikası" qondardı. Ruslar beşinci ildə də, on səkkizinci ildə də silahlandırdıqları erməniləri üstümüzə qısqırtdılar. Yenə də düşmənimizin dalında möhkəm durublar. Qorxuram, bizi sıxıb uduzduralar. Dövlətimizi içdən də dağıdanlar var. Sənə bir əhvalat danışım. Ötən əsrin sonlarında Osmanlının, İngiltərənin, Fransanın, Almaniyanın və başqa bərkgedən dövlətlərin yüksək vəzifəli şəxsləri Parisdə rəsmi görüşdə imiş. Kimsə sual verir ki, indi dünyada ən güclü dövlət hansıdır? Osmanlı dövlətinin Sədrəzəmi, yəni Baş naziri Keçəçizadə Molla İzzət tez dillənir: "Əlbəttə, Osmanlı dövləti!". Soruşurlar: "Niyə bu cür düşünürsünüz?" Cavab belə olur: "Ona görə ki, siz onu çöldən, biz isə içəridən nə qədər dağıdırıq, yenə çökmür, duruş gətirir".

Osmanlı dövləti kimi güclü olmasaq da, düşmənlə bacararıq, ancaq həm daxildə, həm də xaricdə iş pozanlarımız çoxdur.

Gecə atam yanımda qaldı. Çoxdandır bir damın altında gecələməmişdik.

Səhər yeməyimizi yeyəndə atam dedi ki, çoxdandır İçərişəhərdə olmamışam, gəl bərabər gedək, bir az oralarda gəzək. Bir yer tapıb nahar da edərik, sonra sən sağ, mən salamat, ayrılarıq.

Axır vaxtlar atamın maşınına minməmişdim, bəlkə də elə buna görə dərhal razılıq verdim.

Təzəcə "Moskva" prospektinə çıxmışdıq ki, polislər maşınımızı saxlatdırdılar. Yeddi nəfər idilər, biri sənəd istədi. Atam ağzını açmadan sürücülük vəsiqəsini və maşının texniki pasportunu verdi. Polis yoldaşları ilə nəsə xısınlaşdıqdan sonra sənədlərə baxaraq yazdığı qəbzi gətirib, sürücülük vəsiqəsi ilə bərabər atama uzatdı. Texniki pasportu özündə saxladı. Qaşqabaqlı polis ona sual vermək istəyən atamı qabaqladı:

– Xahiş edirəm, hər ikiniz maşını tərk edin!

Atamla biri-birimizə baxıb maşından düşdük.

Polis göstərişini yerinə yetirdiyimizi görüb sanki ürəkləndi:

– Vətəndaş, biz “OMON”danıq. Maşınınız cəhbə üçün götürülür. Müharibədən sonra qəbzi göstərib, əmlakınızı geri ala bilərsiniz.

Atam qəbzi götürmədi, təəccüblə mənə baxdı – yəni bu nə məsələdir? Çiynimi çəkdim: düzü, Qarabağ hadisələri başlanandan bəri kiminsə şəxsi maşınının əlindən alınıb cəbhəyə göndərildiyini eşitməmişdim. Bəlkə, bu adamlar polis paltarı geyinmiş quldurlar idi? Atam özündən çıxdı:

– Bəyəm dövlətimiz belə bir sərəncam verib?

“OMON”çu quru-quru dilləndi:

– Verib!

– Haçan?

– Bilmirəm. Mən əmri yerinə yetirirəm.

– Nə bilim kimsiniz? Hökumətin sərəncamını mənə göstərməyincə, maşının açarlarını sizə verməyəcəyəm.

O biri polislər də atama təzyiq göstərməyə başladılar. Onlar yer-yerdən bizim heysiyyatımıza toxunan sözlər deyirdilər:

– Hamınız “vətən”, “vətən” deyirsiniz, amma vətənə bir maşını qıymırsınız.

– Millət deyilik də!

– Erməni olsaydı, çoxdan maşını təhvil verib getmişdi.

Atam möhkəm dayanmışdı:

– Siz mənə şəxsi avtomobillərin səfərbərliyə alınması barədə bir sənəd göstərin!

Polislərin başçısı yoldaşlarına üzünü tutub dedi:

– Götürün, aparın qərargaha! Gedib orda cavab versin.

Qaşqabaqlı “OMON”çu atamdan bizim maşının açarlarını alıb sükan arxasında əyləşdi, başqa bir polis də qabaq oturacağı tutdu. Atamla mən arxaya keçdik.

Onlar bizi Xüsusi Təyinatlı Polis Alayının qərargahına gətirdilər. Həyətdə maşından düşdük.

Aldatmırlarmış. Atamla məni əsir kimi rəisin qəbul otağına apardılar. Qaşqabaqlı polis rəisin otağına girib nələr dedi, bilmədik, heç bir dəqiqə keçməzdi, bizi içəri ötürdülər. Rəisi görəndə tanıdıq, bu televiziyada, qəzetlərdə üzünü görüb, rəğbətlə adını andıqlarımızdan

biri olan Rövşən Cavadov idi. Çox qəzəbli idi. Boy-buxunumuzu başdan-ayağa süzüb, ağzımızı açmağa qoymadan lap filmlərdəki qəddar generallar kimi əmr verdi:

– Aparın hər ikisini güllələyin!

"OMON"çular bir anda qolumuzdan yapışıb, bizi kabinetdən çıxartdılar. Heç bir müqavimət göstərmədik. Şokda idik, doğrudanmı, bizi güllələməyə aparırdılar? Atam çox pərt olmuşdu. Hiss edirdim ki, düşdüyü vəziyyətdən xəcalət çəkir. Nə baş verdiyini sanki anlamırdım. Kimsənin olmadığı bir otağa gətirildik. Balaca iş otağı idi. İçəridə bir stol, iki stul vardı. Bizi otaqda buraxıb getdilər.

Atamın ilk cümləsi belə oldu:

– Görürsən, müharibəni təşkil edə bilməmək budur! Basməmmədi müharibə olmaz!

Bir az susduqdan sonra tamam başqa bir cümlə işlətdi:

– Mən də düz eləmədim. Dövlətin nə təchizatı var ki… Dağdadaşda sürmək üçün "OMON"çulara "Niva" lazımdır. Böyük Vətən müharibəsində belə bir şuar varmış, "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" Gərək indi rəhbərlik bu şüarı dəbə sala. Təcili yeni qanunlar işlənib-hazırlanmalıdır. Müharibə haqqında heç bir qanunumuz olmadan kor-koranə işə başlamışıq.

Atam daha heç nə demədi. Kitablardan türmədə güllələnmə hökmü ilə yatan dustaqlar haqqında çox oxumuşdum. Onların susqunluğu, keyliyi nə atamda, nə də məndə vardı. Əksinə, atam daha ayıq və cəld görünürdü. Deyəsən, haqqımızda verilən şifahi hökmə ciddi baxmırdıq. Amma hər şey ola bilərdi. Oturub hər an qapının açılacağını, bizi aparacaqlarını gözləyirdik. Nahar vaxtına qədər qapıya baxdıq. Bizi itirib-axtaran olmadı. Axırda qapıya əl atıb dartdım, açıq imiş. Atamla dəhlizə çıxdıq. Üzündən zəhrimar yağan "OMON"çu da dəhlizdə göründü. O, bayaq yolda yazdığı qəbzi yenidən atama uzatdı:

– Vətəndaş, götürün qəbzi, nə qədər ki, Rövşən bəy nahardan qayıtmayıb, xoşluqla aradan çıxın.

Atam ona qabardı:

– Mənə qəbz lazım deyil! Aradan çıxmasaq, nə olacaq?

“OMON”çu qəbzi cibinə qoyub quru-quru cavab verdi:

– Onu Rövşən bəy bilər. Ancaq bizə maşın lazımdır, sizin meyitləriniz yox.

Atamın maşından əl çəkdiyini duyub soruşdum:

– Biz gedə bilərik?

“OMON”çu dodaqlarının yan tərəfini açaraq ağızucu dilləndi:

– Gedin!

Atamın tərsliyi tutmuşdu:

– Biz qaçmırıq ha!

Nəzarətçi başını tərpətdi.

Biz Xüsusi Təyinatlı Polis Alayının qərargahının qapısından (*həyatın işinə baxın, iki il keçəcək, dövlət çevrilişinə cəhd edərək Heydər Əliyev iqtidarına qarşı qiyam qaldırmış polkovnik, – o, Surət Hüseynov və Əlikram Hümbətovdan sonra üçüncü qiyamçı polkovnik olacaqdı – Respublika daxili işlər nazirinin müavini Rövşən Cavadov bu darvaza önündəcə qanına qəltan ediləcəkdi. Onun Qarabağın müdafiəsində zəhməti olmuşdu, xüsusən, 1989-1992-ci illərdə Laçın rayonu Post-patrul xidmətinin komandiri olarkən çox qoçaqlıqlar göstərmişdi. Elə ona görə də vəzifədə irəli çəkilmişdi. Rövşən Cavadovun əfqanıstanlı Hərbi səhra komandiri Gülbəddin Hikmətyarla dostluğu varmış. Bunun nəticəsi idi ki, 1992-ci ilin dekabrında Əfqanıstana gedib onunla görüşmüş, min nəfər muzdlu əfqan döyüşçüsünün Qarabağda vuruşmaq üçün göndərilməsinə razılıq almışdı.. Sonralar Rusiya mətbuatı yazacaqdı ki, guya Gülbəddin Hikmətyarın özü də Qarabağ döyüşlərində iştirak edib. Şübhəsiz, bu versiya ya qərəz idi, ya da yanlışlıq. 1993-cü ilin yazında Qarabağa gətirilən əfqan döyüşçüləri onların qonşuluğunda vuruşmuş qardaşım Qara demişkən, cəhbədə heç nə eləyə bilmədilər. Onlara ciddi tapşırıq da verilmədi. Müsəlman əfqanlar mənşəyini bilmədikləri əti yemədiklərinə görə, onlar üçün hər gün gözlərinin qabağında qırx qoç kəsilirmiş. Heydər Əliyev hakimiyyətə gələndən sonra əfqan muzdluları vətənlərinə yola salınacaqdı. 1994-cü ilin oktyabr qarışıqlığında da “ipə-sapa yatmayan” Baş nazir Surət Hüseynovla birgə Rövşən Cavadovun və qardaşı, Bakı şəhəri Xətai rayon prokuroru*

*Mahir Cavadovun adı hallanmışdı. Nəyinsə üstündə Mahir Cavadov və bir dəstə "OMON"çu Respublika Baş Prokuroru Əli Ömərovun kabinetinə soxularaq onu möhkəm əzişdirmişdilər. Dünya televiziya tarixində bəlkə də ilk dəfə ölkənin Baş Prokuroru qançır-qançır olmuş kürəyini aram-aram tamaşaçılara göstərib necə döyüldüyündən danışırdı. Belə qaxıncı olan, biabır olmuş yüksək mövqeli dövlət məmurunu Prezident Heydər Əliyev bir gün də vəzifəsində saxlamazdı, saxlamadı da*) küçəyə çıxanda atam dedi:

– Həm maşınımızı verdik, həm də alçaldıq.

Atama təsəlli verdim:

– Eybi yoxdur, ata, hələlik Qaranın maşınını sürərsən.

Atam mənə xəbərdarlıq etdi:

– Maşının əlimizdən alındığını heç kimə demə! Özümüz bağışlasaydıq, o başqa məsələ! Anana deyəcəm ki, maşını satmışam. Vəssəlam! Amma gərək Rövşən Cavadov bizə "xox" gəlməyəydi. Onun kabinetinə girəndə maşını verməyə hazır idim. O boyda kişi gərək elə hökm verməsin. Verdisə, sözünün dalında dursun.

Yola çıxıb taksiyə mindik, heç nə olmamış kimi İçərişəhərə gəldik. Atam, bəlkə də mənə görə, özünü tox tuturdu. Amma burası vardı ki, atam olduğu üçün demirəm, o, doğrudan da, gözütox, əliaçıq adamdı. Bir "Niva" onu sındırmazdı. Hərdən bizə dediyi bir söz vardı: "Lazım olanda milyona qızırqanmayın, amma yersiz bədxərclik etməyin, hər qəpiyin qədrini bilin!" Bizim heç vaxt milyonumuz olmasa da, atam pul qazanandı.

İçərişəhərin dar küçələrində gəzib-dolaşmağı sevirdi. Qız qalası tərəfdən İçərişəhərə girdik. Uzaq getmədik, "Karvansara" restoranında əyləşdik. Bizdən beş stul o tərəfə – saydım – təxminən mən yaşda cavan oğlanlar yeyib-içirdi. Tinləri taraz idi, haylı-küylü idilər.

Arsız hesab etdiyim sərxoş cavan həmyaşıdlarıma rişxəndlə, çəp-çəp baxdığımı görən atam yavaşca dedi:

– Oğlum, onlara əyri-əyri baxma! Tanımadığımız adamlardır. Bəlkə biri, yaxud ikisi qardaşın Qara kimi təzəcə polisliyə başlayıb, xidməti vəzifəsini yerinə yetirmək üçün sabah cəbhəyə yola düşəcək? Bəlkə elə də deyil, tamam ayrı münasibətlə yığışıblar. Cavan-

dırlar, əylənməyə haqları var. Müharibəni xalqlar aparmır, dövlət aparır. Bütün məsuliyyət hakimiyyətin boynundadır. Dövlət ciddi şəkildə müharibəyə girişəndə heç kəs yaxasını kənara çəkə bilmir, özbaşınalıq edənlər sərt cəzalandırılır. Eşitmisən də, ta qədimdən üzü bəri böyük sərkərdələr çağırışdan yayınanlara, fərarilərə, əmrə tabe olmayanlara qarşı necə amansız olublar. “Uf” demədən ucdantutma başlarını üzüblər, hamısını divara dirəyib güllələyiblər. Tarixdə orta ömür yaşayan elə bir insan olmayıb ki, ömründə ya inqilaba, ya müharibəyə, ya çevrilişə, ya da epidemiyaya rast gəlməsin. Hansı şəraitə düşürsən düş, cəsarətlə yaşamağı bacar. Çünki xoşbəxtliyi sabaha saxlamaq olmaz.

Alınıb susdum. Atamsa xidmətçiyə yeməklə bərabər araq da sifariş verdi.

Yeməyə başlayıb, atamın dediyi yüngül sağlıqla ilk badəmizi içdik. Atam məsəl çəkdi:

– Mustafa Kamal paşa Sakarya savaşına girəndə toy-bayrama gedirmiş kimi silahdaşlarına deyirmiş: “Hə, çocuklar, bum-bum başladı, biləsiniz…”

İkinci badəni içəndən sonra atamın bir az da qırışığı açıldı:

– Əzəldən bütün müharibələr sərvət, mənafe üstündə olub. Ancaq müharibələri din, məzhəb, milli münaqişə zəminində törədiblər.

Şərqi Avropanı, Orta Şərqi, Qafqazı tarix boyu qarışdırıblar. Niyə? Çünki böyük ticarət yolları bu ərazilərdən keçir. Hər üç bölgə zəngindir, mülayim təbiətlidir. Hər üçündə nifaq mənbəyi olan milli, dini, məzhəb fərqləri var. İki dünya müharibəsini Şərqi Avropadan başlayıblar. Orta Şərq musəviliyin, xristianlığın, müsəlmanlığın mərkəzidir. Bu üç dinin, saysan, nə qədər məzhəbləri var. Qafqaz da onlar kimi… Xalqlar, dinlər, dini məzhəblər qarşı-qarşıyadır. Böyük dövlətlər heç vaxt Qafqazın yaxasından əl çəkməyəcəklər. Elə bilmə, bu sonuncu savaşımızdır, zaman-zaman davaya düşəcəyik. Nəvə-nəticələrimiz də, kötücələrimiz də, ondan sonrakılar da çarpışmalı olacaqlar. Amma öz aramızdır, dədə-babalarımız gör, bizə necə gözəl, altı-üstü xəzinə olan bir vətən qoyub gediblər. Onun uğrunda ayağını yerə dirəməyə dəyər. Şəxsən mən belə dü-

şünürəm. Bir millət olaraq bizim vəzifəmiz yorulmadan mübarizə aparmaqdır. Ərimməməliyik, itməməliyik. Bu torpaqda miliyon illik keçmişimiz varsa, sonu görünməyən gələcəyimiz də olmalıdır.

Atam təkcə öz sözünü demir, Lomonosov adına Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsini bitirmiş, indi elmlər doktoru, professor, xeyli kitabın müəllifi olan alim qohumumuzun fikirlərini də mənimlə bölüşür. Atam vaxtaşırı onunla gah Bakıda, gah da bizim şəhərdə görüşür, bütün mövzularda doyunca söhbət edirlər. Qabaqlar Soçidə, Yaltada birgə istirahətdə olublar. Atam deyir, ondan və onun çevrəsindəki alimlərdən çox şey öyrənmişəm. Romanda sıxlıq olduğuna görə həmin alimlə atamı bir surətdə birləşdirmişəm. Əslində atam iki adamın adından danışır.

Atam bir qurtum su içib sözünə davam edir:

– Bir məsələni deyim, dünyada elə bir dövlət yoxdur ki, qonşu dövlətlərlə ərazi mübahisəsi olmasın. Çünki qədim dövrlərdə, orta əsrlərdə indiki kimi dəqiq torpaq, su, hava sərhədləri cızılmayıb. Axı, keçmişdə sərhədlər tez-tez pozulurmuş, dəyişirmiş. Məsələn, "Böyük Çin səddi"ni götürək. Vaxtilə hunların hücümlarına qarşı tikilib, sonra Hun imperiyası dağılıb. İndi sədd ölkənin ortasında qalıb. Uzağa niyə gedirik? Dəmir qapı Dərbəndin Çin səddi kimi uzanıb gedən divarlarını Rusiya çoxdan aşıb. Bizim dövlətimizin ərazisi etnik ərazimizdən neçə dəfə kiçikdir. Nə isə…

Biz restorandan çıxanda bayaq rişxəndlə baxdığım cavanlardan biri ordumuzun şərəfinə sağlıq deyirdi. Atam haqlı çıxmışdı, əlini kürəyimə şappıldatdı.

Onu yola salıb, Filarmoniya bağının içi ilə üzüyuxarı, "Bakı Soveti" metrosuna tərəf qalxdım. Metroya yaxınlaşanda on-on iki addım qabaqda gedən Fərəhi yerişindən tanıdım. Yerişimə haram qatıb, ona çatdım. Fərəh məni görüncə sevindi. Gülə-gülə dedi:

– Axşam sənə zəng vuracaqdım.

– Xeyirdi? – soruşdum.

– Xəstəxanadan bizi cəbhəyə göndərirlər. Hələlik üç aylıq. Dörd nəfərik, iki həkim, iki tibb bacısı.

– Yaxşı yol! – başqa söz tapmadım.

– Ya üzünü görmək, ya da səsini eşitmək istəyirdim. Hər halda cəhbəyə gedirəm də.

– Üzümü də gör, səsimi də eşit! – gülümsədim.

Fərəh şövqə gəldi:

– Məni ötürərsən?

– Ötürərəm! – Şax cavab verdim.

Avtobusda basabas olduğuna görə məndən aralı düşmüş Fərəhlə kəlmə kəsə bilmədim. Avtobusdan düşən kimi elə ağzımı doldurub onunla sağollaşmaq istəyirdim ki, Fərəh fikrimi üzümdən oxuyub sözün tam mənasında komanda verdi:

– Bizə gedəcəyik!

Diksinən kimi oldum, gözlərim alacalandı:

– Sən artıq cəbhədəsən ki... Mənə əmr verirsən?

Fərəh ürəkdən güldü:

– Əmr vermirəm. Sənin bizə getməyini ürəkdən istəyirəm.

Mənzilə qalxdıq. Fərəh çantasından açarı çıxarıb qapını açdı, içəri keçib ayaqqabılarımızı soyunan kimi istədim onunla bir az məzələnim, mənimlə amiranə davranmasını lağa qoyum. Və sözləri sıraya düzüb,birnəfəsə üstünə yağdırdım:

– Fərəh xanım, əmrinizi gözləyirəm. Durum? Oturum? Uzanım? Mayallaq aşım? Neyləyim?

Fərəh gəlib mənimlə nəfəs-nəfəsə dayandı, gülümsəyib dedi:

– Məni qucaqla, möhkəm-möhkəm özünə sıx, qoy bütün sümüklərim xırçıldasın!

Heç bir həyəcan keçirtmədən fiziki bir işlə məşğul olurmuş kimi, Fərəhi qucaqlayıb sıxdım. Qollarımı boşaldanda dedi:

– Oxqay! Çoxdandı belə rahat olmamışdım.

Bu vaxt qapının zəngi çalındı. Fərəh təəccüblə başını buladı. “Kim ola bilər?” – deyib qapıya sarı getdi. Gələn Fərəhin anası imiş. Əminə müəlliməni görüncə, məni tər basdı. Ürəyimdə Fərəhi möhkəmcə qınadım. Anası Bakıda idisə, gərək mənə bildirəydi. Ancaq Əminə müəllimə danışmağa başlayanda başa düşdüm ki, yanılmışam.

O, Fərəhə üz tutub dedi:

– Ürəyim durmadı, xəbər vermədən gəldim. İstədim sabah özüm səni yola salım.

Çox oturmadım, qabağımda qalıb soyumuş çayımı su kimi başıma çəkib getmək üçün ayağa qalxdım. Ana-bala nə qədər yalvar-yapış eləsələr də, yolumdan döndərə bilmədilər.

Qapının ağzında ona "Yaxşı yol!" deyəndə Fərəhin gözlərini dolmuş gördüm. Anası gözə dəymirdi, onu bağrıma basdım, əllərimi saçlarına çəkdim. Təxminən iki dəqiqə başını sinəmdən götürmədi. Axırda başqa söz tapa bilmədim: "Mənə yazıb yerini bildirərsən!" – pıçıldadım. Ayrılıb tənbəl-tənbəl pilləkəni enməyə başlayanda arxadan "Yanıma gələcəksən?" – soruşdu. "Ay səni, şeytan!" deyib ona əl yellədim. Fərəh dodaqlarını büzdü, ağlamsınaraq "Bir də o sözləri işlətmə!" dedi. Dərhal başa düşdüm, əri də yəqin onu hərdən belə əzizləyərmiş.

Bir neçə gündən sonra məni Prezident Aparatında məsləhətçi vəzifəsində işləməyə dəvət etdilər. Təkliflə dərhal razılaşdım. Hadisələrə lap azacıq da olsa, təsir edə biləcək səlahiyyət qazana bilərdim. Atam çox da təəccüblənmədi. Hakimiyyətdə kütləvi dəyişikliklərin getməsi atamın ürəyincə deyildi. Mənim kimi idarəetmə təcrübəsi olmayan adamların icra aparatlarına götürülməsi onu üzürdü. "Xala xətrin qalmasın" məni təbrik etdi. Anam atamın danışığını eşidirmiş, telefonun dəstəyini ondan alıb sevinə-sevinə xoş sözlər dedi.

Yeni yaranmış şöbəmiz xaricdəki soydaşlarımızla, respublikamızda yaşayan milli azlıqlarla, dini qurumlarla iş aparacaqdı.

İlk günlər iş otağında uzun-uzadı oturmaq məni yorurdu. Səhər saat doqquzdan gecə saat doqquza qədər işə başım qarışırdı. Telefonlardan ayrılmaq olmazdı, istənilən anda daxili, şəhər, hökumət telefonları zəng çala bilərdi. Yalnız rəhbərliyin çağırışına gedəndə, qonaq qarşılayanda, iclasda oturanda otaqdan aralanırdım. Müşavirimiz çox məsuliyyətli, ciddi adam idi. Şənbə günlərim də, iş yoldaşlarım kimi, saat 11-dən axşamüstünə qədər işdə keçirdi. Bəzən otaqda məni yuxu basırdı. Telefonların səsinə dik atılırdım. Axşamlar işdən evə dönəndə canımda hey qalmırdı. Ayaqlarımı vannada isti

suya qoyurdum ki, damarlarımda qanım hərəkətə gəlsin. İstirahətləri bazar günlərinə saxlayırdım. Orduya çağırılmamaqdan ötrü Prezident Aparatında çalışan cavanlar "Bron"a götürüləndə özümü tam müharibə dövründə hiss edirdim.

Heç iki ay olmazdı işə başlamışdım, ezamiyyətə göndərildim. Qusarın Sudur kəndindən kolxozçuların yazdıqları şikayət məktublarının ardı-arası kəsilmirdi. Başqa tapşırığım da vardı. Qonşu Dağıstanın Məhərrəmkənd və Qasımkənd rayonunda yuva salmış millətçi "Sadval" (*ləzgilər "Sadual" kimi tələffüz edirdilər*) təşkilatının üzvləri tez-tez Qusara gəlib, dövlətimizin əleyhinə qızışdırıcı, təhrikedici təbliğat aparırdılar deyə, rəhbərlik oraları nəzarətsiz qoymurdu.

Obaşdan yola çıxmışdım. Şəhər hələ yuxudan oyanmamışdı. Hələlik yerdə gəzən adamlardan havada uçan quşların sayı çox idi. Uşaqlıqdan bəri alatoran vaxtı təzəcə yuxudan oyanmış quşların dəstə ilə havada elədən-elə, belədən-belə uçması xoşuma gəlir. Gözümü açandan həmişə quşları eyni həvəsdə görmüşəm. Necə cəld, necə qıvraqdırlar. Necə böyük coşqunluqla özlərinə dən axtarırlar. Onların yazı ilə qışı arasında bircə fərq var. Yazda nəğmə oxuya-oxuya, qışda isə susqun-susqun səhəri açırlar. Bəlkə onlar da müğənnilər kimi soyuq havalarda boğazlarını soyuqdəymədən qoruyurlar? Bəlkə də...

Saat 11-ə yaxın Qusara çatdım. Avtobusdan düşüb İcra Hakimiyyətinə gəldim. Əlimdə yüngül çantam vardı.

İcra başçısını qayğılı gördüm. "Sadval"çılar SDK-ya (*Samur-Dəvəçi kanalı*) yaxın Şirvanovka kəndinin sakinlərini Bakı-Rostov avtomobil yoluna tökmüşdülər. Gələcəyimi dünən telefonla İcra başçısına xəbər vermişdim deyə, məni – Prezident Aparatının nümayəndəsini gözləyirmiş.

Mən, İcra başçısı, rayon prokuroru və polis rəisi iki maşına əyləşib hadisə yerinə getdik.

Gözləri oynayan, ağızlarından qan iyi gələn, qulaqları doldurulmuş, ağlı yerindən oynamış on-on beş cavanı çıxsaq, toplaşanlar tamaşaya durmuş qız-gəlinlərdən, uşaq-muşaqlardan ibarət idi.

Tək-tük yaşlı kişilər, qadınlar da vardı. Arada əyninə donun üstündən kişi pencəyi geymiş başı şallı yeniyetmə bir qızın bizi görüncə “Ləzgistan!” deyə cır səslə qışqırdığı və dediyindən utanıb yan-yörəsindəkilərin arxasına çəkildiyi gözümdən qaçmadı. Yolu kəsən cavanlara yaxınlaşanda iki oğlan irəli çıxaraq “Yolu açmayacayıq! Bakıya tabe olmuruq!” deyə səs-səsə verdilər. Səslərdə inamsızlıq vardı. İcra başçısı onlara ləzgi dilində üç-dörd kəlmə nə dedisə, cavanlar geri çəkildi. İcra başçısının dediklərindən bircə “Prezident Aparatı” sözlərini ayırd etdim. O, kənd adamlarına üz tutub xeyli danışdı. Yenə ləzgi dilində. Davranışlarından, hərəkətlərindən, üzlərinin ifadələrindən aydınca hiss olunurdu ki, aldadılıb buraya gətirilmiş adamlar siyasətdən çox-çox uzaq, saf, abırlı-həyalı sadə kəndçilərdir.

Yol açıldı, adamlar seyrəlib evlərinə dağılışdılar.

Sudur kəndinə yola düşdük. Demə, kəndin klubunda sakinlər qabaqcadan yığışıb bizi gözləyirmişlər. İçəridə bir yer də boş deyildi. Biz, zaldan baxanda soldan-sağa yanaşı belə əyləşdik: Rayon prokuroru, mən, İcra başçısı və polis rəisi...

İlk tanışlıqdan orta yaşlı İcra başçısı mənə dərin adam təsiri bağışlamadı, yerli-yersiz qarşısındakılara hərbə-zorba gəlməyi xoşlayırdı, belində tapança olduğunu nümayiş etdirirdi. Eşitmişdim ki, onu bura Respublika müdafiə naziri Rəhim Qazıyev təyin etdirib. Prokurorsa təmkinli idi, çox ehtiyatlı davranırdı. Hiss olunurdu ki, vəziyyətə təsir etməkdən daha artıq özünü qorumaq haqda düşünür. Otuz üç-otuz dörd yaşında olan polis rəisinin isə gözü-başı qaynayırdı. Hərəkət etmək üçün hər an əmr gözləyirdi. Sanki Bakıdan çoxlu əmr gətirmişdim, indi onları bir-bir onun üstünə yağdıracaqdım. Ancaq mən Prezident Aparatından bircə tapşırıq almışdım: şikayətləri yerində araşdırıb yazılı məruzə hazırlamaq.

İcra başçısının kürsüyə birinci çağırdığı yaşlı kişi əllərini havada oynada-oynada qəzəblə danışmağa başladı. Tez-tez mənə baxırdı. Ancaq “Kolxoz”, “Sovet hökuməti”, “Sədr”, “Bakı” kimi sözlərdən başqa onun dediklərini anlamırdım. Çünki ləzgicə danışırdı. İcra başçısı onun dediklərinə başını tərpətməklə münasibət

bildirirdi. Arada yerdən də kinayəli atmacalar atıb, şikayətçinin səsinə səs verirdilər. Prokuror, polis rəisi və mən söhbətdən kənarda qalmışdıq. Şikayətçi danışığını uzatdıqca salonda gərginlik artırdı. Tribunaya qalxan ikinci şikayətçi də danışmaq üçün ana dilini seçdi. Narahat olmağa başladım. Prokuror da, polis rəisi də naqolay vəziyyətə düşmüşdülər. Amma İcra başçısının başı şikayətçiləri diqqətlə dinləməyə qarışmışdı. Sanki biz yadına düşmürdük. Prokurora baxdım, üzünün ifadəsi məni səbrli olmağa çağırdı. O, hətta bununla kifayətlənməyib, əli ilə dizimdən basdı, naşı olduğumu xatırladan bir baxış fırlatdı. Başa düşürdüm, Qarabağda qızğın döyüşlər getdiyi bir vaxtda dövlətimiz, başqa bölgələrindəki araqarışdıranların nazı ilə oynamağı bacarmalıdır. Təcrübəli dövlətlər ölkədə həmişə vətəndaş siyasəti yeridiblər, qanun qarşısında hamı bərabər olmalıdır. Lakin neyləmək olardı? Artıq SSRİ məkanında yaşayan bütün xalqların milli hissləri qızışdırılmışdı. Bir çox siyasətçilər, dövlət xadimləri, alimlər, yazıçılar guya hünər göstərib, xalqını şit-şit öyür, özünü gözə soxurdu. Ortaya atılmış bu sarsaq siyasət nəinki azsaylı xalqların, etnik qrupların, elə əhalisinin sayı üstün olanların da heysiyyatına toxunurdu.

Yetmiş il əvvəl imperialistlər Osmanlı dövlətini təkləyib sıxışdırdığı bir vaxtda Mustafa Kamal paşanın istiqlal savaşları zamanı dediyi “Türkün türkdən başqa dostu yoxdur!” kəlamını Bakıda millətçilər xoş məramla dövriyyəyə buraxsa da, heç özünü doğrultmurdu. Şərait başqa şərait idi, zaman başqa zaman. İlk baxışda birliyə, qardaşlığa çağıran bu şüar başqa xalqlardan olanların xətrinə dəyirdi. Şöhrət, mənsəb azarına tutulanlar elə bilirdilər ki, bölgələrində, hətta kəndlərində də müstəqil dövlət qura bilərlər. Dünənəcən Azərbaycan dilində yazıb-yaradan sadəlövh şairlər Kələntər Kələntərli ləzgicə, Əhəd Muxtar talışca şeirlər yazıb çap etdirərək, “milli qeyrət” nümayiş etdirirdilər.

Kəlbəcərli şair Şamil Əsgərin jurnalist oğlu Həjar hansısa ölkənin dağlarında PKK (*Kürd İşci Partiyası*) döyüşçüləri ilə görüşüb, bir müddət onlarla oturub durandan sonra Bakıya qayıtmışdı və yarı Azərbaycan, yarı kürdcə buraxdığı qəzeti qəzəbli, lupa şüşəli eynə-

yi burnunun üstə sürüşmüş halda Bakının "İstiqlaliyyət" küçəsində qarşısına çıxanlara havayı paylayırdı. Küçədən keçəndə bir qəzet də mənə düşmüşdü. Qəzet Həjarın PKK-çılarla çəkdirdiyi şəkillərlə dolu idi. Əslində terrorçuluqla məşğul olan PKK qəzetdə vətənpərvər bir təşkilat kimi tərənnüm edilirdi.

Təsəvvür edin, düşüncələrə daldığım vaxtda tribunadakı adam hələ də danışırdı. Onun sözünü bitirməsi və növbəti kənd sakininin kürsüyə çıxması məni xəyaldan ayırdı.

Üçüncü çıxışçı da ləzgicə danışmağa başlayanda dözmədim, ayağa durub ona müraciət etdim:

– Ağsaqqal, (*yaşlı kişi idi, yumşaq adama oxşayırdı*) bağışlayın, sözünüzü kəsirəm.

Ağsaqqal susub, mənə sarı çevrildi. Üzümü salona tutub, rəsmi tonda dedim:

– Sizin şikayətləri dinləməkdən ötrü Bakıdan bura xüsusi tapşırıqla göndərilmişəm. Gəlin, dövlət dilimizdə danışaq! Bayaqdan deyilənlərdən heç nə anlamıram. Yanımdakı məsul şəxslər də sizi başa düşmürlər.

Bir anlıq pauza verib gülümsədim, yumşaq tonda əlavə etdim:

– Ləzgi dilində danışığı həvəslə dinləyirəm. Nə qədər desəniz, sizə qulaq asmağa hazıram. Ancaq məni Bakıya əliboş qaytaracaqsınız.

Salonda sanki gərginlik azaldı. Tribunadakı kişi də başını bulayıb gülümsədi, Azərbaycan dilində danışmağa başladı.

Bu kişi də, sonrakı danışanlar da ancaq kolxoz sədrinin özbaşınalıqlarından dad elədilər. Kolxoz sədrinin saymazyanalıq edib, iclasa gəlməməsi adamları daha da ayaqlandırmışdı. Hər halda dalca danışmaq üzə danışmaqdan asandır.

Əvvəlki vaxtlar olsaydı, şikayətçilərin narazılığını rayon rəhbərliyi asanca aradan qaldıra bilərdi. Ancaq indi dövlət orqanlarının atdığı hər addımın bir neçə yozumu vardı. Araqarışdıranlar bəlkə bu yığıncaqdan da bəhrələnməyə çalışırdılar.

Bir neçə nəfəri də dinlədikdən sonra şikayətlər barədə yaxın günlərdə müvafiq tədbirlərin görüləcəyini deyib, iclası bitirdik.

Həmin gün axşamüstü Qusar şəhərindəki Hərbi hissədə oldum. İcra Hakimiyyətinin "Volqa" maşınında gəlmişdim. Orda məni gözləyən yox idi. Hərbi hissəyə baş çəkmək üçün elə bir tapşırıq da almamışdım. Görünür, idarəetmə qaydalarını bilmədiyimə görə maraqlarım səlahiyyətlərimə üstün gəlirdi. Hərbi hissə köhnə, yüz yerdən yamağı olan solğun bir bina idi, səliqə-sahmandan ağız açıb danışmağa dəyməzdi. Neçə qapıdan keçdim, heç biri düzgün açılıb-örtülmürdü. Dəhlizdə gəzişən çağırışçılar çaşqın görünürdülər. Amma hərbi hissənin komandiri qətiyyətli idi. Üç ay əvvələ qədər Quba məktəblərinin birində hərbi hazırlıq müəllimi imiş. Gəlişim onu sevindirmişdi. Hər halda Prezident Aparatının hərbi hissəyə diqqəti kimi baxırdı buna.

Komandir məni sabah cəbhəyə göndəriləcək hərbi siyasi rəhbərlərlə, çağırışçılarla görüşdürdü. Hamısı bir yerdə qırx nəfər olardı. Xüsusi pafosla təqdim olundum, boynuma məsuliyyət qoyuldu. Bir anlıq həyəcanlandım, lakin tez özümü ələ aldım. Prezidentin oturduğu binadan gələn adam kimi hərəkət etməliydim. Bəlkə də burdakıların bəziləri elə düşünürdü ki, hər gün Prezidentlə görüşürəm.

Farağat vəziyyəti alıb vətənpərvərlik mövzusunda inamlı sözlər dedim. Dediklərimin təsirini görüncə, bir az da qızışdım, dövlətin adından danışmağa başladım, sanki həlledici mövqeyə malik vəzifəli şəxs idim. Bilirdim, çıxışımda səlahiyyətimə aid olmayan cümlələr də işlədirdim, amma bu saat qarşımdakıların döyüş, vətənpərvərlik ruhunun coşdurulması məni daha çox maraqlandırırdı.

Mən danışdıqca, komandirin üzünə işiq gəlirdi. Düzü, özümdə cəbhədə tezliklə qələbə qazanacağımıza, sonra dövlət quruculuğuna başlayacağımıza möhkəm inanırdım. İnamımı iyirmi dəqiqənin içərisində qarşımdakıların qanına işlədə bildim.

Hərbi hissədən ayrılanda başımı dik tutub sinəmi irəli vermişdim, şax yeriyirdim. Maşına oturanda da özümü sıxmışdım. Komandir hərbi təzimlə məni yola saldı.

Ezamiyyətim bitmirdi. Qarşıdakı günlərdə Dərbəndə gedib şəhər rəhbərliyinə baş çəkməli, sonra Mahaçqalaya yollanmalı idim.

İcra Hakimiyyətinin qonaq evində gecələyəsi oldum. Sonralar bu qonaq evinə o qədər tez-tez gəlməli olacaqdım ki, bura mənə ikinci evim kimi görünəcəkdi. Qaldığım otağı hər gələndə canlı tərəf kimi salamlayıb, gedəndə çarpayımla, oturduğum stulla, baxdığım güzgü ilə, üstündə gəzdiyim xalça ilə sağollaşacaqdım.

Səhər-səhər sərhədi keçdik. Təhlükəsizlik məqsədilə Dağıstanın nömrə nişanı olan bir "Jiquli"yə oturdulmuşdum. "Jiquli" məni Dərbəndə qoyub qayıdacaqdı. Sürücü qaradinməz bir adam idi. Sükut içərisində haraya qədər istəsəydim, düşünə bilərdim. Uşaqlığım yadıma düşdü. Təxminən on dörd yaşımda atamla bu yoldan keçmişdim. Sonralar hər dəfə içərisində olduğum "Bakı-Moskva", "Moskva-Bakı", elə başqa qatarlar da Dərbənd stansiyasında dayananda ilk Dərbənd səfərimi xatırlayırdım. Atamın Qubada işi vardı, Dərbəndə də gedəsi olduq. Deyəsən, səfər mənim xətrimə idi. Atam qədim şəhərimiz haqda həvəslə danışırdı. Yol qırağında şəhərin iri, qədim qəbiristanlığını görəndə xeyli təəccüblənmişdim. Qaralmış başdaşlarının çoxu o tərəf – bu tərəfə əyilmişdi. Başdaşlarının dik duranları çox hündür, əyilənləri isə çox uzun görünürdü. Atam heyrətli gözlərimə baxıb dedi:

– Qədim qəbiristanlıqdır! Ulu babalarımızın boyları belə – baxışları ilə baxışlarımı başdaşlarına yönəltdi – hündür olub. Görürsən, sinə daşları necə uzundur? Misirlilər fironlarından ötrü daşdan ehramlar tikiblər, bizim də ulu babalarımız xaqanları, sərkərdələri üçün ehramlar boyda torpaq kurqanlar dikəldiblər. Sərdabələr, başdaşları sonrakı dövrlərə aiddir. İndi siyasi liderlərin nəhəng mavzoleyləri var dünyada. Bu qəbirlərin çoxu ən azı min il əvvəldən qalıb.

Atam düz deyirmiş. Sonralar akademik Məşədixanım Nemətin qəbirüstü yazılarla bağlı tədqiqatlarını oxuyanda görəcəyəm ki, doğrudan da, Dərbənd qəbiristanlığında doqquzuncu, onuncu yüzillikdənqalma qəbirlər var. Demə, Şirvanşahların çoxu Dərbənddə dəfn olunubmuş. Bu qəbiristanlıqda min illərdir yatıb Qiyamət gününü gözləyən ölülərin hamısı müsəlmanlıq dövrünün qəbirləridir, yazıları ərəb, fars və Azərbaycan dillərindədir. Qəbirlərin üzərinə kufi, süls xətləri ilə "Quran"dan bir-iki ayə, nakam ömürlərin rəh-

man və rəhim Allahdan bağışlanmalarını diləyən yalvarışlar, eyni zamanda VIII əsr ərəb şairi Əbu Nüvasın "Ölüm elə şərbətdir ki, hər kəs ondan içəcəkdir, ölüm elə körpüdür ki, hər kəs ondan keçəcəkdir" misraları ya orijinalda, ya da tərcümədə həkk olunub. Hələ ki, heç bir ölünün xahişi yerinə yetməyib. Bəs müsəlmanlıqdan qabaqki zamanların üstü Orxon - Yenisey abidələrinin hərflərilə yazılmış tanrıçıların qəbirləri, başdaşları hardadır? Eh, dünyanın quyruğu uzundur... Tarixdə həmişə yeni din köhnə dinə qənim kəsilib, onun izlərini itirməyə çalışıb. Görün, Bibiheybət qəbiristanlığındakı qəbrin sinə daşında nə yazılıb: "O (*Allah*) əbədidir! Fərhadın oğlu Qüdrət 19 cumada axır ayı 1336 (*24 mart 1918*) ildə erməni və ruslarla müharibədə qətlə yetirilmişdir. Bir pud un 400 manat". Bu "Bir pud un 400 manat" cümləsi eyni gündə, eyni vuruşmada şəhid olub torpağa tapşırılmış daha dörd ölünün qəbir daşına həkk olunub. Cəmi ikicə il qabaq Hacı Zeynalabdin Tağıyevin Əhmədlidəki toxuculuq fabrikində çalışan fəhlələrin aylıq maaşı 13-14 manat, dükanda, bazarda birinci növ ağ çörəyin qiymətinin 4, mal ətinin 12, qoyun ətinin 13 qəpik olduğunu görən kalliqraf, həmin dövrdə Bakının acınacaqlı iqtisadi durumunu, pulun dəyərdən düşdüyünü gələcək nəsillərə çatdırmaq üçün bir qəbir daşına etibar etməyib və bolşevik-daşnak hökumətinə etirazını beş nüsxədə tarixi sənədə çevirib.

Dərbənddə atamın dostu bizi xeyli gəzdirmişdi. Narınqalaya çıxmışdıq, mağallar deyilən məhəllələrdən keçmişdik, bazarda dolaşmışdıq. Yerinə xalçalar, gəbələr döşənmiş böyük məsciddə bir-iki adam vardı. Sonralar Seyid Əzim Şirvaninin kitabında bir rübaiyə rast gələcəkdim. Dərbəndin cümə məscidi yadıma düşəcəkdi. "Məscidləri xoşnüma, imamı fazil, əmma ki, gələn namazə çox kəmtərdir". Deməк, yüz il əvvəl Seyid Əzim namaz vaxtı buraya gələndə də ibadət edən az imiş.

O səfərdən yadımda bir xatirə də qalıb. Atamın dostu bizi Dərbənd ətrafında gəzdirdi. Arkid kəndinə girəndə dedi ki, burda azərbaycanlılarla tabasaranlar iç-içə yaşayırlar. Biri-birinin dillərini bilirlər. Səhər hansı dildə ilk söz işlənilirsə, axşama qədər kənd həmin dildə danışır.

Dərbəndə çatanda da bu əhvalat fikrimdən keçdi. Düşündüm ki, yəqin indi həmin Arkid kəndində də "Sadval"çılar cavanların beynini yeyiblər, azərbaycanlılar tabasaranlara, tabasaranlar azərbaycanlılara gəlmə, yad kimi baxırlar.

Məni qarşılayan şəhər məktəblərindən birinin direktoru, fəal ictimaiyyətçi Klim Sultanov idi, köhnə tanış kimi görüşdük. Əvvəlcədən adını, kimliyini öyrənmişdim. Dərbəndli, azərbaycanlı.... Gəlişimdən qabaqcadan xəbərdardı. Xoş siması vardı, qırx yaşı ancaq olardı, gur saçları vaxtından əvvəl çallaşmışdı. Qonağın məqsədini bildiyinə görə tez mətləb üstə gəldi. "Sadval"çıların Dərbənddə də aranı qızışdırmaqlarından danışmağa başladı. Klim müəllim "Sadval"ın sədri, istefada olan general Qəhrəman Qəhrəmanovun tərifini belə verdi: "Piyaniskənin, alkaşın biridir, iki dəfə onu lül-atəş görmüşəm, başı üstündə durmurdu. Moskvada yaşayır, hərdən buralara gəlib, özünü göstərir. Tovlayıb salıblar ortalığa, "Ləzgistan!", "Ləzgistan!" deyib durur, başqa heç nə bilmir. Onu adam arasına çox buraxmırlar. Üzə çıxmalısı yoxdur. Ləzgi ziyalıları Qəhrəmanovu lağa qoyurlar. Amma "Sadval"ın pulu var. Milçəklər şirəyə yığışan kimi xeyli adam "Sadval"dan yeyib-yemlənir. Ermənistanla əlaqə saxlayırlar. Deyilənə görə, hətta Avropadan erməni lobbisi onlara pul-para da göndərir".

Klim müəllim şəhər İcra Hakimiyyətinin binasının qarşısındakı meydanı göstərib dedi:

– İki il qabaq dərbəndlilər bu meydanda yığışaraq, Bakının səsinə səs verib. Biz də sizin kimi baş meydanımıza "Azadlıq" adını qoymuşuq. 14 yanvar 1990-cı ildə Dərbənddən keçib, Bakıya getmək istəyən hərbi texnika ilə dolu qatarın qabağını kəsdik. Dəmiryolu xətlərinin üzərində yüzlərlə dərbəndli fasiləsiz oturub, qatarların hərəkətinə imkan vermədi. Hərbi eşelonun rəhbəri general Lebedin gözləri kəlləsinə çıxmışdı. İnanmırdı Bakıya hələ gəlib çatmamış Dərbənddə azərbaycanlıların etirazı ilə üzləşəcək. Bizi dilə tutsa da, yoldan çəkilmədik. Eşelon geri qayıtdı. Demə, aldadırlarmış. Dərbənddən 60 kilometr aralıda yerləşən "Manas" dəmir yol stansiyasında gecə yarısı tankları vaqonlardan düşürdüb, şosse yol ilə oğur-

luq Bakıya sarı tərpəniblər. Tankların zəhmli tırtıllarının uğultusuna yuxudan ayıldıq, neyləyə bilərdik?!

Klim müəllim məni Dərbənd Rayon İcraiyyə komitəsinin sədri Səid Camaloviç Qurbanovun yanına apardı. Orta yaşlı, balacaboy, dolu kişi idi. Uzun, geniş kabinetin ayaq tərəfində qoyulmuş kresloda əyləşdik. Dərhal özü yaşda və görkəmdə olan bir kişi – yəqin köməkçisi idi – çay, meyvə, boşqablar, çəngəl-bıçaq gətirib qarşımızdakı balaca stolun üstünə düzdü. Səid Camaloviç bıçağı götürüb ərinmədən bizə alma, armud soymağa başladı. Klim müəllim bayaq Dərbənddən, onun rəhbər işçilərindən, ziyalılarından xeyli söhbət eləmişdi. Səid Camaloviçin də Dağıstanda sayılıb-seçilən şəxslərdən olduğunu, cavanlığından bəri həmişə məsul vəzifələrdə işlədiyini demişdi. On ildən artıq idi ki, indiki vəzifəsində çalışırdı.

Boşqablarımızı meyvə qıçaları ilə doldurub dedi:

– Meyvə yeyin, siyasətdən danışmaq indi hamının çənəsini yorub. Bizlik az iş var, yuxarılar istəsə, qırx günün içində hər tərəfdə əmin-amanlıq yaradar. Hər yanda başıxarab generalları qızışdırıb salıblar ortalığa. Orda Dudayev, burda Qəhrəmanov... Moskvada generallar reket bandalarına, şovinist qruplara rəhbərlik edir. O gün bir əhvalat danışdılar. Bir mitinqdə "Pamyat" təşkilatının rəhbəri general Albert Makaşov səsinin gur yerinə salıb şüar deyib: "Yəhudilərə ölüm! Yəhudisiz Rusiya! Onların yeri tabutdur!"

Başqa bir general Aleksandr Volkov yerindən çığırıb: "Yaxşı yəhudilər də var, axı!"

General Makaşov hazırcavablıq edib: "Yaxşı yəhudilərə yaxşı tabutlar düzəltdirərik!"

Səid Camaloviç çayından bir qurtum alıb sözünə davam elədi:

– İndi iş bacarmayanların hamısı millətçi olub.

Dilləndim:

– Keçən il Bakıda gürcü dostum olmuş bir əhvalat danışmışdı. Süpürgəçi qadın "Mənim Tbilisim!" mahnısını oxuya-oxuya küçəni süpürürmüş. Özünü millətci hesab edən bir yelbeyin qəzəblə ondan soruşur:

– Tbilisi sənindir?

Qadın sakitcə cavab verir:
– Bəli, burda doğulmuşam.
Araqızışdıran daha da coşur:
– Səni tanıyıram! Kürdsən! Tbilisi mənimdir!
Qadın əlindəki uzunqollu süpürgəni oğlana uzadıb deyir:
– Al, süpür öz Tbilisini!
Səid Camaloviç güldü.
Söhbətarası sadvalçılarla görüşmək istədiyimi bildirdim.
O, dedi:
– "Sadval" adı ilə xof yaratmaq istəyənlər puç əqidəli adamlardır, heç kəslə danışığa gəlmirlər. Onlara yalnız qarşı tərəfə nifrət etmək öyrədilib.

Klim müəllim işini-gücünü atıb bir neçə saatını mənə sərf etdi. Onu Dərbənddə tanımayan az olardı. Küçə boyu adamlarla salamlaşa-salamlaşa keçib gedirdik. Ayaq saxlayıb bəzi adamlarla görüşür, məni də təqdim edirdi. Ayaqüstü söhbətimizin uzun çəkdiyi məqamlar da oldu. Çayxanada əyləşib, çay içə-içə siyasi müzakirələr də apardıq. Klim müəllimin deməsi ilə Prezident Aparatında işlədiyimi bilib, ürəklərini açıb tökürdülər. Hiss edirdim ki, Klim müəllim fəal ictimaiyyətçi kimi son illərdə daha çox nüfuz qazanıb. İnsan təbiəti belədir, başqalarına gərək olduğunu duyunca qüruru artır. İki il keçəcək, Prezident Aparatının keçirdiyi bəzi iclaslarda, yığıncaqlarda görüb ünsiyyətdə olduğum "Tat" Cəmiyyətinin sədri, professor – yaxşı adı vardı, yadımdan çıxıb – "Neftçilər" prospektində mənimlə üz-üzə gəlib maraqlanacaqdı:
– Son vaxtlar sizi Prezident Aparatında görmürəm. Deyəsən, işdən çıxarılıbsınız?
Cavabım qısa olacaqdı:
– Hə, elədir!
Gözləmədiyim halda qırmızı-qırmızı "siz"dən "sən"ə şığıyıb mənə hücuma keçəcəkdi:
– Sənə yaxşı oldu. Çox qürurlanırdın!
Diksinəcəkdim. Axı, Prezident Aparatında işləyəndə o, mənimlə çox mehriban idi.

Amma professor ehtiyatı əldən verməyib kəşfiyyatı davam etdirəcəkdi. Sanki son vəziyyətimi öyrənib, axır sözünü daha sərt deyəcəkdi. Və daha ötkəm soruşacaqdı:

– Bəs indi harda işləyirsən?

Yeni iş yerimin, tutduğum vəzifənin adını deyincə üzündə Prezident Aparatında işlərkən mənə göstərdiyi qılıqlı ifadə yenidən zühur edəcəkdi və tribunada şüar deyirmiş kimi səslənəcəkdi:

– Mən bilirdim ki, sən batan oğlan deyilsən! Bu ayın 26-sı (*bir neçə gün sonra*) Cəmiyyətimiz Mahnı Teatrında altmış illik yubileyimi keçirəcək...

Sözünü yarımçıq qoyub cibindən bir dəstə dəvətnamə çıxardacaqdı, birini ayırıb, qalanlarını tələsmədən əvvəlki yerinə qoyacaqdı. Sonra ciblərini eşələsə də, qələm tapmayacaqdı. Qələmimi ona verəcəkdim, əyilib dizinin üstə adımı dəvətnaməyə yazıb, mənə uzadacaqdı. Qələmimi ona bağışladığımı deyəndə az qala əlbəyaxa olacaqdıq. Götürməsə də, zorla verəcəkdim.

– Yaxşı qələmdir! – deyəcəkdi. – Yubiley hədiyyəsi kimi qəbul edirəm!

Klim müəllim məni Mahaçqalaya yola salır, məsləhət görür ki, Dağıstan Respublikasının Millətlərarası Münasibətlər Komitəsində işləyən Manas Badruddinovla mütləq görüşərsən, noqaydır, atası da, özü də çox qeyrətli adamlardır.

Mahaçqalada ilk üz tutduğum yer "Dağıstan" oldu. Şəhərin ən böyük mehmanxanası idi bu. Qapıdan girəndə məni kəskin, ağır iy vurdu. Sanki burada heç kim ətirdən istifadə eləmirdi. İçəridən sırma və peyin iyi gəlirdi. Görünür, ara qarışandan sonra mehmanxananın sakinləri daha çox kənd-kəsəkdən gələn yerli maldarlar, çobanlar idilər. Birdən düşünürəm ki, elə Bakıda da son illərdə xoş ətirlər azalıb. Qabaqlar qadınlar daha çox bəzənib-düzənirdilər, kişilər özlərinə daha artıq sığal verirdilər. Avtobuslardan, tramvaylardan, foyelərdən, liftlərdən, iclas salonlarından, iş otaqlarından bihuşedici parfüm iyləri gələrdi.

Qeydiyyatdan keçib, otağıma gələndə artıq burnum iyə öyrəşmişdi. Əlüstü özümü qaydaya salıb mehmanxanadan çıxdım. Nazirlər

Sovetinin binasında yerləşən Millətlərarası Münasibətlər komitəsinin sədri məni qəbul edəcəkdi. Komitə sədri ilə beş dəqiqəlik söhbətim tanışlığa ancaq kifayət elədi. Harasa tələsirdi. Klim müəllimin haqqında danışdığı Manas Badruddinovu daxili telefonla kabinetə çağırdı və mənimlə məşğul olmağı tapşırıb, bizimlə bərabər özü də qapıdan çıxdı.

Manasın balaca kabinetinə gəldik. Məndən uzağı on yaş böyük olardı. Mis rəngli dərisi, qıyıq gözləri, sivri qaşları, xırda üçkünc qara bığı, iti baxışları vardı. Kabinet yox, əsl çöl adamı idi. Bir anlıq xəyalımda ona Qızıl Orda əsgərinin paltarını geyindirdim, bir əlinə ox, bir əlinə kaman verib, köhlən atın belinə qaldırdım. "Ura!" deyərək atını dəhmərləyib irəli şığıdı. Manas termosdan fincana çay süzüb qarşıma qoyanda xəyaldan ayıldım.

– Çay içək! – dedi, gülümsəyib mənimlə üz-üzə əyləşdi.

On beş dəqiqəlik söhbətdən sonra Manas mənə ürək qızdırdı. Düşündüklərimizi çəkinmədən döşəyirdik gedirdi. Ona "Manas" adını atası qoyubmuş. Manas, adı götürüldüyü dastan qəhrəmanı kimi batır, igid ruhlu idi. Böyük türk dünyasından danışırdı. Deyirdi, mənasız bir işdə çalışır. Moskva Millətlərarası Münasibətlər Komitələrini azsaylı xalqları üz-üzə qoymaqdan ötrü yaradıb. Bu, dəlinin yadına daş salmaqdır. Əslində heç bir ciddi məsələ ilə məşğul olmuruq. Rusiyada dövlət zəifləyən kimi milli siyasət yada düşür. Sən elə bilirsən ki, dövlət qurumu olaraq Dağıstanda yaradılan avar, ləzgi milli təşkilatlarının rəhbərlərinə yaxın düşə bilirik? Hacı Mahaçov, Qəhrəman Qəhrəmanov Moskvanın sözü ilə oturub-dururlar, güclü dəstəkləri var. Biri "Avarıstan" deyir, biri "Ləzgistan". Biri guya avarları birləşdirmək istəyir, o biri də ləzgiləri. Atam bizim noqayların milli təşkilatını yaradıb. Dövlət onu itirib-axtarmır. Axı, noqaylar Azərbaycana, azərbaycanlılara qarşı çıxmaz. Avarlardan sonra sayca ikinci yerdə olan kumıkları da yaddan çıxarıblar. Siz də məcbur olub Rusiyanı yamsılayırsınız. Eşitmişəm, xəbər gəlib çatıb, Prezident Elçibəy azsaylı xalqların, etnik qrupların hüquq və azadlıqlarının qorunması haqqında fərman hazırlatdırır. Bu, ziyanlı addımdır. Rusiyaya baxmayın, ölkə-

də vətəndaşlıq siyasəti yeridin. Bax, elə müstəqillikdən yapışın, müstəqillik hamını birləşdirə bilər.

Manas Rusiyanın, eləcə də Dağıstanın tarixini, coğrafiyasını, demoqrafik vəziyyətini, siyasi durumunu incəliklərinə qədər bilirdi. Mənə bir qovluq yazılı material verdi.

Manasla şəhərin mərkəzində bir qədər gəzib dolaşdıq. Mənə şəhərin mərkəzində şair Rəsul Həmzətovun böyük bir fabrikin inzibati binasına oxşayan bomboz evini, hündür hasarını göstərdi. Hökumətin hədiyyə etdiyi mülk kənardan cansıxıcı görünürdü.

Başqa vaxt olsaydı, Azərbaycanda şeirləri, "Mənim Dağıstanım" kitabı ilə məşhur olmuş Rəsul Həmzətovla görüşməyə can atardım. Ancaq Rəsul Həmzətov 1988-ci ilin yayında SSRİ Ali Sovetinin iclası zamanı etdiyi ermənipərəst çıxışına görə bircə günün içində hamımızın gözündən düşmüşdü. Onun çıxışı Azərbaycana qarşı dost xəyanəti kimi qiymətləndirilirdi.

Sonralar Prezident Heydər Əliyev böyüklük eləyib onu Bakıya çağırsa da, Rəsul Həmzətov müxtəlif məclislərdə xoş danışıb həmvətənlərimizin könlünü almaq istəsə də, xeyri olmadı, xalqımız onu dəftərindən silmişdi.

Axşamüstü Manas məni evlərinə apardı, atasi ilə görüşə. Atası, başına ağ fəs qoymuş törə bir kişi idi. Qoca olsa da, qıvraq qalmışdı. Səsimizi eşidincə divandan ayağa durdu, qollarını açdı, məni bağrına basıb "Xoş gəldin" elədi. Gözləri yaxşı görmürmüş. Adı Badruddin idi. Manasın anası ağbirçək Çolpan arvad da məni salamlayıb, mətbəxə üz tutdu. Badruddin kişi söhbətə başlayıb dedi ki, on gün bir yerdə qalsaq, sən noqayca başa düşərsən, mən Azərbaycanca. Amma o qədər vaxtın olmaz, gəl, rusca danışaq. Söhbətimiz qızğın keçdi. Kişi dərya imiş. Məsul vəzifələrdə işləmiş, çox gəzmiş, görüb-götürmüş adamdı. Azərbaycanda dəfələrlə olubmuş. Bakıda, Qarabağda baş verənlərdən xəbərdardı. Rusiyanın I Pyotrdan bəri apardığı siyasəti incələyib dedi ki, siz Dağıstandan, "Sadval"dan ehtiyat etməyin. Ləzgilərlə azərbaycanlıları düşmən etməkdən ötrü əlli il vaxt, böyük pullar lazımdır. Xalqların ürəyində düşmənçilik toxumu səpmək üçün böyük səbəblər olmalıdır. Avropa, Rusiya iki yüz

ildir ermənilləri qonşu türklərə düşmən etməkdən ötrü dəridən-qabıqdan çıxıblar. Nə qədər qızışdırıcı kitablar yazıblar, qəzetlər buraxıblar, millətçi təşkilatlar yaradıblar. 1905, 1915, 1918-ci illərdə qırğınlar törədiblər. Eh... Pula çevirsən, milyardlar xərclənib. Hələ tökülən qanları demirəm. İndi onlar ermənini qoyub ləzginin dalınca düşərmi?!

Badruddin kişinin susub fikrə getdiyini görüncə, beş il sonra eşidəcəyim söhbətin üstünə gəlirəm. 1997-ci ilin yayında Azərbaycana gəlmiş bir qrup Rusiya Federasiyası Dumasının deputatını İsmayıllı rayonunun İvanovka kəndinə qonaq aparırlar. Kənddə onlar üçün şah süfrəsi açılıbmış. Qonaqlar bizim millət vəkilləri ilə doyunca yeyib-içirlər, eninə-uzununa danışırlar.

Deputat, "Yabloko" Partiyasının rəhbəri Qriqori Yavlinski sərxoş-sərxoş əlində badə üzünü bizim deputatlara tutub sağlıq deyir:

– Əziz həmkarlar, nə çox "Qarabağ! Qarabağ!" deyirsiniz. Birdəfəlik bilin, Qarabağ nə sizindir, nə Ermənistanın. Qarabağ bizimdir! Gəlin içək Rusiyanın sağlığına!

Əlbəttə, Yavlinski nə qədər sərxoş olsa da, o sözləri səhnədə mikrofona, hər hansı qəzetçiyə, jurnalistə deməz, rəsmi mövqeyini bildirməz. Axı, siyasətçidir.

Bu söhbəti eşidəndə artıq məmur kimi hər məsələyə rəsmi yanaşmağı öyrənmişdim. Düşündüm ki, sərxoş deputatın daldada yekə-yekə danışması dövlət müstəqilliyindən bizi soyuda bilməz. Dünyada bütün balaca dövlətlər nəhəng, güclü dövlətlərin təsir dairəsindədir. Tarixən belə olub, belə də olacaq. Müstəqillik müstəqillikdir!

Ev sahibi inamla deyir:

– Azərbaycan min illərdən keçib, yenə keçəcək! İndi isə, gəl görək arvad bizi nəyə qonaq edir?

Badruddin kişinin son sözlərindən içimə sərinlik gəlmişdi. İndi özümü həm keçmişdə, həm indidə, həm də gələcəkdə hiss edirdim. Üç zamanı eyni vaxtda yaşayırdım. Evin xanımı mantı bişirmişdi. Son illər belə iştahla yemək yeməmişdim.

Mehmanxanaya qayıtdım. Açarı qapıya salanda təəccübləndim, qapı açıq idi. Ola bilərdi, bəlkə qapını açarla bağlamamış getmişdim.

İçəri keçdim. Yol çantam gözümə dəymədi. Onu çarpayının üstünə tullamışdım. Bəlkə xadimə çantamı paltar şkafına qoymuşdu? Şkafı açdım. Çantam yox idi. Əlimdəki açarın nömrəsinə bir də baxdım. Səhv gəlməmişdim. Təəccüblənmədim, çünki hər gün, hər saat hansısa əhvalat, hadisə, macəra adama xatırladırdı ki, rahatlığını itirmiş bir ərazidə yaşayırıq. Görəsən çantamı neçə saat əvvəl çırpışdırmışdılar? Üç saat? Bir saat? Üç saat əvvəl aparsaydılar, bəlkə də, qaytarardılar. Çünki çantamda elə bir qiymətli şey yox idi. Bir üçdüymə köynək, bir geyilmiş cins şalvar, üzqırxan, diş fırçası və pastası, odekolon, qələm, bloknot, bir də vaxtilə Böyük Britaniyanın Baş naziri olmuş Bencamin Dizraeli haqqında kitab. Yaxşı ki, pasportum, ezamiyyə vərəqim və pulum üstümdə idi.

Heç nə olmamış kimi paltarımı soyunub duşun altına girdim. Məni ən çox məyus edən Dizraeli haqqında kitab idi. O kitabda altından qırmızı xətt çəkdiyim xeyli tutarlı cümlə vardı. Diş fırçamın aparılması da məni naçar qoydu, çünki vərdiş eləmişdim, yatmazdan qabaq mütləq dişlərimi yumalı idim. Vanna otağında isə sabundan başqa heç nə qoyulmamışdı.

Bəlkə də oğru özünü peşman eləmişdi. Çantam kilidli olmasaydı, çantamı açıb baxar, tutarlı bir şey tapmayıb hirslə qənimətinə iki-üç təpik ilişdirib gedərdi. Amma oğru kasıb, xırda-mırda şeylərə göz dikəndisə, yaxşıdır. Bəlkə elə mənimlə bir ölçüdə paltar geyinir? Bəlkə oğurladıqları ona lazım olacaq?

Çantanı keçən il Bakıda "Torqovı"dan almışdım, materialı dermantin olsa da, təbii dəriyə oxşayırdı. Kaş oğru çantamın kilidini aça biləydi. Öz-özümlə zarafat etmək üçün əl boyda bir kağıza "Дорогой ворчик, код моей сумки – 1967" yazıb, komodun üstünə qoydum. "1967" qardaşım Qaranın doğum ili idi. Kodu yadımda yaxşı saxlamaq üçün onu seçmişdim. Vasitəçisiz heç kəs oğurluq etmir. Yəqin ki, vərəqi oğruya çatdıracaqdılar.

Milis şöbəsinə getmək, şikayət ərizəsi yazmaq həvəsində deyildim. Qatarın vaxtına iki saat qalırdı.

Gecə yarısı Moskva-Bakı qatarına mindim. Ertəsi gün yarıyuxulu işə gəldim.

Səfərim barədə arayış hazırlayarkən tapşırıq aldım ki, Azərbaycanı öyrənmək üçün Bakıya gəlmiş bir amerikalını qəbul etməliyəm. İki saatdan sonra Brus Müdir adlı amerikalı gəldi, yanında da köməkçisi.

Köməkçi dərhal tanışlıq verdi. Adı Səadət imiş. O, üç il qabaq qarlı-şaxtalı gündə küçədə qoluna girib sürüşməkdən xilas etdiyim və evlərinə qədər ötürdüyüm qız idi.

Brus Müdirin əlli altı yaşı vardı. Ortaboylu, azacıq şişman, seyrək saçlı, zil qara kostyumlu, Təbriz ləhçəsində danışan birisi idi. Dediyinə görə, altı il İranda işləmişdi. Amma nə işləmişdi, onu demədi. Çoxbilmiş adam olduğu üzünün hər nöqtəsində yazılmışdı. Hələ o zaman idi ki, Bakıda Amerikadan, Avropadan gələnlərə aşağıdan yuxarı baxırdılar. Hamı elə düşüncədə idi ki, amerikalılar, avropalılar ən demokratik, ən mədəni, ən ədalətli, ən saf adamlardır. Bizim belə düşündüyümüzü onlar özləri də yaxşı bilirdilər və bizdən öz məqsədləri üçün istifadə etməyə girişirdilər.

Brus Müdir yumşaq danışır, üzündən təbəssümü əskik eləməməyə çalışırdı. Onu diqqətlə dinləməli, məqsədini öyrənməli idim. Çox uzaqdan başladı. İki aydır Bakıda olduğunu, burda darıxmadığını dilə gətirdi. Xalqımızı təriflədi, tariximizdən misallar çəkdi, bir bayatı dedi, milli yeməklərimizdən ağızdolusu danışdı. Danışdıqca üzümə diqqətlə baxırdı. Söhbətinin mənə necə təsir etməsi onun üçün çox vacib idi. Hiss edirdim ki, məni öz məhrəm adamına çevirmək istəyir.

Arada danışığında səhv buraxmadığından əmin olmaq üçün qonaq köməkçisinə göz-qaş edirdi. Səadət xanım yüngül him-cimlə danışığın əla getdiyini bildirincə, məmnun olub daha da qızışırdı.

Yol yorğunu olsam da, diqqətli idim. Brus Müdir axır ki, mətləb üstünə gəldi. Amerikada yaşayan soydaşlarımızla əlaqəsi olan, milli cəmiyyət qurmaq istəyən bir şəxs kimi Azərbaycan Prezidenti Əbülfəz Elçibəylə görüş istəyirdi.

İndi diaspora məsələsi çox populyar idi. Bütün Azərbaycan dünyadakı erməni təşkilatlarının Ermənistana hərbi, humanitar köməyindən danışırdı. Vəzifəsindən asılı olmayaraq, hər bir azərbaycanlı

istəyirdi ki, bizim də xaricdə tutarlı dayağımız olsun. Bu məsələ o qədər şişirdilirdi ki, dünyanın erməniпərəst hesab etdiyimiz aparıcı dövlətləri qarşısında Azərbaycanımızın tək qaldığından vahimələnirdik.

Amerikalıya onun xahişini rəhbərliyə çatdıracağımı bildirdim.

Üç gün sonra Prezident Əbülfəz Elçibəy Brus Müdiri qəbul etdi. Bu barədə heç bir rəsmi xəbər olmadı. Görüşdə nədən söhbət getdiyindən gec xəbər tutacaqdım.

Brus Müdirin köməkçisi olmuş Səadət xanımla üçüncü dəfə yenə təsadüfən bir məclisdə üzləşəcəkdim *(O, Yaponiyada yaşayan bir ərdəbilliyə nişanlanmışdı)*, keçib getmiş bir əhvalat kimi həmin qəbuldan danışacaqdı.

Özlərinə ciddi görkəm verərək Prezidentin kabinetinin qapısından girən qonaqlar Respublika rəhbərinin ılıq münasibətini görüncə, dərindən nəfəs alıb cəsarətləniblər.

Brus Müdir, heç əvvəldən köməkçisinə də göstərmədiyi Azərbaycan Demokratik Cümhuriyyətinin 1919-cu ildə buraxdığı poçt markasını cibindən çıxardıb Əbülfəz Elçibəyə göstərincə, kövrələn Prezidenti ağlamaq tutur. Allah bilir, Brus Müdir xüsusi örtüklə üzlətdirdiyi bu markanı necə tapdırıbmış? Axı o, hegemon dövlətin vətəndaşıdır. Ölkəsinin nüfuzundan istifadə edərək idarəetmə təcrübəsi olmayan dövlət rəhbərlərinə yol tapmağın min bir üsulunu bilir. Zamanında bu səhnədən bəlkə Səadət xanım özü də duyğulanıb, özünü Prezidentin qəbuluna düşmüş biri kimi vacib şəxs hesab edib. Amma indi uğursuz Prezidenti və keçmiş müdirini lağa qoyub deyirdi:

– O nə Prezident idi? Bir poçt markasına görə Amerika firildaqçısının qabağında gözünün qorasını tökürdü?

Sən demə, Brus Müdir Amerikada “Azərbaycan Cəmiyyəti” yaratmaqdan ötrü hökumətimizdən qrant almaq istəyirmiş. Elçibəy onların yanında maliyyə nazirinə göstəriş də verib. İki aydan sonra Brus Müdirin bank hesabına nə qədərsə pul köçürülüb. Axırda amerikalı Səadət xanımın son bir aylıq maaşını vermədən Alma-Ataya uçub və bir daha geri qayıtmayıb.

Xəcalət çəkdim, Brus Müdirə mən də aldanıbmışam.

Yeni ictimai-siyasi durum çoxlarını gülünc vəziyyətə salırdı. Böyük Britaniyanın eks baş naziri xanım Marqaret Tetçer paytaxtımızda olarkən şərəfinə verilən ziyafətdə bizim bir dəstə rəhbər işçinin deyilən sağlıqdan sonra əllərindəki badələri onun badəsi ilə toqquşdurmaq üçün növbəyə durmaları utandırıcı idi.

Prezident Əbülfəz Elçibəyin Ukrayna Respublikasına rəsmi səfərində təyyarədən enəndən sonra onu duz-çörəklə qarşılayan qızı çaşdırmasını Bakıda lağla danışırdılar. Elçibəy rəsmi etiketə görə iri Ukrayna kömbəsindən bir tikə kəsib duza batıraraq ağzına qoymaq əvəzinə, duz-çörək sinisini alıb köməkçisinə vermişdi. Əslində bunda gülməli heç nə yox idi. Hər kəs yeni vəzifəyə gələndə bir müddət protokol qaydalarını öyrənməklə məşğul olur. Elçibəy, deyək ki, naşı idi, uzun müddət partiya orqanlarında, hətta Moskvada çalışmış Türkmənistan Respublikasının Prezidenti Saparmurad Türkmənbaşı da məşhur fransalı futbolçu Mişel Platiniyə Aşqabadda qonaqlıq verəndə ona Fransa çaxırı içirdirmiş. Prezident öz ölkəsinin təmsilçisi olduğuna görə süfrəyə türkmən şərabı qoyulmalı idi. Sovetin tərbiyə etdiyi adamlar yeni gördükləri beynəlxalq diplomatik davranışlara sonralar öyrəşəcəkdilər.

Yazıçı Maqsud İbrahimbəyov qələm dostlarına danışırmış: “Əsrin əvvəllərində bolşeviklər Azərbaycanda hakimiyyəti ələ keçirəndən sonra atamın Mərdəkandakı mülkünü əlindən alırlar. Az sonra nədən ötrüsə mülkünə baş vuran keçmiş ev sahibi həyətə girib görür ki, dünənə qədər onun nökəri, bu gün yerli inqilab komitəsinin vəzifəlisi olan adam eyvanda oturub kasada bozbaş yeyir, şampan şərabı içir. Köhnə nökər, yeni bolşevik keçmiş ağasına deyir:

– Hacı, hökumətimiz sənin mülkünü, varını, dövlətini əlindən aldı, halal elə!

Bolşevik hakimiyyətinin necə qorxulu olduğunu yaxşı bilən atam ona iki cümləlik cavab verib. Birinci cümlə hökumət nümayəndəsinə, ikinci cümlə isə keçmiş nökərinə aid imiş:

– Hökümətimizə malım, mülküm halal olsun. Ancaq bozbaşla şampan şərabı içməyi sənə halal eləmirəm!!!”

Bir neçə ay sonraya gedək. 1993-cü ilin martında Türkiyənin Antalya şəhərində "Türk dövlət və topluluqlarının dostluq, qardaşlıq və işbirliyi" qurultayı keçirilirdi. İsmayıl Qaspıralının "Dildə, fikirdə, işdə birlik!" kəlamı üç günlük qurultayın devizi idi. Bütün müstəqil, muxtar türk respublikalarından və etnik ərazilərindən qonaqlar çağırılmışdı. Ən çox müsafir Azərbaycandan gəlmişdi. Düz bir TU-134 təyyarəsi adam... Bəlkə də nümayəndə heyətinin yarısı viza almamışdı. Elə bil təyyarə kəndarası avtobus idi. Hakimiyyətə yaxın olan cəbhə fəallarının hərəsi yanında bir adam gətirmişdi. Türkiyə Cümhuriyyəti rəhbərliyinin, siyasi partiya başqanlarının çoxu ora təşrif buyurmuşdu. Kimlər yox idi məclisdə? Prezident Turqut Özal, Baş nazir Süleyman Dəmirəl, Baş nazirin müavini Ərdal İnönü, adını bilmədiyim nazirlər, dövlət görəvliləri, Millətçi Hərəkat Partiyasının başqanı Alparslan Türkeş…

Bizim nümayəndə heyətinə Baş nazir vəzifəsini müvəqqəti icra edən Baş nazirin müavini Əli Məsimov rəhbərlik edirdi.

Tədbir beşulduzlu bir otelin içərisində nəhəng türk çadırına oxşadılmış geniş konfrans zalında keçirilirdi. Açılışın başlanğıcında bütün türk respublikalarının himnlərini ayaq üstə dinlədik və alqışladıq. Prezident Turqut Özal, Baş nazir Süleyman Dəmirəl, Baş nazirin müavini Ərdal İnönü, başqa respublikalardan gəlmiş yüksək vəzifəli şəxslər səhnəyə çıxdılar. Nümayəndə heyətimizin başçısı Əli Məsimov səhnəyə çıxanda heyətimizin üzvü, AXC Qadınlar Şurasının sədri Xanım Xəlilova arxadan özünü yetirib onun yanında dayandı, ərklə Baş nazir əvəzinin qoluna girdi, gendən baxanlar elə bildi ki, arvadıdır. Daxili İşlər Nazirliyinin idarə rəisi olan polis zabitimiz isə səhnəyə atılıb cibindən çıxartdığı tapançanı İsgəndər Həmidovun adından bozqurdçu Alparslan Türkeşə hədiyyə etdi. Əlbəttə, minillik dövlətçilik ənənələri olan Türkiyə rəsmiləri bizimkilərin davranışına xəfif təbəssümlə münasibət bildirirdilər. Hələ biz Antalyada olarkən İstanbul qəzetlərinin birində Baş nazir əvəzimizin şəklini verdilər və altından da yazdılar ki, guya, oteldə bələdçi kimi çalışan Zeynəb adlı bir qıza eşq elan eləyibmiş. Az.TV-nın müxbiri, bizimlə Antalya görüşlərində iştirak

etmiş Xaliq Bahadır isə hazırladığı qırx beş dəqiqəlik reportajında heyətimizi yıxıb-sürümüşdü.

Prezident Aparatında rəsmi qaydalar çox vaxt gözlənilmirdi. Prezidentdən, Dövlət Katibindən tutmuş üzüaşağı bütün təzələr hərəkətləri, davranışları ilə qaba görünürdülər. Aparatın köhnə işçiləri biz yenilərin sərbəstliyinə, yersiz, artıq danışıqlarına qəribə baxırdılar. Vəzifə tutmuş Xalq Cəbhəsinin bəzi fəalları təsbeh çevirə-çevirə (*doxsanıncı illərdə Bakıda təsbeh çevirən cavan, orta yaşlı kişilərin sayı çox idi*), qapını döymədən ərklə əqidə dostlarının kabinetlərinə girərdilər. Bir də görürdün bir kəndli kişi Aparatda yenicə vəzifəyə təyin olunmuş oğlunun kabinetini tapmaq üçün dəhlizdə o baş, bu başa gedərək qapıları açıb-örtür. Yəqin ki, oğul kabinetini atasına göstərmək üçün onu iş yerinə dəvət etmişdi. Prezident Aparatının əsas giriş qapısının ağzında həmişə çoxlu adam toplaşardı. Fasilə vaxtı bufetdə, yeməkxanada beş-on dəqiqəlik nahar edib ayaqlarımı açmaq üçün həyətə düşəndə aşağı vəzifəli bir para işçini ayrı-ayrılıqda tanış-bilişlə əl-qol ata-ata söhbət edən görürdüm. Sonralar bir məclisdə keçmiş millət vəkili, partiya-sovet orqanlarında çalışmış, dövlət müstəqilliyimizin ilk illərində məsul vəzifə tutmuş Maksim Musayevdən eşitdim: "Əbülfəz Elçibəy Prezident olarkən – tarixi dəqiq yadımdadır – 1992-ci ilin 2 oktyabrında Xızı rayon İcra Hakimiyyətinin başçısı kimi qəbula düşmək istədim. Azərbaycan Xalq Cəbhəsinin yerli nümayəndələri Ermənistandan və Özbəkistandan qaçqın düşmüş soydaşlarımızın, məshəti türklərinin, Qarabağdan olan köçkünlərin məskunlaşdığı Xızıda onların narazılığından istifadə edib iğtişaş törətmişdilər. Elçibəy Prezident seçkilərində əksər xızılıların onun əleyhinə səs verməsinə baxmayaraq, məni çox hörmətlə qəbul etdi.

Cəbhəçilərlə işləməmək qərarında olduğuma görə açıq və ötkəm danışmağa başladım. Yeni vəzifəyə gələnlərin səriştəsizliyindən narazılığımı bildirdim. Dedim ki, işdən çıxarılmağım barədə sərəncam vermək çətin iş idi?! Təxribatla məni gözdən salmağa nə ehtiyac vardı?!

Prezident hökumət telefonu ilə Ərazi İdarəetmə məsələləri üzrə Dövlət müşaviri Arif Hacıyevi, daxili işlər naziri İsgəndər Həmidovu axtarsa da, yerlərində tapmadı. Bir saatdan artıq gedən söhbətimiz zamanı köməkçi gəlib xəbər verdi ki, Arif Hacıyev Qroznıda ezamiyyətdədir. İsgəndər Həmidov isə Tərtərdədir, ona xəbər verilib. Çox keçmədi ki, daxili işlər naziri zəng etdi. Elçibəy onunla gəlişimin məqsədi barədə danışdıqdan sonra İsgəndər Həmidov Prezidentdən xahiş etdi ki, dəstəyi mənə versin.

Prezident öz kürsüsündən durub mənə “Gəl əyləş, İsgəndər bəy səndən bəzi şeyləri soruşmaq istəyir... Mən də bir nəfəsimi dərim...” – deyə uzun kabinetdə gəzişməyə başladı. Yerimdə quruyub gah telefon dəstəyinə, gah Prezident kreslosuna, gah da arxada qoyulmuş Azərbaycan bayrağına baxa-baxa necə hərəkət etmək barədə düşünürdüm.

Pəncərədən dənizi seyr edən Prezident səsimin gəlmədiyini duyub geri qanrıldı: “Bəy, sənə nə oldu, bəlkə həkim gəlsin!”

Özümü toplayıb cavab verdim:

– Xeyr, cənab Prezident, çox sağ olun, özümdəyəm, sizin tapşırığınız məni çaşdırıb. Bu binaya daxil olanda özümdə məsuliyyət hissini iki dəfə artırıram. Prezidentin iş otağına girəndə özümü beş qat, cənab Prezidentlə danışanda isə on qat yığışdırıram. Deyirsiniz, əyləşim Prezident kürsüsündə, nazirlə danışım. Mən bu tapşırıqdan yayınmaq üçün çıxış yolu axtarıram. Axı, biz belə öyrəşməmişik.

Prezident Elçibəy pərt olmadı, zarafatla dedi:

– Sən köhnə partokratsan, görürəm təəccüblənmisən. İndi demokratiyadır, belə də ola bilər.

Prezident kreslosunda oturub daxili işlər naziri ilə nə danışdım, düzü bilmədim”.

Prezident Aparatına rəsmiyyəti Heydər Əliyev qaytaracaqdı. Heydər Əliyevin andiçmə mərasimindən bir gün sonra başıpozuq hərəkətimə görə bu işimdə ilk danlağı eşidəcəkdim.

Respublika Sarayında düzənlənəcək Prezidentin andiçmə mərasiminə və həmin axşam “Gülüstan”da təşkil ediləcək ziyafətə dəvətnamələrin bir hissəsini bizim müşavirlik paylayırdı. Məndə

inauqurasiyaya yüz, "Gülüstan"a otuz dəvətnamə vardı. Dəvətnamələr Respublikanın görkəmli ziyalılarını – alimləri, yazıçıları, incəsənət xadimlərini, partiya rəhbərlərini, xarici ölkə səfirliklərinin nümayəndələrini, millət vəkillərini, cəmiyyət sədrlərini, əmək və müharibə veteranlarını, bir sözlə, Respublika Sarayının tuta biləcəyi qədər nüfuzlu adamı əhatə edirdi. Ziyafətə isə dəvətnamələrin sayı məhdud idi. "Gülüstan"a olan dəvətnamələrdən üçünü çatdırıb verə bilməmişdim, sahiblərini tapa bilmirdim. Arxayın idim ki, dəvətnamələri andiçmə mərasimi başlamazdan qabaq sahiblərinə çatdıracağam. Mərasimdən əvvəl iki dəvətnamənin sahibini tapdım, üçüncüsünün yiyəsi isə sanki məndən gizlənirdi. Öz yerimdə əyləşdim. Bir tərəfimdə professor, əvvəlcədən şəxsən tanıdığım Əliyar Səfərli oturmuşdu. Onunla görüşüb hal-əhval tutdum. Əliyar müəllim əlimdə oynatdığım dəvətnamənin "Gülüstan"dakı axşam ziyafətinə olduğunu bilib ərklə soruşdu:

– Kimin dəvətnaməsidir?

Mən dəvətnamə sahibinin adını çəkəndən sonra dedi:

– O, mənim də gözümə dəymədi. Bəlkə dəvətnaməni mənə verəsən?! Hesabımla mən də çağırılmalı idim, yəqin yanlışlıq olub.

Bu vaxt tədbir başlandı.

Heydər Əliyev geniş, təntənəli nitqini bitirəndən sonra üçrəngli dövlət bayrağımız səhnəyə gətirildi. Azərbaycan Respublikasının Konstitusiyası və Quran kitablarını öpüb bir anlıq gözünün üstündə saxlayan yeni Prezident bir dizini yerə qoyaraq milli bayrağımızın ətəyindən öpdü. O vaxta qədər səhnədə kütlənin gözü qabağında əyilib bayrağımızı öpən dövlət xadimi görməmişdim. Nə Ayaz Mütəllibovun, nə də Əbülfəz Elçibəyin, bəlkə də bu jest ağıllarına gəlməmişdi. Tüklərim biz-biz oldu, qanım oynadı.

Əliyar Səfərlini iqtidar üçün yad adam hesab etmədiyimdən dəvətnaməni ona verdim. Bir az da deyəsən, üzə düşmüşdüm, amma özümü inandırırdım ki, düzgün hərəkət eləmişəm. Əliyar Səfərli elə-belə adam deyil ki... Klassik ədəbiyyatımızın tədqiqatçısıdır, üzdə olan alimdir.

Ertəsi gün Müşavir daxili telefonuma zəng açıb məni yanına çağırdı. Kabinetə girəndə onu qanıqara gördüm. Birbaşa mətləbə keçib soruşdu:

– Dünən axşam "Gülüstan"ın dəvətnaməsini Əliyar Səfərliyə sən vermişdin?

– Bəli! – dilləndim.

– Bu nə özbaşınalıqdır?! – Müşavir səsini qaldırdı – Lazım bilinsəydi, adı siyahıya salınardı da... Get, izahat yaz!

Kabinetimə qayıdıb izahatda hər şeyi sizə danışdığım kimi yazdım. "Gülüstan"a verilmiş dəvətnamənin yiyəsini Respublika Sarayında tapmadığımı, Prezidentin bayraqöpmə səhnəsindən duyğulandığım üçün görkəmli alim Əliyar Səfərlinin üzündən keçə bilməməyimi, bu halla ilk dəfə üzləşdiyimi və sair. İzahatı yazıb Müşavirin köməkçisinə verdim. Kabinetimdə qanıqara oturub, baxışlarımı bir nöqtəyə zilləmişdim, özlüyümdə işdən çıxarılacağıma əmindim. Yəqin cavab ən tezi sabah çıxardı. Çünki bu saat Prezidentin o qədər vacib işləri vardı ki, mənim məsələm mininci dərəcəli xırda bir şeydi. Amma səhv edirmişəm, demə, Heydər Əliyev məni də yaddan çıxartmayıbmış.

Axşam Müşavir məni bir də çağırdı. Səhərki kimi tutqun deyildi. Mənalı-mənalı baxıb dedi:

– Cənab Prezident sənin izahatını oxuyanda gülüb. Yəqin etirafın xoşuna gəlib. Dövlət Katibinə tapşırıb ki, cavan əməkdaşları rəsmiyyətə alışdırın. Dövlət idarələrində hər şey rəsmiyyətdən başlanır.

Müşavir ani pauza verib sözünü bitirdi:

– Bunu rəhbərliyin axırıncı xəbərdarlığı kimi başa düş. Bir də belə səhvlər buraxma!

Müşavir yüngülləşmişdi. Hər halda ikimiz də Əbülfəz Elçibəyin zamanında Prezident Aparatına gəlmişdik. Yeni rəhbərliyin etimadını qazanmalı idik. Amma aradan heç qırx gün keçməmiş, yəni səhvimin qırxı çıxmamış bir özbaşınalıq da oldu. Bu dəfə ehtiyatsızlığı tək mən eləməmişdim. Məsələ belə idi: Azərbaycandan İsveçrənin Cenevrə şəhərinə yüksək dövlət, elm, təhsil işçilərindən və ictimai təşkilatların təmsilçilərindən ibarət nümayəndə heyəti getməli idi.

Tərkibdəki rəsmi adamları çıxsaq, yerdə qalanları siyahıya rəhbərliklə razılaşdırmadan bizim Müşavir xidməti ilə İqtisadiyyat üzrə müşavir xidməti daxil etmişdi.

Nümayəndə heyətinin siyahısını Prezidentə aparmış Dövlət müşaviri Vahid Axundov sonradan bizə danışdı ki, Heydər Əliyev siyahını gözdən keçirdib üç adın üstündən xətt çəkəndə dedim:

– Cənab Prezident, nümayəndə heyətinin siyahısını artıq İsveçrəyə göndərmişik.

Prezident qaşlarını çatdı:

– Məndən xəbərsiz siyahı göndərilir?! Siyahıdakıların səfərdən xəbərləri var?

Başımı aşağı salıb cavab verdim:

– Bəli, Heydər Əliyeviç! Bəlkə siyahını dəyişib təzədən göndərək? İsveçrə hökuməti nə deyəcək?

Heydər Əliyev sərt şəkildə dedi:

– İsveçrə hökumətinin nəyinə gərəkdir siyahımızda kimlər var? Söhbət siyahıdan çıxardılanlardan gedir. Onlara deyəcəksiniz ki, Heydər Əliyev siyahıda sizin adlarınızın üstündən xətt çəkdi. Özünüz olacaqsınız yaxşı, mən pis. Hamı getsin. Bu hal bir də təkrar edilməsin!

Qayıdaq geriyə.

Cəbhədə vəziyyət gərgin idi. Bir ay əvvəl Rusiya Müdafiə Nazirliyinin vasitəçiliyi ilə Soçi şəhərində Azərbaycan və Ermənistan Müdafiə nazirlikləri arasında hərbi əməliyyatların dayandırılması barədə iki aylıq razılaşma imzalansa da, üç gün sonra atışma başlamışdı.

Bu arada Amerika Birləşmiş Ştatlarının Konqresində keçmiş sovet respublikalarına yardımı tənzimləyən qanuna, "Azadlığı Dəstəkləyən Akt"a 907 saylı düzəliş edilməklə respublikamıza veriləcək yardım kəsildi. ABŞ bu hərəkəti ilə sanki erməni lobbisinin nə qədər böyük qüvvəyə malik olduğunu göstərirdi. Əlbəttə, gələcəkdə Heydər Əliyevin deyəcəyi kimi, ABŞ-ın verdiyi yardımla yaramız sağalmazdı. Ancaq belə ürəkbulandırıcı şeylər xalqı həvəsdən salırdı.

Bir gün fasilə vaxtı çoxdan tanıdığım, Prezident Aparatının başqa şöbəsində mənim kimi məsləhətçi vəzifəsində işləyən Mais dəhlizdə qarşımı kəsib dedi:

– Sənə bir kəlmə sözüm var.

Və ərklə qolumdan yapışıb, pəncərənin qabağına apardı. Onunla salam-kalamımız olsa da, aramız çox açıq deyildi. Biri-birimizə rəsmi münasibətimiz vardı. Müqəddiməsiz-filansız mətləbə keçdi:

– Səninlə görüşməyi Pənah bəy məsləhət görüb – Mais növbəti cümləsini dilinə gətirənə qədər mən söhbətin Dövlət Katibi Pənah Hüseynovdan getdiyini anladım – Fasilədən sonra yanına gələcəkdim. Yaxşı oldu, rastlaşdıq. O özünə etibarlı köməkçi axtarır. Kimsə səni nişan verib. Bu barədə fikirləş, sabah görüşərik.

Mais cavab gözləmədən aralanıb getdi. Onun Pənah Hüseynovun yerlisi olduğunu bilirdim. Deməli, vasitəçi olacaq qədər ona yaxın imiş.

Dövlət Katibinin köməkçisi olmağa razılıq verməyəcəkdim. Çünki yardımçı vəzifəsi mənlik deyil, yaradıcı işi sevirəm. Mais bir-iki dəqiqəlik ayaq saxlayıb cavabımı eşitmək istəsəydi, təklifindən imtina edəcəyimi biləcəkdi. Bəlkə də bu təklifi Pənah bəyə özü vermişdi. Axı, onlara yaxın bölgədən idim. Bəlkə düşünüblər ki, eyni yerin adamları kimi bizimki yaxşı tutar.

Ola bilsin, bu təklifi başqa birisi göydə qapardı. Axı, bacarıqlı olsaydın, səni gələcəkdə böyük şanslar gözləyirdi. Üç-dörd ilin içərisində yüksək vəzifəyə də gedə bilərdin. Həm də görürdüm, Pənah bəy qısa müddətdə güc nazirliklərini çıxmaqla, bütün nazirliklərin ixtiyarını öz əlində cəmləşdirmişdi. İki güc naziri isə, yəni həm müdafiə naziri Rəhim Qazıyev, həm də daxili işlər naziri İsgəndər Həmidov onunla heç cür hesablaşmırdılar. Biri açıq-açığına ikrahla qaxınc vururdu: “Pənah getsin qarpızını satsın!” O biri isə lağa qoyurdu: “Qarpız satandan nə Dövlət Katibi?!” Sabirabad qarpızı ilə ad çıxartdığına görə belə deyirdilər.

Güc nazirlərinin dediklərinə ciddi baxmırdım. Çünki təkcə biz deyil, bütün xalqlar qəfildən yüksək mövqeyə qalxana birmənalı yanaşmır. Hər kəsi əvvəlcə keçmişi ilə, əsli-nəcabəti ilə qarşılayırlar.

Özünü doğruldanlar isə hətta qaranlıq keçmişini də tezliklə unutdururlar.

Dünənə qədər ciblərində beş qəpik pulu, əllərində heç bir səlahiyyəti olmayan, Mirzə Cəlil demişkən, keçəl-kücəl qardaşlarımın yüksək mövqe qazandıqdan sonra kimisinin yavaş-yavaş, kimisinin sürətlə durumu dəyişirdi. Yenilərin arasında hər tipə rast gəlirdin. Vətənsevər olsalar da, vətəndaşlığı bacarmırdılar. Daşıdıqları vəzifələrin məsuliyyətini anlamır, səlahiyyətin yalnız hökm, şöhrət, yaxşı güzəran tərəflərini düşünürdülər. Vəzifəli yenilərdən biri hər səhər xidməti avtomobilinə minəndə sürücüsünə irişə-irişə deyirmiş: “Sür vəzifəyə!” Prezident Elçibəy məsul vəzifə tutan bir dəstə fəal cəbhəçiyə iclasda qınaq edirmiş: “Bəylər, rüşvətə qurşanmısınız! Bir qədər az rüşvət alın!”

Görkəmli oftalmoloq, qələm dostum Paşa Qəlbinur danışırdı ki, Moskvada şair Yevgeni Reynin evində qonaq idim. Qonaqlıqda iştirak edən yəhudi əsilli bir amerikalı danışırdı ki, Elçibəy hakimiyyəti zamanında Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyi üçün Bakıda bina axtarırdıq. Hökumət bizə dörd kitabxana binası təklif etmişdi. Bunlardan biri şəhərin göbəyindəki Mirzə Fətəli Axundov adına Mərkəzi Kitabxana idi. Axtarış komissiyasının üzvləri binanı dərhal bəyəndilər. Mən bir mütəxəssis olaraq kitabxananın texniki kamilliyini, kitabların uzun illər saxlanması üçün havalandırma sisteminin mükəmməl qurulduğunu müşahidə edib, qəti etirazımı bildirdim və komissiya üzvlərinə dedim:

– Hökumətdəkilər belə möhtəşəm binanın qiymətini bilmirlər, onun təyinatını heç cür dəyişmək olmaz. Vicdanım yol verməz, əlimi kəssələr də, təhvil-təslim sənədlərinə qol çəkmərəm. Yerli ziyalıları dövlətimizdən narazı sala bilərik. Təklif edilən o biri binalara baxaq. Sonradan indiki ünvanı seçdik. Tibbi kitabxana idi, elə bir əhəmiyyətli tikili deyildi.

Hərdən əzici mənzərələri görüb əsəbləşəndə öz-özümə deyirdim ki, niyə özündən çıxırsan, axı, bunların çoxu doğrudan da görməyib, görməmişdir. Azərbaycana min illər boyu böyük dövlətlər əyalət kimi baxıb. Həmişə tapdaq altında olmuşuq, qazandıqlarımı-

zı o, bu əlimizdən alıb. Ən geri qalmış müstəmləkə ölkələrində də, koloniyalarda da sömürgəçilərlə əlbir olub varlanan bir ovuc yerli zənginləri demirəm, xalq gündəlik bir tikə çörəyini daşdan çıxaran çoxluq olaraq qalır. Kommunistlər zamanında rəsmilər xalq, dövlət mənafeyindən danışırdı. Amma dilindən belə şüarlar düşməyənlər həmişə öz xeyrini daha üstün tuturdu. Müstəqillik qazansaq da, rəhbərlikdəkilər vətəndaşları həm dövlət, həm də ailə mənafeyi uğrunda çalışmağa yönəltmək haqda hələ bir söz demirdilər. Hərə üstünlüyünü bir cür nümayiş etdirirdi. Şimal səfərlərimin birində Komitə sədri müavininin yolüstü restoranda xidmətçinin stola qoyduğu natəmiz çəngəli necə qəzəblə onun üstünə tulladığını öz gözlərimlə görmüşdüm. Xidmətçiyə nökəri kimi baxırdı yəqin. Cavan, vəzifəli cəbhəçinin başının dəstəsindəkilərin bu davranışdan utanıb pərt olacaqlarını gözlədiyim halda, onların qaqqanaq çəkib güldüklərindən məyus olmuşdum. Yenilərin axırı təmtəraqlı ziyafətlə, banketlə bitən tədbirlərinin, yemək-içmək məclislərinin sayı artmışdı. Hələ bir çox vəzifələrdə qalan pullu köhnələr onlara qonaqlıqlar verirdi. Bir dəfə Xaçmazda təsadüfən qonaqlığa düşmüşdüm. Ezamiyyət marşrutuma görə Xaçmaza baş çəkib, Qubaya və Qusara getməli idim. Günortaya yaxın Rayon İcra Hakimiyyətinin binasına çatdım. Cavan İcra başçısı və onun cavan müavinləri – keçən səfərimdən onlarla tanış idim – məni ərklə maşına basıb, meşəyə apardılar. Meşənin yaşıl talasında kəndin sovxoz direktoru təmtəraqlı bir məclis qurmuşdu. Stol-stul, bahalı qab-qacaq, qaşıq, çəngəl-bıçaq, salfet, hər cür məzələr, sular, araq-çaxır yerli-yerində. Ocaq qalanmışdı, qazan asılmışdı, xüsusi çağırılmış aşpaz kabab çəkməyə hazırlaşırdı, samovar tüstülənirdi. Hətta məclisi şənləndirməkdən ötrü baməzə bir qoca da çağırılmışdı. Möhkəm vururdu. Şit, qurama lətifələr danışırdı. Məclisin şirin yerində maraq üçün “Bu meşədən heç quş səsi gəlmir” soruşunca təlxək dərhal “Bəy, günortadır, quşlar obedə (*nahara*) çıxıblar” deyincə hamı güldü.

Uzun-uzadı yemək-içmək məclislərini sevməsəm də, axşama qədər qonaq kimi ev yiyələrinin yanından ayrıla bilmədim. İcra başçısı da, onun müavinləri də sadə və “istiqlal aşiqi” olan “can-ciyər”

rayon uşaqları idilər. Bunlar bir yana dursun, başqaları lap ağını çıxardırdılar. Bəziləri miskin görkəm alıb “aydan arı, sudan duru” olduqlarını nümayiş etdirirdilərsə, bəziləri adam içində özlərini yekə tutub, imkanlarını bir az da şişirdirdilər. Məsələn, Prezident Aparatının Ərazi idarəetmə şöbəsinin bir neçə yeni işçisi kuratoru olduğu rayonlara ezamiyyətə gedəndə Rayon İcra hakimiyyətlərinin xidməti avtomobillərini Bakıya gətirdib xüsusi miniklə yola çıxırdılar. Arada yolüstü ata ocağına baş çəkmək üçün həmin avtomobilləri doğma kəndlərinə sürdürürdülər və forsla həyətlərinin qabağında maşından düşüb özlərini qonum-qonşuya göstərirdilər.

Dövlət Katibinin köməkçisinin mənə danışdığı əhvalat yadıma düşdü:

“Balıq Konserninin sədri şefin qəbuluna girməzdən qabaq ağ kağıza bükülü bir şeyi qəbul otağında qoyub Dövlət Katibinin yanına keçdi. Sonra qəbuldan çıxıb stolun üstünə qoyduğuna baxmadan sovuşub getdi. Bükülüyə əl vurmadım. Təxminən on dəqiqə sonra Konsernin sədri geri qayıtdı və bükülünü götürüb dedi:

– Bəy, birdən elə bilərsən (*onda əksər cəbhəçilər biri-birinə “Siz”lə müraciət etmirdi, hamı “Sən”ə keçmişdi*) bu puldur ha?! Yox, canın üçün, siqaretlərimdir – deyərək bükülünü açdı, “Prima”ların burnunu göstərdi. – Mən bundan çəkirəm, başqa bəylər kimi bahalı Malbraya (“*Marlboro”ya*) keçməmişəm.”

Prezident Aparatında, Nazirlər Kabinetində, nazirliklərdə, baş idarələrdə, icra hakimiyyətlərində xeyli vəzifə sahibi rahat kabinetlərində dövlət işlərini bir yana qoyub, hökumət telefonlarından istifadə etməklə şəxsi problemlərinin həlli ilə məşğul idilər.

Başqaları haqqında dediklərimə oxşar işlər öz başıma da gəlirdi. Bu vaxta qədər elə bir mövqe qazanmamışdım ki, tapşırılmaqla irəli getməyin ləzzətini biləm. Özüm də kiməsə kiməsə tapşırmaq iqtidarında olmamışdım. Utancaqlığımı da üstə gəlsək, kiməsə ağız açmaq arıma gəlirdi. Çətinə düşməmişdim, düşəndə isə atamın üstə qaçardım. Atamın yanına xahişə gələnləri görmüşdüm. O, azdan-çoxdan belə işləri bacarırdı. Ancaq məni özxoşuma qoymadılar. Bir gün partiya yoldaşlarımdan biri dedi ki, onun Bakı şəhər Nərimanov

rayonunun Yanğından Mühafizə idarəsində işləyən yeznəsini işdən çıxartmaq istəyirlər. Mümkünsə, idarənin rəisi, polkovnik Səlimxanovdan xahiş et, ona toxunmasın.

"Yox" deməyi bacarmadım, polkovnikə zəng açıb özümü təqdim etdim, yəni "Prezident Aparatındandır". Xahişimi dinləyən polkovnik təcrübəsiz "bəylər"dən olduğumu dərhal mənə hiss etdirdi. Təmkinlə soruşdu:

– Sədullanı tanıyırsınız?

– Yox, qaynı dostumdur – dedim.

– Bəy, – təəssüf dolu səsi gəldi. – Əgər ona bələd olsaydınız, heç vaxt xahişini etməzdiniz.

Onca il əvvəl olsaydı, bir rayonun baş yanğınsöndürəni Prezident Aparatının sələfi Mərkəzi Komitənin işçisinə belə ötkəm cavab verməzdi. İndi baş verən hər bir hadisə, hər bir münasibət, hər bir danışıq göstərirdi ki, zaman dəyişib.

Çiy hərəkət etdiyimə görə alındım. Bilməyə-bilməyə bir yaramazı müdafiə etmişdim. Bu ibrət dərsini heç vaxt unutmayacaqdım.

Xəcalət hissi canımdan çıxmamış, təxminən bir həftə sonra Balaş Moskvadan qayıdıb gəldi. Gəlişinin səbəbini elə ilk görüşümüzdə açıb qoydu ortalığa:

– Prezident Aparatına keçməyini eşidən kimi yır-yığış eləyib gəldim. Moskvada danışırlar ki, Cəbhə hakimiyyəti vəzifə paylayır. Fürsətdir, bəlkə, kömək eyləyəsən? Bir dəfə demişdin ki, Elçibəylə şəxsən tanışam.

– Sənin də cəbhəçi tanışların var.

– Ən yaxınım sənsən!

– Nə vəzifə istəyirsən? – həmişə yuxarıdan gedən dostumun içini bilmək istədim.

Balaş fikrini lap dəqiqləşdiribmiş:

– Göndərin bir rayona İcra başçısı, görün necə işləyirəm.

Balaşın istəyi mənə gülünc görsənsə də, söhbəti başa çatdırmaq lazım idi. Dilləndim:

– Bizim rayona yeni icra başçısı qoyulub, gecikmisən.

– Başqa rayon olsun! – dostumun səsi bir az da gur çıxdı.

– İndi icra başçıları yerli adamlardan qoyulur. Əksəri də AXC-nin rayon şöbələrinin sədrləridir.

– Bakıda bir vəzifə tap! – Balaş Moskvadan ona görə gəlməmişdi ki, suallarına verdiyim bir-iki cavabla geri çəkilsin. – Əlimdə pul da var.

– Bunlar adamı vəzifəyə pulla qoymurlar.

– Lap yaxşı! Onda sən tapşır, məni vəzifəyə pulsuz qoysunlar.

– Tapşıra bilmərəm, – ciddiləşdim.

– Niyə?! İstəmirsən qabağa gedim?

– İstəyirəm! Amma tapşırmaqdan ötrü gərək səlahiyyətin ola. Birincisi, elə böyük vəzifəm yoxdur. İkincisi, düşündüyün qədər Prezidentə, Milli Məclisin sədrinə, Dövlət Katibinə, nazirlərə ərkim çatmır, üçüncüsü də, indikilərin hakimiyyətə gəlməsində elə bir xidmətim, rolum olmayıb.

– Hər halda səni Prezident Aparatına elə-belə gətirməyiblər?

– Məni mütəxəssis kimi işə dəvət ediblər.

– Mütəxəssis, – yarızarafat-yarı rişxəndlə dedi, – istəsən, mənə bir gün ağlayarsan. Lap vergi, gömrük orqanlarına gedim. Bilirsən, indi vergidə, gömrükdə nə pul var? Adi nəzarətçilər, müfəttişlər qaz vurub, qazan doldururlar.

– Vallah, desəm ki, bilmirəm, inan!

– İnanmıram! İstəsən, bir şey eləyərsən! Moskvadan, bazar həyatından bezmişəm. Hər dəqiqəsi təhlükədir, ölümdür.

– Baxarıq! – mızıldandım, dostumu tam qırmaq istəmirdim.

Onsuz da Balaş diribaş olduğu üçün, bircə ay Bakıda qalsaydı, vəziyyəti anlayacaqdı.

Aradan iki gün keçmiş gecə telefona atamın zəngi gəldi. Hal-əhvaldan sonra dedi:

– Hüseyn bəy mənə ilişir.

Hansı Hüseyn bəydən söhbət getdiyini dərhal anladım. Milli Məclisin sədri İsa Qəmbərov Prezident səlahiyyətlərini icra etdiyi vaxt onu Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə qoymuşdu. Üzünü görməmişdim. Kənddə müəllim işləmişdi. AXC-nin yerli şöbəsinin sədri idi. Haqqında söz çıxartmışdılar ki, iki il əvvələ qədər

alverlə də məşğul olub. Şişirdirdilər, ona alverçi demək olmazdı. Səksəninci illərdən başlayaraq ölkədə ərzaq qıtlığı yarandığına görə işindən az əməkhaqqı alan, külfətini çətinliklə dolandıran ziyalılar, xüsusilə müəllimlər, payız, qış, yaz, yay tətillərində ucuz qiymətə aldıqları mövsüm meyvə-tərəvəzlərini çamadanlara doldurub, Rusiyanın yaxın-uzaq şəhərlərinə daşıyaraq baha qiymətə xırıd eləyər, geri qayıdanda isə pal-paltar, ərzaq (*kərə yağı, Moskva konfetləri*) gətirib əldə satdırar, beşdən-üçdən irəli düşüb, ailəsini bir müddət yedirdər, geyindirərdi.

Amma millət gördüyünü deyirdi.

Hüseyn bəy işlədiyi beş ayda, demək olar ki, ciddi bir addım atmamışdı. Kabinetinə qapılıb özü haqqında qeybətləri çoxaldırdı.

– Bəs nə fikirləşirsən? – Atama qəribə sual verdim.

– Məsləhət almaq istəyirəm. Axı, sən yuxarıda oturmusan!

Aydındı, atam mənə, hakimiyyətə yeni gələnlərə sataşırdı.

– Nəyə görə səni qaralayıb?

– Bunu telefonda demək olmazdı, amma gizlətmirəm, indi kimdir telefonlara qulaq asan?! Araçı salıb məndən iki yüz min manat istəyir.

– İki yüz min?! – gözlərim kəlləmə çıxır. Aylıq maaşım yeddi yüz manat idi. Azərbaycanın yeni manatı günü-gündən qiymətdən düşsə də, iki yüz min qüdrətinə görə elə də balaca məbləğ deyildi – neynir o qədər pulu?

– Bilmirəm, araçı deyir ki, pulu verməsən, başçı restoranı bağlatdıracaq (*Hə, bunu yazmamışdım, Qorbaçov bir neçə il əvvəl kooperativlərin açılmasına icazə verəndən sonra atam restoran açmışdı, tanışı işlədirdi*), özünün də işdən mitilini atacaq bayıra.

– Ata, narahat olma! – cəsarətlə dedim. – Sabah gəlib onunla danışaram.

Ertəsi gün Müşavirdən icazə aldım və günortadan sonra şəhərimizə yola düşdüm.

Hüseyn bəy Prezident Aparatından gəldiyimi katibədən eşidib, dərhal məni qəbul etdi. Ayaq üstə şax dayana bilmirdi, ağırlığını gah sağ, gah da sol ayağının üstünə salırdı. Hələ ki, kənd müəllimi olaraq

qalırdı. Sarışın, arıq, yovşan kimi saçları və bığı olan orta boylu bir adam idi. Rəsmi davranışı bacarmırdı, qaşqabaqlı görünürdü. Öyrənmişdim, qırx beş yaşı vardı. Əyləşəndən sonra xeyli susqun halda biri-birimizin üzünə baxdıq. "Buyurun, eşidirəm sizi, yaxud səni" demirdi ki, sözə başlayım. Axırda özüm qabağa düşəsi oldum. Heç Bakıdakı diribaş, çevik cəbhəçilərə oxşamırdı. Bir anda fikrimdən keçdi: "Bizim qalmaqallı şəhərimizdə bu, necə baş çıxardacaq?"

Gəlişimin məqsədini dedim. Rayon Əmanət bankının müdiri olan atamı yaxşı tanıyırmış. Amma atamın oğlu, yəni mənim haqqımda eşitməyibmiş.

Başqa söhbət eləmədik, bircə kəlmə dedi ki, atan arxayın işini işləsin. Qızarıb pörtdü. Prezident Aparatında işləyən adamın atasından pul istəməsi yəqin onu sıxmışdı.

Hüseyn bəyin yanından çıxıb piyada, gəzə-gəzə evimizə gəldim.

Xəstə anam məni görüb yatağından qalxmaq istədi, atam qoymadı, "Təcili yardım" gəlibmiş üstünə. İyirmi dəqiqə qabaq qan təzyiqini salmaq üçün ona iynə vurulubmuş.

Atam anamın o üz, bu üzünə keçirdi. Ona ürək-dirək verirdi. Anam elə bildi ki, xəstəliyini eşidib gəlmişəm.

"Ata..." – deyib Hüseyn bəylə görüşümdən danışmağa başlamaq istəyəndə atam şəhadət barmağını dodaqlarına yapışdırıb mənə işarə elədi ki, anamın yanında o söhbəti açmayım.

Mətbəxdə köməkləşib axşam yeməyimizi hazırlayanda İcra başçısı ilə görüşüm haqda xısın-xısın ona danışdım. Əlini çiynimə vurub "Oğulsan!" dedi.

Atamı xilas etmişdim. Onun dediyinə görə, Hüseyn bəy şəhərimizdə bir neçə idarə müdirini işdən çıxardıb, yerinə AXC-nin yerli şöbəsinin cavan, təcrübəsiz üzvlərindən yerləşdirmişdi. Rayon Maliyyə şöbəsinin müdirindən isə cəbhəyə yardım adı ilə xeyli pul alıb, yerində saxlamışdı.

Qardaşımı soruşdum. Qara imkan tapanda evimizə zəng vururdu. O, hospitaldan çıxıb döyüş bölgəsinə qayıtmışdı.

Gecə evdən çıxanda anam yaxşılaşmışdı. Atamla ikisi məni qapıdan yola saldılar. "Bakı pavarotu" (*Bakı döngəsi*) deyilən yerdə

gecə-gündüz Bakıya taksi olurdu. Maşına oturub şəhərə qayıtdım. Səhər yenə məni uzun, üzücü iş günü gözləyirdi. Çünki işlər heç yaxşı getmirdi. Tez-tez ovqatımız dəyişirdi. Cəbhədə durğunluq idi.

Müxalifət iqtidara dağıdıcı zərbələr vurmaq üçün dondan-dona girirdi. Məqsədləri ya hakimiyyətin onlarla bölüşdürülməsi, ya da hakimiyyəti qamarlamaq idi.

Atamla dünən axşam söhbət edərkən ölkədaxili müxalifəti bir neçə qola ayırmışdıq:

– Azərbaycan Milli İstiqlal Partiyası və onun kimi ən qısa zamanda hakimiyyətə gəlmək istəyənlər;

– Hakimiyyətə qayıtmaqdan ötrü əldən-ayaqdan gedən mütəllibovçular, qanunçuluqdan, demokratiyadan dəm vuran sosial-demokratlar;

– Rəhbərin yumruğunu stola çırpıb ölkədə nizam-intizam yaratmasını istəyən təzəcə yaranmış Yeni Azərbaycan Partiyasının Heydər Əliyevə görə sayı sürətlə artan üzvləri;

– Hakimiyyətdən nəsə qopartmağa çalışan milli azlıqların kiçik dairələrdə tanınan balaca liderləri və onların ətrafındakılar;

– Heydər Əliyevin, Kamran Bağırovun, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun dövründə, elə Əbülfəz Elçibəyin öz vaxtında cəzalanmış, vəzifələri əllərindən getmiş və əvvəlki mövqeyinə qayıtmaqdan ötrü dəridən-qabıqdan çıxan ayrı-ayrı şəxslər;

– Prezident olmaq üçün biri-birinə qarşı gizli mübarizə aparan iqtidardakılar;

– Sadaladıqlarımdan da artıq ictimai-siyasi qarışıqlıqla, sosial problemlərlə bağlı vətəndaş narazılığı.

Prezident Elçibəyin adda-budda iclaslarda çıxış etməsi, arxayın-arxayın danışması hakimiyyətdəkilərə bir az toxdaqlıq verirdi. Bəlkə doğrudan da, güvənməli nəsə bir güc, ilahi bir söykənəcək vardı, biz bilmirdik? Amma mətbuatı oxuyanda, baş verən hadisələri araşdıranda, adamların üzünün ifadəsinə baxanda, danışdıqlarını eşidəndə az qalırdı əlin yerdən-göydən üzülsün.

Prezident Elçibəyin qayçı-daraq görməyən saçının, saqqalının uzanması da adamları qıcıqlandırmağa başlamışdı. Adına şəbədələr

qoşurdular. “Çeşmə” adlı bir qəzet vardı. İqtidardakıları ələ salıb “bir qəpiklik” eləməkdən yorulmurdu. Məsələn, “Rəhim Qazıyevin müsahibələri” gülməcəsi belə idi: “ Türkiyədə səfərdə olan Rəhim Qazıyevə türk jurnalisti sual verir:

– Rəhim bəy, siz Xalq Cəbhəsinin üzvüsünüzmü?

Cavab:

– Xeyr!

İyirmi dəqiqə sonra italyan jurnalisti Rəhim Qazıyevdən soruşur:

– Deyirlər, Siz Azərbaycan Xalq Cəbhəsinin liderlərindənsiniz?

Rəhim Qazıyev dillənir:

– Bəli!”

Prezident Elçibəyin sadə, dünya malına gözünün ucu ilə də baxmayan adam olduğuna hamı inanırdı. O, uzağa getmirəm, özünü qonşu İran İslam Respublikasının keşmiş dini rəhbəri Xomeyniyə oxşadaraq, bütün günü həsir üstə bardaş qursaydı, indiki Prezident Haşimi Rəfsancanisayaq məclislərdə oturarkən ayaqqabılarını soyunub dabanıcırıq corabını hamıya nümayiş etdirsəydi, gələcəkdə prezidentliyini görəcəyimiz Əhmədinejad kimi süpürgəçinin əlindən süpürgəsini alıb, Tehranda küçə süpürsəydi və yaxud otuz ilin nimdaş çantasında Prezident Aparatına evdən günorta yeməyi gətirsəydi, heç kəs təəccüblənməzdi. Bəli, Prezidentimiz dərviş həyatı yaşayırdı, bahalı kostyumun birini soyunub birini geyinmirdi, şıq qalstuklar taxmırdı, qara gün üçün pul yığıb döşəyinin altını doldurmurdu. Ancaq Elçibəyin bu keyfiyyətləri, insanlığı prezidentlik üçün bəs eləmirdi. O, zahid deyildi, dövlət başçısı idi. Ondan vəzifəsinin layiqincə, ciddi şəkildə icrası tələb olunurdu. Düzdür, prezidentliyi, rəhbərliyi bacaran, idarəetmə sükanını əldə möhkəm saxlayan liderlərə şəxsi həyatı, özəllikləri, macəraları ilə bağlı söhbətlər, bəzəmələr xüsusi yaraşıq verir. Necə ki, Prezidentliyə gəlməzdən qabaq Əbülfəz Elçibəyin ziyalılığı, dissidentliyi, əqidəsinə görə türməyə düşməsi insanlarda böyük rəğbət doğurmuşdu.

Prezident efirdə, mətbuatda çox az görünürdü. Uzun illər rəhbərini hər gün televiziya ekranında, qəzetlərin birinci səhifəsində gör-

məyə alışmış insanlar ortada min oyundan çıxan müxalifətin təsirində idi.

"Azadlıq" qəzeti sərbəst siyasət yürüdürdü, dövlətdən fərqli mövqeyi vardı. İqtidarı "isladıb çırpmaqdan" çəkinmirdi. Üç il əvvəl Qarabağa Xalq Yardımı Komitəsinin orqanı kimi yaradılmış, Sabir Rüstəmxanlının redaktorluğu ilə şöhrət qazanmış, indi isə yeni yönəldiciləri ucbatından axsayan "Azərbaycan" qəzeti (*son vaxtlar bu qəzet öz səhifələrində yalnız Komitənin hesabına dövlət təşkilatlarının, ictimai qurumların, ayrı-ayrı vətəndaşların köçürdüyü vəsaitlərin Qarabağ kəndlərinin sakinlərinə, Ermənistandan qaçqın düşüb yataqxanalarda, pansionatlarda yerləşdirilmiş qaçqınlara, Şuşa, Xocalı köçkünlərinə adlı siyahı üzrə paylanmasına nəzarət etməklə məşğul idi. Hərdənbir Komitənin sədri Bayram Bayramovu Qarabağa aparıb-gətirən vertolyotun yanacaq xərcləri də bu siyahılarda görünürdü*) Milli Məclisin sədri, Prezidentin səlahiyyətini icra edən İsa Qəmbərovun göstərişi ilə adını "Azad Azərbaycan"a dəyişmişdi. Mehman Cavadoğlunun baş redaktorluğu və yeni jurnalist heyəti ilə işə başlayan "Azərbaycan" qəzeti Milli Məclisin orqanı olmuşdu. 1918-20-ci illərdə yaranmış Azərbaycan Demokratik Cümhuriyyətinin əsas qəzeti "Azərbaycan" adını daşıdığından dövlətçilik ənənələrini davam etdirmək baxımından bu ad möhtəşəm səslənirdi. Lakin Mehman Cavadoğlu, jurnalist yoldaşlarına dediyi kimi, elə ilk başlanğıcdan İsa bəydən icazə almışdı ki, qəzet dövlət qəzeti olsa da, müstəqil işləyəcək. Baş redaktor dediyinə əməl edirdi, gündəlik qəzetin ana səhifəsində Prezidentin, Milli Məclisin haqqında iki-üç nömrədən bir əlboyda quru məlumat verilirdi. Məsələn: "Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy ABŞ-ın ölkəmizdəki səfiri Robert Finni qəbul etmişdir". Yaxud, "Milli Məclisin sədri İsa Qəmbər Türkiyə Böyük Millət Məclisinin bir qrup millət vəkili ilə görüşmüşdür". Bu xəbərlər çox vaxt şəkilsiz olurdu. İqtidarın gördüyü işləri təbliğ etmək, müxalifətə tutarlı cavablar verməkdən ötrü Türkiyədə nəşr edilən "Cümhuriyyət" qəzetinə adaş olan bir qəzet yaradılmışdı. Baş redaktor fəal cəbhəçi Rauf Arifoğlu təyin edilmişdi. Bakıda çıxan o biri qəzetlər kimi, "Cümhuriyyət"in də mad-

di-texniki bazası çox zəif idi, heç bir xarici ölkədə, respublikamızın bölgələrində müxbir postu qurmağa gücü çatmırdı, yalnız əməkdaşlarının qələminə, fotoqrafın aparatına, yazı makinalarına arxalanırdı.

Yazmağa nə qədər desən, mövzu vardı. Qəzet iqtidara xidmət etmək istəsə də, hakimiyyətin gördüyü adda-budda işlərin təsviri heç bircə səhifəyə çatmırdı. Dörd palazqulaq səhifəni doldur, görüm, necə doldurursan? Ona görə də üç-dörd sanballı alim məqaləsini çıxsaq, qəzetə boz-bulanıq yazılar ayaq açmışdı. Deyəsən, qəzetin kollektivi bunu tezliklə hiss elədi və baş redaktor öz dəstəsini götürüb, nəşrə başlayan "Yeni Müsavat" qəzetinə getdi. Bu o zaman idi ki, Milli Məclisin sədri əsrin əvvəllərində fəaliyyət göstərmiş Məmməd Əmin Rəsulzadənin rəhbəri olduğu "Müsavat" partiyasının bərpa qurultayını keçirməyə hazırlaşırdı. Milli Məclisin sədri İsa Qəmbərovun prezident səlahiyyətlərini icra etdiyi müddətdə təyin etdiyi icra başçıları rayonlarda şıdırğı "Müsavat"ın özəklərini yaradırdılar.

"Yeni Müsavat" qəzeti səhifələrinin çoxunu partiyanın təşkilati məsələlərinə həsr olunmuş yazılara verir, İsa Qəmbərovu isə Azərbaycan Milli Məclisinin sədri kimi deyil, "Müsavat" partiyasının başqanı kimi təqdim edirdi.

1993-cü ilin əvvəllərində Əbülfəz Elçibəy ayıldı ki, hakimiyyət laxlayır... Yenidən Azərbaycan Xalq Cəbhəsini gücləndirmək fikrinə düşdü. AXC sıralarındakı tanınmış şəxslərin vəzifələrə, partiyalara dağıldığını, onların yerini "uşaq-muşağın" tutduğunu görən sədr, Naxçıvandan Ordubad rayon Xalq Cəbhəsinin sədri Fərəc Quliyevi Bakıya çağırıb, AXC İcraiyyə Komitəsinin sədri vəzifəsinə qoydurdu və "Cümhuriyyət" qəzetini verdi onun ixtiyarına. Fərəc Quliyev sərt xarakterli lider hesab olunurdu. Bakıda və rayonlarda AXC-nin təşkilatlarını gücləndirməkdən ötrü, necə deyərlər, qollarını çırmalayıb işə girişdi. Yığıncaqlar keçirtdi, sərt bəyanatlar verdi. Bu barədə sonra danışacağam.

Prezident Dövlət televiziyasında tək-tük görünəndə də, televiziyaçılar demişkən, bu görüntü sinxron olmurdu, yəni təsvirin danışığı eşidilmirdi. Axı, Əbülfəz Elçibəy aydın, axıcı, sistemli danışa bilmirdi, kameradan qaçırdı. AzTV-nin sədri Məmməd İsmayıl

sonralar bir dəfə danışdı ki, Prezident Elçibəyin çıxışı yazılırdısa, onu mütləq özüm montaj eləyirdim. Zalım oğlunun bir cümləsini yontayıb düzəldincə anadan əmdiyim süd burnumdan gəlirdi. Onun cümlədə fikri yarımçıq qoyub başqa mətləbə keçməyi vardı. Prezident kimi az təbliğ olunmasını ona irad tutanlara Əbülfəz Elçibəy demişdi ki, xalq yetmiş il kommunistlərin televiziyanı zəbt edən uzun-uzadı çıxışlarından bezib, qoy istirahət etsin. Sonradan Elçibəyin birillik hakimiyyəti dövründə onun keçirdiyi iclaslardakı çıxışlar, televiziyaya, mətbuata verdiyi müsahibələr, Respublika daxilinə etdiyi səfərlər barədə düşünəcəkdim, həmin vaxt çap olunan ictimai-siyasi məzmunlu qəzetlərin illik saylarını diqqətlə gözdən keçirdəcək, olmuşları xatırlayacaq və Prezidentin süst fəaliyyətindən xeyli təəccüblənəcəkdim. Yadımdadır, Əbülfəz Elçibəy yenicə Prezident seçilmişdi, Moskvanın "ORT" televiziya kanalına öz mətbuat katibi Niyazi İbrahimlinin tərcüməçiliyilə müsahibə verirdi. Operator sanki qəsdən Elçibəyi eybəcər, yöndəmsiz göstərməkdən ötrü namərd rakurslar seçirdi. Prezident mikrofondan hansı məsafədə aralı dayanmağı, kameraya necə baxmağı, başı-bədəni oynatmağın, əllə danışmağın, mimikaların bolluğunun efir üçün nə qədər acınacaqlı olduğunun fərqinə varmırdı.

Son beş ilin ən fəal və əhalinin sayca ən çox kütləsi olan iyirmi beş yaşından aşağı gəncləri demirəm, onlar Azərbaycan Kommunist Partiyasının 1982-ci ilə qədər on üç il I katibi, sonra beş il Moskvada Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitənin Siyasi Bürosunun üzvü olmuş, SSRİ Nazirlər Sovetinin I müavini işləmiş Heydər Əliyevi efirdə iclas aparan, danışan, insanlarla ünsiyyətə girən, göstərişlər verən vəziyyətdə görməmişdilər, amma orta, yaşlı nəsil rəhbərlikdəki birinci adamı əvvəlkilərlə müqayisə edirdi, axı? Hələ nə qədər insanın başından Stalin, Bağırov havası getməmişdi. Onlar sovet sisteminin bütün kəm-kəsirlərini, eybəcərliklərini unutmuşdular, qətiyyətli, sözünün ağası olan başçı istəyirdilər.

İnsanlar Moskva televiziyasından dünənə qədər hakimiyyətdə olmuş Marqaret Tetçerin, Ronald Reyqanın, Helmut Kolun, yeni ABŞ Prezidenti seçilmiş Corc Buşun, Fransanın dövlət başçısı Fransua

Mitteranın özlərini qətiyyətli, inamlı aparmalarını görmüşdülər və görürdülər.

Əbülfəz Elçibəy özünü sivil ölkənin prezidenti kimi aparırdı, sanki dünənin sovet adamlarının onun ağzına baxdığını, rəhbərin hər bir hərəkətinin izləndiyini, bunun nə qədər böyük təsir daşıdığını qəbul etmək, yaxınına buraxmaq istəmirdi. Respublika Sarayında Azərbaycan Xalq Cəbhəsinin yaranmasının üçüncü ildönümünə həsr edilmiş ümümrespublika yığıncağını yarımçıq tərk edib gedəndə tədbir iştirakçılarını çox təəccübləndirmişdi.

Əbülfəz Elçibəy Prezident seçiləndən bir neçə ay sonra Nemət Pənahlı, Zərdüşt Əlizadə qəzetlərə verdikləri müsahibələrində açıq-açığına deyirdilər ki, ondan rəhbər olmayacaq. Belə çıxırdı ki, xalq yanılmışdı, çoxlarının bəyənmədiyi Nemət Pənahlının, Zərdüşt Əlizadənin dedikləri düz çıxırdı?!

Prezident Respublika daxilində yalnız Ağdama, Füzuliyə, Cəbrayıla, bir dəfə də Gəncəyə səfər edəcəkdi. Azərbaycandan da çətin duruma düşən, soyuqdan donan qonşu Gürcüstanın prezidenti Eduard Şevardnadze neft və qaz dalınca Bakıya gələcəkdi. Əbülfəz Elçibəyin Misirə, Qazaxıstana nəzərdə tutulmuş rəsmi səfərləri təxirə salınacaqdı. Türkiyə Prezidenti Turqut Özal Baş nazir Süleyman Dəmirəllə birgə Qazaxıstandan qayıdanda Bakıya baş çəkəcəkdi. Rusiya ilə münasibətlərimiz bərbad vəziyyətdə idi. Moskva Bakıya arxa çevirmişdi, Bakı Moskvaya. İqtidar Müstəqil Dövlətlər Birliyinə qoşulmaq söhbətindən gen qaçırdı. Həm də bu barədə Prezident Elçibəy, Ali Sovetin sədri İsa Qəmbərov tez-tez bəyanatlar verirdi.

Əbülfəz Elçibəy dörd dəfə respublikadan kənara çıxacaqdı. Ukraynaya səfəri barədə bir-iki kəlmə yazmışam. Helsinkidə beynəlxalq tədbirə qatılacaqdı.

Moskvaya bir günlük səfərində Rusiyanın dövlət başçısı Boris Yeltsinlə görüşü cəmi iyirmi dəqiqə çəkəcəkdi. Belə qısa görüşdən nə gözləmək olardı?! Moskva meri Yuri Lujkov sonralar Bakıda olarkən azərbaycanlılara hələ də Rusiyanın təbəəsi kimi baxdığını gizlətməyərək deyəcəkdi: “Prezident Elçibəyin mənimlə tərcüməçi vasitəsilə danışması möhkəm xətrimə dəymişdi”.

Ankaraya isə Bakıdan bir həftə qabaq getmiş Türkiyə Cümhuriyyətinin Prezidenti Turqut Özalın dəfn mərasimində iştirak etmək üçün gedəcəkdi.

Yaxın, uzaq dövlətlərin başçıları ilə münasibət qurmaqdan ötrü Xarici işlər nazirliyi gecə-gündüz çalışmalı idi. Xarici işlər naziri Tofiq Qasımovun başı az əhəmiyyətli xarici səfərlərə qarışmışdı, bir də sanki ona Milli Məclisdəki mübahisələrə qoşulmaq daha maraqlı görünürdü.

İqtisadiyyat isə dağılırdı. Keçmiş sovet dövründə yaradılmış biri-birindən asılı böyük müəəsisələr arasında əlaqə pozula-pozula gedirdi. İnkişaf etmiş ABŞ-ı, Böyük Britaniyanı, Almaniyanı, Yaponiyanı bilmirəm, amma SSRİ-də ən böyük zavodlar, fabriklər elə qurulmuşdu ki, hər bir müəssisə istehsal elədiyi məhsulların xeyli sayda hissələrini, detallarını başqa sovet respublikalarının yaxın-uzaq şəhərlərindən alırdılar. Bu, yəqin ki, planlı təsərrüfata söykənən ölkədə proporsional iş yerlərinin yaradılması, işçi qüvvəsinin bölüşdürülməsi məqsədi ilə edilmişdi. Bakının, Sumqayıtın, Gəncənin kimya, aluminium, maşınqayırma, neft emalı zavodları get-gedə istehsal gücünü azaldırdı. Yüngül sənaye malları buraxan fabriklər, kolxozlar, sovxozlar mayadan yeyirdi. Dövlətin cibi boşalırdı.

Yeni yaradılmış, qanunvericilik bazası, strukturu, gəlir mənbələri hələ formalaşmamış vergi, gömrük orqanlarından yetərincə vəsait gəlmirdi. Kənarlaşmalar, yayınmalar baş alıb gedirdi. Məcburi sosial sığorta haqlarının toplanması işi nizama salınmamışdı. 1992-ci ilin Dövlət büdcəsi həmin ilin dekabrının son günlərində rəsmiyyət xatirinə tələm-tələsik qəbul olunmuşdu. Maaşların, pensiyaların, müavinətlərin verilməsi aylarla gecikdirilirdi. Cəbhə əjdaha kimi ağzını açmışdı, veriləni udurdu.

Prezident Aparatının qəbul otağında şikayətçi əlindən tərpənmək olmurdu. Rəhbər işçilərin qəbul saatları vardı, amma bu çox azlıq eləyirdi. Əgər rəhbər işçilər qəbula gələnlərin hamısını bir-bir dinləsəydi, gərək onda iş gününün əvvəlindən gecə yarısına qədər oturduğu kreslodan durmayaydı. Ona görə də Qəbul otağının müdiri şöbələrdəki məsləhətçiləri də bu işə cəlb edirdi. Qəbul edənlərin siya-

hısına bizim Müşavir xidmətindən məni salmışdılar. Həftədə iki-üç dəfə qəbul otağına düşürdüm. Üzümü yumşaq görüb hər cür şikayətçini mənə ürcah eləyirdilər. Hər dəfə ən azı otuz, qırx nəfəri dinləyib yola salırdım. Bəzən say bir az da çoxalırdı. Əvvəllər təcrübəm yox idi, danışıq qabiliyyəti olmayan, fikrini ifadə etməkdə çətinlik çəkən adamların uzun-uzadı danışıqlarını hövsələmi basıb, axıra qədər dinləyirdim. Çoxu lap uzaqdan başlayırdı. Məsələn, "Mən yetim böyümüşəm, qara günlər görmüşəm..." və sair. Sonralar bir az sərbəstləşdim. Prezident Aparatının məsul işçisində, yəni məndə, rəğbət, mərhəmət oyatmaq üçün siravi həyatını geniş nağıl edənin sözünü yumşaqca kəsib ona qoşulurdum: "Hə, nəhayət gəlib çıxdıq bu günə. Zəhmət olmasa, deyin görüm, nə sözünüz vardı?" Bir dəfə qəbula biləsuvarlı qoca bir kişi gəlmişdi. Nə məqsədlə gəldiyini bildirmək istəmirdi. Məni dilə tuturdu ki, onu Prezident Elçibəylə (*xalq arasında heç kəs Prezidentin adını çəkmirdi, hamı ona "Elçibəy" deyirdi*) görüşdürüm. Xahişinin səlahiyyətlərimə aid olmadığını bildirəndə ayağa durub təəssüflə dedi: "Cavan oğlan, mənə Prezidenti görmək lazımdır, sən gəlib kəndimizdə məscid tikdirənsən?!"

Qəbul otağında heç işinibilən, ağıllı şikayətçi görmədim. Tanınmışlar, üzdəolanlar xahişləri üçün yüksək vəzifəlilərə üz tuturdular. Bura şikayətə gələnlər isə demaqoqlar, fırıldaqçılar, acizlər və sadəlövhlər idi. Demaqoqlar kiminsə işini pozmağa, fırıldaqçılar vəzifə dəllallığına, acizlər və sadəlövhlər isə xam xəyalları ilə Ələddinin sehrli çırağını axtarmağa gəlirdilər. Elə bilirdilər Prezident Aparatının qapısından içəri girən kimi illərlə əlində əsir qaldıqları müşküllər düzələcək. Unudurdular ki, salavat gücə bağlıdır, Azərbaycan dünən müstəqillik qazanıb, hələ dikəlməyinə çox var.

Qəbullar qəbul otağında bitmirdi ki... İş kabinetimin telefonları tez-tez qurd kimi ulayırdı. Şəhər nömrəmdən mənə ərki olan yoldaşlarım, dostlarım, tanışlarım və onların çevrəsindəkilər gün boyu suallar, təkliflər, xahişlər yağdırırdılar. Prezident Apatarının işindən, işçilərin status bölgüsündən xəbərləri yox idi. Birdən-birə yüksək mövqe tutanlar çoxlarını cəsarətləndirmişdi. Bir tərəfdən bu, çox yaxşı idi. Hakimiyyətlə xalq arasındakı qalın pərdə götürülürdü. Biz

doğrudan da, dövlət olaraq hələlik dumanlı təsəvvür etdiyimiz, Elçibəyin dediyi kimi, demokratiya yoluna qədəm qoymuşduq. Ancaq, deyəsən, ölkədə danışanların, yazanların, susanların heç biri hələ bilmirdi ki, demokratiya harda başlayıb, harda qurtarır.

Bir neçə il sonra Prezident Heydər Əliyev ABŞ-da Corctaun Universitetinin tələbələri qarşısında çıxış edərkən ondan soruşacaqdılar: "Cənab Prezident, Azərbaycanda demokratiya hansı səviyyədədir?"

Heydər Əliyev konkret cavab verəcəkdi: "Demokratiya alma deyil ki, gedib bazardan alasan. Azərbaycan kimi yeni müstəqillik qazanmış ölkədə demokratiyanın bərqərar olması üçün uzun vaxt tələb olunur".

Hələ ki, sovet qanunları ilə işləyirdik. Dövr Konstitusiyada köklü dəyişikliklər, həyata yeni hüquqi münasibət tələb edirdi. Bunlar isə sülh dövrünün məsələləri idi. Heç kəsin sabahı gözləməyə hövsələsi çatmırdı. Əbülfəz Elçibəy seçiləndən sonra, başda Etibar Məmmədov olmaqla, rəqibləri həsrətlə Prezidentin yüz gününün tamam olmasını gözləyirdilər. Böyük Britaniyada, Amerika Birləşmiş Ştatlarında ənənəyə görə, yeni Baş nazir, Prezident vəzifəsinin icrasına başladığı vaxtdan yüz gün keçəndən sonra rəsmi hesabat verir. Bizim müxalifətçilər Azərbaycanı yüz illərlə demokratiya təcrübəsi keçmiş Böyük Britaniyaya, Amerikaya tay tuturdular: sanki işinin öhdəsindən gəlməyəcək Elçibəyi Prezident Aparatının qabağında şaqqalamağa hazırlaşırdılar. Son dörd ildə baş verən çaxnaşmalarda, təlatümlərdə adamlar nə qədər dəyişsələr də, hələ də hər kəsin içərisində sovet əxlaqına xas avtoritar təfəkkür, kin, həsəd, eyni zamanda rəqib, sinfi düşmən axtarmaq vərdişi vardı. Çoxları dünənə qədər meydanlarda onlarla çiyin-çiyinə dayanmış tanış üzlərin birdən-birə televiziya ekranlarında görünməsinə, vəzifə tutmasına, pərdəli xidməti maşınlara minməsinə, geyiminin-keçiminin, davranışının dəyişməsinə tab gətirə bilmirdi. Hətta neçə dəfə özü vəzifədə ola-ola, dünənki cəbhə yoldaşının üstün mövqeyinə əzvay münasibət göstərənlərin şahidi olmuşdum. Bir axşam AXC Yasamal rayon şöbəsinin fəal üzvü, həmkarım Çingiz bəylə işdən çıxarkən Tələbə Qəbulu Komissiyasının sədri Vurğun Əyyubovla liftdə görüşdük. O,

beşinci – Prezidentin oturduğu mərtəbədə liftə minmişdi. Yəqin ki, Əbülfəz Elçibəyin yanından gəlirdi. Binanın çıxışında sədr, tələsik bizimlə görüşüb, xidməti maşınına sarı gedəndə iş yoldaşım üzünü mənə tutub onun qarasınca deyindi:

– Görürsən, nə tez dəyişirlər? Guya məni xidməti maşınında evimə apara bilməz? Bilər! AXC-də nə qədər çətin mübarizələrdən keçmişik. İndi yekəlib, adamı bəyənmir.

Vurğun Əyyubovu müdafiə edirəm:

– Bəlkə evinə getmir, işinə qayıdır. Bizə hesabat verməlidir?!

Çingiz bəy susur, amma üzünün ifadəsindən görürəm ki, öz fikrində qalır.

İşimə tez-tez zəng edən bir Mənafi müəllim var. “Mənafi” onun soyadı idi, yoxsa adı, soruşmağa utanırdım. Çünki Azərbaycanda soyaddan götürülmüş “Əlizadə”, “Xanzadə”, “Nəvai” kimi adlar çoxdur. Heç nə xahiş eləmir, sadəcə, məni söhbətə tutur. Dediyinə görə, Elmlər Akademiyasında çalışır. Şirin, maraqlı söhbətləri ilə qılığıma girir. Ləhcəsindən Güney Azərbaycanından olduğu aydın bilinir. Qırx altıda bu taya keçənlərdəndir.

Səsindən, danışıq tərzindən ayırd eləmişəm ki, Mənafi müəllimin ən azından yetmiş yaşı var, dildən pərgar bir adamdır. Hər dəfə İran və Azərbaycan tarixindən bilmədiyim faktları sadalayıb, məni ofsunlayır. Nəhayət, bir gün açıldı. “Biz xırdalanmamalıyıq, böyüməliyik” dedi və İrandakı soydaşlarımızla birləşmək üçün mübarizəyə qoşulub, birgə çalışmağımızın vacibliyini bildirdi. Mən: – “Tarixi şans gəlib, qan-qada hesabına təzəcə müstəqilliyə qovuşmuşuq, indi də gedib İranın qoltuğuna sığınaq?” – deyə cavab verəndə o, “Azərbaycan heç vaxt müstəqil olmayıb, olmayacaq da!” cümləsi ilə elə bil arxadan kürəyimə xəncər soxdu. Özümdən çıxıb, ona hücuma keçdim: “İran bizimlə birləşmək istəyirsə, gəlsin, bu şərtlə ki, paytaxt Bakı olacaq!”

Əlbəttə, başa düşürdüm, Mənafi müəllimlə söz güləşdirməyim heç nəyi dəyişmirdi. Prezident Elçibəyin qonşu dövlətdən soydaşlarımıza ana dilində təhsil hüququ tələb etməsi İran rejimini yerindən oynatmışdı. Qonşu dövlət qabaqlayıcı tədbirlər görməyə başlayaraq,

altdan-altdan Mənafi müəllimkimiləri ortalığa atmışdı (*Yeri gəlmiş-kən deyim ki, yenicə müstəqilliyini qazanmış qonşu respublikalar kimi Azərbaycana da böyük dövlətlərin missionerləri doluşmuşdu. Mənafe mübarizəsi gedirdi. Qoşunu Azərbaycanda yerləşən Rusiya Qarabağ münaqişəsi ilə hakimiyyəti nəzarətdə saxlayırdı. İran yetmiş il ateizm tərbiyəsi almış şiə azərbaycanlıları məscidlərə yığıb "haqq yoluna" qaytarmaq istəyirdi. Türkiyə yüz səksən il boyunca çar Rusiyasının öz içində əritməyə çalışdığı millətimizi soy-kökünə döndərmək üçün çabalayırdı, məktəblər açırdı, öyrəncilər toplayırdı, türkçülüyü təbliğ edirdi, Qərb dövlətləri enerji ehtiyatlarımıza şərik çıxmaqdan ötrü əldən-ayaqdan gedirdilər, ingilis, alman, fransız dili kurslarının fəaliyyətinə güc verirdilər. Beynəlxalq Bibliya institutları "Tövrat"ı, "İncil"i dilimizə çevirib, yayırdılar. Krişnaitlərin "Bhaqavad Gita"sını Bakının küçələrində üzlərindən nur yağan xüsusi təlim görmüş gənc oğlanlar və qızlar yoldan keçənlərə bağışlayırdılar. Bunlar azmış kimi, dini məzhəblərin və sektaların nümayəndələri də şəhərlərimizdə ayaqyeri qazanmağa can atırdılar*).

Həmsöhbətim ovqatımın dəyişdiyini duyub, mənimlə sağollaşdı. Ancaq geri çəkilmədi, beş-altı gündən sonra yenə zəng çaldı. Daha ona qəzəblənmirdim. Özgür, demokratik dövlətin məmuru kimi danışmağına şərait yaratmışdım, o da "Bismillah"la, "Xudahafiz" arasında var-gəl edirdi.

Prezident Aparatı ilə müqayisədə Milli Məclis daha fəal idi.

Yadımdadır, 1989-cu ilin 25 mayından 9 iyununa qədər, SSRİ Xalq Deputatları Sovetinin birinci qurultayı düz on altı gün davam etmişdi və Mixail Qorbaçovun təşəbbüsü ilə on altı günün on altısı da televiziya ilə birbaşa yayımlanmışdı. Həmin günlərdə, demək olar ki, bütün ölkənin əhalisi mavi ekranın qabağından çəkilməmişdi, odlu məruzələrdən, dedi-qodulardan, sovet əxlaqına, danışıq tərzinə uyğun gəlməyən açıq-saçıq söhbətlərdən, Qorbaçovun uzun-uzadı mülahizələrindən siyasi "dərs" almışdı. 1991-ci ilin sentyabrına qədər keçirilən daha dörd qurultay da xalqa göstərilmişdi. Moskvanın göstərişi ilə respublikalarda da rəsmi yığıncaqların, mitinqlərin "canlı yayımları" dəbə minmişdi.

Canlı Milli Məclis ona görə diqqət mərkəzində idi ki, burda həm iqtidar, həm müxalifət, həm də bitərəflər üz-üzə idi.

Milli Məclisdə səs-küy salmaq, qışqırmaq, söymək, yerdən atmaca atmaq, natiqin sözünü kəsmək, etiraz əlaməti olaraq nümayişkaranə şəkildə salonu tərk etmək adi hala çevrilmişdi. Siqaret çəkənlər salonu tüstüyə basırdılar. Milli Məclisin sədri İsa Qəmbər "Salonda yanğın ola bilər, xahiş edirəm, siqaret çəkməyin!" desə də, xeyli deputatın damağından siqaret əskik olmurdu. Çünki spiker özü də çəkəndi, arabir iclas zamanı sədr kreslosuna yayxanıb, siqaret fısqırdırdı. Bir neçə ay sonra baş verəcək 4 iyun Gəncə hadisələrinin isti-isti müzakirələri zamanı Milli Məclisdə salonun arxa oturacağında əyləşmiş "prezidentliyi bacarmayan" Əbülfəz Elçibəy də qabağına külqabı qoyaraq siqareti-siqaretə calayacaqdı.

Hələ XIX əsrin ortalarında İngiltərə parlamentində karyera xatirinə millət vəkili seçilib iclaslarda özlərini salonun arxa cərgələrinə verərək, yalnız pıç-pıç və mırtla məşğul olan deputatlara "quyruqda əyləşənlər" ləqəbi verilmişdi. Aradan yüz əlli il keçəndən sonra Azərbaycan Respublikasının Milli Məclisində qanun yaradıcılığına heç bir həvəsi olmayan quyruqda və dimdikdə – yəni ön sıralarda – oturan deputatlar yüzüncü dərəcəli cari məsələləri şişirtdikcə şişirdirdilər. Sanki başa düşmürdülər ki, siyasi müstəqilliyin, demokratiyanın güclənməsi üçün léngimədən yeni qanunlar işləyib hazırlamalıdırlar. Elə bil anlamırdılar ki, demokratiyanı qanunlar yaradır.

Kamera qarşısında şellənməyə nə vardı ki?! Bir neçə ay sonra yenicə Azərbaycan Ali Sovetinin sədri seçilmiş Heydər Əliyev Gəncə hadisələri ilə bağlı müzakirələr aparmağa başlarkən həmişə kameraya işləyən bir neçə millət vəkili iclasın efirdə birbaşa yayılmasına qarşı çıxacaq. Bəhanələri də bu olacaq ki, guya birbaşa yayım əlavə xərc yaradır, dövlət büdcəsinin boş vaxtında vəsaitə qənaət etmək lazımdır.

Maraqlıdır ki, efir Milli Məclisdə gedən qanun müzakirələrini deyil, yalnız millət vəkillərinin qalmaqallarını nümayiş etdirirdi. Operatorlar üçün qanun müzakirələri çox quru və darıxdırıcı tamaşa idi. Rəsmi adamlarla məzələnirdilər. İclasda yatan, qulağını

qaşıyan, dərman atan, böyründəkinə nəsə pıçıldayan deputatları göstərmək onların şakərinə çevrilmişdi. Onlar da öz imtiyazları ilə hökm edirdilər. Bir dəfə ANS televiziyası Milli Məclisdə kameranı danışan natiqə tuşlamaq əvəzinə nəsə çeynəyən nazirə tuşladı və "demokrat" mətbuat neçə gün "Milli Məclisdə yemək yeyən nazir"dən yazdı. Həmin nazir axırda qəzetdə açıqlama vermək məcburiyyətində qaldı. Məlum oldu ki, nazirin mədəsində xora var. Dilinin altına qoyduğu həbin ərimәsini gözləməyə hövsələsi çatmayıb, onu çeynəyib. Sanki Moskvada, Rusiyanın Ali Sovetində gedən tamaşalar burda bir qədər kiçik miqyasda və naşı quruluşda oynanılırdı.

Rusiya Federasiyasının Ali Sovetinin sədri Ruslan Xasbulatov üzdə demokratlara, içdə kommunist deputatlara söykənərək, Prezident Boris Yeltsinin səlahiyyətlərini zəbt etmək, arxasını yerə vurmaq üçün qanuni əsaslar axtarırdı və qarşıdurma yaradırdı. İclasların birində əsəbiləşən qadın deputat salondakı mikrofondan sədr Xasbulatovun qoparağını götürür:

– Ruslan İmranoviç, oyun qaydalarını pozursunuz, qurşaqdan aşağı zərbələr vurursunuz.

Xasbulatov iki pauzalı cavab verir:

– Sizin qurşaqdan aşağınız... məni... qətiyyən maraqlandırmır.

Salondan həm gülüşmə, həm də narazılıq səsləri gəlir. Cavab Xasbulatovun tərəfdarlarına ləzzət eləyir, rəqiblərinin isə möhkəm xətrinə dəyir. Danışıqlar kimi, şirin və acı gülüşlər də "lehinə" və "əleyhinə" havasındadır.

Bizdə isə millət vəkillərinin əksəriyyəti iclas zamanı sədrə göz verib, işıq vermirlər. Sədrin, sözün düzünəqulu mənasında, onlara gücü çatmır. Söz güləşdirmək Milli Məclisin bəzəyinə çevrilib. Məsələn, sədr deputat Etibar Məmmədova irad edir:

– Etibar bəy, xahiş edirəm, səsvermə zamanı öz mandatınızdan istifadə edin!

Etibar Məmmədovun yekəxana cavabına baxın:

– İsa bəy, mandatım o biri pencəyimin cibində qalıb. Bu mandatdan beş-altısını verin, hər pencəyimizin cibinə birini qoyaq də!

Bu da demokratiya... Görün ondan necə istifadə olunur? Əslində özünü göstərmək üçün böyük şanslar zamanıdır. Sülh dövründə məşhur olmaq böyük zəhmət və alın təri tələb edir. Ancaq müharibə, inqilab, təlatüm vaxtı nəhəng dalğalar bir göz qırpımında səni buludlara qədər qaldırır. Bir günün içində taleyini, həyatını dəyişə bilərsən. Adi adamdan böyük vəzifə sahibinə çevrilərsən, müharibədə qəhrəman kimi ad çıxardarsan. Tribunadan tutarlı bir çıxışa, qəzetdə, jurnalda çap olunan bir məqaləyə görə bütün ölkədə tanınarsan.

Bir anlıq göyün yeddinci qatından yerdəki özümə və başqalarına baxıram. Hamı qarışqa kimi qaynaşır, ora-bura vurnuxur. Laqeyd, süst, tənbəl adamların sayı sanki azalıb. Sovet dövrünün qadağalarında sıxılmış insanlar qandallarını qırıb, azğın, qızmış şirə dönüblər.

Əlimyandıda yeni siyasi partiyalar yaradılır. Xalq Cəbhəsində, "Milli İstiqlal", "Müsavat" partiyalarının rəhbərliyində özünə yer tapa bilməyən akademiklər, professorlar, yazıçılar, jurnalistlər, müğənnilər və başqa tanınmış adamlar, "dəstədən dala qalmış" sıravilər yeni yaradılmış partiyalara üz tuturlar.

Yeni Azərbaycan partiyasının fəallarından olan Eldar İbrahimov sonralar danışacaqdı ki, Heydər Əliyev partiya yaratmaq təşəbbüsümüzü soyuq qarşıladı. Dedi ki, uzun illər Kommunist Partiyasının üzvü oldum, axırda bu partiyanı nə günə saldılar, bizi hörmətsiz elədilər. İkinci dəfə belə hala düşmək istəmirəm. Ancaq o, mövcud hakimiyyətin siyasəti ilə, işi ilə barışa biməyəndə qabaqcıl ziyalıların çağırışına biganə qalmadı, Naxçıvanda adını özü qoyduğu Yeni Azərbaycan Partiyasının təsis qurultayını keçirtdi.

Dünənə qədər Heydər Əliyevin keçmiş tarix olduğunu düşünənlər idarəetmə, qayda-qanun yaratmaq qüdrətini, quruculuq gücünü bildikləri bir insanın böyük siyasətə qayıtmaq məramını bilincə, başına toplaşmağa, fəaliyyətini izləməyə, onu tərifləməyə başladılar. Onunla görüşmək üçün Naxçıvana gedib-gələn mövcud hakimiyyətdən narazı köhnə kommunistlərin, yeni siyasətçilərin, alimlərin, jurnalistlərin və başqalarının sayı-hesabı yoxdu.

Bizim ailədə qardaşım nəyin bahasına olur-olsun, Qarabağ müharibəsini tam qələbə ilə başa çatdırmaq istəyi ilə alışıb-yanırdı. Bir vaxt Nemət Pənahovun, cəbhəçilərin çağırışlarına qoşulsa da, indi siyasətlə maraqlanmırdı. Mən həm müstəqillik, həm qələbə, həm də sülh istəyirdim. Ancaq atam qələbəni elə də yaxında görmürdü, Cəbhə hakimiyyətini "fərsiz" adlandırırdı və Heydər Əliyevi məndən artıq qiymətləndirirdi. Atamı dövlət quruculuğu daha çox maraqlandırırdı. Müstəqillikdən sonra yaranan yeni atributlar, əlifbamızın latına dəyişməsi, Azərbaycan manatının dövriyyəyə buraxılması, sovet dövründə olmayan Müdafiə Nazirliyimizin yaradılması başqaları kimi, atamı da çox qürurlandırırdı. Zərrə qədər Sovet dövrünün xiffətini çəkmirdi. Tələbə Qəbulu Komissiyasının qəbul imtahanlarını yeni qaydada – test üsulu ilə keçirməsi müəllimə anamın yaman xoşuna gəlmişdi. Prezident Aparatının nümayəndəsi olaraq imtahanlarda ümumi nəzarətçi kimi iştirak etdiyim üçün mənə prosesin necə keçməsi barədə suallar vermişdi. İmtahanların şəffaf aparılması ona ləzzət eləmişdi.

Anam bütün analar kimi müharibəyə, şəhidlərin müsibətinə dözə bilmirdi. Amma Qara beş-üç günlüyə cəbhədən qayıdanda onu vuruşmaq həvəsindən salan bircə söz də demirdi.

Atam iş yerimə zəng edir. Səsi boğuqdur. Elə bilirəm, soyuqlayıb. Kefini soruşuram. Sualıma cavab verməyib deyir:

– Gəl, yenə ananın halı xarabdır, səni arzulayır.

Və telefonda "dud-dud" eşidilir. Atam heç belə "ədəbsizlik" eləyən deyil. Məni nigarançılıq basır, anamın başında nəsə var. Şənbədir, rəsmi iş günü deyil. Tez kabinetin qapısını bağlayıb, özümü liftə atıram.

Mişovdağı aşıb şəhərimizi görüncə həyəcanım artır. Küçəmizin başlanğıcında yas çadırı qurulub. Evimizə yaxınlaşanda ikinci yas çadırı qarşıma çıxır. Növbəti ev bizimkidir. Darvazamızın qarşısında xeyli adam toplaşıb. Bir hərbi yük maşını da gözə girir. Atam anamın xəstəliyi ilə məni aldadıbmış, yüz faiz Qaranın meyitini gətiriblər. Nəfəsim daralır. Çox qəribədir, bu anda bir hadisə ani olaraq yaddaşımdan keçir. Yaxşı ki, ibrətamiz, təskinlik gətirən misallar, rə-

vayətlər, əhvalatlar var. Şair Zakir Fəxrinin Füzuli cəbhəsindən Ağdamın Naxçıvanıkinə köməyə gedən və üç tankçı yoldaşı ilə vurulub döyüş maşınının içərisində yanmış qardaşı Kamilin ölüsü Yevlaxa gətiriləndə onların evlərinin həyətində ətürpədən vay-şüvən başlanır. Şəhidin tək bacısı nərə çəkib hamının səsini kəsir:

– Heç kəs ağlamasın! Ağlamalı nə var?! Kamil vuruşmağa getmişdi də, toya-nişana gedəndə avariyaya (*qəzaya*) düşməyib ki?! Davaya gedən öldürər də, ölər də...

Hə, indi qardaşım Qara da elə...

Taksidən enib həyətimizə girincə, atamla üz-üzə gəlirəm. Qucaqlaşırıq. Atamın ölgün səsini eşidirəm: “Anan getdi.”

Qara və yoldaşları cəbhədə vuruşlardan sonra hər ölən əsgər yoldaşı haqda bu kəlmələri işlədir. Bircə ağız: “Filankəs getdi”, vəssəlam! Hara “getdi”si məlumdur.

Atamdan ayrılıb ağır-ağır evimizin qapısından içəri keçirəm. Anamın mavi parça ilə üstü örtülmüş meyitinin ətrafında yerdən əyləşmiş qadınların baxışları tikan kimi məni sancır. Əminə müəllimə də onların arasındadır. Səsim batıb, gözlərimdən yaş çıxmır, bir qədər yerimdə donandan sonra qapıdan çıxıram. Bu saat anamın ölüsü ilə baş-başa qalmaq istəyərdim. Amma qadınlar buna imkan verməzdilər.

Atamdan Qaranı soruşuram. “Xəbər yollamışam, sabah səhərə özünü çatdırar” deyir. Sonra danışır, sən demə, anam evimizdə ölməyibmiş. Dördcə saat qabaq sağ imiş. Bu gün günorta qonşu Nərimanın oğlu Mehmanın cəbhədən meyiti gəlir. Babayar Mehmanı tanıdığından ölünü birbaşa yiyəsinin qapısına gətirmişdi. Atam nəfəsini dərib söhbətinə davam edir:

– Vay-şivən qopur. Balkonda olan anan elə bilir Qaranı gətiriblər, sustalıb oturur. Bir azdan toxdayıb görür ki, – anan yasda danışırmış – qonum-qonşu Nərimangilə axışır, özünü ora verir. Yarım saata qədər yasda oturur. Hündürdən ağı deyən arvadların içində birdən axıb özündən gedir. Ağlaşma kəsilir, çaxnaşma düşür. Böyründəkilər ananı ovxalayıb özünə gətirmək istəyirlər. Demə, insult keçiribmiş, ona toxunmaq olmazmış. İşdə idim. Xəbər çatandan on beş dəqiqə

sonra özümü Nərimangilə yetirdim. "Təcili yardım maşını" da gəlmişdi. Axır nəfəsinə çata bilmədim, – atamın səsi titrədi, – anan keçinmişdi.

Atam tez özünü ələ alır, soruşur:

– Küçəmizdəki o biri çadırı da gördün?

– Gördüm, – dilləndim.

– Heyva arvadın bu gün üçü idi.

– Gümüşün anasının?

– Hə. Onun da ölümü ananı möhkəm qorxutmuşdu.

– Nə olmuşdu ki?

– Heyva arvadın burnunu soxmadığı bir iş yox idi. Üç gün əvvəl gecənin sakitliyində dalbadal dörd partlayış səsi eşidildi. Qumbara səsini tanımağa nə var?! Bir anlıq elə təsəvvür yarandı ki, şəhərimizi bombalayırlar. Partlayış səsi kəsilincə ananı güclə sakitləşdirdim. Özümü küçəyə atdım. Hay-küydən qulaq tutulurdu. Heyva qumbara alverinə də girişibmiş. İndi bəziləri qumbaranı şantaj, qorxutmaq məqsədi ilə alır. Heyva arvad necə olubsa, qumbaralarla ehtiyatsız davranıb. Bədbəxt qızı tikə-tikə olub divarlara, tavana yapışmışdı. Müharibə qurbanı kimi tikələrini yığıb, yumadan kəfənlədilər. Ertəsi gün tələm-tələsik dəfn olundu. Partlayış evin bir tərəfini uçurtmuşdu. Yaxşı ki, həmin anda qızı Gümüş evdə olmayıb. Axır vaxtlar Gümüş anasının küçəmizin başında açdığı balaca ərzaq mağazasını işlədir. Gümüş böyüyüb, daha toylarda sirk nömrəsi göstərmir. Bir gün qabaq anasının evə qumbara gətirdiyini də Gümüş adamlara deyib.

Qonşudan ağlaşma səsi kəsilmir. Bizim evdə də anam üçün ağlayanlar var. Hərdən məni qəhər boğsa da, hələ özümü bərk tutmuşam. Atam da dolub gəzir. Anamı sabah dəfn edəcəyik, Qaranı gözləyirik.

Babayar gəlib çıxır. Gələn kimi qonşu Nərimanın oğlu Mehmanın, adaşı olan Mehmanə kəndində səkkiz erməni yaraqlısını avtomatla biçdikdən sonra snayperlə kürəyinin düz ortasından vurulmağından, dərhal keçinməyindən danışır. Babayar Mehmanın necə vuruşduğunu, öldürüldüyünü özü görməmişdi, döyüş yoldaşlarının danışdıqlarını bizim üçün təkrar edirdi. Yas yerində Meh-

manın arxadan vurulmasını əsas götürüb, satqınlarımız tərəfindən güllələndiyini deyənlər varmış. Müharibə qarışıqlığında təxribatla həqiqəti ayırd etmək çətin işdi. Düşmən təbliğatı səngimirdi. Atam da, mən də Mehmanı tanıyırdıq. Uşaqlıqdan güləşlə məşğul olmuşdu. Qoçaq idi. Beş il qabaq Naxçıvanskini bitirmişdi. Kiçik rütbəli hərbi zabit idi.

Bu saat ətrafdakılar üçün nə anamın, nə də Heyva arvadın ölümü maraqlı idi. Mehmanın şəhid olması daha gözlənilməz imiş. Babayar deyir ki, hər yasa gələn ona Mehmanın ölüm əhvalatını danışdırırmış. O, qaşlarını dartıb, müdrikcəsinə bizə təsəlli verdi:

– Küçəmizdəki hər üç ölümə səbəb müharibədir.

Gecə bir neçə yaxın qohumumuzla ruhu uçub getmiş anamın ətrafında əyləşmişik. Molla yasin oxuyub gedir. Anam haqqında düşünürəm. Əslində, anamla bağlı xatirəm elə də çox deyil. Çünki son illərdə biri-birimizi az görmüşük. Xatirələrimin çoxu uşaqlığıma, yeniyetməliyimə aiddir. Dörd yaşıma qədər olmuş bir əhvalat yadıma düşür. Ona görə dörd yaşıma qədər deyirəm ki, o vaxt köhnə evimizdə yaşayırdıq. Dörd yaşım tamam olarkən təzə evimizdə anamın şərəfimə süfrə açması hələ də yadımdadır. Atam mənə o zaman dəbdə olan dənizçi kostyumu almışdı, papağı da vardı. Sonra həmin paltarla şəklimi də çəkdirdilər.

Xatirəm belə idi: “Səhər anam işə gedəndə dalınca ağladım ki, məni də aparsın. Nə qədər dilə tutdusa da, anamdan ayrılmaq istəmirdim. Axırda nənəmə verib, qapıdan çıxdı. Nənəm məni üç-dörd dəqiqə saxlaya bildi. Əlindən zorla çıxıb anamın dalınca götürüldüm. Gözümü yaş tutmuşdu. Ağlaya-ağlaya özümü xeyli qabaqda gedən qadın kölgəsinə çatdırdım. Əlimi onun ətəyinə atıb “Ana” qışqıranda, qadın diksinib geri sıçradı. Anam deyildi. Əlim havada qaldı, səsim xırp kəsildi. Qadının qanı qara imiş, acıqlı-acıqlı üstümə çımxırdı: “Gözünün yaşı ağzının suyuna qarışıb. Kimsən sən?” Elə bil min ilin qəflət yuxusundan ayıldım. İlk dəfə yad adamın nə olduğunu bildim. Suyum süzülə-süzülə evimizə qayıtdım. Birdən-birə böyümüşdüm. O, hadisədən sonra bir də heç vaxt anamın arxasınca ağlamadım”.

Atamla anamın biri-birinə olan böyük sevgisini həmişə hiss eləmişəm. Özləri danışıb – biri-birinə çətin qovuşublar. Heç birinin uşaqlıqdan atası olmadığına görə, böyükləri anaları imiş. Anamın anası qızını başqasına vermək istəyirmiş. Atamın nənəsi də başqa qızı gözaltılayıbmış. Hər iki tərəfdən yaxın qohumlar da aranı qarışdırırmış. Axırda sevgi qalib gəlir. Nə qızı, nə də oğlanı inadından döndərə bilmirlər. Anam hərdən həm mənə, həm də qardaşım Qaraya deyərdi ki, siz böyük sevgidən doğulmusunuz.

Obaşdan atamla mən artıq ayaq üstə idik. Mehmanın tabutunu Babayarın maşınına qoyanlar arasında biz də vardıq. Meyiti Bakıya aparacaq, Təzəpir məscidində yudurdub – kəfənlətdirib, Şəhidlər Xiyabanında torpağa tapşıracaqdılar. Mehmanın anası ovunmurdu. Meyit maşını yola düşəndən sonra qayıtdıq. Qohumlar həyətimizdə yuyat yeri düzəldirdilər. Sovet hökuməti son yetmiş ildə şəhərimizdən olan üç məsciddən birini dəmirçi emalatxanasına çevirmişdi, ikisi baxımsızlıqdan uçub dağılmışdı. Ona görə də hər kəs ölüsünü müsəlman kimi öz həyətində yudurdub qüsllləndirirdi.

Anamın ölüsü yuyulub kəfənlənəndən sonra vidalaşmaqdan ötrü məni yuyat yerinə çağırdılar. Dönüb böyrümdəki atama baxdım. Baxışları ilə getməyimə işarə elədi. Ateist sovet təlim-tərbiyəsi görmüş atam müsəlmanlığını da saxlayırdı, abır-həyalı bir adam kimi böyük-kiçik yanında hətta ölmüş anamın üzündən öpüb, otuz ilə yaxın bir yastığa baş qoyduğu qadınla halallaşmaqdan çəkinirdi. İrəli addımladım, hər halda evin böyük oğlu idim. Anamın üzünü açıq qoymuşdular, elə bil dərin yuxuya getmişdi.

Anamın adı Ayna idi. Uşaqlıqda qardaşımla bəzən ağız-ağıza verib “Ay ana!” ilə “Ayna”nı birləşdirib zarafatla onu hərdən “Aynaynaynayna!” deyə çağırırdıq. Şıltaqlıq eləməyimiz xoşuna gəlirdi. Hərdən də əzilib-büzülüb xüsusi vurğu ilə atamızı yamsılayırmış kimi səslənirdik: “Aynaaam!”

Atam uşaqlar doğulana qədər təklikdə anama “Aynam!” deyirmiş. Axır illərdə də xəstəhal anam həyəcanlananda atam onu “Aynam”la ovundurardı. İndi ailəmizin güzgüsü olan Aynamız sınıb, çilik-çilik olmuşdu.

Qadınlardan biri "Ananın alnından öp!" dedi. Bəlkə bu mənim ölüdən qorxmamağım üçün çıxarılan səs idi? Qorxmurdum, onun üzünün işığı getməmişdi. Öpmək əvəzinə alnımı alnına qoydum, buz kimi idi. Heç vaxt alnım belə üşüməmişdi. Ölüm necə də soyuqmuş?! Bir əl çiynimdən yapışıb məni geri çəkdi, anamın üzünü birdəfəlik örtdülər.

Qara gəlib çıxanda artıq cənazə dəfnə hazır idi. Qardaşım özünü çox sakit aparırdı. Daha ölü görmək, kiminsə "öldü"sünü eşitmək onu təəccübləndirmirdi. Axşam məlum olacaqdı ki, qardaşım dörd döyüş dostunu tabuta qoyub gəlib. Əhvalat belə olubmuş: beş döyüşçü yerdə süfrə açıb, nahar edirmiş. Qara bulaqdan su gətirməyə gedir. Partlayış səsinə geri dönüb görür ki, düşmənin atdığı top mərmisi düz süfrənin ortasına düşüb və dostlarını parça-parça edib.

Azərbaycanda ölüm ucuzlaşmışdı. Bütün ölkə boyu hər kənddə, hər şəhərdə eyni vaxtda neçə-neçə yas çadırları qurulurdusa, daha gözdə yaş qalardı?! Hər on yas çadırından səkkizi-doqquzu Qarabağda şəhid düşənlərinki idi. Aqil Abbasdan eşitmişdim: "Evdə arvad qabağıma çay gətirəndə də, çaşıb "Allah qəbul eləsin!" deyirəm. Nə qədər yasa getmək olar, axı?"

Hələ ağır yaralananların müsibəti. Onların sayı şəhidlərinkindən qat-qat çoxdur. Onlar haçan, nə şəkildə sağalacaqdılar? Kiminin qolu yox, kiminin qıçı, kiminin hər ikisi. Gözü və yaxud gözləri kor olan, çənəsini güllə, mərmi aparan, bədəninə qəlpə dolan, beli qırılan, başına hava gələn... Eh, hər cür zədə növü taparsan. Cəbhəyanı bölgələrdə xəstəxanalar hərbi hospitala çevrilib. Bakının, Gəncənin, sərhədyanı rayon mərkəzlərinin xəstəxanaları yaralılarla doludur.

Fərəh yadıma düşür. O, indi Ağdamın dəmiryol stansiyasındakı qatar vaqonlarında təşkil olunmuş hərbi hospitalda çalışır. Həyatında ilk dəfə özünü daha gərəkli hesab elədiyini yazır. Məktubunda bu cümlələr də var: "Hər gün üzülənə qədər ayaq üstəyəm, iş qurtarmır, qan içindəyik. Yaralılar bir ucdan gəlir, ilkin yardım göstərib Bakıya, Gəncəyə göndəririk".

Anamı Məşədi Zeynəb nənəmin qəbri ilə yanaşı torpağa tapşırırıq. Artıq anamız yoxdur. Bundan sonramız onsuz olacaq. Yetim-

liyə öyrənməliyik. İndi elə zamandır ki, oğul anasız, ana oğulsuz, ər arvadsız, arvad ərsiz, bacı qardaşsız, qardaş bacısız yaşamağı bacarmalıdır, yoxsa həyat sönər. Amma, deyəsən, durumu şişirdirəm. İnsanlar hamısı mehriban, canıyanan, fədakar, vətənpərvər deyil... Ağır vəziyyətdən o qədər başını götürüb xaricə qaçanlar var ki... Anamın qəbri torpaqlananda ətrafa baxıram. Molla qarşıdakı qəbri göstərib izahat verir: "Üç il qabaq bu qəbrin sahibi Pirəli Qaçayevin arvadı Nisəxanım öldü. Kişi arvadını dəfn edib yanında özünə də qəbir qazdırdı, üstlərini götürtdü, iki hündür, qara başdaşı qoydurdu, vəsiyyət etdi ki, öləndə onu hazır qəbrə basdırsınlar. Bilməyən bir şey başa düşməz. Yanaşı iki başdaşı, hər daşın üstündə şəkil, soyad, ad, ata adı. Bircə fərq var, görürsünüz, kişinin ölüm tarixi göstərilməyib. Gendən baxanda əsil sədaqət nümunəsidir. Amma gülünc olan nədir? Arvadının ili çıxandan sonra kişi Bakıda yarırus, yarıyəhudi fintifuruş bir arvad tapıb quyruğuna düşdü, evlənib onunla İsrailə köçdü. Sonrası necə olacaq, Allah bilir. Hələ ki, bizim qəbirstanlıqda hamının muzey eksponatı kimi tamaşa etdiyi biri doğruçu, o biri yalançı iki qəbir yanaşı durur. Deyəsən, Qiyamət günü yaxınlaşır".

Yası yola verməliyik. Qəbiristanlıqdan qayıdırıq. Atam ildırım sürəti ilə yas mərasiminin tədarükünü görüb. Adamları yedirtməyə fürsət tapmış kimi anamın ikisindən başlayaraq günortalar, axşamlar ehsan süfrələri açdırır, özünün və oğlanlarının işini artırır ki, başımız qarışsın. Gündüzlər düşünməyə vaxt yoxdur. Gəlib-gedənlərin arası kəsilmir. Axşamlar isə atam və qardaşımla ayrı qaldığımız zamanların əvəzini çıxırıq. Yenə Bakının, respublikanın siyasi həyatından, Qarabağdaki vəziyyətdən, şəhərimizdən danışırıq. Sanki sözləşmişik, anamın xatirəsindən söz açmağı, keçmişini anmağı, ondan ötrü kədərlənməyi sonraya saxlayırıq...

Heydər Əliyev neçə gündür Bakıdadır, deyirlər, mərhum qardaşı, akademik Həsən Əliyevin qırxına gəlib. Sonra da Prezident Əbülfəz Elçibəy onu öz iqamətgahında qəbul edib. Bir neçə saat keçən görüşdəki söhbətin təfərrüatı açıqlanmır. Qəzetlərdə görüş barədə beş-altı cümləlik qısa xəbər gedir. Anamın üçü günü hüzürdəkilər danışırlar ki, guya Elçibəy hakimiyyətdəkilərlə uyuşmayan, işə adda-budda

gələn Baş nazir Rəhim Hüseynov istefa verdikdən sonra onun boş qalmış yerini Heydər Əliyevə təklif edib və "yox" cavabı alıb. Eşidəcəkdik, iki gündən sonra Moskvaya yollanacaq, Rusiya rəhbərliyinə daxil olan şəxslərlə görüşlər keçirəcək, səfərdən qayıdandan sonra isə yenidən Prezident Əbülfəz Elçibəyin qəbulunda olacaq və Milli Məclisin sədri, soyadındakı "ov"u yenicə atmış İsa Qəmbərlə Moskvanın mövqeyi barədə müzakirələr aparacaqdı.

Heydər Əliyevə beynəlxalq maraq da günü-gündən artmaqdadır. Bakıda ikən ABŞ-ın, Böyük Britaniyanın, Fransanın, Rusiyanın və digər ölkələrin Azərbaycandakı diplomatik korpuslarının rəhbərləri onunla görüşüb, qarşılıqlı əməkdaşlığa hazır olduqlarını bildirirlər.

Heydər Əliyev bir neçə ay qabaq, 1992-ci il noyabrın 3-də "Meydan" qəzetində doxsan bir Azərbaycan ziyalısının ona etdikləri müraciətə (*sonralar onlara "91-lər" deyəcəklər*) "Səs" qəzeti vasitəsilə (*onun rəhbərliyi ilə partiya yaratmaq çağırısı*) cavab vermişdi. Cavabda Heydər Əliyev qeyd edirdi ki, "Sovet İttifaqının dağılması bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir və Azərbaycanın müstəqillik əldə etməsini heç bir halda müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin, o cümlədən Xalq Cəbhəsinin xidməti saymaq olmaz!"

Heydər Əliyev Azərbaycan xalqının gələcək qüdrətini öz hüquqlarını anlayıb onu qoruya bilməkdə görürdü və görüləcək işləri belə planlaşdırırdı: "Azərbaycan rəhbərliyinin Qarabağ problemi haqda dəqiq konsepsiyası və hərbi-siyasi strategiyası olmalıdır; Getdikcə dərinləşən iqtisadi böhranın qarşısı alınmalı, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq üçün hökumət konkret tədbirlər görməlidir; Mövcud kadr siyasəti çox ciddi qüsurlar doğurur. Rəhbər vəzifələrə biliyi, təcrübəsi, iş qabiliyyəti nəzərə alınmadan, yalnız AXC üzvü olduğuna görə irəli çəkilmə halları ağır nəticələr verə bilər; Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi qanunların toxunulmazlığından, aliliyindən asılıdır. Yalnız qanuna hörmət edildiyi şəraitdə totalitarizmdən xilas olmaq mümkündür; Son zamanlar Azərbaycanın parçalanmasına meyllər ən ciddi narahatlıq doğurur və böyük təhlükə yaradır. Bunun qarşısını yalnız demokratik yollarla almaq mümkündür".

Heydər Əliyev cavabının sonunda bildirirdi ki, Azərbaycanın ictimai-siyasi həyatında, yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsində və inkişafında rol oynayacaq bir partiya yaradılacaqsa, onun fəaliyyətində yaxından iştirak edəcək.

İqtidar nümayəndələrinin qəzetə, efirə çıxarılıb ictimailəşdirilən, xalqın iqtidara inamını sarsıdan mübahisələri, davaları bitmirdi. Hakimiyyətdəkilərin biri-birinə qarşı itaətsizliyi genişlənməkdə idi. İlahi, az qala "azadlıq hərəkatı" zamanı bir-iki dəfə mitinqlərdə iştirak etmiş hər kəs özünü hakimiyyətin şəriki hesab edirdi, vəzifə almaq üçün inadla mübarizə aparırdı. Vəzifə almışlar isə daha yüksək pillələrə qalxmaq üçün əlləşirdi.

Anamın yeddisi günü Prezident Elçibəy Ağdərədəki qoşunlarımızın geri çəkilməsi barədə əmr vermiş özünün Qarabağ üzrə səlahiyyətli nümayəndəsi, korpus komandiri, polkovnik Surət Hüseynovu vəzifəsindən azad edir. Deyirlər, Surət Hüseynov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Sərdar Həmidovun onu adam içində təhqir etdiyinə görə bu addımı atıb, cəbhəni boş qoyub. AXC İcraiyyə Komitəsinin sədri Fərəc Quliyev mətbuatda bəyanat verərək polkovniki "satqın" adlandırır. Polkovnik "satqın" ittihamına dözməyərək xalqa sözünü çatdırmaqdan ötrü Prezidentdən televiziyada çıxış etmək üçün birbaşa efir istəyir. Onu sakitləşdirmək məqsədilə Dövlət Katibi Pənah Hüseynov, daxili işlər naziri İsgəndər Həmidov, Prezidentin müşaviri Arif Hacıyev başılovlu Gəncəyə yollanır. Ertəsi gün Arif Hacıyev televiziyada Surət Hüseynovun günahsız olması barədə Prezidentin bəyanatını oxumağa məcbur olur. Yas yerində hamı bu hadisədən danışır. Deyilənlərə inanmayan Babayar dünən axşam cəbhəyə qayıdıb.

Bu o zamandır ki, artıq müdafiə naziri Rəhim Qazıyevə inam azalıb. Onun Rusiyanın Müdafiə naziri Pavel Qraçovla rəsmi və qeyri-rəsmi (*Rəhim Qazıyev onun anasının dəfnində iştirak etmişdi*) görüşləri, danışıqları heç bir nəticə vermir. İki yüz ilə yaxın təsir dairəsində olduğumuz nəhəng Rusiyada da gərgin vəziyyət davam edir. Prezident Boris Yeltsin və onun komandası ilə Ali Sovetin sədri Ruslan Xasbulatovu müdafiə edən deputatlar arasında qarşıdur-

ma günü-gündən güclənməkdədir. Bir neçə aydan sonra Prezident Yeltsin yumruğunu stola çırpıb, Ali Sovetin buraxılmasını bəyan edən məşhur 1400 saylı fərmanını imzalayacaq. Fərmanın dayandırılmasını tələb edən deputatlar etiraz əlaməti olaraq, Ali Sovetin binasına doluşacaqlar. Deputatları müdafiə edənlər binanın qarşısında barrikadalar qurub armaturla, lomla, bıçaqla silahlanaraq keşik çəkəcəklər. Rusiya Patriarxı Aleksiy tərəfləri həmrəyliyə çağırsa da, Boris Yeltsinin dostu, yəhudi əsilli violonçelçi Mstislav Rostropoviç sazəndələrini başına yığıb, Kremlin qarşısındakı Qızıl meydanda barışığa çağırış konserti versə də, xeyri olmayacaq. Axırda Yeltsin Ali Sovetin binasının işığını, suyunu, qazını kəsdirəcək, deputatlarla danışığa elçilər göndərəcək, danışıqlar baş tutmadıqda, içərisində Vitse-prezident Aleksandr Rutskoy, spiker Ruslan Xasbulatov, deputatlar və onların züy tutanları olan Ali Sovetin binasını tanklardan mərmi atəşinə tutduracaq.

Çeçenistan müharibəsi də uzanır. Kremlin və Rusiya Ali Sovetinin müstəqillik siyasəti yeridən Çeçenistan Prezidenti Cövhər Dudayevə münasibəti birmənalı deyil. Kimisi onu devirməyin tərəfdarıdır, kimisi onunla danışığa getməyin. Qocalı-cavanlı kişilər dağlardan enib "İçkeriya" adlandırdıqları respublikanın paytaxtı Qroznının mərkəzi meydanlarında qurşaq tutub, "Ləzginka" rəqsi edərək Dudayevi ruhlandırırlar. Qəribə vəziyyət yaranıb. Rusiya Federal büdcədən əmək haqları, pensiyalar və digər xərclərdən ötrü Çeçenistan üçün vəsait ayırır. Çeçenistan isə xam nefti müxtəlif yollarla xaricə satır. Rusiya hökuməti bir milyonluq çeçenlərin şıltaqlıqlarına dözə-dözə altdan-altdan Dudayevə alternativ axtarışındadır, Avturxanov, Məshədov kimilərlə danışıq aparır. Cövhər Dudayev Boris Yeltsindən müstəqillik qopara bilmir. Pavel Qraçov, nədənsə, Çeçenistan məsələsinin həllinə tam girişmir. Ona görə də Qarabağda hərəkətə keçib öz yarıtmazlığını ört-basdır etmək istəyir. Rəhim Qazıyev artıq gizli-gizli onun tapşırıqlarını nəzərə almağa başlayıb. Ermənilər tərəfdən vuruşub əsir götürülən rus əsgərləri və zabitləri, rəqibdən alınan bəzi kəndlər Rəhim Qazıyevin şifahi göstərişi ilə geri qaytarılır. Müdafiə naziri ona yönələn

ittihamları üstündən atmaq üçün bəhanələr axtarır. Döyüşçülərin başının qarətə qarışdığından qəzəblə danışıb deyir: "Hansısa kəndi azad edən kimi hərə bir keçinin buynuzundan yapışır. Belə özbaşına zabit və əsgərlərlə necə qalib gəlim!"

Adam istəyir, ona bir məktub yazsın ki, a bəy, qarət müharibənin qanunudur. Dünyanın imperiya mərkəzi olmuş şəhərlərinin muzeylərini gəzsən, görəcəksən ki, eksponatların yarıdan çoxu qənimət kimi ələ keçirilmiş qiymətli əşyalardır. Guya erməni tərəfi işğal etdiyi yerləri çapıb-talamır?!

Cəbhədə durğunluq, yerindəsayma başlayandan sonra orduda fərarilik artıb. Avtobus dayanacaqlarından, metronun giriş-çıxışlarından, gur küçələrdən cavan oğlanlar yığılıb cəbhəyə basılır. Təcrübəsiz, sütül oğlanlar gülləyə daha tez tuş gəlirlər. Nə qədər şəhid və yaralı var ki, cəmi bir-iki, yaxud beş-altı gün əsgərlik edib.

Ancaq döyüşlərdə möhkəmlənmiş könüllülər, hərbi çağırışla əsgər getmiş bir çox cavanlar məğrurdur. Onların döyüş ruhunu nə yarıtmaz rəhbərlik, nə bacarıqsız hərbi komandanlıq, nə siyasi təbliğatlar, nə təxribatlar, nə satqınlıqlar, nə çatışmazlıqlar korşalda bilər. Özlərinə əfsanələrdən, miflərdən, romanlardan, kinofilmlərdən götürdükləri "Əjdaha", "Pələng", "Rembo", "Komandos", "Koroğlu", "Mixaylo" kimi ləqəblərlə vuruşan igidlər qəhrəmanlıq, fədakarlıq göstərməkdən yorulmurlar. Qələbəyədək vuruşmaq əzmindədirlər.

Moskvanın "Oqonyok" jurnalının 1992-ci il aprel sayında qanımı oynadan bir şəkil görmüşdüm. İtaliyalı fotomüxbir Enriko Sarrininin çəkdiyi şəklin altında yazılmışdı ki, görünüş Stepanakertdə qeydə alınıb. Şəkildə sıx dumanda azandan sonra Alban kilsəsinə sığınaraq, düşmənlə beş gün vuruşmuş, onlarla separatçını məhv etmiş, axırda Xocalıda ələ keçmiş həmvətənlərimizi girovluqdan xilas etmək şərti ilə təslim olmuş Azərbaycan əsgəri Natiq Qasımov silahlı Ermənistan yaraqlılarının qabağında başını dik tutub sağ əli ilə sapından bərk-bərk yapışdığı Azərbaycan bayrağını havada dalğalandırırdı.

Bundan artıq qəhrəmanlıq olmazdı ki...

Çox sonralar məşhur rejissor, ssenarist, siyasətçi, dörd çağırış Rusiya Dövlət Dumasının deputatı olmuş, istedadlı teleşərhçi kimi

tanınan, "qaynar nöqtələr"də kontuziya alan, iki dəfə yaralanmış, girovluq görmüş Aleksandr Nevzorov Qarabağda gördüyü azərbaycanlı əsgərin qorxmazlığı barədə Moskva televiziyasının efirindən dünyaya bəyan edəcəkdi: "Həyatımda rast gəldiyim ən igid əsgər azərbaycanlı olub. Onun adı Vəzir (*Surxay oğlu Orucov, 1993-cü ilin martın 27-sində ölümündən beş gün sonra Prezidentin fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdü*) idi. Əynində yaxalığına siyənək balığının iyi hopmuş çirkli sırıqlısı olan, heç nə ilə fərqlənməyən sadə və saçına təzəcə dən düşmüş kişi kimi yadımda qalıb. Sərsəng su anbarının ətrafında rəqib Goranboy batalyonunu dağıtmışdı. Əsgərlər arasında çaxnaşma düşmüşdü. Müşahidə edirdim, ön xətdən avtobuslara doluşub qaçırdılar. Bir də gördüm ki, Vəzir "UAZ"a əyləşib maşını işə saldı, hamının qaçdığı tərəfin əksinə istiqamət götürdü. Qarşıda palçıqlı yol, cəhənnəm vardı. Ətrafa meyitlər səpələnmişdi. Görəndə ki, bu adam irəli, od içinə yollanmaq istəyir, soruşdum: "Ağlını itirmisən?" Cavab verdi: "Orda yaralılar var!" Bir yerdə gedəsi olduq. Sən demə, nə erməni, nə zad, hücum edənlər Pskov Hava desant korpusunun döyüşçüləri imiş. Vəzirin "UAZ"nı vurub dayandırdılar və bizi maşından düşürdüb güllələmək istədilər. Bu məqamda desantçılar məni tanıyıb dedilər: "Qleboviç, sizsiniz? Belə keçin! Bəs bu azərini neyləyək?" Dilləndim: "Neyləyəcəksiniz? Buraxın getsin!" Razılaşdılar, cəbhə boyu özününkülərə xəbər ötürdülər ki, indi azərbaycanlı əsgər qaçacaq, ona güllə atmayın. Ancaq Vəzir qaçıb-eləmədi. Tələsmədən deşik-deşik olmuş maşında xeyli eşələnib öz avtomat silahını tapdı, yerə endi, sonra çevrilib mənə əlini yelləyərək yola düşüb getdi. Vəzir elə məğrur yeriyirdi ki, Şekspirin heç bir qəhrəmanı səhnədə o cür addımlar ata bilməzdi. Kürəyi atəş üçün açıq olsa da, qaçmayacağı bəlli idi. Onu qorxutmaq üçün havaya atılan güllə səsini eşidəndə diksinmədi, addımlarını yeyinlətmədi. İgidi yaylım atəşi ilə yola saldılar".

Kəlbəcərin işğalı ilə siyasi durum dəyişir. Bütün Azərbaycan şokdadır. Daha bir ərazisinin boşaldılıb ermənilərə verilməsi millətə yenidən dağ çəkdi. Dağlıq Qarabağa Laçın dəhlizini açanda bunun

bir məntiqi mənası vardı. Bəs Kəlbəcərin işğalına necə don geyindirəcəkdilər?

Prezidentin mühafizəçilərindən biri sızdırmışdı ki, Kəlbəcər gedən günün gecəsi Əbülfəz Elçibəy iqamətgahının giriş pilləkənində oturub başını dizlərinə qoyaraq “Xəyanət! Xəyanət!” deyərək fəryad qoparırmış.

Şair Ramiz Rövşən bir müddət sonra Əbülfəz Elçibəyə “Sənə bir daş atar yerindən duran...” misrası ilə başlayan şeir qoşacaqdı. Ancaq indidən hər yerindən duran Prezident Elçibəyə bir yox, ətək-ətək daş yağdırırdı.

Gəncə ətrafı Kəlbəcər qaçqınları ilə dolub. Dinc əhalidən ölənlər, yaralananlar var. Yenə də düşmənlər mülki insanlarla vəhşicəsinə davrandılar. Əsir düşməyin xofu o qədər ağırdır ki, hər kəs ölməyə razıdır, ancaq əsirliyə yox. Mühasirəyə düşənlərdən kimin tapançası, tüfəngi, avtomatı varsa, özünü güllələyir, qumbarası olan öz külünü göyə sovurur, silahsızlar isə qarda-sazaqda meşələrdə, dağlarda donub ölürlər. Namusunu qorumaq üçün cavan canına qəsd edərək özünü sıldırım qayalardan atan nə qədər qızlardan, gəlinlərdən danışırlar.

Rusiya hələ də Böyük Pyotrlarının vəsiyyətləri ilə Qafqazı idarə etməyə çalışır. Canım, axı, o vəsiyyətlər köhnəlib. Artıq dünya başqa dünyadır. İnsanları uzun müddət silahla “Tərpənmə!” komandası altında saxlamaq olmur. Hər kəs sülh içində yaşamaq, işləyib qazanmaq, oğul-uşaq törətmək, dünyadan həzz almaq, qurub yaratmaq istəyir. Bəyəm biz haçansa Rusiyaya təpik atmışıq?! Bu nə zülmdür, bizə çəkdirir? Biz həmişəlik ona da, o biri nəhənglərə də mehriban qonşu ola bilərik. Rusiyanın ermənilərlə bizi düşmən etmək hoqqası kif atmış, iylənmiş, sonu görünməyən sarsaq bir siyasətdir. Bu işin axırı yoxdur. Rusiya elə təkcə Qarabağı, hələ Gürcüstanı-zadı demirəm, gərgin müharibə vəziyyətində saxlamaqdan ötrü xərclədiyi milyonlara Azərbaycanda və Ermənistanda, başqa yerlərdə nə qədər istehsal, xidmət müəssisələri aça bilər, münbit torpaqlarımızın hər qarışını qızıla çevirər. Özü də, biz də rahat yaşayarıq. İndi iki yüz il əvvəl deyil. Getdikcə hamının gözü açılır, yaxşını yamandan ayırır.

Prezident Aparatı qorxudan tir-tir əsirdi. Hamının əli işdən soyumuşdu. Hər kəsin qulağı səsdə idi, yeni, xoş xəbər eşitmək istəyirdi.

Kəlbəcərin işğalında iqtidar içərisində daxili düşmən axtarışı səngimək bilmirdi. Camaat arasında iki ay əvvəl, fevralın əvvəlində Milli Məclisin sədri İsa Qəmbərin Kəlbəcərdə gənc İcra başçısının toyunda iştirak etməsi rayonun işğalının səbəblərindən biri kimi göstərilirdi. Spikerin dostluqdan keçə bilməməsi, dəvəti diqqətsiz qoymaması, üzə düşməsi idarəetmə qaydalarına qətiyyən uyğun gəlmirdi. Dövlət işlərinin başdan aşdığı bir vaxtda İsa Qəmbərin tam demokratik, azad, sülh, əmin-amanlıq şəraitində yaşayan ölkənin vətəndaşı kimi istirahət hüququndan istifadə edərək, ucqar rayona şəxsi münasibətlə toya getməsi zamanla, ictimai mühitlə və tarixi məqamla üst-üstə düşmürdü. Dinc zaman olsaydı, spikerin Kəlbəcərə təşrifini, bəlkə də, alqışlayardılar.

Daxili işlər naziri İsgəndər Həmidovun qəfildən istefa verməsi çaşqınlığı bir az da artırır. Söz gəzir ki, nazir həm müxalifətin, həm də Rusiya generallarının tələbi ilə vəzifədən uzaqlaşdırılıb. Hətta guya Kəlbəcər İsgəndər Həmidovun axırına çıxmaq üçün işğal olunub. Kəlbəcərin süqutu kəlbəcərli İsgəndər Həmidovu sındırmışdı. Sonralar eks-prezident Əbülfəz Elçibəy deyəcəkdi ki, İsgəndər bəy doğulduğu rayonun müsibəti baş verincə, təkidlə istefasını tələb etdiyi üçün işdən çıxması barədə sərəncama imza atmalı oldum.

Radikal müxalifət, kriminal ünsürlər az-çox İsgəndər Həmidovdan çəkinirdilər. O da qırağa çəkiləndən sonra siyasi vəziyyətin ağırlığı daha aydın hiss olunmağa başlayır. Artıq, demək olar ki, Bakının və respublikanın hər yerində qanunsuz silah gəzdirənlərin sayı bir deyil, beş deyil, yüzlərlədir. Gecələr paytaxtda "partapart"dır, dörd bir tərəfdən atışma səsləri eşidilir. Cinayətlər artıb, oğrular, fırıldaqçılar, davakarlar üzə çıxıblar. Küçə fahişələri az qalırlar adamı tapdasınlar. Onlar ikibir-üçbir baş yolların qırağında cərgələnib, müştəri gözləyirlər. Xeyli adam göz qabağında günü-gündən həyasızlaşır, simalarını itirə-itirə gedirlər. Dostu, yoldaşı, qardaşı, qonşunu aldatmaq, yetənə kələk gəlmək, aldığı borcun dalına keçmək adi hala çevrilib. İqtisadi mübahisələri həll

edən silahlı qruplar yaranıb. Onlar danışıq dilində, rusca deyildiyi kimi, "razborka"ları ümumi məbləğin ən azı yarı faizi ilə yoluna qoyurlar. "Razborka"çıların əksəriyyəti keçmiş dustaqlardır. Yenə də ayıq qalan, özünü itirməyən, şəraiti düzgün qiymətləndirən, həyəcan qaldıran, hətta baş verənlərə gülməyi bacaran ziyalılar, yaradıcı adamlardır. Belə bir əhvalat danışırlar: "Bakıda şair Adil Cəmil Nizami Gəncəvinin heykəlinin yanında dayanan Qəşəm İsabəylini görüb nəyə görə tək dayandığını soruşur. Qəşəm İsabəyli iyirmi beş illik qələm dostu Şəmistan Nəzirlini gözlədiyini bildirir. Adil Cəmil dostluğun, yoldaşlığın tapdandığı, etibarın itdiyi indiki zəmanayə işarə edərək təəccüblə qəribə sual verir:

– Siz hələ də dostsunuz?"

İki ay qabaq Milli Məclisin qapalı iclasında respublikadakı hərbi – siyasi böhran müzakirə olunduqdan sonra müdafiə nazirimiz Rəhim Qazıyev istefa vermişdi. Prezident Əbülfəz Elçibəy bir dəfə jurnalistlərə gilleylənmişdi: "Rəhim Qazıyev məni eşitmir". Rəhim Qazıyev də Elçibəydən narazılığını açıqca bildirirdi.

Daha televiziyada Levitanımız Şəmistan Əlizamanlı "Müdafiə Nazirliyinin məlumatı"nı oxumur. Cəmi bir neçə ay əvvəl, ordumuzun qələbə qazanan vaxtlarında mətndən çıxıb "Sizə bu günlərdə qələbə müjdəsi verəcəyəm!" demişdi. Hanı o günlər?! Efirdən yalnız müdafiə və məğlubiyyət xəbərləri yayılır.

Ordu, demək olar ki, başsızdı. Arxası möhkəm olan düşmənə gücümüz çatmır. Heç terrorçularla bacarmırıq. Terrorçular Bakıda nəzarətsiz qalmış hər bir ictimai, mülki binanın külünü göyə sovura bilər. "Bakı-Kislovodsk" qatarı təzəcə partladılıb, otuza qədər ölən və yaralanan var.

Azərbaycan müstəqil dövlətdir deyə, Kəlbəcərin işğalından dörd gün sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının iclasında Ermənistan-Azərbaycan münaqişəsi zonasında vəziyyətin kəskinləşməsinə görə Şura sədri bəyanat verməyə məcbur olur. İşğal olunmuş torpaqlarımızla bağlı bu, birinci sənəddir. Sonra Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti tərpənir və ilk rəsmi mövqeyini bildirərək tərəfləri müharibəni dayandırıb, ATƏT-in

(*ATƏM dönüb ATƏT – Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı olmuşdu*) Minsk qrupu çərçivəsində danışıqlara başlanılmasına çağırır. Daha sonra Böyük Britaniya, Pakistan, Misir, İslam Konfransı Təşkilatı oxşar bəyanatlar verir.

Dünyanın səsini qaldırması insanları bir az istiləndirir. Aprelin sonuncu günü BMT Təhlükəsizlik Şurası Azərbaycanla Ermənistan arasındakı münasibətlərə dair 822 saylı qətnamə qəbul edir. Sənəddə Kəlbəcərin "yerli erməni qüvvələri" tərəfindən işğal olunduğu həqiqəti əks etdirmədiyi üçün bizə toxunsa da, ərazilərimizin qeydsiz-şərtsiz geri qaytarılması tələbi urəyimizə toxtaqlıq gətirirdi. Prezident Aparatında da bir neçə gün hamı yüngülləşdi, rahat nəfəs aldı. Zarafat deyildi, müstəqilliyimiz ilk diqqəti qopartmışdı, BMT müdafiəmizə qalxmışdı. Ancaq içərisində yaşadığımız qarışıqlıqda heç bir xəbər təzə qalmadığı, heç bir sevinc uzun sürmədiyi kimi, BMT müjdəsi də boşa çıxdı. Nə Kəlbəcər geri qaytarıldı, nə də təcavüz dayandı. BMT-nin sonralar o biri rayonlarımızın işğalı ilə bağlı qəbul etdiyi daha üç – 853, 874, 884 saylı qətnamələrində işğalçıların adı çəkilməyəcək və "yerli erməni qüvvələri"nə ağıl dərsi keçiləcək. Tarix bizi döyə-döyə başa salacaq ki, BMT əslində Birləşmiş Millətlər Təşkilatı deyil, Birləşmiş Super Dövlətlər Təşkilatıdır. Bu təşkilatda daimi söz sahibi olanlar Azərbaycana təcavüz edənlərin adını çəkməyə icazə verməz, işğalçı dövlətin adı çəkilsə, gərək tədbir görülsün.

Gecə işdən çıxıb evə qayıdıram. Prezident Aparatının zirzəmisindəki mağazadan bazarlıq eləmişəm. Mağazada çeşid çox olmasa da, gündəlik ərzaqlar satılır. Əti, toyuğu, qəndi, yumurtanı, yağı, makaronu, kartofu, soğanı burdan alıram. Hərəsindən bir az. Həm yüküm yüngül olur, həm də işıqlar tez-tez söndüyünə görə soyuducunu doldurmuram. Bu qışı dişim-dişimə dəyə-dəyə keçirtmişəm. Son illərdə şəhərdəki qazanxanaların çoxu işləmədiyi üçün mənzillər elektrik qızdırıcıları ilə isidilir. Mənim də bir elektrik sobam var, ancaq neçə-neçə qızdırıcıya köhnəlmiş transformatorlarının gücü çatmır. Təzə dəb düşmüşdü, rayonlarda oğru dəstələri mis naqilləri kəsib, İrana daşıyırdılar. Naqilləri yenisi ilə əvəz etmək isə müsibətə çevrilirdi,

ehtiyat tükənmişdi. Bütün Azərbaycan üşüyürdü. Səhərlər, günortalar, axşamlar üst-üstə bir neçə saat işıq yanırdı. Meşələr sürətlə qırılırdı. Bölgələrdə qış vaxtı kimin əlinə nə keçirdisə, sobaya atırdı. Həyətinin bar verən ağaclarını kəsib oduna çevirənlərin sayı-hesabı yoxdu.

Təsərrüfat pozğunluğu səksəninci illərin ortalarından başlamışdı. Bir məclisdə eşidəcəkdim: "Başda Əməkdar artist Səməndər Rzayev olmaqla beş-altı nəfər sənət adamı qış vaxtı isti bir evdə yeyib-içirlərmiş. Axşamüstüdən başlayan məclis gecə yarısına qədər uzanır. Ağıla gələn bütün sağlıqlar səslənir. Axırda kimsə məclisə yekun vurmaq istəyəndə isti yerindən tərpənmək istəməyən Səməndər Rzayev şüşənin dibində qalan arağı qədəhlərə süzüb dillənir:

– Deyirəm... indi evimizdə olsaydıq, soyuqdan donurduq, çünki istilik sistemi işləmir. Gəlin badələri içək... otopleniyanın... – böyründəki qızdırıcı batareyanı göstərir – sağlığına. Bu olmasaydı, heç bir "kletka" (*yeşik*) araq da bizi qızdıra bilməzdi."

Bir çox işsiz adamlar evindəki ehtiyatı satıb qurtarandan sonra ağına-bozuna baxmadan əsl yalquzaq kimi özünə azuqə axtarırdı. Artıq pulu olanlar isə aclıq qorxusundan ərzaq mağazalarını silib-süpürürdülər. Yeşiklə makaron, yağ, konserv qutusu, torba-torba düyü, un alıb başının altına qoyanlar vardı. Çörəyi on-on alanları görəndə daha heç kəs təəccüblənmirdi.

Baş nazir vəzifəsinə Pənah Hüseynov gətirilir. Müxalifətin, Milli İstiqlal Partiyasının sədri Etibar Məmmədovun təyinatını böyük narazılıqla qarşıladığı yeni Baş nazir jurnalistlərə ilk müsahibəsində "Nazirlər Kabinetini Prezident Aparatının müstəmləkəsindən qurtaracağam!" vədini verməklə işə başlayır. O, Baş nazir təyin ediləndə daha onu qabaqlar lağa qoyan nə Rəhim Qazıyev, nə də İsgəndər Həmidov səlahiyyət sahibi idi. Ancaq Elçibəy Respublika Prezidenti seçiləndən sonra açıq-açığına Baş nazir olmaq istəyi ilə qovrulan Etibar Məmmədov Pənah Hüseynovun vəzifəyə təyin olunduğu gündən "Bunların – yəni Cəbhə – Müsavat hakimiyyətinin – axırına çıxacağam!" deyib hakimiyyətə qarşı daha sərt hücümа keçdi. İki ay keçincə mövcud hakimiyyəti yıxanlardan biri olandan sonra

da o, Baş nazir iddiasından əl çəkmədi. Yeni rəhbər Heydər Əliyev Baş nazir vəzifəsinə qiyamçı polkovnik Surət Hüseynovu oturtmağa məcbur qalanda ona xarici işlər naziri olmağı təklif edəcəkdi, ancaq Etibar Məmmədov cığallığa keçəcəkdi. İrəli sürdüyü şərt sanki təklif olunan vəzifəni boynundan atmaq üçün bəhanəyə bənzəyəcəkdi. Şərt belə idi: Dövlət Katibi Xidməti, Xarici İqtisadi Əlaqələr Nazirliyi və Xarici İşlər Nazirliyi birləşdirilərsə, belə bir vəzifəni qəbul edərəm.

Heydər Əliyevi od götürəcəkdi. Müxalifətçiyə yerini tanıtmaq üçün efirdəki çıxışında deyəcəkdi: "Etibar Məmmədov, axı, sən bir gün də idarəetmə işində çalışmamısan, bu boyda iddialar səndə hardandır?"

Və Etibar Məmmədov köhnə iqtidarın müxalifətindən yeni iqtidarın müxalifətinə keçəcəkdi.

Bir gün Dövlət müşaviri ilə Moskvaya yola düşdük. Rəsmi səfərə gedirdik. Axşamüstü Moskvanın Domodedova hava limanında təyyarədən endik və birbaşa səfirliyimizə yollandıq. Bizi Azərbaycanın Rusiyadakı səfiri Hikmət Hacızadə qarşıladı. O, xarici siyasət məsələləri üzrə Azərbaycan Xalq Cəbhəsinin fəallarından idi. İndi özünü əsl moskvalı kimi aparan bu adamı yeni hökumət ilk sərəncamlarından biri ilə Rusiya Federasiyasına elçi göndərmişdi. Çay süfrəsi arxasında Rusiyadakı siyasi durumu bizə izah edirdi. Dağılan imperiyanın paytaxtında çox gərginlik vardı. Hakimiyyətdə bitib-tükənməyən çəkişmələr, iqtidar-müxalifət qarşıdurmaları, günbəgün artan işsizlik, inflyasiya, Moskvaya bir tikə çörək dalınca gəlmiş həmvətənlərimizə qəfil hücümlar, basqınlar, onlara qarşı törədilən cinayətlər, soyğunçuluqlar... Səfir ürəyini boşaldıb qurtara bilmirdi.

Sabahkı rəsmi görüşlərin vaxtını öyrənib, mənim üçün ayrılmış otağa gəldim. Rəsmiyyət rəhbərimlə səfirimizi baş-başa buraxmağı tələb edirdi.

Əynimi dəyişib bir az rahatlanandan sonra mehmanxananın restoranına endim, yüngülvarı şam yeməyi yeyib durdum. Qiymətlər Bakıdakından təxminən beş dəfə bahadır. Moskvada yaşayan çox pul qazanmalıdır.

Otağım yarımlüksdür, geniş və rahatdır. Çarpayım enlidir. İçəridə iri bir divan, iki kreslo da var. Ancaq mənim divanlıq, kresloluq halım yoxdur. Yatağıma uzanıb qəfil yuxuya necə getmişəmsə, özümdən xəbərim olmayıb. Gecəyarı səsə ayıldım. Saata baxdım, üçə işləmişdi. Dəhlizdən, lap qapımın qabağında hündürdən uşaq səsləri gəlirdi. Uşaqlar azərbaycanca danışırdılar. Bir az yerimdə uzanılı qalıram. Uşaqların cığ-bığının kəsilmədiyini görüb, dəhlizə çıxıram. İlk gözümə dəyən sumqayıtlı şair Əşrəf Veysəlli olur. Onu mətbuatdan tanıyıram. Narahatdır, həm dodaqaltı deyinir, həm də uşaqları sakitləşdirməyə çalışır. "Əşrəf müəllim" deyib onu çağırınca, bu nəhəng adam tövşüyə-tövşüyə və döyükə-döyükə üzümə baxır. Məni tanımağa çalışır. Qəribliyi uçub gedir. Əl tutub görüşürük.

Danışıqlarından məlum olur ki, üçüncü-dördüncü sinifdə oxuyan yarısı qız, yarısı oğlan olmaqla on iki nəfər Sumqayıt məktəblisini ABŞ-ın hansısa humanitar təşkilatının xətti ilə Nyu-Yorka səyahətə aparır. Sabah Moskvada ABŞ səfirliyindən vizalarını götürüb, ertəsi günü okeanın o tayına uçacaqlar. İndi isə özünün və uşaqların gecələməyə yerləri yoxdur. Bir neçə mehmanxanaya baş çəksələr də, yer tapmayıb axırda öz səfirliyimizə üz tutublar. Onlara foye təklif olunub. O da, uşaqlar da çox narahatdır. Nə şişirdirəm, nə azaldıram. Həmişə xeyirxahlıq etməyə məqam axtaran mən yeni fürsət buluram. Hamısını nömrəmə dəvət edirəm, göydəndüşmə təklifə möhkəm sevinirlər. Divanı açıram, çarpayım endə olur. Növbə ilə hamam otağında əyinlərini dəyişib, gecə paltarlarını geyinən uşaqlar yerlərinə girməyə hazırlaşırlar. Köndələninə uzanmaqla qızlar çarpayıda, oğlanlar isə divanda yatmalıdır. Yorğun və yuxusunun vaxtı keçmiş uşaqların bir azdan sonra civiltisi kəsilir. Əşrəf Veysəllinin yumşaq və iri kresloya yayxanması ilə xorultuya başlaması bir olur. O, ən yüksək oktavada xoruldayır, otaq silkələnir. Uşaqlarsa şirin yuxudadır. Müəllimləri lap göy kimi guruldasa da, veclərinə deyil. Mənsə heç kəfkirli divar saatının tıqqıltısına da dözən deyiləm. Monoton xorultuya qulaq asmaqdansa, foyeyə keçib divanda əyləşməyi, jurnal stolunun üstündəki qəzetləri vərəqləməyi üstün tuturam. Qəzet oxuya-oxuya, foyedə gəzişə-gəzişə, divanda mürgüləyə-mür-

güləyə səhəri açıram, xeyirxahlıq missiyamı başa vurmaqdan ötrü mehmanxananın yanındakı ərzaq mağazasından qonaqlarımın səhər yeməyi üçün bazarlıq edib, hər əlimdə bir sellofan torba nömrəmə qayıdıram. Əşrəf müəllim yuxudan oyanır. Birgə süfrə düzəldirik.

Uşaqları yuxudan oyadıb növbə ilə vanna otağına göndəririk. Bir-bir gəlib süfrə başında əyləşirlər. Restorandan üç çaynik çay gətirtmişəm. Uşaqlar mənə Xızır peyğəmbər kimi, Əşrəf Veysəlli isə özünün dediyi kimi, "milli dövlət adamı kimi" baxır. Qonaqlarım ABŞ-ın Rusiyadakı səfirliyinə tələsdikləri üçün tezbazar səhər yeməyi yeyib qapıdan çıxırlar. Mən də tələsirəm, saat yarımdan sonra rəsmi görüşlərimiz başlayacaq. Səfirliyin avtomobilində Müşavirlə Rusiya Dövlət Dumasına yollanırıq. Birinci görüşümüz Millətlərarası Münasibətlər komissiyasının sədri Ramazan Abdulatipovladır. Abdulatipovun millətlərarası münasibətlərin nizama salınması ilə bağlı iki kitabını oxumuşam. Qafqazdandır, milliyətcə avardır. Çox sonralar Rusiya Prezidenti Vladimir Putin onu Dağıstan Respublikasına rəhbər göndərəcək. Bizi çox rəsmi qəbul edir. Rusiya-Azərbaycan sərhədindəki gərginliyə təsir etmək imkanından çox-çox uzaq olduğu hər cümləsində hiss olunur. Bizim gəlişimiz ona yalnız yeni yazacağı kitablar üçün əlavə məlumatlar verir. Müdirim isə icra strukturunun nümayəndəsi kimi iki dövlət arasında milli münasibətlərə dair konkret fikirlər söyləyir. Abdulatipovla sağollaşıb, başqa bir deputatın görüşünə gedirik. Deputat Yeqorovla görüşümüz atüstü olur, ümumi tanışlıq, qonşuluq münasibətlərinin, dostluq əlaqələrinin davam etdirilməsi və s.

Qabaqcadan razılaşdığımız kimi, günortadan sonra Rusiya Federasiyasının Nazirlər Soveti sədrinin müavini, eyni zamanda Millətlərarası Münasibətlər Komitəsinin sədri Sergey Şaxrayla görüşürük. O, Azərbaycanda gedən proseslərin, Qarabağ münaqişəsinin daim Rusiyanın nəzarətində olduğunu bildirir. Sergey Şaxray üçün apardığımız hədiyyəni Bakıda mən seçib almışdım. İçərişəhərdə xalça mağazasından seçdiyim orta ölçülü xalça məşhur Pirəbədil çeşnisi idi. Birdən mənə elə gəlir ki, hər iki tərəf üçün bizim görüşümüzün nəticəsi elə bu xalça aldı-verdisi oldu. Danışıqlarımızsa Şaxrayın ge-

niş otağında unuduldu. Axşamüstü bizi səfirliyimizin binasında uzun illərdən bəri Moskvada məskunlaşmış ziyalı soydaşlarımızla görüş gözləyirdi.

Moskvadakı səfirliyimizin iclas zalında başlayan görüş çox qızğın keçdi. İndi də, sonralar da həmişə belə gördüm. Dünyanın istənilən ölkəsində yaşayan soydaşlarımızın hər biri sanki vətəni vətəndəkilərdən daha artıq sevir. Qəriblik çəkməyən öz yurdunun qədrini axıra qədər bilməz. İşləri, sərvətləri, yerlilərlə əlaqələri olsa da, onlar çox yaxşı bilirlər ki, ayaqlarının altı möhkəm deyil. Qərib dövlətindən narazı ola bilər, amma vətənindən heç zaman. Moskvadakı soydaşlarımızın da bir gözü doğulduqları məmləkətdədir. Hər birinin içərisində inam var ki, bir gün Azərbaycana dönəcəkdir. Heç şübhəsiz, çoxu neçə dəfə buna cəhd edib. Ancaq heç kəs boş əllə vətənə dönmək istəmir. Şans arayır, hey istəyir ki, özünü toplasın, həyatını səhmana salsın. Ancaq vaxt qatarı çox sürətlə keçib gedir. İllər, aylar, imkansızlıqlar onları yadlaşdırmaqda davam edir.

İclasda çıxış edən soydaşlarımız Azərbaycanın müstəqillik qazanmasını, hakimiyyətə milli qüvvələrin gəlməsini ürəkdən alqışlayırlar, etibarsız Moskva ilə (*indiki Moskva çox qorxuludur*) birdəfəlik üzülüşmək üçün fürsətin yetişdiyini açıq-açığına bildirirlər. Arada mən də söz alıb, ayaq üstə çıxış edirəm. Odlu-odlu danışmaqla xaricdəki bütün soydaşlarımızı vətənə qayıtmağa, öz işlərində davam etmək istəyənləri isə müstəqilliyimizə kömək əllərini uzatmağa çağırıram. Bir də görürəm ki, yanında oturduğum Müşavir pencəyimin ətəyindən aşağı çəkir, yəni, bəsdir, boşboğazlıq eləmə, otur. Ayılıram ki, deyəsən, həddimi aşmışam. Axı, vəzifəm kiçik olsa da, Prezident Aparatının işçisiyəm, rəsmi adamam, danışığıma sərhəd qoymalıyam. Müdirim sonda mövqeyimizi dəqiqləşdirərək deyir:

– Bu gün Azərbaycan Respublikasının Baş naziri Pənah Hüseynovun başçılıq etdiyi nümayəndə heyəti də Moskvadadır. Gəlişin əsas məqsədi Rusiya hökumətinin müvafiq strukturlarının rəhbərləri ilə görüşüb, qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etmək, niyyət protokolları imzalamaqdır. Biz isə (*o "biz"in içərisində mən*

*də varam*) Milli siyasətlə məşğul olan rusiyalı həmkarlarımızla söhbətlər apardıqdan sonra moskvalı soydaşlarımızın arzu və istəklərini dinləmək üçün sizinlə bir araya gəldik.

Baxışlardan, üzlərin ifadələrindən aydın hiss elədim ki, Dövlət müşavirinin çıxışı salondakıların damağını islatmadı.

İclasdan sonra soydaşlarımızdan bir neçəsi ünvanımı götürəcək, sonra Bakıya gələndə mənimlə Prezident Aparatında görüşəcək, konkret iş təklifləri eşitməyib, yenə əlləri ətəklərindən uzun halda qürbətdəki ailələrinin, işlərinin üstünə qayıdacaqdılar.

İclasdan çıxıb nömrəmə qayıtdıqdan təxminən on beş dəqiqə sonra telefon zəng çalır. Dəstəyi qaldırıram, Müşavirdir.

– Tez hazırlaş – deyir, – çıxırıq. Daha sabaha qalmırıq. İndicə Pənah bəylə danışdım. Nümayəndə heyətimizin xüsusi təyyarəsilə Bakıya qayıdırıq.

Əlavə geyimlərimi çamadanıma təpişdirib, yüyrək mehmanxananın foyesinə enirəm. Beş dəqiqədən sonra artıq yoldayıq.

Qaş qaralıb, "Vnukovo" hava limanına sarı şütüyürük. Bəlkə də, dünyada nadir hadisələrdən biri baş verir: Baş nazir xüsusi təyyarəsinə onun nümayəndə heyətinə daxil olmayan hökumət adamlarını da mindirir. Rəsmi protokol pozulur, deməli, yeni hökumətin ilk aylarda göstərdiyi sadəlik və mehribançılıq hələ tükənməyib.

Mindiyimiz "Tu-134"-ün içərisi fərqlidir. Təyyarə uzununa iki yerə bölünüb. Stüardessa məni arxa tərəfdən sağda cərgələnmiş tək oturacaqlardan birinə əyləşdirir. Qabaq arakəsmə ilə bağlıdır. Sol tərəfimdə kabinələrdi, qapılarındakı yazılardan bilinir ki, texniki heyət üzvləri üçündür. Baş nazir gözə dəymir, yəqin öz çevrəsilə təyyarənin ön hissəsindəki geniş salonda əyləşib.

"Azal" şirkətinin prezidenti Ədalət Əliyevin qəzetdə müsahibəsini oxumuşdum. Jurnalistin sualına cavab verib bildirirdi ki, "Azal"ın əlli təyyarəsi var. Onlardan birinin içərisi xüsusi təyyarə kimi quraşdırılıb. Bu hava nəqliyyatından Respublikanın Prezidenti, Baş nazir, Milli Məclisin sədri xarici səfərləri zamanı istifadə edir. İndi mindiyim bu təyyarədə yaxın gələcəkdə, 4 iyun Gəncə qiyamından sonra hakimiyyət böhranını aradan qaldırmaq üçün Elçibəy hökuməti

tərəfindən Naxçıvandan Bakıya dəvət edilən Heydər Əliyev uçub gələcəkdi.

Yenə də bu təyyarədə Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri şeçiləndən bir neçə gün sonra Azərbaycan Prezidenti Əbülfəz Elçibəy rəsmi məlumat vermədən Naxçıvana üz tutacaqdı.

Yol yoldaşlarımın üzündə heç bir məmnunluq görmürəm. Bəlkə də, yorğunluqdandır bu. Amma mənim qəlbimə sanki şeytan girib. O şeytan deyir ki, Rusiya rəsmiləri Azərbaycan iqtidarına inamsız, soyuq yanaşır, onu müvəqqəti, keçici hesab edirlər. Bakıda da son aylar böyük dövlətlərin səfirlikləri, beynəlxalq təşkilatların rəhbərləri gözləmə mövqeyindədir. Onların heç biri Azərbaycan hökumətilə hər hansı bir işə girişmək həvəsində deyil.

Deyəsən, Moskva səfərində gördüyüm yeganə faydalı iş səfirliyimizin mehmanxanasında öz yerimi sumqayıtlı uşaqlara verməyim oldu. Bu xeyirxah işin savabına Moskvadan əliboş qayıdan Baş nazirin başçısı olduğu nümayəndə heyətini də şərik edə bilərəm.

Ezamiyyətdən bir gün tez qayıtsam da, səhər işə çıxıram. Fərəhin zəngi gəlir. O, artıq iş nömrəmi bilir. Hal-əhval tutduqdan sonra deyir:

– Dünən axşamdan cəbhədə sakitçilikdir, yaralı gətirilməyib. Səhərin duru vaxtında sənə bir məsələni açmaq istəyirəm.

– Buyur görüm! – dillənirəm.

– Hospitalda yatan bir kapitanla tanış olmuşam. Yarası elə də ağır deyil, sağalır. Yenə orduya qayıtmaq istəyir. Buralıdır. Keçən il kənddəki evlərinə “Qrad” mərmisi düşüb. Yazığın arvadı, bir uşağı, atası, anası yanıb külə dönüb. Adı Xanoğlandır. Xanoğlana təsəlli, ümid verə-verə, yarasının sarğısını vaxtlı-vaxtında dəyişə-dəyişə, ona mehr salmışdım. O da mənə möhkəm bağlanıb. Deyir səndən başqa heç kəsim yoxdur. Dünən mənə evlənmək təklif etdi...

Məndə qısqanclığa oxşar bir hiss baş qaldırır. Fərəhin pauza verdiyini görüb soruşuram:

– Xanoğlanda ona oxşar nəsə var?

Fərəh eyhamımdan incimir. Sanki sualımın cavabını hazırlayıbmış. Dərhal dillənir:

– Xanoğlan Hərbi Akademiyanı bitirib, əsl hərbçidir. Ona da (*keçmiş ərini deyirdi*), sənə də heç bənzəməz. Hisslərini cilovlamağı bacarır.

– Xanoğlana "hə" demək üçün məndən icazə alırsan?

– Yox, xeyir-duanı istəyirəm. Birinci dəfə ərə gedəndə valideynlərim də, sən də, başqa birisi də mənə xeyir-dua verməmişdi. Ona görə nikahım uğursuz oldu. Bu dəfə doğmalarımın, yaxınlarımın razılığı, alqışı olmadan ərə gedən deyiləm.

– Fikrin qətidir?

– Hə! Ara sakitləşsin, evlənəcəyik.

Qısqanclqdan xeyrxahlığa keçirəm:

– Allah sizi xoşbəxt eləsin! Toyuna məni çağıracaqsan?

Fərəh ciddi cavab verir:

– Belə qərarlaşdırmışıq ki, toy etməyək. Onun da toyu olub, mənim də. Evlənməyimizə şahidlik üçün beş-altı nəfərlik şadyanalıq məclisi düzəltsək, bəsdir.

Fərəhlə telefonda sağollaşırıq. Yenə də hər nə olsa, xoş xəbərdir. Lakin mən siyasi, hərbi qələbə xəbərlərini eşitmək tamarzısıyam. Qardaşım Qara döyüş yoldaşlarının qəhrəmanlıqlarından danışanda ürəyi köksünə, dili ağzına sığmır. Bunlar epizodik mövqe üstünlüyüdür. Yaralanan, ölən, yuxusuz, yarıac-yarıtox vuruşmaqda davam edən əsgərlərimiz bizə qələbə bəxş edə bilmirlər.

İsgəndər Həmidovun istefasına çağırışlar keçən aydan başlamışdı. Onun Az.TV-də birbaşa yayımlanan "Sözün açığı" verilişi gedə-gedə corabsız, yüngül ev ayaqqabısında studiyaya soxulub "Tüpürüm sizin üzünüzə! Kəlbəcər əldən gedir!" (*Həmin gün Ermənistan ərazisindən Kəlbəcərə hücüm başlamışdı*) deyərək iştirakçıları pərən-pərən salması, proqramı pozması daxili işlər nazirini dalana dirəmişdi. Bu hadisəni səbəb kimi götürən Milli İstiqlal Partiyasının sədri Etibar Məmmədov martın 30-da "Azadlıq" meydanında ümumrespublika mitinqi elan etmişdi. Məşhur şəxslərin, Respublika Elmlər Akademiyasının on altı həqiqi və müxbir üzvünün, səkkiz mədəniyyət və incəsənət xadiminin, qırx bir professorun imzaladığı üsyankar müraciət Azərbaycan xalqına ünvanlanmışdı

və "Millət" qəzetində çap olunmuşdu. Müraciətdə deyilirdi: "Respublikamız qanunsuzluğun, hərc-mərcliyin hökm sürdüyü, insan hüququnun pozulduğu, xalqın güzəranının dilənçilik səviyyəsinə yaxınlaşdığı, iqtisadiyyatı tənəzzül etmiş bir ölkə vəziyyətinə düşmüşdür. Hökumət idarələrini bürümüş rüşvətxorluq, qohumbazlıq, yerliçilik, iyrənc əlamətlərin tamamladığı səriştəsiz kadr siyasəti, mənəvi dəyərlərin aşınması kimi dözülməz hallar xalqın gənc, müstəqil dövlətimizə inamını sarsıtmaq təhlükəsi yaratmış, onda mənəvi düşkünlük formalaşdırmağa başlamışdır. Respublikadakı iqtisadi, hərbi, sosial və siyasi vəziyyət getdikcə pisləşir, cəbhədəki uğursuzluqlar davam edir, ən say-seçmə oğullarımız qurban getsə də, torpaqlarımız hələ də işğal altındadır.

Hökumət məmurlarının onları çiynində hakimiyyətə gətirmiş xalqa qarşı saymazyana, kobud rəftarı, xüsusilə daxili işlər naziri İsgəndər Həmidovun "Aydınlıq" və "Ayna" qəzetlərinin əməkdaşlırını, martın 27-də isə "İstiqlal" qəzetinin redaktoru Zərdüşt Əlizadəni döyməsi *(İsgəndər Həmidov "öz adamları ilə "İstiqlal" qəzetinin redaksiyasına hücum çəkmiş, baş redaktor Zərdüşt Əlizadənin boynunun ardından yapışaraq kabinetindən çıxartmış və gətirib binanın giriş qapısının ağzında gözləyən "Jiquli"nin yük yerinə basaraq, Daxili İşlər Nazirliyinin binasına apartmışdı, spiker İsa Qəmbərin, xarici işlər naziri Tofiq Qasımovun xahişilə üç saatdan sonra azad etmişdi. Mətbuat qoçuluq etdiyinə görə onu qınayanda nazir özünə belə haqq qazandırırdı: "Mən nazir kimi yox, İsgəndər Həmidov kimi hərəkət etmişəm, ailəmin şərəfini qorumuşam!"*

*Daxili işlər naziri "Ailəmin şərəfini qorumuşam!" deyəndə nəyi nəzərdə tuturdu? Zərdüşt Əlizadə bir gün əvvəl "İstiqlal" qəzetində çap etdirdiyi çaynvordun açmasının tapılması üçün bu suala cavab verilməliydi: "O iki qardaş kimlərdir ki, biri Tərtərdə vəzifəsini əldən verməməkdən ötrü "kürd" olub, digəri Bakıda nazir postunu qorumaq üçün özünü "türk" adlandırır? Dövlət Katibi Pənah Hüseynov qəzeti oxuyub İsgəndər Həmidova zəng vuraraq onu qızışdırır: Çaynvorda görə, guya sənin ananın iki əri olub!"*), elə həmin gün televiziyanın "Sözün açığı" verilişində hökumət üzvlüyü ilə bir

araya sığışmayan hərəkətləri açıq-aşkar vətəndaş qarşıdurmasına gətirib çıxarmaq ərəfəsindədir və bu təhlükəli vəziyyət Vətənimizin taleyinə laqeyd qala bilməyən ziyalılar kimi bizi həyəcanlandırmaya bilməz.

Respublika rəhbərliyinin, Prezidentin nəzərinə çatdırmağı özümüzə borc bilirik ki, bu cür dərəbəylik siyasətinin onlar tərəfindən sükutla qarşılanması və heç bir ölçü götürülməməsi bir tərəfdən belə halların artmasına gətirib çıxarırsa, digər tərəfdən toqquşmalara, vətəndaş itaətsizliyinə səbəb ola bilər.

Bütün bunları nəzərə alaraq Prezidentdən müqəddəs Qurani-Kərimə və Konstitusiyaya əl basaraq içdiyi anda əməl etməyi, Azərbaycan Respublikasının mənafeyi naminə öz siyasətində təcili surətdə ciddi dəyişikliklər aparmağı, nüfuzdan düşmüş vəzifəli şəxsləri istefaya göndərməyi, xalqın etimadını qazana biləcək hökumət yaratmağı tələb edir, xalqı isə bu tələbi müdafiəyə çağırırıq!!!"

Başqa müxalifət qəzetləri də bu səpkili müraciətlərlə, bəyanatlarla dolu idi. Sanki hamısı bir mərkəzdən idarə olunurdu. Bütün çağırışlarda "vətəndaş qarşı durması, vətəndaş itaətsizliyi ifadələri, istefa tələbləri, xalqın etimadını qazana biləcək hökumət yaratmaq" fikirləri təkrar-təkrar xatırlanırdı.

Hakimiyyətin tərəfində duran qurumlar birgə bəyanat yayaraq xalq arasında nüfuzu aşıb-daşan Etibar Məmmədova vətəndaş sülhü naminə mitinqi dayandırmağı təklif etdilər. Əvəzində Prezidentlə görüş və onun Az.Tv-dən xalqa müraciət şərti qəbul olundu. Əslində, Etibar Məmmədovun sədri olduğu AMİP-in Siyasi Şurası İsgəndər Həmidovun törətdiyi özbaşınalıqdan iki gün əvvəl, martın 25-də keçirdiyi iclasda qərara almışdı ki, 1993-cü il aprelin 5-dən etibarən kütləvi siyasi tədbirlərə başlansın (*mitinq onun silahı idi*). Bəlkə də həmin qərar və partiyanın fəalları ilə millətin gözü qabağında – yəni mavi ekranda teledebata çıxan Dövlət Katibi Pənah Hüseynovun deyişməsi daxili işlər naziri kimi İsgəndər Həmidovu özündən çıxartmışdı. Vaxtilə "Mübarizəyə Əbülfəz bəyin məsləhəti ilə qoşulmuşam" deyən Etibar Məmmədovun çıxış üçün televiziyaya buraxılması üzvü olduğum iqtidarın çürüklüyünün son göstə-

ricilərindən idi. İçimdən qara qanlar axırdı. Bu qədər də kəsərsizlik olmazdı.

O, efirdə Prezident Elçibəylə söhbətinin təfsilatını söyləyirdi. Etibar Məmmədovun çıxışından belə çıxdı ki, Elçibəyə meydan oxuyurmuş. Ondan daxili işlər nazirinin istefaya göndərməsini tələb etməklə (*partiyası adından*) yanaşı, Prezidentdən on aylıq fəaliyyətlə bağlı hesabat istəyib. Daha sonra Parlamentə yeni seçkilərin keçirilməsini, hökumətin buraxılmasını onun boynuna qoyubmuş.

Hətta bəyan edirdi ki, Prezident sabah Milli Məclisdəki çıxışında onun dediklərini təsdiqləyəcək.

Ölkədəki gərgin vəziyyəti nəzərə alaraq, Müsavat Partiyası üzvlərinin kollektiv şəkildə Azərbaycan Xalq Cəbhəsinin sıralarına keçməsi ideyasını dəstəkləyənlər məyus oldular. Çünki Ali Sovet sədrinin başqanı olduğu Müsavat Partiyasının Divanı növbəti iclasda birləşmə fikrini rədd etdi. Elə həmin iclasda İsgəndər Həmidovun bir neçə gün qabaq jurnalistlərə etdiyi zorakılığa qarşı bəyanat verildi. Bəyanatda Sosial Demokrat Partiyasının sədri Zərdüşt Əlizadənin baş redaktoru olduğu " İstiqlal" qəzetinin səhifələtində kobud, təhqiramiz yazıları pisləndi. Etibar Məmmədovun sədrlik etdiyi Milli İstiqlal Partiyasının kütləvi siyasi tədbirlərə çağırışları cəmiyyətdə qarşıdurmanı dərinləşdirmək, sabitliyi pozmaq cəhdi kimi qiymətləndirildi və bildirildi ki, Azərbaycanda demokratik hüquqi dövlətin yaradıldığı, cəmiyyətdə siyasi dialoq mədəniyyətinin qurulduğu bir dövrdə İsgəndər Həmidovun siyasi opponentlərə qarşı artıq adət etdiyi üsullardan yararlanması dözülməzdir, ölkədə insan hüquqlarının təminatçısı kimi çıxış edən Prezidentin hakimiyyətinə zərbədir. Bəyanatın sonunda Müsavat Partiyası tələb edirdi ki, siyasi xadimlərə, mətbuat işçilərinə edilən zorakılığın qarşısı alınsın, bu cür hərəkətlərin təkrar olunmaması üçün ciddi tədbirlər görülsün.

Fürsət düşən kimi liderlərin hər biri üzə çıxmaq üçün o birilərini ittiham və çıxdaş etməyə, cəzalandırmağa hazır idi.

Gördüyüm işlər bir qarışqa işi olsa da, hər halda boş durmuram, hərəkətdəyəm. Ən azından cəmiyyətdə, evdə, ətrafımdakılara təsir etməyə çalışıram. Əgər Ali Sovetin sədri İsa Qəmbər "AMOKO" şirkətinin təyyarəsində Birləşmiş Ştatlara uçub, bu ölkənin siyasi dairələrilə, neft maqnatları ilə Azərbaycan neftinin dünya bazarına çıxması ilə bağlı rəsmi danışıqlar aparırsa, Baş nazir Pənah Hüseynov Böyük Britaniyaya yollanıb, əməkdaşlıq barədə niyyət protokolları imzalayırsa, xarici işlər naziri Tofiq Qasımov verdiyi müsahibədə dediyi kimi, Yunanıstana səfərə hazırlaşırsa, iqtidar partiyaları müxalifət partiyalarının hücumundan müdafiə, müxalifət partiyaları və onların orqanları olan qəzetlər Elçibəy hökumətinə qarşı həmləyə hazırlaşırsa, Qarabağ, Qazax, Tovuz, Gədəbəy cəbhələrində ölüm-dirim savaşı gedirsə, bizim müşavirliyin on nəfərlik heyəti də öz vəzifə borclarını yerinə yetirməklə məşğuldur. Yenə də milli azlıqların şikayət məktublarını yerində araşdırmaq üçün aidiyyəti üzrə Qubanın, Qusarın, Xaçmazın, Zaqatalanın, Balakənin, Lənkəranın, Astaranın yollarında qalmışam.

Yaddaşım məni aldatmırsa, uşaqlıqda ya Məşədi Zeynəb nənəmdən, ya da onunla dərdləşməyə gələn Həvva arvaddan eşitmişdim: "Yuxu görənin deyil, yozanındır".

İndi yuxu kimi baş verən hadisələri hərə öz ağlına, dünyagörüşünə görə yozurdu. Mənimsə elə bil başım daşdan-daşa dəydikcə, üzüm bərkiyirdi.

Anamın baş verən peşmançılığa necə də gözəl yanaşmaları vardı. Əlim fincana toxunub çayı dağıdanda, deyirdi aydınlıqdır, paltarım məktəbdə ilişib cırılanda deyərdi, yaxşı ki, özünə bir şey olmayıb, pul itirəndə deyərdi qada-balanı aparıb. Belə məsələlərdə atam da anamın səsinə səs verirdi. Bir işə başlamaq istəyəndə, səfərə çıxhaçıxda kimsə asqırıb tək səbir gətirirdisə, atam deyərdi ki, sınamışam, tək səbir bizə düşür. Asqıran ikinci səbri guppuldadanda isə atam "Yaxşı gəldi" deyib, hərəkət edərdi.

Sonradan araşdırdım, 1993-cü ilin 4 iyun Gəncə qiyamı barədə 5 iyun qəzetlərində bir kəlmə də yazılmayıb. Qəzetlər bir gün əvvəl çapa imzalandığına görə hadisəni xəbər verməyə gecikirlər. Televi-

ziya isə bilə-bilə susurdu, baş vermiş hadisəni ictimaiyyətə necə çatdırmaq barədə respublika rəhbərliyinin qərarını gözləyirdi.

Nəhayət, xəbər yayıldı, ləğv edilməsi haqda qərar qəbul edilən 709-cu polk, keçmiş korpus komandiri Surət Hüseynov və indiki zabit heyəti silahları təhvil-təslimdən boyun qaçırıb, əsgərləri qiyama qaldırıblar. Qiyam cəmiyyəti çalxalandırdı və hamının gözləri dörd oldu, qulaqları şəklənib ölçüsünü dəyişdi.

Baş verən hadisə Prezident Aparatında işləyən köhnələrin vecinə deyildi. Yenilər isə təşvişə düşmüşdülər. Hamını Surət Hüseynov maraqlandırırdı. İnsanlar onu daha yaxından tanımaq istəyirdilər. Ötən ilin sonunda Qarabağda Ağdərədən qoşunu geri çəkməklə böyük qalmaqal yaradanda adını çox eşitsəm də, üzü, görkəmi yadımda deyildi. Həyat qəribədir, bir adam qəfildən məşhurlaşanda, yüksək vəzifəyə seçiləndə və yaxud təyin olunanda, vəzifədən çıxarılanda, istefa verəndə, öləndə, bir sözlə, günün qəhrəmanı olanda hər kəsin o adamla bağlı yaddaşının künc-bucağında təzə, nimdaş, toz basmış ya vacib, ya da heç bir ictimai, estetik, əxlaqi dəyəri olmayan xatirələri baş qaldırır. Az görmüşükmü, biri yüksək mövqe qazananda onu tanıyanlar fəallaşırlar, özünü həmin adama yaxın, məhrəm adam kimi qələmə verirlər. Tay-tuşları onun uşaqlığını, gənclik dostları gəncliyini, iş yoldaşları üstünlüklərini, qonşuları yaxşı xasiyyətini, ovçuluğu varsa, "silahdaşları" sərrast atəş açmasını, futbol oynadıqları oyununu, yeyib-içəndirsə, həmsüfrələri məclisə yaraşıq verməsini..... arxasını zəhmət olmasa, özünüz sadalayın, yada salırlar.

Bir adam mövqedən gedəndə isə məclislərdə onun bütün kəm-kəsirlərindən, nöqsanlarından, səhvlərindən, hətta cinayət hesab etdikləri əməllərindən danışırlar. Vay o adamın halına ki, haqqında kralın, sultanın, kanslerin, prezidentin siyasi qərarı ola. Onda həmin adamı quru yurdda qoyurlar.

İnsan, xüsusilə az və ya çox tanınmış insan canını tapşıranda... Bizimki kimi ölkələrdə adam vəzifə başında öləndə daha şərafətli olur.

Ölümü qoyaq bir tərəfə. Bir neçə gün qabaq Gəncədən general Şerbakın başçısı olduğu Rusiya hərbi hissəsi çıxarılıb Gürcüstana

göndəriləndə çox sevinmişdim, “vətənpərvər” atama zəng vurub gözaydınlığı vermişdim. Atam qəribə cavab vermişdi: “Sən bu xəbərə sevin, mən sevinməyimi sonraya saxlayıram. Bu işin içindən bir zibil çıxmasa, yaxşıdır”.

General Şerbakın dostu, onun çoxlu silah-sursat, hərbi texnika satdığı Surət Hüseynov (*Gələcəkdə onlar Rusiyada bağ qonşusu olacaqdılar)* baş qaldıranda atamın cavabı yadıma düşmüşdü.

Tariximizdə sonuncu siyasi qiyam da 1920-ci ildə Gəncədə olmuşdu. Azərbaycanı yenicə işğal etmiş bolşeviklərə qarşı Milli hökumətin hərbçilərinin qiyamı.

Düzü, Surət Hüseynovun özünü necə göstərəcəyini, daha hansı addımlar atacağını gözləyirdim. Bəlkə, doğrudan da, xilaskardır? Tarixdə o qədər ədalətsiz, yarıtmaz hakimiyyətə qarşı çıxan xalq qəhrəmanı olub ki... Surət Hüseynov da onlardan biri idimi? Ancaq hər saat gərginliyə doğru dəyişən vəziyyəti gördükcə fikrim haçalanırdı.

Keçmişdə şahlar ova yollananda qabaqda gedən quşuçurdanlar quşları yuvalarından perikdirib havaya qaldırarmış ki, şah ovunu rahat ovlasın.

İndi Bakıdakı “quşuçurdanlar” hamısı özünü Gəncəyə vermişdi. Təsəvvür edin, 1988-ci ildən üzü bəri, Qarabağ hadisələrinin başlaması ilə mübarizə meydanına girmiş, lakin hələ mövqe qazanmamışlar, yaxud vəzifə tutmuş və sonradan işdən kənarlaşdırılmışlar, arxa planda qalmaqdan yorulmuşlar, siyasi avtoritetlər yenidən səhnəyə çıxıb. Rəhim Qazıyev, Nemət Pənahlı, Etibar Məmmədov Surət Hüseynovun sağında, solundadırlar. Hələ heç kəs qiyamçını sakitləşdirməyə çalışmır. Gedən-gedən “Vur, gəldim!” deyir. Bozqurd Partiyasının tərəfdarları Prezident Aparatının qarşısında mitinq düzəldiblər. Onlar Prezident Elçibəydən İsgəndər Həmidovun yenidən daxili işlər naziri vəzifəsinə təyin olunmasını tələb edirlər. Meqafonla çıxış edənlər Surət Hüseynovun adını çəkməsələr də, ölkədəki qarışıqlığın ancaq İsgəndərin əlilə yatırtmağın mümkün olacağını bəyan edirlər.

İqtidar qətiyyət göstərmir. Səlahiyyət sahiblərindən heç biri qabağa durmağa cəsarət eləmir. Gəncəni hökumət qoşunları mühasirəyə

alsa da, onlar bir günün içində başıpozuq dəstəyə çevrilirlər. Prezident qvardiyasının əsgərlərini avtobusda gülləyə tuturlar. Prezident Elçibəyin mühafizə alayının komandiri Tahir Məmmədov da öldürülənlər arasındadır.

Tahir Məmmədovla salam-kəlamım vardı. Keçən ilin martında Antalyaya, Türk toplumlarının qurultayına gedəndə onun dəstəsi bizi müşayiət edirdi. Binə aeroportunda xüsusi gözləmə otağına yığışmışdıq. Birdən kimsə bağlı qapını çöldən döyməyə başladı. Tahir Məmmədov vəzifəsinə uyğun olaraq qapını döyəndən soruşdu:

– Kimsiniz?

Qapı arxasındakı həyəcanla dedi:

– Özünüzünküyəm, açın!

Tahir sualını təkrar etdi.

Cavab eyni oldu.

Tahir səsini qaldırdı:

– Adamı elə özününkülər öldürür də, yad öldürmür ki?!

Bu cavabdan sonra qapı arxasındakı adını deməyib uzaqlaşdı. Bəlkə də adı nümayəndə heyətinin siyahısında olmayanlardan idi.

İndi ucaboy, lay divara oxşayan Tahir Məmmədovu öncəgörməsinə uyğun öldürmüşdülər.

Prezidentin Gəncəyə göndərdiyi Baş Prokuror İxtiyar Şirinov və Milli Təhlükəsizlik Komitəsinin sədr müavini Sülhəddin Əkbərov Surət Hüseynovun əmri ilə həbs edilmişdi. Hətta söz buraxmışdılar ki, Baş Prokurora Prezident Əbülfəz Elçibəyin həbsi barədə sanksiya çıxartdırmışdılar.

Milli Məclisdə isə deputat Etibar Məmmədov iqtidara hər dəqiqə yeni ittihamlar yağdırır. Spiker İsa Qəmbərə hücuma keçir: “İsa, sənin əllərin qana batıb!” İsa Qəmbər ona “Elə eləmə, Şuşanın verilməsinin sirrini açım!” deyincə, Etibar bəy bir müddət mumlayır.

Ziyalılar, deputatlar məsləhət-məşvərət üçün dəstə-dəstə Prezident Elçibəyin yanına gəlirdilər. Ancaq sadəcə Prezidentin psixoloji durumunu öyrənirdilər, təsəlli, ümid verirdilər, işin axırının xeyirlə qurtarmasını arzulayırdılar. Bəlkə gələnlərin arasında Surət Hüseynovu susdurmaq üçün qətiyyətli, konkret addımlar atmağı təklif

edənlər də vardı. Ancaq Prezident Əbülfəz Elçibəydən səs çıxmırdı. Deyilənə görə, görüşlər zamanı arada sükut fasilələri yaranırmış. Gələnlər məlul-məlul Prezidentə baxırmış, Prezident gələnlərə. İlk dəfə ali kabinetdə olanlardan Prezidentin geniş şəraitinə, iş stoluna, kreslosuna, telefonlarına tamaşa etməyə başı qarışanlar da olurmuş. Həmkarları ilə həmin qəbullardan birində olmuş tanış professor Şamil Qurbanov görüşdən sonra kabinetimə gəlib mənə gileyləndi (*biz gecə yarısına qədər işdə olurduq*):

– Elçibəyə yazığım gəldi. Təsəvvür edirsən, o boyda Prezidentin mərtəbəsində çayımıza salmağa beş-altı qıça limon tapılmadı.

Şamil müəllimi deyəsən, acıladım: "Siz də qiyam vaxtı Prezidentin qəbulunda limon hayındasınız?!"

O, incik-incik dodaqaltı nəsə mızıldandı. Dediyi anlaşılmadı.

Bir neçə ay qabaq Elçibəy Prezident kimi ölkənin əlini-ayağını bir yerə yığa bilməyəndə dedi-qodular başladı. Onda hələ otuz ildir Bakıda məskunlaşmış Elçibəyin evi yox idi, qardaşının mənzilində yaşayırdı. Onun bir qaxıncı da bu olmuşdu: "Özünə ev-eşik qurmayan adam xalqa nə gün ağlayacaq?"

Ancaq Kremldə çalışarkən Moskvada yaşamış Heydər Əliyev bildirəndə ki, Bakıda evim yoxdur, özünə qarşı rəğbəti daha da artırdı. Demək, eyni vəziyyətə düşmüş qalib və məğlub haqqında müxtəlif cür düşünürlər. Evi olmadığı üçün biri bivec, o biri gözütox sayıla bilər.

Surət Hüseynovun ağlının ucundan keçməyən bir hadisə baş verdi, Heydər Əliyev Bakıya dəvət olundu. Prezident Elçibəyin və hakimiyyətdəki əsas fiqurların təkidli xahişlərindən sonra Heydər Əliyev iyunun 13-də Bakıya gəlib, Milli Məclisdə Ali Sovetin sədri seçilmək üçün namizəd göstərilsə də, qiyamçı polkovniklə görüşməkdən ötrü Gəncəyə yollandı. Vaxtilə Azərbaycanın rəhbəri olmuş, indi akademik İmam Mustafayevin (*O, bir il qabaq "Qayğı" Cəmiyyətinin sədri kimi xalqı AXC ətrafında birləşməyə çağırmışdı*) sədrliyi ilə yaradılan Dövlət Komissiyası Gəncədə baş vermiş hadisələrin səbəbini araşdırıb, Milli Məclisdə oxunmaqdan ötrü məruzə hazırlayacaqdı.

Gəncə ətrafından hökumət qoşunları götürülüncə Surət Hüseynovun dəstələri bir ucdan rayon mərkəzlərini zəbt etməyə başladılar. Onların işi yalnız İcra hakimiyyəti başçılarını qovmaq, onların yerinə rayonda az-çox hörməti və yaxud sürətçilərlə tanışlığı, əlaqəsi olanları oturtmaq idi.

Surətçilər tutduqları şəhər və rayonlarda milis rəisinə, prokurora, hakimə, hərbi komissarlara hələlik toxunmurdular.

Heç yerdə təmtəraqla, atəşfəşanlıqla qarşılanmırdılar. Çünki insanların canında nə təmtərağa, nə də atəşfəşanlığa hey qalmışdı. Onlara müqavimət də göstərən yox idi. Moskvada, Bakıda son illərin hakimiyyət kəsərsizliyi, siyasi oyunlar, qaçqınlıq, müharibə, əlin-ayağın işdən soyuması, yoxsulluq adamları laqeyd eləmişdi. Sadə xalq içərisindən çıxanların hakimiyyətinin süqutu, yenidən ümidlərin Heydər Əliyevə bağlanması, bu tərəfdən də hərbi gücü, qüdrəti yüz dəfələrlə şişirdilən Surət Hüseynovun peyda olması çaşqınlıq yaratmaqda idi.

Surətçilər rayon mərkəzlərinə gecələr hərbçilərlə dolu bir-iki hərbi maşınla girirdilər. Bəzən böyürlərində mülki şəxslər də olurdu.

Onlara bizim rayonda, deyəsən, Babayar bələdçilik eləmişdi. Çünki Babayar öz kərgədana oxşayan "Ural"ı ilə bizim qapıya gəlib Surət Hüseynovun adından atama Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini təklif etmişdi. Yanında bir mayor da varmış. Yəqin Surətin özünə, – Babayarın Surət Hüseynovu şəxsən tanımaması mümkün deyildi, özü demişkən, kölgəsini kölgələrə qarışdırmağı bacaran oğlandır – adamlarına atamın bu vəzifəyə namizədliyini elə Babayar vermişdi.

Atam Babayar kimi küyə düşməzdi. Surət Hüseynovun elçilərini inandırmağa çalışır ki, İcra Hakimiyyətinin başçısı Respublika Prezidentinin sərəncamı ilə təyin olunur. Ancaq Babayar dediyinin üstündə durur:

– A kişi, nə sərəncam, nə Prezident?! İndi Respublikada bütün məsələləri Surət lələ həll eləyir. Elçibəy bugün-sabahlıqdır. Ol icra başçısı, bizə də "görüm-baxım" eləyərsən. Sənin üçün şahlıq quşu gətirmişəm – doğrudan da, məzəli Babayar ərinməyib hardansa tap-

dığı oyuncaq plastmas bir quş fiqurunu cibindən çıxardıb, atamın sol çiyninə "qondurur" – ancaq sən (*Babayar həmişə atamla ərklə danışırdı, indi isə bu ərkə hökm də əlavə olubmuş*) şadlığına şitlik eləyirsən.

Atam dediyindən dönmür, Babayargili qonaq-qara üçün ehtiyat saxladığı bir yeşik araqla yola salır.

Həmin gecə dünənə qədər şəhərimizdə silahlı dəstəsilə qoçuluq edən adamı İcra Hakimiyyətinin başçısı kreslosuna oturdurlar və bir neçə ay bundan qabaq qəbulunda olduğum Başçını, özləri demişkən, "dalından bir təpik" vurub qovurlar.

Sonralar rayonlara ezamiyyətə gedərkən "sərəncamsız" icra başçılarına qonaq olurdum, onları söhbətə çəkirdim. İdarəetmədən uzaq, vulqar hərəkətləri barədə eşitdikdə təəssüflənirdim. Surət Hüseynov Baş nazir olan vaxt onların yerişləri diri idi, pəncələrini yerə möhkəm basırdılar. Ayaqlarının altında saqqa qoz qalsaydı, qırılıb xıncım-xıncım olardı.

Surətçilərin qabağını kəsmək üçün hökumət qoşunları Navahıda səngər qazıb, onların yolunu gözləyirdi. Onların bir hissəsi Bakıdan aparılmışdı, bir hissəsi də Qarabağ cəbhəsindən gətirilmişdi. Qara da müdafiəçilərin arasında idi. Bir bölüyə rəhbərlik edirdi. Qardaşım bir gecə gəlib, atama baş çəkmişdi. Atam telefonda mənə danışdı ki, Qara deyir, özbaşına qalmışıq, komanda gözləməkdən gözümüzün kökü saralıb. Əsgərlər tərəddüd içərisindədir. Nə deyib, döyüşçüləri ruhlandırasan?! Arxanda tutarlı dövlət yoxdur, qarşıdan isə qardaşların üstünə gəlir.

Atam Gəncə hadisəsini çox şişirtmirdi. Onun diqqəti Heydər Əliyevə yönəlmişdi. Qiyamçı polkovnikin Bakıya yürüş edəcəyinə inanmırdı.

Atamın zənni özünü doğrultdu. Surət Hüseynov heç bir yerə qoşun çıxartmadı. Ancaq Əbülfəz Elçibəyin istefasını tələb etdiyini deyirdilər. Şayiə gəzirdi ki, prezident istefa verməsə, öldürüləcək.

İyunun on səkkizində səhərdən iş otağında idim. Saat on birə işləmiş qışqırıq eşidib dəhlizə çıxdım. Humanitar şöbənin işçisi Qələndər – soyadı yadımda deyil – dəhliz boyu o baş, bu başa şü-

tüyüb eşitdiyi xəbəri car çəkirdi. Ayağında çarıq, başında külah, əynində arxalıq olsaydı, cılız görkəmi, xırda gözləri ilə lap köhnə zamanların carçılarına birə-bir bənzəyərdi. Cır səsi dəhlizi götürmüşdü:

– Prezidentiniz aradan cırdıııııı! Prezidentiniz aradan cırdıııııı!

O, başqa dövlətin vətəndaşı idimi? Niyə "Prezidentiniz" deyirdi?

Hirsimdən titrəyirdim.

Atam iki saat sonra zəng vurdu. Məyus olmuşdu. Dedi ki, "xox" gəlib Elçibəyi meydandan qaçırtdılar.

On il keçəcək, 2003-cü ilin 27 apreli gələcək və Azərbaycanda tarixə görk olacaq bir hadisə baş verəcək. Səksən yaşlı Prezident Heydər Əliyev Respublika Sarayında otuz il qabaq, dövlətimizə rəhbərlik etdiyi birinci dövrdə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi litseyin yubiley tədbiri zamanı tribunada çıxış edərkən birdən uçunub tarazlığını itirəcək. Qoruyucular, həkimlər onu təcili səhnənin arxasına aparacaqlar. Salondakılar və bütün Azərbaycan həyəcan, təşviş içində işin axırını gözləyəcəklər. Sonradan danışıldığına görə, özünə gətirilən Heydər Əliyev heç bir həkim etirazına baxmadan səhnəyə qayıdıb, çıxışını davam etdirir.

Hamı rahat nəfəs alır, rəhbər öz sükanının arxasındadır. Azərbaycan və dünya üçün cəsarətin bir növü də kəşf olunur. Alqışlar bir-birini əvəz edir. Lakin eyforiya uzun sürmür. Prezident ikinci dəfə əlini ürəyinin üstə qoyub sustalır, büdrəyir. Həkimlər onu yıxılmağa qoymurlar, səhnə arxasına aparırlar. Sanki şedevr bir pyesin qızğın tamaşasının növbəti hissəsi başa çatır, pərdə enir.

Antik dövrdən üzü bəri hələ dünyanın heç bir teatr salonunda oynanılmamış qeyri-adi tamaşa həm səhnədə, həm də salonda canlanmaqdadır. Salondakıların arasında qışqırıb özündən gedən, təzyiqi qalxan, özünü yeyib tökən, başı sinəsinə düşən, rəngi solan, qaşqabağını sallayan, ürəyi siqaret, su istəyən nə qədər desən...

Yenə də Heydər Əliyev iynə-dərmandan sonra dikəlib ayağa duraraq, qətiyyətli addımlarla səhnəyə dönüb hamının üzünü, gözünü işiqlandırır və ölümə qalib gəlməklə çıxışını bitirib tədbir iştirakçıları ilə sağollaşır, Ali Baş Komandan kimi səhnəni tərk edir.

Heydər Əliyev bundan əvvəl 1994-1995- ci illərdə də dövlət çevrilişinə cəhd edilərkən silahlı rəqiblərindən qorxmayacaqdı. Xalqı başına yığıb qaranlıqdan keçəcəkdi.

Heydər Əliyev televiziya ilə xalqa müraciət edib, Prezident Əbülfəz Elçibəyin gecə saat üçdə Binə hava limanından əvvəlcə qeyri-müəyyən istiqamətə uçması barədə ona xəbər verilməsindən, sonra isə Naxçıvana, ordan da öz kəndi Kələkiyə qaçmasından (*deyirlər ki, Prezident xüsusi təyyarənin salonuna daxil olanda stüardessa qız heyrətlə "A... Elçibəy!" deyərək əlini əlinə vurub)* məlumat alması haqda danışdı. Və indiki gərgin şəraitdə idarəetmə ilə bağlı bütün məsuliyyəti öz üzərinə götürdüyünü bildirdi.

Ertəsi gün Ali Sovetin iclasında müxalifətçi deputatlar və müxalifət qəzetləri Heydər Əliyevin Prezident istefa verməyə-verməyə "Prezidentin bütün məsuliyyətini öz üzərinə götürməsini" ona irad tutdular. Əslində, özləri də yaxşı bilirdilər ki, məsuliyyət səlahiyyət demək deyil. İki-üç gün sonra satirik "Çeşmə" qəzeti Türkiyənin Baş naziri Süleyman Dəmirəlin adından bir lətifə düzəldib çap edəcəkdi: "Süleyman Dəmirəl Gəncə qiyamı haqda eşidincə və Prezident Elçibəyə zəng edib, onun səsindəki həyəcanı duyunca: "Kəndinə (*özünə*) gəl!" deyir. Elçibəy bunu bizim dilimizdəki kənd mənasında başa düşüb, Kələkiyə qaçır".

Qaçaq düşmüş Prezidentə görə Prezident Aparatının işçisi kimi adam xəcalətdən başını soxmağa yer axtarırdı.

Dostlar, tanışlar, qohumlar səhər telefonuma sanki növbəyə durmuşdular, az qala məndən hesabat istəyirdilər. Sualları təxminən belə idi: "Niyə qaçdı?", "Haçan qayıdacaq?" və s. Guya mən kim idim?

Lənkəran şəhərindəki hərbi kontingenti ələ alaraq özünü müstəqil "Talış Muğan Respublikası"nın rəhbəri elan etmiş Əlikram Hümbətov da bir tərəfdən baş qaldırmışdı. Lənkərandan, Astaradan, Cəlilabaddan, Biləsuvardan onun özbaşına hərəkətinə son qoyulması ilə bağlı məktublar, teleqramlar gəlirdi. Şəhər İcra Hakimiyyətinin binasını zəbt edib, oranı mərəyə çevirmiş Əlikram Hümbətovun böyük-kiçiyi saymaması, öz adamlarını vəzifəyə oturtması, ona qarşı çıxanları qanunsuz mühakimə etməsi, həbsə atması barədə özümdən

yuxarılara ötürmək üçün mənə telefon şikayətləri edib məlumat ötürürdülərsə, deməli, şikayətçilərin əlindən Prezident Aparatının bütün telefonları susmurdu.

Heydər Əliyev Milli Məclisin sədri seçiləndən sonra hamının diqqəti televiziyada birbaşa yayımlanan iclasların gedişində idi. Son illərdə ilk dəfə idi ki, ekrandan qətiyyətli, zabitəli, məntiqli danışığı ilə başıpozuqları susmağa, dinləməyə məcbur edən bir lider baxırdı. Efirdəkilərin, efirdən kənardakıların hamısı özünü yığışdırmışdı.

Sədr təcrübəli qrossmeyster kimi bir salon şahmatçını eyni zamanda üç-dörd gedişlə bir-bir mat edirdi. Liberal, nala-mıxa vuran şadmanhüseynovların uzun çıxışlarını diqqətlə və səbrlə dinləyəndən sonra yarı Naxçıvan, yarı köhnə ziyalı nəslinin şivəsində deyirdi:

– Movqenızı bildirin!

Uzun müddət Moskvada yaşamış, üç il qabaq Bakıya qayıtmış demokratik düşüncəli, ömrü boyu bütün hakimiyyətlərdə müxalif mövqedə olmuş yazıçı Rafiq Tağı kimi bir adam telefonda mənə deyirdi ki, televiziyada Heydər Əliyevin dövlətçiliklə bağlı "master-klas"larının – bu onun öz kəlməsidir – birini də keçirtmirəm, hamısına baxıram.

Öcəşib ondan soruşdum: "Deyəsən, yavaş-yavaş siyasətə qoşulursan ha?"

Rafiq Tağı konkret cavab verdi: "Həmişə siyasətin içində olmuşam. Ancaq mənim siyasətim başqadır".

Ali Sovetə namizədliyi təqdim olunub, Baş nazir seçilən Surət Hüseynov tribunaya çıxanda ona dörd gözlə baxırdıq. Bu, arxaya daranmış saçının düzümü cavanlığına yaraşmayan, arıq cüssəli bədəninə geyindiyi köynək iri ölçülü olduğu üçün yaxalıqları biri-birinin üstə çıxmış, gözlərində çaşqınlıq, üzündə qəzəb donan qiyamçı Gəncə ləhcəsi ilə "Maa belə gəlir ki, bunlar (*son illərin hadisələri*) hamsı oyundur. Ağsaqqalla (*Heydər Əliyevi nəzərdə tuturdu*) məsələləri dədə-baba qaydasında həll eləməliyik!" deyincə, söndüm. Bu da eks-spiker Yaqub Məmmədov kimi "oyun"dan danışırdı. Amma maraqlı idi: görəsən, Surət Hüseynov siyasət şahmatında özünü han-

sı fiqura bənzədirdi. Şübhəsiz Yaqub Məmmədovdan fərqli olaraq, "peşka"lığı ağlına gətirmirdi.

Qiyamçı polkovnik hələlik Baş nazir vəzifəsində ram oldu. (*Onun təyinatı ilə bağlı təəccüblənən jurnalistlərə Heydər Əliyev həmin gün üstüörtülü şəkildə dedi: "İndiki şəraitdə bu, ən düzgün qərardır!"*)

Baş nazir öz vəzifəsinə uyğun olmadığını elə ilk günlərdən göstərəcəkdi. O, eks-spiker İsa Qəmbəri tutduracaq, (*İsa Qəmbərin eyhamlı atmacaları vardı, məhkəmədə hakimə deyəcəkdi: "Məhkəməni çox uzatdınız, hakimi, ittihamçı prokuroru dəyişdiniz. Müttəhimi də dəyişin, məsələ bitsin!"*) bir neçə yüksək vəzifəli şəxsi işdən azad etdirəcəkdi. Lənkəranda baş qaldırmış özü kimi polkovnik, separatçı Əlikram Hümbətovun qonağı olub, onunla uğursuz danışıqlar aparacaq, hər həftənin sonunda böyük kortejlə Gəncəyə gedəcək, nəhayət, Heydər Əliyevlə ittifaqa girdiyinə peşmanlayıb yenidən qiyam qaldırmağa cəhd edəcək, ancaq uduzaraq bütün səlahiyyətini və hökmünü itirib, ölkədən gizlin qaçacaqdı. Mühacirətdə tanınmamaq üçün bığ buraxsa da, saçının yatımını, qiyafətini dəyişsə də, illər sonra həbs edilib qolu qandallı Azərbaycana gətiriləcək, türmədə yatacaq, əfv edilincə Avropaya köçəcəkdi.

Heç kəsin o qədər də ciddi baxmadığı qiyamçı polkovnik Əlikram Hümbətov isə Lənkəranda öz "Talış Muğan Respublikası" ilə bünövrəsiz divar kimi bir təkanla uçub-dağılacaqdı.

Siyasi buz zolağına düşüb, biri-birinin ardınca "vəzifəsini donduran" AXC - Müsavat funksionerləri daldaya çəkiləcəkdilər. Tutulan tutulacaq, qaçan qaçacaq, siyasi mövqeyini yüz səksən dərəcə dəyişən dəyişəcək və müxalifətdə baş girləyənlər solğun fiqura çevriləcəkdilər. Siyasət aləmindən birdəfəlik üz döndərib gedənlər də olacaqdı.

Əsərin sonuna yaxın bir məzəli əhvalat da danışım: "Heydər Əliyev Naxçıvandan Bakıya qayıdan gün sənət dostları son illərdə xalq hərəkatının, Elçibəy hakimiyyətinin təbliğatçısına çevrilən aktyor Mikayıl Mirzədən soruşurlar: "Heydər Əliyev gəldi, yenə Elçibəyi təbliğ edəcəksən?"

Mikayıl Mirzə səhnədə etüd göstərirmiş kimi sinəsini qabağa verərək guruldayır: “Biz aktyoruq! Maskanın birini çıxardıb, – sol əli ilə sanki üzündən maskanı götürür, – o birini taxacağıq! – və guya sağ əli ilə onun yerinə başqasını taxır”.

Arxalı Ermənistan ordusu Azərbaycandakı qarışıqlıqdan istifadə edərək Ağdam və Füzulinin böyük hissələrini, Qubadlı, Cəbrayıl, Zəngilan rayonlarını işğal etsə də, Heydər Əliyevi yerindən tərpədə bilməyəcəkdilər.

Heydər Əliyevin təkidli mübarizəsi və Rusiyanın təşəbbüsü ilə atəşkəs müqaviləsi bağlanacaq.

Bakı neftinə göz dikən beynəlxalq neft şirkətlərilə də dil tapılacaq. “Əsrin müqaviləsi” bağlandıqdan sonra Heydər Əliyevin Azərbaycanın problemlərilə bağlı daxildə, xaricdə diplomatik görüşləri başlanacaq və davam edəcəkdi.

Üç il sonra Moskvada “Огонёк” jurnalının müxbiri Prezident Heydər Əliyevdən soruşacaqdı:

“Cənab Prezident! Siz Azərbaycanda hakimiyyətə gələndə müharibə aparan, iqtisadiyyatı dağılmış, separatçılığın hökm sürdüyü, Rusiya ilə əslində düşmənçilik münasibətləri olan bir respublika qəbul etmişdiniz. İndi bu problemlər ya həll edilmişdir, ya da əvvəlki kimi böhranlı vəziyyətdə deyildir. Xahiş edirəm, buna necə nail olmağın siyasi yolları barədə fikirlərinizi bölüşün!

Heydər Əliyev belə cavab verəcəkdi:

“Hesab edirəm ki, birinci səbəb xalqın etimadıdır. O etimad ki, məni gözdən salmaq üçün bir çox illər edilən cəhdlərə baxmayaraq, xalq onu mənə göstərdi. Məlum oldu ki, bir qisim adam öz şəxsi hikkələrinə görə mənə mənfi münasibət bəsləyirmiş. Yəni öz əməyimlə, öz işimlə və insanlara qarşı münasibətimlə qazana bildiyim həmin etimad qısa müddətdə respublikanı böhrandan çıxara bilməyimin əsası olmuşdur.

İkinci səbəb isə, şübhəsiz ki, təcrübədir. Kim deyirsə ki, küçədən gələn hər kəs dövləti idarə edə bilər, yanılır. Vaxtilə müttəfiq respublikanı, indi isə müstəqil ölkəni idarə etməyim bir çox cəhətdən oxşar şeylərdir. Ona görə də uzun həyatım boyu həm Azərbaycanda,

həm də Moskvada Sovetlər İttifaqının rəhbərlərindən biri olduğum vaxtlarda topladığım təcrübə çox böyük məktəb idi.

Daha bir amil də var. Mən bunu müxtəlif ölkələrdə olanda hiss edirəm: vaxtilə görüşdüyüm, danışıqlar apardığım adamlar məni xatırlayırlar. Bəziləri isə məlumat kitablarından oxuyurlar ki, Əliyev Siyasi Büronun üzvü, SSRİ-nin rəhbərlərindən olubdur. Açıq deyirəm, Sovet İttifaqı ilə əks ideoloji cəbhədə olan ölkələr fövqəldövlət haqqında indi də rəylərini dəyişməyiblər. İnsanlar arasındakı dostluq dövlət parçalandıqdan sonra da davam edir. Ona görə də mənə hər yerdə nəzərə çarpdırılan ehtiramla qarşılaşıram. Məsələn, Rusiya ilə münasibətləri bərpa etmək məndən ötrü heç bir çətinlik törətmədi. O vaxtlar Sovetlər İttifaqında çalışan adamların tam əksəriyyəti bugünkü Rusiyada müxtəlif vəzifələrdə işləyirlər, onlarla indi də əlaqələrim var”.

Başqası soruşacaqdı: “Sizi sərt, bəziləri isə avtoritar siyasətçi adlandırırlar. Əgər belə qiymətlə razısınızsa, onda öz üslubunuzu nə ilə izah edirsiniz – siyasi vəziyyətlə, milli mentalitetlə, Şərq xüsusiyyətləri ilə?”

Heydər Əliyev deyəcəkdi: “Məni nahaq yerə sərt lider hesab edirlər. Mən belə qiymətlə razı deyiləm. Sərtlik, yumşaqlıq – bunlar subyektiv anlayışlardır. Siyasətçi ya prinsipial, ya da liberal ola bilər. Siyasətçi prinsipial mövqe tutarsa və onu ardıcıl surətdə həyata keçirərsə, – bu sərt deyil, qəti mövqedir. Liberal siyasətçi isə belə hesab edir ki, hər şey rəvandır – belə də etmək olar, elə də – bu halda belə mövqe yayğın, cəmiyyət üçün anlaşılmaz olur.

O ki qaldı mənə, təkrar edirəm, mən “sərt lider” qiymətilə razı deyiləm. Əksinə, özümü mövqeyini dürüst müəyyənləşdirmiş, onu qorumağı və öz qərarlarını qətiyyətlə həyata keçirməyi bacaran şəxs sayıram.

Rəhbər xarakterimin, iş üslubumun xüsusiyyətləri Şərq mentaliteti ilə əsla bağlı deyildir. Əlbəttə, öz millətimə mənsubam, xarakterimdə milli xüsusiyyətlər çoxdur, bununla fəxr edirəm. Lakin böyük siyasət onunla məşğul olmağı qərara almış hər bir kəsdən müvafiq mentalitet tələb edir!”

Heydər Əliyev inamla hakimiyyətə sahiblik edirdi və atdığı hər addımda qətiyyət göstərirdi, vəziyyətdən çıxmaq üçün gecə yarısına qədər iş başında olurdu, aparıcı dövlətlərin siyasi xadimlərilə danışıqlar aparırdı, dağılmaqda olan ölkəni nizama salırdı, cinayətkarları cəzalandırırdı, ordu qururdu, köçkünləri yerləşdirirdi, hər cür qıtlıqdan əziyyət çəkən əhalinin qayğısı hayında idi.

Prezident Aparatında bizimlə iş otağı yanaşı olan Xarici siyasət məsələləri üzrə müşavir Vəfa Quluzadə qürurla Heydər Əliyevdən danışırdı: "Dünən Prezident Ermənistanın təcavüzünün qarşısını almaq üçün Rusiya hökumətinin xüsusi səfiri Vladimir Kazimirovu qəbul edirdi. Səfirin ermənipərəst mövqeyini, atəşkəs üçün ağır şərtlər irəli sürdüyünü görüb, yumruğunu stola necə çırpdısa, qarşısındakı çay stəkanı aşdı, çay dağıldı. O, qəzəblə dedi:

– Elə bilirsiniz ki, Azərbaycan həmişə belə ağır vəziyyətdə qalacaq? Səhv edirsiniz!"

Yenə Prezident Aparatının qəbul otaqlarında kömək umanların, şikayətçilərin, qaçqın və köçkünlərin əlindən tərpənmək olmurdu. Gələnlərin hamısı Heydər Əliyevə pənah gətirirdi, istəyirdilər illərlə yaranmış problemlər ən qısa müddətdə ortadan götürülsün. Bir nəfər, yeni hakimiyyətə nifrətini gizlədə bilməyib, Ağdam köçkünlərinə dedi: "Çox "Heydər Əliyev, Heydər Əliyev" deyirdiniz. Hə, Heydər Əliyev gəldi, neynədi, ermənilərin qabağında dura bildi? Gör, neçə rayonumuz getdi".

Mühafizə polisləri dərhal onu uzaqlaşdırdı.

Bazar günü birdən ağlıma gəldi ki, gedib Balaşın mənzilinə baş çəkim. Çünki şəhərə doluşan köçkünlərin boş evləri zəbt etdikləri xəbəri yayılmışdı. Dostumun mənzilinin açarını stolumun siyirməsindən götürüb, Yasamala getdim. Açar qapıya düşmədi. Qapını döyüncə, içəridən qarmaqarışıq səslər gəldi. Qapı açılanda qarşımda iki kişi gördüm. Görkəmlərindən qaçqın-köçkün olduqları aydın bilinirdi. Onlara bu mənzilin Moskvada yaşayan dostumun olduğunu deyincə, kişilərdən biri məni qovmaq üçün qəzəblə üstümə şığıdı. Yaxşı ki, o biri kişi onun qabağını kəsdi, yoxsa atılan yumruq məni tutacaqdı. Onların arxasından bir qadın çımxırdı:

– Çıx get, haçan Şuşa geri alınar, xarabamıza qayıdarıq, dostun Moskvadan gəlib, mənzilinə yiyə durar!

Heç bir söz demədən üçüncü mərtəbədən aşağı endim.

Balaşla on-on iki gün qabaq telefonla danışmışdım. Soruşmuşdum ki, nooldu, gedib oğluna baş çəkdin? Demişdi ki, vəziyyətim yaxşıdır. Kitayla (*Çinlə*) işləyirəm, bir az da əlimi düzəldim, mütləq gedib oğlumu görəcəyəm. Xasiyyətimə bələdəm, mənzili barədə Balaşa heç nə deməyəcəkdim. Heç mənası da yoxdu, köçkünlər çöldə qalası deyildi ki... Qəzəblənmək əvəzinə, onları haqlı saydım. Millət yaman gündədir, Balaşın da qulpundan bir şey çıxmalıdır da...

Axşam Fərəh zəng elədi. Səsi çox üzgün idi. Dediyinə görə, telefonda zorla mənə düşmüşdü. Hospitalları Ağdamın Mahrızlı kəndinə köçürülübmüş.

– Səninlə danışa bilməsəydim, – dedi, – ürəyim partlayardı.

– Salamatsan? – quruca soruşdum.

– Mən salamatam, – onu ağlamaq tutdu, – ancaq Xanoğlan şəhid oldu.

Ümid vermək lazımdı, səsim dirildi:

– Müharibədir də, neyləmək olar?!

Telefonda səs kəsildi, yaxşı ki, Fərəhə bir kəlməlik də olsa, təsəlli ötürə bildim.

Sonralar Fərəh deyəcəkdi ki, Mahrızlı xəstəxanasında yaralıların amputasiya olunmuş qollarını, qıçlarını bir yerə yığıb, basdırırdım. Bütün səhra hospitallarının sağında-solunda belə qol-qıç qəbiristanlığı var. Lap qardaşlıq məzarlığı kimi bir şeydir.

Qarabağ cəbhəsində atəşkəs barədə Bişkek müqaviləsi bağlanandan bir həftə sonra atam qəflətən öldü. Qaraya baş çəkmək üçün səhər Beyləqana gedərkən yolda özünü yaxşı hiss etməyib evə qayıtmış, həyətdəcə oturduğu stuldan yıxılıb, canını tapşırmışdı.

Mən də, qardaşım Qara da anamız kimi atamızın da son nəfəsinə gəlib çatmamışdıq. Bəlkə də, vəsiyyəti varmış, ürəyində qaldı. Ancaq atam bir-iki arzuya sığan deyildi.

Başım yas işlərinə qarışsa da, məndən azacıq aralıda cansız bədəni evimizdə uzadılmış atamın üzü gözümün qabağından getmirdi. Həvva arvad yaxınlaşıb qulağıma pıçıldadı ki, atamın qardaşım üçün apardığı sovqat maşınının yük yerindən boşaldılmayıb.

Oğlundan yarımayan Həvva arvad az dəyişmişdi, yenə gözlərindən cin yağırdı, yəqin ki, həmişəki kimi səsi bazarı başına götürürdü.

Maşının yük yerini açanda dəfələrlə gördüyüm mənzərənin yenidən şahidi oldum. Ağzına qədər dolu yüklükdə hər şey necə də səliqə ilə kip yığılmışdı. Bu atamın əllərinin son səliqəsi idi.

Axşam üzünü saqqal basmış Qara da gəldi. Ta qədimdən bəri qaydadır: döyüşçülər qələbə çalmayınca üzlərini qırxmazlar. Anam öləndə o, məni sakitləşdirirdi, indi isə mən onu ovundurmağa çalışırdım. Gecə də, gündüz atamı dəfn edəndə də tez-tez qardaşım hönkürtü vururdu. Onun tanınmalısı qalmamışdı, çox üzgün idi. Mənimsə ürəyim elə bil daşa dönmüşdü. Yoxsa, atam təmkinini mənə bağışlayıb getmişdi?

Atamın üçü çıxan gün yasa gəlmiş Babayarın yanında Qaraya bir sirri açacaqdım.

– Qardaş, atam ölməli idi.

– Atamı öldürüblər? – Qara yerindən dik atıldı.

– Vaxtı çatmışdı.

Babayar söhbətə qarışdı:

– Sənə Xızır peyğəmbər xəbər vermişdi?

– Yox, – dilləndim – nənəm.

Qara hədəqəsindən çıxmış gözlərilə mənə baxır, yəni danış.

Babayar nənəmin adını eşidib ciddi soruşdu:

– O nə deyirdi?

– Uşaqlıqda içimə dolan xofu, atamın tezliklə öləcəyindən qorxduğumu xəlvətcə Məşədi Zeynəb nənəmə demişdim. Nənəm o zaman mənə danışmışdı ki, sən körpə olanda atan ağır xəstələnib yatağa düşmüşdü, yeməkdən-içməkdən kəsilmişdi, günü-gündən əriyirdi. Üstünə gələn həkimlərin yazdığı dərmanlar kömək etmirdi. Artıq əlimizi ondan üzmüşdük, çarpayısının üzünü qibləyə çevirmişdik.

Ananla gecələr keşiyini çəkirdik. Bir gün səhər atan üzülmüş canını dişinə tutub dikəldi, yerində oturdu. Gözlərində azacıq işıq vardı. Ölən adamın axır nəfəsdə güclənib bir anlıq özünə gəldiyini çox gördüyümdən "Balamın son nəfəsidir!" deyib, ağlamağa başladım. Anan da mənə qoşuldu.

Atan udqunub nəfəs dərə-dərə dedi: "Qorxmayın, ölməyəcəyəm! Yuxumda pirani bir kişi gəlib əlini bütün bədənimə çəkdi, mənə dedi ki, sınaqdan keçdin, sabahdan sağalıb ayağa durarsan, sənə altmış beş il ömür verilib. Ancaq qarışıqlıq vaxtı öləcəksən".

Atam yavaş-yavaş dirçəlib ayağa durub.

Həmişə Allahın ətəyindən bərk-bərk yapışan qoca nənəm bu söhbəti mənə təklikdə etmişdi. Deyirdi, Qara belə şeyləri indi başa düşməz, sən ondan böyüksən, ancaq danışdığımı özün üçün sirr kimi saxla. Elə sevinmişdim ki... Altmış beş yaş mənə çox görünmüşdü. Düzü, sonralar o söhbətə çox da inanmırdım. Hətta hərdən mənə elə gəlirdi ki, nənəm qorxumu götürmək üçün bir əhvalat uydurubmuş. Anama da xatırladıb qanını qaraltmaq istəməmişdim. Axı, atam sapsağlam idi. Anam öləndən sonra hər dəfə sınmış atamı görəndə nənəmin dedikləri yadıma düşürdü. Görürsünüz, atam vaxtında ölüb.

Yası yola verib dağıldıq. Evimiz bomboş qaldı. Cəbhədə atəşkəs Qaranın ürəyincə deyildi. Deyirdi "Biz Qarabağda bir kəndi belə verməmək üçün vuruşurduq, qan tökürdük, qanımızı axıdırdıq, indi geri çəkilib "sülh, sülh" deyirik. Özümüz xilas oluruq, torpaqlarımız yox..."

O, doğrudan da müharibə adamı olmuşdu. Atam "Ziyanın yarısından qayıtmaq yaxşıdır!" məsəlimizi dəyişib, belə deyərdi: "Ziyanın doxsan faizindən də qayıtmaq xeyrədir". Ancaq qardaşıma nəyisə izah eləmək yersizdi, döyüşçü kimi düşünürdü.

Dilim dinc durmadı, Laləni soruşdum.

– Lalə Neft Akademiyasını bitirdi. Başı ingilis dili öyrənməyə qarışıb.

– Nə fikirdəsiniz? – ikinci sualı verdim.

– Görək bu atəşkəsin axırı necə qurtaracaq? – dedi – Ancaq...

– Nə ancaq?

– Qardaş, halım yaxşı deyil. Laləni özümə qurban etmək istəmirəm. O, məni başa düşər.

– Bu, nə deməkdir?

– Həkimlər məni aldadıblar. Axır vaxtlar tez-tez ürəyim dəhşətli şəkildə bulanır, başım gicəllənir, gözlərimə qaranlıq çökür, bədənim süstləşir. İçimdə Çernobıl yenə baş qaldırıb. Belə uzun getmək olmaz.

Qaranın xidmət yerindən xəstəxanaya göndərilməsinin üstünə düşmək lazım idi.

O, Daxili İşlər Nazirliyinin hospitalına yerləşdiriləndə mən də yanında idim. Lalə Qaranın başının üstündə durmuşdu, çox məğrur görünürdü. Qardaşım heç nədən qorxmurdu. Uzun illərdən sonra qəfildən adını bütöv çağırdım: “Qarakişi!” Diksinmədi.

Təxminən bir ay sonra eşitdim ki, Babayarı türməyə qaytarıblar. Demə, AXC hakimiyyəti dövründə daxili işlər naziri İsgəndər Həmidovun cəbhədə vuruşmaq üçün türmədən məhkəməsiz-filansız açıb buraxdığı dustaqlardan biri (*iki il sonra məhkəmədə İsgəndər Həmidova qarşı bu ittiham da irəli sürüləcəkdi*) döyüşdə yaralanıb kontuziya aldıqdan sonra Neftçaladakı kəndinə qayıtmış, dava salaraq qonşusunu öldürüb tutulmuş və qanunsuz azadlıqda gəzən bütün keçmiş türmə yoldaşlarını hüquq-mühafizə orqanlarının yadına salmışdı. Onlardan cəbhədə vuruşub ölənlər olmuşdu, qalanlarını yenidən tutub içəri basmışdılar.

Fərəh də Bakıya qayıtmışdı. Zəngləşirdik, görüşürdük. Elə bil biri-birimizi itirməkdən qorxurduq. Həmişə düşünürdüm ki, Fərəhdə məni çəkən nədir? İndi bu sualın cavabını tapmışdım. Onun üzünün işığı gündüzün işığından artıqdı. Gecələr isə sahibi çıxıb gedəndə söndürməyi unutduğu evin lampası kimi bərq vururdu. O gün aramızda qəribə bir söhbət oldu. Fərəh dedi: “Sən də, Rahim də təxminən eyni vaxtda qismətimə çıxdınız. İkiniz də oxşar biçimdə, oxşar xasiyyətdə. Sonra da Xanoğlan peyda oldu. O da çox qayğıkeş idi. Beynimə dolub ki, onlar ölüb həyatlarını sənə bağışladılar. Bəlkə də, sən üç adamın ömrünə cavabdehsən”.

Fərəh sabaha məni qonaq çağırıb. Yadınızdadır, bir dəfə demişdi ki, sənə hansı yeməyi sevdiyini öyrədəcəyəm. Gərək qonaqlığa ac gedim ki, nə bişirsə, ləzzətlə yeyim.

Xoş bir səhər idi...

Addımladıqca, küçə boyu sağa-sola baxırdım. Bakımız köhnəlmişdi. Başımız müstəqillik qovğalarına, Qarabağ müharibəsinə, siyasi qarşıdurmalara qarışıb. Paytaxtımızda əlimizi ağdan-qaraya vurmamışıq. Azərbaycanı eninə-uzununa gəzmişdim, hər yer xərc, sığal istəyir.

Ancaq əvvəlki kimi torpağımız münbitliyini, dağlarımız müdrikliyini, çaylarımız coşğunluğunu, dənizimiz qüdrətini saxlayırdı. Mən belə görürdüm. Bəlkə də, sevgi gözlərimi tutmuşdu.

Son beş ildə ilk dəfə işdən məzuniyyət götürsəm də, hərdən işə çağırırdılar. 1988-dən bəri Azərbaycanın dövlət idarələrində heç kəs tam məzuniyyət üzü görməmişdi.

Yenə də işə gedirdim...

Artıq yazdığım romandan çıxmışdım.

***2010 – 2018***